**"Canım tər içində dalğalanıb
uzun ırmaqlara sarı axırdı!**

**Demə ki ;
bu axan tər, canım deyil,
bağrımdan coşan türkülərimin
göz yaşıydı!"**

# « SÜRGÜN UMUDLAR »
## 1, 2, 3
## ROMAN

## Güney Azrbaycan Milli Hökümətinin Çöküşündən Sonra!

### BİR SÜRGÜN ÖYKÜSÜ
### 1946-2008

**TÜRK BAYRAĞINI ÜRƏKLƏRİNDƏ ƏSDİRƏN,
ULUSUMUZA MİNLƏRCƏ
«ZEHTABİLƏR», «ELÇİBƏYLƏR», «DƏMİRÇİLƏR»
YETİŞDİRƏN
«QURD ANALARA»
SUNULUR!**

**SÜRGÜN UMUDLAR**

Yazar: Eldar Qaradağlı
Mail: e.qaradagli@gmail.com

Baş editor: Əli Urman
Redaktor: Ramizə Fərəcova
Dizayn-Düzən: Əli Urman

İkinci basım: ......

ISBN: 978-91-639-0892-7

**Ön söz yerinə!**

Sayın oxucum!
Əlinizdə bulunan bu roman, doğrudan yaşanmış və yaşanmaqda olan yenilmiş bir ulusun öyküsünün ufacıq örnəyidir. Bu roman, topluca danılmış ulu bir varlığın dumanlı çənbərəsindən geriyə qalan eşsiz bir tablu örnəyidir.
Tarix boyunca, lənətlənmiş bir bölgənin ortasında yerlşən Azərbaycan vətəni, payına düşən sami alt duyudan (zehniyyət) boyun qaçıra bilməmişdir. Bu alt duyuya görə, insana ülkü odağı gərəkməz! Çünki, insanın gərəkən yaşam ülküsü, görünməz alın yazısı kimi öncədən biçimlənmişdir! Bu üzdən, insanın biçimlənmiş alınyazısı, insan ötəsi bir dəyişməzlikdir. Biz, istəsək də, istəməsək də, bu sami anlayışına bulaşmış bölgəsəl insanlarıq! Bu bölgənin ülkü yoxsunluğu ilə yanaşı, həm də çox zəngin torpaqları vardır. Bu isə, bilib-biləni sömürgəçi batı dövlətlərinin tükənməz ehtrasının daha da böyüməsinə nədən olmaqdadır.

Bölgə insanı heç bir dəyərə malik olmazkən, onun yeraltı-yerüstü zəngin torpaqları sömürgəçi güclərin göz bəbəginə çevrilmişdir. Bu üzdən, yerli insan düşünün geri saxlanılması, batı üçün təhdid yox, tərsinə böyük qazanc sayılır. Bundan ötürü, bölgə insanını qaranlıqda saxlamağa çalışan batı sömürgəçiliyinin bitməz

duzaqları gecə-gündüz iş başındadır. Aydınlıq, özgürlük və bağımsızlığa qarşı süslənmiş saysız pusquların bütün boyıtları yaşadığımız torpaqlarda uyğulanmaqdadır.

Sözsüz ki, sömürgə stratejisinin ilk amacı, sömürülən torpaqlardakı insanların qafa qarışıqlıqıdır. Bu stratejinin olqulanması ilə assimilasiya və elinasiya sürəcinin uğur qazanması qaçırılmaz olur. Çünki, bu aşamadan sonra, bilinən toplumun bir araya gəlməsi olduqca çətin və əngəlli olur. Belə olunca, hədəf tüşü olmuş toplumun milli inancı ən ufaq dış basqılar sarından sarsıntıya uğrarkən kimlik böhranı cizgisi yaranar. Bu isə, bir toplumun ulusal ülküsünün sıradan çıxmasının göstərgəsidir.

Azərbaycan türklüyü uzun zamandan bəri belə bir dağınıq düşüncə içində qıvrılıb qalmaqdadır. Dumanlaşmış milli qafanın adı nə olursa olsun, sonucu ulusal yenilgidir. İslam ümmətçiliyi, fars şiəçiliyi, İran türklüyü, Azəri dili və milləti, bölgəçi və yerliçilik kimi millət altı, millət üstü pusquların türk kimliyinə qarşı yan-yana düzülməsinin təkcə amacı sömürgəçilikdir!

"Azərbaycan Türk Milləti"nin qafa qarışıqlığındakı London və Moskova rolları da unudulmamalıdır. Biri uzaqdan, biri isə qulağımızın dibində çeşidli kor alanlarımızı genişləndirməyə çalışırlar. Tarix boyu, bu iki dövltin türklərə qarşı xoşgörüsü olmamışdır.

Özəlliklə ingiltərənin Azərbaycan türklərinin şiə çalarından yararlanması geniş inaq və xurafat açılımına nədən olmuşdur. İnaq və xurafat, başlı-başına büyük ulusal uğursuzluqdur!

Sözsüz ki, türklərin farslara inanmasının kökündə də şiə inancının önəmli yeri vardır. İran adlanan yerdə yaşayan Azərbaycan türklərinin farslarla eyni inancda olmasının ən ağır darbası türk ülküsünədir. Məzhəb görüntüsü üzündən İran adlanan yerdə yaşayan Azərbaycan türklərinin şiə məzhəbinə bağlanması ilə panfarsızm ideyasının türklərə qarşı qullanılması ap-aydın gözüşür.
Bu stratejiyə görə, iran adlanan dövlət sınırlarında yaşayan Azərbaycan türklərinin, türk dünyasından qoparaq iran şiə türklüyünə vəya şiə Azəri qondarmalığına sürüklənməsi qolaylaşır. Göründüyü kimi, məzhəbsəl qafa qarışımının qarşısında, ulusal kimliyin direniş gücü dərin əngəllərə uğrayır. Çünki, siyasiləşmiş şiə üçün kütlənin dünyəvi ülküsü deyil, dünya ötəsi inaqlı və xurafatçı inancı gərəkir.

Tarix sürəcində, çeşidli yöntəmlər üzündən türklərin milli iradəsi sərt sarsıntılar yaşasa da, ayaqda durmağı bacarmışdır. Çində uyğurlar, Orta Asiyada rus istilasına qarşı dirənən Tatar və çox saylı türk topluluqları, İraqda, Suriyada Ərəb hegomonluğunun milli əritməsinə tuş gəlmiş türkmanlar, yenə rusların gərnəşmə stratrjisinə uğramış Quzey Azərbaycan türkləri örnək veriləcək milli

dirənişlərin yeniş-yoxuşlu tablosudur. Ancaq, Güney Azərbaycanın durumu bunların hamısının üstündədir. Belə ki, burada çoxunluq olaraq azınlıq siyasəti altında əzilən bir gərçəklik vardır. Açıqcası, biz Güneydə iraniləşmə və farslaşma projəsinə yenik düşmüşük. Qıssa sözlə, şiə zehniyətli ümmətçilik ilə irançılıq və farsçılıq eşləşərək, tam bir antitürk və antiazrbaycan rasist ideolojik sentezi olaraq kül edici volkan kimi, üzərimizə ağnamaqdadır.

Ümmətçilik, üzdə soykökün, dilin, ulusun, torpağın, milli kimliyin, ulusal ülkünün ötəsindən olan ilahi inanc kimi gözüşsə də, gərçək kimliyi ilə bir qatı şiə-farsçı məzhəbsəl dövlət ideolojisinin özül daşıdır.
Azərbaycan vətəni, şiəçiliyin ümmətçi qafasına tutulan düşünsəl və fiziksəl bir əsir toplum örnəyidir.
Azərbaycan türk ülküsünün iflic duruma düşməsinin çoxlu nədənlərindən sadəcə birini sizinlə paylaşdım. Önümüzdə duran bir çox örnəyin psixolojik tərəfinə gəlincə, toplumu irəliyə sürəcək olan aydınların rolunu görməməzlikdən gəlmək olmaz. Güney Azərbaycan bu yöndə olumsuz tablo sərgiləyənlər sırasındadır. Çaş-baş qalmış aydın kəsimin yolbaylığı quyunun dibidir!

Azərbaycan Milli Hakimitinin siyasal iqtidarı olan Azərbaycan Demokrat Firqəsinin acı taleyi də ulus-ölkə faktından fərqli deyil! ADF-nin içində bulunan farsçı, rusçu çalarların sonunda nə oldusa türk kimliyinin

basılmış ülküsünə oldu! Hakimiyyət dağıldı, düşmən millətimizə və vətənimizə qan qusdurdu. Ancaq, bunlardan daha önəmlisi dirəniş simgəmiz olan – ADF tərəfindən gizli saxlanılan, ulusal kimliyimiz – Türklüyümüz- öksüz, kimsəsiz və yetim buraxıldı! 10 minlərcə ölüm, 100 minlərcə qaçqın, gözdən uzaq düşən saysız sürgün və ulusal türk ülkünün rus dostluğuna qurban kəsilməsi, Azərbaycan türklüyünə kəsilən ən ağır fatura oldu!

Sayğılı oxucum!

Bu roman, yaxın keçmişimizin real tablosudur. gərçəklərilə, qurqularıyla Güney Azərbaycanda yaşanan böyük insanı faciənin yalnız kiçik bir görüntüsüdür.

Dil, yazı və cümlə qürülüşüna gəlincə, ən azından Azərbaycan və Türkiyə də anlaşılan öz türkcəmizin yabancı sözcüklərdən arınmış biçiminin düşüncəsindəyəm.
Romanın yazı yöntəmi, Quzey Azərbaycandakı bəzi alışqan sovetçi dilçiləri tədirgin etsə də, geniş türkçü gəncliyin bəyənməsini umuram.

Bu romanın yazılmasında məni motiv edən sürgün qurbanısı – rəhmətli Cəvanşir bəyə, vəfa borcumu dilə gətirirəm.

Habelə, sevilən milli-siyasi bir türk olaraq məni bu romanın yazmasında irəli sürən Rza Sələhşur bəyin böyük ruhu qarşısında baş əyirəm. Yenə də, uzun yaşam yolunda məni qoruyub-qollayan canım eşim Azər xanıma və mənəvi gücü ilə Güneyimizdən ürəyimə ülkü işığı saçan qocaman milli mucahid qardaşım Həsən Dəmirçi (Hərgüli) bəyə sevgilərimi bildirirəm.

Ayrıca romanın redakturu sevimli Ramizə Fərəcova xanıma və romanın edit, düzən, dizayn işlərini üstələnən Əli Urman bəyə apardığı milli davada uğurlar diləyirəm. Son olaraq kitabın ilk basımında əmək verən Akademik Center Yayım Evinə, habelə bundan sonrakı basımlarda yardımçı olacaq hüquqi, həqiqi hərkəsə minnətdar olduğumu bildirirəm.

Eldar Qaradağlı

## Ana torpaqdan qoparkən

Tutsaq günəşin qacaq saçaqları, boz buludların arxasından cansız payız isintisilə ana Azərbaycanın süngü dərbələrindən alaçığa dönmüş ürəyinə azacıq çözüm olmağa çalışsa da, etgisiz görünürdü! Təbriz, elə böyük kədərə çulğanmışdır ki, qaçaq saçaqlar deyil, günəşin alov-alov yanan sevgisi belə, onun dərin buzlaqlardan qurtuluşuna yetmirdi! Axı, əzəldən bəri bu torpaqları isindirən özgürlük türkülərinin boğazı biçilmişdir! Addım başında dar ağaclarında buza dönmüş yaşam qaranquşlarının susqun nəğmələrinin yerini qan qoxulu "Şahənşahe ma zindi bada..." kimi özgəlik marşları almışdı. Ölüm çəmbəri kimi ruhsuz canlarımızı quşatıma almış "Zindi bad Şah, zindi bad Şah"bağırtıları havada uçuşan narın buzlara zəhər saçaraq çatlaq-çatlaq olmuş yanaqlarımızı şallaqlayırdı. Süngülü tüfənglərilə satqınlarla aramızda çəpərlənmiş əsgərlərin başçılığını edən iki farsdilli çavuş, bizim də zində bad şah bağırdığımızı əmr edirdilər. İçimizdən on-onbeş ölümcül qorxunc səs çavuşların əmrini yerinə yetirməyə çalışsa da gücsüz boğazları buna yol vermirdi.

*"Xoşca qal Təbrizim, xoşca qal doğma Anam, doğma elim, obam, ulusum! Sən yağılara yağmalandın, mən isə yolların sürgününə düşdüm! Sən özgələrə qaldın, mən isə özgəliklərə sürüldüm! Səni qoyub qaçanlar məni qandallayıb yabanılara verdilər! Yenə yaralı ürəyinin çözməyi ağız açdı anam! Yenə*

*Savalanın volkanını donduranların əlinə fürsət düşdü Anam! Ey başı bəlali Anam, ağlar gözlərinlə qal salamat! Ey mənim ölməzim, ulusum, türküm, vətənim, Azərbaycanım! Bəlkə yarın, bəlkə biraz sonra qarçiçəkləri susqun dodaqlarını öpərək üzgün yaşamına gülüş gətirəcəkdir! Hələ ürək yaranla qal salamat biçilmiş ümidlərim!*"

Təbriz küçələrindən sağollaşan karvanın haralara yollanması bəlli deyildi. Doğrudan da öz gövdəsindən qopan çındırlı ac-yalavacların sonu nə olacaqmış? Kimsənin bu sorğuya verəcək yanıtı yox idi.

Bir, iki, üç, dörd, beş, altı yük maşını! Bəlkə arxadan gələnlər də olacaqmış! Ancaq burada görünən altı yük kamyonu dayanmışdır! Mən, üçüncü buğda kamyonunun küncündə qıvrılıb qalmışdım! Soyuqdan, aclıqdan, qara yazqıdan kiriyib bürüməkdə olan biz yazıqlar üçün hər kamyon başına iki silahlı əsgər qoyulmuşdur. Onlar, bizlərin farsca "yaşasın Şah" bağırmasını əmr edirdilər. Kimlikləri buğda kamyonlarında pozğuna uğramış bizlərin direniş gücü tükənmişdir!

Təbrizin Qonqabaşında, seyrimizə duran barmaq sayda çaşqın insan gözə dəyirdi. Onların da görünüşü ürək açan deyildi. Onların da axsaq yanaqlarının öyküsü bizə bənzəyirdi. Bəlkə, onların basılmış yaşamı bizdən də ağır günləri gözləyirdi.

Artıq, sürgün karvanı qaranlıq yoluna doğri irəliləyirdi. Bizdən öncəki kamazın yoğun borusundan çıxan qara tüstü yol tapacağı yerdən boğazımıza girirdi. Bir-birinin ardınca qatarlanan kamaz markalı rus kamyonlarının son durağının hara olduğunu bilmirdik. Kimsənin başqasının üzünə baxacaq halı

qalmamışdır. Sanki, hamı bir-birindən küsmüdür. Hər kəs öz içinə gömmuş durumdaydı. Başını qaldırıb bir söz soruşma cəsarətində deyildik artıq. Bir çoxumuz iradəsizcə bəlirsiz yolun hara varacağını izləyirdik.

Üçüncü buğda yükünün küncündə oturub iki taxtanın çatından hər gün keçdiyim yolları seyr edirdim. Dünya qəmindən uzaq beş-on ayaqyalın uşağın yol qırağında cırıq topla oynaması marağımı çəkirdi. Kamazlar artıq Nobar Qapısını geridə buraxaraq Təbrizin çıxışına doğru irəliləyirdilər. Bəlli olası bir azdan sonra Təbrizin ürəyindən qopan övladları qara qışın şaxta-buranına təslim olacaqlar.

Dünənin ağır qarı, Təbrizə gəlin donu geydirmişdir. Lakin, təciz gecəsinin çirkablı qan ləkələrindən utanca bürünən "Eynalı"nın yanaqları hər zamandan daha betər alaçıq görünürdü.

*"Vay ana vətən vay, bu ağ geyimin ətəyindəki çirkablı qanların öcü nə zaman alınacaq!*

*Vay, Mənim namuslu Anam!*

*Ah, gül bacımın solmuş qonça yanaqları!*

*Ah, açılmamış süd qoxulu solqun ömrüm!*

*Ah, yazqısı qızıl qanla ləkələnmiş mənim gəlin şəhərim!*

*Ah, ağır deprəm altında bezgin düşmüş ağ ləçəkli utanqac torpağım! Səni, belə cansızcasına görmək də var imiş demək! Səni, dil bilməzlərin çəmbərində belə həzin fəlakət içində duymaq da var imiş!*

*Ah mənim təcavuza uğramış namuslu Anam, ah!"*

Yol boyu, üçlü əsgər komandası bir-birindən az arayla süngülü tüfənglərilə başı yerə tikilmiş azsaylı gəlib-gedənləri izləyirdilər. Qara mazotlu tir ağaclarının başında bayraqlaşan dar ipləri qara buzlarına burunərək nazlı küləklə “vals” edirdilər. Yol boyunca çoxsaylı İran bayrağı ilə yanaşı, dar ağacları gözə çarpırdı. Bu isə, “Nicat-e Azərbaycan” anlamını çılpaqcasına görüntülürdü. Fars mollaların dediyinə görə, “Nicate Azərbaycan” yolunda asılanların yeri cəhənnəm, qalanlarının payı isə ibrət idi! Biz, ibrətçilərin ilk karvanı olsaq da, son deyildik. Demək, bu diyarda bizdən sonra da “ibrət darlar”ının çoxlu yolçusu olacaqmış! Demək, daha da isti qanlar bu dar ağaclarında donub buz olacaqmış! Hələ də bu millətə gözdağı verməyin sonu gəlməmişdir.

Ana Təbrizdən çıxmadan öncə, kamyonlar döngə bir qaracda dayandılar. Bir səsin, kamyonlardan enmə əmri olduğu duyuldu. Yanımdakılara yenməliyik deyərək, özüm də kamyondan endim. Endiyimiz yerin yaşayış bölgəsi olmadığından, bu səfərin daha da uzun sürəcəyi bəlli olurdu.

- “Be rast, rast! Be çəp-çəp! İst.”/Sağa dön! Sola dön! Önə

dön!/

12 kişilik əsgər sırası düzənli şəkildə qarşımıza çəpər bağlandı. Onların ayaq səslərindən qopan qar xışıltısı aclıqdan bağırmaqda olan mədəmi qışqırdırdı. Əsgərlərin əmrilə hərkəs olduğu yerdə bağdaşa qurdu. Qar yağışı durmadan başımıza yağırdı. Havanın sərtləşməsilə uşaq və qocaların durumu daha da ağırlaşırdı. Analar, çarəsizcə körpə balalarını susdurmağa çalışırdılar. Bizim kamyondan olan bir gənc ananın qucağındakı körpə durmadan

ağlayırdı. Gənc ana isə, körpəsini susdura bilmədiği üçün özü də onunla birgə ağlayırdı. Karvanın baş amiri orta boylu, orta yaşlı bir çavuş idi. O, sadəcə ailə içi danışıqlara izin verirdi. Onun əmrinə görə, ailə dışında söhbət yasaq idi. Bu üzdən, qocaların ah-vayı ilə körpələrin ağlar səsindən başqa kimsədən səs çıxmayırdı. Əslində, kimsənin də başqasına diyəcək bir sözü yox idi. Ortada sadəcə hamıya bəlli olan ortaq bir yol və ortaq bir qaraltı görünürdü. Açıqcası, bir qurbanlığa sürüklənirdik. Təbrizin canyaxan şaxtası, kədərli dam-duvarı, düşmən təcavüzünə uğramış daşı-torpağı başımıza gələcək bir çox acı olayları bizə anladırdı.

Baş çavuş "Fərəc Bayramı" – Sərkar Üstuvar!

Bizim bütün yaşamımızı əllərində tutan şəxs! O, orta boylu, qalın bığlı, qarnı azacıq yuvarlaq, 40-45 yaşları arasında qaraqabaq birisi idi. Bu ana qədər onun danışmasını görməmişdik. O, sadəcə uzaqdan bizi izləyirdi. İki çavuşla birlikdə oturduğu CİP/CEEP markalı maşından enmirdi. Mən, onu Qonqabaşında olanda görmüşdüm. Onunla olan bir başqa çavuşun susqunluğu marağımı çəkirdi.

Hər altı kamyon və iki cip maşınının dayanması ilə 20-ə yaxın əsgərin, 3 çavuşun bir də başçavuşun 60 nəfərlik bayılmaqda olan sürgün dəstəsini qoruması bəlli oldu! Başçavuş Bayramı başqa çavuşlarla danışandan sonra bizə tərəf gəldi. Çavuşlar da onun arxasında durdular. Başçavuş, bizə yaxınlaşan zaman, əsgərlərin bir anda gələn-gedən çəkməsi hamımızı qorxutdu. Bu üzdən, aramızda olan yaşlı bir qadın yıxılaraq yerə sərələndi. Gənc bir oğlan özünü yaşlı qadına çatdırdı:

- Ana, anacan! Sənə nə oldu? Qalx ayağa! Qorxma! Bax, bir şey yoxdu!

Yazıq qoca qadından səs çıxmadı. Çavuşların biri bayılmış qadına yaxınlaşdı. Onun əlini tutub, nəbzinə baxdı. Başçavuşa baxaraq başını tərpətdi:

- Qurban, qurtarıb! Qadının bağrı çatlamış!

Əsgərlər bizi bayğın ananın çevrəsindən uzaqlaşdıraraq yolu başçavuşa açdılar. Başçavuşun əlləri titrəyirdi. Gözləri dolmuşdur. Nə edəcəyinə qərar verə bilmirdi. Donub qalmışdı. Onun üzü büzüşmuş, baş-gözündən matəm yağırdı. O, hayatında ölü görməmiş kimi görünürdü. Bu da, hər kəsin marağını çəkirdi. Niyə ki, keçmiş iki-üç həftə içində Təbrizin 7 yaşından 70 yaşınadək olan əhalisi on minlərcə ölü görmüşdü. İstər dardan asılanlar, istər millətin gözü önündə qurşuna düzülənlər, ayrıca da damlardan evlərə düşən xain satqınların əlilə ailənin gözü önündə vəhşi təcavüzə uğramış qız-gəlinlərin məsum cəsədini görməyən qalmamışdır. Mən, başçavuşun göz yaşlarının axmasından bir şey anlaya bilmədim. Sanki, başçavuş bizim dünyamızda yaşamamışdır! O, əllərini anasının cansız başını qucaqlayan oğlanın çiyninə quyub, onu sakinləşdirməyə çalışırdı. Oğul isə, başçavuşun hərəkətlərini hiss etmədən, anasının cansız cəsədini qoxlayaraq ağlayırdı. Başçavuş, əsgərlərə oğlanı qaldırmağı əmr etdi:

- Pesər ra boləndeş konid!/Oğlanı qaldırın!/
- Birinci əsgər: Bolənd şo!/qalx!/
- İkinci əsgər: zud bolənd şo!/tez qalx!/

Oğlan ağlaya-ağlaya ayağa qalxdı.

- Başçavuş: "İnna lillah və İnna Əleyhim raceun." /"Hamımız Allahdanıq və ona dönəcəyik"/.

Artıq gələn-gedənlər də, bizim kimi susmuşdu. Birazdan hər şey yenindən başlayacaqdı. Hər şey qaldığı yerdən davam etməli idi. Sadə bir olay baş verib, bitmişdi! Ananın cansız cəsədini bir pətu arasına bükərək oğluyla birlikdə ana Təbrizə geri çevirdilər.

Sərtliyi, danışması və davranışları ilə başqa çavuşlardan fərqlənən ikinci çavuş "İslam Əcəmi" bizə sarı gələrək, qəliz farsca ilə danışmağa başladı:

- Hər kəsin çölə çıxması varsa burda eləsin! Yolda saxlamaq yox! Duvar dalında ayaq yoluna çıxın! Özünüzü kağızla təmizləyin. Burada su yoxdur! Zamanımız azdır! Tez olun! Öncə qadınlar, uşaqlar, sonra kişilər!

Atılmışların bir çoxu "çavuş Əcəmi"nin nə dediyini başa düşmədilər. Hətta mən belə, onun yeyin-yeyin danışmasını zorla başa düşürdüm.

Atamın, əmimin və böyük qardaşımın dardan asılmasından 2-3 gün sonra məni, anamı və kiçik bacımı evdən alaraq toplu ordugahda yerləşdirdilər. O gündən bu günə, iyirmi gün idi ki biz bu ağır günləri yalnız bir kasa su şorbası və ovuc boyda qara çörəklə keçinirdik! Təbi ki, mənimlə bir neçə yaşıdım bu şorbanın bədəlini ağır işğəncə və cinsəl təcizlə ödəyirdik! Son yediyimiz qara çörək dünən axşamçağı idi. Yəni düz iyirmi saat öncə. Başqa yandan isə, əsgərlərin divarın önündə topladıqları türk dilində kitablarla, firqənin mərkəzi orqanı olan

"Azərbaycan" qəzetinin su yerinə işlədilməyə buraxılması da işəməyi hər kəsə həram edirdi. Bu üzdən, çavuşun verdiyi ayaqyolu əmri kimsəni ilgiləndirmirdi. Lakin o, ilgilənmədiyimizin səbəbini bilər-bilməz, hər kəsin zorla tualet yapmasını istəyirdi. O, dayanmadan ağzına gələn söyüşləri söyürdü:

- Pedərsəga məge nə goftəm paşin cəhənnəm şin be mostarah! /İtbalaları sizə demədim ki, durun cəhənnəm olun ayaq yoluna!/.

Ən son "Gələn-gedən" olayından sonra hamının əl-qolu titrəyirdi. Sanki, bütün dünya faciələri bir araya toplaşaraq üzərimizə ağnayırdı. Kimsənin üzündə ən azaciq belə, yaşam izi görünmürdü. Hamımız - diri ölülər idik! Baxmayaraq ki, ayaqyoluna çıxacaq heç bir ehtiyac duymurdum. Lakin, ayağa qalxıb, ayaqdan düşmüş anamın divar arxasına getməsinə yardımçı olmaq istədim.

- Oğlum ayaq yoluna gərəyim yox.
- Olsun anacan, gedin divar dalına dönün. Bunların əlinə bəhanə verməməliyik.

Anamla ayaqda duracaq gücü qalmayan xəstə bacım, başqa qadınlarla birlikdə divar arxasının yolunu tutdular. Qadınlardan sonra kişilərin sırası çatdı! Çavuş Əcəmi əlini belinə qoyaraq gələn-gedənləri izləyirdi. Başçavuş Bayramı özündən az rütbəli çavuşun söyüşlərinə qarşılıq vermədən cip maşınının yanında duraraq susqun-susqun gedişatı izləyirdi.

Artıq hər kəs kamyonlardaki yerlərində oturmuşlar. Bacımın susqun gözlərindən ayrıla bilmirdim. Gözlərimin bu "canlı cənazə"ni qaldırmağa gücü qalmamışdır. Anam, ağlar gözlərilə bacımın pətuya bürünmüş çiyinlərini sığarlayırdı. Bu anamın balasına verəbiləcəyi ən son varlığı sayılırdı:

- Ay gözəl balam, biraz daha döz. Allah yuxarıdan bizi izləyir. Allah böyükdür. Balamı ona tapşırmışam. Ah, Allahım sən özün bizi bu zülümdən qurtar! Balam, qızım, gözəlim biraz da dayan. Bu yaxınlarda çörək verərlər, isti çay verərlər. Dayan balam dayan!

Anam açıqcasına sayıqlayırdı. Nə dediyini özü də bilmirdi. Ansızın yalvarışlarının anlamsızlığını yalnız özü kimi analar başa düşə bilərdi! O, bu dünyada sona qalan iki balasının özündən tez ölməsini istəmirdi. Buna görə, durmadan balasını sığarlayır, onun başına gələnləri özünə diləyirdi:

- *Şən gülüm baxma belə,*

  *üzümə şaxma belə,*

  *sən yaşa, qoy mən ölüm,*

  *bağrımı yaxma belə!*

Kamyon hər ayaqda bizi qaldıraraq yenidən yerimizə çırpırdı. Hərkəs istəmədən yanında oturanın qucağına düşür, yerinə dönmədən yenə həmən səhnə təkrar olurdu. Maşının sürəti çoxaldıqca bizim də oynağan durumumuzun şiddəti artırdı. Anam bu durumda da bayatılarına davam edirdi. Anamın belə

aşura bazarda bayatılarından vaz keçməməsi məni heyran etmişdi. Düşünürdüm ki:

*"Nədən mənim diyarımda qarma-qarışıq səsləri bəyənənlərin sayı azdır? Nədən, Çaykovskinin ruhunu mənimsəyən bir millət deyilik biz? Çünki, bizdə ney varkən, bayatı varkən, içimizdə ağlamaq üçün başqa havalara ehtiyac qalmamışdır! Çünki, bizim torpaqlarda zamanın nəfəsi bağrımızın başında vurur. Çünki, bizim anaların içindəki hayqırtı dünyanın toplu səslərinin ötəsindədir!"*

**"Şibli" övladlarına keçid vermək istəmir!**

Təbriz Bostanava yolunda dağ kimi göyə yüksələn "Şibli Gədiyi", gələnəksəl olaraq üzərindəki bütün maşınlara xanlıq göstərirdi. Hələ, qar buzlarına çulğalanmış bu Şibliyə gəlincə, durum daha da ağırlaşırdı. Gözə görünən iki yük maşını yolun qırağında nəfəsdən düşərək dayanmışdır. Qıvrım-qıvrım ilanlaşan gədik, üzərindəki insanları ölüm yarışıyla sınayırdı. İnsan, Şiblidə özünü daha da Tanrıya yaxın duyurdu. Burada yüzlər metrə yerdən ayaq üzmüş şaxta-boran içində keyimiş insandan başqa hər hansı canlı bulunamaz kimi görünürdü. Qorxulu, ölümcül, qapqara qasırğalı dalan qarşımızı almışdı. Qorxudan üşüməyi belə, unutmuşduq! Sadəcə sızıltı səsi! Hamının ortaq dilinə çevrilmişdir. Burada biz türklər ilə dilbilməz əsgərlərin arasında dil fərqi qalmamışdır. Uşaqların ağlar səsini, qocaların ah-vayını, anaların isə uşaqlarına quru

sözlərini bir-birindən ayırmaq olmurdu. Maşınlar bəzən 20, bir çox halda isə 10 sürəklə ilanlaşmış Şibliyə dırmanırdılar. Motorların tırıltısı, maşınların acınacaqlı durumunun tərcümanı idi. Artıq Kamyonların soluqu kəsilmişdi. Maşınlar getdikləri 10 sürəkdən belə, düşərək dayanmaq zorunda qaldılar. Təbrizdən başlayan qar yağışının Şiblidəki şiddəti yüz qat olmuşdur. Sanki, buzlaşmış qar qurşunlarının amacı bizi öldürməkidi. Atalar dediyi *"Tanrı vurarsa, tam vurar"* gərçəyi burada çılpaqca özünü göstərirdi. Maşınların Şibli boğazından keçməsi üçün yüngül olması gərəkirdi. Bu isə, daha böyük fəlakətin olacağının işarətidi. Kamyonların hamısı dayanmışdır. Təbrizdən çıxarkən məni maraqlandıran Kamyonların sayı daha rahatca görünürdü. İki CEEP markalı kiçik maşın, bir əsgər daşıyan ordu kamyonu, altı yük daşıyan KAMAZ markalı maşın sürgün yolumuzun aracları sayılırdı. Bir zamanlar bu kamazların üstündə azadlıq Fədailərinin oxuduğu *"Yaşa, yaşa Azərbaycan"* marşı millətin nəcib arzularını oxşayırdı. Millət isə, öz balalarına səs verərək ölkəyə gələn yaşam baharını alqışlayırdı. Qəribə günləridi... Yaşam umudu ölkəmizin dam-daşından ağnayırdı. Gözlərdən sevinc işığı bir an azalmırdı. Türklüyümüz türkülərimizin, mahnılarımızın ruhunda təcəlli edirdi. Bəzən də olurdu ki, kamyonlarla şəhərə çıxan əsgərlərin rusca marşlarına qonaq olurduq. Rus əsgərlər, qızlara da göz-qaş atmaqdan qalmıırdılar. Bu isə, millət üçün xoşa qəlməz bir alışqanlığa çevrilməkdeydi. Milli hakimiyyət dönəmində, bu durum biraz dəyişsə də, tam aradan getməmişdir. Firqə hakimiyyətindən sonra, Təbrizin küçələrində daha çox Fədai qrupları gözə çarpırdı. Rus soldatlarının tərsinə türk əsgərlərin millət içində doğmalığı

gözdən qaçınmırdı. Fədailərin genilə millətin geni birə-bir eyn idi. Onlar millətlə gülür, onlarla ağlayırdılar. Fədailər, çox başı aşağı və utanğac idilər. Onlar, soldatlar kimi yekəpər və tipik deyildilər. Rus soldatlarının kamyonlar üstündəki heybətli birlikləriIə cana qorxu salan marşları, Fədai dəstələrində görünmürdü. Biz, onların nə oxuduqlarını başa düşməsək də, zaman-zaman xoşumuza gəldiyini gizliyə bilmirdik. Mən, ilk başdan rus soldatlarının Təbrizin keçitlərindən keçməsini izləməyə can atardım. Dünya savaşının başlanmasıyla Təbrizi tutan rusların san keçidinin vurğunu olmuşdum. O zamanlar bir neçə yaşıtımla birgə, soldatların düzənli geyimini, düz biçimli yürüşünü görmək üçün hər səhər keçid yollarınına çıxırdıq. Rusların Təbrizə gəlişində 18 yaşım var idi. Sonralar Fədailərin də, rus kamyonlarında oturduğunu görüncə, arada böyük bir fərqin olduğundan çox rahatsız olurdum. Doğrusu, fədailərin görünən qiyafətləri, geyimləri və kiçik bədənləri ruslarla bir ölçüdə deyildir. Ancaq rus soldatlarından fərqli olaraq fədailərin üzündə görünən sevinc, doğma gülüş qat-qat yabancı əsgərlərdən üstün idi. İndi o günləri, yuxumda belə görə bilmirəm! Keşkə, o günlər olmasaydı! Keşkə, 12 aylıq özgür, bağımsız həyat yaşamasaydıq! Keşkə, biraz dayanıb hakimiyyət quracaq güçünü əldə etmiş olsaydıq! Keşkə, rus qardaşlığına inanmasaydıq! Keşkə, keçmiş keçmişdə qalsaydı barı! Ancaq, görünən keçmişin faturəsini ödəcəyimiz var hələlik. O günlərin sevinc bədəlini günümüzün dəhşətilə ödəməliyik! Arxamızca ağlayan qalmamışdır. Gücümüzün tükəniş nöqtəsinə varmışdıq. Artıq bundan çox yük qaldıracaq gücümüz qalmamışdır. Daha qurban olacaq Kazım, Atam, Həsən, Əli, İlyas, Mehdi, Bayram,

Gülnaz, Məlihə, Səkinə, Mahpara, əmicanım, qardaşım qalmamış! Artıq on minlərcə yaşlı-cavan, qadın-kişi şəhid verəcək gücümüz qalmamışdır. Onlar qurşunla, dar ağacıyla vəya intiqam baltasıyla vətənə torpaq oldular. Vətən Sağolsun! Keşkə "vətən sağolsun"un arxasında dərin milli inam və düşmənə qarşı dirənc gücümüz də olsaydı. Keşkə "Ayı dayı"nın ideolojik düyününə və imperialist tuzağına düşmədən öncə türklüyümüzün gücünü dərk etmiş olsaydılar öndə gedən böyüklərimiz!

Kamyonlar yüngül olsun deyə, hərkəsin Şibli gədiyini ayaqda keçməsi gərəkirdi! Şibli küləyi dəli qasırğa kimi yoldan keçəni bicərək içinə çəkirdi. Üzərimizə çökən qara buludlar, ap-aydın gündüzü qaraya bürümüşdür. Hər kəs küləyin şiddətindən dərəyə tullanacağından qorxurdu. Elə buna görə, *"əşhədu ən la ilahə illəllah!"*səsi durmadan külək nəriltisi arasından ucalırdı. Hamının bir-birinin əlini tutmasıyla uzun bir zəncir oluşmuşdu. Mən, anamın əlini, anam isə bacımın əlini tutaraq yürüməyə çalışırdıq. Bacımın necə ağrı çəkdiğindən xəbərim olmasa da, gözümüzün önündə əriməsini görürdüm. Onun gözlərinin solğunluğu hər keçən an dərinləşirdi. O, hərkəsin ağlamasını, ah-vay edib yalvarmasını önəmsəmədən qaranlığa sarı addımlayırdı. O, səssiz, duyumsuz, ruhsuz bir heykəl kimi bəlirsiz nöqtəyə odaxlanırdı. Belə qorxunc anlarda, cansız bacımı hamıdan güclü, inadlı görürdüm! Elə bil ki, boran, aclıq, buz kimi şaxta onun üçün keçərsizidi. Sanki, bu yolun sonu onun əlilə yazılmışdı. Mənim gözəl və səssiz bacım yalnız baxırdı. Hara baxması isə bəlli deyildi! Mənim biricik bacım!

Durmadan arxa-arxasına üzərimizə ağnayan çarpıcı buz küləyinin uğultusu olan-qalan dirəncimizi də sarsıdırdı. Kamyonların yüngülləşməsilə gədikdən keçid də asanlaşmışdı. Bu isə bizim üçün təkcə təsəlli sayılırdı. Əsgərlərin qocalara və uşaqlara yardım ilə kamyonlara sarı yürüşümüz yeyinləmişdi. Başçavuş Bayramının bu can bazarındaki çabaları kimsənin gözündən qaçınmırdı. O, Şibliyə yenilmək istəmirdi. Bu üzdən, ağır keçid sürəcində durmadan qışqır-bağır salmaqla hər kəsi ayaqda saxlamağa çalışırdı. O, bu faciəvi gecədə gerçək bir insan kimi əlindən gələni əsirgəmirdi. Ancaq bütün bu özverilərə baxmayaraq o da, fars rejiminin bir silahlı məmuru kimi on minlərcə milli şəhidimizin qatili, milyonlarca insanımızın özgürlüyündən, yaşam iradəsindən uzaq düşməsinin suçlusudur. O, göz görə-görə dardan asılan qardaşımın, qurşuna düzülən atamın qatillərindən biri idi. Belə olmasaydı, nədən indi düşmən paltarındadır?

Şiblinin yoxuşunu keçən hər kəs öz kamyonlarında yerləşmişdir. Əsgərlər hər kəsə bir çovdar çörəyinin dörddə birilə bir dilim pendir payladılar. Hər kamyona isə bir su ilə dolu küzə, bir də boş bardaq buraxdılar. Şiblinin yenişində havanın daha ılıq olduğu duyulurdu. Kamyonların yenişilə uğultu səsləri də azalırdı. Kamyonda sadəcə yemək səsi hakim idi. Hər kəs dinib-sinmədən tam gücü ilə ac qarınını doyurmaqla məşğul idi. Bu arada cansız bacımın tam səssizliyi anamla məni daha tədirgin edirdi. O, artıq heç nə yemək istəmirdi!

Şiblinin bir gecəlik ölümcül şakasından sonra ölüm vayının azalması çox sevindirici idi. 10-15 saatlıq fırtana, aclıq, Şibli

cəhənnəmindən sonra diri qalmağımız bir mövcüzə idi. Belə bir zaman içində ölümlə sovdalaşan cansız, umidsiz bir əsir dəstəsinin diri qalması, doğrudan da bir möcüzə sayılırdı. Gecə qaranlığına sadəcə sızıltılı səslər qarşılıq verirdi. Komyonda kimin yatmış, kimin isə oyaq olması bəlli deyildi. Yatan da, yatmayan da can çəkişməsilə uğraşırdı. Azacıq da olsa, kamyonun önünü göstərən bacanın deşikindən yavaş-yavaş şəfəqlənmiş səhər işığı qaş-göz atırdı. Gecənin dəlirmiş vur-sındırından sonra saçaqlı işığın görünməsi çox gözəl duyğular yaradırdı. Deşikdən saçaqların içəriyə süzməsilə ala-qara görüntülər gözə çarpırdı. Bəlli olası, hər kəs, gecə dəhşətindən sonra bayğınca uyumuşdur. Hər an keçdikcə dan yerinin pöhrənişilə günəşli bir günün doğuşu aydınlaşırdı.

Birazdan "Quru Göl"ün yolçusu olacaqdıq. Mən, bundan öncə yalnız iki kərə Şiblidə olmuşdum. O da, rusların Azərbaycana soxulması günlərə tuş gəlmişdir. O zaman Şibli biraz qorxulu görünsə də, çox gözəl doğası ilə yaddaşımda canlanmışdır. Ancaq o Şiblidən sonra belə bir qorxulu Şiblini görmək ağılımın ucundan belə keçməzdi! Şiblidən sonra keçmişilə xatirəmdə qalan gözəl bir gölə çatmamız gərək idi. Bu gölü görmək üçün alaq bulaq olmuş gözlərimin yumulmasına yol verməyirdim.

Ən sonunda ağ örpəkli "Quru Göl", bir yuvarlaq gözgü kimi görünməyə başladı. Günəşin narın qarlı saçaqları un tozu kimi bir sola, bir də sağa oynaya-oynaya ağ örpəyin üzərində hərəkətdən düşərək sakinləşirdi. Havanın günəşli olmasına baxmayaraq, narın yağış səpmələri hələ də yer üzünü islaq saxlamaqda inadkarlıq edirdi. Çavuş Bayramının yoxuşluqda

verdiyi sözə görə, Quru Göldə dayanacaqdıq. Ancaq məni bircə məqsədimizin bəlli olmaması sıxırdı. Son dayanacağımızın hara olduğunu kimsə bilmirdi. Kimsənin də bilmək haqqı yox idi. Hər kəs susqun və titrək haldaydı. Körpə balaların qorunması üçün anaların özverisi gözdən qaçmırdı. Analar, əllərində olan bütün çeşidli parça, pətu və paltarlarla körpə balalarını qorumağa çalışırdılar. Anaların dərin özverilə uşaqlarını qoruması, hər hansı olumsuz şərtlərdə analığın sonsuz qutsallığını göstərirdi. Quru Gölün havasının soyuq olmasına baxmayaraq, bizə cənnət kimi gəlirdi. Ən azından Şiblinin qəzəbli qarşılamasını burada görmürdük. Sərkar “Fərəc Bayramı” istəyənlərin kamyonlardan yenə biləcəyini söylədi. Candan düşmüş bacımın yerə düşmək halı yox idi. O, kamyonda qalmağı seçdi. Anam onun yanında qalmaq istəsə də, bir anlıq ehtiyacı üçün yenmək gərəyi duydu. Gözləri bacımda, ayaqları isə kamyon dışına sürünməkdə olan anamın iki yol ayrıcında qalması aydınca bəlli olurdu. Bacım, cansız gözlərilə anama və sonra da mənə gülümsədi. O, solğun gülüşü ilə sanki bizə “xoşca qalın” mesajını vermək istəyirdi. Mən, anamın qolunu tutaraq bir daha dönüb bacımın üzünə baxdım. Bacım sakitcəsinə bizə baxırdı. Ancaq gözlərində gülüş yox idi! Bir əlimlə gözümdən axan yaşları silib, başqa əlimlə anamın yenməsinə yardımçı oldum!

Quru Gölün soyuq və nəmli havası keçən gecənin dəhşətindən sonra hər kəsə mutluluq verirdi. Yumuşaqca qovuşmaqda olan Səhəndilə Savalanın səhər küləyi saçlarımı oxşayırdı. Quru Gölün içində qaz kütləsi suda üzürdü. Bəlli ki, Gölün bütünü donmamışdır. Ayaq yoluna gedənlərin dönməsilə hərkəs öz

kamyonuna sarı yollanırdı. Lakin beş-on kişi bir azda olsun Quru Gölün sərin havasında qalmağa üstünlük verirdi.

Çavuş İslam Əcəmi, hər kəsin kamyonlara sarı yürüməsini əmr etdi. Onun farscası çox eybəcər və anlaşılmaz idi. Onun sözlərini başa düşmək olmurdu. Oonun farscası bizim öyrəndiyimiz fars dilindən fərqlənirdi. Bu üzdən, Çavuş Bayramı onun yanına gələrək türkcə kamyonlara minməyimizi söylədi. Bu olaydan rahatsız olan Çavuş Əcəmi isə, dodaqarası bir şeylər söyləyərək, sinirlə öz cip arabasına sarı yollandı. Onun gedərkən başçavuşa da tərs baxışları gözdən qaçmadı. Başçavuş isə çavuşun bu davranışına qarşı hər hansı reaksiya vermədi.

Bir ayağım kamyonda, başqa ayağım isə göydeykən anamın vay səsindən yerimdə qurudum:

- Ya Zəhra, ya Zəhra! Zəhra, Zəhraaa, Zəhraam!!!!! Öldü, öldü, balam bu zülmətə dayanamadı, öldü! Allah! Mənim də canımı al. Allllah! Allahsan mənim də canımı al, Allllllah! Ay balam getdi, ay Zəhram getdi, Ay iki giləm, iki gözüm getdi Alllah! Balam, balam, dinməz balam! O heç dinmədi! Onun gözləri, gözlərimə baxa-baxa sakitcəsinə yumuldu. Mənim də canımı al bitir bu azabdan! Bir balam qaldı bu dünyada o da sənə əmanət mənim də canımı al tanrım! Tanrısansa al bu canı! Cəvanşirim sənə əmanət Tanrım al bu canı! Al məni də bitir bu zalim dünyadan! Oğlum Cəvanşirim gəl! Bacısız qaldın! Bir azdan anasız da qalacaqsan! Gəl gözlərindən öpüm oğlum! Bacın və anan vətəndə qaldı oğlum! Sən hara gedirsən? Oğlum, oğlum! Təbrizə dönərsən atana, bacına və qardaşına salamlarımı çatdır! Oğlum de ki,

anam da, bacım da sizdən biraz aralı vətən torpağında yatdılar! Oğlum atana de ki, Zəhrasından yana gözü arxada qalmasın! O, öz yanımda, qoynumda yatıbdır! Oğlum Zəhramı məndən ayrı gömməyin! Balamla məni bir yerdə gömün!

Hərkəs Quru Gölün çevrəsinə toplanmışdır. Bir qolumda bacımın, başqa qolumda isə anamın duyumsuz canları mışıl-mışıl uyurdular. Tanrı, bir kərə də olsun, anamın son diləyini yerinə yetirmişdir. Dörd əsgərin çabası ilə bacım "Zəhra" və anam "Zəri" üçün ortaq bir ev qazılırdı. Qəbirlər, yan-yana Quru Gölün sağ qanadında qazıldı! Anamla bacım uşuməsinlər deyə, geyimlərilə məzara verildilər. Məndən başqa hərkəs matəm içindeydi. Mən isə nəyin içində olduğumu bilmirdim. Dərin bir boşluq içinə düşmüşdüm! Duymaz və eşitməz olmuşdum. Mənə toxunan əlləri hiss etmirdim. Artıq Quru Göldə qovuşan Səhənd-Savalan ətirinin qoxusunu alabilmirdim. Ayaqlarımda qalxacaq güc qalmamışdı. Diri olduğum üçün nəfəsimin olduğundan əminidim. Ancaq gözlərimin işığı çoxalmışdı! Sanki, bütün duyum sistemim gözlərimə birləşmişdir. Çavuş Bayramının göz yaşları durmadan axırdı. O, bu üzüntüsünü göstərməmək üçün tez-tez uzun paltovsunun astarıyla gözləri və burnunu silirdi. Hər kəs öz əhvalına uyğun yas aləmindeydi. Çavuş Bayramı başımın üstündən uzaqlaşmırdı.

Anamla bacım sanki bir an içində quş kimi uçub getmişdilər. Bir saat öncə mənimlə birlikdə olan iki son varlığımın yoxluğuna inana bilmirdim. Artıq, dünyanın ən kimsəsizi idim. Kim inanardı ki, "Quru Göl" anamla bacımı ürəyinin içinə alacaqdır!

İki başdaşı ilə bir qəbir! Bu da ailəmin vətənə verdiyi son əmanəti olsun! Artıq, arxamda qalan, torpağımın ağ örpəkli qarçiçəyidir! O isə, vətənimin mənsiz açan yazına ərməğan olsun!

*“Mənim “nə böyük” taleyim varmış! Özüm də bilmədən, milli şəhid olan bir ailənin irsdarı sayılırdım! Dədəm Bakının Sabunçu neft yataqlarında qara qızıla gömdü! Nənəm Astaradan Astaraya keçərkən, mavi gözlü bir rus soldatının qurşununa “qonaq oldu”! Qardaşımın cansız bədəni ibrəti-aləm olsun deyə, bir həftə Təbrizin “Qara Ağac” məhəlləsinin girişində dar ağacında asılı qaldı! Atam, bir küncdə sıxılırkən, nə az-nə çox düşmənin on iki qurşunu ilə canını Azərbaycanına sundu! Əmim və bütün yaxın arxadaşlarım işğalçı fars rejiminin atəşində yandılar. Anam və bacım gözümün önündə torpağa tapışırılmış sonuncularım oldu!*

*Ah bəəə! Mən ailəmin ən şanslı insanıyam! Ah bəəə!! Mən buyam! Əsir və öz evində sürgünləşmiş qafil bir toplumun kiçiklikdə böyük uşağı! Mən, qarışqaların yemi olan böyük dinazorun bir parçasıyam. Ah bəəə! Mən nə böyük ölünün övladı imişəm! Kim mənim dinazor babamı öldürə bilərmiş ki? Özümüzdən başqası bunu bacararmış ki?*

*Babamın qatilini yaxınlarda, çox yaxınlarda, daha da çox yaxınlar, hətta içimizdə belə, axtarmalıyıq! Kimsəni qınamaqdan öncə özümüzə maraq göstərməliyik. Bizi bu günlərə salanı öz içimizdə tapmaliyiq. Kimsə, bizim kimi bizdən uzaq deyil! Biz, öz əlimizlə düşməni evimizə gətirdik. Ölkəmizin giriş qapılarını bu qədər açmamalıydıq. Ruh qapımızı açaraq,*

*yabancı düşüncələri içəri aldıq. Yetmədi, kökümüzü qazaraq özümüzü ruhdan saldıq. Ruhdan düşərkən özgə dalğaların köpüyü olduq! Biz nə yapdıq? Biz nə yapdıq? Tanrım biz nə yapdıq!?”*

- Cəvanşir, Cəvanşır, özünə gəl! Getmək zamanıdır. “İnna lillah və İnna əleyhün raceun”!!!/Ondanıq və ona dönəcəyik/

Bir an atamın səsi qulaqlarımın pərdəsinə toxundu. Gözlərimi açdım, özümü başçavuşun qolları arasında buldum. Bir anlıq bu dünyada çavuşdan başqa kimsəmin olmadığını bütün ruhumla hiss etdim. Bu zamana kimi içimdə gizlənən göz yaşlarımı başçavuşun omuzlarına buraxdım!

☆ ☆ ☆

Solumda dərin dərələr, sağımda isə möhtəşəm uca dağları görürdüm. Öncələr kimi yolu görmək üçün iki taxtanın deşiyinə gərək qalmamışdır. Gözlərim hər yeri asanlıqla görürdü. Oturduğum yerin çox yumuşaq olduğu bəlli olurdu. Bir sağımda səssizcə oturan iki səkkizli çavuş, o biri yanda isə əlində Berno tüfəngilə bir əsgər oturmuşdu. Qarşımda bir sürücü əsgərlə yanında oturan başçavuş idi. Tam özümə gəlməmişdim. Haralarda olduğumu, nədən burda əyləşdiyimi çıxara bilmirdim. Ağ örtüklü dağların, qar altında əzilmiş dərələrin arasından çəkilən burma-buruq dar yolların gözəlliyi inanılmaz idi. Qarşımda boy-boy çəkilmiş gerçək bir doğa sərgisinin olmasına inana bilmirdim. Mənim buralarda nə işim ola bilərdi. Burası haradır? Mən nədən burdayam?

- Oğlum ayıldınmı? Miyanaya yaxınlaşırıq. Burası Qaflantı tı dağlarıdır. Burdan sonra Miyanadır.
- Mən hardayam?
- Burada mənim yanımda!
- Niyə?
- Biraz rahatla dedim.
- Sağol Sərkar. Bəs anam, bacım!?
- Çox rahatdırlar. Onlar indi cənnətdədirlər!
- Atamla qardaşımın yanında?
- Hə, hə! Elə!

Yanımda oturan dinməz, danışmaz çavuşun gözlərindən su axırdı! O, sakin-sakin özünə ağlayırdı. Kimsəyə baxmadan, bəlli etmədən iç duyğularını gizləməyə çalışırdı. Onun göz yaşları keçmiş 24 saatın anılarını ardı-ardına gözümün önünə sərdi.

Olayları xatırlamağa başlamışdım. Gözlərimin yaşını tuta bilmirdim. Anam, bacım, qardaşım, atam, əmim, arxadaşlarım gözümün qarşısında sıra-sıra gəlib gedirdilər. Hansına ağlamalı idim? Bir neçə saat öncə anam, bacım üzgün olmasın deyə, qardaşıma, atama, millətimə ağlamağı özümə yasaq etmişdim. Bəs indi kimin üzülməməsinə görə özümü tutmalıyam? Bəs indi ağlamayım, nə zaman ağlayım!

Başçavuş: Cəvanşir heç buralarda oldunmu?

- ..........!

- Ağlayırsan yenə?
- ..........!
- Sərkar Dərvişlu nə xəbər?
- Dərvişlu: Heeç belesi, bildiyim kimi! Bir susur, bir ağlır!

  Çavuş Bayramı sanki varlıqla boşluq arasında tıxanıb qalmışdı. O, anamla bacımın ölümündən sonra bir türlü özünü toparlaya bilmirdi. Onların ölümündən sonra mənə sahib çıxması da bir qərib idi.

- Bizi hara götürürsünüz?
- Oğlum mən də bilmirəm!
- Necə yanı, mən də bilmirəm?
- Hə bilmirəm!
- Bəs kim bilər? Bu karvanın başçısı kimdir?
- Mənəm! Amma hara getdiyimizi mən də bilmirəm. Tehranda haraya gedəcəyimiz bəlli olacaq!
- Siz də bizimlə olacaqsınız? Yoxsa oradan Təbrizə dönəcəksiniz?

Çavuş Bayramının səsi çıxmadı. Bir an, sözümü duymadı deyə, bir daha sordum:

- Təbrizə dönəcəksiniz?

- Bilmirəm oğlum! Artıq Təbrizdə kimsəm qalmadı! Artıq Təbrizdə kimsəm qalmadı! Artıq Təbrizdə kimsəm qalmadı! Artıq Təbrizdə kimsəm...!

Bir an içində səssizliyin həzin göz yaşlarını yenə yanımda oturan çavuş Dərvişlunun islaq məndilində gördüm. O, sol əlilə yanağında toplaşan göz yaşını silərək səssizliyini sürdürdü. Onun bu davranışından heç bir şey anlamadan susub dərin xəyala daldım!

Nədənsə bu iki çavuşla aramızda gizli bir bağın, ortaq alınyazısının olmasını duyurdum. Atamın qurşunlu cəsədini və qardaşımın dar ağacında dalğalanan ruhsuz canını görəndən sonra, bütün əsgəri uniformasına dərin nifrət bəsləmişdim. Bu üzdən, farslara qulluqçu olan kimsəyə inamım qalmamışdır. Mənə görə, çavuş Bayramının da ailəmin və yüz minlərcə ölüm, sürgün, zindan və qaçqına uğramış millətimin faciəsində əli var idi! Bu uniformada olan hərkəsin qatil olduğuna əmin idim.

Çavuş Bayramı, son sözlərini deyəndən sonra susqun-susqun yolu uzaqlarına odaqlandı. O, sanki yolda itirdiklərini axtarırdı. İçində bulunduğumuz cip markalı ordu aracının iri güzgüsündən onun üzü görünürdü. Üzündə ağır bir çöküş var idi. Çox zamandan bəri öz içinə cuman belə birisini görməmişdim. Elə bil ki, mənim anam və bacım deyil, onun ana-bacısı gözlərinin onundə can vermişdilər!

Arxama dönüb baxınca, sırayla sürgün kamyonları görünürdü. Komyonları görüncə, biran özümdən utandım! Mənim burada nə işim var deyə özümü sorğuya çəkdim: *“Yazıq anamla bacım diri*

*olsaydılar, yenə də burada oturub sürgündaşlarımı seyr edəcəkdim?"*Sonra isə üzümü çavuşa tutaraq söylədim:

- Cənab çavuş mümkünsə məni öz yerimə qaytarın!

Kimsədən səs çıxmadı! Mənim səsimi de eşidən yox idi! Ortada qalan mənim istəyim, bir də susqunluq oldu!

Qaflantı dağlarının ad-sanını bundan öncə atamdan eşidmişdim. O, bizdən ayrılıb şəhid düşmədən bir neçə saat öncə, Zəngandan sonra Miyananın da dirənişinin sınmasının ardından Qaflantı dağlarındaki "Fədai" dəstələrinin sərt qarşıdurmasını bir qəhrəmanlıq dastanı kimi dəyərləndirirdi. Onun dediklərinə görə, Qaflantı dağlarının döngələrində yerləşən Fədai dəstələri ilk öncə əllərində olan mərmilərlə, mərmiləri tükəndikdən sonra isə, dırnaqlarıyla dağdan sökdüyü daşlarla düşmənə saldırır və onların Təbrizə sarı yürüməsini əngəlləməyə çalışırdılar. Atamın dediyinə görə, qəhrəman bir qız pilotun Miyana-Təbriz körpüsünü bombalaması ilə düşmənin yürüşü dayanmışdır. Yadımdadır ki, atam bunları anladarkən, gözləri yaşla dulurdu.

Sürgün karvanı yavaş-yavaş Qaflantı gədiklərini arxada buraxırdı. Doğanın vətinim Azərbaycana bağışladığı gözəllik önümüzə sərilmişdir. İlanlaşmış Miyana yolunun gözəlliyi gözümün önündə olsa da, onu duymağa həvəsim qalmamışdı. Bundan öncə heç belə gözəllik görməmişdim. Biz, bu gözəllikləri necə düşmənə qapdırdıq? Harada yalnış etdik? Bu əsarətin suçlusu kim? Vətənlə insan arasında olan bağların belə asan qopmasının özül daşı harada? Bu izi haradan başlayıb, harada bitirmək gərəkdir? Bəlli olan, izin sonu uzaqlara çəkilir.

Bizim sürgün macəramızın çox uzaqlarına, bəlkə də içimizdə yerləşən uzaqlara uzanır bu milli faciənin öyküsü!

☆ ☆ ☆

## Doğma Miyanada

Təbrizlə müqayisədə, Miyana çox kiçik görünürdü. Keçdiyimiz küçə Miyananın mərkəzi sayılırdı. Orada kiçik-kiçik evlərdən başqa bir neçə dükan gözə dəyirdi. Biraz qabaqda iki qat və üç qat dövlət tikintisi də var idi. Miyananı incə qar tozu ağartmışdı. Yolüstü bir neçə əsgəri qaravul görünürdü. Biz, Miyanada gecəliyib, sabah erkən Zəngana sarı yollanacaqdıq. Bizi bir əsgər qərargahında yerləşdirdilər. Ətrafımıza yerli əsgərdən də qaravol qoydular. Çavuş Bayramı mənə yaxınlaşaraq, mənim də başqalarının yanında olacağımı anlatdı. Bu mənə biraz rahatlıq verdi. Çünki, bir yad ordunun çavuşunun mənə yaxın olmasını istəmirdim. Bu üzdən, "çox yaxşı, çox yaxşı" - deyərək sürgün yolçularının sırasına girdim. Öncədən boşalmış bir salonda yerləşdik. Salon çox nəmişli idi. Salonun güncündə tay-tay qalaqlanmış buğda təlisləri görünürdü. Bəlli ki, bura bir taxıl anbarı idi. Yuxarıda yerləşən 8 ədəd atışqadan şırıx-uzun işıqlar içəri saçırdı. Zaman sanki durmuşdu! Hər kəsin gözü məni izləyirdi. Sanki, sürgün yoldaşlarımın məni qollayacaq heç nələri qalmamışdır. Uşaqların ağlar səsi içimizdə olan səssizliği pozurdu. Təbrizdən çıxanı uzun bir zaman idi. Hamı dalğın, küsgün, üzgün, darma-dağın idi. Anbarda ortada qurulmuş bir odun ocağından başqa heç bir nəsnə görünmürdü. Şaxta, soyuq

və boz kimi bir nəmişlik içindəydik. Hər kəs odun ocaq istisinə sarı çəkilirdi. Mən bir bucaqda durub yazıq soydaşlarımı izlədiyim an, bir titrək əli əlimdə hiss etdim:

- Oğlum dur gəl! Çox böyük dərd yaşadın. Allah rəhmət eləsin hər ikisinə. Hamımızın yolumuz onadır. "İnna lillah və inna əleyhim raceun!"
- Sağol nənə. Allah köməyiniz olsun. Tanrı sizə cansağlığı versin, ömürünüz uzun olsun.
- Dur gəl oğlum tək qalma! Gəl biraz isin! Gəl, gəl!

Nənənin sevgi dolu gözlərilə isti əlləri məni özünə çəkirdi. O, mənim soyuq əlimi, mən isə onun isti baxışlarını buraxmaq istəmirdim! Onun gözləri mənə səslənərək *"Cəvanşir bu torpaqlarda ana bitməz!"* deyirdi!

Bir neçə saatdan sonra qapının cır-cır səsilə hər kəsin gözləri girişə dikildi. İkisi silahlı, dördü isə əl daşqaları ilə salona girən əsgərlərin yanında, bir də cip-də yan-yana oturduğum, göz yaşlarını göz yaşıma qatan içi saxlı çavuşu Dərvişlu var idi. Daşqaların üstündən buxar qalxırdı. Bu hamımızı sevindirən bir görüntü idi. Yeməyin qoxusunu duyar-duykamaz hərkəsin daşqalara tərəf yollanması ilə əsgərlərin əli tüfəngin gələn-gedəninə sarı getdi. Əsgərlərin durun əmrilə hər kəs yerində dayandı! Onlar əllərində tüfəng, ac insanların sırada dayanmasını istədilər. Çavuş Qulaməli Dərvişlunun səssizliyi və sakit davranışları yol boyu olduğu kimi burda da gözə dəyirdi. Mənə elə gəlirdi ki, onun da başçavuş Bayramı kimi gizli bir dərdi var. O, çox üzgün halda ac əsirlərə yaxınlaşaraq:

- Öncə uşaqlı bacılar, sonra yaşlılar sıraya dayansınlar. Bilirəm, çox acsınız! Hamı üçün yemək var qorxmayın! Kimsə ac qalmayacaq. Çay da var. Tələsməyin! Qarnınızı doyurun, dinlənin, daha çox yolumuz var. Tanrı yardımçımız olsun!

O, bunları dedi və əsgərlərə işarə etdi. Əsgərlər isə, kasaları yeməklə doldurub dağıtdılar. Onbaşının danışıq şivəsi, Urmu şivəsini xatırladırdı. Onun türkcəsi təbrizlilərdən biraz fərqlənirdi. Çavuşun danışması ilə edam olmuş Sulduzlu İlyası anımsayırdım. Əsgərlər, ilkin yardımdan sonra Çavuşun əmrilə yeməkləri buraxıb salonu tərk etdilər. Yemək sulu, ətdən oluşmuş sadə bozbaşını xatırladırdı. Hərkəs istədiyi qədər yeyirdi. Anbar salonunda ayaqyolu olmadığı üçün içimizdə tədirginlik yaranmışdı. Ayaqyolu yoxdursa, yemək də olmamalı!

Bir az sonra salonun qapısı bir daha açıldı. Əsgərlər iki arabada yastıq, əsgəri yorğan (pətu), bir də çay gətirmişlər. Əsgərlərin biri, öncə gətirilmiş yemək arabalarına yaxınlaşaraq:

- Yeyən olmayacaqsa aparaq?
- İçimizdən bir ağsaqqal: Oğlum ayaqyolu olmadan yemək olamaz ki! Bu körpə uşaqların bezini dəyişmək gərəkir. Su lazim, ayaqyolu lazim!
- Əmican bir azdan Sərkar gəlib sizinlə danışacaq. Yeməklər hələlik qalsın!
- Nə zaman gəlib danışacaqlar?
- Əmican, biraz dayan, indi deyərəm gələrlər.

- Sağol oğlum.

Birazdan çavuş Dərvişlu təkbaşına salona girib qapını açıq buraxdı. O, yaxına gəlib peçin istisini dənədi. Sonra hər kəsi yaxına çağırıb dedi:

- Qapıdan çıxan zaman sol tərəfdə bir kiçik həyət vardır. O həyətdə ayaqyolu və hovuz var. Həyətin arxasında əsgərlər keşik durublar. Allah elməsin, kimsə duvardan aşmaq həvəsinə düşməsin! Qapı səhərəcək açıq qalacaq. Burda olan bütün yorğan-döşək bu qədərdi. Onları aranızda paylaşın. Yeməklə çay qalsın yanınızda. Tanrı rahatlıq versin!

Çavuşun bu gözəl hədiyyəsindən sonra salona bir olumlu hava gəlmişdi. Yavaş-yavaş üzlər açılmağa başlamışdı. Suyun və tualetin olması içimizi rahatlatmışdı.

Duvarlardan asılan lampaların yağlarının bitməsilə, gecə zülüməti bütün salonu bürüyürdü. Artıq yatmaqdan başqa yol qalmamışdır.

Xoruzların banlamasıyla bir an özümü ata evində hiss etdim. Ancaq, bir an geçmədən ata evimin yoxlara qovuşması gərçəyini anlamış oldum. Çox tez başa düşdüm ki, nə ata qaldı, nə ata evi! Bəlli olan, xoruzların səsilə erkənçi atlarda günə başlamışdırlar. Onların da xırışlaması yeni bir günün doğuşunu anladırdı.

☆ ☆ ☆

Başçavuşun əmrilə məni öncəki kamyondan başqasına verdilər. Dizlərimi qucaqlayıb, günəşli və biraz da isti havanın gözəlliyini

içimə çəkirdim. Yolçuluğunu, mənim oturduğum kamyonda sürən kimsəni tanımırdım. Lakin, özümlə onlar arasında bir qopulmaz bağlantı duyurdum. Mənimlə onlar! Əslində, bu böyük bir xətalı baxış idi. Çünki, birilərini tanımadığın an, onlarla öz aranda bir qopulmaz bağlantı duyursansa, demək ki ortada kəsin bir gərçək vardır. Mən onları və onlarsa məni tanımırdıq. Amma olası bir keçmişlə çizilmiş birgə yol xəritəsi kəsin bir ortaqlığı isbat edirdi.

Yüzlərlə mənim kimilərin ilk öyrətməni olan, altı nəfərlə birlikdə "Təbriz Daniş Səra"sının həyətində dardan asılan "Əsəd Müəlimin" sıx-sıx işlətdiyi:

*"Bilsəniz də, bilməsəniz də, görszniz də, görməsəniz də, sevsəniz də, sevməsəniz də, bilin ki, bu torpaq sizin Vətənizdir! Bu torpağın üstündə yaşayan da sizin millətinizdir!"*

Bu sözləri unutmaq olarmı? O, dar ağacına gedərkən, öz balaları adlandırdığı bizlərin üzünə gülürdü. O, bu gülüşüylə bizə gülə-gülə qalın deyir, hər şeyin bizim əlimizdə olduğunu anlatmağa çalışırdı. O, bəlkə də dardan asılmayacağına, bir mələyin göydən gəlib, əlindəki qandalları qıracağına, bizi sevdiyi üçün tanrı tərəfindən ödül alacağına inanır və bu üzdən qorxmurdu. Bir illik "adam kimi" yaşayışımızda Əsəd Müəlim kimi çoxlu böyük insanlar gördüm. Mir Cəfər babadan tutmuş Əsəd öyrətmənlərin sayı bu ölkədə bir-iki deyil, mən bunu gördüm, amma indi onların heç biri yoxdur. Onları dardan asdılar, qurşun qarşısına düzdülər, qaçaq saldılar. Qalanları isə, rəhmsizcəsinə bilinməyən yerlərə sürgün etdilər. Hələ də bu millətin günahının nə olduğunu anlamıram! Bəlkə də, bu böyüklükdə "günah"ın

səbəbi bir il öz türkcəmizdə yazıb-oxumağımız olmuşdur! Yox! Hər ana dilində yazıb-oxuyan insan dardan asılsaydı, yer üzündə insan qazanmadı. Mənim Azərbaycanımda dardan asılanların çoxu ana dilində oxumaq fürsəti qazanmadı belə! Atam, əmim, qardaşım ana dili oxumadan asıldılar və ya gurşuna tuşlandılar. Yazıq anam, məzlum bacım da ana dili oxuma imkanı tapmadan sürgün yollarında öldülər. On minlərcə ölən vətəndaşın da bir çoxunun türkcə təhsil almaq imkanı olmadı. Bəs, nədən onların cəzası ölüm oldu? Burda bir sirr var! Bizim bilmədiyimiz, anlamadığımız böyük bir gizli-saxlı var! Mən o saxlını *"bilsəm də, bilməsəm də, görsəm də, görməsəm də, sevsəm də, sevməsəm də, bilirəm ki, bu torpaq bizim Vətənimizdir, bu torpağın üstündə yaşayan da, bizim Millətimizdir"*!

Keçən 5-6 ay içində "Azərbaycan" qəzetində dərc olan çox acı xəbərlərə tanış olmuşduq. Lakin, məncə ən acısı Milli Hakimiyyətin Zənganı Tehrana təslim etməsi idi. O zaman bu xəbərin verilməsilə bütün Azərbaycan matəm və yasa büründü. Pişəvəri baba, bu xəbərlə ilgili çox danışdı, yazdı. Ancaq kimsənin üzüntüsü azalmadı. Hələ zənganlı vətəndaşların *"Biz də Azərbaycanlıyıq bizi özgə saymayın!"* ünvanlı Təbrizə yazdıqları məktubu gördüyümüz an, qan ağladıq. Anladım ki, hakimiyyət uğrunda torpaqdan da pay olarmış! *Bəs, bu torpağın uğrunda qan tökənlər arxayın olsunlar, qanımız getmədən torpağımız getməz!* - sözləri harda qaldı? Gördük ki, Zəngandan sonra Miyana, Miyanadan Sonra Təbriz və Təbrizdən sonra bütün Azərbaycan qan dənizi oldu! Olmadımı?! *"Torpaq, uğrunda ölən varsa Vətəndir!!!"*

## Zənganım, Vətənim!

Burası Zəngan şəhəridir. Azərbaycanın "Beşoylaq" əyalətinin başkəndi. Böyük bir milli faciənin ilk qurbanlığı. Burası susqun, əzgin, tapdaq altında qalmış bir küskün şəhər! Türk şəhəri, Türk varlığı, vətənin ən böyük şəhərlərindən biri. Şəhərdə ruhsuzluq hakimdir. Zənganla bizim halımız eyndir.

Görünən bu ki, Zənganın başı çox bəlada imiş. Şəhərdə tək-tük gəl-get görünürdü. Sanki, hələ Əfşarilərin, Zülfuqarilərin *"Demokrat öldürmə"* əyləncəsi başa çatmamışdır. Zəngan, küsmüş görünürdü. Mənə elə gəlirdi ki, hara getdiyimiz, nədən getdiyimiz zənganlı dildaşlarımızın marağında deyildi! Zənnimcə, hətta Zənganın küçələri, dər-duvarları, qara bürünmüş ağacları belə bizdən küsmüsdür. Belə düşünürdüm ki, Zəngan bizi görüncə, Təbrizdən olan öfkəsini yazıq sürgün qafiləsinə püsgürüb deyəcək:

- *Məgər Təbriz, bizim yalvarışlarımızı saydımı ki, biz də ona yanaq! Təbrizin Zəngandan ürəkli qarşılıq gözləməsi yersizdir. Təbrizin ağabəyliyi artıq etibarsızdır! Zənganın bağrının başı qanayır. Təbrizin Zülfuqarilərin başımıza gətirdiyindən heç xəbəri varmı? Körpə balalarımın süngü ucunda alaq-bulaq olmasından xəbəri varmı? Ürəyimdə qalan özgürlük nisgilindən necə? Zənganın suyu hələ də qan qoxusu verir! Vətən suyu içilməz oldu burada! Torpağını öpüb, vətən yapmaq üçün, qanını verəcək gəncimiz qalmadı! Vətən üstü al qan oldu, ancaq vətən özgə əllərin əsiri oldu! Yox, yox! Təbriz bağışlanmaz artıq! Bu qafilə hara sürünürsə sürünsün, umrumda deyil artıq!*

Bu düşüncələrin içindəykən tutqulu, qayğısız və ilgisiz Zənganı bütün gileylərilə geridə buraxırdıq. Nə yazıq ki, əlimdə sürgün qafiləsini durduracaq gücüm yox idi. Nə yazıq ki, ana Zənganın önündə diz çökərək bütün başına, başımıza gələnlərin üzündən, üzr diləməyə imkanım yox idi!

Kamyonların nəriltisi bizi bəlirsiz sonluğa sürükləyirdi. Ana Zənganın son döngəsində yol kənarında hürüşən beş-on köpəyin uğurlamasıyla yolumuz davam etdi! Bu isə mənim üçün sevindirici sayılırdı. Ona görə ki, ən azından vətən köpəkləri bizə qarşı ilgi göstərmiş olurdu!

## Olcaytonun Başkəndi Sultaniyyə

Kamyonların artan səsi təkcə məni deyil, sürgündaşların hamısını hövsələdən çıxarmışdı. Ancaq bunun nə faydası! Əlimizdən heç bir iş gəlməyirdi. Adımız əsir, özümüz isə əsarət yolunda bilmədiyimiz yerə sürünürdük. Bu kamyon öncəki kamyona görə biraz möhkəm idi. Bu üzdən, bayıra baxacaq dəlik-deşiyi də yox idi. Kamyonun üstünü örtən bez çadırın dörd talq pəncərəsi isə tavana yaxın olduğu üçün yalnız göyü göstərirdi. Bu ara bayırı görəcək şansımız əsgərlərin insafına qalmışdı. Onlar istədiği zaman çadırın giriş yerini açır-bağlayırdılar. Kamyon get-gedə yavaşlayırdı. Əsgərlərin çadırı açması ilə, yol qırağından biraz aralı kiçik qoyun sürüsü göründü. Bu, Təbrizdən üzübəri gördüyüm ilk yaşam görüntüsü idi. Kamyonun durmasıyla yuvarlaq bir ünlü tikinti gözümü qabartdı. Bizdən öncəki kamyonların park etdiği yerdə bizim də

maşınımız dayandı. Qorucu əsgər kamyonun qapısını açaraq dedi:

- Enin! Hamı ensin! 20 dəqiqə burdayıq! Ayaq yoluna gedən getsin! Bulaq suyu orada!

Yerə endik. Mən ömrümdə belə bir gözəl günbəz görməmişdim. Mənə yaxınlaşan  Başçavuş halımı soruşdu:

- Cəvanşir necəsən?
- Sağol qurban. Bura haradır?
- Bura Sultaniyyədir. Olcaytonun baş sarayı və məzarı!
- O kimdi?
- Gəl su iç. Buranın suyu dağdan gəlir.
- Burda dağ yox ki!
- Yer altından gəlir və burada üzə çıxır.
- Demədin Olcayto kimdir?
- Olcayto, Türk-Muğul hakimlərindən olmuş böyük bir Elxan başçısı idi. Bildiyimə görə, 700-il bundan öncə Elxanların başçı olmuşdur. Elə onun istəyilə də bu böyük saray salınmışdır. Öz istəyinə görə də, ölüsünü burda gömmüşlər. Sultaniyənin adı-sanı dünyacandır. Bax! Günbəzin bütünü kərpiçdir. Günbəzin gözəlliyinə bax! Bütün göy parlaq kaşıdır. Bu bir Türk memarlığıdır. Elə buranın da memarı bir təbrizli olmuşdur. Adını unutdum. Buranın göy boyalı naxışları ilə Təbrizin “Göy Məsçidi”nin naxışları çox bənzərdi.

- Mən belə bilirdim ki, Təbriz hər zaman Azərbaycanın başkəndi olmuşdur. Sultaniyənin adını belə, eşitməmişdim.
- Yox belə deyil Cəvanşir! Çox zamanlar öncə Azərbaycanın da, bütün bölgənin mərkəzi "Urmu Gölü" çevrəsi olmuşdur. Hələ onda Azərbaycan vətəni yox idi. Ancaq Urmu Gölü öz çevrəsində "Quttilər, Lullibilər kimi böyük dövlətləri yaratmışdır. Hələ Miladdan qabaq "Ərəttə sivilizasiyonu Urmu həndəvərində oluşmuşdur. Hələ onda Təbrizin bir avadanlıq olaraq adı-sanı yox idi. Ərdəbil, Marağa, Zəngan, Qəzvin və bir çox Azərbaycan şəhərləri tarix boyu başkənd olmuşdur. İndi yola dönməmiz gərək, tezliklə Tehrana yetişməliyik.
- Sağol Sərkar! Sizdən Sultaniyəni və Olcaytonu öyrəndim.
- Olcato yox! Olcayto! Ömür olsa, çox şeylər danışarıq. İndi get maşına! Birazdan yola düşməliyik.

Başçavuşun mənə olan ilgisindən get-gedə quşqulanırdım. Mənim bilmədiyim nə var, bu vicdanından əzab çəkən şah ordusunun çavuşunda? Nədən mənə bundan sonra çox şeylər danışacağını dedi? Bu qatil çavuş kimdir? Mənimlə nə alıb-verəcəyi var? Çavuş Bayramı quşqusu, içimin boşluğunu doldururdu yavaş-yavaş!

Neçə avadanlığın geridə qaldığını bilmirdim. Canilər ordusunun başçavuşun mənə qarşı olan fərqli baxışları bütün ağlımı çaşdırmışdı. Qara bulud kimi üzərimə çökmuş min bir sorğunun yanıtlanması üçün ağır basqı altında idim. Neçə saat Olcayto və Sultaniyyə ilə uğraşdığımı xatırlamıram.

☆ ☆ ☆

Sürgün qatarı ardı-ardına bir qəsəbədə durdu. Kamyonlardan yenməyimiz gərək idi. Bizdən biraz aralı Başçavuşla çavuşlar arasında danışıq keçirdi. Danışığın normal olmaması bəlli olurdu. Çavuş Əcəmi əl-qolun ölçərək danışırdı. Sankı bu qrupa başçılıq edən o imiş!

İlk dəfə olaraq bir dimdikli uzun avtobusu orada gördüm. On-on beş metrə uzaqda bir yol qəhvəxanası kimi dincəlmə yeri görünürdü. Oradan qalxan kabab qoxusu hər kəs kimi, mənim də ağlımı almağa başladı. Axı, saatlar öncədən, ac-yalavac çölləri deşə-deşə, yerdən-göyə, göydən-yerə qalxıb düşə-düşə ancaq öz içimizi yeyirdik.

Kamyonun ən gənci olaraq, qocaların enməsinə yardımçı olmaq istədim. Ancaq qorucu əsgərin əmrilə yenidən yerimdə oturdum. Bizim maşından enməyimizə izn vermədilər. Kabab iyi ilə özümüzü doyurduqdan sonra, təpsi içində lavaşa bürünmüş kabab dürməyi gətirdilər. Bu, bizim üçün ən böyük hədiyyə sayılırdı. Hər kəs üçün bir dürmək kabab və hər kamyon üçün bir güyüm çay! Bir lülə kabab başımıza gələn ən gözəl olay idi. Kababla arama girəsi heç bir əngələ meydan verəsi deyildim. Hətta aclıqdan gözümün önündə canverən mələk bacımı və mələyimin ölümündən ölən yorğun anamı belə, düşünməyirdim. Hələ qalsın ailəmin və millətimim qatilini! Aclıq belə bir şeydir! Deyilmi?

Kamyondaki yoldaşlardan *"bura haradır, bilən var?"* sorğuma. Kimsədən cavab gəlmədi. Ancaq qorucu əsgər mənə dönüb dedi:

- Danışma! Səssiz!
- Mən təkcə...
- Dedim sus! Bura Takistan!
- Anladım! Anladım!
- Səsin çıxmasın daha!

Mən Takistanın, yalnız üzüm salxımlarını görmüşdüm. İki il öncə Tehrandan bizə gələn atamın dostu özü ilə bir qutu üzüm gətirmişdi. O, üzümləri Takistandan almışdı. Bilmirdim ki, Takistan Azərbaycandı yoxsa İrandı! O gün Takistanlıların Türk olduğunu bilmirdim. Ancaq sonralar anladım ki, yalnız Takistan deyil, Qəzvin də, Kərəc də, Tehrana girdiyimizdə gördüyümüz Mərdabad da, hamısı Türk bölgəsidir.

## Şaxta gecənin qara oyunu!

Yolun çala-çuxurluğu, havanın şaxtalığı, göyün qaranlığı çox qorxunc olayların ola biləcəyini göstərirdi. Yol önümüzü kəsmişdir. Nə olub-olmadığını bilmirdik. Yalnız yolda tıxanıb qaldığımız bəlli olurdu. Öncə əsgərlərin, sonra isə hər kəsin yol açma çabası başladı. Yol bütünlüklə axıb incə bir cığıra çevrilmişdir. Bu yoldan kamyonların gedişi mümkün deyildi.

Bizdən öncə nə olub-bitəni kimsə bilmirdi. Əlimizdən də bir şey gəlməyirdi. Qaranlıq, buz kimi hava, soldan-sağdan üzərimizə yürüyən çöl fırtınası hamını iflic duruma salmışdır.

Çavuş Əcəmi çalışmaların etgisiz olduğunu söylərkən, hər kəsin kamyonlara çəkilməsini əmr etdi. O, teleqrafla yardım istəyini anladarkən, hər kəsdən sakitcə gözləməsini istədi. İlk bir saat içindən kamyonların motorunun səsi gəlsə də, artıq onların da səsi kəsildi. İran deyilən bir ölkənin ən stratejik caddəsinin bir an içində çöküşünün bir normal olay olmasını kimsə inanmaq istəmirdi. Bu gecənin son olmasının öncədən planlaşdırılması, ən yaxın varsayım kimi düşünülürdü. Yol bütünlüklə üzərimizə bağlanmışdı. Yolun açılmasıyla belə, kamyonların çalışması mümkün olmayacaqdır. Çünki, buzlu çöldə motorların və yanacaqların donmaması mümkün deyildi.

Artıq bu macəranın bitiş nöqtəsinin çatmasına inanırdım. Üçüncü sürgün yolçuluğun gecəsi çatmışdır. Bu gecədən qaçış yox idi. İstər-istəməz hər kəsin ruhu uçuşa hazır görünürdü. Çölün arasında donub-qalmış kamyonlarda yolçuları kimi savunmasız qalmışdır. Yavaş-yavaş susqunluğun yerini iradəsiz zarıltılar alırdı. Artıq kamyonun içi ilə dışı arasında hər hansı dəyişiklik qalmamışdı. Bədənimin içində soyuq yel əsirdi. Sanki qanım dayanırdı. Gözlərimi açacaq gücüm qalmamışdı. Tanışlıq fürsəti bulmadığım soydaşlarımın durumunu bilsəm də, əlimdən bir iş gəlmirdi. Təbi ki, bu durum yalnız mənim üçün deyil, hər kəs üçün keçərli idi.

Sözsüz ki, uşaqlarla qocaların bu durumda daha tez ayaqdan düşməsi gözlənilirdi. Rüzgarın tərs axışından ötrü gecə çox

erkən başlamışdı. Qorxunc şaxtanın etgisi get-gedə sızlamalarla başlayır, iradəsiz sayıqlamalarla sürürdü. Aramızda olan səssizliğin yerini gözlənilən sızıntılar alırdı. Artıq aramızda olan qaramsallığın da, anlamı qalmamışdır. Ağla-qara bir arada sona ərməyə məhkum olmuşdur. Sonlanma təhdidi əsarət qavramını da aradan qaldırmağa başlamışdır. Kimin nə zaman bitəcəyi anı, gecə kimi qaranlıq idi. Yalnız, hər kəsin sonluğa olan məsafəsi öz içində gizli görünürdü. Artıq soldan-sağdan kamyonu yerindən oynadan dəhşətli qasırğa kimi küləyin də qorxusunu umursamırdıq. Umudsuzluğun ən zirvə həddini yaşayırdıq. İki dünya arasında gedib-gələn ruhumu öz axarına buraxmışdım. Səhər yuxudan ayılıb kimsənin donmuş ləşini görmək istəməyirdim. "*Nə zamana qədər tanıqlıq etdiyim əzizlərimin ölümü üçün göz yaşı tökməliyəm? Qoy kimsələr də mənim məzarıma inci damla axıtsınlar!"* kimi sayıqlamalardan mutlu olurdum. Belə saçmalıqlar içində üzərkən dışarıdan gələn bir əmriyə iç dünyamdan qopardı məni! Əmriyəni verən çavuş Əcəmidi:

- Çavuş Əcəmi: Sərbaz! Əgər nəzdik şod bezəneş! /Əsgər! yaxınlaşarsa vur!/

- Sürücü əsgər: Çəşm qurban!/Göz üstünə qurban!/

- Çavuş Əcəmi: To biya inca! Hərçi təxte və atəşza həsteş biyar inca! /Sən bura gəl! Əlində taxta və od tutan nə varsa topla eşiyə!/

- Sürücü əsgər: Bəli qurban!

- Çavuş Əcəmi: Nəbayəd motorha yəx bezənəd. /Motorlar buz bağlamamalıdır./

- Sürücü əsgər: Bəli qurban!

- Çavuş Əcəmi: Atəşha ra zire motorha təqsim konid! /Odları motorların altlarına bölün!/

- Bəli qurban!

- Durump! Durump! Durump! Durump.....

Tüfəngin bir neçə kərə atəşindən sonra tam bir səssizlik bölgəni bürüdü. Bir neçə saniyədən sonra bir əsgərin irəliyə doğru qaçma səsi səssizliyi sındırdı:

- Qorban zədəmeş! Zədəmeş!/Qurban vurdum! Qurban vurdum!/

- Afərin Sərbaz!/Sağol əsgər!/ Şomaha berin dəsturamo ecra konid sərbazha!/Sizlər mənim əmrimi yerinə yetirin!/

- Başçavuş: (Qaça-qaça yaxına gəlirkən) Çi şod sərkar Əcəmi?/Nə oldu çavuş Əcəmi?/

- Qorqha nəzdiktərənd. Dəstur əz mən bud! /Qurdlar çox yaxındadırlar. Əmir məndən idi!/

- Başçavuş: Əz sərma, yəx zəde nədarim ke?/Şaxtadan donmuş varmı?/

- Çavuş Əcəmi: Ta hal nə! /İndiyə qədər yox!/

- Başçavuş: Xoda koməkeman konəd. Mən ke qoftəm şəbra bayəd Takistan bemanim. Çe əcəleyi dər kar bud? Çera bayəd hərçe zudtər Tehran başim? Məgər in bədbəxta bombe atom

həstənd ke inqədr xətərnak dide mişənd?! /Tanrı yardımçımız olsun. Mən ki, dedim gecəni Takistanda qalmalıyıq. Nə tələsiklik var idi? Nədən ən qısa zamanda Tehranda olmalıyıq? Bu yazıqlar atom bombasıdırlar ki, belə təhlükəli görünürlər?!/

- Çavuş Əcəmi: (farsca) Bu mənə verilən əmrdir! Etiraz istəməm! Siz, öz işinizə baxınız! Mən gənc şahın ordusunun çavuşuyam! Əmrləri yerinə gətirməkdə yetgim var! Burda hamının canı təhlükədədir. Bir saat gedə bilsək "Mərd Abad" qərargahına yetişər, gecəni orada qalarıq. Siz bundan başqa düşünürsünüz? Məni indi maşınların yola çıxa biləcəyi düşündürür! Siz gedin "Cip"inizdə dincəlin. Qarşıda uzun yolunuz var!

- Başçavuş: Mən sənin əmrin altında deyiləm! Mənimlə doğru danış!

- Çavuş Əcəmi: Tehranda məndən şikayət edəbilərsən! (sonra sürücünü çağırırkən): Gəl bura Zakir!

- Bəli qurban, buyurun! Mərd Abada getməyimiz gərək. Cip-i hazırla! Birdə bax gör kamyonları da yola salmaq olarmı?

- Zakir: Maşınların motoru donubdur. Açılarsa belə, bu yoldan keçmək mümkün deyil qurban. "Cip"lərin getməsinə əngəl yoxdur.

- Durup-drump, durmp-durmp.

- Bir şihə səsilə, əsgərin səsi ucaldı:

- Birini də vurdum qurban. Qalanları da qaçdı.

- Afərin Əsgər! Afərin!/

Sıçrayan alovlardan kamyonun içinə işıq saçırdı. Bütün kamyonların motorlarını qızdırmağa çalışırdılar. Kamyonun içindəki ah-vay, ölürəm, dondum sızıltısı get-gedə çoxalırdı. Kimsənin əlindən bir iş gəlmirdi. Hər saat keçdikcə, bu gecənin səhərə çıxma imkanları azalırdı.

Bu əsnada bir "Cip"in bizdən ayrılaraq getməsi bəlli oldu. Biraz tanıq olduğum iki çavuşun dalaşmasından sonra Əcəminin sürücüsünə verdiyi əmr yerini almışdı. Artıq çöldə olan çalışmalar dayandırılmışdı. Kamyonda olan ah-vay səsləri böyük ölçüdə azalmışdır. Mənım özümündə nə zaman uyuduğumu xatırlamırdım.

☆ ☆ ☆

Gözlərimi açmaqda çox zorluq çəkirdim. Harda olduğumu unutmuşdum! Kimliyimi, kimlərdən, harda və nədən olduğumu bütünlüklə unutmuşdum. Sadə bir varlıq dışında hər hansı duyğu idrakında deyildim. Gözlərimi açmağa çalışırdım. Gəlib-gedən işıq saçaqları gözümün açmasını asanlaşdırırdı. Gözüm xaricində hər hansı hissim yox idi. Bu üzdən ayağa qalxıb işığa sarı getmək istədim. Ayaqlarım yox kimi idi. Əllərimin tutqusu yox idi. Bütün gücümlə ayağa qalxmaq istəsəm də, yerimdən tərpənə bilmirdim.

Birazdan yavaş-yavaş duyğularım qayıtmağa başladı. Zamanın necə sürməsindən bilgim yox idi. Çöldən çoxlu səs gəlirdi. Kamyonların motorları işləyirdi. Farsca fərmanlar verilirdi. Kamyonlar yavaş-yavaş yola düşməyə başlamışdı. Kamyonların yola düşməsilə şaxta burulğanın daha da sərtləşməsi duyulurdu. Üstümdəki bütün sərintilər buz bağlamışdı. Kimsədən səs

çıxmırdı. Kamyonların yola düşməsi hər hansı həyəcana səbəb olmurdu. Mən, yarıcan duyğularımla sevinc hissi daşıyırdım. Belə durumda, sevinc əlimdən gələn ən ciddi iş sayılırdı. Ən azından buna görə ki, şaxtadan və qurdların yemi olmaqdan qurtuluş şansım sürürdü. Mən gecənin əvvəlindən əsgərlərə yardım etməyi çox istəyirdim. Ancaq çavuş "İslam Əcəmi"nin əmrilə hamının kamyonlarda qalması gərəkmişdi. O, hətta kamyonlardan çıxanlara ölüm hökmü kəsmişdi. Elə ki, gizlicə kamyonlardan çıxanların taleyi əsgərlərin qurşunu ilə bəlli olacaqmış. Hətta, tualetə ehtiyacı olanlar belə, iznsiz bayıra ayaq qoyamayacaqdı! Elə buna görə də, kamyonların çadırdan olan giriş qapıları iplərlə bağlanmışdır. Motorların yenidən nəriltisilə gecə dəhşətinə hakim olan qorxunc səssizlik sona ərmişdir. Kamyonların nəriltisindən özünə gələn əsirlərin sızıltısı zaman keçdikcə çoxalırdı. Bu arada sızıltılarla ara-sıra ağlama səsləri də qulağıma gəlirdi. Mənə görə, bu ağlamalar normal görünmürdü. Bu üzdən səssizliyimi pozma qərarına gəldim:

- Hər kəsin halı yaxşıdır? Hər kəs yanındakından xəbər alsın lütfən. Məni duyan  varmı? Cəvab verin! Yatmayın, ayıq qalın! Yatarsanız ayılmağınız çətin olar! Məni eşidən varmı?
- Bir uşaq səsi: Heeeq, heeq, heeehi, hıhııı!!
- İkinci səs: Donuram, donuram! Allah dondum! Yardım edin!
- Üçüncü səs: Kömək, kömək! Hıh, hıh, hıııııı, ıııııııı.
- Bir-iki səsdən savayı başqa səs yox idi. Qalanlardan səs çıxmırdı. Bir daha soruşdum:
- Sizinləyəm ay bacılar, ay qardaşlar. Səslənin!

- Dördüncü səs: Oğluuuum! Oğluuuuum! Mənim yanımda bir körpə tifil donmaqdadır. Səsi çıxmır! Onun anası donubdur sanki! Anasının donmuş qucağında qalıb uşaq. Onu anasının qollarından çıxarmağa gücüm çatmır. Ana balasını buraxmır. Mən də donuram. Gəl bu tifili anasının donmuş qolları arasından qurtar!

- Sizin oturduğunuz yer haradır?
- Çadırın girişindəki sol tərəfdə.
- Anasına nə oldu ki?

Nənə ağlaya-ağlaya və titrək səslə:

- Donub! Daha nə olsun! Bizdən öncə donub! İndi bu sözlərin zamanı deyil! Əlindən gələrsə, bu körpəni bas bağrına! Bəlkə yaşar!
- Sənin adın nədi nənə?
- Nə fayda! Bilsən nə, bilməsən nə! Amma sənin adın Cəvanşirdi. Ana, bacını basdıranda Sərkar Bayramı bu adla səni təsəlli edirdi. Əlbəttə, sən özündə deyildin. Bir neçə dəfə bayıldın. Sərkar bir an da başından ayrılmadı. Bilmirəm onun bu qatillərin içində nə işi var! Allah bizi bu günə salanlara lənət eləsin!
- Ana mənim ayaqlarımda hərəkət yoxdur. Ayaqda durmağa çalışıram.

Yerimdən durar-durkamaz dizimdən aşağının hissiz olduğu bəlli olurdu. Düşməyim diyə, əlimi kamyonun tağındanki dəmirə atdım. Dəmir buz kimi idi. Ancaq başqa çarəm yox idi. Biraz ayaqda durmağı bacarınca, bir addım irəliləməyə çalışdım. Əlim dəmirdən qopmayırdı. Bütün gücümlə əlimi dəmirdən

qoparmağa çalışdım. Ovucumun içindən qalxan inanılmaz bir ağrı bütün vücüdümü sardı. Ağır acışma bir anlığa od kimi canımı isindirdi. Çox çətinliklə özümü nənənin yanına çatdırdım. Göz-gözü görməyirdi. Nənənin səsilə əlini tutdum. Nənə, əlimi uşağa sarı götürdü. Əlimi uşağın burununa sarı tutdum. Uşağın nəfəsi gəlirdi. Anasının əllərini tutmağa çalışdım. Yazıq ananın əlləri quru oduna dönmüşdü. Əlimlə biləyini tutdum. Biləyində damar atışı yox idi. Gənc ananın cansız qolları körpəsinin hər tərəfini sarmışdı. Çox zorla cansız ananın əllərini balasının bədənindən ayırdım. Uşağı titrək nənənin qucağına qoydum. Nənənin uşağı saxlama gücü qalmamışdı. Nənədən soruşdum:

- Bu uşağın adını bilirsən nənəcan?
- Tərlanım, Tərlanım səsləyirdi cavan anası! Bu südəmər uşağı özün saxla Tanrım! Oğlum bu uşağı özün bas bağrına! Görünən burda hamıdan qıvraq sənsən! Məndə qalarsa, qucağımda mənimlə birlikdə donar! Mənim bu şaxtadan qurtulma şansım sənə görə, çox azdır! Ölməsəm qalsam, sonrasına baxarıq!

Tərlanı nənənin qucağından aldım. Tərlanın anasının üzərində olan iki pətunun birini nənənin üzərinə salıb, birinə isə Tərlanı bürüyüb sürünə-sürünə öz yerimə döndüm.

Bayğın körpəni əynimdəki paltonun içinə çəkdim. Əlimdə olan hər nə varsa üzərimə saldım. Çarəsizlik doğru düşünməyimi imkansız etmişdi. Körpəni yaşadacağam inadı içimi qaynadırdı. Ayaqlarımın tutarsızlığı bütün bədənimə yerisə də, yaşam

inadım yüksəlməyə başlamışdır. Sanki, tükənməz bir güc– *"Yıxılmaq deyil, ayaqlanmaq gərək Cəvanşir! Bu yiyəsiz uşağın yaşamı sənin əlindədir!"*– deyə yol göstərirdi. Beləcə, duyğusuz əllərimlə körpənin bədənini sığarlamağa başladım. Burulğan kamyonu sola-sağa çəkdikcə, mənim də inadım çoxalırdı. Körpənin səsini çıxarmaq üçün ufaq-tufaq əllərini də qırtırdım. Həmin qırtmaların birində Tərlanın səsini eşitdim. Bu mənim üçün ən böyük ərməğan sayılırdı. Bu, uşağın diri olmasını göstərirdi. Sevindiyimdən nə edəcəyimi bilmirdim ki, bir gənc ananın səsi kamyonda dolaşdı:

- Ayıl balam ayıl! Yatmaq zamanı deyil! Anan sənə qurban ayıl! Sən mənə qalan təkcə varlığımsan ayıl balam ayıl! Ayıl balam heq-heq heq!
- Bacım nə olub ki? Uşağın belini və əllərini ovuşdur. Qoyma yatsın! Mənim də qucağımda birisi var!
- Heq-heq –heq! Artıq çox gec! Körpə balamın nəfəsi yox artıq! Balam dondu! Balam dondu! Doooooondu!
- Bacım umudunu itirmə! Sənin balan diridi! Sığalla qoyma yatsın. Umudunu itirmə!

- Dayan, ağlama ! Yardım istəyirsənmi?

Kimsədən bir ciq belə çıxmayırdı. Tərlanın üzünü və əllərini sığallaya-sığallaya səsləndim:

- Ayıq olan səs versin nə olar!?
- Birinci səs: Mən hələlik ayığam! Bir azdan donub əbədi yuxuya gedə bilərəm. Elə bil ki, o körpə sənə əmanətdir!

- Mən: Sənin səsin pis gəlmir. Bu gecəni birlikdə atladacayıq. Qorxmayın, dözümlü olun! Əl-ayaqlarınızı tərpədin! Qoymayın bədəniniz donsun. Baxın, bu körpə yaşayır. Siz də dayanın. Məni eşidən varmı? Ay bacılar-qardaşlar əllərinizi və ayaqlarınızı tərpədin. Məni eşidən başqası varmı?
- İkinci səs: Hə, eşidirəm oğlum, üşüməkdən danışa bilmirəm.
- Nənə necəsən? Biraz əllərini-ayaqlarını tərpət!
- Sağol, bəxtəvər olasan. Tanrı ananı və bacını bağışlasın.
- Sağol nənə. Başqa məni eşidən varmı?
- Üçüncü səs: Var! Səni eşidirəm. Körpə necədir?
- Tərlan yaxşıdı. Tərlan bax! Anan yuxudan durdu.
- Yox! Mən Tərlanın anası deyiləm.
- Dördüncü səs: Mənim adım "Ceyran"dı! Anamın səsi yoxdur! Qardaşım burda deyil! Nə olar yardım edin! Hiq, hiq, hiq....

- Birinci nənə: Ceyran balam! Gəl mənim yanıma! Ananı oyatma! Onun yuxusu gəlir! Qoy yatsın! Qardaşın Cəvanşir dadaşının yanındadır. Sən də gəl öz yanıma!

Tərlanın bir bacısının olmasını indi öyrənirdim. Bəlli olan, o tifilin də danışacaq gücü qalmamışdır. Mənim də əlimdən heç bir iş gəlmirdi. Onun "Tərlan! Ana!" deyə-deyə səsi də yavaşladı! Tərlanın əllərini əllərimdə tutmuşdum. Gözlərimin ağırlaşması amanımı kəsirdi. Get-gedə ölümcül yuxunun basqısı gözlərimi inamımdan çalmağa başlamışdı! Hər kəsin son soluxunu, son tinini eşidə-eşidə tükənib-bitirdim. Belə durumda ağlıma M. Biriyanın şeiri üzərinə bəstələnmiş "Azərbaycan Marşı" gəldi. Başladım onu oxumağa:

*“Ey torpağı lə‘l və mərcan, Azərbaycan-Azərbaycan,*

*Mən verərəm uğrunda can, Azərbaycan-Azərbaycan.*

*Ey Vətənim düşmən əcəb, bağrını alqan elədi,*

*Soydu rəzalətlə səni, zülümülə talan elədi,*

*Bağlarını vurdu xəzan, gör necə viran elədi,*

*Zülmət keçib, döndü zaman, Azərbaycan-Azərbaycan,*

*Ey torpağı lə‘l və mərcan, Azərbaycan-Azərbaycan”....*

Bir səs, iki səs, üç səs və... mənimlə səsbir olan daha bir neçə səs! Səslərdə dalğın bir dirəniş duyulurdu. Kimsə kefindən deyil, içindən gələn son bir səslənişlə milli marşı oxuyurdu! Son bir dirənc! Son bir yaşam həvəsi!
Üzərimizə soldan-sağdan ağnayan ölüm acımadan can alırdı! Qatıl gecənin ömrü bitmək bilmirdi! Bizi bitirmədən bu zülümətin bitəcəyinə inananların sayı getdikcə azalırdı. Faciəvi sonumuzun nəticəsi səhərə qalmışdı. Eşitsiz ölüm-qalım savaşı insanların yenilməsilə sürürdü! Dabandan düşmuş ət-kəmiklə 20-30 dərəcə şaxta arasında can çəkişməsi zalımcasına sürürdü!

Tərlanın isti nəfəsilə sabahı görmək umudum artırdı!

“*Ölmək yox! Ölüm olsun ölümə! Cəvanşir.”*

*“Ey torpağı lə‘l və mərcan, Azərbaycan-Azərbaycan,*

*Mən verərəm uğrunda can, Azərbaycan-Azərbaycan...*

"Məhəmməd Biriya milli şairimiz, atəşin natiq, Milli Dövlətimizin sıcaq səsi, Maarif naziri və Firqənin Pişəvəri babadan sonra ikinci başçısı!". Meydanlarda ondan alınan ilhamın burada gecə dəhşətində də yardımımıza gəlməsinə inankamazdım! Amma olan oldu! Kamyonumuz onun güclü nəfəsilə ayaqda olduğunu göstərməkdədir!

*"Zülümət keçib, döndü zaman, Azərbaycan-Azərbaycan!"*

☆ ☆ ☆

Kamyonların yavaşlamasından bir avadanlığa yetişdiyimiz bəlli olurdu. Havanın qaranlığı yerini işığa versə də, kamyonun içi tam bir zülmətidi. Bəlli olan, kamyonların durdurulmasına çalışılırdı. Bir az sonra aramızda kimlərin yaşayıb, kimlərin isə yaşamağa gücü çatmadığı bəlli olacaqdı. Ən azından, ömrümdə yaşamadığım bu buzlaq gecədən kimin diri çıxması bilinəcəkdi. Kamyonun girişinin açılmasıyla gecə boyunca, 20-30 dərəcə buzlaqlıqda keçirdiyimiz faciənin üstü açılmış oldu. Qucağımda bayğın düşən Tərlanın anası və bacısıyla birlikdə üçü uşaq, ikisi isə orta yaşlı, toplam 7 nəfərin donmuş cəsədi aşkara çıxdı.

Hər kamyondan 6-7 donmuş cəsəd çıxarıldı. Körpə Tərlanı qucağımda tutaraq bir çözüm yolu axtarırdım. Bu südəmər uşaq nə qədər anasız diri qalacaqdır? Mənim bu südəmər körpəyə necə yardımım keçər? Qarşımda 30 donmuş vətəndaş, qucağımda isə bir yaşam möcüzəsi! Özüm kimi, kimsəsiz öksüz birisi!

Bir küncdə donub qalmış 30 nəfər qaragün, başqa yanda isə bu günahsızlara göz yaşı tökən bizlər! Alın yazımızda bu günlər də var imiş demək! Qara yazıya tutulmuş soydaşlarımızın cəsədini karvansarayın bir küncünə toplamışlar. Qucağımda gələcəyi bəlli olmayan kimsəsiz bir körpənin qayğısında ikən məzlumcasına faşizm qurbanlarına uyumuşdum. Kimsənin əlimdən tutacaq gücü qalmamışdı. Kimsə bizə yaxınlaşmırdı. Bütün əsgər və yerli məmurların səyi ölüləri diritmək, diriləri isə öldürməyə bənzəyirdi! Yalnız bu durumdan qurtulmaq üçün başçavuşa umud bağlamışdım. Ancaq ondan heç xəbər-ətər yox idi! Ona qarşı məndə qərib duyğu yaranmışdı. Gecə şaxtasında çavuş Əcəmilə mübahisəsində hədələnməsindən sonra pis hisslər keçirirdim. Buna baxmayaraq, həngamədən qaçma ehtimalı da qafamdan düşmürdü.

Tərlan, səssiz-səmirsiz qucağımda sıxılıb qalmışdı. Uşağın neçə aylıq olduğunu belə, bilmirdim. Sankı yeni anadan olmuşdu. O, quş kimi sadəcə nəfəs alıb-verirdi!

Cəsədlərə yaxınlaşmağa izin verilmirdi. Hər kəs həsrətlə dərin üzgünlük içində idi. Kimin kimə təsəlli verməsi bəlli deyildi. Bir-birini öncədən tanımayan, ailə bağı olmayan insanların beləcə qarşılıqlı sarılması, soydaşlığın ən dərin anlamını göstərirdi. Kimisinin balası, kimisinin nənəsi, kimisinin sevgilisi gözü qarşısında torpağa doğru götürülürdü. Bu anlar, İki gecə öncə bütün varını torpağa tapşıran mənim üçün iki qat yas sayılırdı. Hələ qucağıma sığınmış anasız  uşağın da dərdini çəkərkən!

## “Mərd Abad” Qəsəbəsi

Təbrizdən yola düşən 60-70 nəfərlik sürgün qrupunun tam yarısı yolda şəhid olmuşdu. “Mərd Abad” qəsəbəsinin ordu qərargahının meydançasında 29 gözə gələn cəsədlə birlikdə, bir də ağ ləçəyə bükülmüş qucağımdakı körpə uşaq görünürdü. Təbrizdən çıxanı 32 yeni milli şəhidə tanıq olurdum. Mənim bu yoldaki sonluğuma kim tanıq olacaqdır? Bu qaranlıq dalandan qurtulan olacaqmı?

Mərd Abadın havası biraz isti və günəşli idi. Orada yalnız əsgərlərin dəstələri tək düşmüş qarışqalar kimi o yana – bu yana gedirdilər. Sanki, əsgərin başı üstündə onbaşı və ya çavuş biri yox idi. Bir neçə əsgərin bizə tərəf gəlməsini görüncə, özümə çəki-düzən verdim. Onlar, bizi sıraya düzüb, salona götürdülər. Salonun isti havası şaxta vurmuş canımızı və ruhumuzu oxşadı. Tərlanı bir an öncə yerə qoymaq istədim. Lakin, yerə qoysam ölər qorxusu ilə fikrimdən daşınaraq onu qucağımda tutub yerə oturdum. Kamyonda gördüyüm bir ortaboylı və ortayaşlı birisi yanımda oturdu. Onun dolğun gözlərində son dirənişini sürən yorğun dalğalar ləpələnirdi. O, əzgin və içdən bir notla mənə səsləndi:

- Oğlum Cəvanşir, necəsən? (Tərlanın başını sığallaya-sığallaya) Yaşa oğlum, min yaşa! Elə, belə də qal! Dəyişmə bəziləri kimi oğlum! Sən çox acı çəkirsən. Buna baxmayaraq, bu körpəni də üstələnirsən. Afərin oğlum!
- Hə, siz gecə tanış olduğum bəysiniz. Eləmi?

- Elədir Cəvanşir. Mənim adım "Cabbar Əli"dir. Cabbar de sadəcə! Mən, sənin gecəki inadına heyran qaldım. Az qala mən də donurdum. Bədənim tam hərəkətdən düşmüşdü. Yavaş-yavaş qanım donurdu. Əlim və ayaqlarım yerdən qalxmırdı. Elə düşündüm ki, gərək qışqıram! Əslində, qışqırırdım. Amma səsim içimdə boğulurdu. Sən səslənməsəydin, mənim üçün susqunluq əbədi olacaq idi. İlk öncə, ayıqlıq ilə yuxu arasında bir şeylər duyurdum. Lakin, sənin ikinci kərə hirsinlə özümə gəldim. Çağırışına kəsinliklə qayıdış verməyə çalışdım. Canımda bir tərpəniş oluşdu. Mən bu diriliyi sənə borcluyam oğlum! Bu ətənə bala kimi kamyonda donmaqda olan bir neçəsinin canı sənə minnətdardı!

- Yox belə demə! Hər kəsin yaşamı tanrı əlindədir. Mən qorxumdan səslənirdim. Dünənin zülümətinin izlərinə bax əmi! Bu günün işığını görməz olsaydım keşkə! 29 günahsız, çarəsiz bacı-qardaşımızın donmuş cəsədlərini birazdan torpağa verəcəklər. Bəlkə də, biraz bizi söyüb, ölənləri öyəcəklər! Niyə, biz qaldıq? Nədən onlar öldülər? Bunun da günahını bizim üzərimizə atacaqlar, əmican!
- Ya da ki, oğlum, bunlar bizi gavur sanırlar. Bəlkə də, kəfənsiz məzara qoysunlar! Dünən gecə Takistandan çıxandan, bir maşın belə, yolda görmədik. Bunlar bizi bilə-bilə yolçu etdilər. Kimsə, öz dilini istərsə, farsın gözündə Kufə əhli sayılar! Bunların bizi dəstə-dəstə millətdən ayırıb yox etmə planları, uzun-uzadı sürəcəkdir.

Qucağımda Tərlanın qığıltısı duyulurdu. Bu, tanış olduğumuz zamandan bəri Tərlanın ilk ciddi qığıltısı sayılırdı. Bəlli ki, körpə acmışdı. Ancaq biraz dözümlü olmağı gərək idi. Artıq, yanında onu əmizdirən bir ana yox idi!

Salonun çirkli pəncərəsindən, cansız soydaşların əsgəri kamyonlara daşınması görünürdü. Bu cansızların içində qucağımda aclıq çəkən Tərlanın qida qaynağı olan anası da, son mənzilinə daşınırdı. Tərlanın isə, dünyadan xəbəri yox idi. O, heç zaman ana-bacısının kim olduğunu bilməyəcəkdi bəlkə! Həyətin ağır atmosferi salondaki bizləri ayaqdan salırdı.

Tərlanın gözlənilməz dirənişi yavaş-yavaş sona çatırdı. Uşağın neçə aylıq olmasını bilmək çox zor idi. O, olduqca kiçik, tabsız və az çəkili idi. Bəlli ki, yazıq anası onu doyurmaqda zorluq çəkirmiş. Bəlkə də, elə bu üzdən Tərlanın yeməyə bir çox da həvəsi yox idi. O, qucağımda biraz mınq-mınq edəndən sonra səssizləşdi. Onun bu durumundan razı qalaraq, həyətin küncündə olub-bitənləri seyr etməyə başladım. Birazda dönüb Tərlana baxdım. Quş boyda uşaq yenə bayğın düşmüşdü. Onun məsum gözləri, incə əlləri və dirənən ufaq varlığı son anlarını keçirirdi. Bu tifil uşağın məsumluğu içimi yandırırdı. Gecə ölümdən qurtardığım uşağın səssizcə can verməsini görürdüm! Səsimi kimsəyə duydurmağa gümanım gəlmirdi. Hər kəsin qarşısında yer-yer uzanmış bir cənazəsi var idi. Arxadan qapadılmış lüt bir salonda, sadəcə uzaqdan ölülərimizə baxmaq izni verilmişdi. Kimsə, qucağımda yavaş-yavaş ana-bacısına sarı uçmaqda olan körpəyə yanaşmırdı. 30-35 nəfərlik əzgin gözün diqqəti kamyonlara yerləşmiş donmuş cənazələrə zillənmişdi.

Cabbar əminin dediyi kimi, farsların planı qalan 35 nəfərin də yox edilməsi idi. Ancaq belə bir sual ortaya çıxırdı ki, bəs niyə on minlərcə vətəndaşımız kimi bizi də öz ana torpağımızda öldürmədilər? Niyə bizləri özlərinə və bizə bu qədər işgəncə verəndən sonra yollarda öldürmək istədilər?

Susqun, əzgin və qucağımda bayğın bir quş kimi körpə! Gözlərimdə umudsuz bir sevgi təri! Çevrəmdə əsir bir millətin örnək güzgüsü! Kimi ağlar, kimi bayğın, kimisə öksüz və küsgün! Artıq ayaqda duracaq gücüm qalmamışdır. Dizlərim bükülürdü. Yerə uzanaraq Tərlanı yanıma aldım. İki barmağımı incəlikdən qırılmaqda olan biləyinin damarına tutdum. İncə qəlbinin atışından ölmədiyi bəlli oldu. Üzünə gülümsədim və sonra nə olduğunu bilmədim!

## **Olqa!**

Gözümü açarkən başımın üstündə Cabbar əmini gördüm. Tərlan qolumun üstündə qoyduğum kimi bayğınlığını sürürdü. Barmaqlarımı əlinə sarı apardım. Cabbar əminin *"Qorxma! Mən baxdım yaşayır!"* deməsilə rahatladım! Həmin anda qapı açıldı. İki silahlı əsgərlə yanı-sıra daşqaçılar salona girdilər. Kimsənin sevinəcək güçü qalmamışdır. Kimsə yerindən qımıldamadı. Əsgərlər qapının girişində durdular. Onların da bir dəyişik halı var idi. Qapı bir daha açıldı. Çavuş Əcəmi içəri girdi. Bir əsgər, ayağa qalxın əmri verdi. Bir neçə nəfər ayağa qalxdı. Qalanı isə qalxacaq gücünü itirmişdi. Çavuş Əcəmi gözü ilə əsgəri susdurdu. Çavuş, məni dilmanc kimi yanına çağırdı. Uşaq qucağımda yanına gedib sözlərini tərcümə etməyə başladım:

- "Çox ağır gecə keçirdik! Bir neçə nəfərin ölməsindən üzgünəm. Əlimizdən bir iş gəlmirdi. Təbiət bizimlə oyun oynadı! Onlara rəhmət diləyirəm. Bir də, ölülərin və qalanlarının kimlər olduğunu bilmək istəyirəm. Biz məmuruq. Əmrləri yerinə yetiririk. Ancaq bilin ki, bu faciələrin günahkarı vətəni satan sizin xain başçılarınızdır. Onlar əziz İranın başını qoparmaq istəyirdilər. Lənət olsun Pişəvəri separatçılarına! Bizim sizinlə işimiz yoxdur! Hamınızı sağlam məqsədə çatdıracayıq! Hələ çox yolunuz var!

O, bu qısa sözlərilə bundan sonraki yol xəritəmizi cızıb, sözlərinə son verdi.

Mən, fürsətdən yararlanaraq dilə gəldim:

- Cənab çavuş mənim qucağımdaki, acından bayğın düşən bu uşağın anası ilə bacısı soyuqdan donanlar içindədirlər. Bu uşaqdan əlavə başqa bir çoxlarının da uşaqları və yaxınları donub. Mənim özümün də........!

Çavuş sözümü sinirlə kəsərək:

- Bilirəm, sən də ananı və bacını əldən verdin. İndi nə etməyimi gözləyirsən? Gəlib, göz yaşlarını silməliyəmmi? Çox danışma! Biz öldürmədik ki! Vətənin qəzəbi öldürdü onları! "Bir vətən, bir dil, bir şah"! Bir İran, bir Əla Həzrət Pəhləvi! Məqsədə sağlam çatmaq istəyirsən sus! O uşağında ölməsini istəmirsənsə, öz balan kimi sahib çıx! Əngəllər!!!

Çavuş Əcəmi bunları deyib, baş əsgərə əlilə işarə edərək salondan çıxdı.

Salonda olanların nə edəcəkləri bəlli deyildi. Yazıq soydaşların əhvalı ölənlərdən heç də yaxşı deyildi. Ağlamaqdan başqa kimsənin əlindən bir iş gəlmirdi. Salonun hər tərəfində bayğınlar görünürdü. Burası tam bir qul bazarı səhnəsinə dönmüşdür. Qısa yaşımda başıma gələn faciəvi olayların ardı kəsilmək bilmirdi.

Əsgərlər hər kəsin qarşısına bir parça çörək, bir tikə pendir, bir də çinqo bardaqlarda əllərində olan çayniklərdən çay süzürdülər. Kimi yeyir, kimisə quru-quru baxmağa davam edirdi. Mən əlimdə qucağımdakı bayğın uşağın tellərini tumarlarkən onu ayıtmağa çalışırdım:

- Tərlan, Tərlan gözünü aç! Körpə bala gözünü aç! Uyuma, daha bəsdi!
- Cabbar əmi: Oğlum ver mənə! Sən ayaqdan düşdün! Mən ayıltmağa çalışaram. Sən bir şeylər ye!
- Cabbar əmi, ayılmasa necə? Başımıza nə daş salmalıyıq. O gədənin, bağışla, o fars çavuşun dediklərini eşitdinmi? Bunlar bizim hamımızı qırmaq istəyirlər. Hərəmizi bir bəhanə üstündə qıracaqlar! Məni necə hədələdiyini gördünmü əmi? Heç qoymadı danışam. Əlimdə gücüm olsaydı...ax-ax! Nə günə qaldıq. Vətəni bölmək istəyirdik!!! Hansı vətəni Cabbar əmi? Vətən 1828-də bölündü. Biz bölünmüş vətənin qara yazqısını yaşayırıq. Biz....
- Sus balam! Sus bə oğlum! Buralarda çox danışma! Hər duvarda bir siçan yuvası var! Hamı öldü! Qalanlar üçün barı sən qal bə oğlum! Baxım görüm bu bəxtsiz balanı necə ayılda bilərəm!

Ağlar gözlərilə salonun küncündən ağ ləçəyə bürünmüş südəmər körpəsini izləyən gənc ananın gahdan dönərək məni izləməsi gözümdən qaçmırdı. Öncə tanış olduğum ağbirçək ana, gənc anaya toxtanlıq verirdi. Salonda hərkəsin başqasına sarılıb ağlaması normal hal idi.

Tərlanı Cabbar əmiyə vermək istədiyimdə dağılmış gənc ananın bizə sarı gəlməsini gördüm. Südəmər qızını qorxunc gecədə itirmiş ağlar gənc ananın titrək əlləri quş kimi çiynimə qondu:

- Verin mənə uşağı!

O, incə əllərilə boyunu bükük Tərlanı bağrına basdı. Bu görüntünü görən bir neçə sürgündaşımız çevrəmizi sardılar. Gənc ana, arxasını bizə çevirərək heç bir söz demədən Tərlanı döşünə çəkdi! Gənc ana, bir neçə anlığına uşaqla uğraşırkən bizə sarı döndü:

- Bu tifil balanın hərəkəti yoxdur! Bu körpəmiz də mənim balamın yanına getdi! Tanrı, açmamış bu çiçəklərin nə suçu var idi! Ey Tanrrrri cavab ver! Heeeq, heq, heq!

Əsgərlərin bu səhnədən həyəcan hissi geçirməsi əl-qol atışlarından bəlli olurdu. Onların biri adamları kənara çəkərək özünü yaxına yetirdi:

- Yol verin, yol verin. Çəkilin, çəkilin!

Əsgər, Tərlanı bayğın görüncə, qoşaraq salondan çıxıb və biraz keçmədən əlində bir islaq məndillə geri döndü. O, islaq məndili Tərlanın burununa sarı tutub çəkdi. Bu iş bir neçə kərə təkrar olunca, Tərlanın tabsız bədəni qaytarış göstərdi. Tərlan asqıraraq yaşama qayıtdı. Əsgər, Tərlanı balası donmuş gənc ananın

qucağına buraxıb bir daha salondan çıxdı. O, çox geçmədən əlində bir süd bardağı ilə içəri fırladı. Əsgər, usta bir doktor kimi əlindəki bardaqdan qaşıqla süd alaraq Tərlanın ilk öncə dodaqlarına, birazdan isə damla-damla dilinin ucuna damızdırdı. Tərlan, əsgərin çabalarını yanıtsız buraxmadı. O, dililə südü udmağa özən göstərdi. Əsgər, bu işini neçə kərə təkrar etdi. Əsgər Tərlanın özgüvəninin artmasını görüncə qaşığı gənc ananın əlinə verdi. O, hamını çaşqın buraxaraq, bir söz demədən salondan çıxıb getdi. Hər kəs əsgərin bu davranışına heyran qalmışdı. Mən, bu durumu düşünə bilmirdim!

Ağ birçək ana, gənc ananın qucağında yerləşən Tərlanı yavaşca onun qucağından alıb, əlində gətirdiyi bir bezlə altını dəyişəndən sonra onu nisgilli gənc anaya geri verdi! Ana, bu işilə Tərlanın və gənc ananın yanında olduğunu eynilə göstərmiş oldu! Gənc ana Tərlanı alandan sonra bir daha arxasını çevirərək Tərlanı əmizdirməyə çalışdı!

Gənc ana biraz sonra özünə çəki-düzən verərək bizə döndü! O, sakin və mutlu görünürdü. Ancaq görünüşü heç yaxşı deyildi. O, hər an bayılabilər kimi görünürdü. Mən, qarşımda olan soyumuş çayı saçları dodaqlarına yapışmış gənc ananın əlinə verərək yavaşcas Tərlanı əllərindən aldım:

- Biraz bundan için, sizin durumunuz heç yaxşı deyil.

- Yox sağol, istəməz!

O, sanki bir şeylərdən çəkinirdi. Kimsənin onu belə görməsini istəmirdi. Bir yandan da özünü çox yalnız hiss edirdi. Bunu

hamıdan tez Cabbar bəy öyrənmişdi. O mətanətlə hər kəsin çəkilməsini istədi:

- Əzizlər, bəlkə biraz çəkilək. Bir az hava gəlsin bu ana-balaya! Həəə, nə deyirsiniz? Oğlum sən qal! Bu ana-balanın sənə ehtiyacı var!

Çevrəmizə toplananlar öz yerlərinə döndülər. Cabbar əmi isə, üst dodağını alt dodağının üstünə sallaya-sallaya mənə qal işarəti verib bizdən uzaqlaşdı.

Körpəsi ölmuş gənc anaya yaxınlaşmanın yolunu tapa bilmirdim. Ancaq bir yerlərdən başlamaq gərək idi. Bu üzdən ondan adını sordum:

- Sizin adınız nədir?
- Olqa!
- Olqa?
- Hara adıdır?
- Rusca!
- Rus? Nədən Rus adı?
- Bilmirəm! Mən qoymadım! Boş ver!
- Balanın neçə yaşı var idi?
- 6 aylıq idi. Bu dünyanın zülümünə tab gətirmədi. Məni buraxdı getdi. Mələk qızım!
- Gecəki tifil? Qaranlıqda danışdıq ha!
- Sən bu körpəni qurtarırdın! Bu anasız körpə qurtuldu! Mənim analı körpəm qurtulmadı!
- Kaş biraz qabaq bilseydim. Mənimlə danışanda körpənin bitməsini dedin.

- Mən körpədən öncə bayğınlaşmışdım. Gözümü açanda Mələyimin bədəni buz bağlamışdı. O, indi göylərdən mənə baxır. Mən isə, göz yaşlarımı tuta bilmirəm. Mən balamı qoruya bilmədim. Heq-heq.......
- Ağlama lütfən! Da bəsdi! Bu çayı için. Biraz pendir-çörək yeyin. Olarmı? lütfən!
- Olar, yeyəcəyəm! Sən özün də ye! Bu körpənin adı Tərlandı? Çox gözəl addı. Yazıq bala, biz, hamımız yetim qaldıq. Nə atamız qaldı! Nə anamız qaldı! Nə də balamız. Mən, bu tifili ac qoymayacağam! Öz balamın yerinə əmizdirəcəyəm!

Olqa bunları deyə-deyə ağlamağını gizlətməyə çalışırdı. Onun, bu anda sevgiyə, sıcaq ələ, şəfəqətli qucağa ehtiyacı var idi. O, özünü günahkar bir ana hiss edirdi. Baxmayaraq ki, bu yazıq gənc ananın dərdi hamımızın dərdi sayılırdı. Amma onun dərdini yalnız bir ana düşünə bilərdi.

Olqanı özümdən də artıq yalnız görürdüm. O anda əlindən tutaraq göz yaşlarını silmək istəyirdim. Bağrıma basaraq ruhunu oxşamaq istəyirdim. Bu təkcə ona görə yox, həm də özümün də içdən duyğumla bağlı idi. Ancaq gələnəyimizdə belə bir yaxınlığın pis alınmasını duyunca yalnızca içimdə sayıqlayırdım. Rəhmətli anam demişkən *“qızın əlini ancaq qız tutar”!*

Olqa çox kədərli, çox yalnız, ancaq çox cəsarətlidi. O, bütün dərdlərinə rağmən açıq və çəkinməz görünürdü. Onun yanaşma tərzini kimsədə görmürdüm. Onun tez toparlanması, Tərlana yiyələnməsi məndə sempati doğurmağa başlamışdı. O, mənim utancımın yersiz olduğunu isbatlamaq üçün mənə qarşı daha

duyğusal yanaşmağa çalışdı. Əlimdə olan yaylığı məndən alıb gözlərini silməyə başladı. Üzümə baxaraq, acı da olsa, gülümsədi. Məni öz yanında görmək istədiyini incə davranışı ilə düşündürməyə çalışdı. Tərlan bu ani gəlişmənin ən incə körpüsü olaraq ikimizin də inancı olmağa başladı.

- Olqa: Mən, sizi sadəcə Cəvanşir səsləsəm olarmı?
- Əlbəttə, Olqa xanım, bəs nə səsləmək istərdin?
- Yaxşı, onda mən də sadəcə Olqayam!
- Aha başa düşdüm. Sadəcə Tərlan kimi!
- Sadəcə Tərlan kimi hə...

Bu sözdən sonra ikimizin də dodağına gülüş qondu.

Bilmirəm nə baş verirdi. Ancaq bir şeylərin olduğunu bütün varlığımla hiss
edirdim. Sanki Tərlan, mənim üçün bir ilkin, Olqa üçün isə bir yeni doğuş
hədiyyəsi idi!

Qarşımızda qalan çörək və pendirin hamısını yedik. Olqa, Tərlanın ağızına buğda boyda pəndir sütdü. Tərlan isə, dililə pendiri somurmağa başladı. Qarşımızda qalan soyuq çayı da sonunacan içdik. Bu qısa 10-15 dəqiqəlik zaman içində nələrin baş verməsini şaşqınlıqla seyr edirdim. Təbi ki, Olqanın da gözlərindəki umudlanma izləri gözdən qaçmırdı. Bütün yaşadığımız zığ-zımraq qaranlıqlara qarşı bu anımızın gözəlliyi bambaşqa duyğuların yaranmasına səbəb olmuşdu! Biz, bütün bu faciələrin içində sevinc yaşayırdıq. Olqanın mənə, mənim isə Olqaya olan ani baxışlarımızı anlatmaq mümkün deyildi. Kədərimlə sevincimin arasında qalmışdım. Şübhəzsiz ki, bu hökm Olqayada kəsilmişdi. Bəlkə hamısı bir anlıq keçici həvəs

olacaqdı! Bəlkə də sonu görünməz bir tutqu yoluna düşmüşdük ikimiz də!

29 əzizimizin son yolçuluğu üçün “Mərd Abad” Qəsəbəsinin məzarlığında toplanmışdıq. Mışıl-mışıl uyumuş ağ kəfənlilərin kamyonlardan yendirilməsilə yanaşı, əsarət qafiləsinin sızlı ağlar səsi də ucalırdı. Mən, Tərlanı qucağına sıxmış Olqanın davranışını maraqla izləyirdim. Ufacıq Tərlanın Olqanın qucağındaki bütün olaylardan xəbərsiz yatması rahatverici idi. O, anası sandığı Olqanın isti qucağında uyurdu. Olqa isə, Tərlanı qoynuna sıxaraq daha sakin görünürdü. Bir anlamla bu ikisi itirdiklərini bir-birində tapmış kimi görünürdülər. Bizim qəbirlərin yaxınına gəlməyimizə izin verilmirdi. Cəsədlərlə aramızda sırasıyla əsgərlər dayanmışdır. Əsgərlərin arasında Tərlanı yaşama döndərən əsgər də görünürdü.

“Mərd Abad” kəndinin məzarlığında kimin harada dəfn olunduğu bəlli olmadı. Nə Tərlanın anası-bacısı, nə Olqanın südəmər balası və nə də başqalarının başdaşı olmadı! Kimsənin cəsədinin kəfəni açılmadı.

Öncədən görmədiyim bir yüzbaşı zabit bizə sarı danışırdı. Bəlli olan o, “Mərd Abad” ordugahının başçısı idi. O, çox fərqili farsca danışırdı. Mən, onun danışığını başa düşmürdüm. Olqanın bir anda düşəcəyini bəhanə edərək, arxadan belindən yapışmışdım. Bizə, məzarların üstünə torpaq atmağa belə izn vermədilər. Sanki, bizi ora gətirməklə son işgəncələrini vermək istəyirdilər. “Seyfi” öyrətmənin bu sözünü artıq anladım:

*“Türk bağımsızlığı çox bahalı bir bədələ bağlıdır. Bu bədəli ödəmədən türkün özgür yaşaması olmayacaq! Azadlıq ağacının dibinə hələ çox qanlar töküləcək oğlum!”*

Seyfi öyrətmənin bu sözlərini indi daha çox anlayıram. Şəhid öyrətmənin bu sözlərinin nə qədər doğru olduğunu, başımıza gələnlərdən sonra daha dərin düşünürəm. Sanki, mən yaşamalı və millətimə qarşı olan-bitənləri görməli idim.

☆ ☆ ☆

Bu gün 29 “qurbanlığın” xatirəsinə ehsan yeməyi verdilər. Öncə olduğumuz salonun yanında bir uzun mətbəxə aparıldıq. Bura gördüyüm ən təmiz və düzənli yemək yeri idi. Bir neçə yüzbaşı və afiserin bir yerdə döşənəkli masada oturduğunu ilk kəz görürdüm. Onlar öz yeməklərilə uğraşaraq, bizə ən kiçik ilgi belə, göstərmirdilər. Əllərində Berno tüfənglərilə bizi sıraya düzən əsgərlərin üzgünlüyü gözlərindən bilinirdi. Mənimlə Olqa bir siradaydıq. Masada oturan subay biri, Olqanı görüncə, özünə çəki düzən verərək bizə sarı gəldi. Mən özüm də bilmədən Olqanın əlindən tutaraq, onun eşi kimi davrandım. Subay bunu görüncə, bir addım geri çəkilərək, bizi izləməyə başladı. O subayın baxışları məni çox rahatsız edirdi. Bu üzdən qucağımdakі Tərlanı Olqanın qucağına verərək, başından arxasına süzülən ləçəyini alnına qədər çəkdim. Mənim bu davranışımdan dolayı subay dönüb yerində oturdu. Olqa, bu jestimə qarşı incə dodaqlarını qaçıraraq, Tərlanın üzündən öpüb dilə gəldi:

- O zabit məni qorxutdu. İndi gəlib mənim əlimdən tutub aparacağını düşündüm.
- Məncə də! Onların əlinə fürsət düşərsə, irz-namus bilməzlər. Məgər az bacı-qardaşımıza təcavüz etdilər! Hələ, öz evimizdə, yuvamızda! Qalsın indi, yuvamızdan uzaq düşmüşük.
- Cəvanşir, məni qoruduğun üçün sağol! Bunlar mənim dul olduğumu bilməməlidirlər. Bilərsələr....vay!
- Olqa, əlimdən gələni edəcəyəm. Amma Tanrı qorusun. Bizlərin bunlara güçü çatmaz!
- Ancaq gördün, o zabit səndən qorxdu! Məni sahibsiz bilmədi.
- O məndən çəkinsə də, fürsət arxasında olacaqdır. Bir də, sən sahibsiz deyilsən Olqa!

Mənim son sözümdən sonra, Olqanın kədərli gözlərindən işıq saçdı. Əslində, Olqanın mənə yaxınlıq duyğusu ömrümdə yaşadığım ən gözəl olayım idi. Lakin, belə tutğunun bu kədərli və faciəvi anlarda ortaya gəlməsindən utanırdım. 29 nəfərlə birlikdə altı aylıq südəmər körpəsini gecə şaxtasına qurbanlıq verən gözüyaşlı, darmadağın, rusfason qızın mənə yanaşmasının anlamı, sevgidən başqa çox şey ola bilərdi. Bu durumda hər baxışı duyğuya bağlamağı özümə yaxışdırmaq istəmirdim. Belə bir trajik olay içində könül qapdırmağı ən alçaq iş sanırdım. Özümü aldatmağa davam etməməli idim. Bu ürək oyununa bir an son verməyim gərək idi. Bir baxışla, bir əl tutmaqla, bir sadə olay üzündən sevgi olarmı heç!? Olqanın mənə olan yanaşmasını könül bağı kimi anlamaq olamaz idi. Mən ona,

körpəsini unutmaq üçün bir körpə “hədiyyə” etdim. Hamısı bu qədər! Mənim onunla birlikdə yaşadığım iki günlük unudulmaz acı anlarım olmuşdur. Bunu təkcə biz ikimiz deyil, hər kəs yaşamışdır. Bizim aramızda hər hansı tutqu siqnalı olmaması gərək idi! Ancaq buna baxmayaraq, içimdəki qığılcım tikan kimi bağrımın başını dəlirdi. Mənə bir şeylər olurdu!

Yemək almaq sıramız çatmışdı. Bir yarımcıq qara kökə, bir kasa sulu piti, yanında çoban salatı bu son günlərin ən keyfli yeməyi idi. Biz, masada yan-yana oturmuşduq. Birazdan Cabbar əmi də bizim masaya gəldi:

- Uşaqlar nəcəsiniz? Qızım sən necəsən? Biraz toparlana bildinmi?
- Olqa: Sağol əmi! Sizinlə Cəvanşirin yardımı ilə! Allah sizi mənimlə bu yetim balaya çox görməsin. Siz də olmasaydınız bizim başımıza nələr gələcəyi bəlli olamazdı.
- Qızım, Tanrı böyükdür. O, istərsə sonuna qədər qoruyar bəndəsini! Siz cavansınız, mənim bundan sonra çox ömrüm yoxdur. Hələ ürəyim də yolverməzlik edir. Siz, bir-birinizi qoruyun. İkiniz də gənc, ikinizin də yazqınız birdir. İkiniz də bir-birinizə çox bənzəyirsiniz. O hərbçinin sənə olan baxışlarını gördüm. Əlimdə bir oraq olsaydı, gözlərini oyardım. Belə çaqqalları çox görəcəksən qızım. Gözəlsən, gəncsən, sənin yanında birisi olmalıdır. Elə deyil Cəvanşir? Səninləyəm Cəvanşir, eşitmədinmi?
- Hə? Bağışla, Cabbar əmi. Mən Tərlana uymuşdum. Nə dediklərinizi bilmədim. Bir də, sizin mənimlə deyil Olqa ilə danışdığınızı düşündüm.

Cabbar əmi üst dodağını alt dodağının üzərinə sərib, mənə gülümsədi. Olqa bu səhnəni görüncə başını aşağı saldı və büzgün dodaqlarını çeynəməyə başladı. Üçümüz də yeməyə başladıq.

- Cabbar əmi: Bu körpə nə yiyər, nə içər bəs?
- Olqanın üzünə baxaraq: Olqa anasının südünü! – dedim.
- Olqa: Canımda can varkən, öz balam kimi Tərlanı yedizdirəcəyəm, əmi.
- Cabbar əmi: Sən bir mələksən qızım! Tanrı özü səni qorusun! Elə düşün ki, Mələk qızını deyil Tərlanı doğdun! Elə düşün ki, Tərlan öz doğma balandı. Artıq bundan sonra Tərlanın səndən başqa anası və sənin də bu tifildən başqa balan yoxdur. Mənə dünyaları verdin qızım. Bundan sonra sən mənim özbəöz qızımsan. Sənin artıq bir atan var!

Cabbar əminin yaşdan dolan gözləri mənimlə Olqanı da ağlatdı. Cabbar əmi ayağa qalxaraq Olqanı qoynuna çəkərək bağrına basdı! Gözlərinin yaşını silmədən bizdən ayrılaraq ayaqyoluna sarı yollandı!

☆☆☆

Bizi Təbrizdən daşıyan kamyonların yerini iki Amerikan əsgəri kamyon almışdı. Bəlli olurdu ki, önümüzdə çox yol var. Bu kamyonların durumu daha modern görünürdü. 60-nəfərdən artıq başlayan sürgün yolçuluğu, 31-nəfərə düşmüşdü. Son duracağımızın bəlli olmadığını düşünürkən, neçəmizin yol sonu məqsədə çatacağı qorxusu bədənimi titrədirdi! Bizi iki maşında yerləşdirib yola saldılar. Mənim sorumlu davranışımdan yalnız Olqa və Cabbar əmi deyil, çevrəmizdə olan hər kəs məmnun

görünürdü. Bu isə, davranışlarımın doğru olduğunu göstərirdi. Dünyamın dəyişikliyi hər an içimi qaşındırırdı. İki gün öncə hətta adını belə bilmədiyim Olqadan ayrıla bilmirdim. Bacımla anamın ölümü ilə, ölüm diləyimin boş olduğunu artıq anlamışdım! İstəsəm də, istəməsəm də, sarışın bir gözələ vurulmuşdun. Halbuki, sevgisinə tutulduğum gənc ananın mənə qarşı olan duyğularından xəbərim belə, yox idi. Düşünürdüm ki, yolboyu hisslərimi açıqlayacam. Çünki, Olqanın da mənə qarşı boş olmadığını bilməyim gərək idi. Onun mənə bir qardaş kimi baxmasını yeni bir fəlakət sanırdım. Təkcə təmənnam, onun da mənə olan sevgisinin ürəkdən olması idi! Yaşamaq üçün buna ikimizin də ehtiyacı olduğunu hiss edirdim.

Məni, arxasınca çəkən başqa bir uğraşı da başçavuş Bayramı və gənc onbaşı çavuş Qulaməli Dərvişlu idi. Dün gecənin şaxtasından sonra bu ikisi yoxa çıxmışdı. Mənə elə gəlirdi ki, onların hər ikisi də gecə şaxtasında donmuşların içində idi. Cəsədlərini isə, gecə ilə Təbrizə qaytarıblar. Mənim belə düşüncəm səbəbsiz deyildi. Mən çavuş Dərvişlu haqqında bir başqa ehtimal da verirdim. O, bu karvanda gördüyüm ən səssiz və qapalı hərbçi idi. Onun üzündə dərin və gizli bir kədər görünürdü. O, sirrini gizləməyə çalışsa da üzgünlüyü bunu bəlli edirdi. Mən, öz yazqımda olan cizgilərin eynisini onun da səssizliyində hiss edirdim. Başçavuş Bayramıya gəlincə, onun mənə qarşı yaxın və duyğulu yanaşması, üzündəki tədirginliyi anormal duyumların yaranmasına nədən olurdu. Onda mənə aid gizli bilgilərin olmasını düşünürdüm. Artıq fürsətimin olmasını düşünmürdüm. İçimizdə hər kəs o ikisinin başına nə gəldiyi ilə maraqlanırdı. O iki Türk çavuşun durumu nece idi? Onların

zamansız ölümü ilə bu dırnaqsız fars çavuşlarının əlindən nələr çəkəcəyik artıq?

Bir Ceep, bir əsgər maşını və iki kamyonla bəlirsiz yolları arxada buraxırdıq. Yol boyunca yerdən qalxan torpaqlar kamyonun içinə dolurdu. Bu yol, keçdiyimiz yollara nisbət daha artıq toz-torpaqlı idi. Kamyonların dəlik-deşiyindən geniş çöllükdən keçdiyimizi görə bilirdik. Nə bir ağac, nə bir avadanlıq gözə dəymirdi. Dağ-dərə yerlər düzəngahlıqlarla əvəz olunmuşdu. Hava biraz isti idi. Ancaq biz yenə də pətular içində tir-tir əsirdik. Canımızın əldən düşməsilə yanaşı, az yemək, paltarların yola uyğun olmaması və çoxlu səbəblərdən dolayı, hər keçən an yaşam dirəncimiz azalırdı. Südəmər çağında düşmən əsarətinə uğramış Tərlanın Olqanın qucağında mışıl-mışıl uymasına qısqanmırdım desəm, yalan olardı! Hər kəsin üstündəki pətudan əlavə üçümüzündə üstündə artıq bir pətu var idi. Mən, pətu altında əlimi Olqanın əlinə yaxınlatmaq cəsarətini göstərdim! Olqa, istənilən yanıtı verincə əlini tutub dedim:

- Olqa necəsən? Üşüyürsənmi?
- Bəs sən necə, Cəvanşir? Sənin əlin istidi. Əllərindən istilik alıram sanki. Nə yaxşı ki, sən varsan! Allah səni mənə yetirdi! Yetirdi ki, öksüzlər tək qalmasın! Əlimi heç buraxma! Ürəyinin sıcaqlığını əllərindən alıram! Mənə güc verirsən Cəvanşır! Yaşamaq gücü! Sənin necə? Mənim əllərimə qarşı bir duyğun varmı?
- Olqa, sən nədən burdasan? Sənin başına nələr gəlib?
- Sənə söylədiklərimin cavabı budurmu? Mənim sənə verəcək heç bir həyəcanım yoxmu?

- Bu hardan çıxdı Olqa? Mən, mən, mən sənə....!
- Yox! Cəvanşir dayan! Dayan sənə anladım! Hər şeyi səninlə paylaşacağam. Ancaq qorxuram mənim başıma gələnləri biləndən sonra məni yalnız qoyasan! Mənim bu dünyada səndən başqa kimsəm yoxdur. Səndən qarantı istəmək haqqım da yoxdur. Sadəcə qorxuram!... Cəvanşir məni dinləyirsənmi?

Olqa, bu sözləri dilə gətirərkən, incə əlilə əlimi sıxır və gözlərindən yaş axırdı. Bu isə ona bəslənən sevgimi qat-qat artırırdı. Mən, Olqanın qorxusundan daha çox qorxu hiss edirdim. Mən, bundan sonra Olqanın məndən uzaqlaşmasını özüm üçün dözülüməz sanırdım. Onun tədirgin sözlərinin özümə aid olduğunu düşünürdüm. Mən də Olqanın məni, sadəcə məni düşünməsini istəyirdim. İçimdə *“Olqa səni sevirəm!”* düşüncəsi vəhşi dalğa kimi məni içinə çəkirdi! Hər an patlamaq istəyirdim. Bu mənim ilk sevgim sayılırdı. Bundan öncə heç bir qıza bu qədər yaxın olmamışdım. Olqanın ürəyi ovucumun içində vururdu. Bu yabancı anların yaşaması üçün anamla bacımın belə, acısı yetmirdi. *“Yaşam ölülərlə deyil, dirilərlə yaşanır! Mən, ölülərlə deyil, dirilərlə yaşamaq məcburiyyətindəyəm!”*

Bu qorxunu enmək üçün yanımda dünyanın ən nəhəng gücü var idi. Olqa sevgisi! Mənim üçün başqa yol yox idi. Yaşamaq üçün başqa alternativ yox idi. Olqanı sevmək, ona sevilmək və başqa heç nə! Olqanın *“Səni sevirəm Cəvanşir!”* tutqusunda bir əngəl görünməsə də, hələ tədirginliyim sürürdü. Doğru ki, Olqa olduqca açıq, aydın və rahat içindən gələn duyğularını

paylaşırdı. Buna baxmayaraq, qarşıdan gələcək hər hansı bir olumsuzluğu da düşünməyə bilmirdim.

Olqanın gözlərimə baxarkən, məndən bir cavab gözləməsi bəlli olurdu. Bu üzdən daha gecikdirmədən bir söz deməyim gərək idi:

- Söz verirəm! Bir qardaş kimi söz verirəm! Əmin ol Olqa!

- Olqanın əlimdəki əlinin titrəməsini duyurdum. O, gözlərini kamyonun küncünə dikərək susqun-susqun əlini əlimdən çəkdi!

- Olqa, niyə susdun! Nədən əlimi buraxdın! Nədən gözlərini məndən qıydın? Nə dedim ki?
- Məni bağışla, mən səni zor duruma soxmaq istəmirəm. Adam hər sırrını qardaşına açanmaz!
- Mən, səni buraxmayacağam dedim Olqa. Mən səni heç buraxmaq istəməyirəm ki Olqa. Söz! Olqa inan mənə!
- Sənə inanmasam əlimi əlinə verməzdim. Bu mənim sənə olan.....!

Olqa əlimi öncəkindən daha betər tutub sıxdı. Heç inanmırdım onun incə əlləri bu dərəcə güclü olsun. Əlim incisə də, daha çox inciməsini dilədim. O, səssizlik içində mənə özgürlük öyrədirdi. O, mənim bir qardaş kimi sevdiyimi deyil, sevgilisi kimi sevdiyimi istəyirdi. O, çırpan ürəyimin əllərinə enməsini duymaq istəyirdi. O, mənim bütün canla, ruhla isintimi ürəyinin ocağında görmək istəyirdi. İkimizin də ürəyinə səssiz ildırım düşmüşdü! Bu neçə saat içində iki yaslı gönülə bahar gəlmişdir!

*Tanrım, sən özün bildiyini yap! Bu yaşam mənim əlimdən çıxmışdır artıq!*

- Olqa-Olqam, lütfən əlimi əlindən buraxma! Umudumu kəsmə! Üzülmə, sarsılma, susma danış! Bil ki, bu zalim dünyada bizim bizdən başqa dostumuz, sevənimiz və sırdaşımız yoxdur! Mən səni sev .....!
- Cəvanşir! Dayan! Peşman olabiləcək sözü ağzına gətirmə! Öncə məni dinlə! Məni gözəl dinlə! Duyğu hissləri olmadan dinlə! Məntiqsəl və gərçəkçı olaraq dinlə! Dinlə, düşün, anla, sonunda yarım qalmış çümləni bitir! Məni istərsən qardaş kimi istəmə! Mənim gizlilərimi bilmiş bir sırdaş kimi istə!

"Mən bir gəlməyəm! Dədəm "Astara"dan, nənəm isə "Maxaçqala"dandır.

- Maxaçqala? Ora haradır?
- Oranı görməmişəm. Anamın dediyinə görə, ora böyük şəhərdir. Orada çoxdilli xalqlar yaşayır. Sovet dövlətinin Dağistan bölgəsinin başkəndidir. Anamın dediyinə görə, atası Tələt bəy 24-25 yaşlarında Təbrizdə olub və Səttarxan sıralarında Qacar şahına qarşı savaşıb. Orada yaralanaraq, iki Sosial Demokrat dostu ilə birlikdə Bakıya dönərək tutulub, çar məmurlarının dustağı olub. O, Bakı zindanında 1905-ci il Moskva qiyamçılarından olan 19 yaşlı "Aksana" ilə evlənib. Mənim Anam "Roksana" onların ilk övladı olub. Atam haqqında deməliyəm ki, onun atası və mənim dədəm iş üçün Astaradan Bakıya gedərək, oranın Bibi-Heybət petrol quyularında işləyib. Yalçın dədəm, elə həmin Bakıda bir ərdəbilli qızla evlənərək, onlardan olan İlqar isə çox erkən çağlarında gənc "Roksana" ilə ortaq yaşam qurublar. Mən

isə, onların ilk uşaqları olmuşam. Mən Bakıda boya-başa çatmışam. Ancaq 7 yaşımda gənc atam xəstəliyə tutulub ölüb. Atamın ölməsindən sonra ailəcə yaxınlarımızın yanına – İsmayıllı bölgəsinin “İvanovka” kəndinə daşınmışıq. Orada anam üzümçülük kolxozunda işləyərək əmək mükafatı alıb. Mənimlə kiçik qardaşım rusdilli oxula girmişik. Anam biraz türkcəni bilirdi. Amma heç zaman bizimlə türkcə danışmadı. Tərsinə, atam Azərbaycan türkcəsini çox gözəl bilirdi. O, bizimlə yalnız türkcə danışırdı. O, öləndən sonra mənimlə kimsə öz dilimizdə danışmadı. İvanovka kəndində hərkəs rusca danışırdı. Mən biraz böyüyəndən sonra atamdan qalan köhnə kitablar arasından Azərbaycan türkcəsində yazılan dastanları tapıb oxumağa özən göstərdim. Bu isə, mənim Bakıya dönməyimə səbəb oldu. Mən on altı yaşımda orta məktəbi bitirdim. Bakı Dövlət Bilimyurdunda  ad yazdırdım. Bilimyurd biletimi almaq üçün Bakıya gəldim. Atası “Xoy”dan, anası “Laçin”dən olan Elçin adlı gənc müzikçilə tanış oldum. Evlənib özümüzə yuva qurmağa söz verdik. 22 yaşlı Elçinlə evlənmək üçün üç-dörd ay gözləməli oldum. Elçin, Sovet ordusunun marş qrupunun zabiti olaraq Bakıdan Təbrizə göndərildi. Mən isə Bakıda qalıb bilimyurdda oxumağa başladım. 18 yaşım bitər-bitməz Elçinə qovuşmaq üçün Bakı Kommunist Partiyasına gedərək, Təbrizdə nişanlımın olduğunu bildirdim. Onlar məni başqa bir bölməyə göndərdilər. O bölmənin hara bağlı olduğunu bilmirdim. Lakin “Urmu”da bir hərbi bölümdə işləyəbiləcəyimi dedilər.

*“Səni işçi olaraq Güney Azərbaycanın ikinci şəhəri “Urmu” ya göndərə bilərik”*!

Mənim üçün Urmuya getmək də yararlı olacaqdı. Urmuya getmək üçün, öncə Təbrizə getməli, orada işlərimi sahmana salmalı idim. Sonra, “Urmu” şəhərində olacaqdım. Bu isə, Elçinlə birləşmək üçün ən uyğun yol sayılırdı. Yolçuluq işlərim tezliklə sona çatdı. Düşündüyümdən tez Təbriz yolunu tutdum.

Umduğum böyük Təbrizi yıxıq və dağınıq gördüm! Lakin mənim üçün önəmli olan Təbriz deyil, Elçin idi. Buna görə də, ilk ayaqda Elçinlə görüşüb evlənməyi düşünürdük. Elçinilə qovuşmağım neçə günümü aldı. Onu bulunca bütün umudum yerlə-yeksan oldu! Elçin, iki həftə öncə bir rus zabitinin bıçaq darbasından ölmüşdü! Bu Elçindən əldə edilən ilk və son xəbər oldu. Elçinin Təbrizin İmamiyə məzarlığında olan qəbrinə getdim. Baş daşında yazılmışdır*:*

*“Vətən və azadlıq uğruna şəhid düşən gənc zabit“Elçin Qaraçinar”in ruhuna fatihə!”*

Bir neçə kərə Bakıya dönmək istəsəm də, özüm bilmədən “*Наро́дный комиссариа́т вну́тренних дел”/“Xalq Daxili İşlər Komissarlığı”/* (NKVD)-nin Sovet Azərbaycan bölməsinin işçisi kimliyində gəldiyimə görə, özbaşına qayıtmam imkansız idi. Ortada qalmışdım! 18 yaşlı bir rusfason gənc qız olaraq, bu qərib və yad şəhərdə nə edəcəyimi bilmirdim. Ən azından Təbrizdə yaşamaq üçün bir güclü arxam olmalı idi. Urmudan öncə mənə Təbrizdə ehtiyac olduğunu söylədilər. Təbrizin radiosunda işçi olaraq qəbul edildim. Bunun isə, səbəbkarı tanış olduğum bir rus

zabiti oldu. O, 26 yaşında gənc bir leytenant/subay,zabit/ idi. Adı Aleksandr Karaçakov, doğum yeri isə, San Peterzburq idi. Aleksandr ilə tanış olduğumdan sonra sıxıntımın azaldığını hiss etdim. Həftə sonları Təbrizdəki Rus Ordusunun Zabitlər Klubuna gedirdik. Ancaq yaxın münasibətdən qaçırdım. Çünki, rus kişilərinin yaşam və ailəvi insan olmadığını bilirdim! Ayrıca ona qarşı heç bir könül bağlantım yox idi. Mən Aleksandrdən daha çox, Bakıya dönməyi düşünürdüm. Aleksandrin isə bu yolda mənə yardımçı olacağını düşünürdüm.

Biraz sonra Təbrizdə "Azərbaycan Milli Hakimiyyəti" quruldu! Hər gün mitinq, hər gün toplantı mənim üçün çox gözlənilməz olmuşdu. Günlərin necə gəlib-getməsini unutmuşdum. Radio demokratların əlilə aparılırdı. Mən ruscanı sərbəst bildiyimə görə, türkcə-rusca dilmancılığı da edirdim. İşimi çox sevirdim. Demokratlardan biri olmuşdum. Təbriz mənim üçün sanki doğmalaşmışdı. Ancaq buna baxmayaraq, Aleksandrın dostu kimi kluba getməyi də qaçırmırdım. Elə həmin gecələrin birində, Aleksandr çox içdiyindən sərxoş olub huşunu itirdi. Onu evinə aparıb ayıtmağa çalışsam da, bunu bacara bilmədim. Çox gec olmuşdu. Buna görə, üstümə bir pətu alaraq salondaki mobildə uzandım. Səhər durarkən Aleksanderin durumunu öyrənmək üçün otağına getdim. O, ölülər kimi səssiz idi. Səslədim:

- Aleksandr, Aleksandr!

- Cəvab vermədi. Yaxına gedib əlimi üzünə yaxınlaşdırdım. O, əlimi tutaraq məni özünə çəkdi. Diksinmişdim, nə edəcəyimi bilmirdim. Onun vəhşicəsinə davranışından heç xoşlanmamışdım. Bu davranışın anlamını başa düşmürdüm. Nədən belə vəhşilik!? Öncəki istəklərinə yox dediyim üçünmü? Yoxsa rusla hərbçilik bir araya gəlincə, belə olurmuş? Hansı!? Mən əlimdən gələn xidməti onun üçün edirdim. Heç zaman onu yalqız qoymurdum. Quru və özbəyənir özəlliyini görməməzlikdən gəlirdim. Sadəcə, onun cinsəl istəklərinə yox deyirdim. Bunun da səbəbi onun içində olan sevginin, sevgi deyil, cinsəl təmənnası idi. Bu üzdən, özümü ondan uzaq tuturdum. Buna görə də, həmin səhər üstünə bağıraraq dedim:

- Vəhşi! Bu nə davranışdı? Özünə gəl! Mən sənin nataşan deyiləm! Mən də sənin kimi bir insanam! İstədiyimlə yataram! Heyvanla deyil!
- Aleksandr: Mən də istədiyimi alaram! Sən mənim üçün nataşasan! Bildinmi? Öz istəyinlə gəl! Yoxsa, səni altıma almağı bacarıram! Mənim üçün eləsi-beləsi fərq etməz!
- *“Vəhşi Rus”! Sənə olan bütün sayğım yox oldu!* Deyərək evdən qaçmağı bacardım. Aleksandrın hələ də başı dönürdü. Bu isə, əlindən qurtulmağa kömək oldu. Belə ki, məni tutmaq üçün ayağa qalxarkən başı ütsə yerə düşdü. Mən isə fürsət tapıb qaça bildim! Bu, Elçini itirdiyim gündən bəri başıma gələn ən qorxunc olay idi. Təbrizin üzümə gülmə kimi halı görünmürdü. Gəldiyim gündən bəri başım qalmaqalda idi. Mənim sevməkdən başqa bir günahım yox idi. Bütün başıma gələnlərin mərkəzində Elçin və onun acı yaşamı dayanırdı.

Mən, sevgilim üçün bütün həyatımı verməyə gəlmişdim. Amma sevgimi, ruhumu və canımı vermədən, cananım uçub getmişdir! Mən Elçin kimi gözəl bir insandan sonra ruhsuz cismimi necə bir heyvana təslim edə bilərdim!

Olqanın göz yaşları inci-inci yanağının yolu ilə Tərlanın pətusuna dökülür yox olurdu. Mən onun üçün bir işlərin görməsini düşünürdüm. Sadəcə oturub acı anıları dinləmək doğru deyildir:

- Olqa sən bir qəhrəman qızsan! Niyə ağlayırsan? Çox qızların sənin kimi olma şansı yoxdur. Elə bizim qızları tut! Onların ev, inanc, qazanc və azad seçim şansları yoxdur. Amma sən bunları bacarıbsan. Bu, səncə, böyük fərqlik deyilmi?
- Yox Cəvanşir, deyil! Mənim nəyim azaddır? Bax! Bizim hara getdiyimiz, necə olacağımız bəlli deyil. Başımızdan daha nələr keçəcəyini kimsə bilmir. İçimizdə ən başıbəlalı xanımlar olacaqdır. Sizlər bir türlü kökünüzü sudan çıxaracaqsınız. Amma olan bizə olacaq. Sən düşünmə ki, Aleksandrın tayı tapılmayacaq. Ondan daha bətər şəhvət heyvanları tapılacaqdır. Olan bizə olacaqdır! Buna heç şübhəm yox!
- İnşallah belə tədirginliklərə ehtiyac olamaz! Mən səni tək buraxmayacağam Olqa!
- “İnşallah-Maşallah”la bu işlər düzəlməz! Əslində, cəhalət - cəhalətdir. Onun ağı-qarası yoxdur. Elə başımıza nə gəlirsə məsciddən, klisədən, knisədən (sinaqoq) gəlir. Zahid, barmağının damla qanına dayana bilmədiyi halda, dünyanın

qan selinə gözünü yumar! Mən inşallah-maşallahlara inanmam, Cəvanşir! Qulaq as Cəvanşir! Kiminlə birləşdiyini, kiminlə paylaşdığını öyrənmək istəyirsən qulaq as!

Aleksandrın evindən qaçdığımdan 3 gün sonra, radio idarəsindən çıxar-çıxmaz rus ordusuna bağlı bir qara maşından yenən iki əsgərin mənə sarı gəldiklərini gördüm. Heç qaçmaq fürsəti buraxmadan, məni tutub maşının içinə atdılar! Qışqırıb-bağırmağa gərək yox idi. Başıma nə gələcəyini təxmin edə bilirdim. Bu işlərin örnəklərini Bakıda azdan-çoxdan bilirdim. Təxminimə görə, birazdan qara bir otaqda sorğu-suala tutulacaqdım!

Gözümü açar-açmaz özümü üç gün öncəki qaçdığım yataqda buldum. Üzərimdə alt paltarlarım belə, qalmamışdı! Çıl-çıplaq idim. Üzərimi örtəcək nəinki bir yorqan, hətta bir parça da bulmadım. Qıçlarımda qurumuş qanların izi görünürdü. Artıq utanacaq bir durumum yox idi.

Bir neçə dəqiqə sonra Aleksandr otağa girdi. Lümlüt qarşısında dayandım. Ondan nifrət etdiyimi dilə gətirdim. O, sadəcə gülümsəyib dodağımdan öpərək dedi:

- Aleksandr üçün bağlı qapı yoxdur! Mən bunun belə olmasını istəməzdim. Sən məni buna məcbur etdin. Bundan sonra sən mənimsən! Hər gün-hər gecə! Mən səni özümlə Bakıya götürəcəyəm. İstəklərimi yerinə yetirərsən, səni alacağam! Yoxsa, bu cəhənnəmdən qurtulacağın yox! Seçim sənindir. Bir də ayaqlarının ortasından axan qana bax! Artıq qoruyacaq bir şeyin də qalmadı, müsəlman qız! Mən varam və səni qoruyacağam. Uslu ol! Xoşbəxt ol! Bundan sonra burada qalacaqsan. Evin xanımı olacaqsan. Çoxlu zabitlər bura

gələcək və sən onlara qulluq edəcəksən. Əlbətdə evin qulluqçusu vardır. Mən onu evinə göndərdim ki, səninlə yalnız qalam. İndi hazırlan, bir saat öncə ruhsuz ölü kimi idin. Heç xoşuma gəlmədin müsəlman qız!

- Olqa! Sənin başına gələnlərə bax!
- Bu hələ işin başlanqıcıdır. Əsas başıma gələnləri eşitmək həvəsin varsa, danışım!
- Təbi ki, var! İstədiyin qədər söylə.
- Bir ay sonra hamilə qaldığımı öyrəndim. Aleksandrın hökmü ilə uşağı saxlamalı, onunla birlikdə San-Peterzburqa getməli idim. O, haqqımda olan hər nəyi bilirdi. Hətta özümə maraqlı olmayan dinimin nə olduğunu belə! Onu yaxından tanıdıqca, nə qədər təhlükəli məmur olduğunu da dərk edirdim. O, "NKVD" Akademiyasının yetişdidiyi hərbçi zabiti idi. Təməl görəvi Azərbaycanlı zabitlərin "Firqə"yə qarşı tutumlarını kontrol altında olmaq idi.

Altı ay idi ki, onunla birlikdə idim. Bu altı ay içində onun rəsmi "matışqa"sına çevrilmişdim. Onu sevmədiyim halda hər türlü vəhşi təcavüzünə qatlanırdım. Birinci ondan ötrü ki, uşağımın atası idi və mənimlə San-Peterzburqda evlənəcəyini rus zabitlərinin içində yaymışdı. Bu isə, məni özgəsilə paylaşmayacaq anlamına gəlirdi! İkincisi, ondan ötrü ki, tezliklə Bakıya dönəcək şansımı onda görürdüm. Bu üzdən də, onun bütün pisliklərinə dözürdüm. O istəsəydi, məni bir an içində yer üzündən silə bilərdi. Onun əmrində olan rus əsgərlərinin gücü Firqənin başçılarından qat-qat çox idi. Həmin günlərdə, Rus Ordusunun Təbrizi buraxması gündəmə

gəlmişdi. Mən sevinirdim ki, sonunda Bakıya dönəcəyəm və uşağımı orada, yaxud San-Peterzburqda dünyaya gətirəcəm.

Həmin günlərdə Aleksandrın iki günlük Zəngan səfərini öyrəndim. O, "*gözlə məni, iki-üç günə dönüb yollanacayıq!*" deyib, şəxsi əşyalarını bir çantaya toplayıb getdi. İki gün keçdi. Rus zabitlər klubuna getdim. Klubun qapısı qapalı idi. Qapıçıdan öyrəndim ki, dünən səhər son ordu hissəsi "Culfa"ya yollanıb. Ordunun Təbrizdən çıxmasıyla Aleksandrın Zəngandan dönməməsi arasında olan bağlantını çözmək üçün Rusiya Konsulluğuna getməyi qərara aldım. Bir gün sonra isə Təbriz Postundan bir qutu aldım. Qutunun içində bir paket və paketin içində 600 "Rubl" pul və bir də məktub var idi. Məktubda yazılmışdı:

*"Olqa, yəqin ki, sən bu məktubu açdığında mən Bakıya çatmış olacağam. Mən bir ordu ofiseriyəm, yaşam qurmaq və evlənmək kimi bir düşüncəm yoxdur. Olsa belə, o sən deyilsən! Bilirəm ki, heç zaman ruhunu mənə vermədin, məni sevmədim! Bunlara rəğmən altı aylığına səninlə xoş oldum! Bu pulu da doğacaq uşağım üçün saxla! Bəlkə bir gün dönüb balamı səndən geri alacağam. Bir də, Təbrizdən çıxma iznin yoxdur! Buna çalışma! Mən sənin Təbrizdə qalmağını istəmişəm. Evin 4 aylıq kirası verilibdir. 4 aydan sonra özünə bir uyğun ev tap! Uşaq doğulandan sonra kimlik almaq üçün Sovet konsulluğuna get! Uşağın kimliyinin necə olacağını özləri bilirlər!"*

Bu məktubdan sonra, günlərlə evdən dışarı çıxmadım. Dünya sanki başıma çökmüşdü! Özümü toparlaya bilmirdim. Uşağın doğumu əl-qolumu bağlamışdı. Dərdimi kimsəyə deyə

bilmirdim. Hər keçən gün qorxu içinə batırdım. Təbriz geniş bir zindan kimi canımı, ruhumu sıxırdı. Qarnım burunumda ikən məhəllədən uzağa gedə bilmirdim. Qalan 3-ayım da belə keçdi.

Uşağın xatirinə də olsa, Aleksandrın məni Bakıya alacağını ümid edirdim. Bu üzdən uşağın doğulduğunu Konsulluğa xəbər verdim. Konsulluqdan uşağın cinsini və doğum gününü öyrəndilər və uşağın kimliyinin 2 gün içində hazir olacağını bildirdilər. Dedikləri gün kimlik yetişdi. Kimlikdə yazılmışdır:

- *Ad: "Naşayaka"*

*Atası:"Aleksandr Karaçakov"*
*Anası: "Olqa İlqarovic"*
*Soyad: "Aleksi Karaçakova"*
*Doğum yeri: "Sovet Sosialist Azərbaycan Respoblikası" Bakı şəhəri*
*Doğum tarixi:05 iyul 1946!*

- İnanılmaz! İnanılmaz! Olqa bu dediklərin inanılmazdır. Kimsə buna inanmaz
- Olqa: (Çantasından bir kimlik çıxararaq) Cəvanşir rusca bilirsən?
- Sadəcə hərflərini bilirəm. Başqa heç bir şey bilmirəm!
- Bəs oxu! Bax! Bu ölmüş balamın metrikasıdır.
- Oxuya bildim Olqa. Yox! Mən sənə inanmıram demədim ki! Günortanın işığında insan oğruluğuna inanmadığımı və heyrətimi dilə gətirdim!

- Sonra Milli hakimiyyət yıxıldı. Məni isə, Rus casusu kimi tutub zindana saldılar. Səni yordum Cəvanşir, eləmi?
- Yox, yox!

Olqanın məsum baxışları və qan çanağı olmuş mavi gözləri hipnoz kimi məni içinə almışdı. Mənim Olqam, incə, gözəl, yazıq və qara yazqılı Olqam!

- Cəvanşir! Cəvanşir ! Məni eşidirsən, Cəvanşir?

- Hə, hə, həəə sevgi.....!

- Yox! Sus Cəvanşir! Sus hələ!
- Mənimlə Təbrizin Zindanında ..... !

Olqa içini çəkə-çəkə əlimi sıxaraq davam etdi:

- Mənə, hər gecə təcavüz olundu! Hər gecə birisi məni altına aldı! Hər gecə bir kərə öldüm! Südəmər balamı yanımda saxlamaq və əmizdirmək üçün tenimi rüşvətə aldılar. Məni öldürmədilər, mən isə balama görə ölmək istəmədim! 18 yaşındaki bir gənc ananın südünü əmdilər! İnanırsanmı? Şəhvətləri mükəmməl olsun deyə, balamın südünü əmdilər! 18 yaşında bir gəlini belə qarşıladılar Təbrizdə! 15 gündə 10-lar kərə təcavüzə uğradım. Nə yedimsə qusdum! Nə gördümsə çirklik nəsnəsi gördüm! Nə duydumsa şəhvətin əsarətini duydum! 15 gündən sonra bir əski parçası kimi sürgünə göndərildim. Qarnımdaki təcavüzün kimə aid olduğunu belə, bilmirəm! Ancaq bunu bilirəm ki, bu günədək özümü utandıracaq bir suç işləmədim! Bunu bilirəm ki, namusuma, şərəfimə təcavüz etmədim!

Bu, 18 yaşlı bir sevdalının alın yazısıdır, Cəvanşir! Daha ağlamayacağam! Artıq ağlamaya heç bir bəhanəm qalmamışdır! Saxlamağa da heç bir gizlim yox! Namusumun namussuzlar tərəfindən dəfələrlə kirlənməsi bir sirrsə, onu birisilə paylaşdığım üçün də peşman deyiləm! Artıq içimi sıxacaq bir şişim, utanacaq bir üzüm də yox! Qarnımda bir deyil, onlarca təcavüzün toxumu vardır. Bunu bilirəm! Bu kimsəsiz tuxum, mənim suyumla boylanacaq. Mənim qanımla bəslənəcək. Çarəsiz olsam belə, onu da bağrıma basaraq balam deyəcəyəm! Ölmək də istəmirəm. Çünki, onlarca təcavüz ölümünü acı gülüşlə yola salan bir gənc qadının, yaşam haqqı alınmaz qala olmuşdur artıq, Cəvanşir!

Şaşqın–şaşqın Olqanın üzünə baxırdım. O, daha ağlamayacağam deyə-deyə göz yaşları içində boğulurdu. Olqanın alın yazısını öyrənə-öyrənə gözümün qarşısında öz bacımı canlandırırdım. Görəsən, bu olanları mənim də bacım Olqa kimi yaşaya bilərdimi?
Ölüm haqdırsa, yaşam bəs nədir? Olqanın yaşamı, hansı ölümə bağlıdır!

Bundan sonra Olqaya hansı gözlə baxabiləcəyimi düşünürdüm. Hər keçən an Olqanı daha çox başa düşürdüm. 18 yaşında sevgilisi öldürülmüş bir Rus-Fars qurbanı! Casusluq adı ilə məhkəmə yerinə hər gün cinsəl təcavüz aparatı kimi qullanan bu yazıq qəribanın öyküsü... indisə Olqa-Cəvanşir macərası! Yox! Olqa və bir çox onun kimilərin günahı olamaz! Bu millətin, bu torpağın irz-namusu təcavuza uğramışdır. Təkcə Olqa deyil, mən də mənim anam da, anamın anası da, bütün millətimin

körpəsindən tutmuş ağbirçəyinədək, ağsaqqalınacan düşmənin qanlı təcavüzünə uğramışdır. Təbrizdən çıxanı duyduyum Eynalı gəlininin qanlı ləkəsini unutmaq olarmı? Evin içi düşmənin təcavüzünə uğrarkən, nəsnəsilə öznəsi, yiyəsilə qonağı ayrıt edilərmi? Bəs, Olqanın nə suçu varmı!? Bu yenilmə suçudur. Bu, bir ulusal çöküşdür! Mən də bu suçun ortağıyam! Qonşu xoruzun banına qalan, öz evinin vayına qalar! Hərkəs, vayının həyatını yaşır. Mənim, Olqanı suçlamağa heç haqqım yox! Biz, ikimiz də eyni ölçüdə ləkələnmişdik. Biz, bir təcavüzə uğramış ulusun, torpağın balalarıyıq. Biz, çiyin-çiyinə, sevgi-sevgiyə basılmış şərəfimizi və milli namusumuzu bu zülümdən qurtarmalıyıq. Yenilginin ilk qurbanlığı olqalarsa, ilk yenənləri də olqalar olmalıdır! Buna şübhəmiz olmamalıdır! Bu insancıl savaşda inancımız sarsılmamalıdır!

- Olqa-Olqa!

Mən içimə qapanırkən, Olqanın çoxdan içi keçmişdi. O, Tərlanın halsız bədəninə söykənərək təcizə uğramış ruhunu amerikan markalı kamyonun inisiativinə təslim etmişdi.

Kamyonda kimsə ayıq deyildi və ya ayıq qalmaq üçün yetərli gücü qalmamışdır. Alnından üzülərək gözlərinin üstünü papağı ilə örtmək istəyən Cabbar əminin mənə qarşı baxışları marağımı çəkirdi:

- Oğlum Cəvanşir, mən də qulaq müsafiri oldum. Olqanın acı yaşam hekayəsini dinlədim. İçimə qan düşdü! Olqa, çox cəsarətli qızdır. O, təpədən-dırnağa pak və arıdır. O, bir qəhrəmandır. Onun yaşantısı qəlbsiz düşmənin üz qarasıdır.

Bu təmiz mələyi bağrına bas! İçinə şübhə dolmasın! Baxaq görək bu qorxunc dalandan işığa çıxan olacaqmı! Sizin az-çox bənzər yaşantiniz vardır! Bir-birinizə dayaq olun! Bu mələyi içindəki əsarətdən qurtarmaq gərək. Bu yolda sənin böyük payın ola bilər. Yoxsa, onu istəsən də sevə bilməyəcəksən! Tezliklə bu mələk üzərindəki təcavüz izlərindən xilas olmalıdır. Məni anlayırsanmı, Cəvanşir?

- Hə əmi! Amma necə? Mənim əlimdən nə gələr ki?
- Orasını mənə burax! İlk öncə özü ilə danış və bu işə razı sal! İkinci kamyonda mənim bildiyim bir həkim var. O da Bakıdan gəlmədir. Amma səsini çıxarma! Onun haradan olmasını nə mən dedim, nə də sən bildim! Kimsə bilməsin! Məqsədə çatsaq, onunla danışaram. Bu mələyin canını mikroblardan təmizləmək gərək!
- Cabbar əmi, Siz bütün yol boyu yatmışdız ki! Bəs....
- Yox oğlum! Mən bir millətin savaş meydanında yenilgisinin utancaq səhərini seyr edirdim. Heç açılmaq istəməyən bir günəşsiz, dumanlı, şaxta və ürək sıxıcı səhərini seyr edirdim! “Göktanrı Türkü qorusun”!

☆ ☆ ☆

**<u>Tehran!</u>**

***Azqınlıq, satqınlıq, manqurtluq şəhəri!***

Burası Tehran! Panfarsizm ağacının bitən yeridir. Bir dil, bir ulus, bir dövlət yaratma fabrikasıdır. Burası farslaşdırma monopoliyasının doğan yeridir! Təməli cinayətlə yapılmış qul bazarıdır!

Burası azadlığa qənim kəsilən mafiya yığnağıdır! Burası bizim yazqımızı çirkli qələmilə pozmağa çalışan sömürgəçi güclərin yuvarlaq masasıdır!

Və biz, burdayıq! Bura isə, bizim evimizdi! Biz əsarət karvanıyıq. Bunlar isə, nəcib evimizi basan yolkəsənlər! Biz, buraya əli-qolu bağlı, boynu qandallı gəldik. Bunlar isə, bizim evimizə qurşunla, topla, tüfənglə vardılar! Tam bir əliqanlı düşmən kimi!

Cey Padiqanına Xoş gəlibsiniz!

Böyük bir ordu evinin həyətinin bir küncündə bəlirsiz gələcəyimizi gözləyirdik. Hava ötən günlərə görə bir az ılıq görünsə də, narın-narın qar yağışı səpələnərək üzərimizə qonurdu. Tərlan və Olqanın üzərinə çəkilən pətunun bir bucağı da mənim ayaqlarımı ötmüşdü. Onların yatmış üzlərinə baxırdım. Hər ikisinin çarəsizliyi dodaqlarının qurumuş halından bəlli olurdu. Hər kəsin durumu bir-birinə bənzəyirdi. Çevrəmizi bir neçə gözətçi əsgər qoruma altına almışdı. Tərlanın yuxu havasında içini çəkməsi diqqətimdən qaçmırdı. Onun qığıltısına Olqa oyandı. Tərlana "balam-balam" deyərək onu uyutmağa çalışdı. Tərlanın ayılmaq istəmədiyi dərhal yuxuya getməsindən bəlli olurdu. Sanki, ayılarsa yeməyə ehtiyac duyacağından və

qarşılığını tapmayacağından əmin idi. Bu üzdən gözlərini açmaq istəmirdi. Bilmirəm nədənsə, Olqanın gözlərində bir çəkimcəllik görünürdü. O, daha dünənki kimi əminliklə mənə baxmırdı. Onun davranışlarında özünə güvənc artmışdır. O, mənə bir şeyləri anlatmağa çalışırdı. Bəlkə də, Tərlan olmasaydı, mənə heç yaxın gəlməzdi! Mən, Olqanın gizli duyğularını ələ almaq üçün bütün cəsarətimi toplayaraq soruşdum:

- Olqa, necəsən?

Olqanın dodaqları gülümsədi. Bir an, onun bu sözlərə çox ehtiyac duyduğunu düşündüm. Elə buna görə də, bütün gücümlə ona yaxınlaşmağa çalışdim. Bu anı özüm üçün ciddi sınaq sayırdım. Mən səbirsizliklə Olqanın cavabını gözləyirdim. Sonunda az keçmədən cavab gəldi:

- Cəvanşır məni artıq tanıyırsan. Mən içimdəki bütün gizlətdiklərimi sənə söylədim. Məni bağışla! Alın yazım kimsəni qaratmamalıdır! Mən, səni üzmək istəmədim. Sənə olan bənzərliyimi səninlə paylaşdım. Sən isə, gözyaşlarını mənimlə paylaşdın. Bura qədər yetər məncə! Bunları səninlə paylaşmaqdan utanmadım! Səninlə tanış olmaq çox gözəl duyğudur. Mən, balam üçün tənimi verdim. İndi nə balam var, nə də tənim. Təslim ediləcək sadəcə heykəlim qalmış. Yaşam üçün tək nədənim - öcümdür. Mən, qarşıma gələn həyatdan intiqam almaq istəyirəm. Bunu bacarmaq üçün özgür olmağım gərəkir. Məni anlayırsan?
- Olqa bax! İntiqam almaq üçün təkbaşınalıq yetməz! Yaşamaq ən böyük intiqamdır Olqa! İntiqam umudu ilə yaşamaq özü də bir bacarıqdır. Gəl bunu birlikdə bacaraq. Mən sənin bütün

kədərlərinlə tanış oldum. Yüz minlərcə soydaşımız kimi, biz də intiqam hissilə günə başlamalıyıq! Sənin düşüncən doğrudur. Bu ölümcül anlarda öc inadı olmadan, yaşam çəkilməz! Yaşamadan necə öc alınar, Olqa? Bizim bu yaşam yolunda birliyimiz gərək! Bunun adını sevgi qoy, öc qoy, necə istərsən bunu adlandır! Ancaq bizi bundan uzaq etmə! Bizi, təkbaşına öz niyyətləri üçün yem edərlər. Yolumuz və taleyimiz bəlli deyil, Olqa! Mənə izin ver atamı, anamı, qardaşımı, bacımı və gözümün önündəki minlərcə izləri silinmiş əzizlərimi sənin ürəyində gömüm! Bunu məndən və Tərlandan alma! Mən sənin Cəvanşirin olmaq istəyirəm. Buna izin ver lütfən! Birlikdə intiqam almağa qalxarsaq, uğurlu olacağına ümidimiz artar. Mənim sənə ehtiyacım var. Biz, bir millət olaraq, təcavüzə uğradıq. Yalnız sən zorlanmadın ki, Olqam! Sənə olan təcavüz mənə də oldu! Mən də yenilgi qurbanıyam! Bu sirri ölənədək içimdə gizli saxlamağı düşünsəm də, qarşımda qəhrəmanca bir davranış gözümü açdı. Gəl birlikdə namusumuza uzanan əlləri qıraq.

Olqa! Ürəyim sənə səslənir: Səni sevirəm! Mənimlə yaşam qazanma savaşına girirsənmi? Mənimlə evlənərsənmi?

Olqa, qımıldanmadan gözlərimin içinə dalmışdı. Gözləri və bədəni bir heykəl kimi qarşıma dikilmişdi. Kiçik təpki belə göstərmirdi. Ağtum yanaqları Savalanın döşündə yayılan salı buzlaqlara bənzəyirdi. Mən, onu gördüyüm andan bəri heç belə ölümcül görməmişdim. Onun susqun və şaşqın halından içimə gizli bir qorxu düşürdü. Ömrümdə belə cəsur, belə tez və utanc xaricində təpki sərgiləməmişdim. Belə acı olaylar içində sevgi

sərgiləməyin anlamını özüm də anlamırdım! Gözlərim Cabbar əminin iradəsiz qapalı gözlərinə sataşdıkca, utancım daha da artdı! Yəqin ki, dünya görmüş bu sürgündaş əmi yenə hər şeyi eşitmişdir!

Olqanın üzünə baxmaq üçün bir bəhanə gəzirdim. Ortada yaranan səssizlik sinirlərimə toxunurdu. Qorxurdum! Bu cəhənnəmin içində bir də cəhənnəm yaşamaq istəmirdim. Mənim bu başıbəlalı qıza vurğunluğum artıq üzə vururdu! Bir yerlərə qaçacaq, gizlənəcək şansım yox idi. Mən, Olqaya aşiq olmuşdum! Ona vurulmuşdum! Bundan sonra onsuzluğu düşünmürdüm! Bu fırtanalar içində Olqa dilə gəldi:

- Cəvanşir nə dedin?
- Nə zaman ? İndimi? Bir şey dedimmi?
- Biraz bundan öncə nə dedin?
- Hə! Sə sə sə səni sevirəm dedim!...
- Yox, daha öncə?
- Mə mə mə mənimlə evlən dedim!
- Yox-yox, daha öncə zindanda?
- Hə, hə, hə doğru!...Sənə yapdıqlarını mənə də yapdılar! Dedim!
- Necə? Necə? Sənki oğlansan! Sənə necə yaparlar ki!?
- Onlar dəfələrcə mənə və mənimlə bir bənddə olan yoldaşıma təcavüz etdilər.
- Onlar üçün dişi vəya erkək fərq etməz! Təcavüzün erkək, dişisi yoxdur, Olqa! Onların dediyinə görə, eşşəklər iki işdə qullanılır: Yük daşımaqda və və və....! Olqa, bundan sonra yenilmənin acısını deyil, təcrübəsini yaşantımıza qatmalıyıq.

Acını birlikdə çəkdiksə, gələcəyə də birlikdə baxmalıyıq. Nə deyirsən Olqa? Olarmı?

Olqa, əlindəki kiçik məndillə Tərlanın burununun önünü silərək:

- Sən, bunları mənim ürəyimi almaq üçün deyirsən Cəvanşir. Eləmi?
- Yox, yox! İnan ki dediklərim tam bir gərçək! Mənim iki qonşumu ağır işgəncə və təcavüzdən sonra qurşunladılar. Onlar, Firqənin Gənc Təşkilatının başçılarından sayılırdılar. Mən onları Təbrizin Danişsaray salonunda görmüşdüm. Onlardan daha da çalışqan birinin başına nə gəldiyini bilmədim. O yoldaşın adını anımsayıram. Içimizdə ən savadlı qələmə sahibi idi. Onun adı Təği idi. Ha, Təğı Zehtabi! O, Firqə gənclərinin öncülü və sədri sayılırdı. O, çox qorxkamaz, savadlı və qələm sahibi idi. Firqənin rəhbərliyi qaçandan sonra, o da gözdən itdi. Mən, özümü onlarla bir çəkidə qoya bilmərəm. Mənim rütbəm-mütbəm olmadı. Bu üzdən payıma işgəncə, limonat şüşəsi və hərbiçilərin təcavüzü düşdü. Mənim də səndən saxlayacaq bir sirrim qalmadı, Olqam!

Bizdən biraz aralı, gənc bir ananın qucağında ağlayan uşağın sızıltısı qaravolçu əsgəri çilədən çıxarmışdı. Əsgərin çarəsiz anaya olan hirsli baxışları an-ba-an nifrətə çevrilirdi. Uşağın sızıltısı və gənc ananın çaş-baş susdurma yöntəmi əsgəri çıldırmağa başladı. Əsgərin sərt addımları gənc ananı yerində dondurdu:

- Ey türke nəfəhm! Məgər ne mibini ke “korre xəre”t ər-ər mikone?/Ey qankamaz türk! “Eşşək balanın” anqırmasını görmürsən? Zud xəfeş kon ono!/Tez susdur onu!/

Üsyançı gücü bitmiş, ayaqda duracaq halı qalmamış bizlər üçün əsgərə qarşı hərəkətə keçmək deyil, sözdə etiraz etmək belə, mümkünsüz görünürdü! Gənc ananın qorxaraq sinir keçirməsi, çox keçmədən qorxunc göz yaşlarına çevrildi. Onun hönkür-hönkür aglamasından körpənin sızıltısı eşidilməz oldu! Gənc ana, balasının günahını üzərinə çəkmək üçün bütün gücü ilə ağlayırdı. Təbrizdən çıxanı yardımçı əlini kimsədən əsirgəməyən ağbirçək ananın qaçaraq gənc ananı qoynuna çəkməsi və əsgərə bağırması dərin utancıma səbəb oldu! O, öncə gənc ananı sakinləşdirdi. Sonra isə, balasını qucağından alıb bağrına basaraq oxşadı! Bu görüntüdən təsirlənən Olqa, Tərlanı mənim qucağıma buraxaraq, gənc ananın yanına getdi. Tellərini sığallayaraq onunla pıçıltı ilə danışmağa başladı. Sonra yaşlı anaya dönərək, uşağı ondan alıb, üzünü divara çevirərək uşağı əmizdirməyə başladı. Çox keçmədən uşaq da, anası da normal hala döndülər. Ağbirçək ana Olqanın üzündən öpərək əmin addımlarla əsgərə sarı yürüdü!

Saatlar öncədən ***“Cey padiqanına xoş gəlmisiniz”*** tablosunun arxasında qurulan tək bir tavanlı çadırın içinə sığınmışdıq. Ac-susuz və titrək halda, sadəcə, quru bir mərhəmət gözləyirdik. Nə imamdan, nə peyəmbərdən, nə Qurandan, nə də Tanrıdan, ancaq bir əsgərdən ümid gözləyirdik! Əlində bir səbət çörəklə gələcək əsgəri gözləyirdik! Qanımız damarda, dilimiz ağızda, diləyimiz

bağrımızda donmuşdur. Kimə, nəyə inanacağımızı unutmuşduq! Hər nə də olsa, sonunda bir əsarətin qalıntıları sayılırdıq!

Çevrəmdə ac-yalavac sevdiklərimi görüncə, yerə-göyə, özümə və özümdən olan hərkəsə üsyan edirdim.

*“Ay Ata Pişəvəri! Bizi kimlərin əlinə buraxıb getdin! Səndən sonra bu millətin başına gələnləri düşündünmü heç!? Heç düşündün ki, əlifbanı bilməyən bir fars əsgəri millətinə qarşı “Türkə Xər” bağıracaq! Heç düşündünmü səndən sonra qurulacaq minlərcə dar ağacını, diziləcək minlərcə qurşun sırasını!? Heç düşündünmü bunları, ey mənim sevimli atam!”*

Sevmək nə böyük günah sayılırmış! Atamın bir sözünü xatırlayırdım! O, tutulmadan iki gün öncə qaçaraq evə gəlib, bizimlə sağollaşdı. Atam gedincə, məni bir tərəfə çəkib söylədi:

- Oğlum! Hakimiyyətin dönməsinə umud yox artıq! İki günə qalmaz Təbrizdə qan axar! Siyasətçilər indidən yük-yaplarını bağlayıb Culfaya sarı ayaqlanıblar! *“Ölmək var, dönmək yox!”* andı tarixə qaldı! Biz fədailər sonuna qədər vuruşmalıyıq. Bizim gedəcək yolumuz yox! Anan və bacın bundan sonra sənə əmanət! Hadı, səni görüm əziz oğlum! Bu millətin qanı yerdə qalmasın! Üzülümə oğlum, başını dik tut! İgidin başına iş gələr!”

Atam, qurşuna dizilincə *“İgidin başına iş gələr”* anlamını bütün dərinliyilə dərk etdim. Demək ki, bu öykünün başı ilə sonu arasında sınırsızlığın boyutlarını boy-boy görmək gərək imiş! Mən, bu trajedini anlamaq üçün yaşayıb görməli idim!

Bir gün şəhid qardaşımı qarşıma alıb soruşdum:

- Dadaş, Pişəvəri babanın Tehranda nə işi vardır? Niyə Tehrana getmək istəyir? Onu orada öldürməzlərmi? Fars dövlətilə nəyi paylaşmaq istəyir? Səncə, bu işin arxasında bir tuzaq yoxdurmu? Səncə, Tehran qorxunc yer deyilmi? Çiynində silah, belində qurşun-qurşaqlı şəhid dadaşım belə dedi:

- Cəvanşır, yaxşı qulaq as! Biz türklərin heç bir şeydən qorxusu yoxdur. Pişəvəri baba da bir Türkdür. O, haqqımızı almaq üçün Tehrana deyil, dünyanın o biri ucuna belə, gedər. Farsların onu yox etməyə gücü yetməz! Ancaq mənim içimdə də bir təlaş vardır! Bu ruslara bel bağlamaq doğru deyil. Rusların razılığı olmadan Pişəvəri yoldaş Tehrana getməz! Bu, qurxunc oyundur məncə! Tehran qədər Moskva da qorxuncdur!

Şəhid dadaşım bunu dedi, əlini tüfənginin "gələn-gedən"inə çəkib onu öpərək dedi:

- Cəvanşir, sənin oxuyub böyük adam olman üçün ömrümün sonuna qədər bu tüfəngimlə döyüşməyə və can verməyə hazıram. Təki sizlərin yetişib bu gözəl Azərbaycan vətəninə yiyələnməyinizi görsək! Bir Vətəni düşmən əlinə verməmək üçün, qurbanı olduğum bu yaraq gərəklidir.

Mənim dadaşım Tehranı heç görmədi. O, Tehranı görməyi ağlının ucundan belə, keçirmədi.

Sonunda bizi üstü örtülü bir salona yerləşdirdilər. Yerli bir çavuşun muştuluğuna görə, bizi bir saat sonra yemək üçün başqa salona götürəcəklər. Dadaşımı düşünürdüm. Onun igidcə vətən uğruna şəhid olmasını düşünürdüm. Ölümü dara çəkərək,

yaşasın özgürlük! "Yaşasın Azərbaycan" deyə bağırmasını düşünürdüm. Ona qorxunc Tehranı anlatırdım:

- *"Dadaş, burası Tehran! Burası dediyin qorxunc Tehran! Bizə və mənliyimizə qarşı düşmən biçilən qorxunc şəhər! Havası qurşunlu, qoxusu qanlı, duzağı bataqlı! Burası Tehran! Burası qurşunlu, qan qoxulu, hiyləkar şəhər! Burası insanlığı pozan kirli alan! Burası Tehran! Burası super güclərin təciz planlarının mərkəzi! Burası südəmər qızlarımızın süd qoxusu verən incisinin param-parça etmək əmrini verən başkənd! Burası dan yerinin üzünə pərdə çəkən qara duman! Burası Tehran! İnsanlardan insanlığı çalan püsqülü yer! Burası Şeytan yığıntısı! Burası qorxunc şəhər! Biz isə, Dadaş, buranın əziz qonaqları, qandallı, boynu bükük qonaqlarıyıq!*

  *Dadaş, demişdin ki, səndən gizlin-saxlım olmasın! Dadaş, sənə kimsəyə açmadığım bir gizlimi açıram! Dadaş, səndən sonra atanın vay səsi gəldi. Sonra mənim səsim dustaqdan gəldi. Zindanda başıma gələnlər, ağlına belə gəlməz! Sonra cəhənnəm yolunu göstərdilər bizə dadaş. Atamızın mənə tapşırdığı anamızı və gözəl bacımızı cəhənnəm yoluna qurban verdim. Onları qoruya bilmədim, Dadaş! Sonra 29 vətəndaşı yolda şaxtaya təslim etdik. Dadaş, bu zülümət içində bir də, ildırım çarpmış qara sevdaya tutuldum!*

  *Danişsarayda oxuyarkən iki okuldaşın ilk baxışda sevdalaşıb ildırım nikahı ilə evlənmələri aramızda dəlilik kimi anlaşıldı. Ancaq, indi özümlə Olqa arasında yaranan sevdanın adını nə qoyacağımı bilmirəm. Mən, gərçəkdən Olqanın sevgi dənizində üzürdüm. Onun susqunluğu ilə susur, həyəcanı ilə*

*vulkana dönürdüm. Olqa, içimdəki ümidsizliklərə qarşı dirənc bayrağı olmuşdu. Gözümü ondan çəkə bilmirdim. Ondan bir gözəl söz gözləyirdim. Ancaq onun susqunluğu bitmək bilmirdi. "Olqa bir dinsəydi! Onun içindən keçənləri bir bilsəydim. Sevgi atəşi, sönük qəlbimi atəşləndirsəydi"!*

Mənim üçün artıq Şibli, Zəngan, Mərdabad acısı geridə qalmışdı. Anamın, bacımın, sürgündaşlarımın gömdüyü yeri belə, xatırlamaq istəməyirdim. Bütün təsəllim, təkcə, Olqa olmuşdu. Nə yaşadığımı bir mən, bir də içimdə hər an dəyişən tanrım bilirdi!

*"Tanrım, Mənə nə olur! Mənim öc alanımı daratma! Məni intiqam almadan öz yanına alma! Tanrım, mən bitərsəm, yenidən toparlanmam üçün yenidən doğuşum gərək! Məni Olqa ilə sınağa çəkmə, ey Tanrım!"*

☆ ☆ ☆

Tehranın Cey Padiqanında keçirdiyimiz ikinci gün də arxada qalmışdı. İki gün boyunca yola çıxmadan bir yerdə dincəlmək hər kəsin ürəyincə idi. Azdan-çoxdan yemək yeyib, dincəlib hamam etmək, bizim üçün çox sevindirici idi.

Təbrizdə tutulandan bəri, hamam üzünə həsrət qalmışdım. Bu üzdən, iki gecəlik də olsa, təmiz və qaşınmadan yatmaq çox gözəl idi. Sözsüz ki, bu təkcə mənim üçün deyil, hərkəs üçün gözəl duyğu sayılırdı. Bu iki gündə Olqayla mənim aramda olan sevgi izlərinə baxmayaraq, onun yan gəzməsi və bizim aramızda körpü rolu olan Tərlanın rahatsızlığı, Cabbar əminin mənə artan bağlantısı ilgimi çəkən önəmli gəlişmələr olmuşdu. Bu iki gündə

hər kəsin üzünə biraz da olsun, al sıçramışdı. İki gün öncə körpəsilə birlikdə az qala, böyük olay yaradacaq ana öz balasını oxşayırdı. Onların kefi yerində görünürdü.

Bizim hamımızı böyük bir yataqxana salonuna yerləşdirmişdilər. İkiqat köhnə yataqların cır-cır səsindən hərkəs qulaqlarını tuturdu. Salonun sol tərəfində kişilər, sağ tərəfində isə, qadınlar yer almışdı. Kişi-qadın bölməsi kimsənin əmrilə deyil, gələnəksəl öz vermişdir. Bu üzdən mənimlə Cabbar əmi bir yatağı paylaşmışdıq.

Geçə saatlarında iki silahlı əsgərin salona girişi marağımızı çəkdi. Əsgərlərin girişilə bir an içində səssizlik salona hakim oldu. İki əsgər kənara çəkilb sayğıda bulundular. Bir neçə andan sonra başçavuş Bayramı və ardınca onbaşı çavuş Qulaməli Dərvişlu salona girdilər. Doğrusu, onları görüncə həm çaşdım, həm də sevindim. Ayıq olan hər kəs onları görüncə, yatağının yanında ayağa durdu. Çavuşlar çox yaxın duyğu içində hər kəslə maraqlandılar. Sonra yavaş-yavaş bizə yaxınlaşdılar. Cabbar əmi ilə mən yan-yana dayanmışdıq. Cabbar əmi başçavuş Bayramını görüncə başını yerə saldı. O, sanki Başcavuşu görmək istəmirdi. Çavuş isə, onun yanından keçərək gözaltı Cabbar əmiyə baxaraq, qarşımda dayanıb:

- Təqdir-i ilahi! Bir daha səni gördüm. Şükür olsun! Cəvanşir necəsən?
- Yaxşıyam sağolun sərkar. Sizə nə oldu birdən yox oldunuz?
- Başımıza gələnləri soruşma! O gecə, sərkar Əcəminin yardım gətirməsinin gecikməsilə hamının yolda qalıb öləcəyini düşündük. Bu üzdən mənimlə Dərvişlu bəy yardım gətirmək

üçün yola çıxdıq. Cipimiz yolda dayandı. Sürücü bir çox çalışdı. Maşının startı da işdən düşəndən sonra, çarəsiz Əcəmigilin gəlməsini gözlədik. Artıq iş-işdən keçmişdi. Əcəmigilin gəlməsini bilmədik. Biz ikimizdə bayğın düşmüşdük. Sonra yazıq sürücü əsgərin çöldə canavarlar tərəfindən boğulmuş xəbərini aldıq.

- O gecə 29 nəfər heç gözlərini açmadılar cənab Bayramı! Uşaqlı-böyüklü 29 nəfər vətəndaşımız qurbanlıq oldu!
- Eşitdik! Çox üzüldük. Bəlkə də, Tanrının istəyi bu imiş! Nə bilim! (o yan - bu yana baxıb yavaşca, sankı Cabbar əmiyə söz yetirmək üçün deyir!) Biz, bir yenilginin qurbanları olduq! Bunu bəziləri məndən daha yaxşı bilir! Öncə fikirdə, sonra isə fizikdə yenildik! Bunu Qulam qardaşda bilir! Biz, hamımız ata-anası ölmuş yetimlərik! Boşuna bir-birimizi günahlandırmayaq!

Bu başçavuş öncə gördüyüm şah ordusunun hərbiçisi kimi danışmırdı! Sanki bunun zehnində bir şeylər olmuşdu!
Onunla Cabbar əminin arasında bir sirrin olmasına artıq şübhəm var idi. Onun əsgərləri yaxına buraxmamasının səbəbini başa düşürdüm. O davam etdi:

- Oğlum Cəvanşir, eşitdim ki, bir uşağa babalıq edirsən? Afərin! Olqa da balasını əldən verdi! Ona da üzüldüm! Burada bəzi şorgözlər var! Onların Olqada gözü ola bilər. Olqanı gözündən ayırma! Onlar sizi ər-arvad bilirlər! Bildiyimə görə, bu Əcəmi də bizimlə gəlməyəcək artıq! Sizin haqqınızda bilgilərin hamısı mənimlə Qulamı bəydən istəyəcəklər. Yəni əldə yazılı heç bir şey yox! Qulamı bəyi özünüzdən biri bilin! Anladın...anladın!

Çavuşun son sözləri içimə sevincilə, yanaşı böyük bir qorxu saldı. O, bunları deyərkən, ağır bir yükün altında olduğumu anladırdı. Başqa yandan onun, gecənin bu çağında gəlib bunları deməsinin anlamı olduqca ciddi önəm daşıyırdı. Mənə elə gəlirdi ki, çavuş Bayramının salona gəlməsinin təməl nədəni mən idim. O, gec olmadan gərək olan mesajlarını mənə çatdırılmasını planına qoymuşdu. Onunla birlikdə gələn Dərvişlu bəyi ilk kəz olaraq, Qulam qardaş adlandırması da düşünülmüş ifadə tərzi idi. Onun az və öz danışması bizim dördümüz üçün də açıq-aydın yol göstərisi sayılırdı. Mən, Cabbar əmini yeni tanımışdım. Adından başqa heç bir bilgim yox idi. Ancaq bəlli olan, Başçavuş onu yaxından tanıyır, hətta yoldaşıdir kimi görünürdü. Çavuş Dərvişlunun olduğu kimi səssiz-səmirsiz gəlib, tanıqlıq edib getməsi də bir qəribə görünürdü! Çavuş Dərvişlu, gün keçdikcə mənim üçün maraq qaynağına çevrilirdi. Onun kədərli gözləri, axsaq yanaqları, sözə açılkamaz dodaqları və susqun baxışları məni Firqə başçılarının gizlicə Təbrizdən çıxma anlarına götürürdü. Mən onun sirrini aça biləcəyəmmi? O, bu izni mənə verəcəkmi?

Çavuşların salondan çıxması ilə dörd bucaqda yanan çiraqlar da söndü. Çiraqların sönməsi ilə, suallarla birlikdə qaranlıq da üzərimə çökdü!

Səhər erkəndən oyanın zəngülələri qulağıma vız gəlirdi! Heç oyanmaq istəməyirdim. Kipriklərimin bir-birindən ayrılacağı yox idi. Bəlli ki, səhərədək gecə sərsəmilə uğraşmışdım! Pendir-çörək və çaydan sonra bizi Cey padiqanının meydanına topladılar. İki ulduzlu bir ofiser bizim qarşımıza gəldi. Onun

yanında Başçavuşla birlikdə çavuşlar Əcəmi və Dərvişlu da durmuşdurlar. O, Başçavuşa bir şeylər söylədi. Başçavuş isə, saygı duruşu ilə onu yanıtladı. Gənc subay bizə üzünü tutaraq, farsca danışmağa başladı. Onun sözlərini Başçavuş türkcəyə çevirdi:

- Sizin Təbrizdən bura qədər gəlməyinizin səbəbi çox aydındır. Biz, hərbçiyik. Biz, yalnız əmrləri yerinə yetiririk. Mən, öncə yol boyunca şaxtadan əziyyət çəkdiyinizi dilə gətirirəm. Siz, çox çətinlik çəkdiniz. Sizin içinizdən şaxtada ölənlər oldu. Başınız sağolsun. Tanrı sizi bu günə salan Sovet nökərlərinə lənət etsin! Onlar, sizin belə avara olduğunuza səbəb oldular. Biz, bir millət və bir ümmətik! Bir dilimiz, bir dinimiz, bir ölkəmiz və bir şahımız var. Azərbaycan İranın başıdır! Məgər aslan başsız qalar? Siz, bundan sonra daha başqa yerlərdə yaşayacaqsınız. Getdiyiniz yer əziz vətənimizin ən gözəl bölgələrindəndir. Siz, böyük bir köçün kiçik bir ilkisiniz! Getdiyiniz yerdə gözəl yaşamağınızı gənc padşahımıza borclusunuz! Şahpərəst və iranpərəst olmaq üçün öncə farspərəst olmağınız gərək! Bilin ki, siz türk deyilsiniz! Türkün ünvanına verilən şüarların sizə dəxli yoxdur. Siz, azərisiniz! Azəri, özünü "aria nəjad" bilər! Sizin, eşşək türklərlə heç bir bağlantınız yoxdur! Siz, böyük babamız – "Kuroş"un quşağısınız! Siz, gənc şahımızın haqlı olduğunu dünyaya bağırmalısınız! Getdiyiniz yerdə əsl ana diliniz olan – şəkər Fars dilini yenidən öyrənəcəksiniz və balalarınızla məmləkətin rəsmi ana dilində danışacaqsız! Siz, farsın bir qolu olan azəriləşməklə birlikdə mədəniyyətin də nə olduğunu düşünəcəksiniz! Sizin eşşək türklərlə heç bir

yaxınlığınız yoxdur! Osmanlılarla iranlılar hər zaman düşmən olub, düşmən qalacaqdır! Bunu Şah babamız – "İsmail Səfəvi"dən öyrənmək gərəkdir! O da, sizin kimi bir azəri farsı olmuşdur. Osmanlı şahları onu türk deyil, əcəm adlandırırdılar! Onlar, haqlıdırlar!

Onun sözlərini çevirən Başçavuşun dodaqları titrəyirdi. Özəlliklə, "türkexər" sözünə gəlincə, o eşşək sözünü demədən keçirdi. Gənc subay isə, Başçavuşun yarımcıq çevirməsini görmədən və ya bilmədən diqqətə almırdı. O, milli kimliyimizə puskürdüyü nifrətdən sonra sözünü belə davam etdi:

- Birazdan sizi "Nasir Xosrov" xiyabanına götürəcəklər. Orada, amerikan avtobusları ilə yeni şəhərinizə sarı gedəcəksiz. Uslu olan sağlam məqsədə çataraq əziz tutulacaq! Üsyana qalxanlar isə, heç şübhəsiz, qarşılarında qurşun görəcəklər. Seçim sizindir! Sizin içinizdə yazıb-oxuyan gənclər var. Onlara məktub və gündəlik yazdırmaq yasaqdır! Hərkəs dünəni unudacaq! Yeni şəhərinizi özünüz abadlaşdıracaqsınız! Təbrizi beyninizdən çıxarın! Təbrizdəki ailənizi, dostunuzu, sevdiklərinizi unudun! Ən qısa zamanda farscanı öyrənin! Getdiyiniz yerin bütün əhalisi irani dildə danışır. Siz də çalışın şirin farscanı tez öyrənin. Nasir Xosrov qarajında başqaları da sizinlə yolcu olacaqlar. Onlar da, sizin kimi vətən satanların yerinə cəzalanırlar. Maşında hər birinizə yol payı veriləcək! Onu elə bölün ki, ac qalmayın! Bir də, Təbrizdən bura qədər canını sizin sağ qalmağınız uğrunda təhlükəyə salmış çavuş Əcəminin sizinlə olma görəvi burda bitir. Sözsüz ki, başınızın üstündə şəhər-şəhər

dəyişən seçilmiş qəhrəman məmurlar olacaqlar. Tehrandan sizi götürəcək iki milli çavuşumuz var. Onlar yenicə Təbrizdən gəlmiş, Azərbaycanı əcnəbilərdən qurtaran, yüzlərcə xaini cəhənnəmə göndərən vətənpərvər qəhrəman çavuşlardır. İki dildaş çavuşlarınız isə, sizinlə birlikdə olacaqlar! İndi hamı birlikdə üç kəz "***Cavid Şah***" deyib kamyonlarda yerləşin!

- Cavid Şah, cavid şah, cavid şah!

İki ulduzlu fars subayın milli kimliyimizə, vətənimizə, insan şərəfimizə, liderlərimizə və özgürlük haqqımıza faşist saldırısından sonra hər kəsin yox keyfi olduqca pozulmuşdur. Bir-birimizin üzünə baxacaq qeyrətimiz qalmamışdı. Fars subay qarşısında olan bizlərin insanlığı böyük sual altında idi! Bu faşist fars zabitin gözümüzə baxa-baxa bizə - Türk millətinə "xər" deməsinin acısını uda-uda qaldıq! Bu durumda milli qeyrətimiz donub buz olmuşdur. Başçavuşun və çavuş Dərvişlunun onun yanında silahsız durması da çox anlamlıydı. Təbrizdən çıxanı o ikisinin belini silahsiz görməyə alışmışdıq. Ancaq bu görüntünün anlamı daha dərinidi. Faşist subay, iki Türk çavuşa tam bir düşmən kimi baxırdı. Onların adını çəkmədən, *"İki dildaş çavuşlarınız isə, sizinlə birlikdə olacaqlar!"*sözünün anlamı, bu ikisinin də sürgünə göndərilməsi idi. Özəlliklə, atası yaşda Başçavuşa qarşı çirkin yanaşması, öncədən planlaşmış bir göstəriş idi!

Zindanda işgəncəli cinsəl təcavüzə uğradığım anlarda da, fars çavuşlarının ən yayğın dil əzbəri həmin "*türke xər*" sözü idi. Bu üzdən, burada olan hər kəs üçün bu termin tanış idi. Bizim üçün,

artıq ulusal yenilginin "fatura"sı kəsilmişdir. Ya öl ya da tabe ol! Başqa yol yox idi artıq! Biz, hələ də bu iki yol ayrıcındaydıq. Öləkmi, yoxsa ölümcül yaşayaqmı!?

☆ ☆ ☆

**Nasir Xosrov Xiyabanı!**

"Cey" ordugahından Nasir-Xosrov xiyabanı arasında o günədək görmədiyim daha uca binalar görürdüm. Mən bundan öncə, Təbrizdən başqa böyük şəhər görməmişdim. Tehranın şəhər düzəni Təbrizə görə, daha modern görünürdü. Şəhərin içində enli və geniş küçələr daha çox idi. Hər küçədən başqasına keçincə, daha sıx insanla dolu küçələrlə qarşı-qarşıya gəlirdik. Burada insanların çeşidli geyimləri marağımı çəkirdi. Burada modern geyimli insanların sayı Təbrizdən daha çox idi. Təbriz də olduğu kimi, burada da maşın, fayton və insanlar iç-içə hərəkət edirdilər.

Tehran, bəyüklüyü ilə Təbrizdən fərqlənirdi. Bir il milli hakimiyyətin dönəmini hesab etməsək, İranın ən önəmli şəhəri sayılan Təbrizdə kərpiç kərpiç üstünə qoyulmamışdır. Ölkənin iki böyük şəhərləri sayılan Tehranla Təbriz arasında tam bir ögeylik gözə dəyirdi. Tehrandan birbaşa yönələn antitürk-antiazərbaycan siyasəti 1925-dən sonra heç çəkinmədən fars hakimiyyətinin başlıca siyasəti olmuşdur. Keşkə belə olmasaydı. Amma bütün çəkdiyim, gördüyüm anılarımla bu şəhərin püskülü olduğunu dərindən anlayıram.

Bizi bəlirsiz məqsədə sürən hərbi avtobus, sonunda uzun bir xiyaban ardından göy mozaik üzərinə yazılmış "Naser Xosro"

xiyabanına girmiş oldu. Xiyaban çox qalabalıq görünürdü. İrəlidə bir gözəl bina gözə çarpırdı. Burası “Şəms ül İmarə” sarayı idi. Hansı ki, türk şahı Nasirəddinin əmrilə tikilmişdi. Bu gözəl bina, indiyədək gördüyüm ən böyük və nəhəng tikinti idi. Bu binanın qarşısından geçərkən ruhuma bir gözəllik çökdü. Öyrəndiyimə görə, bu binanın tikinti ustalarının türk olduğu bəlli oldu! Bu binadan biraz sonra bir qaraja girdik. Orada uzun dimdikli avtobuslarla yanaşı iki ordu kamyonu da dayanmışdı. Bizim qaraja girməyimizlə kamyonlarda yerləşən silahlı əsgərlər yerə enərək sıra çəkdilər. Burada Cey ordu evindəki hərbi düzəndən əsər-əlamət yox idi. Əsgərlərin başı üstündə üç səkkizli bir çavuş dayanmışdı. Onun əmrilə əsgərlər, sadəcə hazırlıqda dayandılar. Bizim iki avtobusumuzdan başqa, orta bir avtobus da qaraja girmiş oldu. İki kiçik pəncərəsilə mənə çox tanış gələn bu avtobusun haradan gəldiyi bəlli idi. Cey ordugahında bizi eşşək adlandıran fars subayının dediyinə görə, Tehrandan da bizə qatılan “xain”lər olacaqmış!

Bizi uzun dimdikli amerikan avtobuslarda yerləşdirdilər. Mən, Olqa, körpə Tərlan və Cabbar əmi ilə birlikdə Tehran zindanından bizə qatılan orta yaşlı kişi bir sırada yerləşdik. Avtobus yeni olmasa da, öncəkilərə nisbət daha geniş və rahat idi. Bilmirəm bundan ötürümü, yoxsa başqa nədəndən, Olqanın gözlərində gülünc işıltısı görünürdü. Mən o vaxtacan Olqanın mavi gözlərinin gülüşünü görməmişdim. İnci kimi parlaq və günəş boyda saçqın gözlərinin ürəyimə enməsini bütün varlığımla hiss etmədim desəm, yalan olar. Mən, bütün irəlidəki illərdə o gözlərin mənə axışını heç unudamadım! Elə buna

görədir ki, o bir anlıq içimi alovlandıran gülüşlə hələ də gülür və ağlayıram!

Yola çıxmadan öncə iki günlük yemək payı paylandı. Bir yuvarlaq kökə, bir parça pendir, bir dənə xiyar və bir neçə kiçik alma bütün cirəmiz sayılırdı. Sürgün karvanını iki amerikan maşınında yerləşdirdilər. Bizim avtobusun ilk sırasında çavuş Dərvişlu ilə bir başqa gənc çavuş oturmuşdu. İkinci sıra isə, dörd silahlı əsgərə ayrılmışdı. Əsgərlərin əllərində silahla ayaqda durması bizə olan etimadsızlığın göstərgəsi idi. Hələ qarajdan dışarı çıxmamışdıq ki, "zinde bad şah" sloqanları qulağımıza dəydi. Biz qaraja gəlincə, orada sakitlik hökm sürürdü. Ancaq qarajdan çıxan və əllərində İran bayrağı və İran şahının fotolarını daşıyan 30-40 kişilik bir qrupun bizə qarşı şüar verməsi və hədə qorxu gəlməsi diqqətimizi çəkirdi. Göstəricilərin bizə qarşı verdiyi sloqanları polislər gülə-gülə qarşılayırdılar. Avtobusların qaraj qarşısında dayanması, bəlli idi ki, öncədən planlaşdırılmışdı. Göstəricilər avtobuslara yaxınlaşmadan, gözdağı verirdilər. Bizim üçün keçmiş bir ayda yaşanan ölçüyəgəlməz aşağılanmadan, alçalmadan sonra bu saxta təzahüratın anlamı vız gəlirdi artıq! Onlar bunu anlamırdılar ki, bizlər öz evimizdə baltalanan kökü qırıq budaqlarıyıq. Onlar sadəcə, qələbə sərxoşluğu yaşayırdılar. Onlar, rusların, ingilislərin, amerikanların kölgə teatr töküntüsü olduqlarının fərqində belə deyildilər. Bu üzdən, bizə qarşı olunan hər hansı əl işarəti, verilən əda-ətvarlı söyüşlərin qarşılıqlığını acı gülümsəməklə verirdik. Mən yaşadığımız bu acı günlərdən sonra, farsların biz türklərə qarşı nifrətinin daha dərinlərdə olmasını bütün varlığımla hiss etməyə başladım!

Çox keçmədən şəhərin mərkəzi geridə qaldı. Öncə keçdiyimiz küçələrdən geri dönərək, Tehranın kənarına tərəf getdiyimizi düşünürdüm.

Cabbar əminin yanında oturan orta yaşlı ağbığlı bəyin xorultusu ara vermədən ucalırdı. Maşının önündə oturan əsgərlərin birinin iki-üç dəfə onu uyarması işə yarasa da, yuxuya dalar-dalmaz qorxunc xorultusu yenidən başlayırdı. Bu isə, hərkəsin dincəlmə haqqını əlindən alırdı. Bu üzdən Cabbar əmi, onun yuxusunu durdurmaq üçün əlindən gələni edir, onunla söhbət etməyə çalışırdı. Ancaq bəlli ki, onun cavab verəcək nə halı, nə də həvəsi yox idi. Bu, Cabbar əminin göz-qaş işarətindən bəlli olurdu. Onun göz-qaş atması mənimlə Olqanın gülümsəməsinə səbəb olurdu. Əslində, mən də bu olaydan ötürü sevinirdim. Çünki, sonunda düşməni sinirləndirən birisi içimizdən çıxmışdı. Onun yanmış yanaqları, alnının ortasınacan çəkilmiş dağınıq qaşları, qartal naxışlı dərin baxışları yeniş-yoxuşlu bir öykünün izlərini göstərirdi. O, məhəlləmizdə kiçik bir bakkalı olan “Möhsün Biboğlu”nu xatırladırdı. Onun da baxışları, qaşqabağı, yanaqlarında olan səpmələri yeni yoldaşımızdakı kimi idi.

Avtobusu bütünlüklə öz xorultusu altına alan və hər kəsi incidən daşyuxulu yeni yoldaşımızın yaratdığı rahatsızlığa baxmayaraq, bəziləri də onunla birlikdə xorlurdu. Olqa gözlərini hərdən açaraq gözaltı ilə məni izləyir, gülür və yenidən gözlərini yumurdu.

☆☆☆

Qarla süslənmiş lum-lut düzlər, ağ məxmər kimi geniş alanı bürümüşdür. Göz işlədikcə, ləpələnmiş ağ appaq engin səssizlik

geniş çölü öz etkisi altına almışdır. Pəncərə arxasından içimə hopan bu gözəllik, yavaş-yavaş məni də öz susqunluğuna çəkirdi.

*“Yüzlər kilometrə ruhsuz və cansız yolların arxasında yaşam varmışsa, kəsinliklə, önümüzü kəsən yollarda da yaşam sevgisi bizi yalnız buraxmayacaq! Mən, bu inancı yollarda buldum! Bütün acılara, yaşlara və yaslara rəğmən yaşamı sevmək gərəkir. Ona görə ki, yaşam, inci damla içində tutulmuş Niyaqara şəlaləsidir. Yaşamın sərti, qorxulusu, axarqanı və sınır ötəsi cəhənnəmi, yenə də yaşamdır. Biz isə, bu sınırsız inci damlanın içində təpə-dərə dalğalarıq! Biz, ölmək üçün doğduqsa, yaşamaq üçün də ölməyi bacarmalıyıq! Mən, içimdəki ünlülüyü yaşatmaq üçün ömrümlə sevdalaşmışdım. Mən, ölümü öldürmək üçün yaşamın izində olduğumu düşünürdüm!”*

Yeni yoldaş, durmadan xorna çəkirdi. Elə həmin xornaların birində öz səsindən diksinərək *“Bismillah-bismillah”* deyərək Cabbar əmiyə *“bağışla sən Allah!”* ifadəsini dilə gətirdi. Cabbar əmi isə, bu fürsəti dəyərləndirərək *“Allah bağışlasın”* deyə, onu söhbətə tutdu. Mən onlara ən yaxın qonşu olduğum üçün aralarında başlayan tanışlığın şahidi oldum.

Cabbar əmi: Xorna dirilik deməkdir. Bəlli ki, Sizin maşallahınız var! Bizi Təbrizdən götürüblər. Amma hara getdiyimizi bilmirik. Təbrizdən yola çıxanı 60 nəfərdən artıq idik. İndi, 30 nəfər qaldıq.

- Bəs 30 nəfərə nə gəldi?

- Bizim başımıza gəlməyənlər onların başına gəldi! Onlar, acından və soyuqdan donub öldülər. Allah qalanların ömürünə ömür versin. Uşaqlı-böyüklü 32 ölü verdik. Onların biri bu qızın körpəsi, biri də bu körpə uşağın gənc anası və ikisi bu oğlanın ana-bacısıdır. Biz Təbrizdən Tehranacan hər şəhərdə qurbanlıq verdik.
- Allah bunları qara torpağa sərənlərin kökünü yer üzündən silsin. Mən belə bir zalım qövm görmədim həyatda! Bunlar Hitlerin də, faşistlərin də üzünü ağa çıxardılar! Allah rəhmət eləsin. Qəbirləri nurla dolsun. Bir gün bütün vətən şəhidlərinin intiqamı alınar əlbət! Bu qanlar yerdə qalmaz əlbət!

O, bu sözləri deyə-deyə gözlərini bizim qoltuğa dikmişdi. Onun

baxışları biz üç nəfərin arasında gedir-gəlirdi. Bəlli ki, içində

çoxlu suallar doğmaqdaydı. Onu dərin və səmimi baxışları insanı içinə çəkirdi. O, olduqca sevimli, dərin düşüncəli bir insana bənzəyirdi. O, həmin baxışla mənə və Olqaya səsləndi:

- Çox üzgünsünüz! Bilirəm, amma olmayın! İrəliyə baxın! Ölənlə ölünməz! Mən iki qızımı, bir ömürgün yoldaşımı və dörd oğlumu vətən yolunda qurban verdim! Onlar, cəlladların odunda cığır-cığır yandılar. Onlar külə döndülər. Küllərini belə toplayıb, ən azından, bir məzara qoya bilmədim. Küllərilə torpaq oldular! Vətən oldular! Vətən oldular!
  ***“Lənət qara zindanlara, şallaqlara lənət!***

***Lənət setəm-o cəbr-o , fəlakətlərə lənət!***

***Lənət, törəyən qanlı cinayətlərə lənət!***

***Lənət Kəcə (əyriyə), Kəmbinlərə, batillərə lənət!***

***Lənət əsəbi, qorxulu qatillərə lənət!"***

O, dəfələrcə meydanlarda eşitdiyim M.Biriyanın bu şeirini oxuyub gözlərini yumdu. Ancaq bir qədər sonra gözlərini açaraq adımı soruşdu:

- Adın nədir?
- Adım Cəvanşir! Ailəmdən qalan ən sonuncusu! Atamı, əmimi və qardaşımı öldürdülər. Məni zindana saldılar. Sonra anamı və sarılığa tutulan bacımı yolçu etdilər. Bacım yolda öləndən sonra anam da bu dərdə dözməyib ömrünü tapşırdı.
- Mənim də adım Kişixandır. Yeddi bacının tək qardaşı olmuşam. Rəhmətli anamın dediyinə görə, cadı-cənbəldən əmələ gəlmişəm! Anam məni oğlan doğmalı idi. Yoxsa, mən olmasaydım atamın əmrilə anam özünü quyuya atacaq idi. Buna görə, anamın işi yalnız qaraçı falçıları gəzmək olmuşdu. Hətta dediyinə görə, məni oğlan doğsun deyə *"Qızıl özən"* kəndindən Təbrizə, bir qara seyidin yanına getmiş və onun tüpürcəyindən şəfa almışdır! Atam mənim adımı doğulmadan öncə qoymuşdu. Mənim doğum xəbərimi eşidərkən isə sevincindən ürəyi dayanıb ölmüşdür. Demək, mənim yerimə bir qız doğulsaydı anam ölməli olacaqdır. Ancaq mən doğulunca, anamın ölümünə and içmiş atamın özü həyəcandan haldan keçmiş və bir daha oyanmamışdır.

Beləliklə, mənim doğumumla 7 bacım anasız qalmaq yerinə atasız qalmışdılar!

Oğlum! Mənim doğumum belə olmuşdur. Görünür, gövdüş dibini tapmış! Bəlli ki, bizim bu karvanımızda yığışanların alınyazısı bir-birinin üstündən yazılmışdır. Biri Təbrizdən, biri Muğandan, biri Zəngandan, o biri bilmədiyim bir yerdən eyni taleyi yaşayırıq. Çünki türkük! Çünki böyük millətik! Çünki böyüklərin yıxılması faciəvi olur! Ağsaqqal! Sən çox səssizsən! Özündən biraz de! Dediklərimdə haqlı deyiləmmi?

Cabbar əmi:

- Bizim sadəcə adlarımız başqadır. Alınyazımız eynidir. Mənim adım Cabbardır. Öyrətmənəm və ya idim. Altı "Ana dili" kitabında bir balaca qatqım olmuşdur. Şans hesabı diri qalmışam. Yoxsa, ilk başı gedənlərdən biri olmalı idim. Görürəm ki, bir dəliqanlı igidlə tanış olmuşuq. Sənin kimilərin yaşam yolu kəsin qəhrəmanlıq yoludur. İnan bunu ürəkdən deyirəm. Mən əyilib-düzələn birisi deyiləm. Mənim hayat yolum sadə, səssiz və sevmək yoludur. Amma sənin kimilərin yolu bunlarla birlikdə, həm də savaş yoludur. Tanrı özü yar olsun! Dediklərində bir damlacıq quşqun olmasın dostum. Təpədən-dırnağa haqlısan.

Cabbar əmi danışarkən, səsini qısırdı! Lakin, yeni yoldaşımız, Kişixan əmi daha gur və uca səslə ona cavab verirdi. Bu isə, Cabbar əminin tədirginliyinə səbəb olurdu. Kişixan bəy, Cabbar əminin bu durumunun gedərməsi üçün ona ürək verməyə çalışırdı:

- Bax ağsaqqal! Bizim dilimizdə danışan bütün bu yazıqların dərdləri birdir. Qabaqda oturanların bizimlə dildaş olmasına inanmıram. Olan varsa da, bizimlə birlikdə sürgünə göndərilir. Demək ki, onlardan da qorxmaq gərək deyil! Qaldı ki, bizim qorxacaq nəyimiz var ki? Qorxmayın! Bu canı da tez-gec bizdən alacaqlar! Almasalar belə, cansızlıqdan bətər edəcəklər. Yəni bu şərəfsizlər ruhumuzu, türklüyümüzü, dilimizi canımızdan qoparmağa çalışacaqlar! Ancaq onlar ovuclarının içini yalıyallar. Əlbətdə, onu da bacarsalar! Onların başı üstündə ərbabları var. Ərbab demədən itin həddinə nə düşmüş ki! Onlar, bacarmazlar, bacaramazlar və bacarmayacaqlar da! Çünki, onların ömrü hər zaman qul kimi xidmətdə keçib. Bir millət olaraq, dünyaya verəcək heç bir şeyləri yoxdur. Nələri varsa, o da türklərin ağalığındandır! İndi bu kaftarların əlinə fürsət düşüb. Əlbəttə ki, bu üç günlük qondarma ağalıqları da sona çatacaq! Allah bizim şah babalarımızı bağışlamasın! Allah onların yerini çəhənnəm etsin! Onlar bu dünyanı öz millətinə cəhənnəm etdilər. Yoxsa bu alçaqların nə həddinə düşmüş dövlət! Allah rusları da, ingilizləri də bizim şah babalarımızın yanında yandırsın! Lənət olsun, lənət olsun!

***“Lənət qara zindanlara, şallaqlara lənət!***
***Lənət setəm-o cəbr-o , fəlakətlərə lənət!***
***Lənət, törəyən qanlı cinayətlərə lənət!***
***Lənət Kəcə, Kəmbinlərə, batillərə lənət!***
***Lənət əsəbi, qorxulu qatillərə lənət!”***

Açıq bağıran insanı yenmək olamaz! Biz, haqqımızı uca səslə hayqıran millət olmalıyıq. Kimsə boynumuzu əyməməli! Çünki, türk boyunu çınardır! Sınar, əyilməz!

Kişixan əminin uca səslə danışması, meydan mitinginə çevrilmişdir. O, sanki özünü böyük bir mitinqdə millət qarşısında hiss edirdi! Qan çanağına dönmüş gözlərilə pöhrənmiş yanaqları və hər an ucalan səsilə yırtıcı qurda bənzəyirdi, Kişixan əmi! Mən ilk dəfə birinin belə əsəbi olduğunu görürdüm. O, artıq Cabbar əmiyə deyil, bütün avtobusda olanlara çığırır-bağırırdı. Onun üsyankarlığı ilə bizim susqunluğumuz arasında hər hansı bağlantı qurmaq mümkün görünmirdi. Bizim durumumuz -*"ilan sancanın ipdən qorxması!"* misalı kimi idi. İçimdə min bir xəyal yaşanırdı. Bir adamın bu qədər aslan ürəkli olmasının səbəbi olmalıdır! Bəlkə də, aramıza salınmış bir dövlət məmurudur. Özü də bizim olduğumuz durumda! O, hər kəsi qorxudurdu. Bu son ayda yaşadığım ən qorxunc həyəcan içində idim! Bir yandan qorxurdum, o biri yandan isə, susqun ürəyimi çoşqulu hiss edirdim. Acılarımı biraz da olsun, Olqa sevgisilə unutmağa çalışan bir zamannda, bu dəli-dolu əmicanın ortaya çıxması çox gözlənilməz oldu. O, hər kəsin marağını üzərinə çəkmişdir. Olqadan tutmuş silahlı əsgərlərədək avtobusda olan hər kəsin diqqəti Kişixan əminin üzərində yoğunlaşmışdı. Çavuş Dərvişlunun tez-tez dönərək Kişixan əminin olduğu qoltuğa baxıb gülümsəməsi də gözdən yayınmırdı. Etiraf etməliyəm ki, Kişixan əminin həyəcanverici sözləri qorxulu olsa da, son günlərin ən önəmli anını doğurmuşdu. Artıq avtobusda olan

susqunluğun yerini atəşli nıtq tutmuşdu. Mənimlə Olqanın bütün diqqətini Kişixan əmi öz üzərinə çəkmişdi. O danışarkən, çeynədiyi ağ biğlarını eşərək tullayırdı. Kişixan əminin üzə vuran hirsinin qarşısı alınkamaz olmuşdu! O, mənə "Məmməd Biriya"nı anımsadırdı. Biriya da Təbriz mitinqlərində bənzər həyəcanla şeir deyir və nıtq söyləyərdi. Ancaq ora hara, bura hara! Bəlli ki, Kişixan bəyin ürəyi daha geniş və daha yaralı idi. Bu adamın gözlərindən od püskürürdü! Bu adam rahatca ölümə gedəcəyini və öldürülə biləcəyini göstəyirdi! O, içimizə qatılandan bəri bir qorxkamaz öndər kimi görünməyə başlamışdı! Bu isə, mənim üçün çox olumlu və sevindirici yaşam qaynağı olmuşdu. Bizim içimizdə bir qorxkamaz öndərin yeri görünürdü. Baxmayaraq ki, ürəyimdə ev salan şübhə öz yerində idi.

## **Əlvənd dağı!**

Uzaqdan ağ örpəkli tək zirvə dağın gözəlliyi qarşımızda görünməyə başladı. Bu dağ haqqında hər hansı bilgim yox idi. Keçən günlərdə də, Kərəcə və Tehrana yaxınlaşdığımızda Cabbar əmi Əlborz sıra dağlarını anlatmışdır. Onun anlatdığına görə, tarixi Azərbaycanda istədiyin sayda böyük dağ vardır. Əlborz və ya Elburus dağları da onlardan biri və ən ucasıdır. Cabbar əminin dediyinə görə, Dəmavənd dağı Əlborz sıra dağlarının zirvəsidir. Onun ucalığı 6000 metrə yaxındır və gen dərələr oluşdurmuşdur. Dəmavənd uzun dönəmlərdə böyük volkanlar mərkəzi olmuşdur. O dağın həndəvərində geniş alanlı kükürdlü sular və küləklər qaynağı vardır.

Ancaq, qarşımızda görünən bu ucu biz dağ, Dəmavənd yayında ufaq qalırdı. Bu gözəl dağla bağlı Cabbar əmidən soruşduqda, belə anlatdı:

- Bu dağın adı "Əlvənd"dır. Bu dağ bir zamanlar Azərbaycan başçısı "Baybək"in Ərəb xilafətinə qarşı ön çəbhəsi olmuşdur. O, zaman-zaman Akbatan (Həmədan) ucalıqlarına çıxar və oradan düşmənin üzərinə yürüyərmiş. Baybakin 22 illik Ərəb imperatorluğuna qarşı dirənişində Akbatanın və Əlvənd dağının böyük rolu olmuşdur.

Az qala Tehrandan çıxanı bir gün olurdu. Hava qarlı, yağmurlu və qaranlıq idi. Tehrandan çıxanı avtobuslar iki dəfə dayanmışdı, ancaq diqqətimi çəkən bir avadanlıq və ya şəhər olmamışdır. Hər kəsin Tehranda aldığı bir yemək payı var idi. Bu üzdən ac görünən və keçmiş günlərə nisbətən, aclıqdan və soyuqdan bayılan kimsə yox idi. Bəlkə də, dörd günlük qoyun və buğda maşınlarında bütün dünya zülümlərinə uğramış yazıq bizlər üçün, amerikan avtobusu "Nuh Gəmisi" kimi idi. Niyə gizlədim ki! Məndə olan dəyişikliyin ucu-bucağı yox idi. Artıq ölüm xəstəliyinə tutulmuş bacının və acımasız olaylardan beli bükülmüş ananın yerinə könlümü titrədən, Olqa var idi. O, açıqcası, məni özünə vurğun edərək min bir acının qarşısında vaksinə etmişdi!

*"Acılar nə tez unudulur! Sanki, bu acılıarı yaşamadım heç! "12 Şəhrivər" günü, "21 Azər" günü və yenə qara "21 Azər" günü! Bunlar yuxu kimi gəlir mənə! Qoy unudulsun o günlər! Ürəyimi ovucu içində əsir tutmuş Olqam mənim! Bu anımı yaşamalıyam! Sıcaqlığımı duymalıyam! Ölənlə ölünməz ki! Kimsəni geri gətirə*

*bilmərəm ki! Gecə yarısı saat 5-də durub gözlərimi oya-oya çörəkçiyə gedə bilmərəm artıq! Bir daha qardaşımın, atamın zalim əmrlərilə qışın səhər çağı, qar buzlarını sökərək məktəbə gedə bilmərəm! Mənim üçün yaşam dadlı bir üsyana çevrilmişdi! İçimdəki qalaqlanmış şişlərə qarşı sevimli bir üsyan!"*

*"Danışır "Azərbaycan Səsi Radiosu" Siz, Təbriz səsini dinləyirsiniz. Bu günün verilişlərini sizə təqdim edirik..... və birazdan Milli Məclisdə yoldaş "Pişerəri" danışacaq!..."*

*"Aman! Burax bu sərsəmliyi Cavanşır! Ovcunun içindəki bir incə əlin atəşinə dön! Əlinin atəşi bütün canını yaxmaqdadır Cəvanşır! Vücudun yanır, əlin baş alıb gedir diqqət, diqqət Cəvanşır!"*

Olqanın gözlərindan daman sevgi təmənnası ovucumun içindəki ovucundan bütün bədənimə yol tapırdı! Hər ikimizin susqun vulkanı partlamaq üçün hazırkən, başımız üstündə dolaşan büyüləri aşmaq üçün, yetərsiz qalırdı! Bir yandan ilk kəz sevişmək isintisi, başqa yandan isə başımı fırlandıran "İlyaz", "Utancaq Əli", "Xoylu Kazım", "Mingöz Həsən"lərin qara büyüsü! Bir yandan ilk kəz içinə cumduğum könül varlığı, digər yandan isə, yaşadığım Təbrizin dar ağacları və qurşun səsləri üzərimə yürüyürdü! O anda, ən nifrət etdiyim və düşünmək istəmədiyim mənzərələr gözümün önündən getmirdi!

*"Çapar Abbas"a nə oldu? Pişəvəri ata harada? Nə zaman Təbrizə dönəcək? Görəsən şəhidlərimizin qanının öcu alınacaqmı?"*

İstəmədiyim bu suallar, anbaan gözümdə böyüyürdü. Mən yaşantımın bu dadlı anında "əziz torpağımızın azad olmasını belə, düşünmək istəmirdim!" Doktor "Fridun İbrahimi"in dar üzərində əsən canını belə anımsamaq istəmirdim"! Mən bunları unutmaq istəyirdim! Nə gəldisə, elə də getdi! Mənim əlimdən nə gələr ki? Ölənlərin başına gələnlər, mənim də başıma gəlmədimi? Bəlkə də, ölənlər daha şanslıdırlar. Ən azından, onların ölümü təmiz öldü. Ancaq mənim kimilərin gələcəyinin nə olacağı bəlli deyil!

- Olqa: Cəvanşir, Cəvanşir! Əlimi sındırdın! Niyə belə sıxırsan? Əlimi burax, incidir! Cəvanşir, Cəvanşir, məni eşidirsənmi?

Bir an Olqanın səsini duyunca gözlərimi açdım. Hər kəs uyurdu. Təkcə Olqa ilə mən ayıq idik. Özüm də bilmədən, bir an içində Olqanın dodağından öpdüm və üzünə belə baxmadan gözlərimi yerə dikdim. Gözümün önünü ağ-qara saplantılar qoşatmışdı! Başım dönürdü! İlk kəz olaraq ehtirasım ağlımı yenmişdi! Utancımdan yerin təkinə cummaq istəyirdim ki, yanağıma atəşdən bir çiçək qondu! Olqadan çaldığım öpücük cavabsız qalmadı! Nədən Olqanı öptüm? Necə öptüm? Bu qarşılıq da çox uzanmadan Olqadan gəldi! Biz, Tanrının ən acı verdiyi anlarda sevdalanmışdıq! Mənimlə Olqa arasına elə bir sevda girmişdi ki, artıq bunun danılması mümkün deyildi! Mənə elə gəlirdi ki, ağlar-gülər "Əlvənd" də buna şahidlik edirdi!

☆ ☆ ☆

**Akbatan /Həmədan/**

Havanın qaranlığında avtobusların harada dayanması bəlli deyildi. İki- üç yöndən közəyən işıq və bir neçə yanıb-sönən çıraqdan başqa bir şey görünmürdü. Əsgərin yolçulara səslənməsilə, burada gecələnəcəyimiz bəlli olurdu:

- Paşid! İnca piyade mişim. Ba xodetan çizi bər nədarid. Şəb ra inca mixabid. Vəsayele xab həst!/Oyanın! Burada enirik. Özünüzlə bir şey götürməyin. Gecəni buradasınız. Yataq vəsaiti var!/

Maşından enər-enməz soyuq hava bütün iliklərimin içinə işlədi. Tərlanı qucağıma alıb, Olqanın da çiyinindən tutaraq ikiqat binaya sarı yürüdük. Hava çox yandırırdı. Belə hava görməmişdim. Ayaqlarımızın altını görmürdük. Hər an yıxılma qorxusu yaşayırdıq. Maşından binaya girənədək dizimizə qədər qar içinə girmiş olduq.

Bina köhnə olsa da, ortada bir-birinə arxa verən dörd odun ocagı ilə boy göstərirdi. Bu isə, bizim üçün kef verici idi.

Yerli bir subay bizə xoş gəldin dedi. Tehrandan çıxanı ilk kəz gördüyüm başcavuş Bayramı danışdı:

- Burası Həmədan şəhəridir. Biz bir gün burda qalacayıq. Sabah yox, o birisi gün burdan yeni şəhərə yola düşəcəyik. Bir azdan yüngül yemək verəcəklər. Yeməkdən sonra gözəlcə yatınız. Sabah saat 12-də isti nahar var. Ailələr üçün bir otaq, təklər üçün toplu otaq veriləcək. İndi ailələr yaxına gəlsin.

2-3 ailə qabağa getdi. Mən Olqanın, Olqa isə mənim üzümə baxaraq yerimizdə qaldıq. Nə edəcəyimi bilmirdim. Bir anda Cabbar əmini gördüm ki, gözlərilə baş çavuş Bayramıyə bizi göstərdi. O isə, həmən səsləndi:

- Cəvan səni deyirəm! Ailəni də al yaxına gəl, anlamırsanmı? Balanızı da alın gəlin!

Mən Cabbar əmiyə baxdım. Onun yanında Kişixan əmi də dayanmışdı. Onların da işarətilə ürəklənərək, Olqaya gəl dedim. Olqa Tərlanı qucağımdan aldı. Başındaki qırmızı şalını tellərinin üzərinə çəkərək mənimlə ayaqlaşdı.

Binanın ikinci qatında yerləşən kiçik bir odada sadəcə iki nəfərlik bir yataq və kiçik bir odun ocagı var idi. Odun ocagından havalanan istidən sevinirdik. Salonda aldığımız pendir-çörəyi yedikdən sonra Tərlanı yatırtdıq. Tərlan yatar-yatkamaz inanılmaz qorxu bütün varlığımı sardı. Məndə olan qorxu həyəcanının Olqaya da təsirini hiss edirdim. Onda olan sadə həyəcanın iztiraba dönüşməsi yanaqlarının qızarmasından bəlli olurdu. Mən Olqanı öncədən heç belə görməmişdim. Onun tələskən və dəyişkən davranışı hər halından bəlli olurdu. Mən öncədən bir qadınla təkbaşıma qalmamışdım. Bu mənim üçün bir ilk sayılırdı. Olqanı ilk dəfə idi ki, paltosuz görürdüm. Onun paltosuz bədəni daha incə və sevimli idi. Olqa, sanki başqa bir dünyadan gəlmişdi. Yaşıltüm mavi gözləri, kürəyinin ortasınacan sallanan sarışın saçları, incə bədəni və məsum gülüşləri hər an keçdikcə məni daha da gücsüzləşdirirdi. Olqa bütün iztirablara rəğmən rahat hərəkət etməyə çalışırdı. Mənə elə gəlirdi ki, Olqa özündən daha çox mənim həyəcanımı

önləməyə çalışır. Onun, mətanətli və sakinləşdirici davranışlarından çox utanırdım. Bu isə, məni daha da gərgin duruma sürükləndirirdi. Məncə, gələnəklərimizə görə, erkəyin qadına qarşı utanması deyil, qadının erkəyə qarşı ürkək olması gərək idi! Ata-anadan gələn bir gələnəyə görə, qıza elçı getmədən öncə, onun yeddi sülaləsini araşdırar, nəcib, başı aşağı, utanğac və tam bir ev qızı olmasını axtararlar. Və başlıq, kəbinlik, südlük və min bir ödəmədən sonra qızı bir əşya kimi gəlin gətirərlər. Mən bu sayaq evlənməyi daha çox bir alış-verişə bənzətsəm də, ondan qopmağı heç düşünməmişdim. Bu üzdən belə hesab edirdim ki, *"bu adətin yetirməsi kimi onu qorumalıyam. Olqa kim olursa olsun! Mən Cəvanşir olaraq böyüklərimin yolunu getməliyəm. Bunu unutmamalıyam ki, qadın deyiblər, erkək deyiblər! Mən bu gecə bunu Olqaya bəlli etməliyəm! Yox, yox tam bildirməliyəm! Nə olursa mən Olqanı istəyirəm! Bu isə, yetərli olmalıdır. Bunu isbatlamalıyam. Mən, özümü ələ almalıyam! Yoxsa bundan sonraki ortaq yaşamımda Olqa ilə baş etmək olamaz!"*

Bu anda içimi qovuran ən coşqulu qığılcım, Olqa ilə sevişmək idi. Onunla bütün ruhumla, tənimlə birləşmək istəyirdim. Sevişmək istəyi bütün vücüdümü bürümüşdü. Ancaq buna rəğmən üst paltarlarımı çıxarmağa belə cəsarətim çatmırdı.

- Olqa: Cəvanşir bu isti otaqda belə yatacaqsanmı? Paltarlarını çıxar. İstərsən üzümü çevirim həəə! Otaq çox istidir. Mən üzərimdəki körnəyimi də çıxarmaq istəyirəm.

Olqa bunu dedi və üzərindəki toxunmuş kamva körnəyini əyinindən çıxartdı. Onun bu hərəkəti od tutmuş bədənimi külə

çevirdi. Gözümün önündə üzərində sadəcə bir ağ alt paltarı ilə qarşımda durmuş Olqa mənə boy göstərirdi. Yetişkin bir gənc olduğumdan bəri çılpaq bir qadın bədəni görməmişdim. Əslində, uşaqkən anamla hamama gedən son zamanları xatırlayıram. O zamanlar anamla hamama gedərdim. 6 vəya 7 yaşım var idi. Yeniyetmə bir qızın pöhrənmiş məmələrindən həyəcana qapılaraq ona əl uzatdım! Qızın məni anasına şikayət etməsilə, anamın əli ilə döyüldüm. Ondan sonra daha qadın hamamı deyil, atam və qardaşımla erkək hamamına götürüldüm. O, zamandan az qala 16 il geçirdi. Və mən bu yaşımda ilk dəfə bir yarımçılpaq qadın bədəni görürdüm. O, mənim qorxumu yox etmək üçün, bəlkə də ömrünün ən cəsarətli riskini göstərirdi. Olqa bu günədək gördüyüm ən dəyişik insan idi. Bu günədək çevrəmdə qonşuluğumda olan bütün qızlardan bambaşqa idi. O, açıqcası mənim içimdəki böhranı önləməyə çalışırdı. O, sanki içimə girmiş olmuş şeytanı öldürmək istəyirdi. Olqanın səmimi davranışlarında daha çox öyrətmənlik izləri görünürdü. O, məni utandırmadan sevginin necə içdən qaynamasını öyrətməyə çalışırdı. Onun sadə, çəkinməz və yaxın davranışlarından canım ot tutub yanırdı! Otaqdan qaçmaq üçün bir bəhanə gəzirdim. Tər seli “hicab boyunduruğu”mu cim-cilaq etmişdi. O, qadın olaraq özünün özgür iradəsini sərgiləmişdir. Mən isə, erkək olaraq qafamın hicab boyunduruğunda əl-ayaq çalırdım. Bu mənimlə Olqa arasında olan fərqlik idi! Və sonunda mən deyil, Olqa hicabımı başımdan söküb, mənə özgür insan olduğumu göstərmiş oldu! Mən o gecə hansı əzgin kültürdə yaşadığımı və nədən bu günlərə düşdüyümü düşünməyə başladım!

Saçlarını dan yeri kimi köksümə sərmiş Olqa, məsum xornası ilə içimi Urmu bibəri kimi yandırırdı. Mən isə, bu dadlı acının sona gəlməsini heç istəmirdim!

Dünyam bir an elə dəyişmişdi ki, özümlə özüm arasında bənzərlik görə bilmirdim. “Olqa, körpə Tərlan və bir də dadlı qorxusu ilə mən! “Sabahdan sonra nə olacaq? Bizim haqqımızda nə düşünəcəklər? Mən bir oğlan olaraq qaçaq yerim varsa, bəs yaziq Olqa necə?! Hər nə olursa olsun, o bir dul qadın! Bu işin sonu daha da bətər olmadan, onu bu durumdan qurtarmaq gərək. Artıq ona əl uzadanlar olacaqdır! Mən bunun qarşısını almağa qadir deyiləm!”

Erkəklik xəstəliyi gecə boyunca ruhumu sarırdı. Şəriyət, namus, kişilik, islam və bu kimi düşüncələr içində ikən Tərlanın yuxuda ağlaması Olqanı yerindən oynatdı:

- Tərlan: Eheee, Heqqq, heqq, heq.......!
- Olqa: Nədi balam Tərlan? Açsanmı, yerin islaqdımı? Gəl baxım!

Olqa, Tərlanı qucağına alaraq çılpaq ayaqlarının arasında yerləşdirdi. O bir bacarıqlı ana kimi Tərlanın islaq bezini bükərək öncədən hazir etdiyi quru əski ilə körpəni bələdi. Sonra isə, heç çəkinmədən ilk öncə sol və sonra sağ məməsilə onu əmizdirdi! Tərlan biraz mın-mın edəndən sonra mışıl-mşıl uydu. Olqa Tərlanı yerinə salıb, vurnuxmamın fərqinə vardı:

- Cəvanşır nədən ayıqsan?
- Heç Olqa! Elə-belə! İndi ayıldım.
- Yalan demə! Bəlli ki gecə boyu heç yatmadın! Eləmi?

- Hə, elə! Yatamadım!

Olqa əllərini boyunuma saldı və mənə yaxınlaşdı. Bədənim bədəninə dəyərkən öncəki dəfədən daha çox həyəcana qapıldım! O üzümdən, dodağımdan öpərək gülümsəyib, Tərlana sarı çəkilib dedi:

- Cəvanşir, bilirəm çətindir! Amma çalış yat! Mən sənin yaxınındayam! Səni sevirəm! Sabah uzun gündür. Yol uzaq, məqsəd bəlirsizdir. Öncə yerimizə çatalım. Onda rahatlarıq. Bax, sən özündən öncə mənə bir oğul verdin. Tərlanla analığım sürür. Döşümün südü qurumadı! Mən bu sevgini sənə borcluyam! Sən, mən və oğlumuz! Qarşımızda bəlli olmayan günlər var Cəvanşirim! İndi yat! Dan açılar birazdan!

Dodaqlarımdan başlayan yanğının ürəyimə yoluxmasıyla köksümün atışları at kimi dörd nala çapırdı!

*“Tanrım, bu nə cəza, nə işgəncə! Bütün ailəmi əlimdən aldın, bütün tanışlarımı dar ağaclarına və qurşunlara verdin. Millət olmaq və şərəflə yaşamaq nisgilini ürəyimizdə qoydun! Ey Tanrım bu nə zülüm, nə ayrımcılıq! Bunlar bəs deyilmiş kimi, bir də Olqa sınağını başıma açdın! Bu nə zülüm, nə qorxu! Tanrım, Tanrısanmı, yoxsa qorxu küpü!? Varsanmı yoxsa, içimə girmiş bir qara büyümüsən!? Varsansa məni bu ağrıdan qurtar! Məni anamın, atamın yanına göm! Məni Olqa utancıyla baş-başa qoyma! Yoxsa, səni ürəyimdə tutmağa bəhanəm qalkamaz! Səni ürəyimdən söküb atmağa bir səbəbim qalkamaz! Varsansa, məni sabahın utancıyla üzləşdirmə!”*

☆ ☆ ☆

İncə qar buzlarıyla çəpərlənmiş pəncərədən baxarkən, Əlvəndin ağa bürünmüş parlaq zirvəsi işıqlı bir günü ərməğan edirdi. Sanki bir az uzaqlarda dan ulduzu ilə ay arasında pıçıldaşma gedirdi! Mənə elə gəlirdi ki, o ikisi tanrı tərəfindən mənə yazılmış "*bir gün daha yaşamağa məhkumsan!*" hökmünü andırırdılar. Tərlan və Olqa isə, məndən xəbərsiz mışıl-mışıl uyurdular. Olqanın yarıçılpaq bədəni, yonulmuş duyğusuz bir mərmər daşı kimi soyuq-soyuq gözlərimin önünə sərilmişdir. Mən artıq bu görüntüyə dayana bilmirdim! Nə edəcəyimi, kimi düşündüyümü, nə ilə çabaladığımı belə, bilmirdim. Mən artıq öz əlimdə, öz vücudumda, öz kimliyimdə deyildim. Mən - öz içində itmiş bir tisbağaya bənzəyirdim. Artıq, mənliyimi itirmişdim bu lənətlik gecədə! Əyinimdəki tərdən islanıb-qoxumuş paltarlarımla alt salona sarı yollandım. Salonda görmədiyim bir neçə əsgərlə rastlaşdım. Mənə yaxınlaşan bir əsgər bir az fərqli türkcə ilə soruşdu:

- Sən də Təbrizdən gəlirsən?

- Hə, mən də oradan gəlirəm. Sən Türksənmi?

- Həmədanın hamısı türkdür. Məgər sən bilmirsən? Bizim danışdığımız elə budur ki var. Siz, təcziyə (ayrımcı) tələbsiniz? Tehran radiosu sizi təcziyətələb adlandırır. Nədən İrandan ayrılmaq istəyirsiniz? Bu xəyanət deyilmi? Ruslara qatılsanız nə olar ki? Eşitmişəm bütün rəhbərləriniz ruslara qaçandan sonra, Təbrizdə qardaş qavqası düşmüşdür! Sən necə? Qardaşını öldürdünmü!? Yoxsa, qardaşının əlindən

qaçanlardansan? Sən niyə ruslara qaçmadın? Özünüzə rəhminiz gəlmədi heç? Xainlər!

Əsgər son sözünü deyib məndən uzaqlaşdı. O, qaça-qaça salonun başqa küncündəki bir əsgərlə danışan çavuşun yanına getdi. Onun sözləri çəkiş kimi qafamın ortasını dəlib, beynimi param-parça etdi. Sərsəm gecənin qaçışında ikən, bir həmədanlı qardaşın ağır sözləri uzaqlaşmağa çalışdığım bir aylıq yalan, şantaj və alçaq atmosferi yenidən ruhumda canlandırdı. İçimə bilmədiyim bir alov düşmüşdü. Buz kimi soyuq havaya möhtac görünürdüm. Nə olursa olsun, içimi söndürməm gərək idi. Çıxış qapısının girişində iki silahsız əsgərin dayanması ilə açıq hava həvəsim əngəllənmişdir. Saatın neçə olduğunu salondaki şağullu saatdan öyrəndim. 7-27 dəqiqə! Gözlərimlə salonun enini-uzununu ölçməyə başladım. Təkbaşına qocaman bir salonda addımlayırdım. Bir neçə dəfə qapıya tərəf yürüyüb döndüm. Qapıda duran iki əsgər gözlərini məndən ayırmırdılar. Bəlli ki, onları da qorxutmuşdum. “*Kimsənin bu saatda salonda nə işi olabilər?”*sorğusunun o iki əsgərin beyinində dönüb-dolaşmasından quşqum yox idi. Elə bu düşüncədə idim ki, vücudumu titrədən güclü bir əl çiynimə saplandı:

- Gün aydın oğlum. Ərkənçisən. Yəqin yeriniz dar olmuş. Gözlərindən nə halda olduğun oxunur. Gəl açığa çıxaq.
- Salam Kişixan əmi. Gün aydın. Amma orada iki əsgər var.
- Düşünürəm onların bizimlə işləri olmaz! Bizləri öldürüb, ətini yeyiblər artıq! Bizlər “dəvəsi ölmüş ərəblərik!”. Artıq qaçacaq yerimiz belə yox! Sən mənimlə gəl!

Kişixan əminin ardınca yola düşdüm. O, əsgərlərə yaxınlaşaraq söylədi:

- Salam sərkarlar. Biz biraz hava ala bilərik?
- Əsgər: Gözümüzdən uzaqlaşmayın. Burada ac qurdlar və başqa heyvanlar da var. Canınızı sevirsinizsə, salona yaxın olun!
- Yox, sizin gözünüzün qabağındayıq. Uzağa getmərik.

Bayırın soyuq havası mənə bir dünya sevinc bağışlayırdı. Mən soyuq sevən birisi deyiləm.Yalnız belə şaxdada mənim içimdə ki yanğın yavaşlayırdı sanki!

Üzərini incə qar buzu tutmuş bir taxta oturacağı silib oturduq. Havada barıt və qurşun qoxusu hiss olunmurdu. Son bir ay boyunca içimə çəkdiyim ən təmiz hava idi. Kimseylə danışmaq istəmirdim. Təbrizin zindanında da, səssiz yaşadığım günlərim az olmamışdır. Ancaq burda olan hava, Təbrizin xəyanətə və təcavüzə uğramış havasına bənzəmirdi. Orada burnumuz her an barıt qoxusu alırdı. Burada isə, hava daha arı, daha səhənd qoxuluydu. Bu duyğudan qopmaq istəmirdim. Ancaq Kişixan əmi dilədiyim səssizliyi pozaraq, sözün ucunu əlinə aldı:

- Bəlli ki gecə yatmamısan, Cəvanşir?
- Hə heç yatmadım.
- Bu sənin ilk sevgindir?
- Sevgi? Hansı sevgi əmi?
- Gözlərinin giləsindən oxunan sevgi!
- Gözlərimdə yalnız yuxusuzluq var, əmi.

- Yox oğlum! Bütün dünya bir araya gəlsə belə, dünən gecə səni yatızdıra bilməzdi!
  Sənin utanc dərdin var! Olqa isə açıq gözlü bir qızdır! Elə deyilmi?
- O da utanqacdır. Amma mən qədər yox! Mən onunla yolda tanış oldum. Bir balası qucağında donaraq öldü. Cabbar əmi və mən ona yardım etdik. O da eyni bizim kimi talesizdir.
- O, səndən heç qopmayır. O çox fərqli bir qız! O, səndən də çox səni sevir! Bunu duydunmu heç Cəvanşir?
- Kişixan əmi, siz iki gün içində bunları necə öyrəndiniz? Sizdən qorxulmalı, vallah!
- Yox oğlum məndən qorxma! Məndən qorxan suyumuzu, soyumuzu, kökümüzü qurutmağa qalxan insanlıqdan iraq düşənlər olsun! Sən deyil!

Kişixan əminin bizimlə tanışlığından iki gün keçirdi. Qısa zaman içində mənimlə Olqa arasında olan-bitənlərdən bu ölçüdə bilgili olmasından, açığı, şok olmuşdum. Nə deyəcəyimi bilmirdim. Doğrusu, atam yaşlarda olan, tanımadığım vətəndaşımdan utanırdım. Bir sığınacaq arayırdım. Ancaq hardan tapacağımı bilmirdim. Hər şey ildırım sürətilə gözümün önündən keçərək üzərimə çarpırdı. Kişixan əmi sığınacaqlarımın biri kimi görünsə də, bu an məni qorxudurdu. Ancaq bu qorxuya baxmayaraq, onun həyəcanlı və qorxkamaz simasından çox qürrələnirdim. Düşünürdüm ki, bu dünyada Cabbar əmi və yeni tanış olduğum bu insanı göz bəbəyim kimi qorumalıyam. Bu üzdən, yeni tanış olduğum bu sevimli, ağ bığlı kişidən qaçmağı özümə yasaq etməyi düşünürdüm. Ayrıca bunu da gözəl bilirdim

ki, onun da mənə ehtiyacı var və uzun zaman eyni taleyi yaşayacayıq. Bu üzdən, Olqa barədə ona və Cabbar əmiyə arxayın ola biləcəyimə qərar verdim.

- Əmi Siz Olqayla bağlı bir şeylər bilirsiniz? Bilirsinizsə, mənə də deyin. Siz, onun dəyişik birisi olduğunu deyirsiniz. Bu mənim ondan uzaq qalmağım anlamına gələrsə, mənim bütün xəyallarım yıxılar. Mən də Olqanın fərqili olduğunu düşünürəm. Hətta onun fərqli olduğunu gecə səhərədək duymuş oldum. Göründüyü kimi, bizim də içimizdə qəhrəman qızların olduğu danılmazdır. Olqa da, o qəhrəman qızlardan biridir. Elə olamazmı əmi?
- Cəvanşır oğlum! Sən o qıza aşiqsən! Görünən bu ki, Olqa sənin yaralarını saracaq qədər mərhəmətli bir qızdır. Sənin gözü açıq sevməni arzu edirəm. Cabbar bəy dünən gecə sizdən sonra mənə səninlə Olqa haqqında anlatdı. Sənin bu sevgidən vaz geçməyin deyil, bu sevgiyə bağlanmağını istədi. Mən də elə bunu istəyirəm. Doğrudur, mən iki gündür sizinlə tanış olmuşam. Amma biz bir millətik. Biz Türk millətiyik. Bir gün və ya min il bizim üçün fərq etməz! Sən atanı əlindən vermisənsə, mən də balalarımı əldən vermişəm. Mən dirikən sənin babanam, sən isə mənim oğlum! Biz, belə bir millətik! Sözsüz ki, bu ilişki yalnız duyğu deyil. İşin içində bir də böyük yara sarmaq var. Biz yaralı bir millətik! Başdan yaralı, gövdədən yaralı, ürəkdən yaralı bir xəstə millət! Siz, ikiniz də bu millətin yolunda yara alanlardansınız! İkiniz də yaralısınız! İkiniz də bütün sevdiklərinizi Türk davası uğruna vermisiniz! İkiniz də param-parça olmusunuz! İkinizin də

bütünləşməyə ehtiyacınız var! Hətta bir millətdən olmasanız, belə! Doğrudan, Olqanın milliyyəti nədir, Cəvanşir?

Kişixan əminin son sorğusu bütün dediklərini kölgədə buraxaraq, xəncər kimi ürəyimə saplandı. Bir anlığına başım vulkan kimi partlaq verdi. Nə deyəcəyimi, nə edəcəyimi unutdum. Uçurum bir boşluğa sürükləndim. Olqa haqqında bütün olumlu sözlərdən sonra *“milliyyəti nə?”* sözünü bir turlu içimə sığışdıra bilmədim. Bu üzdən, olduqca bulanmış və qarmaşıq qafam kilidlənmiş duruma düşdü. Əllərim titrəməyə başladı.

Əllərimin titrəməsini havanın soyuğuna bağlamağa çalışsam da, Kişixan əmini inandıra bilmədim. O, bu barədə məni zorlamağa çalışmasa da, başıma düşən ildırımdan qaça bilmədim. Bu üzdən Kişixan əmi əlini boynuma salaraq dedi:

- Cəvanşir oğlum içəriyə gedək hava çox soyuqdu. Donduq!

O, mənim salı buza dönmüş heykəlimi taxta səndəldən qaldıraraq salona sarı yürütdü!

Salonun ortasında dörd bucaqlı odun soba bizi öz istisinə çəkdi. Bütün bədənimi isti-soyuq tər bürümüşdü. Qəlbimin atışına *//indi düşüb öləcəyəm!//* iztirabı hakim olmuşdu. Sanki, biri mənə *“Cəvanşir, bu suçun üçün cəhənnəmə atılacaqsan!”*sözünü hayqırırdı. Mən isə, yalvararaq cavab verirdim, *“Mən haradan bileydim ki, Olqa gavur qızı imiş!?*”

Kişixan əminin dediyindən Olqanın rus, erməni və ya gürcü olduğu irəli çıxırdı. Belə olan halda millətin gözündə o bir gavur

(kafir) qızıdır. Bu isə, onu və məni bitirməyə yetərlidir! Millətin gözündə mən onunla gecə paylaşmışam! Bir otaqda, bir yataqda olmuşam! Bizim millət, onu insan deyil, bir gavur gözündə görəcək!

Bəs mən necə? Mən də onu sevgili millətimin gözü ilə görməliyəm? Axı, mən onu tanıdığım andan, itirdiyim bir ulduzu tapmışdım! Elə bir ulduz ki, gözlərimə yenidən işıq verdi. Onun şəfəqqətli əlləri, sevimli gözləri və pambıq kimi ürəyi ümidimi pöhrələndirdi! O, tanrının əlimdən aldığı bütün sevgilərin əvəzi oldu! O, bir mələk kimi yük altında əzilmiş çiyinlərimə qondu! Deyilmi!? Bir də acından ölməkdə olan bir körpəyə can verdi! Mən onu sevdim! Kişixan əmi demişkən, ona vuruldum, aşiq oldum! O, kimsəsiz Tərlanı bağrına basararaq, qanını damlacıq süd edib tifilə verdi. O, qurumuş əmciklərindən damcılayan incilərilə doğma-özgə, din, millət düşünmədən bir yaşam qurtardı! O, bir anadır! Balası qucağında donmuş, sevgilisi isə, cəhalət yarasından ölmuş qərib bir gəlin qızdır! O, mənim ilk tutqum, tək sevdiyim, ürəyimə qonan humay quşumdur. Bir də, rus subayının onu müsəlman səsləməsi var!

Millət nə deyəcəksə, desin! O bir gavur qızı olsa belə, mənim Olqamdır! Məni bağrına basan, yaşantımda ilk kəz dodağıma sevgi quşu qonduran, ailə acısını mənə unutduran cəsur Olqamdı! O, necə gavur qızı ola bilər ki!? Onun anasıyla mənim anamın fərqi nədir? Mənim anamla Olqanın anası, bizi doğuranda aynı sancını çəkmədilərmi? Bənzər süd ilə bizi əmizdirmədilərmi? Onların hər ikisinin odağında insanlıq cənini oluşmadımı? İndi isə, onların ortaqlaşa bir övladları

olabilməzmi? Olqa bir gavur qızısa, bəs mən kiməm? O, ürəyi saf, təmiz və sevimli bir insandır. O, bizim kimi türkcə danışır!"

Utancımdan Olqanın üzünə baxa bilmirdim. Gecədən bəri ağır çöküşdə idim. Məhrəm olmayan bir gənc qadının çılpaq bədənini görməyi kültürümə sığışdıra bilmirdim. Bu olayın olub-bitməsini vicdan günahı sayırdım. Ancaq bir gərçəyi də unuda bilmirdim. Olqanın çılpaq gövdəsi, gördüyüm ən gözəl nəsnə idi! Üzərimə yürüyən bütün basqılara rağmən, unudulmaz anı yaşadığım üçün unudulmaz bir sevinc içində idim. Olqa, məni bu utancdan qurtarmağa çalışırdı:

- Cəvaşir Tərlanı qucağına alırsan? Əllərimi yuyub gəlirəm. Bu qəndağı da yedizdirsən, yaxşı olar.
- Hə, hə əlbəttə, Olqa xanı... Olqa! Mən yedirdərəm.

Olqa gülümsəyərək salonun dibindən açılan həyətə sarı getdi. Bizə yaxın oturan Cabbar və Kişixan əmilərin marağını üzərimdə görüncə, onların yanına gedərək dedim:

- Mən çox bacarıqsızam! Elə deyilmi? Siz də bunu bilirsiniz deyilmi?! Elə deyilmi? Mənim əlimdən heç bir iş gəlməz! Axı, mən gözü bağlı bir evdə böyümüşəm. Mən bacımdan və anamdan başqa qadın xaylağı tanımadım heç! Evimizə bir gəlin belə, gəlmədi. Rəhmətli qardaşımın evlənmə çağı çatarkən anamla, atamın gizlicə bu haqda danışıqlarını eşitmişdim. Anam atama deyirdi ki:
- "A kişi bu oğlanın başını əkmək gərək. Yavaş-yavaş evlənmə zamanı çatır. Bir halal südəmmiş qızın sorağındayam. Muşata Səkinəyə də demişəm. O, maşallah hamıdan yaxşıdır. Ağzı da

bütündür. Səssiz iş görür. Özüm də gözdə-qulaqdayam. Şatır Həsənin qızı var ha! Bir ay parçasıdır maşallah! Tü, tü, tü, tü! Pis gözdən uzaq olsun. Beli-buxunu, ahu gözləri, qələm qaşları, ədəb-ərkanı, iyirmi yaşındakı qızlarda yoxdu belə! Amma, heyif ki hələ 13,14- lərindədir! Biraz böyük olsaydı keşkə! Bəlkə də, ikinci oğlumuza qismət olar İnşallah!"

Qardaşım evlənmədən dardan asıldı. Mən isə, hətta şatır Həsənin qızını görə bilmədim. Bir qız gördüyümdə özümü gizlədim! Sanki, onlar mənə elçi gələcəklərmiş, yaxud məni yeyəcəklərmiş qızlar!

- Cabbar əmi: Oğlum Cəvanşir belə düşünmə! Sən çox yetənəkli və yaxşı gəncsən. Sənin bu 3-4 gündə bacardıqlarını mən hayatım boyu bacaramadım. Sən çox bacarıqlı insansan. Rəhmətli atan kimi....!
- Sən mənim atamı hardan tanıyırsan?
- Yox, yox mən onu tanımıram. Sənin dediklərinə görə, o bir milli şəhiddir. Yoxsa mən onu haradan tanıya bilərəm ki! Bəlli ki, sən atana çəkmisən. Mən misal üçün dedim. Yox, mən sənin atanı haradan tanımalıyam! Yox, yox, oğlum!

Cabbar əmi atamdan danışarkən dodaqları titrəməyə düşmüşdü. O, öz söylədiyi sözdən peşman kimi görünürdü. Mən soyuq qanlı Cabbar əmini heç belə narahat görməmişdim. Onun səsinin titrəməsi yanaqlarına da vururdu. Bunu hətta Kişixan əmi də görürdü.

- Kişixan əmi: Oğlum Cəvanşir, Təbriz bir o qədər də böyük şəhər deyil. Mitinq və inqilab günləri hər kəsin bir yerdə

olduğu günlərdir. O günlərdə də görüb tanış olmaq olar! Burada nə var ki? Dönək bayaqkı söhbətə! Sən Olqaya qarşı utanacaq bir iş gördünmü? Görmədinsə utanmağa gərək yox! O sənin üzünə baxarkən, sən üzünü ondan gizlədirsən! Bunu etmə! Biraz üzlü ol! Olqa sənə qarşı boş deyil. Açıl, ağla, gül, dərdini onunla paylaş, onu bağrına bas, onu qorxutma! Haaa, odur gəldi. Görüm səni! Cabbar bəy, istərsən biz də biraz hava alalım!

Cabbar əmi zindandan azad olmuş kimi həyətə doğru yola düşdü. Kişixan əmi isə, Tərlanı mənim qucağımdan alaraq, öpüb üzərindəki jaketilə basdırıb həyətə götürdü.

- Olqa: Hara getdilər? Niyə getdilər?
- Onlar hava almaq üçün getdilər. Sən gecə yaxşı yatdınmı? Üşümədin ki?
- Yox üşümədim. Yerim çox rahat idi. Bəs sən hara getdin?
- Mən də yerimdə yatmışdım!
- Gözlərindən bəlli! Yalan-filan danışmağı nə sən, nə də mən bacarmırıq. Doğru danış mənimlə, Cəvanşir!

Olqanın bu sayaq açıq sözlü olmasını ilk kəz görürdüm. Onun sözü qarşısında düz danışmaqdan başqa çarə qalmamışdı. Mənim ilk başdan düzgün olduğumu anlatmağa çalışan Olqanın qarşısında, biraz daha kiçildiyimi duydum. Bu üzdən, açıq olma cəsarətini içimdəki dərin sevgidən alaraq söylədim:

- Doğrudu Olqa, yalan dediyimdə qulaqlarımın arxası alovlanır! Bağışla məni! Mən geçə səhərədək yatmadım. Mən

indiyədək bir xanımla tək bir otaqda olmamışam. Sən də soyununca...!

- Mən də soyununca nə?!
- Sən də soyununca halıma bir şeylər oldu! Bir yandan gözəlliyini, başqa yandan isə mənə qarşı etinasızlığını içimə sızdıra bilmədim. Dumanlar içinə düşdüm. Özümü aciz sandım. Səni çox güclü, özümü isə, çox gücsüz buldum! Gözlərim sənin bədənini  görüncə, sanki gücümü itirdim! Özüm istəmədən sənin yanından itələndim! Gözəl olacaq ilk gecəmizi qorxu üzündən  itirdim!
- Səncə, mən o isti otaqda paltarlarımla yatmalı idim? Günlərcə cəhənnəmdən sonra bir rahat gecəm olmuşdu! Bir yandan isti otaq, bir yandan sən yanımda ikən lümlüt belə, yata bilərdim! Mən bu gənc çağımda kimlərin yemi olmadım ki!? Sən məsum və qandallanmış əsirə olan təcavüzün anlamını gözəl bilirsən. Əlbəttə, mənə anlatdıqların doğrudursa! Sən bilirsən ki, insanın iffətini ləkələrkən ruhu da pozular. Mən sənə yerindən dur get demədim ki! Mən sənin dodağından belə, öpdum! Bu mənim sənə olan təmiz və içdən sevgimin göstəricisi deyildimi? Mənim səndən gizliyəcək bir sirrim yox! Ancaq sən yanımda dinc olmadığına görə, demək ki, saxlayacaqların vardır! Sən soyunmağı özün istəməli idin! Mən, sənin rahatlığını istədim! Ancaq bəlli ki, öncə sənin bu duruma düşməyin gərək imiş!

  Bu dediklərindən başqa, bir sevincimi səninlə paylaşmalıyam.

  Mən, sənin ruhunla, ürəyinlə, sevginlə və varlığınla sevişmək istəyirəm! Yoxsa, səninlə mənə hər gün təcavüz edənlərin

arasında nə fərq olar ki!? Əslində, keçən gecə, bizim üçün bir böyük sınaq gecəsi oldu. Belə ki, mənə qarşı cinsəl istəyinin ehtirasa dönməsi halında, sadəcə, ruhsuz cismimə əl tapacaqdın! Elə olarsa, sənə güvənim sarsılacaqdı. Sevgimizə cinsəl ehtiras hakim olacaqdı. Bu isə, bir sevən qəlbin param-parça olacağı və bir tenin yenidən fahişə olacağı anlamına gələcəkdi. Mən, səni bir gecə qaçamazlığına çəkərkən, sənin də çəkini ölçmək istədim! Sən, gənclik üsyanına, içini patladacaq volkana qalib gəldın! Sənə olan güvəncimi artırdın! Keşkə, bəyəndiyin bu gözəl bədənimi, alovlu gənc ehtirasına təslim etmədən, sıcaq qoynunda mışıl-mışıl uyutsaydın! İnan ki, o durumda canım deyil, ruhumla səndən qopmaz olacaqdım! Amma olsun! Yenə də gecənin qəhrəmanı sən çıxdın! Sənin məni sevdiyin isbatlandı. Bundan sonra inisiativ sənin əlində Cəvanşir! Ruhuma oxşayacaq kimsəm varsa, o da sənsən! Bunu sən bacarsan, çox sevinərəm! İzn ver, sənin də ilk eşqin mən olum!

Olqa, bu sözlərilə bədənimi qaynar bulağa çevirmişdi! *“Bu gözəl qız kimdir? Bu nə cəsarət, nə utankamazlıq! Bu Olqa, ilk gördüyüm utanqac Olqa deyildir! Bu bir canavar! Bu qız barmağının ucunda oynadır məni! Hələ heç bir şey olmadan məni əlində təsbeh etmiş! Bu bir Türk qızı ola bılməz! Olqa doğrudan da, gavur qızımı? Hər nə olsa Kişixan əminin təcrübəsi çoxdur! O, Olqa haqqında düz deyirdi. Amma bir yandan da Olqanın fərqini və açıq görüşlü olduğu ortada! Kişixan əminin məndən istədiklərini Olqa daha çılpaqca üzümə çarpdı! – “Tam Olqanı qarşıma alıb danışacaq cəsarətini götür-*

*qoy edərkən"- bu qız məni qarşısına alaraq, beynimin içini doğram-doğram etdi!" Bizdə belə bir dəb yox ki!Mən erkəyəm, bəyəm, adamam! Bəzi gizlilərim ola bilər. Kişilik ərdəmini qadın ayağına verə bilmərəm! Bizim adət, ənənəmizdə qadın erkəyə bağlı olmalıdır. Yoxsa, evdə evlik qalmaz! Azərbaycanda milyonlarla evin-ocağın qaydası budur. Hətta Olqa kimi birisi olsa belə! Sevdalandığım ilk qadın Olqa kimi birisi olsa belə! Bizə belə öyrədiblər! Bu qanuna bağlı olmalıyam! Amma Olqa, gavur qızıdırsa, necə!?"*

Olqa gözlərini mənim üzümə dikmişdir. Məndən bir açıqlama gözləyirdi. Mən isə, öz gizli düşüncələrimin içində qıvrılıb dururdum. Olqaya deyəcəklərimin ip ucunu tapa bilmirdim. Fikirlərimi necə dilə gətirməyi düşündüyüm anda, bizdən aralı oturan Cabbar əminin qucağındakı Tərlanın ağlar səsilə Olqanın onlara sarı yollanması bir oldu. Onun Tərlanla maraqlanması, məni bu üzüntüdən keçəri də olsa qurtardı.

- Olqa: Nədir mənim balam, gəl görüm nəyin var! Məlum olan körpə bala üşüyübdür!
- Cabbar əmi: Hə qızım, elə bil çöldə bir az çox qaldıq.
- Olqa: Olsun babası, bir azdan qızışar.

Olqa Cabbar əmiyə doğru səslənərkən, arxasını bizə çevirib başındakı uzun güllü ləçəyini boynundan açıb köksünə sərdi. Sonra Tərlanı əmizdirməyə başladı. Tərlan anında sakitləşdi. O, bütün gücü ilə Olqanın döşünü əmirdi. Tərlanın març-murç səsi salonda eşidilirdi. Bu əsnada Cabbar əmi yenidən həyətə getdi.

O getdikdən sonra Olqa mənə tərəf döndü. O, döşünü sağarkən, Tərlanın süd əmməsini daha da asanlaşdırırdı.

- Olqa, Tərlanı əmizdirmək üçün südün yetirmi?
- Hə, yola düşmədən südüm çiçəyimə yetirdi. Ona rahat süd verirdim. O, ölərkən südüm də qurumağa başladı. Artıq üç gündür ki, Tərlanı da əmizdirirəm. Əmərsə südüm açılar. Mən bir anayam. Tərlanın süd yeməsi gərək. Yoxsa bu tifil acından ölər. Mən yuxarıya çıxıram. Tərlan burada üşüdü. İstərsən, sən də tək qalma, get bəylərin yanına.
- Mən, sizi yuxarıya çıxarıb dönərəm. Bəlli olan sabah səhər tezdən yola çıxacayıq. Keşkə Həmədanı görə bilsəydik! Kişixan əmi Həmədanda olub. Buranın tarixi bir yer olduğunu Cabbar əmi də mənə anladıb.

Tərlan, yataqda uzanmış Olqanın qolu üstündə yuxulamışdı. Olqa, iki gözünü otağın tam uzaq küncünə dikmişdi. Bəlkə də, bu durumda bir opucuk cəsarəti, buzlanmış ilişgimizin əriməsinə yardım edərdi! Lakin, Olqaya qarşı olan qorxum, bu izni məndən almışdı. Hətta Olqanın mənim istəyim qarşısında cismini mənə təslim edəcəyi arzusu belə, toparlanmağıma yardım etmirdi.

- Olqa, mən getsəm sıxılarsanmı? Yoxsa qalım deyirsən.
- Yox get! Dediklərimi düşün. Heç bir şeyə məcbur olma! Biz, bundan sonra istədiyimiz kimi deyil, diri qalmaq üçün yaşamalıyıq! İstədiyimiz kimi yaşamağı Təbrizdə gömdülər! Bundan sonra diri qalmaq uğrunda dirənməkdən başqa yol yoxdur! Özünü sıxmadan düşün! Haqqımda daha çox öyrənmək

üçün içindən gələni məndən soruş! Heç bir sualdan çəkinmə. Mən sənin yanındayam. Qucağımda bir Tanrı payı, qarnımda isə, bir təcavüz toxumu var! Mən burdayam! İki özgə balamla birlikdə! Sən düşün! Getmədən bir də gəl bura!

- Mən tez dönəcəyəm. Tərlan da oyansın, birlikdə aşağıya enərik.

Bunu deyə-deyə Olqaya yaxınlaşdım. Olqa Tərlanı qolundan ayıraraq ayağa qalxıb əllərini belimdə düyünlədi. Onun mənə sevimli baxışı və ardından dodaqlarımdan öpüşü, bir anlığına ürəyimin çırpıntısını dayandırdı. Ancaq bu dəfə özümü tez toparlayıb, Olqanın incə sevgisinə qarşılıq verməyi bacardım. Hələ bu anın şokundan çıxmamışdım ki, Olqa çox incə bir gülüşlə özünü məndən ayırdı:

- Cabbar və Kişixan əmilərdən yuyulası paltarlarını al gətir! Fürsət varkən bir azdan paltarları da yuvaq. Bir də, sabun və hamamın olduğunu soruş.

Əlim-ayaqlarım titrəyirdi! Bu Olqa, bu Olqa! Mən artıq heç nə düşünə bilmirdim. Mən düşünməyə çalışırkən, Olqanın bir anlıq işvəsi bütün düşüncələrimi alt-üst edirdi. O, nə etdiyini bildiyi qədər, mən nə etdiyimi bilmirdim. An ba an iradəmi əldən verirdim. Bir də, zaman keçdikcə, Olqanın da mənə bağlanmasından arxayın olurdum. Onun mənə olan baxışları, mənə qarşı açılıb-bükülmələri, yaxından məni izləməsi və Tərlanı ikimizin balası sanmasının anlamını düşünərkən, yürəyimə su səpilirdi. Mən ömrümdə ilk kəz kişi kimi düşünməyə başlamışdım. İçimdə yeni bir böyümə duyğusu

yaranırdı. Qısası, böyüməyə başlamışdım. Amma məni sıxan nədənlərin yox olması üçün, özümü hələ çox gücsüz görürdüm.

Birazdan hamının salonda olması gərək idi. Çavuş Dərvişlunun verdiyi bilgiyə görə, içimizdən birisi yox olmuşdu. Buna görə, hamının bir araya gəlməsi və özünü göstərməsi lazim idi. Mən, Olqa, Kişixan əmi və Cabbar əmi bir yerdə dayanmışdıq. Tərlan mənim qucağımdaydı. Göz ayarı bizimlə olanları saydım. Qadınlı, uşaqlı, kişili 37-nəfər! Tehrandan çıxarkən 38 nəfər idik. Bir sitvan (subay/leytenant), çavuş Bayramı və görmədiyim bir başqa çavuşla birlikdə iki ağyaxa dövlət məmuru da salona girdilər. Gənc sitvanın görünüşü və davranışlarından, üz vermiş yeni bir olayın izləri görünürdü. O, salona girər-girməz, bizim olduğumuz küncə gələrək, farsca danışmağa başladı:

- Sizin içinizdən biri, ağılsızlıq edərək qaçmağa çalışmışdır. O, qaçarkən ac qurdlara yaxalanıb yem olmuşdu. Ondan qalan qanlı paltarları və param-parça olmuş kimlik bəlgəsidir. İçinizdən onu tanıyan varsa bir adım irəli gəlsin!

Sitvanın bu xəbəri hamımızı şoka soxdu. Tifil Yəhyanı mən Təbrizdən tanıyırdım. Atası ilməkçilərin sindikasının yaradıcılarından idi. Onu bir neçə dəfə şair Biriyanın yanında görmüşdüm. Yəhyanı da o zamandan tanıyırdım. Hələ Firqədən öncə, atamla birlikdə sindika toplantılarında şair Biriya, inqilabçı şeirlərilə işçiləri coşdururdu. Bu toplantıları yola salan, Yəhyanın atası idi. Yəhyanın atası “M. R. şah”ın qarşısında edam olanlardan biri olmuşdu. Onunla Baş prokuroru bir

zamanda asdılar. Onu öldürəndən sonra isə bütün ailəsini həbs etdilər. Yəhya o ailədən sag qalan tək insan idi. Subayın istəyinə kimsə cavab vermədi.

- Subay: Məgər sizinlə deyiləm, eşşəklər!? Allah sən bax bunlara! Bu dilsiz heyvanlar İranı parçalamaq istəyirdilər! Bunların dili yox ki, ana dili istəsinlər! Pofiyozhaye aşğal/ qanmaz zibillər/!

Sitvanın bu sözü hamının başını yerə dikdi. Ancaq aramızdan bir gur səs, sitvana dur deməyi bacardı:

- Kişixan əmi: Cavan oğlan! Sən bizim milliyyətimizə və dilimizə ihanət edə bilməzsən! İndi biz yenilmişik diyə, ağzından çıxanı türklərə deyirsən! Bir gün olar ki, bu dediklərindən peşman olarsan! Ancaq o zaman artıq gec olar! Siz bu millətdən nə istəyirsiniz? Məgər bizim adımızın siyahısı sizdə yoxdur? Siz...

Gənc çavuşun işarətilə iki əsgər Kişixan əminin qollarından yapışaraq, onu binanın həyətinə sarı sürükləmək istədi. Kişixan əmi, sakincəsinə sözünü yarımcıq qoyaraq, əsgərlərin zorakılığına imkan vermədən onlarla yola düşdü!

- Sitvan: Başqa ədəbsizlik edən varmı? Eşşəklər!

İkinci maşından olan bir gənc ananın qucağındaki körpəsinin ağlar səsi sitvanın səsini kəsdi:

- Əsgər, bu eşşək balasının səsini kəs! Bunları da salondan bayıra at! Başqa anqıran varmı?

Kimsənin cıqqı çıxmadı. Əslində, bu təcrübəsiz subayın sözlərini üç-dörd nəfərdən başqası başa düşmürdü. O, çox qəliz fərqli farscanı çeynəyə-çeynəyə danışdığı halda, kimsədən çevirmə yardımı almaq istəmirdi. Sanki o, bizim millətin yüzdə doxsanının farcanı başa düşməməsini bilmirdi. Ən azından əmri altında olan və türkcəni bilənlərdən yardım ala bilərdi. Bu ihanətlərə son qoymaq amacıyla birisinin ortaya girməsi gərək idi. Mən, Olqanın üzünə baxdım. Olqa, qaş-gözü ilə mənim müdaxiləmi əngəllədi. Cabbar əminin də yarı göz işarəti mənim üzərimə toplaşdı. Bu üzdən bir addım qabağa çıxıb söylədi:

- Qurban mən onu yolda tanıdım. Onun adı Yəhya, soyadı isə Çərəndabı idi. Təkbaşına bu səfərə çıxmışdır. Kimsə ilə danışkamazdı. Mən onunla “Mərd Abad” qəsəbəsində danışdım. Bundan çoxunu da bilmirəm.
- Sitvan: Tamam! Keç yerinə, həəəə, belə adam olun!

Başçavuşa işarə edərək Sitvan:

- Sizin adınız nədir? Döşünüzdəki ad çox qəribdir!
- Başçavuş Bayramı: Cənab Sərvan, Bayramı!
- Bildiyimə görə, sən də bunlarla cəhənnəmə gedəcəksən! O dəliyə göz qulaq ol! Bu axşam onun dilini ...nə soxardım özüm! Ancaq yola düşməyim gərək. O əcnəbipərəst eşşəyi gözəlcə əzin! Quldurluq həvəsini başından çıxarıncaya qədər döyün!
- Baş üstünə ,cənab sərvan! Siz arxayın olun! Gözünüz arxada qalmasın! Mən gərəkən dərsini verəcəyəm!
- Tamam! Bu eşşəklərə də bu gecə yemək yox! Anladınmı?
- Bəli qurban, anladım. Əmriniz göz üstünə!

Yanındaki fars çavuşa işarə edərək, Sitvan:

- Maşın hazırdı?
- Çavuş: Hazırdır, cənab sərvan.
- Sitvan: Ağalar, buyurun gedək. Ölənin raporunu belə hazırlayın:*"Bir əsgərin silahını almağa qalxmışdır! Əsgər isə, silahını qorumaq üçün atəş etmiş. Ölən asi bizim şahidliyimizlə quylanmışdı!"*

Sitvan yola düşmədən öncə, üzünü bizə tutub dedi:

- Bu olay sizlərə ibrət dərsi olsun! "Sürüdən qopan quzu qurd payıdır!" Sabah tezdən saat 6-da burdan yollanacaqsız. Bunu bilin ki, siz başdan-ayağa İran dövlətinə yüksünüz! Dövlət büdcəsindən yeyirsiniz! Birinizin azalması, bir xərcin azalması deməkdir. Dövlət sizi öldürmək istəməsə də, ölümünüzə gözyaşı tökməyəcək! Dövlət şahənşahi sizi adam etmək istəyir! Buna görə, belə xərcli projeni tədarük edibdir. Yaşamaq istəyən özü yaşamını kakamazanmalıdır. Unutmayın ki, məmləkətə xəyanətin cəzası - ölümdür. Sizin diri qalmanızı cavan şahımız özü istəmişdir! "Əlahəzrət"in iradəsi olmasa, siz bura qədər gələ bilməzdiniz! Gedin ədalətli Şahımızın ömrünə dua edin! Yoxsa, siz də indi başqa xainlər kimi cəhənnəm odunda yanırdınız!

Fars sitvanın timinin salonu tərk etməsilə hər kəs rahat nəfəs aldı. Farscanı yaxşı bilməyənlərin, olaydan xəbərdar olduqdan sonra üzgünlüyü getdikcə artdı. Artıq Yəhyanın da aramızdan getməsinə inanmaq zorundaydıq! Bir-bir azalırdıq. Amma, Yəhyanın bu sayaq ölümü mənə çox da inandırıcı gəlmirdi!

Nədənsə, içimdə bir rahatsızlıq hakim idi! Yəhyanın ölümünə aid, sadəcə, bir qanlı paltar və tikə-parça olmuş kimlik bəlirtisinin iddiası, çox da inandırıcı görünmürdü. Ayrıca, Cabbar əminin yol boyunca kimsəylə görüşməsi olmamışdı. Cabbar əminin Yəhyanı tanıması mənə qaranlıq görünürdü. Çünki, Təbrizdən çıxar-çıxmaz, Cabbar əmilə bir an belə ayrı qalmamışdıq. Ta ki, keçən gecəyə qədər. Keçən gecə isə, Yəhya qaçmış olmalı idi! Cabbar əminin bir çox bilgiyə sahib olduğunu bilirdim. Ancaq, onda çoxlu gizli bilgilərin də olmasına inanırdım. Məncə, Cabbar əminin başqa bir kimliyi də ola bilərdi! O, çox bilən və az danışan birisi idi!

Bunları düşünərək, Kişixan əminin taleyinin necə olduğunu bilmək üçün həyətə yollandım. Olqa isə, salonun bir küncündə uşağa süd verirdi. Mən Olqanın bu hərəkətini heç bəyənmirdim. Nədən o, millətin içində Tərlanı döşünə alır! Olqa bu əməli ilə nəyi sübut etmək istəyir?

Salonun çıxış qapısına yaxınlaşmışdım ki:

- "Çıxış yox! Qayıt arvad-uşağının yanına"! Başını bəlaya soxma oğlum! Durum çox qarışmış! Hər an bir şeylər ola bilər. Kişixandan narahat olmayın. Onu sağ-salamat sizin yanınıza göndərəcəyəm. Bir-iki şapalaqdan sonra, onu sizin yanınıza qaytaracağam! Bilirsən ki, əmir verilib! Əmir verən bir azdan itilib, getməlidir! Axşam yeməyi də veriləcək! Qoy biraz o itlər buradan uzaqlaşsınlar! Sitvangil Tehrana yollandılar.
- Salam! Neçə gündür ki, sizi görmürəm. Mə...

- Yox Cəvanşir indi danışma zamanı deyil. Get, Olqanı tək qoyma! Ətrafda naməhrəm gözlər var. Ona sahib çıx! Tərlanı da öz oğlunuz kimi böyüdün! Qoy yerimizə çataq! Nə lazimsa, edəcəyəm. Hamı sizi Təbrizdən ər-arvad bilməlidir. Tərlan isə, evliliyinizin meyvəsidir! Bunu unutma! İndi dön get!

Baş çavuşun bunları deyərək salondan çıxması, bir sır kimi içimə düşdü! Dönüb Olqanın yanına getdim. Tərlan Olqanın döşünü əmirdi. Olqa, məni görüncə yönünü mənə sarı dəyişdi. Tərlanı əmizdirən döşünün bütünü gözümün önündə idi. Bir anlığına, Olqanın doğrudan həyat yoldaşım olduğunu hiss etdim. Olqa bütün məsumiyyətilə gözümün giləsinə girdi. Özüm də bilmədən əyilib Tərlan və Olqanın üzündən öpdüm! Olqa gülümsədi! Gözüm çevrədəkilərə düşdü! Kimsənin marağını görmədim. Cabbar əmi mətin gülüşü ilə üzümə gülümsədi!

Salonun uzun ayaqlı saatı 07-28 dəqiqəni göstərirdi. Həmədanda ola-ola, heç görmədiyimiz bu tarixi Türk şəhərini tərk etmək üçün salonda toplanmışdıq. Başçavuşun sözünü tutması məni çox sevindirmişdi. Kişixan əmi daha qururlu, daha vüqarlı halda yanımızda durmuşdu. Baş çavuş Bayramı, çavuş Dərvişlu və yerli bir baş çavuş salonda son söhbətlərini edəndən sonra, həmədanlı baş çavuş türkcə danışmağa başladı:

- Həmədanlı baş çavuş: Türkcə danışıram ki, hamınız nə dediyimi başa düşəsiniz. Siz, iki gün bizim qonağımız oldunuz. Burda olan imkanlar içində sizin rahatlığınıza baxıldı. Dünənin kədərli olayı hamımızı üzdü. O cavan, bu dağların təhlükəli olduğunu başa düşmədi. Allahdan ona

rəhmət və sizlərə dözüm diləyirəm. Hər nə oldusa keçdi. Sərkar Bayramıdan bir həftə içində başınıza gələnləri öyrəndim. Mən bir hərbçi olaraq üzüldüm. Sizin yanınızda balasını, anasını, bacısını itirənlər var. Üç aydır Təbrizin və Azərbaycanın xəbərlərini hər gün radio və qazetlərdən izləyirəm. Qardaş-qardaşa divan tutur! Hər kəs bir-birilə düşmən olur! Bir çox Firqə rəhbəri Rusiyaya qaçıb! Amma Allaha şükür ki, Azərbaycan vətənə qayıdıb! Bundan sonra barış və qardaşlıq içində olmağa ümid edirəm! Mən burada sizinlə vidalaşıram. Təbrizdən sizinlə birlikdə olan Sərkar Çavuşlar Bayramı və Dərvişlu yenə sizinlə olacaqlar. Həmədandan seçilmiş yeni əsgərlər, öncəki əsgərlərin yerini alacaqlar. İstəklərinizi Türk dilində dilə gətirə bilərsiniz. Əlbəttə sərkarların iznilə!

Yenə iki günlük yemək payını köhnə qəzetlərə bükərək, aramızda payladılar. Həmədanlı baş çavuşun sözləri ürəyimə su səpdi. Onun mətanətli və ürəyə yatım tərzlə danışığı fars subayın insan dışı davranışı və danışığı ilə daban-dabana tərs idi. Fars əxlağının Türkə qarşı biçimlənmiş olan nifrətinin dərinliyi, aydıncasına fars sitvanın davranışlarında öz əksini tapırdı. Fars zabitin gözlərindən nifrət alovu saçarkən, türk çavuşun çəkimcəl olsa belə, içdən yanaşmasının doğma anlamı aydıncasına görünürdü. Necə ki, deyərlər "qürbətdə olmayınca, vətən və millət anlamı tam duyulmaz!" Biz, həm qürbət, həm isə əsirlik yolçuları olaraq, vətən və millətinin nə olduğunu yavaş-yavaş anlırdıq.

Salondan çıxmadan öncə Başçavuş Bayramı qısa sözlərilə həmədanlı çavuşun verdiyi əməklərdən çox məmnun qaldığını bildirdi. Sonra isə, hər kəsin maşınlarda yerləşməsini istədi. Yəhyanın ölümünə üzüldüyünü və belə bir hadisənin kimsənin başına gəlməməsini ümid etdi.

Həmədan, ağlar-gülər havası və ağ örpəkli ağacları ilə bizi uğurlayırdı. Yanar-sönər dalana dönüşmüş küçələrin arasından keçərkən, hüzur dolu anlar yaşanırdı. Yol boyunca ağacların üzərini örtükləmiş parlaq incilər, bozarmış yanaqlarımıza işıq saçırdı. Uzaq günəşin qızıl qarlı səpintiləri ulduz rəqsilə ağacların qar yarpaqları arasından üzərimizə süzürdü. Uzun-qara yollardan uğurumuza uçan bu incilərin sanki *"Yaşa...yaşa....yaşa! Ölməyə nə var ki!"* deməsi, ürəyimə bir sevinc çiçəyi bağışlayırdı. Bu mənim yaşamım boyu aldığım ən gözəl çiçək sayılırdı.

Seyrinə doyamadığım ən gözəl keçidi geridə qoyub sərt caddələrə doğru yola düşdük. Hara getdiyimiz bilinmirdi. Daha iki günlük yemək payının verildiyinə görə, ən azından iki gün də yollarda keçirəcəyimiz bəlli olurdu...

Səssizlik yenə də amerikan avtobusunu bürümüşdür. Təkcə avtobus motorunun nəriltisi və çala-çuxur yolların çalxantısı içərinin səssizliyini pozurdu. Olqanın gözləri uzaqlara dikilərkən, sanki nəyinsə əsiri olmuşdu. O üzdən, onu gizli dünyasından qoparmağı doğru sanmırdım. Cabbar əmi şapkasını gözləri üstünə endirərək, hər zamanki kimi görməməzlikdən, eşitməməzlikdən gəlirdi. Kişixan əmi, dünya malından bircə qaldığı bığlarının canına qəsd etməklə uğraşırdı. Onu narahat

səssizliyindən qoparmaq istəsəm də, buna yalan yuxusu əngəl olurdu.

*“Bizim buralarda nə işimiz var. Bizi haralara sürükləyirlər? Azərbaycanla İran arasında olan ayrılığın bütün günahkarı biz yetimlərikmi? Görəsən, bizi yurd-yuvamızdan uzaqlaşdırmaqla bütün problemlər həllini tapacaqmı? Tutaq ki, bizi də öldürsünlər! Sonra nə olacaq! Bütöv milləti də bütünlüklə aradan qaldıracaqlarmı? Bunu dünyada birisi bacardımı? Bir millətin dilini, kimliyini, varlığını, min illərə bağlanan gələnəyini yer üzündən silə biləcəklərmi? Məgər bütün millətlərin insan kimi yaşama haqqı, dünyanın ən üstün şüarı deyilmi? Biz kimin milli varlığına tərs olduq ki, bizim milli varlığımızı və insanlıq duyğularımızı bizdən almaq istəyirlər!? Bizim günahımız nə? Niyə bizim hara getdiyimizlə bağlı bir bilgimiz yoxdur? Yurdumuzdan ayrılanı 9-cu gün oldu. 32 insanımızı yollarda gömdük. Həmədana da bir qurbanlığımız var idi, onu da verdik. Bu günədək ölənlərə qısqanıram. Çünki, onlar türk ölkəsinin torpağına verildilər. Mənim qismətim haradır? Məni harada göməcəklər, bilmirəm! Ancaq bunu bilirəm ki, hər gün özümdən qoparılıram. Hər gün geçdikcə, doğmalarımdan uzaqlaşıram. Artıq sevdiklərimin də anlamı dəyişməyə başlayır. Olqa, Tərlan və yoldaşlarım mənim üçün bir milli varlığa çevrilirlər. Mən Təbrizdə ikən belə duyğuları tanımırdım. Mən, sadəcə, evimizin dörd yanında olanları varlıq sanırdım. Amma indi, çavuş Dərvişlunun kədərli baxışaları belə, mənim üçün milli varlıq sayılır. Mən özümü ona qarşı sorumlu hiss edirəm. Mənə nələr olduğunu bilmirəm. Lakin dünyamın dərindən dəyişdiyini bütün varlığımda dərk edirəm”.*

Kişixan əminin səsli xornasından, Tərlan yuxuda diksinərək ağlamağa başladı. Tərlanın ağlamasıyla Kişixan əmi özü də gözlərini açdı. Olqa, südü daşan analar kimi Tərlanı döşünə alıb əmizdirməyə başladı. Tərlanın səsinin kəsilməsilə, Kişixan əmi yenidən səsli yuxusuna döndü. Mən Olqanın əlini oxşarkən, gavur bir qıza da aşiq olmaq olarmı, gərçəyini düşünürdüm. Yol, getdikcə tam bir bataqlığa çevrilirdi. Amerikan avtobusu çalxalana-çalxalana yolda irəliləyirdi. Tərlan, Olqanın döşündə sakitcəsinə dayana bilmirdi. Elə buna görə, Olqa əlini yumşaqcasına əlimdən çəkərək, bir əlilə Tərlanı, başqa əli ilə döşünü Tərlanın ağızında saxlamağa çalışırdı. Mən, Olqa utanmasın deyə, gözlərimi yola dikmişdim. Lakin, etiraf edirəm ki, hərdən də oğru-oğru Olqanın çılpaq döşünə də baxırdım. Bu, hətta xoşuma da gedirdi! Uzaqdan görünən görüntü, bir yerlərə yaxınlaşmağımızı göstərirdi. Tablonun izini qaçırmamaqdan ötrü, gözlərimi ondan ayırmamağa çalışdım. Üzərinə ət palçığı daşlanmış çirkli tabloda, farsca "Əsəd Abad şəhərinə xoş gəlibsiniz" yazılırdı.

## Əsəd Abad

Yeni adlar, yeni şəhərlər, hamısı da bir-birindən xarabalıq! Yıxıq tikintilər, ayaqyalın uşaqlar və çirkli yollar! Yol boyunca tam anlamı ilə yoxsulluq  gözə çarpan ilk və son görüntülər!

Avtobuslar kiçik bir meydanda dayandı və biz hava almaq üçün maşınlardan endik. Çevrəmizi çoxlu uşaq və bir neçə böyük

adam doldurmuşdu. Onların içində qız uşağının olmaması marağımı çəkdi. Yerlilərlə bizim aramızı silahlı əsgərlər kəsmişdir. Buna görə, onların bizə, bizim isə onlara yaxınlaşmamıza izn verilmirdi. Lakin, onların dediklərini büsbütün eşitmək olurdu. Uşaqların heyran-heyran bizə baxışları, Təbrizdən çıxan anlarımızı göz önünə sərirdi. Bu uşaqlarla Təbrizdəki uşaqların, biraz ləhcə fərqliyi qulağımı oxşadı. Ancaq, bizim kimi türkcə danışmaları anlaşılırdı. Onların da ayaqları altında bir dəri top var idi. Bu mənzərə ilə Təbrizdə gördüyüm görüntü eyni bir sinema pərdəsi kimi idi. Bundan öncə bizə vətənin Takistandan başlamasını soyləmişlər. Hətta Firqənin başçıları belə Azərbaycan dilinin siyası Azərbaycan coğrafiyasına aid olduğunu deyirdilər. Halbuki, bildiyimiz Takistanla buranın arasında çox uzaq məsafə var idi. Ancaq ortada dəyişən dil fərqliyi yox idi. Təbrizdən çıxalı gördüyümüz hər yerdə yalnız türkcə danışılırdı. Bu, mənim vətənimin yəni Azərbaycanın daha da geniş və böyük olduğunu göstərirdi. Şübhəsiz ki, bu barədə Cabbar əminin daha da çox bilgisi olmalıydı. Mən bu gərçəyi ondan öyrənməli və əgər qismətim olarsa, başqalarına da öyrətməyi düşünürdüm. Hər nə olsa, çox tezliklə gəldiyimiz bu yollardan vətənə dönəcəyik.

Bizə yaxın olan iki orta yaşlı kişinin danışıq dili və sözləri marağımı çəkirdi. Onları dinləmək üçün ən yaxın məsafəni seçərək qulağımı yönlərinə tutdum:

- Birinci kişi: Tanrı özü kömək etsin. Nə günahları var, bağışlasın. Görəsən haradan gəlirlər? Bəlli ki yolları uzundur. Bax! Gör nə pərişandırlar. Bu qədər insanın bir yerdə nə işi

var? Çoluq-cocuq, qoca-gənc, qadın-kişi iç-içədirlər. Bu işin içində bir iş var, Məşdi!
- İkinci kişi: Sən döz Kəbl Əli! Mən bir azdan bilərəm!

İkinci kişinin biraz da mənə yaxınlaşmasını görürdüm. Elə həmən fasilədən öncə başıyla, sonra isə dillə məni salamladı:

- Salam həmşəhri! Əz koca aməd to!/Salam vətəndaş! Haradan gəlirsən!/
- Biz Təbrizdən gəlirik. Gətirirlər! Haraya getdiyimiz bəlli deyil!
- Birinci kişi (dostuna): Bax! Bunlar da türkdür. Bizim kimi danışırlar. Təbrizdən gəlirlər.
- İkinci kişi: Təbrizi bilirəm. Böyük şəhərdi. Siz də türksünüz bəlli!?
- Biz hamımız türkük. Bütün Azərbaycan türkdür. Sizin kimi! Məgər bilmirdiniz?
- İkinci kişi: Yox a kişi! Hardan biləcəyik! Bizim dünyadan xəbərimiz yox ki!

O anda bir əsgər bizə yaxınlaşaraq dilləndi:

- Get maşının yanında dur! Mənim üzümə söz gələr. Siz də gedin işiniz-gücünüzün dalınca! Başınızı ağrıtmayın! Bu işdən xeyir gəlməz!
- Mən: Səkar bağışla! Buranın hamısı türkdür?
- Əsgər: Həəə bəs nə olsun!

Böyük bir kəşif etmiş kimi, Kişixan əmilə bir gövdəli ağaca söykənən Cabbar əmiyə sarı yürüdüm.

- Cabbar əmi bunlar da bizim kimi danışırlar! Mən ikisilə danışdım! Uşaqların da türkcə danışdığını eşitdim!
- Kişixan əmi: Övladım buralar hamısı türk elləridir. "Əsədabad" və böyük "Zaqros"un doğu və mərkəzi ətrafı əzəldən bəri türkellilər torpağıdır. Batıya və güneyə sarı kürdlər və lorlarda bu bölgələrdə vardır. Ancaq buranın çoxluğu türkdür.
- Cabbar əmi: Oğlum, əminin sözü doğrudu. Nə yazıq ki, bu bilgilərin kitabda toplanmasına imkan tapa bilmədik. Keşkə, bu kimi işlərə bir az daha zaman qoysaydıq. Gündəlik problemlərlə milli varlığımızı yaymaqdan geri düşdük. Çevrəmizi görmədik, özümüzü Təbrizdə boğduq. Təbrizi də, özümüzü də yardımsız etdik! Elə bu üzdən də, gündən-günə böyümək yerinə kiçildik. Gözümüzü açıb düşmənin "Miyana"nı və "Şibli"ni aşmasını gördük. Sonra isə, düşmən Təbrizə yaxınlaşdıqca, biz Təbrizdən uzaqlaşdıq! Sonuc isə, göz önündədir!

Cabbar əmini ilk dəfə belə duyğulu görürdüm. Onun dediklərindən çox duyğulandım. Lakin, onunla birgə Kişixan əminin göz yaşlarını görüncə, mən də ağlamağa başladım.

- Kişixan əmi: Oğlum, Cabbar əminin sözlərini dərindən düşün! Bunlar, heç yerdə eşidə biləmiyəcəyin bir millətin tarixidir! Bu kişidə saxlı olan çoxlu gizlilər var. Hələ dayan. Mən buralarda olmuşam. Əsədabadın yüzə yaxın kəndi var. Bunların hardasa saksan-doxsan kəndi türkdür. Qalanı isə, kürd və lor kəndləridir. Çünki, Əsədabad "Kirmanşah"a və "Loristan"a yaxındır. Bir də, Əsədabad islamiyyətin ən böyük

siyasətçi, alim, filosof və ideoloqu olan “Seyid Cəmaləddin”in doğum yeridir. Bu adı eşitmisənmi, Cəvanşir?

- Hə, amma onun Türk olduğunu bilmirdim. Onun hər zaman fars dilli olduğunu yazıblar.
- Cabbar əmi: Tarixi və insanların gərçək kimliyini öz adına çıxarmaq fars qövmünün köhnə adətidir. Zatən başımıza nə gəlirsə, qonşunun cahilliyindən gəlir. Təkcə Cəmaləddin deyil, türklərin bir çox savadlı insanlarını farslar öz adlarına çıxıblar. Bu qövmün canını al, amma yalançılığın alma! Əsəd Abadın bir başqa adı da Əfşarlılar Əsəd Abadıdır. Əfşarların kökü Azərbaycan türklüyündəndir. Əsədabadın Nadir Şah Əfşar dönəmində çox önəmli yeri var idi. O zaman yeni Əfşar köçlərilə yerli Əfşarların birgəliyi sonucunda Əsadabadın nüfusu çoxlu artmışdır. Seyid C.Əsədabadı da bu çoxalmanın ürünüdür. Ömür vəfa etsə, bu haqda söhbət edərik. S.C.Əsədabadının adı üstündədir. Onu sevənlər çox olubdur. O, Avropanın, ərəb və Osmanlı dövlətlərinin bir çox elmi məkanlarında olmuş, toplantılar qurmuş, fanatlar toplamışdır. Onun düşüncələri “Müsəlman Qardaşları” \Axvanül Müslemin\ kimi qurumlarda təcəlli etmişdir. Bu üzdən, İslam dünyasının bir çox yerində sevilib, sayğı kakamazanıbdır. Onun Əfğani, Misri, Həmədani kimi ləqəbləri vardır. Əfqanıstanın da bir Əsəd Abad qəsəbəsi vardır. Qacar “Nasirəldin Şah”ın “Mirzə Riza Kirmani” tərəfindən terror olunmasını Seyidin adına bağlayırlar.

Cabbar əminin dərin söhbətinə uymuşdum ki, həmədanlı əsgərin əmrilə özümə gəldim:

- Ağalar maşın sizi gözləyir. Tez olun! Üzümə söz gələr!

Həmədanlı əsgərin özünə özəl deyimilə "üzümə söz gələr" sözünü ikinci dəfə eşidirdim. O, bu sözü deyərkən, üzünü büzür, gözlərini yerə dikirdi. Onun bu hərəkəti çox xoşuma gəlirdi.

Olqanın isə mənə ilgisiz davranışının altında keçəri bir gileyin olmasını düşünürdüm. Əsədabaddan ayrılalı bir saat olurdu. Bu bir saatda Olqanın susqun qalmasının səbəbini axtarırdım. O, mənə bir şeyləri anlatmağa çalışırdı. Mən də, Əsədabadda ona qarşı ilgisiz olduğumun səbəbini anlatmağa çalışsam da, onun üçün maraqsız olduğunu hiss edirdim. Elə düşünürdüm ki, Olqa üçün nəinki Əsəd Abad, hətta bütün Yer üzünün türk olması belə marağlı deyildi. Sözsüz ki, Kişixan əminin Olqa ilə bağlı ürəyimə səpdiyi şübhə toxumu izsiz qalmamışdı.

Üzərimizdə olan pətunun altından Olqanın əlini tutaraq üzünə gülümsədim. Olqa əlimi sıxaraq, Tərlanın üzünü öpə-öpə üzümə baxdı. O, məni gözəlliyi içində gömərək özümdən qoparıb şeir dünyasına uçdurdu...!

## **Tuysərkan Şəhəri**

Qarşımızda yenə bir kiçik tablo və yenə bir başqa məkan! Bu dəfə "Tuysərkan Şəhəri"nə çatırdıq. Tuysərkan, Əsədabad şəhərinə görə "Əlvənd" dağına daha yaxın görünürdü. Buradan,

bu gözəl dağ başqa özəlliklərilə seçilirdi. Bir az uzaqlarda, sıra dağların düzənli şəkildə yerləşməsi diqqətimi çəkdi. Yan qoltuqda söhbət edən Kişixan əmi ilə Cabbar əmidən bu dağlar haqqında soruşdum:

- Cabbar əmi: Uzaqdan görünən bu dağların adı Zaqrosdur. Qotti-Lullubi, Manna, Media /Mad/ dövlətlərinin sərhədlərini bəlli edən dağdır. Bu türk imperatorluqların etnik tərkibində başqaları da yer alırdılar. Ancaq aparıcılar türklər idi. Zaqros eyni zamanda Azərbaycan yaylasının ən güney sıralarında yerləşmişdi. Kişixan ağanın da, yəqin ki, bu haqda çox sözləri var.
- Kişixanəmi: Zaqros sıra dağlarının da, Səhənd dağı kimi çoxlu zirvəsi var. Ancaq Zaqros daha geniş alanı içinə alır. Zaqros Həmədanı, Luristanı, Kirmanşahı və hətta Kürdüstanı bir-birinə bağlayan böyük Azərbaycan yaylasıdır. Bu geniş dağın yamaclarında nə öykülər olmayıbdır ki! Elat köçləri, xan-paşa savaşları, hakimiyyət savaşları və son aylarda Firqə hakimiyyətinə qarşı mərkəz qüvvələrilə yerli xanların birləşməsi də Zaqros yamaclarında baş vermişdir. Bu üzdən, buralar, ağır şərtlərdə yaşam sürən savaşçılar ovlağıdır! Firqənin Zaqros silahlılarından çəkdiklərini keşkə bilsəydiniz! Ömür vəfa etsə, bu haqda demeyə çox sözlər var! Firqənin iş başına gəlməsilə “Beşoymaq” xanları Azərbaycan hökumətilə anlaşa bilmədilər. Doğru danişsaq, əslində, Azərbaycan demokratları bu bölgəni heç də tanımadılar. Bu bölgənin hər küncündə böyük-kiçik ərbablar, paşalar, xanlar və modern deyimdə feodallar vardı. Bunlar bir-birilə düzgün münasibətdə olmasalar belə, ortaq çıxarları üçün hər zaman

birləşərlər. Bu bölgənin ən böyük feodallarından ikisi - Əfşarlar və Zülfqarılardır. Bunların bir çox yerləri, kəndləri və böyük ərazilari var idi. Firqənin yanlış, sinifçi, kopyaçı kafası hesabına türk feodalları fars dövlətinin yanında yer aldılar. Mən, indi, bu işin yalnış olduğunu başa düşürəm. Firqə, bu bölgədə olmadan çox öncə Əfşarlar və Zülfqarlılar var idi. Bütün bölgəyə kölgə salmış köklü ərbabları iki gündə necə arıtlamaq olardı!? Bunu kimsə düşünə bilmədi. Hətta mən də! Çünki, özgür düşünmək üçün özgür qafa gərəkdir! Biz qafa bilgisi almamış toplumlar sırasındayıq!

Bölgə xanları ilk olaraq, rusların qorxusundan başda Zəngan olmaqla, Beşoylağı Milli Hökumətə buraxaraq, dağılma manevrasını sərgilədilər. Halbuki, onlar Beşoylağın ucqar bölgələrində barınaraq əlverişli zamanı gözlədirlər. Onlar, keçmişdən əsarətlərində saxladıqları kiçik əşirətləri yanlarında saxlamağı bacardılar. Firqə titrəməyə başlarkən, həmin əşirətlərin silahlanaraq üzə çıxması da, bütün gecə-gündüzümüzü qaraltmağa başladı. Əfşarlar və Zülfqarlılar, Firqə əlilə zəbt olmuş torpaqların savaşına qalxmışdırlar. Biz onlarla heç bacara bilmədik. Olan oldu! Biz harda, onlar harda?

- Cabbar əmi: Bəs Təbrizə gələn zəfər xəbərləri necə?
- Biz, yüz illərcə bu yurda kölgə salan türk xanlarını özümüzə düşmən etdik. Düşmənimiz isə, bizdən olan xanları bizim üzərimizə saldırdı. Cabbar bəy, bunun harası zəfərdir!? Səncə, zəfərin tədbirlə qazanması gərək deyilmi? Zəfər dediyin sözlə deyil, görünən tabloyladı!

- Cabbar əmi: Bu qonularda sizdən duyulası çox şeylər var. Artıq olan olub! Sadəcə, yazıq ölənlərə və qalıb ölü kimi yaşayanlara! Bütün bunlardan yaxşı dərs çıxarmaq gərək. Biz baş verən hər hansı hadisənin mərkəzini Təbriz sanırıq. Bu isə bizim ən böyük səhvimizdir. Bax, mən bir tarixçı olaraq, buralarda baş verənlərdən xəbərim yoxdur. Bildiklərim, sadəcə başqalarından duyduqlarımdır. Tariximiz yalanlarla doludur. Bizim başımızı qəhrəmanlarla qatıblar. Şişirtmə və balon kimi yellənmiş qəhrəmanlarla gözümüz kör olubdur. Millətin yaşamağı üçün bilgi, bilikli insan gərəkdir. Bizdə bilim insanına deyil, qəhrəmana səcdə edərlər. Canım, iki-üç qəhrəmanı qəbul etdik! Bəs deyilmi! Bu qədər qəhrəmanı olan bir millət hər zaman savaşla yaşamalı! Elə deyilmi? Bəs bu millət nə zaman dinc olmalı, nə zaman bilimlə məşğul olmalı, nə zaman barış içində yaşamalıdır. Alman millətinin qəhrəmanlarına bax: "Kant, Hegel, Niçe", bizim qəhrəmanlarımıza bax: "Qacaq Nəbi, Koroğlu, Səttarxan"! Bizim qəhrəmanlarımızın əlində qəmə, xəncər, tüfəng var, almanlı qəhrəmanların əlində qələm! Alman qələm qəhrəmanları ilə, dünyanın fikir ağasıyam deyir! Biz isə, xəncər qəhrəmanlarımızla dilimizi geri almağa belə, aciz qalmışıq!

  Biz, qəhrəmanlıq tariximizdən bir xeyir görmədik! Bundan sonra da görməyəcəyik!

- Mən: Kişixan əmi, siz buralarda oldunuzmu? Burda millətin Firqəyə baxışı necə idi?

- Kişixan əmi: Yox oğlum. Mən Həmədanda bir neçə dəfə oldum. Ancaq bu yanlara ilk dəfədir ki, gəlirəm. Əlbəttə, buraları, gəlmədən də, yaxşı tanıyıram. Bu yerlərin çox hissəsində türklər məskunlaşmışlar. Mən iki dəfə Fədai dəstələrilə birlikdə, Əfşar və Zülfqari silahlılarının gizləndiyi ucqar kəndlərə hücüm edən dəstələrin içində olmuşam. Ancaq əli boş qayıtmışıq. Çünki, günlərlə düşmən arxasınca dağ-daşlarda, yam-yamaclarda sola-sağa at çapdırmağın sonucunda atla atçının birlikdə yıpranışı qaçırılmazdır. Heç unutmaram, "Xatun" kəndinə gedən yolları! O yollarda bir neçə dəfə atlılarımızın ayaqdan düşməsinə şahid oldum. Həmin yerlərdə bizə qarşı pusular quruldu. Neçə-neçə fədaimizi əldən verdik. Zülfqarı-Əfşar silahlılarının qarşısında dəfələrlə yenildik!
- Bəlli ki, sizin başınıza çox bəlalar gəlib, Kişixan əmi!
- Oğlum Cəvanşir, igidin başına iş gələr! Amma indi düşünürəm ki, biz tədbirsizlik elədik. Həm Təbrizdəkilər və həm Zəngandakılar! Biz, siyasətimizi də, hərbi siyasətimiz kimi uduzduq!

Kişixan əmi bunu deyərək, havada çap-ras dansıyla yerə sarı enən qar yağmuruna baxmağa başladı. Cabbar əmi, qaş-gözü ilə mənə sakinləşmə işarəti verdi. Tərlanın ağız suyu Olqanın göy buluzunun sinəsini islatmışdı. Bacımdan qalan turuncu ləçəklə Olqanın döşünü silmək istəsəm də, buna ürək edə bilmədim. Tərlanı Olqanın qucağından alıb, dizimin üstünə uzatdım. Olqa, qızıl saçlarını kürəyinin üzərinə sərdi. Olqanın bu əməlindən xoşlanaraq, saçlarını oxşamaq istədim. Ancaq buna da ürək

etmədim! Cabbar əmi ilə Kişixan əminin səssizcə qar yağmurunu izləməsi, məni də özünə çəkdi. Mən gələcəyimiz haqda düşünməyə daha çox üstünlük verdim. Bu işdə qorxmağa gərək yox idi!

İki yaşlı və yaralı firqəçinin düşüncələrini maraqla öyrənmək istəyirdim. Bu iki acı çəkmiş kişinin yaşamını doğru-düzgün öyrənməklə, beynimdə qaranlıq qalan bir çox gizlilərə aydınlıq gətirmək istəyirdim. Hegel, yoxsa Səttarxan! Öc yoxsa bilim? İkisi bir arada ola bilərmi!? Bunu yanıtlamaq üçün mənə erkən, o ikisinə isə gec idi! Mən seyrci kimi, onlar isə, oyuncu olaraq şətrənc alanında şah-mat olmuşduq!

☆ ☆ ☆

Amerikan avtobusun nərilti səsi hər keçən an artırdı. Motorunun nəriltisi hamını cana gətirmişdi. Maşın bir çaladan çıxarkən, başqa bir çalaya düşürdü. Tərlanın min əziyyətlə əmdiyi südlər Olqanın üstünə qaytarılırdı. Olqa, hər qusuntudan bir az sonra, bir daha Tərlanı əmizdirməyə başlayırdı. O, sanki hər dəfə məməsilə öyünürdü! Olqa, Tərlanı əmizdirən zaman gözlərimi yayındırırdım. Bayırda gözə görünən bir işıq, bir görüntü yox idi. Havanın qara, soyuq və çəkilməzliyi hər keçdikcə artırdı. Başqa yandan isə, hamımız ac-susuz idik. Günlərcə yol, günlərcə bəlirsizlik və indi haralarda olduğumuzun qorxusu! Olqanın pətu altından əllərimi sığalraması, bu dözülməz anlarımın ən dadlı anları idi.

Əlimi Olqanın əlinə kilidləmişdim! İkimiz də bundan zövq alırdıq. Qarşılıqlı baxış, birgə gülüş, iki sevən ürək və dilədiyim



☆ ☆ ☆

gözəl bir sevgi, hamısı bu qədər! Əngəlləri aşarsa əgər, bu sevgidir!

## Nəhavənd

Qaranlıq dalana bənzər yol uzantısı, əldəyməz doğanın çeşidli tablosu, kiçik bölmələrdən oluşan palçıq yuvacıqların sadəcə ad dəyişimini görmək olurdu. Dəyişim ancaq bizə aid olan daha çox aclıq, daha çox ayaqdan düşmək və vətəndən uzaqlaşdıqca daha dərin sürgün yaşantısı idi. Artıq, yol boyunca bənzər çala-çuxurlara, şaxta havaya, aclıqdan kirişlənmiş bağırsaqların iradəsiz gurultusuna alışmışdıq. Hansı abadlıqdan başqasına, hansı şəhərdən bir o birisinə və hansı dağ-dərədən aşdığımızın fərqində belə deyildik! Artıq, baş verən hər hansı bir olayı *“allah bətərindən saxlasın!”*ümidsizliyilə qarşılayırdıq. Beləliklə, 37 nəfərlik inamı kəsilmiş karvanın bəlirsiz yolçuluğu sürürdü. Soydaş ulus və ana vətəndən ayrı düşmüş, qururu tapdalanmış bizlər üçün, gələcəyin də anlamı qalmamışdır. Harada kimlərin bizi qarşılayacağı bəlli olmayan yerdə nə üçün qurqu qurulsun ki!

Rəhmətli anamın hər zaman dilə gətirdiyi bir söz var idi. O deyərdi: *“Yaşam, bir bulanıq seldir, haradan ağnaması, haranı yıxması bəlli olamaz!”*

Avtobusun “Nəhavənd Fərmandarısı” binasının yanında dayanması ilə “Nəhavənd” şəhərində olduğumuz bəlli oldu. Mənim üçün Nəhavəndin nə, necə və hansı kimlikdə olduğu böyük bir anlam daşımırdı. Maşını bürümüş pislik qoxusundan

qurtulmaq, gecəni qalacaq bir yuva və körpə Tərlanı islaq əski bezdən azad etmək, o anımın ən doğal istəyidi.

Tehrandan çıxandan bəri, Nəhavənddə olan şaxtanı heç yerdə görmədim. Bizi bir salona və oradan da ikinci qata götürdülər. İç-içə otaqlarda köhnə pətu gözə dəyirdi. Otaqlar sadə, soyuq və taxtadan taxçalarıyla, Təbrizin tənəbilərinə bənzəyirdi. Burada arakəsdi qapıların sadəcə çərçivəsi görünürdü. Bəlli olan o idi ki, hamımız yan-yana yatmalı idik. Elə də oldu. Birazdan bir sitvan/subay/, bir çavuş, baş çavuş Bayramı və çavuş Dərvişlu yerləşdiyimiz uzun otağa girdilər. İki əsgərin işarətilə hamı ayağa qalxdı. Sitvanın yanında yerləşən Başçavuşun dalqın görüntüsü gözdən qaçmırdı. Çavuş Dərvişlunun da duruşu bir o qədər fərqli deyildi.

- Sitvan: Bura Nəhavənd şəhəridir. Sizin son mənzilizə ən yaxın məkandır. Sizin, buranın bir kəndində yerləşmə əmri dünən əlimizə çatdı. İlk öncə sizin daha uzaqlara getməyiniz planlaşmışdı. Ancaq, Tehrandan əlimizə çatan teleqrafa görə, sizin Nəhavəndin çevrəsində yerləşməyiniz əmr olunmuşdur. Siz, bu gecə burda yataçaqsız. Otaqların sıcaqlığı ilə bağlı əlimizdən gələni edəcəyik. Amma artıq imkanlar yoxdur. Sabah  o birisi gün sizi bir kəndə göndərəcəyik. Mən oranı görməmişəm. Deyilənə görə, gözəl bölgədir. Əlbəttə, yolun bir bölümünü ayaqda getməniz gərəkdir. Qocalar və uşaqlar üçün beş-on qatır və eşşək düşünmüşük. Sabah qar-külək olsa, burada qalacaqsız. Hava yağmurlu olmazsa, sizi buranın yaxınlığında yerləşən hamama götürəcəklər. Səhərçağı xanım və uşaqlar üçün, günortadan sonra isə, ağalara görə olacaqdır.

Bu, bizə verilən əmrdir. Mən bilirəm ki, Təbrizdən bura çox yoldur. 30 nəfərdən çox insanın yolda tələf olduğunu da, sərkar Bayramı mənə bildirdi. Lakin, üzülüməkdən başqa əlimdən bir iş gəlməz! Birazdan sizə pendir-çörək və isti çay veriləçək. Xanımlar və ağalar üçün ayaq yolu aşağıdadır. Əsgərlər yolu sizə göstərəcək. Sərkardan aldığım bilgiyə görə, içinizdə ailələr var. Onları üçüncü otaqda yerləşdirəcəyik. Otaqları ayırmaq üçün pərdələr var. İstəyən istifadə edə bilər. Gedəcək kənddən çıxma izniniz yoxdur. Ən azından indilik yoxdur. Bundan sonra sizin işlərinizə jandarma baxacaq. Sərkar Bayramı və sərkar Dərvişlu sizinlə birlikdə kənddə yerləşəcəklər. Jandarm təşkilatının sizinlə bağlantısı sərkar Bayramıyə tapşırılıb. Hər kəsin dinc yaşamasını ümid edirəm. Jandarma və kəndxudanın əmrlərindən çıxmayanın başı ağrımaz! Əks halda, sonuc çox acı ola bilər! Siz bura gələn birinci karvansınız. Sizdən sonra başqalarını da bura vəya ayrı yerlərə göndərəcəklər. Bunu bilin ki, ən azından 3 il boyunca getdiyiniz kənddə qalacaqsınız! Bu "padişahi dövlət" tərəfindən alınan qərardı. Kənddə sizə əkin yeri paylanacaq. Bu yerlərin hamısı dövlət torpağıdır. Ancaq yerləşdiyiniz kəndin böyük hissəsi kənd ağasına və ərbablara aiddir. Yaşantınızı təmin etmək öz əlinizdədir. Gərəyiniz hər nə isə, sərkar Bayramıyə deyin. Öz başınıza qalxıb Nəhavəndə gəlməyin. Jandarmalar xəbər tutsa, birbaşa tək otaqlı zindana salınacaqsınız! Jandarmaya qarşı gəlsəniz, qurşuna tuş gələrsiniz!

Sitvanın danışıqlarını türkcəyə çevirən sərkar Dərvişlu idi. İlk dəfə idi ki, sərkar Dərvişlunun səsini eşidirdik. O, olduqca gözəl və bilincili danışırdı. Sözlərin doğru ifadə edilməsini ilk dəfə bu sayaq duyurdum. Bəlli idi ki, savadlı və ərdəmli insan idi. Ancaq onun üzündən gizli bir sirrinin olduğu aşkar görünürdü.

Sitvanın sərkar Bayramı ilə Dərvişlu haqqındaki dediklərindən onların da bizim kimi sürgünə göndərilməsi bəlli olurdu. Bu bilgidən sonra, Cabbar əminin də bu iki insanla bağlı olduğuna şübhəm qalmamışdı. Artıq, onların arasında gəzişən özəl baxışların səbəbinin yaxın günlərdə aydın olacağına inanırdım. Sitvanın bizim sürgündə olduğumuzu dilə gətirməsi, heç də yeni bir bilgi sayılmırdı. Buna baxmayaraq, söylədikləri qorxunc sözlərdən hamı pərişan görünürdü. O, bizim sürəkli gözaltında olduğumuzu vurğulayırdı. Dağlar arasında məhbus yaşamaq hökmünün gərəkli olduğunu, hamımıza bir-bir anlatan sitvanın ardından, bir də jandarma sözünün olması çox qorxunc görünürdü. Çünki, bütün kənd və kiçik şəhərlərdə jandarmaların əlindən çəkməyən kimsə olmamışdır. Jandarmalar qəddarlıq, həyasızlıq və şərəfsizlik örnəkləri kimi millət arasında tanınırdılar. İçlərində olan şərəfli və namuslu jandarmalar da, təpədən-dırnağa pislik içində olan sistemlərinin qurbanı olurdular. Burdakıları isə, tanımırdım. Ancaq, bizim yerlərdəki jandarmaların qarşısında kimsənin duracaq gücü yox idi. Onların qorxusundan 12-13 yaşlı qız uşaqlarını ailələr gizlədərdilər. Hətta bir dostumun dediyinə görə, Muğanın Xoruzlu kəndində çox gözəl bacısını jandarmalar əlindən

qorumaq üçün təndirdə saxlarmışlar. Jandarmalarla bağlı belə sözləri çox eşitmişdim.

Biz, sürgün yaşantımızın ikinci aşamasının ilk astanasındaydık. İlk dəfə idi ki, çavuş Dərvişlunu içimizdə görürdük. O, hər kəsin yerləşməsi üçün yardım etməyə çalışırdı. Otaqların bölünməsi ona tapşırılmışdı. O, məni, Olqanı və Tərlanı üçüncü otağa verdi. Bizdən sonra ikinci maşında olan iki gənc ailə də bizimlə birgə otağa yerləşdilər. Olqa, mən və Tərlanın bir ailə kimi görünməsinin baş memarı başçavuş Bayramı idi. O, ən başından Olqanın əlini mənim əlimə vermişdir. Onun ilk başdan bu niyyətindən sevinsəm də, arxasında olan planından baş çıxara bilmirdim. Olqanın səssiz, susqun davranışından yorğun olması və ayaqdan düşməsi bəlli olurdu. Özəlliklə, hər addımbaşı Tərlanı sakit saxlamaq amacıyla əmicdirməsi canından can alırdı:

- Cəvanşir tez ol, Tərlanın bezini çıxaraq. Tifil uşağın ayaqları sidik içində bişdi. Ayaq yoluna getməyimiz gərək. Biraz gec qalarsaq, ora dolacaqdır.
- Olsun, gəl gedək. Amma dəyişəcək əski qalmamış daha.
- Olsun, bu əskiləri yuyub, gecə yatmasına qurudaram. İndi uşağı açıq saxlayacağam. Ayaqlarına hava dəysin.

Bizim yerləşdiyimiz otaqdan aşağı qata bir başa pillə var idi. Bu üzdən, başqa otaqlara getmək gərək deyildi. Ayaqyolu, arxadakı kiçik bir həyətdə yerləşirdi. Ortada 2-3 metrə qara bir hovuz və bir su tulumbası yerləşmişdi. Hovuzun suyu buz bağlamışdır. Bu üzdən, sadəcə tulumbadan su almaq mümkün idi. Şırıq bezlərlə sarılmış tulumbanın dəmir xortumunun altında qaralmış odun

qalantısı, tulumbanın od gücü ilə açıq tutulmasını anladırdı. Tulumba yanında iki mis aftava luləsinədək buz bağlamışdı. Bu üzdən, su çəkmək üçün əlimizdə məlzəmə yox idi. Məmurlardan kimsənin bu duruma yardımçı olması gözlənilmirdi. Buz kimi soyuq hava hər kəsi yerindən oynadırdı. Tulumbanı yuxarıdan aşağıya çəkdiyimdə, su damla-damla kranın ağzından hovuza tökürdü. Olqa əllərilə Tərlanın çılpaq qıçını yuvurdu. Tərlan isə, inanılmaz dözümlə buz suyun qarşısında cınqırını belə, çıxarmırdı. Bu zaman Kişixan əminin əlində iki dəmir dolça və hər dolçanın içində bircə saxsı kasa ilə bizə yaxınlaşması, çox sevindirici oldu. Kişixan əminin bu işindən hamı sevindi. Kişixan əmi Tərlanı Olqadan aldı və qara paltosunun içinə çəkərək salona götürdü. Birazdan bir silahsız əsgər, əlində dolu bir aftavayla, "çəkilin-çəkilin" deyə-deyə ortamızdan ayaq yoluna sarı getdı. Tərlanın anasının öldüyü gecədən xatırladığım yaşlı nənə, Olqa və mənə yaxınlaşdı:

- Gözəl balalarım necəsiniz? Allah Sizi xoşbəxt eləsin! Bu tifilə ata-ana oldunuz! Necə də bir-birinizə yaraşırsınız!
- Salam nənə, nə var, nə yox? Necəsən?
- Sağolun balalarım. Necə olacağam! Qalan bircə balamı da qara torpağa verdim. Nəyim qaldı artıq! Bu sabaha çıxmayım deyə əlim göyə qalxır! Özünə qəsd böyük suçdur deyə, duamdan peşman oluram! Bu qatillərin bizi haralara götürdüyünü heç bilmirəm. İzn versəydilər, barı öz torpağımızda ölə bilseydik! Allah yer üzündəki bütün qatillərin haqqını özü versin!
- Olqa: Nənə, qurbanın olum sən tək deyilsən! Məgər biz ölmüşük ki, sən tək qalasan! Allah gənc qızına və şəhid

oğullarına rəhmət etsin! Onların qanı yerdə qalmayacaq, mənim gözəl anam!

- Ay mən sənə qurban olum, gözəl gəlinim! Sizin kimi millətim varkən, oğlum da var, qızım da! Ay sənin şirin dilinə, cənnət boyda ürəyinə sədəqə olum! Mənim gözəl gəlinim!
- Mən: Ana, Olqa demişkən sən tək deyilsən. Sənin balaların və bizim də bütün ailəmiz bu qatillərin oduna yanıblar. Bizim sənin kimi gözəl bir anaya ehtiyacımız var. Elə deyil, Olqa?
- Olqa: Gözəl ana, həm də Tərlan var! Mən tək başıma onu böyüdə bilmərəm! Təkbaşına bir südəmər uşağın necə böyütməsini heç bilmirəm. Mənim körpəmin /ağlaya-ağlaya/ üç-dörd ayı heç olmadı. O qucağımda can verdi. İndi onun yerini Tərlan tutur, onun südünü Tərlan əmir. Amma mən indiyənədək heç uşaq böyütmədim ki, ana!

Ana kövrək Olqanı bağırına basır! Onların ağlamasıyla mənim də qara duyğularım başımın üstündə uçuşur!

- Ana: Sizlər də mənim balamsınız. Ağlama gül balam, ağlama qızım! Siz, nə zaman istərsəniz, yanınızda olaram. Bizim bizdən başqa kimsəmiz yox ki! Tərlanın da anasına Allah rəhmət etsin! Qəbri nurla dolsun. Tanrı bütün şəhidlərimizə cənnət bağışlasın! Siz ikiniz Tərlanı yiyələndiz. Bir-birinizə yiyələndiz. Sona qədər belə mehriban olun. Sizin bir-birinizdən ayrı olmağınızı bu canavarlar bilməsinlər! Hələ bu jandarm gözətçiləri heç bilməsin! Kəndə yetişərkən, sizə bir şəriət nikahı gərək. Yoxsa qarnı yoğun jandarmalar gözəl və

mələk qızımın peşini buraxkamazlar! Çöl soyuqdu, içəriyə gedək.

Adını öyrənəmədiyim ananın ürəkdən gələn sözləri yağ kimi içimə axırdı. Ancaq dünyadan xəbərsiz ananın Olqanın bir gavur qızı olduğundan heç xəbəri yox idi. Baxmayaraq ki, bu haqda mənim də çox bilgim yox idi. Sadəcə, Tehrandan bizə qatılan Kişixan əminin təxmininə dayanaraq, Olqanın gavur olduğundan şübhəli olmuşdum. Ancaq bu vaxta kimi Olqanın özündən sormağa cəsarətim olmamışdır. Mən, Olqanı itirmək istəmirdim. Bir yandan da bilirdim ki, bir müsəlman kişilə gavur qızının evlənməsi şəriətə qarşıdır! Mən bunu Olqadan soruşarsam, Olqa isə “*hə mən Rusam, Gürcüyəm, Ermənіyəm”* söyləsə, onda nə edəcəyəm qorxusu içimi incidirdi.

Yerləşdiyimiz otağın bir küncündə biz, ortasında 12 və 14 yaşlarında bacı qardaşla birgə 30-35 yaşlarında gənc bir ana və başqa bir küncündə isə, beli bükük yaşlı birisilə beş- altı yaşlarında iki qız uşağı yerləşmişdir. Sallaq pərdə bizimlə iki başqa otağın görüntüsünü kəsmişdi. İki tərəfdən asılan iki lampanın saçdığı işıq, ürəyimizi açan tək şey sayılırdı. Qara tinilə, mən də varam deyə, kiçik bir pilətə odamızın tam ortasında boy göstərirdi.

Ac qurdlar kimi aldığımız pendir-çörək payımızı az bir zaman içində yeyib bitirdik. Otağın soyuq havası hər üç ailəni pilətənin çevrəsinə topladı. Təbrizdən yola düşəli, çoxu ailə olan 60 nəfərlik sürgün qurupun darmadağın olduğu, hər halımızdan bəlli olurdu! Açığı, anamı, bacımı, Olqanın balasını, adını hələ bilmədiyim yalqız ananın balası ilı birlikdə 32 şəhidimizi tanrıya

vermişdik. Bu üzdən bütün ailələr dağılaraq iki ailə aramızda qalmışdır:

- Əmican necəsiniz?
- Sağol oğlum! Gördüyün kimi nəfəs gəlir-gedir. Məni yaşadan bu iki torunumdur. Yoxsa, Əhərdə başıma gələnlərdən sonra yaşamağım imkansız idi.
- Olqa: Əhərdə nə oldu ki, əmi?
- Nə olmadı ki, gözəl qızım! Mənə Cahankişi əmi deyə bilərsən. Adım "Cahankişi Coşunkəndi"dir. Coşun kəndində doğulmuşam. Sonra Əhər şəhərinə köçmüşəm. İndi isə, iki nəvəmlə birlikdə qarayazının yazdığı bəlli olmayan yerə sürüklənirəm!

Bir lənət olmuş gecədə bütün arvad-uşaqlarım od içində yanıb külə döndülər. Qalan təkcə bu iki nəvəmlə mən oldum. Tanrı bizi saxladı! Saxladı ki, el-obamızın başına gələn acıları hər kəsə anlada-anlada min kərə ölək! İki qadınımla üç qızım, bir də bu iki yetim balamın anası olan gəlinim, cəlladların oduna yandılar! Gecə yanğınından öncə gəlinimi jandarmalar götürdülər! On gün sonra qanlar içində çılpaqcasına ölüsü tapıldı. "Çoban Həmdi" sürüsünü otlayarkən, bir qayalıqda tifil qızı tapıb bizə xəbər verdi. Tifilin canında sağlam yeri yox idi. Ölüncəyə qədər təcavüz edib, sonra da öldürmüşlər! Qalan bütün ailəmi kül etdilər! Tək günahımız, oğlanlarımın fədai olması idi!

Cahankişi əminin hayqıraraq ağlaması, hamımızın ürəyinə atəş saldı! Kimsənin danışma cəsarəti qalmamışdı. Öz-özümə tanrıya üsyan edirdim*: "Ey tanrı! Bizdən yazıq insan tapa bilmədinmi!*

*Bəs sən nə zaman bu millətin üzünü güldürəcəksən? Biz zalimlərin əlindən kimə şikayət etməliyik? Olmaya bütün zalimlərin başında özün dayanıbsan! Belədirsə, nədən bizə can verdin! Alçadaraq qul canı alacaqdınsa, nədən qul yaratdın bəs!?*

Qoca nənənin ürəyini alan Olqa bu dəfə, qucağını Cahankişi əmiyə açdı. O, doğma qızı kimi Cahankişi əmini qucaqladı! Cahankişi əmi, utancaq davranaraq, Olqanın qucağından sirilməyə çalışsa da onun sevgisi qarşısında təslim oldu. Cahankişi əmi, bir körpə uşaq kimi, Olqanın qoynunda sakinləşdi! Olqa Cahankişi əminin üzündən öpərək iki nəvəsini dizi üstünə çəkdi:

- Sizin adınız nədir, balalar?
- Mənim adım Ceyran, 6 yaşım var. Bacım isə, "Quzu", 5 yaşındadır! /İçini çəkə-çəkə/ Biz ikimiz bir yataqda yatmışdıq. Mənim cişim gəldi. Ayıldım evimizin başqa otağını alovlar içində gördüm. Bacımı da alıb otaqdan çölə qaçdım. Babamın qışqırdığını gördüm. Yaxın qonşularımız yardıma gəldilər. Ancaq, kimsə evdən çıxa bilmədi! O gecədən sonra bibilərimi, böyük analarımı heç görmədik! Nənələrimin nağıllarına onların adını vermişəm! Böyüyəndə o nağılları yazıb kitab edəcəyəm! Kitabların biri "İnci nənə nağılları", birisi də "Sona nənə nağılları" olacaq! O nağılları öz nəvələrimə də öyrədəcəyəm!

Olqa, Tərlanın çılpaq yanına əl çəkərək yenə də iki qızı yanına aldı. Bacılar, çəkinmədən saqqız kimi Olqanın soluna-sağına

yapışdılar. Olqa, çantasından taxta darağını çıxarıb qızların saçını daramağa başladı. Mən isə, Olqanın gavur qızı olmaması üçün, gizlicə tanrıya yalvarmağa başladım. Yanımızda oturan dağılmış bir başqa ailə isə, yuvarlaq ana ilə iki balası idi. Üzümü gənc anaya çevirdim :

- Xanbacı, maşallah gözəl balalarız var. Tanrı qorusun. Adları nədir? Daha doğrusu, sizin adınız nədir? Mənim adım Cəvanşirdi!
- Gənc ana: Allah sizi saxlasın! Siz olmasaydınız bu tifil bala da bəxtsiz anası kimi donacaqdı! Siz o uşağın anası-atası oldunuz! Ümid edirəm ki, bir ömür birlikdə xoşbəxt yaşayasınız! Həm də, bir-birinizə çox oxşayırsınız!
- Olqa: Sağol xanbacı. Siz də bir anasınız! Mən gördüyüm işi siz də görərdiniz! Mənim adım Olqadır.
- Bilirəm gözəlim! Sizin ikinizi də hər kəs tanıyır və sevir! Sən, bu balanı ölmüş balanın südü ilə bəslədin! Öz canın canından qoparkən, candan qopan bir cananı canına qatdın! Yalnız bir ana, bu qədər fədakar olar! Sən, bu kiçik yaşınla hamıya örnək oldun, Olqa xanım!

Mənim adım Saradır. Bu da mənim qızımdır. 12 yaşı var. Adı da Aygül baladır. Oğlum Babək isə 14 yaşındadır. Tam atasına bənzəyir. Boyu-buxunu rəhmətlinin özüdü. Babəkə baxanda atası gözümün qabağında canlanır. Balalarımın atasını Təbrizin "Saatqabağı"nda asdılar. Qatillərinə lənət olsun! Bilirəm, bir gün hamısı zəlil günə qalacaqlar! Evimin dirəyi, balalarımın atasını vətənsevərlik cürmünə asdılar! O, "Qoşaçay" fədai dəstəbaşı idi. Özünün Fədai dəstəsi var idi.

Tehranla iş birliyi içində olan kürd xanlarıyla vuruşurdu. Yurdsevər kürdlər ona "İgid Türk" adı vermişdilər.

- Cahankişi əmi: Bütün oğullarımızın başına gələnlər bir-birinə bənzər. Mənim iki oğlum da fədai dəstələrinə bağlı idilər. Onların da xanlarla gecə-gündüzləri savaşda keçdi. Qaradağ xanlarıyla vuruşan oğullarımın sonu minlərcə yoxsul inqilabçı kimi dar ağacı oldu! Başçılarımızın "*ayıya dayı deməsilə"*gənccik ər-igidlərimiz əşkiyaya, düşmənə yem oldu! Onlar, Arazı keçərkən 10 minlərcə gəncin nə olacağını heç düşünmədilər! Mən deyirəm ki, *"düşmən xəyanət etməz! Düşmən məhv edər! Xəyanəti içimizdəkilər edər! Ayağı üstündə durmağı bacarmayanın inqilabla nə işi olar? Rusa inananın sonu mənim kimi olar! Beli iki qat bükülər! Evi alov-alov yanar kül olar! Bütün ailəsi cığır-cığır yanar! Evi yıxılar, boyu solar, soyu quruyar! Fars köpəklərinə qul olar! Elə deyilmi"?*
- Sara xanım: Mənim igid yoldaşım son qurşununa qədər döyüşdü. Onu evimizdə sıxışdırdılar. Mənim və balalarının gözü önündə onu qurşuna bağladılar. Qurşunsuz qalınca dörd yerindən vurdular. Üstünə yürüdüm *"məni də vurun"* deyə bağırdım. Allahdan məni vurmadılar! Balalarım üçün ölmədim! Onu özlərilə götürüb, Qoşaçaydan Təbrizə göndərdilər. Bildiyim qədərilə yaralı-yaralı Tehrandan gələn bir general qarşısında 25 fədailə birlikdə asdılar. Siz, doğru deyirsiniz əmican! Bizim igidlərimizin günahı nə idi ki, tək qaldılar? Canavar düşmən, qaçan başçıların hirsini azad vətən üçün bütün var-yoxlarını verən gənc türklərdən çıxartdı!

Bilmirəm nə zamanacan dərdləşməmiz sürmüşdü. Zamanın necə keçməsini heç bilmirdik. Dərd bir, kədər bir olunca nə zaman bəlli olur, nə sıxıntı. Bizim sözü bitirmək kimi amacımız yox idi. Ancaq *“beş dəqiqəyə çıraqlar sönəcək, hamı yatmalıdır!”* əmri gəlincə sözlərin kəsilməsi, künclərə çəkilməsi gərək idi.

Nəhavəndin Fərmandarısının arxa həyətində birinci günümüzü keçirdik. Bu gün əsarətimiz sürəcinin ən gözəl və xatirəli günü oldu. Günlərcə ən qorxulu çirkab və pislik içində yaşayandan sonra, bədənimizə isti su və sabun dəydi. Hər kəsin hamam və təmizlikdən yana gözləri gülürdü. Öncə isti çay-çörək, ardından hamam və sonra sulu ət şorbası günümüzü bəzəyən ən gözəl anılarımız olmuşdu. Olqa, Tərlan və bir çoxları bu gözəl günü, bitdən-birədən arınmış dinc bədənlərilə yatmaqda keçirdilər. Bu da çox normal görünürdü. Onlarca günün kirli təcavüz izintisindən, çirkli zindanların çirkabından və yolların amansız düşgünlüyündən biraz da olsa, yaxa qurtarmış sürgündaşlarımız üçün dadlı bayğınlıqdan doğal nə ola bilərdi ki!

“Nəhavənd”dən sürgünümüzün son bölgəsinə yollanmadan öncə, iki gün qabaq bizə göz dağı verən Sitvan, bir daha hamını salona topladı:

- Sizi bir azdan son mənzilinizə yola salacayıq. 3 saat maşınla və sonra iki saat da ayaqla gedəcəksiz. Maşın yolu Jandarma dayanacağında bitir. Orada ehtiyacınız üçün bir neçə eşşək və qatır verəcəklər. Hələlik ayda bir dəfə hamam və ehtiyaclarınız üçün Nəhavəndə gələcəksiz. Qış çıxanacan həftədə bir dəfə yemək payı alacaqsız. Bahar gəlincə, əkin-

biçin üçün yeriniz olacaqdır. Sizə yaşamaq üçün imkan veriləcək. Bu imkanlardan olumlu faydalanmaq özünüzə bağlıdır. Macəraçılar üçün bura cəhənnəm, mədənilər üçün cənnətdir! Özünüz seçin! Dövlət baba üçün dua edin. Satqın separatçılara lənət oxuyun! Bu gün hava yaxşıdır. Maşından düşüncə bir az soyuq ola bilər. Nə olsa da, oralar ucalıqda yerləşir. Başqa çarə yoxdur. Orada Kədxuda sizin üçün yaşam yeri hazırlayıb. Təmizlik və düzən özünüzə qalıb. Hər nə işiniz olsa, sərkar Bayramı və Dərvişlu sizinlədirlər. Sərkar Bayramı başçınızdır. Bilin ki, jandarma başınızın üstündədir. Gözdən itib qaçmağa qalxmayın. Yoxsa, qurda-çaqqala, ya da jandarmanın qurşununa tuş gələrsiz! Uslu-uslu yaşayın! Uşaqlarınızla farsca danışın! Haradan gəldiyinizi, niyə gəldiyinizi bütünlüklə unudun! Bir-iki ay içində sizə "əkabir"/yaşlılar/ klasları qoyulacaq! Uşaqlarınızı isə kəndin başqa uşaqları kimi oxudacaqlar. Siz, bölgənin ən güclü və böyük çayının yanında yerləşən kənddə yaşayacaqsınız. Bu üzdən ilin 4 fəsilində su işlətmə imkanınız var. Qalan nə lazımsa, kənddə öyrənəcəksiniz. Sərkar Bayramı, indi yola düşmək zamanıdır. Sizə mərkəzdən gələn son hökmu jandarma çatdıracaq.

Sitvan bunları deyib yerli çavuşla birgə salondan çıxdı. Baş çavuş çox soyuqcasına, "bəli qurban" deyərək Sitvanın uzaqlaşmasını gözlədi. O, keçmiş günlərdən tam fərqili olaraq bizə xitab dedi:

- Yoldaşlar, gördüyünüz kimi, Təbrizdən birlikdə çıxaraq yolları birlikdə geridə buraxdıq, heç birimizin bu saatadək

bilgimiz olmayan yerə birlikdə gedirik. Mən və Dərvişlu bəy də sizinlə birlikdə yaşayacayıq. Sabah nələr olacağını mən də bilmirəm. Başımıza nə gələcəyini mən də bilmirəm. Birlikdə yaşayıb öyrənəcəyik.

- Mən: Sizi nədən kəndə göndərirlər sərkar Bayramı?
- Oğlum Cəvanşır insanların alınyazısı öz əllərində deyil! Bu mövzuları danışacaq çox zamanımız var. İndi yük-yapınızı maşınlara daşıyın. Hər kəs gəldiyi kimi öz yerini alsın. Saat 12-ə qədər jandarmaya təslim olmalıyıq. Yoxsa Allah göstərməsin, qaranlığa düşərsək, dağ-daşdan can qurtara bilmərik!

☆ ☆ ☆

## **Son durağa doğru!**

Çoxunluğu kərpicdən oluşan bir qatlı dükanlarla yaşayış binalarını geridə buraxaraq, Nəhavəndin də dəftərini bağlamış olduq. Hava dünənə görə, biraz ılıq idi. Maşında olan nərilti öncəki günlərə görə azalmışdı. Bəlli ki, maşınlar da dincəlmişlər. Nəhavənddən qalan hamamla, isti yemək xatirəsilə son yola çıxırdıq. Nəhavəndin kimliyi haqqında heç bilgim yox idi. Ancaq şəhərin oluşumundan tarixi bir yer olması bəlli olurdu. Şəhərin çevrəsində görünən təpə-dərələrin üzərində olan töküntülərin əskilərə dayanması gözə çarpırdı. Cabbarla Kişixan əmilərin bizimlə olması mənim üçün ələdüşməz imkan sağlayırdı:

- Cabbar əmi Nəhavənd haqda biraz danışmağa halın varmı?

- Həəə yola nərdivan qoyaq deyirsən? Öyrənmək dünyanın ən dəyərli şeyidir. Gözəl mövzu açdın, cavan!

Nəhavəndilə Həmədanın çox geçmişlərə dayanan varlığı olub. Milladdan qabaq buralar toplu yaşayış bölgəsi olubdur. Bəzi tarixçilərə görə, bölgə Sumer və Elam mədəniyyətinə aiddir. Bəzilərinə görə, özlərinə aid mədəniyyətləri olubdur. İskəndərin yürüşündə Nəhavənd dirəniş göstərib. Sasanilərin ərəblər qarşısında son dirənişi bu şəhərdə olub. Başçılığını Həddat oğlu Ömər yapan Ərəb-İslam qoşunu Nəhavəndi alaraq, fars Sasaniləri yer üzündən silibdir. Bu savaşın adı “Nəhavənd Savaşı”dır ki, ərəblər onu “Fəthül fütuh” adlandırdılar. Onun səbəbi isə, Hicrətin 12-ci ili və ya miladın 633-cü ilində “Zəncir Savaşı”ilə başlayan 10 il içində 13 savaşın sonu olmuşdur. Bu savaşın üzvermə tarixini hicrətin 21-ci ili vəya miladın 642-ili göstərirlər. Nəhavəndin çöküşü ilə farsçı Sasanilər imperatorluğu dağıdılır. Üçüncü “Yəzd Gerd” isə, qaçaraq tutulub öldürülür. Bütün bölgəni Ərəb-islam qoşunu fəth edir. Bu üzdən Nəhavəndin tarixdə çox önəmli yeri olmuşdur.

- Kişixan əmi: Mən buralarda olmuşam. Buralarda 70 millətdən adam var. Lur, Kürd, Lək, Fars gəlmələrini hər yerdə görmək mümkündür. Ancaq buranın bütün yerli əhalisini türklər oluşdurur. Mən Türk olmayan heç bir bölgəni görmədim. Amma farsların da gəlməsi çoxalmaqdadır. Hətta bəziləri Həmədanın özündə belə, fars olmağa başlayıblar. O sitvanın dediyinə görə, getdiyimiz yerdən böyük bir çay geçir. Bildiyimə görə, Zakros dağlarından sulanan ən böyük çay “Qamasiyab” çayı olmalıdır. Mən bu çayın çox zor olduğunu bilirəm. Yüz yüklü

dəvə karvanını birdən içinə çəkər. Bu yerlərin jandarmaları Əmir Əfşarlar və Zülfqarilərin əmri altındadır. Əmir Əfşarlar Həmədanın, Gərusun, Beşoylağın və Miyananın ən böyük feodalları sayılırlar. Bu bölgələrdə nə savaşlar, qaçdı-tutdular aparmadıq ki! Ax! Başımıza gələnlərə bax! Bölgə çox genişdir. Bu iki böyük türk feodallarından başqa Lur, Kürd əşirətləri də bölgədə ağalıq edirlər. Buraların hər yerində olmasam belə, bölgənin harda bağlanıb-açılmasını bilirəm. Gümanımca, bizi lurların olduğu yerə aparırlar. Başçavuş demişkən, yaşayıb görərik!

Amerkan avtobusunun nəriltisi yavaş-yavaş çoxalırdı. Bəlli olan, üzü yuxarıya çıxırdıq. Küçə get-gedə çala meydanına çevrilirdi. Avtobus yol getmək üçün sola-sağa burulurdu. Qarşımızda hündür bir sıradağı və onun önündə sayılı təpə-dərələr görünürdü. Yol olduqca ensizləşmişdi. Bizdən başqa kimsəni yolda görmürdük. Avtobusun eni yolun enindən daha böyük idi. Bu da sürücünün işini cox çətinləşdirirdi. Cabbar əminin dediyinə görə, sanki buralarda heç insan yox:

- Cabbar əmi: Mənim ömrümün çox hissəsi Azərbaycanın kənd yollarında keçibdir. Belə yolu ilk dəfə görürəm. Bizim kəndçılərdə abadanlığa sayğı var. Doğru ki, bu fars faşistlər vətənimizi yox etməyə çalışıblar. Ancaq millətin özünə hörməti və ərdəmi vardır. Bizim də yollarımız çox pisdir. Ancaq beləsini heç görmədim. Bu yol qatır yolu deyil, belə, qalsın ki maşın yolu! Bu mürtəce hakimlərin kəlləsi işləyir. Bizi haralara azdırmasını yaxşı bilirlər! Bu yazıqlar da bizim kimidirlər. Qarabaxt! Bu lənətlik şovinistlərin işi türk

yerlərini xaraba qoymaqdır. Təbrizdən buracan bir avadanlıq görmədik. 15-20 milyonluq bir ölkənin taxılını, yeyəcək ürününü biz türklər verdiyimiz halda, özümüz nə halda yaşayırıq. Sanki bu yollardan İskəndər zamanından bəri kimsə keçməmiş!

Cabbar əminin əsəbdən rəngi də ağarmağa başlamışdı. Bu əsnada avtobusun birdən dayanması ilə, hər kəs yerindən oynadı. Gənc sürücünün hayqıraraq “Bismillah” deməsi, avtobusda olanları yerindən qaldırdı. Sürücü çavuş əlini signala basaraq, dayanmadan yolu kəsən birilərini qorxutmağa başladı. Mən yerimdən qalıb, avtobusun ortasına qədər irəli getdim. 10-15 metrə qarşımızda paramm-parça olmuş bir eşşəyin cansız bədəni və ətrafında beş-altı çaqqal görünürdü. Avtobusda olan iki əsgərin əllərində tüfəngilə maşından enməsi və həmən canavarların üzərinə atəş açmaları, hamını qorxu içinə soxdu! Çaqqalların səsdən qorxaraq qaçmalar, Bayramı və sürücü cavuşu da ürəkləndirdi. Əliyalın Başçavuşla, əlində bir tapancası olan sürücü maşından enərək, əsgərlərin yanına getdilər. Çaqqalların yaxın aradan onları izləməsi çox ilginc görünürdü. Sanki, onlar da insan görməkdən çaşmışdılar! Mənimlə birlikdə bir neçə sürgündaş da avtobusun tam ön camına sarı irəliləmişdik. Tikə-parça olan eşşəyin üzərində dağılmış bir palan görünürdü. Ancaq, ölmüş eşşəkdən başqa bir cəsəd görünmürdü. Əsgərlərin hazır dayanmasıyla birlikdə, çavuşların ölmüş eşşəyi yoldan uzaqlaşdırmaları çox sürmədi. Onlar az bir zaman içində yolu açaraq, maşına döndülər. Sürücü çavuşun salavat çevirməsindən, qorxuya düşməsi bəlli olurdu! Bir neçə

dəqiqədən sonra avtobus yola düşdü. Avtobusun yola düşməsilə çaqqalların eşşəyə sarı dönməsi gözlənirdi. Ancaq, onların səsi bizə ən yaxın olan təpənin arxasından gəlirdi. Onlar, öz qorxunc zoqqaşma səslərilə başqa bir olayın olmasını bəlli edirdilər sanki! Nə demişlər, "qorxu bir ayaqlı çolağı qoşar yapar!" Sürücü çavuş biraz qabaq 15-20 sürətlə gedən yolları 30-40 yeyinliklə geridə buraxırdı. Avtobusdakılar yerlərində otura bilmirdilər. Tərlanı iki əlimlə qucağımda saxlamışdım. Olqa isə, iki əlilə mənim çiyinlərimi tutmuşdu. Olqanın bu işi çox xoşuma gedirdi. Onun hər çalxanmasıyla hüceyrələrim ayaqlanırdı! Sözsüz ki, bu Olqaya da şamil ola bilərdi! Sürücünün bu qapdı-qaçdı oyunu, olay yerindən uzaqlaşmamızla yavaşlayırdı. Artıq yerlərimizdə otura bilirdik. Doğru ki, yerimizdə oturduqdan sonra, Olqayla aramızda olan elektrik kəsilmişdi. Lakin doğrusunu desəm, hər an avtobusun aşma ehtimalı canımıza qorxu salırdı. Mən bu anacaq bir çaqqal belə, görməmişdim. Halbuki, indi onlarla qonşuluqda yaşayacayıq. Olqanın da qorxusu gözündən oxunurdu:

- Olqa: Bu heyvanların üzü bütün qan idi. Bunlar çox kifir heyvandır. Bizə də yaxındırlar. Elə deyilmi?
- Olqa! Heç qorxma! Ölməmişəm ki!? Onların seyrangahı kənddən uzaqlardadır.

Bizim danışıqları izləyən Kişixan əmi, səssizliyini pozaraq, Olqaya dedi:

- Bax gözəl qızım! Bu canavarlar ac olan zaman insana hücum edərlər. Çox zaman heyvan insandan qaçar. Heyvanlar ac olmayınca, insanın yaşadığı yerə yaxın gəlməzlər. Ürəyini

sıxma, amma yenə də bizim də tədbirli olmamız gərək. Nə olarsa, heyvan heyvandır. Sən bizlərdən birisən. Sən bizə əmanətsən! Sənin və balanın gözünə toz qondurmarıq! Bu bölgənin ən yırtıcı canavarı nədir bilirsinizmi?

- Olqa: Yox əmi bilmirəm. Qurd olmasın?
- Yox, o deyil!
- Cabbar əmi: Qaplan ? Yoxsa ayı?
- Kişixan əmi: Daha yırtıcı, daha qəddar!
- Mən: Əfi ilanı?
- Yox oğlum!
- Kişixan əmi: (Qaqqa çəkərək) Heç biriniz bilmədiniz! Jandarmalar! Bu saydığınız heyvanlar jandarmalar qədər vəhşi və yırtıcı deyildir! (gülə-gülə) Mən bütün gördüyüm heyvanlar içində bu insana bənzər heyvanlar kimisini görmədim! Umud edirəm ki, çaşmış olam! *"Görüşən kəndə bələdçi gərəkməz!"*(gülə-gülə) Qızım sən bu dilsiz heyvanlardan deyil, dilli heyvanlardan çəkin, amma qorxma! Qucağından uşağını, yanından isə kişini uzaqlaşdırma!
- Olqa: (utana-utana) Əmi mənimlə Cəvanşir heç....
- Cabbar əmi: Olacaqsınız! Olmalısınız! Qoy kəndə yetişəlim, yerləşəlim! İlk işinizin həlli üçün çırmalanacayıq. Sizi, bir-birizə qovuşduracayıq! Əlbətdə bir-birizi istəmək şərtilə! Elə deyilmi Kişixan qardaş?
- Elədir də, amma necə? Bu işə molla lazimdir. Molla isə, kədxuda adamıdır. Kəndxuda da bəllidir ki, jandarmanın nökəri olmalıdır. Beləliklə, biz öz əlimizlə quzunu qurdun ağızına vermiş oluruq! Yoxmu başqa çarə?

- Var-var! Darıxmayın içimizdə dostumuz var! Biraz dözün! İlk ayaqda bu işi edəcəyik.
- Kişixan əmi:  A kişi səndən də qorxulur ha! Maşallah səssiz tapancasan! Mən nə qədər hay-kuyçuyəmsə, sən tam tərsinə, səssiz və tədbirlisən! Yaşa vallahı! Qızım Çabbar əmiyə güvən!
- Olqa: Mənim sizlərə inancım sönsüzdür. Sizin yanınızda güvəndəyəm. Bir neçə nəfər, tək nənə də var. Onları da yalqız buraxmaq düzgün deyil.
- Cabbar əmi: Qızım biz burada hamımız bir ailə sayılırıq. Təbi ki, hərkəsə göz-qulaq olmalıyıq. Hələ bu lənətlik yol bitsin bir!

Yoxuşa uzanan yol, getdikcə fəlakətə çevrilirdi. Avtobusun içindəki yıxılmalar, toqquşmalar və qusuntuların ardı-arası kəsilmirdi. Avtobusun yoxuşa çıxma dirənişi qorxunc görüntülərə nədən olurdu. Baş verən bu hallarda ən kiçik rolumuz yox idi. Olqa, bütün gücü ilə, Tərlanı sağlam saxlamağa çalışarkən, mən də iki əlimlə onun yerdə tutulmasına yardım edirdim. Yoxuşa irəlilədikcə hava durumu da dəyişirdi. Avtobusun təkərlərilə toqquşan palçıqlar, az qala pencərələrin görüntüsünü bağlamışdı. Döngə-buruq yolların ürək açacaq bir görüntüsü belə yox idi. Yolun bitmə izləri gözə çarpırdı. Bəlli ki, jandarma dayanacağına az qalmışdı. Artıq təpələrin də sonu görünürdü. Elə bu durumda uzaqdan eşidilən su şırıltısı, az da olsa, ürəyimizi sevindirdi.

☆ ☆ ☆

## Jandarma dayanacağı

Avtobusun təpə yolu dəyişməsilə solumuzda böyük bir çayı gördük. Çayın doğrudan da, genişliyi hamımızı valeh etdi. Kişixan əminin dediyi kimi, burada böyük bir çayı görmüş olduq. Burası "Qamasiyab" və ya Kişixan əminin dediyi "Gursu" çayı idi. Bu çay sürgün olunmuşların tək ümid qaynağı idi! Gursu çayına yaxınlaşdıqca, yol yoxuşdan yenişə doğru gedirdi. Qarşımızda geniş çevrəsilə bir ağ tikinti boy göstərirdi. Binanın qarşısında iki əsgər, hasarlı alanda isə 12-13 at, qatır və eşşək görünürdü. Avtobusun bu binaya sarı getməsindən maşın yolunun sonuna gəldiyi bəlli olurdu. Sonunda Jandarma durağına çatmış görünürdük. 50-60 metrə arayla bir əsgər, İST!/DAYAN!/ tablosu ilə maşına dayan əmri verdi. Avtobus yavaş-yavaş dayandı! Əsgərin ardından 4 jandarmanın bizə yaxınlaşması, Cabbar əmini hərəkətə keçirdi. Bu ana qədər Olqaya bir söz söyləməyən Cabbar əmi, yanındaki çantasından boz rəngdə çadranı çıxarıb Olqaya verdi:

- Olqa qızım, köhnə olduğuna baxma bu çadıranı başına sal və üzünü ört! Özünü bu jandarmalardan qoru ki, Allah eləməsin başqa fikirlər etməsinlər! Bundan sonra da çadralı dolan! Öz içimizdə istədiyin kimi geyin və özgür ol! Amma bu kaftar canavarların yanında isə özünü və gözəlliyini gizli tut. Qoru ki, yaşamın sürsün. Yoxsa Cəvanşir belə, səni qurtara bilməz, gözəl qızım!

Avtobusda olan her kəs Cabbar əminin bu davranışından çaşdı. Olqa, bir söz demədən, çadranı başına çəkərək özünə çəki-düzən verməyə çalışdı. Bizdən iki qoltuq irəlidə olan nəvəsiz qalan “ana” özünü Olqanın yanına yetirərək, çadranı ustacasına Olqanın başında, üzündə yerləşdirdi. Çadıranın necə tutulmasını Olqaya öyrətdi. Onunla Tərlanın üzündən öpərək gülümsədi! Mən, birdən ortaya çıxan bu olaya çaşqın-çaşqın baxırdım. Kişixan əmi gülümsəyərək, Cabbar əminin bu işini alqışlayırdı:

- Kişixan əmi:  Vallah, demişdim axı, bu Cabbar qardaşdan qorxular! Halal olsun sənə, kişi! Balamızı bu çaqqalların əlindən qurtardın! Amma bu çadranın sənin çantanda nə işi var idi? Ay kişi həqiqətən ki böyüksən!
- Cabbar əmi (anaya gülümsəyərək):  Qızım Olqa, ümid edirəm ki, incimədin! Bu Səkinə anamızın önərisidi. O səni çox sevir! Bizim hamımızdan daha artıq! Ana, mənə dedi ki, *“bu qərib yerlərdə bir Olqamız var. Olqa, yaşam qoxusu verir! O, gözəl, yılmaz, sevilməyi qazanan gənc bir laçın qızımızdır! Onu öz balam kimi sevəcəyimdən arxayınam!*”  Bax Olqa! Bunları bu Səkinə xanım  dedi!
- Ana Səkinə:  Qızım, mən kənd adamıyam. Jandarmanın nə olduğunu bilirəm! Bunlar dağ-daşda yaşarlar! Bunların xasiyyəti dağ-daş heyvanlarına bənzər! Mən də, sənin kimi yaralıyam! Mənim də balalarım, nəvələrim bu yolda öldülər! Heç olmasa sən qal! Sən yaşamı çox sevən bir igidimizsən. Bunu sevginlə, analığınla, gözəl baxışlarınla car çəkirsən. Balam, gözəlim, qızım, canım, əzizim! Yahu, molamdan mədəd!

Ananın bu son cümləsilə hamımızın gözü dolmuşdu! Hələ, sözünün sonunda verdiyi qissa dəmet isə, məni şaşırtmışdı. “Yahu!” sözü mənə çox qəribə gəlirdi! Bu üzdən, az sonra Cabbar əmiyə üz tutub anlamını sorunca, anladacağına söz verdi.

Jandarmalar avtobusun qarşısında çavuşlarla xoş-beş edirdilər.

“*Ayı oyununa inanan bir toplumun geniş alanlı dramatik teatrının kiçik bir görüntüsünün ilk pərdəsi düşmək ərəfəsindəydi. Biz bu böyük teatrın kiçik bir küncünün oyunçuları olaraq, sonu bilinməz yeni aşamalara girirdik. Sevginin dara çəkilməsi, qanın çaxır yerinə sağlıq motivi olması, insanlığın siyasət bazarında satılması, kökün budağa qurban edilməsi kimi ssenarilər, bu milli dramın kimliyini bəlirləyirdi. Oyunçusu olduğumuz bu dramatik teatrın ən anlanılmaz yönü isə Rusiya, Amerika və İngiltərə dövlətlərinin “Marşımon”larının ortaq yöntəmi idi. Bu usta yönətmənlər bir araya gələrək ünlü fars şairi Firdovsinin “Şahnamə”sini ölməzləşdirmək üçün yeni Turan-İran teatrı yaratma qonusunu gündəmə gətirdilər! Ustalar, olayların daha qalarqı olması üçün doğrudan teatra üz çevirdilər. Bir toplumun yaşam haqqına inanması, onun uğruna son damla qanını verməsi, ən gözəl motiv sayılırdı. Usta yönətmənlər Azərbaycan türklərinin bu candan-ruhdan istəklərini işlərinin ən mərkəzində yerləşdirdilər. Bir illik teatr, millətimizin arzuları üzərində göstəriyə çevrildi.. “Şahnamə”nin yazılı arzusu gerçək yaşam səhnəsində icra olundu! Bir millətin ən kiçik ana haqqı olan dili, mədəniyyəti, mənliyi, milli kimliyi qan dənizində boğuldu! Bu*

*səfər əfsanədə, mifdə deyil, gerçək yaşamda İran Turana qalib gəldi. Firdovsinin arzu etdiyi on minlərcə turanellinin qanı axdı! Farsların ünlü ruhunun üzü yüz illərdən sonra güldü! Usta Marşimonlar bəşəriyyətin Şahnaməsinə etdikləri xidmətdən ötrü "Barış və İnsanlıq" medalyonuna layiq görüldü. Teatrın dışarı ssenarisi bitincə, yönətmənliyi Tehranın əlinə verildi. Turanın yenilgisi İran üçün elə dadlı görünürdü ki, onun keyfini uzun zaman yaşamaq gərək imiş! Biz, bu keyf çıxarmanın səhnələri olaraq, bu diyarın hər yerinə səpələnmişdik. Indi və bundan sonra hansı aşamanın icra olunmasını sizin kimi biz də bilmirdik. Yaşamaq varkən birlikdə bu aşamanı öyrənəcəyik!"*

Olqa, yeni durumundan məmnun görünürdü! Bunu Cabbar əmini, Səkinə ananı və Kişixan əmini qucaqlayıb öpməsilə bəlli etdi. O, açıq göy gözlərilə bizə gülümsəyirdi. Üzü örtülü Olqayla, Təbriz anılarım bir daha canlanırıdı. Təbrizdəki qonşu qızın qara gözləri və şuanda sevimli gavur qızın mavi gözləri üst-üstə gəlirdi. İndi, yaşam varkən, Olqa varkən, mən varkən nəyim yoxdur ki! Mənim Olqam, bütün aldıqları yerinə tanrıdan göndərilimiş bir mələk!

Günəşdən saçan isinti, omurğamın içinədək işləyirdi. Uzun dönəmdən bəri doğrudan, günəş görməmişdim. Günəşin saçaqları hər kəsi sevindirirdi. Hətta Tərlanı belə! Gözəl günəş altında 3 saatlıq kənd yolunu getmək bir o qədər də çətin görünmürdü. Sözsüz ki, Olqanın durumu bizdən fərqli idi. O, bir əlilə çadıranı, başqa əlilə isə, Tərlanı saxlamağa çalışırdı. Onun bu işi daha çox siyasət kimi görünürdü. O, bir ana obrazı ortaya

qoyurdu. O, bu işilə Tərlanın anası olduğunu jandarmaların gözünə soxmağa özən göstərirdi. Biz, bunu öncədən düşünmüşdük. Bir azdan mən Tərlanı Olqadan alacaqdım. Və jandarmalardan həyat yoldaşım üçün dərman istəyəcəkdim. Biz, burada Olqanın yalqız olmadığını jandarmalara göstərməli idik. Bu, Kişixan əminin fikri idi. Bizim buradakı durumumuzun açığa çıxması, yalnızca, öz əlimizdə idi. Təbrizdən çıxanı kimsə bizim kimliyimizə maraq göstərməmişdi. Hətta Mərdabad qəsəbəsində olan məzarlıqda kimin harada gömməsi belə bəlli olmadı! Orada ölənlərin kimliyinin nə olduğunu bir kağız üstünə yazmadılar. Ən azından mənim bildiyimə görə, jandarmaların bizim tək-tək kim olduğumuzla bağlı bilgiləri yox idi. Bunu tək mən deyil, Cabbar əmi də təsdiqləyirdi. Ancaq buna baxmayaraq, biz işimizi sağlam görməli idik. İçimizdən birilərinin alçalaraq xainləşməsi də, gözdən qaçmamalı idi!

Çavuşların jandarma binasındaki danışığı bitmişdir. Onlar birlikdə bizim olduğumuz küncə gəldilər.

- Dejban jandarma başçısı: Mənim adım başçavuş Fərman Diksözdür! Sonunda gəldiniz! Xoş gəldiyinizi ümid edirəm! Biz, uzun zaman baş-başa qalacayıq! Bir-birimizin başını ağrıtmasaq, daha yaxşı olacaq! Sizin hər birinizin həyatı mənim işarətimə baxır! Mən saçlarımı boşuna ağatmamışam! Bu dağ-dərələrin ağası mənim tapancamdır! Özünüzü yaxşı aparsanız, bu tapanca dostunuzdur! Yoxsa, sizin canınızla mənim tapancam qarşı-qarşıya qalar! Mənim kimseylə oyun oynamaq həvəsim yoxdur! Hamınız diqqətlə gözlərimə baxın! Bu gözlərdə nə görürsünüzsə, davranışlarımda da onu

görəcəksiniz! Bayramı bəyə lazim olan əmirləri verdim! O, bundan sonra mənim gözüm-qulağımdır! Sizin hər bir yalnışınızı mənə çatdıracaqdır. Mənə çatan hər xəbərin sonu yaxşı olmayacağını indidən bilməyiniz gərəkdir! Sizin bundan sonra yaşadığınız yerin adı “Bədi Abad”-dır. Oranın bundan sonraki avadanlığı sizə baxır. Azərbaycanı unudun artıq! Vətəniniz bundan sonra “Bədiabad” olacaq! İki təpənin ardından sonra Bədiabada yetişəcəksiniz! Hava üzünüzə gülübdür. 2-3 saata oradasınız! “Kəndxuda Bərəkətağa”ya xəbər salınıb! Orada sizi yerləşdirmək işi onunladır! Yolunuz üçün, qocalara, uşaqlı qadınlara altı qatır var! Qalanınız yerdə yeriyəcəksiniz! Bayramı bəy, sənin bir sualın varmı?

- Yox sərkar “Diksöz”! Hər şey anlaşıldı!

Mən fürsəti qaçırmadan öncədən qurduğumuz planı işə alıb əlimi qaldırdım. Jandarm çavuşun gözü mənə tuşlanarkən, qucağımda tutduğum Tərlanı başdan-ayağa çadıraya bürünmüş Olqaya verdim. Bu işi görüncə, əllərimin titrəyişini gizlətməyə çalışırdım!

- Diksöz: Nədir cavan? Sualın nə?
- Bəli qurban, bizim içimizdə südəmərlər var. Bir neçə ananın südə ehtiyacı var. Körpələr acdırlar. Qorxuram kəndə qədər yolda tələf olsunlar. Onlardan biri də mənim uşağımdır. Mümkənsə, həm mənim xanımıma, həm də başqa bacılara biraz süd verilsin!
- Diksöz: Əsgər! İçəridən bir kuzə süd gətir! Hamıya payla içsinlər! Lavaş da gətir ver, yesinlər! Uşaqlılara bir çəllək

artıq süd verin özlərilə götürsünlər! Afərin cavan oğlan! Arvad-uşağına yaxşı bax! Adın nədir?
- Cənab sərkar, Cəvanşir!
- Sən, bundan sonra uşaqlı anaların və körpələrin işlərinə yetiş! “Kəndxuda Bərəkətağaya de ki, Sərkar Diksöz sənə iki südlü keçi verməsini əmr etdi! Onlara özün yetiş! Südlü qadınlara süd ver! Anladınmı Cəvanşir? Balanın və gəlin xanımın adı nə?
- Bəli qurban düşündüm. Sağolun. Balamın adı Tərlandır. Xanımın adı, adı, adı “Fatimə”qurban!
- Fatimə! Fatimə! Fatimə kimi iffətli olsun! Rəhmətli anamın adı da Fatimə idi! Tərlan hara adıdır? Heç eşitmədim!
- Allah ananıza rəhmət eləsin sərkar, Tərlan şahin quşunun türkcəsidir cənab sərkar!
- Haaa anladım! Əsgərlər, çörəkləri və südləri dağıdın. Yola düşmələri gərək! Artıq gec olur!

Jandarma çavuşun yaşı 60 üzərində görünürdü. Ucaboylu və enlikürək birisi idi. Gözlərinin altı torba bağlamışdı. Yanında duran iki çavuşdan çox yaraşıqlı idi. Çavuşların hər ikisi kiçikboylu, qarnı yoğun idilər. Başçavuş Bayramının durumunun nə olduğu bizim üçün bəlli deyildir. O, susqun-susqun qarayazısını yaşayırdı. Dərvişlu da həmən durumdaydı. Onun da görüntüsü heç xoş deyildir. Ancaq buna baxmayaraq, burada da dilmanclığını sürdürdü. Bəlli ki, bundan sonra dilmanclıq işlərində baş seçim rolu onun olacaqdır. Jandarma başçavuşun başçavuş Bayramıyə “bəy” deməsilə yanaşı, ona “əmir verdim!” kimi ifadəsinin altında başçavuş Bayramının

rütbələrinin alınması izləri görünürdü. Buna baxmayaraq, geyimində hər hansı bir dəyişiklik yox idi.

Jandarma çavuşa qarşı son işimdən dolayı böyük qıvanc içindəydim. Hər kəs məni övürdü. Hələ içimizdə olan üç körpəli analar məni göylərə qaldırırdılar. Onların mənə yanaşması, Olqanın da gözündən qaçmırdı. Olqanın məni qısqanmasını sevdiyim halda, qırılmasına ürəyim razı olmurdu. Sabahdan mənim üzərimə yeni bir görəv düşməkdə idi. Mənim Olqayla olan ilişgimə kölgə salacaq hər bir olaydan qaçmağım gərək idi. Bundan sonra bir anlığına belə Olqadan uzaqlaşmağı düşünmürdüm. Başqa yandan, özüm də bilmədən Olqanın adını Fatimə qoymuşdum. Olqa, hələliklə təmkin və dözümlə bu alçatmalara yanaşsa da, bir anlığına patlamasında ehtiyat edirdim. Mən, Olqanı qorumaqdan ötrü adını belə dəyişməyə məcbur idim. Bir anlığına gözlənilməz olayın qarşısında verdiyim təpkinin nə olduğunu özüm belə bilmədim! Süd və çörək dağıtımının bitməsilə palanlaşmış 6 qatır ilə iki eşşək binanın həyətinə gətirildi. Həmin əsnada başçavuş Bayramı mənə sarı gəldi:

- Cəvanşir! Oğlum jandarma gözünə çox girmə! Özün də bilmədən onların pis işlərinə alət ola bilərsən! Diqqətli ol! Olqanın adının Fatimə dediyini bəyəndim. Bunun yalan olduğu bilinsə də, Olqa adından xoşunun gəlmədiyini, Fatimə adını sevdiyini bildir! Sizin, şəriətcə evlənməyinizi tezləşdirməliyik! Bu haqda kənddə danışarıq! /Olqaya işarə edərək/: Qızım, Cəvanşir doğru iş gördü. Qızma ona! Sən bizim gözəl gəlinimizsən! Olqa da gözəl addı, amma...!

- Olqa: Baş üstünə əmi Bayramı! Mən Cəvanşirə qızmadım ki! Mən sadəcə maraqdan çatladım! Mən, sizin qədər buranın adət-ənənəsini bilmirəm!
- Qızım, darıxma! İşlər yerinə gedər, İnşallah!

Başçavuş, gözünün altıyla Cabbar əmiyə işarə edərək, bizdən uzaqlaşdı! Öncələr də, belə davranışların ikisi arasında olduğunu görmüşdüm. Bu üzdən bu ikisinin arasında bir gizli saxlının olmasına inanırdım. Sözsüz ki, bu sirrin yaxında üzə çıxması ilə, bilmədiyim bir çox gizlilərin üstü də açılacaqdı. Başçavuşun uzun günlərdən sonra mənə yaxınlaşaraq, belə davranışı məni çox düşündürdü. O, mənimlə Olqaya güc, güvənc, arxayınlıq verməyə çalışırdı. Qısası, anlamlı davranışıyla Olqanın gözündə əmi görünən Bayramı bəyi, mən də dəyişik görməyə başlamışdım!

Sona, Səkinə analar, Cahankişi əmican və üç körpəli analar qatırlara mindirildi. Olqa, öz qatır haqqını israrla Cahankişi əmicana verdi. İki eşşək isə, əlimizdə olan buxça, çantaları daşımaq üçün istifadə edildi. Saatı Kişixan əmidən soruşdum. Cılıqqasının cibindən zəncirli saatının qapısını açaraq "2-05" dedi!

Artıq əsarət sürüsü son mənzilinə sarı yollanmışdır. Sanki, 10 günlük acılarla dolu yol anıların sonu yaxınlaşırdı. Düşünürdüm ki, işlər yolunda gedərsə, ən uzağı üç saata kəndə yetişəcəyik. Çox güman ki, indidən kəndxuda və bir çoxları bizi qarşılamaq üçün hazırlaşırlar. Baxma, nə də olsa kənd əhli ürəyi açıq, könlü dolu, sadə və daha toplumçu olar. Orada az da olsa, yaşamaq fürsətimiz olacaq! Bu on gün içində canımızda yürümək gücü

qalmamışdır. Sözsüz ki, bu günlərdən öncə də yemək-içməyimiz olmamışdı. Amma, ən azından yollardaki qədər əldən düşməmişdik.

Qatırların yavaş-yavaş yürüməsilə mənim tələskənliyim arasında heç bir ortaqlıq yox idi. Ancaq nə yazıq ki, başqa şansım qalmamışdı. Bir əsgərin öndə, birisinin isə arxada yürüməsilə ipimizin önü ilə sonu bəlirlənmişdir. Tehrandan bizə qatılanlarla birlikdə uşaqlı-böyüklü 38 nəfər idik. Artıq başçavuş Bayramilə çavuş Dərvişlunun da bizdən biriləri olması bəlli olmuşdur. Onlar da bizimlə birgə son nüqtəsinə ayaqda yürüyürdülər. Bir qatırlıq cığır yolun çevrəsini incə qar örtüklü kiçik sal buzlar almışdır. Yol bəzən palçıq, bəzən də donuq idi. Bununla belə, yolda düşmə təhlükəsi yox idi. Çünki, sol-sağımızın yoxuşluğu hardasa eyni ölçüdə davam edirdi. Bu üzdən, yolun hamarlığı ilə birlikdə havanın da işıqlığı sevindiricidi. Yol uzandıqca doğanın sıxlaşması da aydınca görünürdü. Yaşıllıq izlərinin getdikcə çoxalmasıyla doğanın görüntüsü də dəyişirdi.

Kişixan əminin söylədiyi kimi, "Gursu"(Qamasiyab) çayının ləpələnməsinin başqa aləmi varmış!" Addımladıqca çayın ləpələnməsi axıcı musiqi kimi ruhumuzu oxşayırdı. Gursu çayı inanılmaz gözəl çevrəsilə cənnət kimi, yaz-yay olacağı izlərini buraxırdı. Buna baxmayaraq, yol boyunca canlı birisinin görünməməsi, heç də olumlu siqnal vermirdi. Çünki, bizim üçün ən önəmli amıllərdən biri də insanlar idi. Yerli insanları görüb, tanıyıb, onlarla ünsiyyət qurmaq hər şeydən daha çox marağımızı çəkirdi. Həmin əsnada uzaqdan bir kənd avadanlığını görüncə, məqsədə çatdığımızı anlayırdıq. Ancaq

yola düşəli bir saat olar-olmaz idi. Buna görə, çiyin-çiyinə addımlayan yoldaşımız – Kişixan əmi, *“bura deyil, çatmağa hələ çox var!”* sözünə qarşılıq vermədən soruşdum:

- Kişixan əmi, siz buraların təbiəti ilə daha dərindən tanışsınız. Bu yolların da bizim yollarımıza bənzərliyi çoxdur. Amma görünən bu ki, buralarda az adam yaşayır. Eləmi?

- Oğlum! Kiçik Qafqazlardan Zaqrosa çəkilən bənzər dağlar, meşələr, dərələr və aranlar vardır. Bunu mən-sən deyil, doğanın özü düzənləmişdir. sərtliyi, yeniş-yoxuşluğu və uzanan əsintisilə başqa bölgələrdən fərqlənən bu böyük həndəvərin əzəldən eyni təbiətlə formalaşdığını doğaçı bilginlər təsdiqləmişlər. Bu üzdən bu geniş həndəvərin insanlarının gəlişməsi və mədəniyyəti bənzər olmuşdur. Mənimlə sənin, bir həmədanlı ilə təbrizlinin tipində fərqlik yoxdur. Bunu deyib geçmək olmaz! Bu eyniliyin dərin etnik səbəbləri var! Sadə bir sonuc deyildi bu kimlik birliyi! Doğanın bizə verdiyi bu özəlliklərə açıq beyin və gözlə baxmaq gərək! Bu özəlliklərin asanlıqla dəyişməsi mümkün deyildir! Fars millətçiləri, türklərin dilini dəyişdirməklə köklərini də unutdurmaq istəyirlər! Mən, bu alanın adamı deyiləm. Savadım da ona çatmaz! Ancaq dolana-dolana, axtara-axtara bir gərçəyi anlamışam. Anlamışam ki, bu geniş bölgənin eyni təbiəti və insanları vardır. Eşitdiyimə görə, 6-7 ildir ki, Quzey Azərbaycanın bir çox yerini qazmışlar. Bu qazıntıların, əlbətdə ki, çoxlu sonucu olacaqdır. Bir çox arxeoloqların çalışmasını eşitmişəm. Ölməsək sağ qalsaq, torpaqdan çıxan uyğarlıq örnəklərini görəcəyik! Qaldı ki,

burda çox insanlar yaşayır. Buranın xalqı, ilin bu fəsilində belə ılıq havaya aldanmazlar! Bu insanların təcrübəsinə biz də inanmalıyıq! Buralarda hava tez dönər. Bax, iki saat öncə göydə bulud yox ikən, indi soldan-sağdan buludlar əsməyə başlayıb! Umid edirəm ki, yolda bizi qar-yağış tutmasın!

- Cabbar əmi: Kişixan bəyin verdiyi bu xəbərin ilk qaynağı "Pravda Qəzeti" olmuşdur. Mən, bu qəzeteni bir bakılı zabitin əlində görmüşdüm. Təbrizdə Firqənin Mərkəzində tanış olduğum bu zabitlə birlikdə bu qəzeti oxuyarkən, 1940-ci ildən bəri daha geniş qazıntıların Araz çayı həndəvərində getməsini öyrəndim. Bu qəzetin yazdığına görə, Araz-Kür uyğarlığının uzantısı çox genişdir. Öylə ki, bu genişliyi güney Qafqazlardan "Mesopotamiya"ya (İkiçayarası/ Fərat-Dəclə arası) qədər uzanması gözlənilir. Belə olarsa, bu uyğarlığın mərkəzində "Türk Azərbaycan Yaylası"nın tarixi sürəc içindən oluşmasına şübhəmiz olmamalıdır.
- Kişixan əmi: Usta, danışıqlarından bir şey əldə edə bilmədim. Doğrusu, biraz yumşaq və mənim dilimdə anlatsan!
- Kişixan bəy, siz özünüz ustadsınız! Alçaq könüllük etməyin!
- Yox Cabbar bəy, doğrudan deyirəm. Bu bilgilərin oxunması gərəkdir. Bəlli ki, sən bunları oxumuş birisən. Mən o qədər ağıllıyam ki, bilmədiyimi biləndən öyrənim. Mən cahil insan deyiləm ki, bilmədiyimi gizli saxlayam! Bu qonularda səndən çox öyrənməliyəm. Təki ömür olsun.
- Mən: Cabbar əmi, düzü mənim də bu qonuda bilgim yoxdur. Bunlar mənim üçün də yenilikdir!

- Cabbar əmi: Bir az haqlısınız. Bu qonularda aydın kitablar yoxdur. Olsa belə, çox az yazılı qaynaq var! 4-5 il öncə, Təbrizdə bir kiçik qrupumuz var idi. Biz türk tarixini araşdırırdıq. Araşdırdıqca, inanılmaz sorğular qarşımıza çıxırdı. Bu sorğuları cavablandırma yolunda daha çox arama, daha dərin düşünmə və daha artıq çalışmaq gərək idi. Mən İkiçayarası uyqarlığıyla o zaman tanış oldum. Dəclə-Fərat çayları iki yanaşı böyük axarsulardır. Bu iki çay, Türkiyənin Anadolu bölgəsindən sulanıb, böyük axar su olaraq Türkiyə, İraq və Suriyadan geçəndən sonra "Kəngər körfəzi"nə tökülür. 1900 kilometrə uzunluğu olan İkiçayarasında dünyanın ən ilkin böyük mədəniyyətləri qurulmuşdur. Orada samı kökənlilər, türk kökənlilər və bir çox etniklər yaşamışlar. Bizim torpaqlarımızın bu uyğarlığın yaxınlığında olmasıyla köç meydanı olması qaçırılmazdır. Bu haqda daha geniş danışarıq. Kəngər adının haradan gəldiyi, Sumerlilərin kimlər olduğu, Elamların haradan göç etdiyi, Urmu Gölünün çevrəsində hansı uyğarlıqların yaranmasını bildiyim qədərilə sizinlə paylaşaram.
- Cabbar əmi, bunları niyə Təbrizdə bizə öyrətmədilər?
- Birincisi, rusların Türk anlamına qarşı düşmən mövqeyi, ikincisi, bu haqda bilginin gizli saxlanılması, üçüncüsü, Stalinin zorla qondarma Azəri dilini, kültürünü, uyğarlığını doğma Türk varlığı adına yerləşdirmə səyi, dördüncüsü Sovet dövlətinin Azərbaycanı sovetləşdirmə səyi, beşincisi, Firqə başçılarının rus ideologiyasına vurğunluğu, altıncısı, rusların Azərbaycanı Türkiyədən uzaq tutması, yeddincisi,

liderlərimizin öz gərçək ulusal varlığımızdan xəbərsiz olması, səkkizincisi, bizim kimi düşünənlərin sürəkli olaraq gözləmdə olması, qoqquzuncusu zamanın olmaması, doqquzuncu, onuncu, say ki qurtarsın...! Rusların düşüncə sistemində türk varlığının öyrətilməsilə bağlı böyük düşmənçilik gözə dəyirdi. Rus zabitlərin türklüyə qarşı nifrətini başa düşürdük. Amma, Azərbaycan zabitlərinin özlərinə qarşı düşmənçiliyini isə anlamaq olmurdu. Azərbaycan zabitləri ruslardan daha sərt antitürklük siyasəti yürüdürdülər. O zaman, bunların əlaltıları bizim elmi qrupu dağıtdılar. Firqənin yaranmasından öncə bir Azərbaycan zabitilə tanış olduq. Onu sevə-sevə öz içimizə aldıq. 5-6 yığıncaqdan sonra onu daha görmədik. Hardasa bir həftə sonra, bizi bir-bir evimizdən aldılar. Pantürkist damğası ilə hədələdilər. Bir daha toplanmağımıza izin verilmədi. Hətta türklük haqqında danışmağı yasaqladılar! Kommunistlərin türk varlığından nifrətini hələ də anlamış deyiləm! Bu rusların bütün varlığının təməlində türk varlığı yatır. Bunlar, minnətdar olmaqdansa, türklərə düşmən kəsildilər! Yoxsa, bu düşmənliyin altında nə yatar ki! Burda, dəyişən heç bir gərçəklik yoxdur! Necə ki, Rus, Fars, Germən, Ərəb var, Eləcə də Türk var! Niyə mənim varlığımı qəbul etməyənlər var! Mən varam deyə, hamı da olmalı deyilmi? Bu dünyada kimsə, kimsənin yerini dar etmir. Rusların və farsların türklərə qarşı baxışları faşizmdən də bətərdi! Rus ideologiyasının türklüyə baxışı belədir! Ruslar varlıqlarının Türküstan məzarlığı üzərində qurulmasını unutmamalıdırlar!

Yoxsa bir gün bu məzarlıq ayağa qalxar və üzərindəki hər şeyi özü ilə gömər!

- Kişixan əmi: A kişi vallah ki, sən bir dənizsən haaaa! Vallahı diz çöküb, uşaq kimi səndən öyrənmək istəyirəm!
- Doğrudu əmi! Hələ biz gənclərin sizdən öyrənəcək daha çox bilgi var! Sizdən və Cabbar əmidən çoxlu öyrənmək gərək.

☆ ☆ ☆

**Ansızın gecənin qurd ürəkli türk çobanı!**

Yola çıxarkən mavi gözlü göyün üzərinə çökmüş qara buludların pozğun üzü üstümüzə qonan sərt damlacıqlarla özünü göstərdi! Havanın anidən dəyişməsilə karvanın da sürəti artmağa başladı. Qarşımızdakı, ən azından bir saatlıq cığır yolun necə bitəcəyi, başqa yandan isə, yağmur altında qalarsaq başımıza nə gələcəyini düşünməyə başladıq! Qarşımızdaki bələdçi əsgərin uca səslə "tez gəlin!" çağırmasından, durumun pisliyi bəlli olurdu. Başımız üstündə yoğunlaşan buludların dərəyə doğru yürüməsi çox qorxunc görünürdü. Havanın erkən qaranlığı ilə yanaşı, soyuması da kənd yolunu cəhənnəm yoluna çevirmişdi. Getdikcə yüksələn qarlı-yağışlı dəli küləyin üzərimizə çarpması ilə, yeni aşamalı ölüm-dirim savaşına tuş gəlmişdik. Dağlar ardından gurultusu ilə dəhşətli görünən qara buludlar, artıq başımız üstünə alçalırdı. Biraz öncə başlayan yağış səpmələri sel yola salırdı. On-on beş dəqiqə içində cəhənnəm yoluna dönən

kənd yolu, karvanın olan-qalan yaşam ümidini də əlindən almışdır. İçimdə olan tanrı şübhəsi olduqca artmışdı. Tanrının üzərimizə qəsd etməsini düşünmədən rahat edəbilmirdim. Təpə-dərə arasında çaşbaş qalan qatırların ümidinə qalmışdıq. Başımızı soxacaq bir yuva görünmürdü. Yenidən keçən gecələrin ölüm qorxusu başımızın üstündə əsməyə başlamışdı. Aşağı ilə yuxarı arasında çəkilən cığır yol hər an incələşirdi. Biraz öncə xoşbəxtlik melodisi olan çay şırıltısı, vəhşi rüzgarın şahlığına təslim olmuşdu. Allahın göydə toplayacağı bütün sellər başımıza ağnayırdı. Sanki yuxarıdan üstümüzə palçıqdan sel axırdı. Seyrək yamacların qurumuş qol-budaqları yaydan qurtulmuş ox kimi sol-sağımızı hədəfə alırdı. Hər kəs, əlində olanı ilə özünü qorumaya çalışırdı. Mən, Olqanın istifadə etdiyi qatırın xurcununda yerləşdirdiyim pətuları onların başına çəkməyə çalışırdım. Ancaq dəli külək buna da əngəl olurdu. Gurultulü yağmur hər an çoxalırdı. Hər kəs bu duruma qarşı dirənməyə çalışırdı. Cabbar əmi əlində gəzdirdiyi şapqasını alnına keçirərək, iki əli ilə onu saxlamağa çalışırdı. Kişixan əminin bu durumda normal davranışı acığıma gəlirdi! O, seyrək ağ saçlarını yağmura buraxaraq “Səttarxan elinin yoxdu qorxusu!” marşını oxuya-oxuya, sanki sərtləşən rüzgara sinə gərirdi! Hava şərtlərinin qarşımıza çıxara biləcək problemlərdən qorxurdum. Kişixan əminin soyuqqanlı davranışlarında laqeydlik hiss edirdim. Onun da bizim kimi qorxmasını gözlərkən, bir qatırın noxtasından çəkərək marş oxuya-oxuya yürüməsi mənə anlamsız gəlirdi!

Hamının bir neçə saatlıq xoş əhvalı cəhənnəm acısı olmuşdu. Bizə yaxın olan təpədən yuvarlaq halında bir quzu sürüsü dərəyə

sarı yenirdi. Sürü itlərinin bizə sarı hürməsi eşidilirdi. Köpəklər gəlib, sonra da geri dönərək gözlərini bizdən ayırmırdılar. Yağmurun gurultusu bəlli ki, onların da ağlını çaşdırmışdı. Yağış, ildırım və gurultu hər an artırdı. Səssiz-səmirsiz Tərlanın çığır-bağırı kəsmədən sürürdü.

Öndə gedən əsgərlə çoban arasında əl işarəti sonucunda dərəyə enməmiz bəlli oldu. Bir yol ayrıcından enərək özümüzü, öndə görünən sürünün izinə buraxdıq. Qarşımızı kəsən dönüşdən sonra bir xarabalıq tikintı göründü. Mən öncə, varmış olduğumuzu düşündüm. Kişixan əmi buranın yol üstü köhnə çapar dayanacağı olduğunu düşündü:

- Kişixan əmi: Sağolsun əsgərlə çobanı! Bizi yağışdan qurtardılar! Yoxsa birimiz də kəndə sağlam yetişməzdik. Zənnimcə, burada gecələməyimizi düşünürəm! İnşallah ki, Allah cənabları başımıza yıxmaz buranı!(gülə-gülə...)
- Əmi hələ çox qalır kəndə?
- Bir saatlıq yolumuzun olmasını düşünürəm.

Cabbar əmidən öyrəndiyimə görə, belə yerlərin keçmişlərdə ordu evi və ya karvansaray olması görünürdü. Sonralar belə yerlərdən çaparlar yararlanarmışlar. Bu tikintinin bir çox yeri sökülsə də, iki sürünü altında tutacaq qədər böyük tavanı var idi. Palçıq divarlarıyla çağa meydan oxuyan bu yalqız və yaralı sarayın hansı şahları, xanları, paşaları, yolkəsənləri, əşkiyaları görməsi bəlli deyildir. Nəhavənddən çıxarkən, çevrəsində görünən qala yıxıntılarının tarixi anlamını Cabbar əmidən soruşunca, bu bölgənin başı bəlalı olmasını öyrənmişdim. Ancaq

bu karvansarayın çağındaki göz qabardıcı ehtişamı mənim üçün gözəl bir təcrübə sayılırdı.

“Yağışdan qurtulduq damçıya rastladıq!” anlamını burada eynilə görmək olurdu! Karvansarayın hər yeri qış alaçığı kimi damcılayırdı! Bu mənə görə, inanılmaz zövq verici tablo kimidi! Olqa üçün dəhşətli görünən bu karvansaray, Cabbar əmi üçün bir abidə, Bayramı bəy üçün bir əsgər evi, Kişixan əmiyə görə, gizlənmə yuvası, Səkinə ana üçün isə, Mövlana yuvası kimi görünürdü. Bu ara Tərlan bütün gücü ilə Olqanın boş döşünü əmirdi. Hər kəs özünü göydən axan sel bəlasından uzaqlaşdırmağa çalışırdı. Kişixan əmi:

- Cəvanşir, oğlum dur gəl!
- Hara əmi?
- Çobana!
- Nə üçün?
- Sən gəl!

Karvansarayın sürü olan yönünə yola düşdük. İtlərin bizi görərək hafıldısı çobanın işarətilə kəsildi. Kişixan əmi bizə baxan əsgərlərə əl qaldıraraq onları salamladı. Əsgərlərin uzaqdan iznilə çobana sarı getdik. Çobanın bizə sarı gəlməsilə birlikdə yaxınında olan köpəklərin ikisi də mızı-mızı yürüməyə başladılar! Orta yaşlarında olan çobanın çiynindəki dəridən dikilmiş burnuzlu cılıqqa onu olduğundan daha görkəmli göstərirdi. Əlindəki çomağıla köpəkləri sakinləşdirən çoban, beş-on metrədən, əlini qaldıraraq bizi salamladı:

- Çoban: Sәlamü-aleyküm tanrı qonaqları! Xoş gördük sizlәri! Haradan belә, haraya belә! Bu yolda, bu dәli tufanda, bala-bula vә yük-yapla nә işiniz var Allahın bu unudulmuş mәzarlığında!? Allahın bu ildırımı altında, dәrәyә enmiş qara buludlu gecәsindә! Bu yollardan çoxdandır adam-madam keçmәz! Yolunuzu azmış sınız hәlbәt!
- Kişixan әmi: Salam olsun çoban qardaş! Bol olsun! Bәrәkәtli olsun! İnşallah ki, özünüzün sürünüzdür! Tanrı qurddan-canavardan qorusun! Әti-südü bol olsun! Haradan gәlib-haraya getdiyimizi soruşma, çoban qardaş! Biz, qarğışlanmış türklәrik! Özgürlük dedik! Dedilәr alın bu da özgürlük! Nәfәs dedik! Dedilәr dağ-dәrә sizin olsun! Bu karvan Tәbrizdәn "Bәdi Abad" sürgününә azdırılıb! Bәdibada nә qәdәr yol var qardaş?
- Hardasa bir ağac yol qalır. Sürgün dediyin nә? Anlamadım! Tәbriz, bildiyim çox uzaqlarda bir yerdır. Niyә buralara gәldiyinizi başa düşmәdim! Öz yerlәrinizdә qalsaydınız! Sizin sözlәrinizi başa düşmürәm! Tanrı kömәyiniz olsun! Mәndә biraz çörәk, pendir var. Çoban әrmәğanı! Quzulardan da süd sağar sizlәri doyuzduraram! Burda gecәlәmәk tәhlükәli olar. Yola duşmәk hava şәrtlәrinә bağlıdır.
- Çoban qardaş sәnin adın nәdir?
- Nökәrinin adı Tarverdi? Sәnin vә oğlunun adı nәdir?
- Mәnim adım Kişixan, oğlumsa Cәvanşir! Bir gözәl balası da var!
- Tanrı saxlasın. Maşallah tez evlәnib! Bizim dә yerlәrdә gәnclәrin başını tez bәlә-bürüt edәrlәr. Cavan nә qәdәr tez evlәnәrsә o qәdәr tez böyüyәr, deyәrlәr! Mәni 16 yaşında

evləndirdilər. İndi 12 nəvəm var! Hələ də ayaqdayam! Həm özümün, həm də balalarımın uşaqları olur! Olduqcada olacaq əvvəll allah! Özümün sürüm yoxdur. Olsaydı, burada sizə qurban kəsərdim. Özümün bir inək, üç qoç, iki qoyun və iki keçi varımdır. Onları ağanın sürüsünə qatamam! Bu sürü, “Hacı Səlman Ağa”nın onlarca sürüsündən ən kiçiyidir. Ağa “lur”dur. Amma, südü-çörəyi halaldır! Hacı Səlim Ağa lurların içində gördüyüm ən insaflı ağadır. Tanrı onu pisliklərdən uzaq tutubdur! Onun on sürüsü və 15 tüfənkçisi var! O, bölgənin ən böyük malikanəsinə sahibdir. Minlərcə qoç-quzu-keçi, inək, dana və saysız xoruz-toyuğu var! Bizim də tanrımız kərimdir. Bu günə də şükür! Yağlı-yavan çörəyimizi tapırıq. Sürünün arxasında gördüyünüz o igidlər də qızlarımdan olan nəvələrimdir. Onları yanımda saxlayıram ki, gələcəkdə mənim yerimi tutsunlar. Ağanın biz türklərdən xoşu gəlir. O, türklərin igid, əmin, düzgün və usta çoban olduğunu deyir! Ona çoban olalı 30 il oldu! Ağanın istəyinə görə, bu iki nəvəmi gələcəyə yetişdirməliyəm! Amma mən, hələ də burada olduğunuzu anlamadım!

- Kişixan əmi: Tarverdi qardaş, bizi buraya dövlət azdırıb! Biz bundan sonra Bədiabad kəndində yerləşib orada yaşayacayıq! Bədi Abad kəndi necə yerdir?
- Siz, dövlət adamına bənzəmirsiniz ki! Dövlət adamının yaxası ağ olar! Yaxasından sallanan uzun bir parça olar! Özü də, süvarı gələr, süvarı gedər. Həm də, iki-üç adam gələr! Gələndə boş gələr, gedəndə isə maşın dolusu bal-pətək, süd-xama, qoyun-quzu və toyuq-xoruzla yola salarlar! Ağa belə, onların qarşısında əlləri bükük dayanar! Yox! İnanmaram!

Siz, ac-susuzların dövlətlə nə işiniz ola bilər ki! Bir də, "Bədi Abad"! Bədi Abad "Qamasiab"ın lap kiçik, yoxsul və boş kəndidir! Oranın kənd ağası belə, Ağa Səlimin nökəridir! Oranın gənclərinin çoxu "Lurestan"ın "Xürrəm Abad, şəhərinə köçüblər! Tanrı sizin köməyiniz olsun! Bəlli ki, sizlər çox böyük günah işləmisiniz! "Dövlət Baba" sizi, Təbrizdən buraya niyə göndərsin ki! Yoxsa, günahsız adamın burada nə işi olar! Tanrı özü sizə yardım etsin! Bir azdan hava tam qaralacaq! Bu yağış bizi bu gecə burada saxlamaz, İnşallah! Sabahacan buralarda min bir bəla ola bilər! Hər ehtimala qarşı havada biraz işıq varkən odun toplamaq gərək. Siz, gənclərə deyin quru ağacları karvansaraya toplasınlar. Yoxsa, gecə soyuğundan sağlam çıxan olamaz! Uşaqlar və qocalar tələf olar! Nəvələrim Məhbub ilə Coşqun da sizə yardımçı olacaqlar. Onlar həndəvəri yaxşı bilirlər. Mən də qoyunlardan süd sağım! Bir az çevik olmaq gərək!

- Kişixan əmi: Tarverdi qardaş sağol! Tanrı sənə ömür versin! Balalarını saxlasın! Uzanan yardım əllərin sağolsun!

Kişixan əminin ardından mən də təşəkkür edərək, karvanımıza sarı döndük. Başçavuş Bayramılə birlikdə çavuş Dərvişlunun bizə tərəf gəlməsini gördük. Xoş-beşdən sonra Başçavuş çox sarsıntılı görümü ilə:

- Başçavuş: Tanışlığınız hara çatdı?
- Mən: Sizin durumunuz yaxşı görünmür, Sərkar!
- Yox, oğlum, yaxşı deyiləm! Bizi bu günə salanların suyu-soyu qurusun! Kökü dağılsın! Hansımız yaxşıyıq ki! Zülümün son qatıdır! Bu millətin günahı nədir? Zülümün evi

bərbad olsun, oğlum! Tezliklə səninlə Olqanın işini həll etməliyik. Yoxsa, bu yalqız qızın sonu pis olacaq! Onun bu boynu yoğunlardan qurtulacağı olamaz! Jandarmaya arxayın olunmaz! İndidən ona xor baxanlar olarsa, sonunu toparlamaq olmaz! Ağa müəlimin işlərindən xəbərim var! O kişini, Tanrı bizə saxlayıb! Fikri və əməli düzdü!

- Kişixan əmi: Sərkar bunları danışmağa vaxtımız boldur! İndi bu yazıqları gecə soyuğundan qorumalıyıq! Odun lazımdır. Tonqal qalamaq lazım! Soyuğa və qurda qarşı səhərədək alov-alov atəş gərək! Gəncləri odun yığmağa göndərməli!
- Başçavuş: Məgər gecəni burada qalmaq istəyirik? Yağış birazdan kəsər! Məncə yola düşsək, gecəni kəndə çatarıq! Sən necə düşünürsən?
- Çobanın məsləhətinə görə, burada qalmalıyıq! O, burada gecələnib, sabah sabah yola çıxmagı doğru bilir! O, pis hava şərtlərinin olacagını və yolların yuyulduğunu söyləyir. Ona görə, bu yollarda qatırlar çamura batar və qurdlar üçün ov olarlar. Hətta insanların belə, canı təhlükədə ola bilər. O deyir ki, qaranlıqda qurda-canavara yem ola bilərik! Doğru da deyir. Çoban, bu bölgəni hər kəsdən yaxşı bilir. Onun üzündən bu gecəni ac-susuz və yardımsız qalmayacayıq. Çobanın dedikləri qulaqardı edilməməlidir.

Gecənin gözlənilməz olaylarına qarşı insan sürüsü bizlərlə, qoyun sürüsü bir araya gəlmişdik! İtlərin bizə qarşı hirsli davranışının yerini dostluq almışdı. Köpəklərin bizə qarşı sakit davranmasına ən məmnun olan Olqa idi. Olqa inanılmaz dərəcədə köpəklərin davranışını anlayırdı.

İki-üç saatlıq yoğun yağışdan sonra dağ-daşdan şırıltı səsi kəsilmirdi. Hava tər-təmiz, ancaq çox soyuq idi. Artıq gündüzün istiliyindən əsər-əlamət yox idi. Sərt yağmurun axınından karvansarayın tavanlı bölümü də cim-cilaq olmuşdu. İslaq geyimlərlə havanın nəmişliyi üst-üstə gəlincə, ani üşütmələr canımızı dərindən titrətirdi! Hər kəsin soyuq qarşısında acizliyi bəlli olurdu. Durum belə gedərsə bir-iki saat içində yenidən faciəyə düşməgimiz qaçırılmaz görünürdü. Belə durumda, ən azından, tonqal qalamaq gərəkn halda, çoban buna əngəl olurdu. Təbi ki, haqsız da sayılmırdı! Çünki, belə durumları yaşayan bir qocaman çobanın təcrübəsi az deyildi. O, bu durumlarda tələsgənliyin əsl düşmən olduğunu vurğulayaraq belə söylədi:

- Birazdan qaranlıqla birlikdə sis-duman da üzərimizə çökər. Bu durumda qurdların toy-bayramı başlar. Bizim əlimizdə sadəcə beş tüfəng və olsa-olsa yüz qurşun var. Bunların boşuna bitməsinə izin verməməliyik. Yoxsa, bu canavarlarla boş əllə baş etməz olamaz. Qurşun bitməməli, od isə sönməməlidir. Bu ikisini göz bəbəyi kimi qorumalıyıq. Ən azından, 12 saat boyunca, dan patlayınca bunu bacarmalıyıq. Bizim odun yığmağa daha çox zamanımız yoxdur. Havanın biraz işığından istifadə etməliyik. Çevrədən uzaqlaşmadan əlimizə gələn odun parçalarını toparlamamız lazimdir. Havanın tam qarınlığına bir saat filan var. Yağışın azalması işimizə yaradı. Bu bir saatda daha çox odun toplamaq gərək. Qarı-qoca və uşaqlı analardan başqa hamı odun yığmağa doğru! Yallah! Diri qalmaq üçün odun gərəkdir. Üşümənin tək əlacı hərəkətdir. Kimsə əsgər və çobanlardan qabağa düşməsin. Qaş qaralar-qaralmaz hər kəs geri dönsün. Kimsə

qaranlıqda buradan çıxarsa qayıtması allaha qalar! Odunların toplanmasıyla tonqal yanacaqdır. Bir az dözün! Xəstələnmək ölməkdən yeydi!

Tarverdi çobanın əmrləri yerinə yetirilmişdi. Dərədə bollu sınıq qol-budaq var idi. Qaş qaralınca istənilən odun parçaları toplanılmışdır. Çobanın sözləri qarşısında kimsənin cıqqı çıxmayırdı. Zaman hisindən kömürə dönmüş dörd bucaqlı qara daşlardan oluşan ortabab ocağın üstündə yenicə sağılmış süd dolçası isinirdi. Hər kəsin gözü Tarverdi bəyin əllərinə dikilmişdir. O, çox təmkinlə əlindəki incə ağac budaqla südü qarışdırırdı. Ocaq başında onun Cabbar əmi, Kişixan əmi, çavuşlar və iki əsgərlə nə danışdığı bəlli deyildi. Hər kəs birlikdə yıxıq saraydan qalan təkcə tavanlı bölgədə toplanmışdı. Uca divarlarla sağlam görünən sarayın arxa yanı söykənəcəyimiz olmuşdu. Tarverdi bəyin taktikinə görə, insanların yeri örtülü divarların küncü, qoyun-quzunun yeri insanların sağ yanı, tonqal isə, insanların solunda olmalıdır. Çoban dayının bu düşüncəsinə görə, bizlər hər iki tərəfdən təhlükədən uzaq tutulurduq.

Son günlərin alışqanlığı olaraq, Tərlanın dodaqları Olqanın boş məməsindən uzulməzkən, mənim də əllərim incəcik əllərindən uzaqlaşa bilmirdi! Sanki Olqa, “Pir”, biz ikimizsə ona bağlanan hacət qıfılı olmuşduq!

Toplanmış qocaman tonqal odunları yanmağa hazır görünürdü. Toplanan odunların içində çoxlu çam budağı və bollu çam qozu var idi. Mən odun yığanda bu qədər çam qozunun önəmini

sordum. Coşqun utana-utana bu qozların işimizə gəlməsini dedi və başqa söz danışmadı.

Çinqo, səxsi və dəmir qablara süzülümüş südlə birlikdə, pendir, saç lavaşı və süzmə yoğurd da insanlara dağıldı. Ac qurdun sürü görməsi kimi çoban ərməğanının üzərinə düşdük. Olqanın belə ac olması görünməmişdi. Az bir zaman içində əlində olanların hamısını bitirdi. Nə olarsa canından can alınırdı. Tərlan yazıq Olqanın aclığını hesaba qoymadan somurqan kimi analığını sömürdü.

Günlərcə bu durumu izlərkən əlimdən bir yardım gəlmirdi. O, hər yediyindən Tərlana da dadızdırırdı. Olqa, bu işini Tərlanı süddən açmağa bağlamayırdı. O, bu bəxtsiz uşağın hər ehtimal qarşısında yeməyə alışmasının vacibliyini vurğulurdu. Mən, Olqa üçün biraz da yemək və süd almaq istəyirdim ki, Məhbubun əlində böyük bir kasa süd və çörək bəlləsi bizə sarı gəldiyini gördüm:

- Dədə uşaqlı analara pay göndərdi. Bu da sizin balanızın payıdır. “Afiyət olsun dedi!”
- Sağol Məhbub gəl sən də otur!
- Yox mən gedim tonqal qoşum. Birazdan hava zil qaralar. Sən də gəl istərsən!
- Olqa: Məhbub sənin neçə yaşın var?
- Bilməm on altı filan deyərlər. Mənim də bir balam var. Bir yaşında “Abbas” adında!
- Tanrı bağışlasın! Sən indidən ata da olmusan?
- Bizdə belədir! Buralarda qundaqdan adlanarıq! 13-14,də evlənərik. Mən gedim. İndi dədə haylar!

Tərlanın payından Olqanın qarını iyicə doymuşdu. Biraz qalan süd isə, yədək olaraq saxlanıldı. Olqanın üzü gülürdü. Üstü islaq olsa da, qarnının toxluğu onu gülümsədirdi. Olqanın sevinməsilə, mən də sevinirdim. Gavur qızın sıcaq ürəyi mənim üçün dünyanın ən yanar ocağı və sönməz günəşi sayılırdı. Utanmasam, bu gavur qıza öləsinə aşiq olduğumu dağlara-daşlara, dərələrə-bərələrə haraylardım! Uca səslə Qamasiyabı tanıq tutardım bu tutquma, bu sevgimə!

Məhbubla Coşqun topladığımız çam qozlarını iki yerə ayıtırdılar. Bir az uzun, kiçik qozları bir yana, daha topuq və böyük qozları tonqal olacaq ocağın altına yerləşdirirdilər. Mən onların bu işini anlaya bilmirdim. Öz-özümə deyirdim ki, nə fərq edər, hamısı yanacaqdır. Amma bu işin təbii ki, bir açıqlaması olduğunu düşünürdüm:

- Coşqun bunları nədən ayırırsan?
- Bunu dadaş Məhbub desin!
- Sən niyə demirsən?
- Dadaş Məhbub məndən iki yaş böyükdü! O, izin versə deyərəm!
- Məhbub: Denə xala oğlu!
- Coşqun: Çam ağacının qozları erkək-dişi olar. Ocağa toplananlar dişi qozdur. Onların ömrü uzun və dayanaqlı olur. Saatlarla yanarlar. Bu üzdən onları tez atarıq. Bu kiçik qozlar isə erkəkdirlər. Onların ömrü güdə olar. İsitisi də az olar. Tez kül olarlar. Səhərə yaxın onları da oda atacayıq!
- Mən bunları birinci kərədir eşidirəm. Sağol Coşqun qardaş!

- Coşqun: Birazdan gur bir tonqal olacaqdır. Biz də çoxdandır belə bir tonqal qalamamışdıq. Bu tonqala qurd-quş yaxın gələ bilməz! Bir azdan bura təndir kimi isti olacaq. Gecə sonu bir daha süd sağacayıq. Dədə bizə dedi ki, qunaqlara qulluq edək!
- Sən də evlisənmi, Coşqun?
- Yox, mən bu yaz evlənəcəyəm. Adaxlıyam! Pullarımı yığıram!
- Evlənəcək qız türkdür?
- Bəs nə olsun! Bizim bütün ailəmiz türkdür. Xalalarım, əmilərim, bibilərim! Bütün ailə türkdür. Biz, ailə içi evlənərik! Körpəlikdə nişanlanarıq! Sizdə belə deyilmi?
- Bizdə də az-çox belədir. Kəndlərdə dediklərinlə eynidir. Təbrizdə evlənmə elçiliklə olur. Qızla, oğlan özgə də ola bilərlər. Hətta evlənənədək bir-birini tanımazlar belə! Amma yavaş-yavaş bu dəb dəyişir. Belə ki, oğlanla qız sözlü olandan sonra tanış olurlar! Əlbəttə, evlənənədək yalnız buraxılmazlar. Bəzən də bir-ikisinin gözü altında görüşərlər!
- Məhbub: Bildiyimə görə, Həmədanda və Nəhavənddə də dediyin kimidir. Ayrı yerləri bilmirəm. Bunları Dədə yaxşı bilər. Dədənin harayı ucalmadan işləri bitirməliyik!

Keçmişdə el-oba arasında ağsaqqalar şurasının məşvərət toplantısı olardı. Onlar, uzun illər boyu bir arada olmuş kimi, içdən davranışları ilə karvanımıza ümid toxumu səpirdilər.

Əsgərlərin karvansaray girişində daş heyrə üzərində silahları ilə uğraşması marağımı çəksə də, Olqa və Tərlandan uzaqlaşmağı doğru sanmırdım. İki nəvənin odunları düzənləmə səyi də çox

gözəl görünürdü! Onlar, ocaq işilə birlikdə sürünün durumunu da gözdən qaçırmırdılar. Yanıq yanaqları, enli kürəkləri və çevik əl-ayaqlarıyla erkən böyüyən bu kiçik çobanlar üçün, yəqin ki, belə ziyafətin başqa dadı olmalı idi! Bu iki gənc çoban üçün çabalamaq zövqverici bir sevgi kimi görünürdü. O ikisi bir neçə dəqiqə içində böyük tonqalı alovladılar! Tonqalın altında toplanmış çör-çöp və qol-budağın şaqqıldayaraq yüksəklərə sıçraması görəcəyimiz ən gözəl görüntülər yaradırdı! Havanın qaranlıqlaşmasıyla ortaya gələn bu gözəl mənzərənin al-əlvanlığı daha da gözəlləşirdi. Çoban dayı ilə nəvələrinin bizə bağışladığı bu gecənin anıları heç zaman beynimizdən silinmədi!

*“İsti varkən şaxta-ölüm uzaqlaşar dağ-dərədən,*

*boz buludlar salxım-salxım ulduzlaşar göy bərədən!*

*İsti varkən, atəşindən qaçar olar qaranlıqlar,*

*Lam-lam axar yaşıl yaşam, gülər boy-boy aranlıqlar!*

*İsti varkən yer üzündə qurdla quzu yoldaş olar,*

*Əskik olmaz şən toy-busat, saz ilə söz dildaş olar!”*

Bir saat öncəki ölümcüllük arxada qalmışdır. İnsan unudqandır! Türklər isə unudqanlıqda dünyanın rəqibsiz qəhrəmanı sayılır! Mən də bir türk olduğum üçün belə düşünürdüm! Hər şey zənnimizcə gözəl gedirdi. Hətta alovun atışqanlığını duyunca, şair olmağı belə həvəs edirdim! Hamımız tonqalın istisinə yığışmışdıq. Hətta qoyun sürüsü belə, bizə yaxın bir məsafədə yerə sərələnərək istilik keyfi yapırdı. Səkinə ana Tərlanı

qucağına almış dindirirdi. Tərlan isə, uca səslə həllənirdi. Sürgündaşların damaqları çağ görünürdü. “Nəhavənd”də tanış olduğum, Tehrandan bizə qatılan Kəmal adlı yaşıdımla birlikdə, oddan sıçrayan alovlarla oynayırdıq ki, uzaqdan bir inilti səsi bütün insan və quzu sürüsünü diksindirdi! Bu səs bir an içində, köpəklərin hafıltısına, gələn-gedənlərin şaqqıltısına, quzuların məriltisinin, insanların isə anıdan bir-birinə sarılmasına səbəb oldu! Qorxu yenidən içimizə girdi! Ancaq gecə qaranlığında haradan gəlməsi bəlli deyildi! Hər kəsin gözü Çoban dayıya doğru yönəldi :

- Tarverdi dayı: Ay camahat qorxmayın! Bu səs çox uzaqdan gəlir. Çaqqal vəya bayquş ola bilər! Hürkməyin səhərəcək bu səslərdən çox eşidəcəksiniz! Beş silahlımız var. Yaraqlarımızla kimsəni yaxına buraxmayıq! Mənə inanın, arxayın olun! Hamınızı səhər tezdən yola salacayam! Bir azdan sizə tütək də çalacağam, nəvələrimin gözəl səsi var! Görəcəksiniz! Mənim bu köpəklərim var ha...! Hərəsi 10 qurda bədəldi! Qurdun gələsi varsa, görəsi də var! Mən, 40 ildə bir quzu belə, qurda verməmişəm! Mən, bu dağların sultanıyam! /Gülə-gülə/! Oğlum Məhbub, sən Coşqunu burax get əsgərlərin yanına! Gələn-gedəniz çəkili olsun! Bu qorxaq çaqqallara və qurdlara aman verməyin! Yaxınlaşa bilməzlər! Ancaq yenə hazır olun!
- Kişixan əmi: Tarverdi qardaş, tütəyini çal! Bu dağlara-dərələrə doğanın ən gözəl səsini ərməğan et! Mən də oxuyacağam. Bu alovun, bu gözəl odun eşqinə mən də oxuyacağam! Bismillah!

Hər an keçdikcə, inilti səsləri uvultuya dönüşürdü. Uzun-uzatı uvultuların qurd səsi olmasından şübhə yox idi. Artıq hər kəsə bu səslərin qurd ulaması olduğu aydın idi. Alov işığıyla çiçəklənib-solan üzlərin tədirginliyi bəlli olurdu. Çobanlara görə, bu səslərin normal olması, bizi sakitləşdirmirdi. Köpəklərin "hazırcavablığı", bizdə dolayı qorxu yaradırdı! Qurdların ulaması, itlərin hafıltısı və quzuların məlirtisi bizim içimizdəki qorxu səslərini artırırdı. Çobanın tütəyini kimsə mənimsəmirdi! Onun soyuqqanlı davranışıyla köpəklərin hərəkətlənməsi üst-üstə düşmürdü! Hətta demək olar ki, tam tərsinə idi. Olqanı, Sona ananı və Səkinə ananı iki yanıma almışdım. Tərlan isə, dünyadan xəbərsizcə uyumuşdu. Nə yaxşı ki, bu tifil körpə, doğuşundan bəri başına gələnlərdən bilgisi yox idi! Yoxsa, o da biz böyüklər kimi qurdun qorxusundan it ilə qol-boyun olacaqdı!

Artıq Tarverdi bəyin də tədirginliyi gözlərindən oxunurdu. O, əlində tüfəngilə yan-yörəsini izləyirdi. Tüfəngçilərin hər birinin əlində odlu bir çomaq da var idi. Onlardan əlavə, hər kəsin əlinə bir odun parçası verilmişdir. Qurdların səsi bizə çox yaxın yerdən gəlirdi. Bəlli ki, qışdan çıxanı daha da acmışdırlar. Buna baxmayaraq, çox da yaxına gəlməkdən çəkinirdilər. Tarverdi bəyin tapşırığına görə, qurşun yalnız qurdların göründüyü yerə açılacaqdır. Çünki, quzular ürkərək tək-tək qurda, heyvana yem ola bilərdilər. Biz bunları bilməsək də, Kişixan əminin bu barədə çobandan əmin olması görünürdü. Kişixan əmi, çoban dayiya yardımçı olan ən yetgili insan görünürdü. O, öz bilgisilə çobana çox dəstək olurdu. O, bizi sakinliyə çağırır və hər birimizə bir iş tapşırırdı. Mənimlə birlikdə dörd-beş kişini tonqalı yüksək

tutmaqla məşğul etdi. Kişixan əmi qurşaq kimi bir incə tonqal şırığının da insanların önünə çəkilməsini istədi. Biz, əllərimizin yanmasına baxmayaraq, canımızın qorxusundan tez bir zamanda divarı tonqallarla sardıq. Sonra, bütün qadın-qoca və uşaqları odun arxasında yerləşdirdik. Bu işin iki böyük yararı oldu. Birincisi, meydanın arasında olan tonqalın bir bölümünü insanlara yaxınlaşdırdıq, ikincisi isə qorunması olmayan sürgündaşları tonqallar ardında qoruyucu duruma saldıq. Kişixan əminin bu işi toplumu bir çox ölçüdə rahatladı. Mən, Kişixan əminin bu işinə heyran qaldım. Belə durumda çox az adamın taktik qurma qabiliyyəti ola bilərdi. Cabbar əmi və başqaları Kişixan əminin sıradakı addımlarını diqqətlə izləyirdilər. O, qoca, uşaq və qadınların başına bir əsgərin durmasını istədi. Əsgərlərin biri karvansarayın önündən tonqallı küncə sarı gəldi. Bəlli ki, əsgərin özü də bu işdən məmnun idi!

Sürü köpəklərinin quzuların dağılmasına qarşı mücadiləsi bu anacan gördüyüm ən inanılmaz qoruma sistemi idi. Köpəklərin düzənli formada sürünü quşatması və qarşılıqlı hərəkətdə olduqları, doğanın olan üsdü düzəninin göstərgəsi idi. Bu böyüklükdə sürünü belə bir qorxunc qaranlıqda qorumağın adını, yalnızca doğa möcüzəsi adlandırmaq olar! Qurdların ulaması bir an belə kəsilmirdi. Artıq qarşıdan deyil, arxadan da inilti səsləri eşidilirdidi. Buna baxmayaraq, qurd izlərindən xəbər-ətər yox idi. Bu isə, bizləri daha da rahatsız edirdi. Çünki, dəhşət içərisində gözləntinin alanı, dəhşətin özündən qat-qat geniş və qorxuncdur. Biz dəhşətin içində deyil, izində yaşadığımızdan qorxurduq! Mən, zaman-zaman küncə sığınanlara ürək-dilək olmağa çalışsam belə, özüm-özümə inana

bilmirdim! Biz, hamımız qorxu içindəydik. Hətta Tarverdi dayı və Kişixan əmi belə! Amma qorxunc gecəni yaşayanların ürəkləri bir ölçüdə ürkək deyildi. Olqanın mənə qarşı daha soyuqqanlı və sakit olması, buna açıq örnək sayılırdı. Olqa, mənə qarşı səslənərək:

- Cəvanşir, çox pis gecədir. Demək ki, alın yazımıza bu da yazılmışmış! Biz, bu gecəni də atladacayıq. Yaşama inan, sevgiyə inan! Sevənlər ölməz! Bizim qarşımızda günlərimiz var! Bu günlərə inan! Bu körpənin yaşaması üçün bizim yaşamağımız gərək! İyirmi doqquz əzizimizin yatıb durmadıqları gecədən, sadəcə on gün keçir. Ananı-bacını itirdiyindən, sadəcə on iki gün keçir! Sonucda, ən acısı onlar kimi olarıq! Biraz soyuqqanlı ol, əzizim!

Bu sözlərin qarşısında deyəcək sözüm yox idi! İncə görünən Olqanın mənə ürək verməsi bariz bir örnək kimi hər kəsə aid idi. Bunu o gecə anladım! O gecə Kişixan əminin bir millət üçün hansı dəyərdə ola bilməsini anladım! Keşkə, siyasətlə ağalıq edənlərin Kişixan kişi qədər ürəkləri olsaydı! Keşkə, Olqa kimi insanlığı qadın-erkək ölçüsündə deyil, insanlıq dəyərində görənlərin sayı çox olsaydı! Mən, o gecənin qorxusunu, atalar demişkən “Qurd ürəyi yemiş” görünməz iradələr kölgəsində atlatmağı bacardım.

O gecə gözümüzü qırpmadan, Danyerinin açılışıyla yollanmağa başladıq. Çiynində tüfəngi, əlində isə uzun dəyənəyilə sürünü gözdən keçirirdi usta çoban. Bütün orqunluğa rəğmən çoban əmi dim-dik ayaqdaydı. Türk çoban, keçirdiyimiz qorxunc gecənin əsil qəhrəmanı sayılırdı! O, kimsənin burnu qanamadan, iki

sürünü bir anda büsbütün səhərə çıxaran iddiasız bir çoban sayılırdı. Tarverdi kişi, öz dərin iradəsi və bilgisilə dəhşətli gecəni yenərək hamını sağlam qurtardı. Qurd qədər qurd ürəkli olan insanların ürəyini çətin sınaqlar aydınlaşdırar. Kişixan əminin zaman-zaman iki əsgərlə birlikdə sürünün önünə çıxaraq qurdlara meydan oxuması da gecənin qəhrəmanlıq örnəklərindən sayılırdı.

Gecə sancısından doğan qara buludların ardından sökülən günəşin saçaqları dağlar ardından iz səpməyə özən göstərirdi. Artıq yola düşmə zamanı gəlmişdi. Bəlli olan o idi ki, qalan iki ağaclıq yolun ən azı bir ağacını birlikdə gedəcəkdik. Köpəklərin səhərədək yatmaması, onları da ayaqdan salmışdı. Onlar, sadəcə vaxtaşırı quzuların məlirtisinə qarşılıq verirdilər. Görünən bu ki, itlər qədər qoyun-quzular da bir an yuvalarına yetişmək istəyirdilər. Ancaq nə yazıq ki, biz bu dilbilməz heyvanlar qədər belə, şansımız yox idi.

Çoban dayının öndərliyində yolumuzu geniş dərənin çaya alçalan cığırlarından salmışdıq. Buralarda sürüşgənlik təhlükəsi çox az idi. Ayaqda yürüyən gənclər, uşaqlı anaları və qocaları daşıyan qatırların noxtasından çəkərək palçıqlardan keçmələrinə yardımçı olurdular. Coşqun, titizliklə sürünü irəli dartırdı. Bizim bir-birimizə yaxın olduğumuzdan, danışmaq imkanı da yaranırdı. Keçən gecənin və harda yaşamaqları ilə bağlı Coşqundan soruşduqda belə cavab verdi:

- Keçən gecənin hay-küyü düşündüyünüz kimi olaysız bitməmişdir! Bu alovun tüstüsü başqa bir yerdən çıxacaqdır! Qurdlar, bizim sürüyə soxula bilməyincə, başqa sürünü didib

dağıdıblar! Onlar ac qarınla meşəyə dönməzlər. Bax, həndəvərdən gələn səslər arasında qurd habelə çaqqal səsi yoxdur. Bu səssizlik başqa axır və barınaqların vurulmasının nişanıdır! Qurdların birlikdəliyi, kəsin bir sonuca varmışdır! Onların gecə yarısı səslərinin azalmasının bir nədəni vardır! Qurd, tox olmadan yatağa girməz! İrəlidə gecənin tüstüsü bəlli olar! Bizim evimiz "Baba Qasım" kəndindədir. Hardasa bir ağac sizin getdiyiniz Bədiabad kəndindən yaxındadır. Biz yolun bu tayında, siz isə o tayındasınız. Baba Qasım Qamasiyabın ən böyük avadanlığıdır. Bədiabad isə Qamasiyabın ən kiçik kəndi sayılır. Sizin orada nə iş görəcəyinizi bilmirəm. Heç olmasa yolun bu tayında axar sular var, biraz aralı Qamasiyab çayı var. Sizin yerinizdə yaşamaq imkanları çox azdır. Orada dam-davar yoxdu, əkin yerlərini xır basıb. Cavanlar da köçüblər Xürrəmabada....

- Biz, sizin kəndinizdən keçəcəyik?
- Yox, sizinlə qarşıda ayrılan üç yolda ayrılacayıq. Sizin kəndiniz yolun o tayındadır. Sizi kəndin harasında yerləşdirəcəklər?
- Bunu biz bilmirik. "Nəhavənd"də hara getdiyimizi bəlli etdilər. Bədiabad kəndini orada öyrəndik. Tanrı özü yardımçı olsun. Harada qalacağımızı, nə yeyəcəyimizi, nə geyəcəyimizi, necə yaşayacağımızı kimsə bilmir. Bizi bura ölməyə göndəriblər, Coşqun qardaş! "Nəhavənd"də Jandarma başçısı *"burdan qaçanın cəzası ölümdür dedi"!* Sən burdakı ilk dostum oldun! Bizi yalnız buraxma! Heç olmasa hərdən bizə sarı gəl!

- Sizin niyə burada olduğunuzu bilmirəm. Amma sizlərin yaxşı adam olduğunuz bəllidir. Mən səni görməyə gələcəyəm. Öz aramızda qalsın, jandarmaları kimsə sevməz. Bir də, mən sevinirəm ki, siz türksünüz. Burada bizim ailəmiz bütün türkdür. Amma ləklər, lurlar, kürdlər, bir də dövlət məmurları farslar var. Mən lurcanı bilərəm. Bizim ərbabın famili hamısı lurdu. Mən onlarla lurca danışaram. Bizdən oyana kəndlərin çoxu Lur, Kürd və Türk kəndləridir. Bizdən biraz oyana Luristandır. Dədənin dediyinə görə, bir çox Türk kəndi kürdlərin və lurların silahlı yürüşünə uğrarkən boşalıbdır. Sizin getdiyiniz kəndin də keçmişi belə ola bilər.

- Sağol Coşqun qardaş. Bura sürgün düşdüyümüz barədə sənə anladacağam. Verdiyin bilgilərə görə sağol. Mənimlə maraqlandığın üçün də, var ol! Ancaq Dədən bağıra-bağıra səni səsləyir. Bax, sənin tərəfin sürüdən geridə! Dədənin daha da səsi çıxmadan quzuların əl-ayağın yığ!

İçimizdə olan dünənki düzəndən xəbər-ətər yox idi. Hamı qoyun sürüsilə birlikdə irəliləyirdik. Karvansarayda çox rahatsızca qəbul etdiyimiz sürü qoxusunu indi aldığımız hər tinlə sevə-sevə içimizə çəkirdik! Artıq, bizim üçün yeni yaşam alışqanlığı başlamışdı. Kimi bir quzu yavrusunu qucağına almışdır, kimisə sürünün itlərilə oynayırdı! Bu qovuşmadan hər kəs razı görünürdü! El ağsaqqalları birlikdə yürüyür, söhbət edirdilər. Mən, bir əlimlə qatır noxtasını, digər əlimlə isə, yeni doğmuş bir quzu balanı daşıyırdım. Arxa-arxaya yürüyən Səkinə anayla Olqanın arasında olan bağlantı gözdən qaçınmayırdı. Elə ki, Cabbar əminin məsləhətinə görə, kənd əhalisinə bu ikisinin ana-

bala olduğu bilinməlidi. Mən ilk öncə buna xoş baxmasam da, Cabbar əminin *“oğlum qısqanma! Sənin yerin ayrı, Səkinə ananın yeri ayrı!”* sözündən sonra utanmağa başladım!

Tarverdi dayının sürünü durdurması, ayrılıq çağının çatmasından xəbər verirdi. Onun əsgərlərə və Kişixan əmiyə əlilə işarətinin anlamı yol ayrıcında olduğumuzu bəlli edirdi. Artıq, bir ömürə bədəl bir gecənin olaylı tanışlığının sonuna gəlmişdik! Bunu kimsə istəməsə də, qəbul etməyi məcbur idi. Soydaşlıq doğasını gözlərində canlandıran Coşqunla Məhbubu qucağıma çəkərək, yanaqlarından öpdüm! Ən umudsuz anımda, umud yağmuru kimi anlıma qonduran Coşqunlar üçün tanrıma şükür etdim!

☆ ☆ ☆

**Son Bataqlıq!**

Bir kiçik təpənin arxasında çamurdan tikintilərilə kiçik “Bədi Abad” kəndi görünməyə başladı. Hardasa səhər saat 9 radələri idi. Buna baxmayaraq, kimsə görünmürdü. Palçıqlı yollar, yıxıq evlər, bir neçə inək-qoyun, toyuq-xoruz və kəndin girişində əkinə şumlanmış kərdilər yeni vətənin(!) görülən panoramasıydı!...

Bu gün “ağ 21 azərdən” bir il 25 gün keçir! “Qara 21 azərdən” isə 25 gün 9 saat!

Hava bir az günəşli, bir az buludlu! Kəndin məscidinin həsirləri ayağımıza ilişir. Tərlan nədənsə ağlayır. Olqanın süd içməsi

gərək idi. Səkinə ana süd tapmaq üçün məsciddən bayıra çıxdı! Kişixan əmi məscidin enini-boyunu ölçərək oxuyur:

*“Lənət qara zindanlara, şallaqlara lənət!*
*Lənət setəm-o cəbr-o fəlakətlərə lənət!*
*Lənət, törəyən qanlı cinayətlərə lənət!*
*Lənət Kəcə, Kəmbinlərə, batillərə lənət!*
*Lənət əsəbi, qorxulu qatillərə lənət!”*

Kişixan əminin boğazının xışıltısı Birianın şerinin bitməsinə imkan vermir. Xışıltı, açlıqdan da ola bilər, əsəbdən də! Məncə aclıq deyil, hər gərilən əsəbin də bir sərhəddi var!

Məscidin sınıq minbəri üstündə qoca tabloda solmuş bir yazı gözə dəyir:

*“Allah- Mohammad- Ali- Fatime- Hasan ve Hüseyn!*

Tablonun üstünü toz basıb! Bəlli ki, illərdir allah evinin qapısını çalan olmamışdır! Minbərin altında səpələnmiş palas doğrantıları var! Açıqca gözə çarpan siçan bacaları, Olqanın südünü qaçıra bilər! Bu bacaları tezliklə tutmaq gərək idi! Sona ana tablonun qarşısında durub deyir:

- Gözəl oğlum sonunda çatdıq! Tanrı evinin qonağıyıq! Amma hər yerdən çirklik ağnayır. Bax! Yazıq *“Pənc Təne Ale Əba”* tablosu tozdan görünmür! Elə bil ki, bunlar da burda qəribdirlər! *“Ağamız Qolsuz Əbülfəz özü dadımıza yetsin!”*...

(1.ci kitabın sonu)

## Sürgün bataqlığı: Bədiabad!

Məscidi Tanri evi də bilərlər! Harda çörək olmasa, su olmasa, başını yasdığa qoyacaq yerin olmasa, Allahın evinə sığın!- deyərlər!

Bizi üç gün dindirmədən-sindirmədən sonra ac-yalavac köpəklər kimi sızlatdılar. Üç gün boyunca kiflənmiş qumlu çörəkdən başqa payımız olmadı. İçdiyimiz suyun qoxusundan ürəyimiz ağzımıza gəlirdi. Altımızda süngü kimi həsirlərin üzündən bədənimiz dəlik-deşik olmuşdu. Bizi kəndə gətirən iki əsgər, eşşək və qatırlarla gəldiyi yerə dönmüşdülər. Aramızda olan iki çavuşumuzun əsgər formalarının yerini kişisəl paltarlar almışdır. Biz artıq özgür olmuşduq! Kəndi başdan-başa gəzmək üçün hər hansı bir sıxıntımız yox idi. Çoxu yaşlılardan ibarət 10-12 ailə "Bədi Abad"ın bütün nüfusunu oluşdururdu! Onların isə, bizlərdən qaçması dərdlərimizin üstünə artan yeni bir dərd sayılırdı! Onlar, bizə yaxınlaşmaqdan çəkinirdilər. Bu üzdən dərdimizi kimsəyə anlada bilmirdik. Bizimlə ilk saatlardan maraqlanan, yalnızca bir orta yaşlı kişi - kənd ağasının kürəkəni Maşallahxan adlı bir Ləkistanlı idi. O, sadə və təmiz bir adama bənzəyirdi. Təkcə onun verdiyi quru lavaş çörəyilə aclıqdan qaçırdıq. Küflənmiş çörəklə dağdan axan bulanıq su, ac-susuzluğumuza qarşı əlimizdə olan təkcə bəslənti sayılırdı. Maşallahxanın anlatdıqlarına görə, *"Bədi Abad"ın belə xaraba qalmasının nədəni təpələrdən axan qaya daşları olmuşdur. Yağışdan islanan bu qayaların axmasıyla kəndin azacıq əkin alanı bütünlüklə ölmuşdü. Qayalara çulqanmış bu torpaqlarda ən vəhşi bitkilər belə, gözə dəyməyirdi. Sanki burda yaşam doğası çoxdan bitmişdi! Buralarda yaşamaq it kimi sürünmək*

*deməkdir. Maşallahxanın dediğinə görə, biraz boya-başa çatan yeniyetmələr qarınlarını doyurmaq üçün bu diyardan köçür, bir daha geri dönmürdülər. Bu bölgə də qalan türklər Nəhavəndə, Kəngavərə, Həmədana, ləklər ilə lurlar isə Luristana, Kirmanşaha gedirlər. Beş il bundan öncə burdakı dörd kürd ailəsi bütünlüklə yanıb kül oldu! Belə ki, bir lur ağasının evində nökər qalan kürd oğlanın ağanın gözdəsilə sevdalanması üzə çıxdı. 50 yaşlı ağa 14 yaşlı 6-cı eşilə birlikdə 17 yaşlı kürd oğlanın başını kəsdirir. Ağa gənc xanımının başını kəsdirəndən sonra dəliyə dönür. Bir gecə köydə dörd ev alovlar içində tonqala çevrildi. Kürd oğlandan qalan hərkəs cığır-cığır yandı. Oğlanın iki uşağı, eşi, ata-anası, iki bacısıyla ərləri, uşaqları bu cinayətin qurbanı oldular! Ağanın hirsi dinlənmək bilmirdi. Bir neçə gün sonra iki kürd çoban ilə birlikdə bütün sürü tanınmayan şəxslər tərəfindən qurşuna düzüldü. Qatil və ya qatillər lur xanı və jandamalar tərəfindən aranılır! O acı olaylardan sonra bölgədə yaşayan bütün kürd dilli ailələr canlarını götürüb qaçdılar! Ağanın və jandarmanın dediklərinə görə, olaydan iki il öncə iş bulmaq üçün Kirmanşaha köçmuş kürd oğlanın iki qardaşı suçlu olaraq axtarılır. Beş ildir ki, bu iki qardaşdan xəbər-ətər yoxdu! Ağa, islamiyyətin qisas qanunlarına görə, o iki qardaşın qanını halal elan edib! Bu olaydan sonra, kürd ailələrilə yaxınlığı olan beş-altı Lək ailəsi də bölgəni tərk etməli oldular. Maşallahxanın anlatdığına görə, Bədi Abadda iynə ucu boyda bərəkət və nemət qalmamışdı. Bura ölü tozu qonmuş bir xarabalıqdır! Onun dediyinə görə, üç gün bundan öncə, jandarma mərkəzindən sizin buraya gələcəyinizi mənə bildirdilər. İlk öncə kimsənin buraya*

*gələcəyinə inanmadım. On illərcə birinin buralara yol azdığını görmədim, belə! Bura lənətlənmiş bölgədir. Nəhavənddə belə, Bədiabadı tanıyan yoxdur! Kimsə buralardan torpaq almaz! Bütün torpaqların sənədi kənd ağasınındır. Kimsə buraya yaxın gəlməz! Amma siz burdasınız artıq! Kənd ağasını – Bərəkət Ağa-nın gəlməsini gözləməkdən başqa yolumuz yoxdur. Bərəkət Ağa, Xürrəm Abaddan alan 18 yaşlı eşindən bir uşaq atası olacaq. İndi, onu oraya götürübdür. O, atası evində uşağını doğmalı və ayaq bərkitməlidir. Bu isə, uşağın qırxına qədər uzun sürəcəkdir. Ağa özü isə, iki-uç gün doğumdan sonra dönəcəkdir. Mənim əlimdən bir iş gəlməz! Ağa dönməyincə, bu məsciddə qalacaqsınız. O, gələndən sonra sizin necə yaşamağınızı bəlli edəcəkdir".*

Əl-qolumuz bağlı idi. Üz-gözümüzdən pislik yağırdı. Barmaq boyda xarabalıq bir kəndin içində qapanıb qalmışdıq. Olqanın südü tamamən kəsilmişdi. Tərlan tez-tez acından bayğın düşürdü. Tam bir fəlakət yaşanırdı Tanrı Evində! Üçüncü gündən sonra kiflənmiş lavaşı belə, diləyirdik! Hansı qapıya üz tuturduqsa, üzümüzə bağlanırdı! Təkcə olumlu yönümüzü havanın keçmiş günlərə görə bir az ilımlı olması oluşdururdu. Nəhavənddə dedikləri çay qırağı sözü də yalan çıxmışdı. Bədi Abaddan Qamasiyab çayına getmək üçün yolun o tayına ayaq döyməyimiz gərək idi. Talesizliyimizə hər an bir şey artırdı! Cabbar əmi qan qusmağa başlamışdı. Onun bədənində heç güc qalmamışdı. Hər an düşüb, qalxmaya bilərdi. Olqa cılız canıyla ona güc verməyə çalışırdı:

- Olqa: Dayan Cabbar əmi! Bizim sənə ehtiyacımız var! Sən çox yaşayacaqsan! Sənin nə yaşın var ki? Bu günləri birlikdə atladacayıq. Bax! Haralardan gəldik! Bir-birimizə qol-qanad olduq. İndi də dayanmalıyıq. Səkinə ana sənə dava-dərman tapmaq üçün əlindən gələni edir. O, sənin üçün canını belə, verməyə hazırdır. Səni sevənləri sənsiz buraxma! Dayan əmi!
- Qızım! Bu gözəl sözlərinə görə sağol. Səni çox sevdim. Mənim heç qızım olmadı. Hətta uşağım belə! Mən, səni öz balam kimi sevirəm. Mən sizi tək buraxmayacağam! Bu xəstəliklərdən çox gördüm. Məni yıxacaq biri varsa, o da sizin qəminizdir. Sizi ruhlu görüncə bir sıxıntım olmaz! Bizim doğa qəhrəmanımız haralarda?
- Mən: Cabbar əmi, Kişixan əmilə Səkinə ana birlikdə gediblər. Çavuşlar da jandarmalardan yardım almaqdan ötürü gediblər. Umud edirəm ki, əli boş dönməzlər!
- Olqa qızım sənin bir şey yeməyin gərəkir. Nəyin var, nəyin yoxdursa da bu yetim balanın bəslənməsinə gedir. Doğrudur ki, hər kəsin durumu sənin kimidir. Bir işlər görməliyik. Bax, hər kəs yan-yana bayğın düşübdür. Tanrı özü qorusun bu milləti! Ancaq, ruhdan düşməyin uşaqlar! Bunların hamısı keçər. Bir gün əlbəttə ki, yenə Təbrizə dönərik! Su gələn arxa bir daha gələr! Siz ikiniz, bir də bu uşaq, sizlərə əmanət! Bir ayağa qalxarsam sizin işinizi bitirəcəyəm! Belə asılı qalmaq düz deyil. Bu namussuzların əlinə bəhanə verilməməlidir.

Cabbar əminin bu sözləri deyərkən gözləri dolmuş, səsi isə titrəyirdi. Bu da, onun ümidsizlik içində olduğunu göstərirdi. Onun səsi iki gün içində bütünlüklə batmışdır. O, çox inamsızlıqla bizə inam dərsi verirdi. Onsuz da bu savaşdan qalib çıxmamızın işıq ucu görünmürdü. Kimsə sabahın günəşli olacağına ümid etmir, axşam çağı ulduzların başımızın üstünədək enməsini gözləmirdi. Bizi göz görə-görə aclıqdan öldurməyə çalışırdılar. Üzərimizdə sanki ölüm büyüsü dolaşıb-dururdu! Hər an birimizin sonu çatacağı gözlənilirdi.

Dördüncü gün də bitmək üzrə idi. Səssizlik! Qorxunc və ölümcül səssizlik içimizi sarmışdır! Körpələr belə, səssizlik içində inləməyi seçmiş görünürdü! Tərlanın sızlı nəfəsi ara-sıra yüksələrək diqqətləri üzərinə çəkirdi. Hər kəsin qarşılıqlı solğun gülüşü son dərəcə acı görüntü sərgilirdi. Olqanın solğun yanaqlarında həyat izi görünmürdü. Tanrı Evi “qonaqlarını ağırlayırdı”! Hələ buna da şükür!

Uzaqdan Kişixan əmilə Səkinə ananın bir şeylər daşıdığını görüncə, onlara doğru qoşdum. Onlar ikisi də yorğun görünürdülər. Bəlli olan o idi ki, yürümək gücləri belə qalmamışdı. Onlara çatınca ayaqlanmağa başladılar.

- Salam, yorulmayın! Siz büsbütün ayaqdan düşmüsünüz. Biraz oturun yorğunluğunuz çıxsın.
- Səkinə ana: Yox oğlum oturmaq zamanı deyil. Bu gecə bir şeylər yeyilməsə, hamı qırılar! Sən gəl bu torbaları al! Allahdan biraz payız alması, heyva və göyərti toplamışıq. İnşallah bu torbalar milləti biraz aclıqdan qurtarar.

- Kişixan əmi: Oğlum odun toplanmalı! Səkinə ana aş pişirmək istəyir. Sən get, Maşallahxanı bul, ondan qazan al gətir! O özü, qab-qacağın olmasını demişdi.
- Olsun, əmi gedərəm. Öncə bunları daşıyım. Sonra dediklərini yaparam. Siz bunları hardan topladınız? Yolun bu tayında elə bir yer varmı?
- Hə, bu təpənin arxasında bir kiçik yaşıl vadi var. İyirmi-otuz ağacı, qanqal kolları, göyərti bitgisi vardır. Qanqal kolları dünyanın ən faydalı bitkisidir. Ana onlardan aş pişirməyi düşünür!

Dünyanın qızıl açarını daşıyıram kimi torbaları çiyinlərimə ataraq məscidə doğru qaçmağa başladım. Təpədən düşərkən Maşallahxanın ağ evi gözə dəyirdi. Tələm-tələsik torbaları Sara xanıma verib döndüm. Maşallahxanı, baxçasında gördüm. Kişixan əminin tapşırığını ona çatdırdım. O, mənim sözlərimi eşidəndən sonra, iki böyük qazanla birlikdə iki buxca quru çörək, bir mətirət yoğurd, bir bağlı pendir və göy qurutmasını eşşəyinin belinə yükləyib soruşdu:

- Sənin adın Cəvanşirdi, eləmi?
- Doğru. Mənim adımı hardan bilirsən?
- Biz, bundan sonra bir yerdə yaşayacayıq. Bir-birimizi tanımalıyıq. Sənin bir balan da var eləmi? Allah saxlasın. Adı nə?
- Adı Tərlandı farsca şahin quşu deməkdir. Maşallahxan bəy, bizim durumumuz nə zaman bəlli olacaq? Millətimiz qırılır. İçimizdə xəstə olanlar var. Ağsaqqalımız qan qusur. Hamı aclıqdan ölüm ayağındadır.

- Bilirəm oğlum! Amma əlimdən bir iş gəlmir. Mənim də əlim-qolum bağlıdır. Sizinlə bağlı əmrlər var. Onların bilmədiyini əməl etmək olmaz. Yoxsa başımız betər ağrıyar. Bərəkət ağa 2-3 günə gəlməlidir. Ümid edirəm ki, daha tez gələr. Sizə üzülürəm. Amma əlimdən gələn yalnız budur! Səni biraz öncə torba daşıyanda gördüm. Torbalarda nə var idi?
- Bilmirəm. Biraz alma, heyva və göyərti. İçimizdən bir ağbirçək, bir də Kişixan bəy onları yamacların arxasından toplamışlar.
- Gözəl! Mən də sizə lavaş, pendir və qatıq hazırlamışam.
- Biz dörd-beş gündür acıq. Hətta içməyə su belə, yox! Mənim xanımımın uşağa verəcək südü kəsilib artıq! Başqa uşaqlar da aclıqdan bayğın düşüblər. Kişixan bəy deyir ki, ömründə belə zülm görmədi. Mən hələ gəncəm. Amma böyüklərin dediyinə görə, bu büsbütün adam öldürməkdir!
- Mən sizə bir şeylər hazırlaram. Bu qatırı da sənə verirəm. Onunla işlərinizi biraz sahmana salın! Onu məscidin arxa tərəfində saxla! Bir yerə getməz. Mən sonra ona saman və quru yemək gətirərəm. Ac qalmaz. Yerdən saman-filan taplar yeyər.
- Allah səndən razı olsun, Maşallahxan ağa. Bir də məscidin ayaqyolu dolubdur. 35 nəfər oraya gedir. Ayaq yoluna su aparmağa da imkan yoxdur! Tək bir dəlik aftava var!
- Cəvanşir, biraz da dözün! Sizə ev lazımdır. Bərəkət Ağa gəlincə, bir şeylər düşünüləcək sözsüz! Siz hələ qarınızı duyurun. Mən gəlib sizə baş çəkərəm.

Mənim məscidə yetişməgim ilə, Səkinə ana və Kişixan əminin də yetişməsi eyni zamanda oldu. Onların gücü büsbütün tükənmişdi. Səkinə ananın məscidə yetər-yetməz yıxılması hər kəsi ayağa qaldırdı. Onun yerdə olarkən, özünü toparlama çabası inanılmaz idi. O, qanqalların soyulmasını, göyərtilərin yuyulub doğranmasını qadınlara tapışıraraq, məscidin bir küncünə çəkildi. Cansız-tavansız Səkinə ana hər kəsin hərəkətli olmasını istəyirdi.

Birazdan gərəkən odun, kol və çeşidli yanacaqlar məscidin arxa tərəfinə toplandı. Mənim gəlişimdən biraz sonra Maşallahxan bizə gəldi. O, özü ilə quyruq yağı, biraz qovurma əti, iki gorduş süd və bir şüşə bal gətirdi. Aclığımıza baxmayaraq, içimizdə toy-bayram havası əsməyə başladı. Səkinə ananın tapışırıqları hər kəsə xoş gəlirdi. O, öz deyimi, davranışı və çalışması ilə az zaman içində çox sevilməyə başlamışdı. Bu qəhrəman ananın böyük inadı, dirənişi içimizdə örnək olmuşdur. İki saat öncəki ölümcül ortamda yaşam umudi çiçəklənməyə başlamışdı. Artıq aclıqdan ölmə düşüncəsi, gözəl yemək qoxusu içindən yox olmuşdu! Baxmayaraq ki, aclığımız artmışdır. Ancaq aclığa qarşı inadımız daha da üstün idi. Zorla da olsa, hər kəsin üzündə sevinc çiçəyi pöhrənmişdi. Səkinə ananın ballı südü Cabbar əmiyə içdirməsi çox gözəl görünürdü. Onun Çabbar əmilə ilgilənməsi, dirənməkdə olan bir südəmər uşağa acı dərman içitməyə bənzəyirdi!

- Cabbar əmi: Ver analara, uşaqlara!
- Səkinə ana: Sən özün indi uşaqdan bətər uşaqsan! Birazdan aş bişir. Onu da səssizcə içəcəksən. Doğru-düzgün düzəlib

ayağa qalxacaqsan! Sənə çox ehtiyacımız var! Etiraz istəmirəm!

Bu davranış ananın çox cəsarətli olmasının bir örnəyi idi. Quyruqlu-ətli aş güclü ocaq üstündə pıkır-pıkır qaynayırdı. Aşın qoxusu bütün çevrəni sarmışdır. Uzaqdan bizi izləyən ev sahibləri gözə dəyirdi. Biz, nə qədər istəsək də onlara yaxın dura bilmirdik. Bu dörd gündə onlardan biri də, bizə yaxın gəlməmişdir. Hətta Səkinə ananın bütün çabaları boşa çıxmışdır. Ancaq, indi aşın qoxusuna gələnlər var idi. Biz, hətta onların nə dildə danışdığını belə, bilmirdik. Maşallahxanın dediyinə görə, bu kəndin qalib dilini Lək dili oluşdurur. Ancaq lək dilinin nə olduğunu bilmirdim. Səkinə ana sadəcə türkcə danışırdı. Mənim kimi bir neçə insan də biraz farsca bilirdik. Mən Maşallahxan ilə farsca danışırdım. Biz ikimiz də fars danışmaqda çətinlik çəkirdik. Ancaq bir-birimizi başa düşürdük.

Aş bişmişdi! Ancaq onun necə yiyəcəyini bilmirdik. Əlimizdə iki böyük taxta qaşıqdan başqa nəsnə yox idi. 30-dan artıq ac adamın qarşısında iki qazan odla bişmiş dağ aşın buxar qoxusu hamını çevrəsinə çəkmişdi. Bu durumda yenə dağ-daş adamı – Kişixan əminin qurtuluşçu zehni yolbaylıq etdi. O, soyulmuş qanqalların qabıqlarını toplayaraq məni çağırdı:

- Cəvanşir soyulmuş qanqalların qabıqlarını mənə gətirin!

O, özü ilə yığdığı qabıqları odun yanına apardı. Cibindəki bicağını daşa sürtərək itiltdi. Daha enli qanqal qabıqları od üstünə tutaraq isindirməyə başladı. Qanqal qabıqları quruduqca yuvarlaq forma almağa başladı. O, qabıqların daha da quruması

üçün hərkəsi iş başına çəkirdi. Artıq hərkəsin əlində bir qanqal qabığı var idi. Kişixan əmi bu işilə aşın soyumasına da fürsət qazandırdı.

Biraz aralı iki yaşlı qadının əllərində qablarla bizə yaxınlaşması marağımızı çəkdi:

- Kişixan əmi: Deyəsən bunların bizdən olan qorxusu yavaş-yavaş azalır! Qoy gəlsinlər!
- Bizə yardıma gəlirlər əmi, diyəsən! Bizə qab gətirirlər.
- Yox oğlum! Onlar bizdən də acdırlar! Bizdən umacaqları var! Özümüz yemədən onların payını verməliyik, deyəsən! Səkinə anaya de ki qonaqların var!
- Amma əmi.......
- Amma-mamma yoxdur. Yaşamı paylaşmaq gərək! Bu gecə hamı doyacaqdır. Yarına baxacayıq! Bundan sonra ac qalmaq yox! Bundan sonra bu kəndin yerlilərinə belə yaşamağı öyrətməliyik. Bunlar bizdən daha da yazıqdırlar. Dörd gündür bizdən qaçanların bizə gəlməsinin nədəni ehtiyacdır. Biz buna göz yuma bilmərik! Biz Türkük! Çalışar yaşar, yaşar yaşadarıq! Bunu unutma gözəl oğlum! İndi Səkinə anaya xəbər ver! Ac qonaqlara maraqsız qalmasın. Olabilsin ki, onların yaxınlaşma üzləri olmasın. Ana özü onlara sarı getsin!

Səkinə ana, qablarını dolduraraq, yerli qarıları yola saldı. Kişixan əminin qanqal qabıqlarından düzətdiyi qaşıqlar gərçəkdən işimizə yaradı. Od istisilə sərtləşərək qaşıq forması almış qanqal qabıqları ilə aş içmək çox keyfli idi. Çünki,

Kişixan əminin qaşıqlarının ağzı açıq idi. Bu isə, içimizdə gülməli hallara nədən olurdu. Belə ki, aş qazanından çömçələnən hər bir qaşığın yarısı dönür qazana tökülür, qalanı isə ağız yolu ilə paltarlar arasında paylaşılırdı. Bu isə, aclığı yenən bizlər üçün əyləncəyə çevrilirdi! O gecə, bir toplum örnəyi olaraq, ölümdən yaşama dönməyi bacarmış olduq! Ömrümdə belə bir dadlı gecə və yemək görməmişdim! Qanqal südü, qoyun əti və quyruq piyinin bir araya gəlməsilə sürgünümüzün ilk qələbəsini əldə etmişdik. O gecədən aldığımız dərsi hələ də unutmadım. Səkinə ananın birbaşa öndərliyində "yaşamaq üçün direniş fəlsəfəsi"ni sözdə deyil, əməldə göstərən bizlərin ruh durumu çox yüksəlmişdi. Kişixan əminin " *bundan sonra yerli qarı-qocanın da qarnının doyurması bizdən yanadır"* anlamının gözəlliyini indi qanırdım! O, bu sözü ilə Azərbaycan türklüyünün paylaşım gələnəyini sərgiləmiş oldu! Onun *"ilk öncə bizdən umanlarla paylaş, sonra özünlə!"* sözü indi də qulağımın sırğasıdır.

Cabbar əminin qan qusmasının dayanması hamını sevindirdi. O, öz əlilə ilk kəz körpə Tərlana aş suyu dadızdırdı. Tərlan ilk olaraq dililə aşı qaytarsa da, sonunda qafiləyə qoşuldu. Səkinə ananın tapşırığı ilə Maşallahxanın evindən gələn lavaşlar saxlanıldı. O məni yanına çağıraraq dedi:

- Cəvanşir, bu lavaşları sabaha saxla! Bu gecə üçün bu aş yetər. Hamının qarnı boşdur. Nə versən yeyib sancılanacaqlar. Mədələrimizi zorlamamaq gərək! Həm də, sabah səhəri düşünməliyik. Olqa və Sara qızlarıma de ki, yarpaqları qurutmaq üçün ocağın yanında bir daş üstünə

sərsinlər. Nə qədər quruyarsa, bir o qədər işimizə gələr. Mən, Cabbar əmiyə və Sona xanıma da bir baş vurmalıyam. Onların halı yaxşı deyil! Bir də, məscidin mətbəxində başqa çaydan varsa, götür gəl balam!

Səkinə ananın beynini oxumaq olmurdu. O, tam-tamına gerçək bir elqəmi idi. Bu gün səhər dan açarkən Kişixan əmilə birlikdə dağa-daşa vuraraq elini aclıqdan qurtaran Səkinə ananın adı qısalaraq, sadəcə, "Ana"ya çevrildi. Artıq Ana səslənildə Səkinə ana anlaşırdı. Hər kəsin ona olan sevgisi və onun da Cabbar əmiyə artan bağlılığı sürgün ailəmizin içində başlayan yeni söz qonusu olmuşdur. Kişixan əmiyə gəlincə, sadəliyi, igidliği və tək anlamda qurtuluşçuluğu ilə toplum içində tanınmışdı. O, gərçək bir Türk insanı örnəyi olmuşdur.

Yağmur damcılarının uslu-uslu məscidin pəncərəsinə qonmasıyla dumanlı yuxum yox oldu. Hər kəsin yatdığını görüncə, işlərin yerində olmasını düşünürdüm. Bu, Bədiabad kəndində oyandığımız beşinci, bəlkə də yaşam iradəsilə ayaqlandığımızın ilk səhəri idi. Toplu yataq qaydasına görə, qadın-uşaqlar bir yanda, kişilərsə məscidin başqa küncündə yatırdıq. Kimsəni rahatsız etməyim deyə, yerdən qalxaraq özümə və yerimə çəki-düzən vermədən bayır qapısının yolunu tutdum. İki addım atmamışdım ki, Olqanın işarəsini duydum. O, gülümsəyərək, diləklərini mənə yetirməyi unutmadı! Mən isə, qarşılıqlıq verərək əl işarəsilə bayıra gedirəm deyincə, o Tərlanın yatmış halını mənə göstərdi.

Göy üzü, yağışın çiləməsilə yanaşı yarım açıq, yarım tutqun bir teatr səhnəsi kimi gülər-ağlar hallara qalırdı. Uzaq dan yerindən sıçrayan cansız ala-açıq qızılın üzüşməsindən doğan göyqurşağı az qala başıma qonacaq kimi görünürdü. Ancaq, bu diləyim təbiətin ortaya qoyduğu sıx-sıx şaka üzündən pozulurdu. Dan yerinin gah gülər yanağı, gah da bulud yaşmağı süzgün alaçığa bənzəyirdi. Bizdən biraz uzaqda bir neçə xoruzun ban səsi yatmış kəndin yorğunlarına *“bir səhəriniz daha doğdu!”* sevincini yaşadırdı! Məscidin qarşısında dimdik ayaqda duran qoca çinarın lümlüt bir budağından damla-damla damcılanan inciləri süngü kimi islaq torpağın ürəyinə sancaqlanırdı! Və bunlar hamısı bir umacağın dərin mənliyi kimi içimə sarmaşırdı! Uzun günlərdən sonra, Olqanın sevimli gülüşü, dan yerinin al-açıq ərməğanı, ban səsinin hələ də səslənməsi, yaşmaqlı dumanın hər an ağlaya bilməsi, ümidin ölümsüzlüyünü göstərirdi!

Yağmurun çoxalmasıyla dün axşamdan yanıq saxladığımız ocağın durumu ilgimi çəkdi. Ocağın yerləşdiyi arxa həyətə getdim. Ocağın yanında daş üstünə sərilmiş yarpaqlardan iz-toz qalmamışdı. Sona ana mətbəxin girişində bir işlər görürdü.

- Salam Sona xala, gün aydın!
- Günün və aqibətin aydın oğlum. Erkənçisən? Nə işin var səhərin təpəsində?
- Xala, sən də tez durmusan! Dünən halını heç xoş görmədim. Deyəsən bir az babatsiniz!
- Hə oğlum, bizdən artıq geçib!

Bir gün beləsi, bir gün eləsi, hardan tutarsan bu ömür gedəsi! Siz neynədiz? Özünüzdən de? Oğlum bu işləri çox yubatmazlar! O qıza yazıq olar!
- Sona xala bura gələndən aclıqla uğraşırıq. Gördüyün kimi bir nəfərdən başqasını görmürük! O da bizdən beşbətər!
- Doğrudur oğlum! Amma bu işi biran bitirmək gərək. İnsanların ağzı darvazadan yekədir! Burda olmadı böyük kəndə gedin! Oranın mütləq bir mollası vardır! Mən Cabbar əmiyə deyərəm. O yazığın da dərdi burada üzə vurdu! Siz cavanların başını bağlamaq gərəkdir!

Sona xala danışa-danışa bəlli olan daş üstündən topladığı yarpaqları əli ilə doğram-doğram edir mətbəxdə yerləşən kiçik bir pilətənin üstündəki tavada tovlayırdı. O, bu işi çox təmiz edirdi. Qurumuş yarpaqların üzərindən qalxan inanılmaz gözəl qoxu, məni az qala məftun edirdi. Mən yarpaqların nə olduğunu hələ bilmirdim. Dünən Səkinə ananın yarpaqların haqqında saxladığı gizlilər, bu gün də Sona ana tərəfindən gizli tutulurdu! O, bu haqda heç bir söz danışmaq istəmirdi. Sanki bu iki ağbirçək ana və xalanın bizi çaşdıracaq eyləmləri olacaqmış! Sözsüz ki, dünyanın isti-soyuğunu çəkmiş bu böyüklərimizin arzusu ruh yüksəlişi yaratmaq idi.

- Cəvanşir oğlum, indi ki ayıqsan ocağa bax! Qoyma sönsün! Birazdan qaynar su gərək olacaq.
- Baş üstə xala. Həmən məşğul olaram.

Dünəndən saxladığımız cör-cöplərin hamısını ocağın altında yerləşdirdikdən sonra məscidin mətbəxindən kiçik bir neft

çəlləyini götürdüm. Bu məscid bir yetim evindən belə, kasıb idi. Üç-dörd çinqo bardaq, saxsı qab-qacaq, iki çaynik, iki zavallı qazan və bir də altında barmaq boyda dəliyi ilə dəmir aftava Bədiabadın biricik əziz Tanrı evinin saya gələn bütün varlığı idi. Lakin, həyətin arasında yerləşən çat-çat açılmış yuvarlaq bir hovuzun başında fil xortumuna bənzər su tulumbası özünü göstərirdi. Bu su tulumbası bir işarətlə çevrəsində sel yola salırdı! Bizi sevindirən təkcə varlıqda bu idi. Baxmayaraq ki, suyun hər çəkilişində çox qəliz boğuntu qoxusu içilməz olduğunu göstərirdi.

Səkinə ananın yarpaqlarından düzələn çayın dadı və rəngi başqa olsa da, bir çoxlarımızı məmnun edirdi. O, səhər hamının kefi yerində görünürdü. Birinci kərə olaraq, topluca kəndin küçə-bacasına getdik. Kəndin yerlilərinin bizə yaxınlaşması sevindirici idi. Özəlliklə yaşlıların bir-birilə salamlaşması xoş hal idi. Demək olar ki, o gün kənd əhalisi evlərindən bayıra çıxaraq bizimlə salamlaşmağa özən göstərmiş oldular. 10-15 azyaşlı uşaq, 10-15 gənc qız, gəlin, 5-6 gənc oğlan, qalanı isə qırx-yetmişlərin arasında Bədiabadlın yerlilərini oluşdururdu. Mən, Olqa, Sona xala, Səkinə ana birlikdə addımlayırdıq. Böyüklərin tapşırığı ilə Tərlan mənimlə Olqanın arasında yer dəyişdirirdi. O gün, bizim üçün bir açılış günü oldu. Axşam radələrində bir qatır yükü ilə birlikdə Bayramı və Dərvişlu bəylər də bizə qoşuldular. Süd, pendir, un, kərə, iki südlü ana qoyunla iki bala quzu, iki şəqqə ət, işlənmiş və köhnə qab-qacaq çavuşların jandarma mərkəzindən gətirdiği sovqat idi.

Beşinci gün də bitmişdi, ancaq gözlədiyimiz Bərəkət Ağadan hər hansı xəbər-ətər yox idi. O axşam, Bayramı və Cabbar bəylərin ilk kəz ikili görüşünü gördüm! Neftin bitməsilə 6 lampa çırağından, sadəcə üçünün işığında toplaşan sürgündaşların önəmli ikisinin bizdən aralı dərin danışıqları marağımı çəkirdi! Bundan öncəki ordu uniformasıyla indiki Bayramı bəyin arasında çox böyük dəyişiklik görünürdü. O, indi daha çox özgür, cana yatım və içdən birisi olmuşdur. Yol boyunca Cabbar əmilə Bayramı bəyin arasında ortaq gizliliyi anlasam da, indi daha arxayın olmuşdum.

- Səkinə ana: Sara qızım, bu uşaqları yuyundurmaq gərək. Allah eləməsin başlarına bit-mit düşər ha!
- Sara bacı: Doğrudu Ana! Amma necə?
- Qızım sabah bunu düşünərik. İlk öncə lampa yağı tapmalıyıq. Oğlum Cəvanşir sabah bizə neft lazimdir. Bir iş görə bilərsən, yoxsa odun yığıb ocaq qalayaq?
- Ana, məncə də odun toplamalıyıq. Səhər tezdən bu işi görərik.
- Olqa: Sona ana Tərlana baxarsa, mən də Cəvanşirlə çölə gedərəm.
- Sona xala: Baxaram qızım, baxaram arxayın ol!
- Sara bacı: Mən də baxaram Olqacan!
- Ayğül və Babək /birlikdə/: Biz Tərlana baxarıq xanbacı Olqa!

İçimizdə səssizcə içinə qapanmış 35-40 yaşlarında yumuru üz və qara gözlü bir ilgisiz xanım var idi. İlk olaraq Sara bacı onu tanış edəndə dil-dodağını çeynədi:

- Elmira bacımızın dava-dərmandan başı çıxır! Başqa ölkədə oxuyub deyəsən...! Dokturluk bilir! Bizdən birisidir. Kimin dərdi olarsa Elmira bacımıza deyə bilər. Elə deyil bacı?
- Elmira: Salam, mənim adım Elmiradır. Urmudanam, Bakıda eyitim almışam! Təbrizdə tutulub indi sizinlə burdayam! Özümlə bir azacıq tibbi vəsaitim var. Sabahdan sizlərin sağlamlığına baxacağam. Hələlik kəndin əhalisinə bildirməyin. Bu söz yuxarıların qulağına çatarsa, məni buralardan apararlar! İçimizdən başqası mənim kim olduğumu bilməsin lütfən!

Elmira xanım iki gündən sonra Olqanın durumuna baxdı. Olqa iki gün yerindən qalxa bilmədi. Elmira xanımın yanında biraz ağrıkəsici var idi. Olqadan çox qan getsə də, bu utancdan qurtuldu. Bunu bir mən, bir Səkinə xala, bir də Cabbar əmi bildik! Amma, əslində sonralar bildim ki, bu işin əsas başında duran adam Bayramı bəy olmuşdu!

Bədi Abad kəndinə gələli on gün olmuşdu. Bir təhər başımızı saxlayırdıq. Yerlilərlə ülfətimiz artmışdır. Buna baxmayaraq, bir çox hallarda qarşılıqlı anlaşmada problemlər yaşanırdı. Çünki, yerlilərin dililə dilimiz arasında böyük fərq var idi. Bir-iki ailə türkcə danışırdı. Bəzən onları da anlamaq çətin olurdu. Ancaq biraz diqqət verəndən sonra başa düşmək olurdu. Kəndin çoxu ləkdilli ailələrdən oluşmuşdu. Lək dililə Türk dili arasında heç bənzərlik yox idi. Hətta lək dili fars dilinə belə, bənzəmirdi. Bu isə, aramızda olan ən böyük problem idi. Olqanın kürtaj macərasından sonraki durumu böyük ölçüdə dəyişmişdi. Doktor Elmiranın tibbi əmrləri hamı tərəfindən bəyənilirdi. Bir böyük

ailə kimi çiyin-çiyinə vermişdik. Ancaq hələ də, kəndin ağasından xəbər-ətər yox idi. Kişixan əminin sözlərinə görə, Bərəkətağanın necə adam olmasını görəndən sonra Olqa ilə evlənmə işlərinə başlamaq gərək idi. Kişixan əmi bu düşüncəsinə belə açıqlıq gətirdi:

- Siz ikiniz də mənim balalarımsınız. İkiniz də tərbiyəli uşaqsınız. Hər kəs tərəfindən sevilirsiniz! Siz bir-birinizə çox yaraşırsınız. Sizə ev gərəkdir. Ən azından, başınızı qoyacaq bir quş yuvası! Elə deyilmi? Sizi utandırmağa bizim haqqımız yox ! Bu kişi gəlsin görək başımıza nə gəlir!

Kişixan əminin sözləri qarşısında deyəcək sözümüz yox idi! Mən bir anlıq Olqanın üzünə baxdım. Yanaqları qızarmışdı. Gözlərilə Kişixan əmi ilə razı olduğunu bəlli edirdi. Nə olub-olmayacağı bəlli deyildir. Bəlli olan, sadəcə bizim ikimizin arasında dilə-dişə düşən sevginin böyüməsi idi. Artıq, hər kəs bizə qopmaz sevgilər kimi baxır, qovuşmamız üçün dua edirdilər. Ömrümdə ilk kəz olaraq sanki içimizdə bir mollanın boşluğunu duyurdum. Uşaqkən anama boz-boz baxdığına görə, nifrət etdiyim "Mirzə Lətif Ağa"nın indi burda olmasını diləyirdim! O, məhəlləmizin baş mollası sayılırdı. Bütün yasda-toyda süfrənin başında əyləşərdi. Mərsiyələrdə görüb bəyəndiyi dul qadınları öz adına siğə edərdi! Atamın dediyinə görə, 4 rəsmi, saysızca siğə qadını var idi. Bütün məhəllə onun çox şorgöz olduğunu bilirdi. Buna baxmayaraq, onun imzası və möhürü olmadan iki gənc bir-birilə evlənə bilməzdi. Milli Hakimiyyətimizin iş başına gəlməsilə mollalar evlərinə çəkilsələr də, yenə toyda-yasda millətin süfrəsi başından əskik

olmadılar. Zindanda mənə işgəncə verənlərin birisi axund geyimli idi. Bütün bunlara tərs gələn məqam isə, indi onu öz yanımızda dilədiyim idi!

☆ ☆ ☆

**Sonunda ağa Bərəkət Ağa kəndə buyurdu!**

On dördüncü günün axşamında ilk kəz olaraq zurna-təbil səsi kəndi bürüdü. Mən uşaq ikən qonaq olduğumuz Qaradağın Coşun kəndində buna bənzər səsləri eşitmişdim. 7-8 yaşlarındaykən anamın qardaşı oğlunun gəlin gətirməsinə getmişdik. Anam Şamlu tayfasındsan idi. Sonralar onun Qızılbaş olduğunu öyrəndim. Mənim üçün çox qərib gəlirdi. Bir gün bunu anamdan soruşduğumda gözləri parladı:

- Ana "Qızılbaş" nə deməkdir. Sən nədən Qızılbaşsan? Bildiyim qədərilə Şah İsmayilin qoşununa Qızılbaşlar deyərmişlər.
- Oğlum Cəvanşir, Qızılbaşların hardan gəldiyini mən də bilmirəm. Bizim Şamlu tayfasında bir çox Goran səslənilən elatımız vardır. Hamısı da türkcə danışırlar. Bizim də Goran olduğumuzu deyənlər vardır. Ancaq, atamın dediyinə görə, bu ad qondarma və yalnışdır. Atam deyərdi ki, *"Goranlar həman Yarsanlardır. Amma, biz Yarsan deyil, Türk Qızılbaşlarıyıq. Təbrizlilərin bizə Goran dedikləri yalnışdır!"* Biz Həzrət Əlini çox sevərik. Onu öz seyidimiz, ağamız və mövlamız bilərik. O, Tanrının ən əziz bəndəsidir. Hər şey onun sevgisilə başlarsa Tanrı izinə yüksələr! "Ya

Əli" deyən dildə acı olmaz! Şəfqət olar, barış olar, insanlıq olar, Tanrı ilə insan arasında uzaqlıq olmaz! Mən də Şamlu tayfasında göz açdığıma görə belə gördüm, belə düşündüm. Biz də, şiələr kimi imamları sevərik. Biz də, müsəlmanıq. Ancaq, Tanrıyla bizim aramızda təkcə ürəyimiz və görünməz iç işığımız var. Biz, kimsənin gizli içimizə girməsini istəmərik Tanrıdan sonra! Bizim mövlamız da bunu deyir. Ancaq, sən bu sözləri orada-burada danışma! Başını ağrıtma!

- Bəs onda mən də Qızılbaşam?
- Oğlum, biraz böyü düşün, sonra özün yolunu seç! Mən, sənin atanın evinə bir Qızılbaş deyil, bir müsülman olaraq gəlmişəm. Məni sevirsənsə, bu söhbəti burda bağla! Atan savadlı, açıqgörüşlü bir insandır. Amma, atanın çevrəsində bir sürü fanatik dinçilər var. Bunu unutma, onlardan ziyan gələ bilər!"

Bədiabad kəndini zurna-təbil səsi bürümüşdür. Biz də, hər kəs kimi bu səsi izləyərək, kəndin caddə tərəfinə yollandıq. Yaşlı bəylərimiz bizimlə gəlmədilər. Cabbar əminin mədəsi yenə qanamışdı. Kişixan əmi və Başçavuş da onun yanında qalmışdılar. Bərəkət ağanın qarşısında hərəkət edən beş-altı kişi göründü. Biz, uzaqdan qarşılama və əl öpmə törənini görürdük. 14 gün boyunca gözümüzdə devləşən, ağalaşan Bərəkət ağanın izləri göründü. Çox çətin olsa da, heykəllər arasında gizlənmiş yumru bir adamı görə bildik. Qısa boylu, şışqo qarınlı, ağ geyimilə qara şapqalı Bərəkət ağa artıq qarşımızda idi. O, biraz yaxınlaşarkən gözü bizə sataşdı. Bir neçə an geçməmişdir ki, Maşallahxan əlilə bizi yaxınlaşmağa çağırdı.

Bərəkət ağanın sınıq farscasından farsdilli olmaması bəlli olurdu. Təbrizdən buraya gəldiyimiz, dayandığımız, gördüyümüz insanların içində üç-dörd kişidən başqa kimsənin farsca bilməsini görmədik. Məncə, dünyada İran kimi əhalisinin rəsmi dövlət dilini bilməyən ikinci ölkə yox idi! Bəlkə də bizdən də qarabəxtli vardır, amma bizim bilgimiz yoxdur. Bərəkətağanın dediklərini biraz başa düşsəm də, taman anlaya bilmirdim. Bu yaşa qədər, belə pis farsca danışıq eşitməmişdim. Buna baxmayaraq, o, özünün yaxşı farsca danışdığını düşünürdü. Bu üzdən fəqrinə varmadan, anlaşılmaz sözcükləri üzərimizə tokürdü.

15-ci günün sabahında beş nəfərlə kənd ağasının evinə getdik. Maşallahxanla birlikdə Ağanın birinci eşi Xatunxanum, ikinci eşi Çavcivan (türkcə Gözəlgöz deməkdir) xanım, bir neçə uşaq və iki nökər də gözə dəyirdi. Bizi Ağanın olduğu tənəbiyə götürdülər. Tənəbi başa-baş Türkmən naxışlı söykəncələrlə bəzənmişdir. Bərəkətağa otağın yuxarı başında oturmuşdu. Bizim girişimizlə "buyurun, xoş gəlmisiniz" deyərək mübarək yanını qaldırmış kimi oldu:

- Sizin gəlişiniz mübarək günə rastladı! Düz on beş gün öncə Əjdərxan dünyaya gəldi. Siz çox şanslısınız ki, belə bir qutsal gündə mənim kəndimə gəlmisiniz. Ağalara qarşı itaət vacibdir! İnşallah ki, bunu hamınız bilirsiniz! Mən sizin bundan sonrakı yaşamınıza hökm edəcəyəm. Bura çox kiçik bir kənddir. Hər kəsin nə etdiyi bəlli olar. Mənim hər yerdə gözüm-qulağım var! Əmr verdim ki, aşağı başda olan tövləni bölüb sizlərə ev tiksinlər. Hamı evlərin tikintisində ortaqlıq

edəcəkdir. Jandarmanın bildirdiyinə görə, 38 nəfərsiniz. Beş ailə və qalanı təkbaşına yaşayırsınız. Tək kişilər üçün bir odalı, qalanlara da iki oda veriləcək. Sabah “Baba Qasıma” gedəcəyəm. Oradan bir usta bənnanın, iki fəhlənin buraya gəlməsini əmr edəcəyəm. Siz də, onlara yardım edəcəksiniz. Yaxında qışın ağır günləri var. Buraların qışı çox sərt olur. Sizlərə Jandarmadan isti paltar, yorğan və yemək-içmək gələcəkdir. Qışdan sonra özünüz əkib, özünüz biçəcəksiniz. Burada qışın gəlməsilə yollar bağlayar. Yolların açılmasıyla ayda bir kərə Nəhavəndə və həftə sonlarında Baba Qasıma gedə biləcəksiniz. Baba Qasımda bir həkim var. Uşaqlara və kişilərə baxar. Qadınlara görə, həkim yoxdur. Qadınlar öz başlarının çarəsinə baxmalıdırlar. Təbrizdə necə olduğunu bilmirəm, amma buralarda naməhrəmin əli namusa dəyməz! Sizin diriniz və ölünüz mənə əmanətdir. Jandarmalardan başqa bölgənin canavarları da vardır! Bir də, mənim iki baş qulum var. Qənbər və İlyas! Onların bir tokatı on Berno tüfəngi qədər ölümcüldür!

Kənd ağasının çənə düşüklüyündən hamımız yorulmuşduq. Sözlərinin anlaşılmazlığı bir yandan, başqa yandan isə aşağılayıcı tutumu az qalsın əlimizə iş verəcək idi. Kişixan əminin Başçavuşa baxışıları və qarşılıqlı olaraq yanıt alması, durumun qırmızı cizgi üzərində olmasını göstərirdi. Ancaq bizimlə olan iki ağsaqqalımızın kənd ağasının “tələsi”nə düşməyəcək qədər təcrübələri var idi. Sonunda Bərəkətağanın nıtqı kəsildi! Daha deyəcək bir sözü qalmamışdır. Kimsəyə də söz söyləmək izni vermədi.

Çavuş Dərvişlunun soyuqqanlılığı aramızda örnək idi. O, bütün olayları içinə çəkir və az bir zaman üzə verirdi. Bir anlamda sakit, içgüdülü, soyuqqanlı bir adamın necə olduğunu onda görmək olurdu! Ancaq kənd ağasının belə davranışından onun da qanı qaralmışdır. O, gecə boyunca nə yedi, nə içdi! Gecə sonuna doğru birlikdə ocaq başında oturmuşduq. Bir söz demədən qara-qara düşündü! Düşündü və gözləri doldu! Mən özümdən biraz yaşlı olan keçmiş çavuşun durumunu belə görməmişdim. Sanki, artıq partlama zamanı gəlimişdir. Onun kimliyini bilmirdim. Özü də gizli qalmasını istəyirdi. Gözlərindən od püskürürdü. Bunca səssiz-sədasız, qupquru bir gənc çavuşun bu ölçüdə partlama sınırına gəlməsinin nədəni, yalnızca kənd ağasının aşağılayıcı sözləri deyildi. Biz, yol boyu bu alçaltmaları çox yaşadıq. Biz dediyimdə, gənc çavuşu da gözə alıram. Mən, son bir ildə, sevinən və sonra kədərdən özünü öldürənləri də gördüm. Bir illik bulantılı yaşamda, hirsi bağırını kəsənləri gördüm! Tüfəngini bağrına basıb, hönkür-hönkür ağlayanları gördüm. Uşağını son kəz bağrına basıb torpağını öpənləri gördüm. Öz baş komandanına küfr püskürənləri gördüm. Hətta əsəbindən yarağını yerə çırparaq tikə-parça edənləri belə gördüm. Ancaq, beləsini görmədim. Dərvişlu intiqam küpü olmuşdu! O, hətta bizə qarşı da sərtləşmişdi. Bəlli ki, onun dərdi Bərəkətağa dərdindən çox-çox dərin idi.

Kəndin aşağı çaprazında yerləşən köhnə bir tövləni bizim yaşamımız üçün seçmişdirlər. Bərəkətağanın gətirdiyi "Usta Müslüm"lə birlikdə iki bənna işçısı, habelə bizlərdən əli iş tutan hər kəs tövləni evlərə çevirmək üçün işləyirdik. Səhər tezdən

axşamacan və hətta gec saatlara doğru işdən əl üzmürdük. Qarşımızda sərt qış var idi. Bir an öncə bu ev işi bitməliydi. Sevgi, yaşam, gələcək, nifrət, öngörü yalnız evin bir an bitməsilə anlam daşıyırdı. Artıq bir aydır məsciddə yaşayırdıq. Artıq, kimsənin gizli bir yönü qalmamışdır. Bütün var-yoxunu uduzmuş çoxsaylı, yazıq bir ailəyə bənzəyirdik. Aramızda utanmaq, gizli-saxlı, özgüdü və ayrımcılıq qalmamışdı. Çörəyimizi daşdan çıxarırdıq. Əlimizə nə gəlirsə yeyirdik. Diri qalmaq üçün amansızcasına dirənirdik. Hər gün tabdan düşsək də, yaşam hirsimiz artırdı! İlk günlər kimi olumsuzluqlara qarşı çətinlik çəkmirdik. Səkinə ananın sarsılmaz inadına qarşı bütün çətinliklər ortadan qalxırdı. O, Firqənin bir çox liderlərindən daha böyük rəhbər idi! Hər kəsin iç kədərlərini baxışlarından anlayırdı! Mən həyatımda Səkinə ana kimi birisini görmədim! Onun sayəsində bir ailə olmuşduq. Ölümsüz və sarsılmaz bir ailə! Ev tikmə işində də Səkinə ana bütün olmazları olumlu duruma çevirmişdir. O, hər gün səhər altıdan hamını ev tikmə cihadına çağırırdı:

- Bilirəm yorğunsunuz, bilirəm acsınız, bilirəm üşüyürsünüz! Bunlara son vermək üçün tələsin əziz balalarım. Bu kafirlərin amacı bizi diri-diri basdırmaqdır. İnşallah onları özümüzdən öncə göməriz! Biz Türkük! Bunlar bizim kürəyimizi yerə gətirə bilməzlər! Əl-ələ verərək bütün olumsuzluqları yenəcəyik. Haydı mənim əzizlərim, çalışmaq zamanıdır!

O, hamıdan öncə durur, Sona ananın və qadınların yardımıyla əldə olan imkanlardan yemək bəlləsi hazırlayır və bizim aramızda paylayırdı.

Tövlənin balaca evlərə çevirmə işi durmadan sürür, sürdükcə isə həyəcanımız artırdı. Artıq, başımızı soxa biləcək bir dördgenimizin xəyal olmadığını anlayırdıq. Jandarma və qonşu kəndlərdən köhnəlmiş yorğan döşək məscidin arxa odasına toplanılmışdır. Bu yöndə Maşallahxanın böyük əməyi olmuşdu. O, kənd-kənd gəzərək bizə yaşam məlzəməsi toplamışdı. Onun Bərəkətağadan fərqli davranışları aramızda çox bəyənilirdi. Maşallahxan bir anlamlı olaraq dostumuz olmuşdu. Bizimlə oturur, yeyir, əlindən gələni əsirgəmirdi. Onun yardımları bizim diri qalmamızda böyük rol oynayırdı. O, bizim candan maya qoyduğumuzu görüncə həyəcanlanırdı. Hətta Baba Qasım kəndindən iki qatır ağ gəc yükü gətirərək otaqların içini boyatdırdı. Tövlənin evə çevrilməsi iki həftə sürdü. İki həftə ərzində biz bir dəri-sümük qaldıq. İki təndirli bir böyük mətbəx, on iki altı metrəlik oda, bayırda bir anbar, bir kiçik tövlə, iki qazma ayaq yolu bir də cığır su arxı bizim yaşayış yerimizi oluşdurdu. Hamı sevinirdi. Artıq yaşamaq üçün evimiz var idi. Odaların hər birində bir lampa çırağı kədxudanın evindən gəldi. Məsciddə geçirdiyimiz son gecə yeni yaşamın düzəni haqqında toplantıya çevrildi. Hər kəs Cabbar əminin yatağının çevrəsinə toplanmışdır. O, bütün gücünü itirmiş görünürdü. Mədəsinin qanaması kəsilmirdi. Bu günədək yediyi bütün dava-dərman etkisiz qalmışdı. Bununla belə, “halım get-gedə yaxşılaşır” sözü ağzından düşmürdü. O, içimizdə olan bir yolbay kimi hər kəsə

ümid verirdi. Öz durumunun hər gün pisləşməsinə baxmayaraq, uşaqdan-böyügə olan hər kəsi düşünür. Sanki bizim bu duruma düşməyimizdən özünü suçlu sanırdı! Onun sağlamlığı ilə Səkinə ana və Elmira bacı ilgilənirdilər.

Anaların bişirdiyi qurutlu aşın dünyaca dadı var idi. Kişixan əmilə Səkinə və Sona ana Cabbar əminin solunda və sağında yerləşmişdilər. Səkinə ana yeni tikilmiş evlərin haqqında xoş sözlərlə bizi sevindirmək istəyirdi. O, bu gecənin özəl olduğunu və hər kəsin sorumlu yanaşmasını anladırdı:

- Mənim əzizlərim! Bizim ortaq alın yazımız, birlikdə yaşayıb-paylaşma sürəcimiz yeni aşamaya ayaq basmaqdadır. Bizi millət və vətən taleyi buraya çəkmişdir. Bəlkə bir gün geri döndük, bəlkə də dönmədik. Biz, harda yaşasaq Türk övladıyık. Bunu əlimizdən almağa çalışacaqlar! Ancaq bilin ki, bu qədər ölümün, sürgünün, aşağılanmanın kökündə Türk olduğumuz dayanır. Hə, düşmənimizin qarın sancısı olan türklüyümüzü ölüm belə, bizdən qoparmamalıdır. Mən bütünlükdə şəhid düşmüş bir ailənin tək qalanıyam! Bilirəm ki, sizlər də mənim kimi bütün yaxınlarınızı milli kimliyimizə, yurdumuza qurban vermisiniz. Gəlin şəhidlərimizin məsum qanlarına and içək! And içək ki, kimliyimizi özümüzlə qəbirə daşıyaq. And içək ki, kəfənə bürünənədək bəndəlikdən, xainlikdən, özgəlikdən, alçaqlıqdan, vüqarsızlıqdan, vətənsizlikdən və kimliksizlikdən uzaq olaq.

Səkinə ananın bu sözləri deyərkən dodaqlarının titrəyişi və göz yaşlarının axması hamımızı ağladırdı. O, bir el anası kimi titrəyir, acıyır, sevir, sevinir və hayqırırdı. Bizlərin ona olan sevgisi hər an artırdı. Onun bu sözlərdən sonra hamını anda çəkməsi inanılmaz duyğuların yaşanmasına nədən oldu. O, hamını əl-ələ verməyə çağırdı. Duyğu dolu anları yaşayan hər kəs "Ana"sının andına and içdi. Səkinə ana ləçəyinin ucu ilə gözlərini ovuşdurdu. Onun işarətilə Kişixan əmi sözə başladı:

- Səkinə Ana, tanrı eşqinə bizi nə günə qoydun! Mənə danış deyirsən! Mən nə danışım! Nıtqımı boğdun! Mənim danışacaq bir sözüm vardıysa, hamısını unutdum! (Hamı gülür). Siz gülün! Mənim halıma gülün! Mənim yerimə kim danışa bilər indi, buyursun!

O, bir az duruxduqdan sonra qarşısında olan su bardağından içərək davam etdi:

- Mən yeni otaqların aramızda paylaşmasını düşünürəm. Sabahdan öz əllərimizlə tikdiyimiz evlərə daşınacayıq. Gördüyünüz kimi, hava artıq şaxtadır. Bu şaxta havada olduqca bir yerdə olmağımız gərək. Allah bu Maşallahxan kişinin ömrünü uzun etsin. Bu gün beş qatırlıq odun gətirdi. Bu kişinin bizə qarşı özverisi inanılmazdır. Təkbaşına əlindən gələni edir. Allah razı olsun! Ancaq, sabahdan hər gün odun və yiyəcək haqda düşünməliyik. Buranın havası sıfıraltı 30-a qədər düşə bilər.

O gecə otaqlar aramızda paylaşıldı. Durumdan asılı olaraq bizə iki oda verildi! Maşallahxan sabah tezdən iki nökər və üç qatırla

məscidə gəldi. O, evlərin döşəməsində yardımçı oldu. Hətta məndən türkcə öyrənməyə söz aldı! Mənimlə çox yaxın olmağa çalışırdı. Ürəyini açırdı! Məni "oğlum" deyərək səsləyirdi. Olqaya çox sayğı göstərirdi! Səkinə ananı bizim dilimizlə Ana səsləyirdi. Özünə təmiz "Lək" deyirdi. Nədən bu kəndə gəldiyini və kənddə qalıb kənd ağasının qızı ilə evlənməsini çox üzüntü ilə mənə anladırdı. O, başına gələnləri anladaraq "Bəh səbük şüdəm!"/ax yüngülləşdim!/ sözü ilə sağ əlini köksünə çəkir və dərin bir nəfəs alırdı! Onun sözlərindən bəlli oldu ki, uşaq ikən Lək dilli bir ailənin borcu qarşılığında Bədiabad kəndinin kəndağasına satılmışdır. O, öncə nökər olaraq Bərəkətağanın evinə girmişdir. Sonra isə, Bərəkətağanın büsbütün iflic qızına ər seçilmişdir. İşin daha pis tərəfi isə, yazıq qızın qısır olması idi!

Mən, gündüzləri Olqayla Tərlanla keçirir, gecələri ikinci otaqda yatırdım. Kişixan əmi Olqayla evlənməyimin işinin arxasında olduğunu üstələnmişdir. Onun göstərdiyi titizlikdən bezmişdim. Lakin, işin nə qədər çətin olduğunu da başa düşürdüm. O, bunun Maşallahxan bəyə açmasının hələ tez olduğunu düşünürdü. Ona görə, hələ bir az bu kişini tanımaq gərək irdi. Mən isə, bu kişi haqqında bilgilərimin kişisəl bir sirr olduğunu düşünərək, ağzımı bağlı saxlamağa çalışırdım.

Havalar hər gün keçdikcə sərtləşirdi. Kəndin hər tərəfini qar-buz bürümüşdü. Yol getməyə imkan yox idi. Hər an geçdikcə oduna ehtiyac daha da çoxalırdı. Aclıqdan törənmiş gücsüzlük bütün izlərilə üzərimizə çökmüşdür. Evlərimizə ilk kəz gəldiyi Bərəkətağanın hədiyyəsinin sevinci hər kəsin gözündən

oxunurdu. Yeni ev sovqatları göz qabardıcı görünürdü, gözlənilməz idi. (Yeni ev! Oxu Tövləxana! Çünki bütün təmizlikliğə qarşın binanın hər yerindən tövlə qoxusu gəlirdi. Elə olmuşdur ki, artıq kimsə-kimsədən çəkinmirdi. Hamımız mal-davar iyisinə alışmışdıq. Bu üzdən Sona ananın dililə oranın adını Tövləxana qoymuşduq!). Bir ana inəklə yavru bizovu, biri dişi, biri isə erkək iki quzu və beş-altı toyuq-xoruz, on-onbeş cücə, iki sürü iti, üç tay yeralması, bir tay noxud-ləpə, bir kisə duz, bir neçə kiçik torba istiod, sarıkök, bir torba qurud, neçə torba qurudulmuş göyərti, üç-dörd tay un, bir çəllək canyağı, quyruq və qabırğa qovurması Bərəkətağadan üzərimizə yağan bərəkəti idi. Bölgənin uzun sürəkli sərt qışını atlatmaq üçün gərçəkdən də kəndağasının bağışları tanrı payı kimi görünürdü. Qış boyunca yeməyimizi oluşduran ərzaqların qızıl açarı Səkinə ananın əlinə verildi! Az yeyib qışın sərt günlərini başa verməliydik. Xanımlar, iki mətbəxin birisini bir yerdə yığışmaq üçün hazırlamışdırlar. Sona ananın düşüncəsilə, boş mətbəxin ortasında böyük bir kürsü quraşdırılmışdır. Kürsünün ortasında odun ocağı, ocağın üzərində isə, yerləşdirilmiş dəmir qazanda bişməkdə olan yeralması hər axşamın eyni görüntüsü idi.

37 nəfərlik böyük ailəmizin birgə çalışması, birlikdə gülüb-ağlaşması sərt günlərimizin ən dayanışlı anları olmuşdu. İçimizdə inanılmaz bir bütövlük duyğusu yaranmışdır. Kimsənin davranışında bu bütövlüyü pozacaq iz-toz görünmürdü. Yavaş-yavaş Təbrizi unutmağa başlamışdıq. Artıq burası bizim sevgi yuvamız sayılırdı. Ancaq, Olqayla mənim

düyünüm açılmaq bilmirdi. Baba Qasım kəndilə Bədiabad arası buzla qar altında qalmışdı. Axşam olunca, qurdların ulaması evin içində belə, canımızı titrədirdi. Olqayla evlənməmiz öz həllini tapmırdı. Kişixan əminin üzündə üzüntü izləri bəlli olurdu. Sanki, özünü suçlu sanırdı. Mən onu bu durumdan çıxarmağa çalışsam da, nəticə vermirdi. Həmin günlərin birində Maşallahxan evimizə gəldi. Məni otağıma çəkərək söylədi:

- Cəvanşir oğlum nədən bunu mənə söyləmirsən. Olqa qızımla sənin nikahsız olduğunu bilirəm. Bunu Kişixan ağa mənə dedi və yardım istədi. Qarnı yoğun jandarmalar bunu bilmədən sizi evləndirmək gərəkdir. Yoxsa Olqanı əlindən qopararlar! O qəriban qıza yazıq olar. Onu əski parçası kimi kirləndirər, sonra ölüsünü belə, tapmaq olmaz. Çünki qurdlara yem edərlər. Adını isə, olay adlandırarlar. Kişixan ağaya qızma ha! O, mənə deməklə işin doğrusunu etdi.
- Maşallah əmi, sizə daha nələr deyibdir Kişixan əmi?
- Bildiyim sizin bir-birinizi sevdiyinizlə ortada balaca bir yetimə analıq, atalıq etdiyinizdir. Başqa bir şey bilmirəm.
- Doğrudu əmi. Biz bir odada qalmırıq. Mən təkbaşıma gecələyirəm. Olqa isə, Tərlanladır.
- Doğru edirsiniz. Amma bu jandarmların, hətta Bərəkətağanın qulağına çatmamalıdır. Mən bir yolunu tapacağam. Biraz yollar açılsın səninlə Olqa xanımı Baba Qasımda olan Ağaşeyx Sadıq ağaya götürəcəyəm. Ona sizin haqqınızda bir yalan uyduracağam. Yoxsa, doğru söylərsək bir Quran ayəsi çıxararaq, İslamda beşinci arvadın da cayiz olduğunu deyər, tifil qızı özünə beşinci arvad edər! Həəə! Bu köpək oğlu,

jandarmadan və Bərəkətağadan belə, yırtıcı canavardır! İt oğlu it (pedərsəg)!

Maşallahxana güvənsəm də, dediyi sözlərdən bədənimi soyuq tər bürümüşdü. Olqanın gözəlliyini özümüzdən başqa yalnız Maşallahxan bilirdi! Onun isə, kamsız evliyindən tədirgin olduğunu hamıdan artıq mən bilirdim. Mənim Maşallahxanla tanış olduğumdan hardasa iki ay geçirdi. Sözsüz ki, onun da diləyincə Olqa kimi gözəl, açıq görüşlü, savadlı və bizdən fərqli gənc bir xanım qaçırılmaz idi. Baxmayaraq ki, tanıdığım Maşallahxan çox sadə, təmiz ürəkli insan olduğunu isbatlamışdı. Başqa yandan isə, Olqa da büsbütün bizdən biri olmaqdan ötrü çalışırdı. Çadıra, ləçək başından ayrılmırdı. Hətta Sona anadan namaz qılmağı belə, öyrənmişdi. Öz içimizdən başqa kimsə onun Qafqazdan gəlməsini bilmirdi. Hətta Maşallahxan belə! Ancaq, yenə qorxu canıma düşmüşdü. Artıq, Olqa mənim namusum sayılırdı. Əlim-əlinə dəyməsə də, dodağıma qonan biricik öpüşünün atəşi ürəyimi sarmışdır. Biz ikimiz də, şəriət əsiri olmuşduq. Ortamızda, şəriət pərdəsindən başqa düşünəcək, utanacaq, gözdən qaçınacaq bir şey qalmamışdı. Bu isə, iki sevən ürəyin dustaq olmasına yetirdi! Baxmayaraq ki, acıdan doğmuş özəl bir eşləşmə ikimizin də, hətta üçümüzün də içini sarmışdır.

Olqanın gündən-günə solması məndən daha çox böyüklərimizi düşündürürdü. Bir yanda ruhdan düşmüş Başçavuş, bir yanda yorğan-döşək yorğunu Cabbar əmi, başqa yanda isə solğun Olqanın durumu isti aşımıza soyuq qatırdı. Olqa bu durumunu inkar etsə də, gözündən düşən qəm parçaları gizli qalmırdı. O,

susqun olmasının nədənini südünün qurumasına bağlasa da, içində olan dərin kədəri üzə vururdu. Mən Olqaya yardımçı olmağa çalışarkən, ondan da qarşılıqlı yardım gözləyirdim! Olqa, bütün acılarına rəğmən mənə və başqalarına umud qaynağı olurdu. O, hər kəslə deyir-gülür, baş-başa qoyurdu. Ancaq təkbaşına olunca, çönbələtmə qurub düşüncəyə dalırdı! Onun bu tablosu heç zaman Tərlansız olmurdu. Tərlan Olqa üçün özbəöz doğma uşağa çevrilmişdi. Tərlan isə, ilk ana sözünü Olqanın gözlərinə baxa-baxa söyləməyə başlamışdı. Bu ikisinin bir-birinə olan sevgisini tanrımı yazmış, doğamı çizmiş!? Kimsə bilmirdi! Həkim xanım Elmira, bu sevginin ana-bala sevgisi deyil, tanrı sevgisi olduğuna inanırdı! Doğrudan da elə görünürdü. Hələ, Olqanın Tərlana qarşı bağlılığı sərhəd tanımırdı.

Soyuqdan çölə ayaq qoymaq olmurdu. Jandarmanın Baba Qasım kəndinə göndərdiyi teleqrafdan havanın 30 dərəcə soyuq olacağı bəlli oldu. Həmin teleqrafda uşaqların, qocaların mütləq evdə qalması istənilmişdi. Qurdların kəndlərə yaxınlaşmasının uyarısı verilmişdi. Maşallahxanın dediyinə görə, buralarda 50 ildir ki, belə şaxta görünməmişdi. O, hər gün də olmasa, həftənin bir neçə gününü bizimlə geçirirdi. Həmin günlərin birində həkim Elmira və Olqanın fikrinə gələn nisgilli bir olay həyata keçdi. Onların önərisilə hər gün kürsü başı türkcə yazma-oxuma eyitimi gərçəkləndi! Uşaqlara Olqa, böyüklərə isə Elmira bacı öyrətmənlik etdilər. Bu arada Maşallahxanın da türkcə öyrənməsindən sevinirdik! O, vaxtaşırı böyüklərin

sırasına qatılır, dərin bir maraqla türkcə öyrənməyə çalışırdı. Onun bizə olan bağlılığının nədənini özü belə anladırdı:

- Mənim üçün türklərin yaşam biçimi və belə ağır durumlarda çətinliklərə qarşı sinə gərməsi çox xoş gəlir. Mən, sizi tanıyandan bəri yaşama döndüm. Gələcəyə umudli oldum. Bir neçə kərə özümü öldürməyə çalışsam da, ölümdən qorxub geri döndüm. Amma indi sizin canla-başla yaşayışa gülməyinizi görüncə, yaşamın niyə belə dəyərli olduğunu düşünürəm. Mən, artıq sizinlə yaşamağa alışmalıyam! Bu üzdən sizin kimi danışmalıyam! Bildiyimə görə, sizlər ailənizdən qalan son insanlarsınız. Mən sizin son insanlar kimi deyil, ilk insanlar kimi yaşama bağlanmağınızı görür və bundan dərs alıram. İnşallah ki, yaz gəlincə sizinlə türkcə danışmağa başlayacağam. Təbi ki, Cəvanşırin yardımlarıyla!

Həkim xanımın və Olqanın kiçik toplumumuza bağışladıqları ruhsal əhvalın ölçüsü sınırsız idi. Maşallahxanın Baba Qasımdan gətirdiyi qələm-kağız ən əziz varlığımıza çevrilmişdi! Olqanın 4 öyrəncisi var idi. Sara xanımın qızı Ayğül 12 yaşında, oğlu Babək 14 yaşında bir sinif, Cahankişi əminin iki qız torunu altı yaşlı Ceyran və beş yaşlı Quzu isə başqa oxul sayılırdı. Qalanlar isə, həkim xanımın öyrəncisi sayılırdı. Mənimlə, Cabbar əmi az-çox türkcənin yazısını bilirdik. Ancaq, qalan igirmi üzərində kişi-qadın öz ana dilimizdə oxuma-yazmağı bilmirdilər. Bu arada mənimlə Cabbar əminin də üstünə önəmli görəv düşmüşdü. Belə ki, Olqa ilə Elmira xanımlar əski əlifbanı az bilirdilər. Bu isə, önların işini çətinlədirdi. Bu çətinliyi aradan qaldırmaq isə biz ikimizin

üzərinə düşmüşdü. Bütün əngəllərə qarşı türkcə dərslərin üzərimizdəki etgisi inanılmaz idi. Yaşam iradəsi, sevgi çiçəyi kimi yoxsul ömrümüzə umudvarlıq qazandırmışdı. Bakı eğitimli bir sayğılı həkim bacıma, ürəyimin anlamına çevrilmiş bir sevgilimə aşıb-daşan ilgim ölçülməz idi. Cabbar əminin bu olaydan sonra halının düzəlməsi hamını şaşırtmışdır. Onun moralı yüksəlməyə başlamışdı. O, türkcənin yazı-pozusunu gözəl bilsə də, hamıdan öncə kağız-qələmi hazırlayır, yeddi yaşında uşaq kimi həyəcanlanırdı. Hər kəs azdan-çoxdan bu həyəcanla yaşayırdıq. Çox uzun zamandan sonra onun danışma gücü geri dönmüşdü. Bir axşam kürsü başında toplandığımızda gülə-gülə belə söylədi:

- Bizim zəlil düşmənimizin gözü kordu! Bu millətin tarix yaşında yaşı vardır. Başı vardır, ayağı vardır! Çindən tutmuş Avropaya, Unçu Qaladan çəkilmiş Zaqroslaracan damarı vardır! Bu zavallı qanmazların savadı buna çatmaz! Bunlar, sapı özümüzdən olan üzdəniraq bəzi aydın kəsimi satın almaqla birlikdə türk düşmənləri əlilə dövlət olublar! Başqa yandan isə, ərbablarının yardımıyla bu köklü milləti yox etməyə çalışırlar. Ancaq, anlamırlar ki, türklərə ölüm yoxdur! Bunu ulu Peyğəmbərimiz vəd edir. O, doğuya-doğru savaşa yollanan ərəb qoşununa üz tutaraq bu nəsihəti dilə gətirir: “Ey Müsəlmanlar, Türklər sizə toxunmayınca onlara ilişməyin! Çünki onlar başqalarına bənzəməzlər! Onlar qorxmaz və savaş adamlarıdırlar. Türklər Tanrının gizli qılıncıdır! İslamı mənimsəyib Tanrının kafirlərə qarşı qəzəb

ordusu olacaqlar! Türk dilini öyrənin! Çünki türklərin qarşıda böyük, uzun və sarsılmaz dövlətləri olacaqdır!”
İslamdan sonra bu gün İran deyilən ölkənin 1100-ili türk silsilələrinin əlində olmuşdu! Bu sözlərə inanan bizlərə zaval yoxdur. Düşmən birliyimizi bu qərib-qürbət yerlərdə gəlib görsün! Qırdığını qırdı, qalanları isə didərgin saldı! Niyə? Sizcə niyə? Çünki Türk millətinin toparlanması işğalçı tülkülərin sonu deməkdir. Yaşasın insanlıq! Yaşasın barış sevər insanlar! Yaşasın biz türklər! 57 yaşında bir türk olaraq bu tülkülərdən nələr çəkmədim ki! Bütün ailəmizi, əzizlərimizi gözlərimizin qarşısında qurşunladılar, külüklə, bellə, oraqla, daşla, kəndillə öldürdülər! Doqquz aylıq boylu gəlinə rəhm etmədilər! Ana dilini istəmək suçundan öncə zorladılar, sonra isə özüylə doğulmamış körpəsinə qıydılar! Nədən!? Ona görə ki, quldur Rzanın zorla yaratdığı İran dövləti farsın cənnəti, türkün cəhənnəmi olsun! Ona görə ki, türkmən, kürd, ərəb, bəluc, lur, lək, gilək kimi başqa xalqlar farslaşsın!  Elə deyilmi yoldaşlar?

- Elmira xanım: Cabbar əmi, sizə belə həyəcan olmaz! Bax! Biz hamımız burdayıq. Azərbaycanın bütün bölgələrindən burada vətəndaş var. Bizi bizdən başqa kimsə ayrı sala bilməz! Siz narahat olmayın. İnşallah gedənlər qayıdıb Vətəni azad edəcək. Biz buralarda qonağıq, Allahın köməyilə tezliklə millətimizin içinə dönəcəyik. İnanın ki, Vətən torpaqları bizim yolumuzu gözləyir! Sizə həyəcan olmaz!
- Başçavuş: Siz burada umudunuzu itirməməlisiniz. Qarşıda ağır günləriniz ola bilər! Sizin bunları bilməyiniz gərəkdir.

Xoş günlər tez geçər, acı günlər insanla yaşar! Baxın! Mən sizi qorxutmaq istəmirəm! Sizin qorxma zamanınız çoxdan geridə qalmışdır. Kimi ailəsini əldən vermiş, kimisə əzizlərini girov vermiş! Sizin verəcək bir kimsəniz yox artıq! Bu üzdən qorxunuz da olmamalıdır. Ancaq yenə də tədbirli olmalısınız! Mən, ətrafdan dolaşan çaqqalları yaxşı tanıyıram. Burada kimsəyə güvənməyin. Bura Azərbaycan deyil. Burası heç tanımadığınız çaqqallar vadisidir. Bir-birinizə güvənməkdən başqa yolunuz yoxdur. Bu günədək əldə etdiyiniz birliyi və güvəncənizi itirməyin. Yenə deyirəm, sizi incitmək kimi niyyətim yoxdur. Sizi sevdiyimdən bunları deməliyəm. Mən bəzilərinizi çoxdan tanıyıram. Onların nə çəkdiklərini gözümlə görmüşəm. Görə-görə susmuşam! Çünki...

Başçavuşun bunları deyərkən gözlərinin dolması, əllərilə dodaqlarının titrəməsi gözdən qaçmırdı. O, sanki böyük günahına qarşı su kimi ərimək istəyirdi. Ancaq, sanki cummadan öncə bizlərin ürəyinə sərin damlacıq olmağı da arzu edirdi! Bədiabad küncündə yerləşdiyimizdən bəri Başçavuşun doğru-düzgün sözünü eşitməmişdik. O, sanki son tapışırıqlarını yerinə gətirmək istəyirdi. Elə bil ki, ağır bir yük altında əzilib yox olmaqda idi. İçimizdə ən az danışan onunla çavuş Dərvişlunun arasında bir saxlı olması dəqiq görünürdü. Dərvişlu bir çox zamanlar Başçavuşla yaşadığı ortaq otaqdan bayıra çıxmırdı. Bizimlə birlikdə olduğu zamanlar belə, çox az danışırdı. O, başçavuşdan daha içgüdülü, daha qapalı birisi idi.

Başçavuşun içimizdə bir ağırlığı var idi. Biz onu hələ də Sərkar Bayramı səsləyirdik. Onun sarsıltısına alışa bilməmişdik. Üzgünlüyünü qəbul edə bilmirdik! Baxmayaraq ki, o da bizim kimi sürgün həyatı yaşayırdı. Kimsə onun göz yaşlarına inanmaq istəməyirdi. Bildiyimiz Bayramı bəyin də ən böyük diləyi bu olmalı idi! Ancaq öfkənin partlama anı önlənilməz! Öfkə patlamasa insanın varlığı partlar! Öfkənin partlamasına birisi yardımçı olmalıdır! Çinar kimi başını uca tutmuş bir başçavuşun partlaması bir o qədər də asan deyildi. O, sanki partlamaq üçün bir səs gözləyirdi. Sonunda o səs gəldi! Cabbar əmi Bayramı bəyin şişmiş boğazını deşdi!

- Cabbar əmi: Ay Mir Fərəc ürəyini patlatma! İçini bayıra tök, boşal! Başına gələnləri söylə! Allahdan gizli olmayanı, düşməndən gizli olmayanı millətindən gizləmə! Yoxsa bu dərd ilə çox yaşamaq olmaz! Ayaqdan düşərsən! Sən bir "ibrəte aləmsən"! Səni eşidək ki, sənin kimilərin lənətlənməsinin qarşısı alınsın! De qardaşım! Tanrı qorucudur, böyükdür!
- Bayramı bəy: Cabbar bəyin Ərdəbildən Təbrizə gətirilməsinin məmuru mən olmuşam! Bu kişilə birlikdə Ərdəbilin Nir, Muğan, Xiyov, Germi, Biləsuvarda tutulan 8 Firqə başçısının əlləri-ayaqları qandallı Təbriz dustağına mən təslim etmişəm! Həə mən! Mən fars ordusunun bir türk əskəri idim. Mənim taylarım az deyildi. Mən də onlar kimi suçluam! Bəlkə də Allah tərəfindən cəzalanıram. Bundan böyük nə cəza ola bilər ki! Sizin yanınızda qızarıb-bozararaq ölməkdən betər oluram! Cabbar bəy dedi açıl! Mən də

açılıram! Elə açılıram ki, hər kəs məndən nifrət etsin! Mənim yoxluğumdan ürəyi sızlamasın! Əhərdə doğulanda kim mənim belə bir canavar olduğumu bilərdi ki! Anam bilseydi belə, məni doğmazdı!

- Cabbar əmi: A kişi özünü bu qədər əzib geçmə artıq! Mən özünü rahatla dedim! Əz demədim! Doğru, bizi zindana gətirən sən oldun. Səkkizimiz də sağ-sağlam zindana girdik. Burada sənin nə günahın var ki! Dediyin kimi sən də yüzlər-minlərcə İran qoşununun məmuru idin. Sənin əlindən nə gələ bilərdi ki! İran qoşununu farslaşdıranlara lənət olsun! Öz millətini başqa millətin canqoruyanı edənlərə lənət olsun! Türklüyünü bilməz qanmaz şahlarımıza lənət olsun! Farscanı özünə şiə möhürü qılmış ayətüllahlarımıza lənət olsun! Kiçilmiş-ufanmış ağalarımıza lənət olsun! Sizlərin beynini farslaşdıran-şilləşdirən, iraniləşdirən demokrat fasonlara lənət olsun! Səninlə millətinin alınyazısı birdir. Özünü küncə sığışdırma a kişi! Başına gələnləri doğru-düzgün anlat! A kişi itkin uşaqlarından, girov alınmış uşaqların anasından danış! Sən nə rəzilsən, nə də zəlil! Sən vətən oğlusan! Yenilmiş bir türksən! Başını dik tut! Biz özümüzü yenidən öyrənəcəyik. İçimizdə olan bütün yalan öykülərimizi silib-tullayacayıq. Biz, doğruları öyrənib türk olacayıq! Yalançı tarıxın zəncirlərini qıracayıq. Türk olacayıq! Türk olacayıq! Türk olacayıq!!! Bir gün olar ki, sən də türk yurduna xidmət edərsən!
- Sara xanım: Sərkarın balalarının başına nə gəlib ki? Sərkar anladın bizə! Onlar nədən səninlə deyillər?!

- Cahan Kişi əmi: Tanrı Böyük kişiyə rəhmət eləsin. Böyük kişinin oğlu gözünü dik tutar! Sənin atanla mənim çox gözəl günlərim olub! İçinizdə məndən yaşlısı yoxdur. 75 yaşımda sürgün düşdüyüm bir yana, ən yaxın dostumun oğlu Fərəclə eyni taleyi yaşamağım bir yana! Oğlum Sərkar Fərəc sən savaş adamısan, sənə pəs etmək olmaz! Mənim Ceyranla Quzum, Sara qızımın Ayğülü ilə Babəki kimə tapışırılacaqdır? Mən beş günün qonağıyam. Sən hələ 40-45 yaşında bir savaş adamısan. Bunu bil ki, xayin olsaydın, indi bizim yanımızda deyildin! Coşundan xayin çıxmaz! Sən ananın halal südünü əmmiş bir halalzadəsən! Bizi ümidsiz etmə!
- Cahan əminin sözləri ailə içinə bir yeni həyəcan qatdı. Cahan əmi çox sakit və sürəkli torunlarıyla uğraşan birisi idi. Bu günədək onun Başçavuşla tanış olduğunu kimsə bilmirdi. Bəlli olası bizim sürgündaşların açılmamış çoxlu gizliləri var imiş!
- Başcavuş: Əmican məni uşaqlıqdan tanıdığını deyirsən! Oysə, mən sənin Coşundan olduğunu, atamla dostluğunu bilməmişdim! Bu necə işdir? İnan ki, sizi heç tanımıram!
- Cahankişi əmi: Sən o zamanlar çox utancaq bir uşaq idin. Coşun meydanında Məştağı Bicöv qəhvəxanası var idi. Səni rəhmətli atan bəzi zamanlar özü ilə oraya gətirərdi. Sən də aşıq oynayan uşaqlara baxardın. Bir gün həftə sonu elliklə Seyid İbrahim Xəlil İmamzadasına getdik. "Xarnava"nı bilirsən yəqin. Ora yetişmədən Daşkəsən kəndi var. Daşkəsənin yanında bir təpə yüksəlir. O təpənin qarşısında kiçik bir dağ başında Coşun Qalası yerləşir. O elliklə ziyarətə

sən də gəlmişdin. O zaman Coşunda mədrəsə yox idi. Ona görə də, sən qardaşının yanına yerləşdin Əhərdə!

- Başçavuş: Cahankişi əmi, tanrı sənə ömür versin! Sən mənim uşaqlığımı gözümün önünə sərdin. Doğrudu, elliklə ziyarətə getdiyimizi xatırlayıram. Hava isti və yaz çağları idi. Gecəni də imamzadanın civarında çadır qurmuşduq. Ancaq, səni tanıya bilmirəm. Bağışla əmi! Sanki məni uzaq doğmalarıma çəkib-apardın. Kimsə məni sənin kimi sevindirə bilməzdi. İnan ki, mənə dünyaları bağışladın. Mən, Əhərdə yeddinci sinifə qədər oxudum. O zaman Əhərdə doğru-düzgün mədrəsə yox idi. Mən yeddinci sinifi bitirəndən sonra yaxşı yaşam üçün Təbriz olan bir tanışın yanına yerləşdim. Ayağım bütünlüklə Coşundan üzüldü. Atam öləndən altı ay sonra xəbərini öyrəndim. Bir gün Təbrizin Gəcilqapısında işlədiyim dükanda ordu dejbanlarına yaxalandım. Bir kamyona atıldım! Orada öz yaşıdlarımı gördüm. Hardasa 18 nəfər idik. İki yarıqlı əskərin qoruculuğu altında birazdan sonra gen bir qapıdan içəri girdik. Adımızı sormadan başımızı qırxdılar və əskər olduğumuzu dedilər! Beləliklə, özüm də bilmədən, bu məmləkətin sərbazı oldum. Təbrizdən Marağaya, Marağadan isə Tehrana göndərildim. Əskərliyin son aylarında hər gün "ordu elə, ordu belə" nağılı başladı. Hər gün bizi orduda saxlamaq və kadr etmək üçün beynimizi yedilər. Özəlliklə, türklərin orduda qalıb farscanı öyrənib və mədəni insan olduğunu təbliğ etdilər! Mən də çoxları kimi qaldım! Tehranın girişində Cey Padiqanında olduğunuz yerdə profesional kadr oldum. Evləndiyimizdə aylıq maaşımızın qat-qat artacağını, ordu təsislərinin evlərinə

daşınacağımızı, uşaq başı artı maaş haqqı alacağımızı söylədilər. Gözümü açıb, özümü elə dərin bataqlıqda gördüm ki...! Elə xoşbəxt oldum ki!!!.... Özüm burada sizinlə birlikdə Bədiabad sürgünündə, xanımım, dörd balamla birlikdə “Kərəc”in “bilməzabad” sürgünündə!

Başçavuşun son cümləsi özü ilə birlikdə otaqda olan hər kəsi dərin üzgünlüyə sürüklədi. Kimsənin danışma gücü və ya həvəsi qalmamışdı. İnanılmaz bir səssizlik otağa kölgə salmışdı. Artıq bu cümlədən sonra nə deyəcəyimizi, necə danışacağımızı unutmuşduq! Bu necə olan işdir! 20 il canla-başla fars ordusuna ömür qoy, öz türk soydaşlarına qarşı savaş, sonunda arvad-uşağını əlindən alsınlar, əsir olaraq sürgünə yollasınlar! Bu, inanılmaz bir öykü idi! Ancaq, inanması çətin olsa da, Başçavuşun acı yaşamının gərçəyi idi! Onun və Çavuş Dərvişlunun qatil gecəsində başına gələnlərin də bir plan olması üzə çıxırdı. İndi aydınlaşırdı ki, yol gedə-gedə maşınlarının motorunun donması da ağ yalan imiş. Və o gecə isə, iki türk çavuşun və əskərin şans üzrə diri qalması bəlli olurdu. Buna baxmayaraq, bu ikisinin gizli ölüm fərmanı qüvvədən düşməmişdi!

O axşam, 3-cü ayını geridə qoymuş Bədiabad sürgünümüzün ən ilginc gecəsini yaşadıq. O gecə hər kəs dərin hüzn içində yataqlara girdi. Səkinə ananın istəyilə hər kəs otağına çəkildi. Mən də, Olqanın istəyilə onun yanına getdim. Bir-birimizə sarılmaq istəsək də, az danışıb Tərlanın yatmasıyla öz otağıma çəkildim. Əslində, Olqa ilə aramda danışacaq bir şey

qalmamışdı. Yalnızca dilimiz var deyə, anlamı olmayan sözlərlə çarəsizliyimizi paylaşmağa özən göstərirdik!

Günlərimizin Başçavuş etkisi altında sürməsindən usanmışdıq. Hər kəsin onun ailəsilə bağlı boş-boş danışması sürürdü. Onun acı yaşamının geridə qalan uzantısını çox bilmək istəyirdim. Özümlə onun arasında bir bağlantının olmasına inanırdım. Bu bağlantının şahidi olaraq Cabbar əmiyə də şübhəliydim. Üçümüzün arasında bir bağın olmasını yol boyunca duymuş olsam da, bu ikisinin açıq verməsini gözləyirdim. Artıq mənim də dözüm sınırım bitmək üzrə idi. Mən də, yavaş-yavaş olub-bitənlərin harasında yerləşdiyimi bilmək istəyirdim.

Olqa gün keçdikcə ruhdan düşürdü. Əlimdən heç bir iş gəlmirdi. Bir mollanın siğə oxumasıyla aramızı kəsən qızıl alma yasağı qalxacaq, əl-qolumuzu bağlayan əxlaq qandalı qırılacaq idi! Sadəcə bir molla – hansı boyadan olursa olsun! Ağı vəya qarası, şiə vəya sünnisi, hətta mənim üçün isəvisi vəya musəvisi belə fərq etməzdi! Təki, başına allah "şapqası" əkmiş bir tülkü yetərli idi. Nə yazıq ki, tülküyə gedən yolları qar basmışdı.

Havalar yazlaşacaq, yollar açılacaq, Baba Qasım kəndinin tülküsü Allah şapqasını başına əkəcək, mənə və Olqaya biganə olan iki ayə oxunacaq, sonunda iki sevənin yasaq dodaqlarının qıfılı açılacaqdı! Maşallahxan, bu gün-sabah deyirdi.

Ona görə, belə hava şərtləri içində qurdlara yem olmağımızın ehtimalı çox idi.

Üç ayın da geçməsini nisgillə gözləmək gərək idi. Hamam üçün Baba Qasım kəndinə getməliydik. Yolların bağlamasıyla bədənlərimiz də qazmaq bağlamışdır. His və sidik qoxusu canlarımıza sarılmışdı. Hamı eyni qoxunu verirdi. Bu üzdən kimsə-kimsədən fərqli görünmürdü. Toyuq, inək, qoyun və insan kövrəsi yan-yana ortaqlaşmışdı! Bu üzdən kimsənin kimsədən iyrənməsinə yer yox idi. Sözsüz ki, bu gedişin sonu fəlakətə dönüşərdi. Sona və Səkinə anaların bu çirkinliyə qarşı çözümləməsi hər kəsi sevindirdi. Bir axşam Səkinə ana yeni əmr verdi. Onun qorxusu bit və gənə kimi ölümcül heyvanların insanlara daraşması idi. Səkinə ananın ağzından düşməyən bir sözü var idi. O, deyirdi:

- *“Mən, qurdun qorxulu gözlərindən deyil, bitin, gənənin gözə gəlməz mızı dişlərindən  qorxaram!” Biz, düşündük-daşındıq! Bundan sonra yazı gözləmək yoxdur. 15 gündən bir  hamı yuyunacaq! Necə, harda? Bunu da düşündük. Düzünə baxarsaq su qapıya dayanıbdır. Biz bu üzdən çölə çıxa bilmirik. Elə deyilmi? Əlimizdə olan bütün qab-qacaqları, beş-altı dolçanı, küzələri qarla dolduracağıq, isti su düzəldib yuyunacayıq. Hər kəs ən azından 10 gündən bir paltarlarını dəyişib yuyacaqdır. Paltar dəyişmə və yuma işinə birbaşa Elmira qızım baxacaqdır.*
- Elmira bacı: Bu işi namaz və orucdan gərəkli sanın. Çünki sağlam olarsaq, ibadət  də edə bilərik. Təmiz olmayan adamın ibadəti qəbul olmaz. Tanrı hüzurüna təmiz çıxılar!

Cabbar əminin Elmira bacıya verdiyi dəyərin ucu-bucağı yox idi. O, Elmira bacını öz qızı kimi sevər, sözünün qulaqardı

edilməsinə qarşı əsəbiləşərdi. Cabbar əmi onu evimizin sağlamlıq və yaşam məleykəsi adlandırırdı. Bu isə, orta yaşlı Bakılı bacımız üçün dünyaca dəyərli görünürdü. Elmira bacı doğrudan da, çox incəsözlü, açıqürəkli, hamımıza könül verən gözəl bacımız idi. Bəzən də çavuş Dərvişlu ilə göz-gözə gəlincə çəkimcəl baxışları ilə başqa gözəllik yaradırdı! Ancaq, Dərvişlunun susqun və ağı kimi baxışları çox tez bu gözəlliyi ümidsizliyə çevirirdi! Bu gənc çavuşun içindəki kədəri kimsə aça bilmirdi. Sanki, içində yaşadan saxlılarla bu dünyadan köçməyə qərarlıydı. O, kimsəylə yaxınlaşmır, kimsəni də yaxınına buraxmırdı. Çox sayğınca hər kəsdən aralı qalmağa çalışırdı. Ağır işlərdə hamıdan ilk sırada hazır olurdu. Topluma qatqısı örnək idi. Kimsənin özünə qarşı ən ufaq belə xor baxmasına yer buraxmırdı. Odun yığmağa hamıdan qabaq qoşulurdu. Hər kəs yuxuda ikən ayaqyolunu təmizləyirdi. Qarları boş qablara yerləşdirirdi. Mal-heyvanın bəslənməsinə özən göstərirdi. Yumurta toplayırdı. Əlindən gələni edirdi. Hər kəs yuxudan durduğu vaxta otağına qapanır, əlində olan bir neçə kitabla uğraşırdı.

Görünürdü ki, o orduda öyrəndiyi düzəni burada da sürdürür. O, içimizdə olan qərib bir kişilik sərgilirdi. Hər kəsi sevirdi. Sevgisini özünə özəl olaraq duydururdu. Elmira bacıya fərqli davranırdı. Lakin, ona qarşı daha çəkimsərlik göstərirdi. Onun qafasında bizim ölçəbiləmədiyimiz bir şeylər dönürdü. Onun Cabbar və Bayramı bəylərlə ortaq bir gizlisi var idi. Bu üçünün arasında gizli saxlayan nələr olabilərdi? Firqə bağlantısımı? Ailə ilişgisimi?

Maşallahxandan gözlədiyimiz xoş xəbər gəldi! Gecələr qorxudan gözümüzə yuxu buraxmayan qurdların üçü jandarmalar tərəfindən öldürülmüşdür. Yazın yaxınlaşmasıyla havalar daha da soyuyurdu. Qurdların ulaması evimizin içinədək gəlirdi. Uşaqlar qurd səsini eşidərkən ağlaşırdılar. Sözsüz ki, bizlərin də qorxusu uşaqlardan az deyildi. Ancaq, qurd səsindən ağlamağı kimsə içinə sığdırmırdı. Səkinə ananın gözəl qurd öykülərilə qurdların bizə qarşı aqresiv ulaşmaları arasında bir olumlu bağ qurmaq olmurdu. Biz, canavarların qorxusundan evdən çölə addım atamazkən, Səkinə ana onlara sevgi bəsləyirdi. Hətta Maşallahxanın qurd öldürmə xəbəri Səkinə ananın ağlamasına nədən olmuşdu! Cabbarla Kişixan əmilərin də qurdlara pis baxmaması gözdən qaçmırdı. Ancaq, Səkinə ana qədər deyildir. Səkinə ana qurdların vəhşi olduğunu qəbul edirdi. O, qurdların da insanlar kimi ət yeməyini deyirdi:

- Səkinə ana: Demək ovlayıb ət yemək vəhşilikdirsə, insan bütün çağların ən vəhşi heyvanı sayılmalı! Elə deyilmi? Dünyanın vəhşisi də, əhlisi də insan malıdır! İnsan oğlunun dalı-qabağı bəlli olmaz! İnsan qarşısında baş əyən varsa əhli sayılar, yoxsa vəhşidir! Qurd, insana baş əyməz! İt kimi insan qarşısında diz çokməz! Qurd başını it kimi aşağı salmaz, dik tutar! Qurd öz sürüsündən qopmaz! Özgə sürüyə qoşulmaz! Özündən güclüyə əyilməz! Sürüsü uğruna can verər! Ömrü sona çatınca səssizcəsinə yamaca çəkilər, göyə baxar can verər! Rəhmətli anam *“qurdun gözü yabancı götürməz”* deyərdi. Anam deyərdi: *“köyümüzün qurdları, körpə uşaqlarımızı yabancı canavarların gecə yürüşündən*

*qorumaq üçün evlərin üstündə gözətçi durar, dan açılınca yamaclara çəkilərlər!”* Onun dedikləri hələ də xatırımdadır. Rəhmətlik deyərdi ki: *“Qurd qanı hər evə tökülərsə, o ev dağılar! Çünki qurdun dirisi uğurlu, ölüsü uğursuz olar! Qurda payını verərsən, səninlə işi olmaz! Verməzsən həm səni, həm də payını alıb götürər! Bir də qızım bunu bil ki, qurd həmişə ayaqda ölər. Başqa heyvanlara bənzəməz! Qurdun ürəyi aslan ürəyindən böyük olar. Aslan qurda saldırmaz, amma qurd aslana saldırar! Bir ata sözümüz var deyər ki, “Elə bil ki, qurd ürəyi yeyibdir!” və ya ”Səni görüm balam qoca qurd olasan!”* rəhmətlik anam özü də qurd kimi öldü! O, heç zaman yorqan-döşək yorğunu olmadı. Məni dağ yolunda doğdu, özü də dağ yamacındakı sevgili bitkilərinin ətiri içində ötəki cisminə “ənəlhaq” dedi! Kövşənimizə qurd səsi düşərkən, anam evdən bayıra çıxar və göyə baxardı. Sanki o, qurdların dilindən anlayır, onlarla danışardı! Biz anamıza “Qurd Ürəkli Ana” deyərdik! Biz, anamıza bu adı verməkdə haqlıydıq. Anam yaşadıqca bizim kövşənimizə bircə qurd belə, yaxınlaşmadı! O, öləndən sonra qonşu kəndlər kimi bizim də kəndimizin sürüləri qurdların sökürcəsi oldu! Anam diri ikən qurdların kəndimizə girməməsinin nədənini hələ də anlamıram! Bu sizə bir nağıl kimi gələ bilər. Ancaq mən bu nağılı yaşamışam!

- Kişixan əmi: Allahımı şahid tuturam! Şeytana lənət deyirəm! Vallahı və billahi sanki bu öykünü ikinci kəz eşidirəm! Daha gənckən dostum Əbdül ilə birlikdə bir neçə davar almaq üçün “Beşoymaq”ın “Sayınqala” mahalına getmişdik. Gecəni bir tanış evə qonaq olduq. Dağdan qurd ulaması gəlirdi. 75-

80 yaşlarında qonaqçımızın ağbirçək anası bizim qorxduğumuzu anladı! O, bizim qorxumuzu önləmək üçün sözə başladı:

- “Bunlar bizim gecə xoruzlarımızdır! Gecənin çatmasının xəbərini verirlər! Bizim qurdlarımızın gecə salamlaşmasıdır bu ulaşmalar! Bu, sadəcə uzaqdan salamlaşmadır! Qurd mızı düşmən deyil! Mızı düşmən səssizcə soxular. Qurd isə, öncə soxulacağını bildirər! Tülkü səssiz gələr, aldadar ehtiyacından artığını çalar qaçar! Qurd, səsli gələr, savaşar ehtiyacından artığını götürməz! Bir el sözü deyər ki, “Qurdla dost ol ki, tülküyə aldanmayasan”! Qurdlar bizim kövşənə soxulmazlar! Çünki, onları sevdiyimizi bilərlər!
- Səkinə xanımın anlatdığı hekayənin eynisi deyilmi bu? Biri Qaradağda, başqası Beşoymaqda! İki öykünün bircə ruhu var! Bu yaxınlıqda bənzərliyin sirri nədir? Cabbar əmi bəlkə siz bunu bilərsiniz? Axı siz oxumuş-bilmiş birisiniz!
- Cabbar əmi: Bunlar hamısı çox əskilərdən qalan el öykülərdir. Qurdla insan arasında çox oxşarlıq olmasa da, danılmaz bir bənzərlik var! Oda ət sevdasıdır. Biz insanlar ac qalarsaq, qurdun ətini yeməyizmi? Yeyərik əlbəttə! Yeməzsək, ölərik! Qurd da ac qalarsa, bizim və qarşısına gələn hətta fili belə, yeyər! Heyvan heyvanın ətini yeyər! Buna baxmayaraq, bütün insanların heyvan sevgisi vardır. Millət var inək sevər, onu qudsal sanar. Millət var siçan sevər. Biri qartal, başqası aslan, digəri at, qoç, keçi, ayı, əjdəha və b. sevər. Biz türklər isə, qurdu başqa heyvanlardan ayrı tutarıq. Əski türklərin içində bözqurd dəstanları çoxdur. Mən də onların bir neçəsini oxumuşam. Bu dəstanların yaşı

hardasa 3 min ildən çoxdur. Bunların hamısını desəm səhər olar. Mənim buna gücüm, sizin isə dözümüz yetməz! Ömür olsa, gələcəkdə bunun üzərində danışarıq.

Mən Cabbar əminin yorğunluğunu bəhanə edərək, danışmaq istəmədiyini anlayınca dedim:

- Cabbar əmi, mümkünsə bu dəstanların birisini indi deyiniz.
- Cabbar əmi: Bizlərə Oğuz türkü deyilər. Oğuzların 24 boyu var. Bu günün hesabilə desək Azərbaycan, Türkiyə, Türkmənistan, Kərkük, bütün İraq və İranda yaşayan türk boyları bu 24 boyun bir qrupu sayılır. Bunların bir-birinə bənzərliyilə dil eyniliyi başqa türklərə görə daha da çoxdur. Oğuzxan oğuz boyunun ünlü atası sayılır. Çin qaynaqlarından qalan öykülərə görə, Oğuzxan savaşa gedərkən çadırına bir işıq düşür. Oğuzxanın gözləri işıqdan az qala yana. İşığın ortasından göy-boz boyalı bol saçaqlı erkek qurd çıxar. Xaqan ürkməsin deyə bozqurd dilə gələr: "Ey Xaqan, mən sənin yol göstəricinəm! Səni yamaclardan, dərələrdən, təpələrdən düşmənlərinə götürəcəyəm! Mən yürüdükcə qoşun durmadan arxamca gələcək. Mən durarsam, qoşunun dursun!" Oğuzxan bozqurdun sözünə güvənər, sevinər, gülər və onu qoşunun yolbayı edər! Günlər, aylar, illər düşmənlərini yenər, yeni avadanlıqlar salar, dövlətlər yaradar. Qayıdarkən yenə bozqurdu qoşuna yolbay edər. Oğuz eli bozqurdu sevər, ona övünərək qudsal sanar. "Börü (qurd) Gök Tanrıya ən yaxın canlı sanılar. Onun dağların zirvəsinə dırmaşaraq, göy üzünə sarı ulaması Göktanrıya

olan içdən sevgisi sayılar. Gökdə qartal, yerdə börü, türkü qoruyar!”

- Olqa: Cabbar əmi birini də desənə! Çox xoşuma gedir börü öyküləri! Axı uşaq ikən “Karakum” dədədən belə öyküləri çox eşidərdik.
- Cabbar əmi: Qızım o kimdir? De sənə?
- O, ömrü boyu çobanlıq etmişdir. Ancaq, 80 yaşlarında bir ac qurdu öldürərək tanrı sarından qarqışlandığını, 40 gecə-gündüz ağlar qaldığını söylərdi. Karakum dədənin bir də qoca qartalı var idi. Qartal onun bu dünyadaki ən dəyərli varlığı sayılırdı. Bu ikisi heç zaman bir-birindən ayrı qalmazdılar. Qartal hər zaman Dədənin sağ çiynində otururdu. Bu üzdən Dədənin sağı biraz solundan alçaq görünürdü. Qartalı ölən Dədə kimsəylə danışmayıb, yeyib-içmədi! O, dan açılan bir səhər çağında, özü kimi beli bükülmüş çəligilə yamaca yüksələrək bir daha qeri dönmədi! Kimsə onun sonunun necə olduğunu bilmədi! Onun ölümü əfsanə oldu! Qoca cəliyi, çöl arasında tək bitmiş yalqız bir qızıl alma ağacının dibində tapıldı. Çəliyi tapılan qızıl alma ağacının dibi Karakum dədənin anıt məzarı oldu! Özünün ölüsü bulunmaz ikən çəligini onun yerinə basdırdılar. Qızıl alma ağacının adı “Dədə Karakum Qibləsi” adlandı. “Dədə Karakum Qibləsi” ulusun tabusu oldu! Gənc-qoca, qadın-kişi ən kədərli saxlılarını “Dədə Karakum Qibləsi” ilə paylaşmaq üçün qızıl alma ağacına doğru üz tutdular. Çox keçmədən ağacın yarpaqlarının yerini dilək asqıları aldı!  Dədə çox yaşadı. Bəlkə də 120 il!

- Cabbar əmi: Qızım Olqa! Bu nə gözəl öyküdür! O dədədən de! Sənin neçə yaşın var idi o zamanlar?
- Olqa: Onun çiynindəki qartalını heç unutmadım. Dədə, yoxa çıxanacan anamla birlikdə İnciqalada /Maxaçkala/ yaşayırdım. Bütün uşaqlar kimi mən də onu çox sevərdim. O zaman mənim 4-5 yaşım olardı. Sizin sözünüzü kəsdim, Cabbar əmi. Buyurun davam edin. Mən anımsadıqlarımı sonra deyərəm. Tərlanı yedizdirməliyəm.
- Cabbar əmi: Bəlli ki, hər kəsin qurdlarla bir macərası var! Bunlardan biri də Hun türklərilə bağlıdır. Deyənlərə görə, Hun türkləri Ortaasiyadan qalxaraq üçgen bir imperatorluğun quruçusu olmuşdur. Hunların böyük bir başçısı olub, onu tanımayan yoxdur! O, iç Asiyadan qalxıb Avropanın bir çox yerinə hakim olmuşdur. Bir Avropa ölkəsinin adı onun soyundan alınmışdır. Bu ölkəni tanımayan yoxdur. Biz, o ölkəni Macarıstan adı ilə səsləyirik. Ancaq, oranın gərçək adı "Hungari"dir. Yəni Hunlar ölkəsi. Atilla hunların başçısı, Macarıstanla birlikdə çoxlu Avropa torpaqlarına hakim olmuşdur. Hunlardan sonra Göktürk imperatorluğu qurulmuşdur. Çin qaynaqlarından alınan, ancaq türk öyküsü sayılan bu dəstan da onlardan biridir: Bu dəstana görə, "türk eli, düşmənin tuzağına düşərək, soyqırıma uğrar! Saysız türkdən ancaq 10 yaşında bir oğlan qalar! Düşmən onun əl-ayaqlarını qıraraq bir bataqlığa buraxar. Türk oğlan ölüm ayağındaykən bir dişi qurd onu əmizdirər, əl-ayaqsız bədənini dişinə alaraq oradan uzaqlaşdırar. Onu, yavru qurdların yanına götürər. Onu yavrularından ayırmaz. Bir ana kimi onu bəslər. Ağızının suyu ilə, yaralarını sarar. Türk

oğlan böyüyüb ərgənlik çağına çatınca ana qurdla sevişər! Dişi qurd türk oğlanla yataraq gəbə qalar! Düşmənlər qurdun oğlandan gəbə qaldığını duyar. Türk oğlanı öldürər, ana bozqur əllərindən qaçar. Düşmən, bozqurdun arxasınca yamaclara, cığırlara, zirvələrə qoşar! Ana bozqurd əltapmaz bir köhülə sığınar! Ana qurd 10 insan oğlan doğar! Beləliklə, qurd insan yaranar! Buna türk yaradılışı vəya mifolojisi deyərlər. Adından da bəlli olduğu kimi əfsanədir, mifolojidir. 10 qurdürəkli oğlan, ergənlik çağına çatarlar. Hərəsi bir igid elin seçgin qızıyla evlənər. Türk törənişi başlar, gərnəşər, böyük el olar. Yılmaz, beli-arxası yerə gəlməz el birliklərindən türk dövlətçiliyi törənər! Türk başçıları özlərini qurd oğlu sayaraq, Ana Bozqurdu qudsal sanar. Qurdun mübarək üzünü bayraqlarının üzərinə sancaraq düşmənlərin savaşına qalxar! Belə mifolojik anlatmalardan Ərgənəkon və başqalarını da ömür olsa deyəcəyəm.

Mən, ömrümdə belə bir səssizlik yaşamamışdım. Kimsənin cıqqı çıxmırdı. Səssizlik tam anlamla otağa hakim olmuşdu! Cabbar əminin Bozqurd öyküsü eşitdiyim ən ilginc və inanılmaz nağıl idi. Cabbar əminin qurd hekayəsilə Olqanın ilginc canlı görüntüləri hamını susdurmuşdu. Ortada olan təkcə səs yaxından-uzaqdan gələn qurdların ulamasıydı. Artıq, mənim üçün qurd səsi çox da qorxunc sayılmırdı! Bununla belə, yenə də, bir qurd ilə qarşı-qarşıya gəlməyi arzulamazdım! Otaqda yerləşən təkcə nəfəslikdən göyə baxırdım. Ulduzlar yerində sayıqlayır, Ay isə mürgülü baxışlarıyla Süd Yolunun yeni yolçularını uğurlayırdı!



☆ ☆ ☆

Qışı bütün çətinlikləri ilə geridə buraxdıq. İlk dəfə olaraq ellikcə buzdan çıxmış yamaclara yüksəldik. Yaz qoxusu çox gec olsa da, kəndin üzərini bürümüşdü. Hələ gözlədiyimiz ilk göyərtilərdən iz-toz yox idi. Maşallahxan bəyin dediyinə görə, yamacların cücərməsi iki haftaya qalmazdı. Maşallahxana görə, çox keçmədən hər yeri gül-çiçəklər bürüyəcəkdi. O, sözü və işilə bizi sevindirməyə can atırdı. Doğrusu da bu idi. O, içimizdə ən sevilən özgə insan idi. O, qıssa zaman sürəcində öyrəndiyi türkcəni ardıcıl işlətməkdən qaçınmırdı. Mənə qarşılıqlı olaraq ləkcə öyrədirdi! Mənimlə Olqanın evlənməsi üçün verdiyi sözün sonlanması yollarını axtarırdı. O, mənə çatınca yarı türkcə, yarı Ləkcə: “Sən Zuma olacaq Cavanşir!” /Sən bəy olacaqsan Cəvanşir!/ sözünü deyir və əlini çiynimə qoyurdu!

Hamımız gələn günlərin ümidi ilə yaşayırdıq. Biz kişilərin dərdi bam-başqa ikən, xanimların dərdi bir anlığına yer qıdalarından yararlanmaq idi. Kənd ağası ilə jandarmaların dediyinə görə, bundan sonra artıq çalışıb pul qazanaraq yaşamağımız gərək idi. Ancaq, hansı iş, hansı pul? Bədiabad, bizimlə birlikdə 120 nəfərlik xarabalıq bir kənd idi. Üstəlik yerlilərin 90 faizi ömrü tükənmiş qocalardan və  uşaqlı analardan ibarət idi. Kəndin çevrəsində olan torpaqlara gəlincə, durum daha da pis idi. Kəndin aşağı tərəfində olan yerlərin hamısı xanlara aid idi. Bizim o yerlərə getməyimiz yasaq idi. Biz, sadəcə kənd ağasının mülkü sayılan yamacların otlarını arıtlamalı, əkin-biçin yapmalı, Bərəkət ağadan iş qarşılığı pul və ürün payı

almalıydıq. Bu isə, Bərəkət ağanın bəndəliyi demək idi. Biz, bir millət olaraq bəndəliyə qarşı ayaqlandıq. Savaşdıq, can verdik, qul deyil, mənliyimizə yiyə olacağıq, özgələrə baş əyməyəcəyik, öz əlimiz-öz başımız olacağıq amacıyla “ya azadlıq, ya ölüm!” savaşına girdik! Ancaq, görünür ki, burada da, sürgündə bir tökülüb-dağılmış, əl boyda bir kəndin ağasının qulu olmaqdayıq. Bu durum, biz türklər üçün yenilməkdən daha çox yenilmək sayılırdı. Cabbar əminin dediyinə görə, “yalnız köklü ağacları sərt qış yenməz”! Biz isə, sərt qışlaqdan çıxmış köklü ağaclar olmalıydıq. Bu alın yazısını biz özümüz yaşamalıydıq ki, gələn nəsillərə gərçək yaşam çağının qapıları açılsın!

Gün keçdikcə, Olqanın qəmli gözlərindən qorxuya düşürdüm. Onun mənə, mənim isə ona olan sevginin alovlarının sönməsindən ürəyimə düşən qorxu hər an artırdı. Lənətlik şəriətin çomağı başımızdan uzaqlaşmırdı. Olqanın yasaq dodaqlarına olan şəriət sınırının qaldırması üçün gecə-gündüzüm yox idi. Haa ki. deyərlər iki könül bir olarsa!... Burada iki könül deyil ellikcə könüllərin bir olması da zalim şəriəti razı salmağa yetmirdi! Qorxurdum ki, iş adına Olqayla Tərlandan uzaq düşəm. Qarşımıza nə gələcəyindən tam xəbərsiz idik. Kimsənin sabah üçün fikri yox idi. İçimizdə gözlənilən ümidin görüntüləri solğun gül kimi başını çiyininə buraxmışdır! Ancaq, nə yaxşı ki, ən azından Səkinə anadan umitsizliyə qarşı sürən savaşın ardı kəsilmirdi. O, kəskin bir qılınc kimi bizimlə umitsizliyin arasını kəsmişdi. Onun yanında sadəcə ah çəkmək belə, böyük günah sayılırdı. Cabbar əminin anlatmalarına

dayanaraq, Səkinə ana sürgün qrupumuzun “Asena”sı idi. O, igid bir ana kimi hamımızı yanına almağı bacarırdı. Ölçülməz bir özveri, yorulmaz bir inad, onu ayaqda saxlayan özül daşlar idi. Qızılbaş ələvi uzuntusu olan, qurdu qudsal sanan, bütün uşaqlarını, gəlinlərini, nəvələrini Azərbaycan adlı ananın özgürlüyü uğruna qurban verən qurdürəkli Səkinə ana hər kəsin ağlı-düşüncəsi, ürəyi sayılırdı. Ömrümdə kimsəni Səkinə ana kimi qurdürəkli, qorxmaz, elinə bağlı, elqəmi insan görməmişdim. Bunu hamı duyur yaşayırdı. Səkinə ana hər kəsin sevilən “Qurd Ana”sı olmuşdu! Təkcə mən yox, kiçikdən böyüyə ellikcə onu sevir, bağrımıza basırdıq. Kimsənin bir dərdi olunca 60 yaşlarında olan Qurd Ananın ətəyinə saplanırdı. O, diri qalmağımızın, yola bağlanmağımızın, qurtuluşa inanmağımızın başlıca simvolu olmuşdur. Bu üzdən aramızda ona “Qurd Ana” deyirdik. Təbi ki, onun öz yanında bu sözü demək olmurdu. Çünki, o, bu ada çox tapınır, ürəkdən onu qutsal sanırdı. Onun inancına görə, insan qudsal ola bilməzdir! Amma “Qurd Ana” qudsaldı! O, bir də, hər sözünün sonunda “Ya hu, ya mövla!” deyərək göyə baxır, sağ əlini üzünə çəkirdi!

Cabbar əminin damla-damla əriməsi kimsənin gözündən qaçmırdı. Olqa daha da yetgin və sakin görünürdü. Onun və Elmira bacının türkcə dərsləri gözəl sonuc göstərməyə başlamışdı. Elmira bacı, həkim olaraq qrupumuzla birlikdə kəndin sağlığı üçün də bir şeylər etməyi düşünürdü. O, bu işinin nə dərəcə təhlükəli olduğunu düşünmürdü. O, hamıdan artıq gül-çiçəklərin gəlişini gözləyirdi. O, bitkilərin bir möcüzə

olduğunu deyir, öz təbabət sistemini isə “Türkə Çarə” adlandırırdı. Onunla Çavuş Dərvişlu arasında qaş-göz oynatmalar normal görünürdü. Olqa Elmira bacının bir çox saxlılarının sırdaşı olmuşdur. Bir sözlə qrupumuzun ailə kimliyi qazanması ən böyük başarımız sayılırdı. Başçavuş, buzların əriməsi bitər-bitməz jandarmaların mərkəzinə gedərək gələcəklə bağlı onlardan bilgi almağa çalışdı. O, son gedişindən qayıdarkən hamımızı evin ətrafına toplayıb çox ilginc bir xəbəri bizə çatdırdı. Onun dediklərindən tüklərimiz biz-biz oldu:

- Əziz bacı-qardaşlarım bizi daha bir yolçuluğa, daha bir sürgünə götürməyi düşünürlər. Ancaq, hələlik dəqiq bir əmr yoxdur. Jandarmadan aldığım bilgilərə görə, Luristanın bir neçə qəsəbəsinə minlərcə sürgün dəstələri yerləşdiriblər. Hətta bəzi bölgələrdə sürgünə göndərilmiş vətəndaşlarımızın sayı yerli əhalının beş-on qatıdır. Mənim Təbrizdə bundan xəbərim olmamışdı. Bəlli ki, sürgün bizlərdən daha qabaq başlamışdır. Jandarmanın dediyinə görə, “Bədr Abad” adında yeni bir şəhərcik varmış. Oranın bütün cəmiyyətini Azərbaycandan gələn türk sürgünlər oluşdurur. Orada iş qurmaq və işləmək mümkündür. Böyük və imkanlı yerdi. Evlər və baxçalar var. Bu şəhəri beş il öncə amerikalılar salmışlar! Bu üzdən bizi oraya göndərməyi düşünürlər! Hələlik isə burdayıq. Burda bizə yer verəcəklər. Yerlərin əsl sahibi dövlətdir. Öncə gəlib bu yerləri çəpərləyəcəklər. Bildiyim qədərilə yerli xanların buralarda saysız-hesabsız yerləri var. Dövlətin onların yerlərinə toxunma planı yoxdur. Qalan yerlər dağ ətəklərində olan yamaclardır. Hələlik

Bədiabad kəndindən çıxış iznimiz yoxdur. Jandarmalar gəlib bizi yoxlayacaqlar! Yerləri böləndən sonra şum, əkin-biçin üçün Baba Qasım kəndistanına getməli, cüt, arac, toxum almalıyıq.

Başçavuş özü ilə iki qatır yükü son alacaq cirəmizi də gətirmişdi. Başçavuşun Bədrabad şəhərciyindən deməsi hamını şaşırtdı. "Bədiabad"la "Bədrabad"ın bir-birinə bənzərliyi, Bədrabadın yeni tikilmiş kiçik şəhər, Bədiabadın isə, dağların dibində dünyanın itmişində bir tükənmiş xaraba kənd olması gerçəkdən ilginc bir xəbər sayılırdı. Minlərcə Türk dildaşımızın bizdən biraz aralı boş bir şəhərdə yerləşməsinin xəbəri böyük bir həyəcana nədən oldu! Cabbar əminin düşündüyünə görə, bizi yanlış bilgiyə görə, bu dağ dalına sürgün salıblar. O başçavuşun bilgisinə dayanaraq belə bir sorğu sordu:

- Fərəc bəy, səncə bizim burda olmağımız bir yanlışlıq üzündən olmuşdur?
- Başçavuş: Bu haqda bir şey bilmirəm. Amma bir çox vətəndaşımızın orada yerləşdirilməsilə bizim burada yerləşməyimiz bir-birilə uymur. Hər nə olsa, tüstüsü bir azdan çıxar. Bunlar bizi qiyamətədək burada tuta bilməzlər. Özləri aclarından ölürkən, bizi necə burada tuta bilərlər ki!? Məncə, biraz dözək. Yerləri bölsünlər, sonra bizdən əl çəkərlər. O zaman özümüzü buradan qurtarmağın yollarını axtararıq. İndi biraz özümüzü toparlamalıyıq. Canımıza güc gəlsin. Zalimin ayaqları altında əzilmək türkə yaraşmaz!
- Qurdana: Fərəc bəy doğru deyir. İstər burada, istər orada, sürgün əsarətdir! Əsarəti yenmək gərəkdir! Görünür ki, bu

türk düşmənləri millətimizin hamısını öz yer-yurdlarından sürgün etmək istəyirlər. Bəs o zaman ana torpağımız Azərbaycana hansı tülküləri və çaqqalları yerləşdirəcəkdir? “Vadi qurdsuz qalarsa, çaqqal qurdlar vadisinin ağası olar!” Harda olursaq vətənə qayıtmalıyıq. Azərbaycan yolumuzu gözləyir. Anamızı naməhrəmlərin əlinə verəmərik! Əsla kimsə özgə torpaqlarda öləcəyəm deməsin. İçinizdəki “Əli” nuru sizi qara düşüncələrdən qorusun. Yahu!

☆ ☆ ☆

“Qırx beş yazdan” (yaz ayının ortası) yolda ikən yamaclardan qar üzülməmişdi! Bu durumla bağlı Sona ananın ağzımıza saldığı *“Babılı amandı, bir çuval samandı!”* sözünü hamı əzbər olmuşdu. Sona ananın anlatdığına görə, “*qışın bitməsilə yazın gəlməsi arasında ilk 45 gün çox önəmlidir. Bu 45 gündə sağnaq yağışları torpağı yenidən canlandırar. Yaz çiçəkləri pöhrənər. İnsanların sağlığına yararlı olan göyərtilər baş qaldırar. Əkin yerləri sulanar. Qışdan qalan quru samanların yerini yam-yaşıl göyərtilər alar.”* Maşallahxanın da dediyinə görə, bölgənin yazı iki ay gecikmişdi. Yazın iki ayını geridə buraxırdıq. Lakin, yazın ətirli havasını yavaş-yavaş duymağa başlayırdıq. Biz, yeni ilin gəlib-getməsini belə, duya bilmədik. Bir anlığına bayramı anımsamadıq. Bu üzdən nə Yaz, nə Oğuz, nə Ərgənəkon, nə də Novruz adları içimizdə hallanmadı. Qışın sonlarına yaxınlaşdıqca, hamının pislik içində olduğu üzə vururdu! Bizim ən böyük bayramımız bir an bu pislikdən qurtarmağımız idi.

Buzların ərimәsilə axar sular gözümüzün önündə dolaşaraq alçaqlara, oradan isə caddənin qarşısında axan Qamasiyab çayına tökülürdü. Bu isə, gerçəkdən çox acı verici durum idi. Qamasiyabdan daha çox, bizim axar sulara ehtiyacımız var idi. Ona görə də, bu suyu durdurmağımız gərəkirdi. Bununla bağlı hər kəs bir söz deyirdi. Fikirlərin bir araya gəlməsilə yeni-yeni yöntəmlər ortaya çıxırdı. Həmin günlərin birində Cahankişi əmidən önəmli bir yöntəm ortaya gəldi. O, hamını bir araya toplayıb dedi:

- Övladlarım sizə bir yol deyəcəyəm. Biz bu yolu Coşunda həyata keçirtdik. Orada sonuc gözəl oldu. Burada da axar sular daha çoxdur. Yağmurlu yerə bənzəyir. Biz beş-altı axar suyu birləşdirsək kiçik bir göl vəya hovuz yarada bilərik!
- Kişixan əmi: Aqsaqqal bu necə olan işdir?
- Cahankişi əmi: Bir az gənclərimizə iş düşər. Ancaq, çox çətin deyildir. İlk öncə bir-birinə yaxın olan axar suların ortasını seçməliyik. Sonra, hovuz olacaq ən uyğun yeri tapmalıyıq. İlk oncə yuyunmaq üçün bir kicik hovuz gərəkir. Bu hovuz üçün daş, qırmızı torpaq, budaqlı ağac, külüng və bel gərək olacaq. Evlərin sağ yanında bu hovuzu quraşdırmaq düzgün olar....

Cahankişi əmicanın ortaya qoyduğu düşüncə hamının bəyənisini qazandı. Tezliklə kəndxudanın yanında bu iş danışıldı. Hovuz işinə kəndxuda birbaşa Maşallahxanı yetgiləndirdi. Maşallahxan isə, Baba Qasımdan usta gətirərək orada işləyən bizlərə də maaş verəcəklərini söylədi. İki hafta içində işin təməli atıldı. Kənd ağası kəsintisiz işin gedişatını

gözaltına alırdı. Hər nə olsa, onun mülkü sayılan mahal abadlaşırdı. Bir də 50-60 nəfərlik qocalmış bir xarabalıq kəndə 40 nəfərin artmasını kim istəməzdi ki? O, indi 100 nəfərlik bir kənd ağası sayılırdı!

Cahankişi əmicanın memarlığıyla 1.5 metrə dərinliyi olan 20 metrə qaralıq bir qazma duvar çəkildi, sonra evdən 10 metrə aralı yamaclar uzantısında iki metrəlik daşdan, ağacdan devar işlənildi. Üçüncü devar da ikinci devar kimi tikildi. Axar su cığırları qazma arxlar aracılığıyla birləşərək daha geniş orta arx oluşdu. Orta su yolu hovuzda toplanaraq, dilədiyimiz iş oldu! Hovuzun daşmaması və yıxılmaması üçün hovuzun alt qatının iki küncündə lülələr yerləşdirildi. Lülələrin hovuz dolunca açıq tutulmasıyla artıq suların axması sağlanmış oldu.

İki hafta çalışmağın sonunda istədiyimiz oldu! Bu olay Bədiabad sürgünündəki ən gözəl anımız idi. Kəndağasının sevinci sınır tanımırdı. O, hər gün işimizdən ötrü kişilərə 15, qadınlara isə, 10 tümən əmək haqqı verdi. Son para gördüyüm gün, fədai qardaşımın mənə verdiyi iki ədəd beş tümənlik milli pulumuz idi. Daha ondan sonra nə pul gördüm, nə də qardaşımı!

Günəşin saçmasıyla hovuzun suyu biraz da olsun ılıqlaşmışdı. Bu isə, gənclərin çimmə həvəsini artırırdı.

☆ ☆ ☆

Fatime İslamie Mərağeyi və Cəvanşir Adeli-e Sarabi Ağaşeyx Sadıq ağanın bircə səhifəlik hökmüylə haramlıqdan çıxaraq halallaşdılar.

Olqa ilə mən artıq eşləşdik. Tərlan rəsmən uşağımız oldu. Ağaşeyx Sadiq ağanın aldatılması beş yüz tumənə başa gəldi. Maşallahxan yenə məni çaşdırdı. O, ağanın rüşvətini öz cibindən verdi. Ancaq kimsənin bilməməsini istədi. Maşallahxanın planına görə, mənimlə birlikdə oğlumla eşimin də kimliyi yolda itmişdi. Buna görə, yeni bir kimlik almaq gərək idi. Çünki kimliksiz bir ailə olduğumuz isbatlana bilməzdi! Bu da İslam şəriətinə görə haram sayılır! Ona görə, Ağa şeyx Sadiq ağadan keçəri bir onay lazımdır. Sözsüz ki, bu gənc ailə ilk fürsət əl verincə, Nəhavəndə gedərək noterə baş vuracaqlar! Ağaşeyx Sadiq ağanın bu yalana damğa vurması isə bir qızıl gül arasında 500 tümənlik oldu!

Artıq Olqa hər kəs tərəfindən Fatma səslənilirdi. Mənim sevgili eşim Fatma! Sona ananın xınası ilə sarı saçlarının boyası dönmuş gözəl gözlü xanımım! Hər gecə sevdasında əriyib qoynuna cuman sevgilim!

Qurdananın məsləhətilə salonun ən son iki otağı bizə verilmişdi. Əslində, bizimlə qonşu otağın arasını bir boş otaq kəsmişdi. Günlərimizin necə keçməsini gözlərimidən oxumaq olurdu. İkimizin də yorğun gözündən bal ayının olduqca dadlı sürməsi oxunurdu. Günlərimizin hardan gəlib-getdiyi bəlli olmurdu. Hər kəs tarlada çalışarkən, analar Tərlanı bəhanə edərək mənimlə Olqanı erkən evə göndərirdilər...

Muzu ayındaydıq (Xurdad ayı). Yeralması, buğda, yayma, günəbaxan, soğan, göyərtilərin əkilmə işi bitmişdir. Əkinin gec başlaması pöhrəniş işini gecişdirmişdi. Buna baxmayaraq, Elmira bacının və ağbirçək anaların istədiyi göyərtilərin baş qaldırması başlamışdı. Hər gün Qurdananın öndərliyində beş-on nəfər Qamasiyab çayının yanına düşür, bolluca göyərtilə evə dönürdülər. Yamaclardan çəkilmiş Qamasiyab çayının çevrəsinədək istənilən yarpız, ağ xətmi, gövzəban, çay alağı, bizövşə, lağ lağa, kəhlik otu, şahtərə, yaz gülü, çoban yasdığı, yoşan və mənim bilmədiyim yüzlərcə “türkə çarə” göyərtiləri pöhrələnmişdi.

Günlərimizin necə geçməsi marağında belə, deyildik. Olqaya qovuşmaq, onunla bir yastığa baş qoymaq bütün yaşam fəlsəfəmi oluşdurmuşdu. Tərlanın öz oğlum durumuna gəlməsi daha sevindirici hal olmuşdu. Biz üçümüz dünyanın ən xoşbəxt insanları halına gəlmişdik. Olqanın üzü gülürdü! Mənə hər baxdığında, sanki ürəyindən bir qızıl gül qoparır, öpür, üzərimə uzadırdı!

Maşallahxanın bizə olan ilgisi hər an artırdı. O, artıq bizdən birisi olmuşdu! Onu evində görən olmurdu. Onun üzü yalnız bizim yanımızda gülürdü. Kəndağasının əngəlli qızının əri olmasının bütün kədərini sadəcə bizimlə paylaşırdı. O, qısa zaman içində Olqayla anlaşmağa başlamışdı. Olqaya qızım deyirdi. Tərlanı isə az qalsın yalayırdı. Onun hayat yoldaşını kimsə görməzdi. O, evdən bayıra addım atmazdı. Yazıq qadın, ifliclik içində sürünürdü. Maşallahxanın dediyinə görə, Xürrəmabadda atasının Bərəkətağaya çoxlu borcu qarşılığında

kəndxudanın qulu olmuşdu. Uşaqlığından kəndxudanın iflic qızının nökəri seçilmişdi. Özünün 10 yaşı, iflic qızın isə 7 yaşı çağlarından aralarında məhrəmiyyət siğəsi oxunmuşdur. Maşallahxanın başqa qadınla evlənməsi Bərəkətağanın əmrilə yasaqlanmışdı. 30-ildən çoxdur ki, yazıq Maşallahxan həm qul, həm nökər, həm də kəndağasının gürəkəni idi. Ortada nə uşaq var, nə də ortaq yaşam! Bundan ötrü Maşallahxan birinci fürsət əldə edərək bizə göz-qulaq olma adı ilə yanımıza gəlir, yeyir-içir, əlindən gələn yardımı əsirgəmirdi. Biz, onu dünyanın ən əsir qulu sanırdıq. Həmin qaynaşmanın biri Olqayla mənim üçün gözlənilməz oldu. O, bir axşamçağı nökərilə birlikdə iki qoçla yanımıza gəldi. Elliklə hovuzun qırağında döşəndik. Nökər, iki qoçun birisinin başını kəsərək görmədiyimiz bir yemək törəni düzənlədi. Maşallahxanın dediyinə görə, bu qonaqlığın təməl nədəni Olqayla mənim evlənməyimiz idi.

☆ ☆ ☆

Sağnaq yağışlarının başlamasıyla qayalardan axan güclü sular ilə birlikdə narın-narın daşlar da yeri süpürə-süpürə tarla boyu qazdığımız çuxurluqda qırçınlaşaraq gözəl görüntülər yaradırdı. Maşallahxanın yamaclardan qopan qumsal daşların əkinçiliyi imkansız qılması sözlərindən yola çıxaraq 100 metrə uzunluqda, iki metrəlik enində və bir metrəlik dərinliyində tünel qazmalı olmuşduq. Bu işin çox çətin olmasına baxmayaraq, son dərəcə gərəkli olduğunu düşünürdük. Ac qalmamaq, pul əldə etmək, bir işlər görmək iradəsilə bölgədə imkansız sayılan böyük başarı

əldə edildi. Qum daşlarının tarlalardan uzaq tutulması uğurlu olmuşdu. Bu işin də ağıl mərkəzi hovuz fikri kimi yenə Cahankişi əmican olmuşdu. Jandarmadan, Baba Qasımdan bu işi görməkdən ötrü Bədiabada gəldilər. Jandarma başqanı başçavuş Dikgöz ilə birlikdə görmədiyim yeni bir çavuş, iki əskər, Baba Qasımdan isə, kəndxuda Mirzə Məsum ağa iki köməkçisiylə dünəndən Bərəkətağanın qonağı olmuşlar. Onlar, hovuz və qum barajı tikintilərinə maraqla baxırdılar. Mirzə Məsum ağa belə işlərin Babaqasımda da olmasını istəyirdi. O, bu haqda Cahankişi əmicandan söz aldı. Bu iş qarşılığında ona yaxşı pul ödəyəcəyini dedi.

İlıq yaz günləri yerini isti yaya vermişdi. Yamacların su axımı azalsa da, tam kəsilməmişdi. Hər gün tarladan evə dönərkən hovuzda çimirdik. Əski parçaların quraşdırılması ilə hovuzun evə yaxın küncündə kiçik bir qapalı hamam düzəltmişdik. Dörd yanı tutuqlu hamamdan yalnız xanımlar istifadə edirdilər. Günlərimiz olaysız geçirdi. Olqanın ürək bulantısından ikicanlı olması bəlli olmuşdu. Elmira bacının sıxıca istəyilə Olqanın daha yaxşı yeyib-içməsi gərəkirdi. O, Olqanın dərin arıqlama içində olduğunu deyirdi. Olqanın hər gün zəifləməsi gizlənilməz idi. Elmira bacının dedikləri çox doğruydu. Elmira bacı bir gün mənə belə söylədi:

- Cəvanşir, Olqanın durumu yaxşı görünmür. Yazıq qızın bədəni get-gedə əriyib gedir. Qorxuram uşağınızı salsın. Bunları bilməyin gərək. Mənim də əlimdən bir iş gəlmir. Bu qərib-qurbət yerlərdə də doğru həkimxana olmasına inanmıram. Bəlkə Olqanı böyük bir şəhərə götürək. Qızın bu

durumdan xəbəri olmamalıdır. Yoxsa əl-ayağını itirib özünə və uşağına ziyan verə bilər. Mən hələlik candan düşməməsinə çalışıram. Ümid edirəm ki, Olqa üçün bir işlər bacarım!

- Elmira bacı durum çox pis görünürmü?
- Cəvanşir, təbiblər xəstəlikləri olduğundan böyük göstərərlər. Bu bir məslək gələnəyidir. Mənim görəvim xəstəliyi saran qaranlıqları görməkdir. İşığı hərkəs görər. Olqa gözümüzün işığıdır. Onu sevən tək sən deyilsən. Hər kəs Olqanın sevilməsilə sevinir, kədərilə üz-gözdən düşür.
- Elmira bacı, mən Olqasız yaşaya bilməm! Olqa yaşamımın anlamıdır. Bu dünyada paylaşacağım kimsəm qalmadı. 23 yaşında yapa-yalnızam. Bütün ailəm torpaq oldu. Özümü boşda görüncə Olqa əlimi tutdu! Yaşantımda ilk kəz sevginin nə olduğunu anladım. İndi tanrı bunuda mənə çox görürmü? Bax əllərimin titrəyişinə! Bax gözlərimin axmasına! Artıq kimsədən utanacağım yox! Kimsədən saxlayacaq gizlim yoxdur. Onsuz bir anım olmasın belə! Uşaq dediyin Tərlan var! Olqa sağlam olsun yetər!

Elmira bacının mehriban əllərinin boynuma sarılmasıyla, pis durumda olduğumu düşünərkən utancımdan az qala yerə girəcəkdim! O, ansızın anım yaşam boyunca ən utancverici olayım olmuşdu.

- Elmira bacı: Sakin ol biraz, oğlum! Bir yolunu tapacayıq! Bəlkə də ortada ciddi bir şey yoxdur. Sinir gərginliyi də ola bilər! Boş yerə sənin də canını yaxdım oğlum! Umudvaram

ki, ikisi də sağ-sağlam aramızda olsunlar! Nəhavəndə gedincə doktora gedib arxayın olayıq! Elə deyilmi Cəvanşir?

- Bağışla Elmira bacı, bir anlığına özümü itirdim. Siz doğru deyirsiniz sakit olmalıyam. Bu, ikimizin aramızda qalsın lütfən!
- Sən pis iş görmədin ki Cəvanşir! Özünü üzmə! Sevgini gizli tutmaq böyük günahdır. İnsanın ən gözəl duyğusu heç gizli tutularmı! Gözəlliklər gizli tutularsa, günəşin saçaqlarının bir anlamı qalarmı? Gül-çiçəklər açarmı?! Gecənin qaranlıq bağrından dan şəfəği qoparmı heç? Evrən qaranlıqdan işığa atlarmı heç! Sevgi dustaq olarsa insanın çəkməyə nəfəsi qalarmı? İki damcı sevginin adı yaşamdırsa, demək o qutsal fidandır! Qudsal fidanı gözbəbəyi kimi qoruyub, böyüdüb yaşam etmək gərəkdir Cəvanşir! Bu iş isə, gizliliklə, utanmaqla olmaz! Sən eşqinə qarşı ən arı göz yaşları tökdün! Gözyaşların qutlu olsun oğlum!
- Elmira bacı sağol! Gözəl sözlərinlə məni duyğulandırdın! İstərsiniz Nəhavəndə getmək üçün Maşallahxandan yardım istəyim?
- Yox! Onsuz da Maşallahxanın dediyinə görə, on gün içində Nəhavəndə gedə biləcəyik. Bu bizim üçün ən əlverişli

☆ ☆ ☆

zamandır. Bu sürəkdə Olqanın durumunu bir daha gözdən geçirərəm.

**1325/ 1946 yaz**

Havaların birdən-birə istiləşməsi ilə başımıza yağmur olub yağan çeşidli miğ-miğaların /ağcaqanad/ öhdəsindən gəlmək mümkün olmurdu. Buraya sürgün düşdüyümüzdən bəri belə bir bəla yaşamamışdıq. Fars rejimilə doğa birliyi əl-ələ verərək var-yoxumuzu dağıtmağa qalxmışdır. Olqayla Cabbar əminin gündən-günə əriməsinə qarşı acizləşdiyimiz günlərdə başımıza bir də malaria /sıtma/ qorxusu gəlməyə başladı. Nəhavənddən Baba Qasıma, oradan isə bütün həndəvərə DDT pompaları dağıdılmışdır. Bədiabad kəndinə verilən DDT payından iki çəlləyi də bizə verilmişdir. Dr. Elmira malariyaya qarşı gərəkən tapışırıqlar versə də, əlimizdən bir iş gəlmirdi. İki çəllək DDT dərmanı ilə milyonlarca anofel mığ-mığanı aradan qaldırmaq mümkün deyildir. Aylarca yaz fəslini gözlərkən, yazdan qaçış zorunda olduğumuz ap-aydın görünürdü. Hərkəs indidən qışı özləməyə başlamışdır. Dam-duvardan mığ-mığa yağırdı. Bizim üçün bütün mığ-mığalar malariya amili sayılırdı. Qış gecələrindəki qurd ulamaları əsəblərimizi təslim edən mığ-mığa vız-vızının yanında ruhumuzu oxşayan Mozart simfoniyası kimi görünürdü.

Elmira bacıyla Qurdananın istəyinə görə hovuzun suyu boşadılmışdı. Qurdananın kəsin istəyilə çevrəmizdə olan yığılmış suların üzərinə neft səpilmişdi. Sinəklərin /mığmığa/ qarşısını almaq üçün evlərin bütün pəncərələri bağlı saxlanılırdı. Mal-davara gündəlik baxım daha sıxlaşmışdı. Heyvanları ancaq günortaya qədər çölə çıxarırdıq. Axşam olunca sinək seli yola düşürdü. Bu üzdən evdə qalmağa üstünlük verirdik. Bütün

bunlara rəğmən evin devarları ölü və diri mığ-mığalarla bəzənmişdir. Əlimizdə yaş dəsmallarla bu mızı ağcaqanadlarla savaşa qalxmışdıq. Gündüzlər bir yana, gecələr də dincəlmək bizim üçün yasaq olmuşdur. Bu gözlənilməz bəladan qurtarmaq üçün əlimizdən gələni edirdik. Günləri gecəyə, gecəni isə gündüzə bağladığımız üçün zamanın geçməsini unutmuşduq. Bu bəlanın başımızdan aşmasının sürəcini tam anımsamayıram. Lakin, 5 nəfərin Bədiabadda, 20-ə yaxın insanın isə Baba Qasımda malariya zəhəri üzündən ölməsinin qorxusunu yaşarkən öz başımıza gələn bəlaların unudulması imkansız idi. Hər gün birisinin ölüm xəbərini alarkən, bu kəz öz sıralarımızda titrəmələr, qızdırmalar, ürək bulanmaları, aşırı halsızlıqlar görünməyə başlamışdı. Elmira xanımın bütün çabalarına qarşı içimizdən üç nəfər ölüm döşəyinə düşmüşdür. Üzərinə əsdiyimiz Tərlanımız, gözəl balamız və 60-65 yaşarası Nərgiz xala malariya xəstəliyilə üz-üzə qalmışdırlar. İki körpə balamızın, bir də yaşlı xalanın durumu ilə bağlı kədxudadan yardım istənildi. Olqa, mən, bir də Kişixan əmilə Maşallahxan üç ağırlaşmış xəstəni Baba Qasıma qaldırdıq. Jandarmanın iki cip maşını bizi Nəhavəndə götürdü. Qorxduğum başıma gəlmişdi. Südərmər balamız Tərlan Olqanın qucağında bütün dərdlərilə vidalaşmışdı! Sap-sarı solğun yanaqları ay parçası kimi parıldayırdı. Artıq, günlərdən bəri həniltisilə dirəniş göstərən soluq yerini tam səssizliyə buraxmışdı. Körpə Tərlanın cansız məsumluğu öksüz bir tablo kimi gözümüzün qarşısına tikilmişdi. Olqanın gözləri qaynar bulaq kimi dayanmadan aşar-daşar olurdu. Sol çiynim Olqanın göz yaşlarından islaq məndilə dönüşmüşdü. Doğrusu, nə edəcəyimi düşünə bilmirdim.

Özümüzdən asılı olmayaraq, Olqayla düyün-düyünə olmuşduq. Jandarma əskərin bütün çalışması bizi sağ-sağlam amaca çatdırmaq idi. Onun yanında oturan Maşallahxanın və arxamızdan gələn Kişixan əmilə Elmira xanımın başımıza gələn faciədən bilgiləri yox idi. Olqanın səssizcə ağlaması bəzən hönkültüyə dönsə belə, cip ilə yol arasında olan dəhşətli çəkişmənin nəriltisi onu eşitməyə imkan vermirdi. Biz, Bədiabad sürgününə sürülərkən də bu yolda olmuşduq. Ancaq, o zaman avtobusun içində olduğumuz üçün bu qədər işgəncə görməmişdik. Qışdan çıxan sökülmüş yollar bu maşınını hardasa dalqalar qoşatmasında dəngəsini dənizə uduzmuş teknəyə bənzədirdi. Yazıq əskər bir qarış düz yoldan ötrü maşını sola-sağa bururdu. O, Tərlanı yaşatmaq üçün bəlkə də özünü və bizi belə yola qurban verməkdən çəkinmirdi!

Əlimi Maşallahxanın çiyninə vuraraq səsləndim:

- Maşallahxan əmi dayandır maşını!
- Maşallahxan:  Eşitmirəm! Nə dedin?
- Durdur maşını dedim!
- Niyə? Həəə başa düşdüm. Hacət! (Şoferə doğru) Biraz dayanırıq sərkar!
- Əmi biraz deyil kəndə dönürük. Ürəyimizin parçası yaşamır artıq! O, bizi yalqız buraxdı! Balamız öldü!
- Olqa: Əmican Tərlanım da öldü! Bu qədər zülmə dözmədi! Özünü rahatlar ikən bizi yasında oturtdu. Cəvanşir, oğlumuz öldü! Mən onu qoruya bilmədim. Bax gör necə gözəl yatıb! Onu qısqanıram! Heq,heq, heq!

Doqquzu kənd yerlisi, üçü isə bizdən toplam 12 nəfər anofel sinəklərin bəlasından can qurtara bilmədilər. Maşallahxanın əlil xanımından sonra kəndin 7-dən 70-ə bütün sakinləri Bədiabad məzarlığında toplanmışdı. Bu gün Bərəkətağanın anofel qurbanlarına verdiyi 40-ci gün anma mərasimidir. Tərlanın ölümündən 3-gün, sonra Quzu balamızın, habelə Nərgiz xalanın da ölülərini Bədiabada qaytardılar. Torpaq altında səssizcə uyuyan yeni qurbanların məzar üstü olduqca səsli görünürdü. Hardasa 100-ün üzərində ağlaşıb dururdular. Sona ana həzin səsilə ardı-ardına nazlamalar, laylalar və oxşamalar oxuyurdu. O, elə gözəl səslə bayatıları ardı-ardına qoşurdu ki, türkcəni anlayan-anlamayan hərkəs hönkür- hönkür ağlaşırdı. Sona xalanın səsinə səs verən Qurdananın da laylaları ürəyi oxşayırdı. Ancaq, Sona ananın bu haqdaki iddiası bam-başqa görünürdü. Uşaqkən anamın lay-lay oxşamasıyla yuxuya getməyə alışmışdım. Anamın uşaqlarına olan bütün sevgisi lay-laylarında, oxşamalarında, bənzətmələrində, nazlamalarında üzə çıxardı! Hələ ki, hələdir Sona ananın bir-iki bayatısını unutmamışam. Onun, Tərlanla bağlı dediyi nazlama belə idi:

- *Tərlanım nazdı balam,*
  *Ona tay azdı balam,*
  *Əmicdir Tərlanımı,*
  *Solğundu acdı balam!*

*Dünyada çox bala var,*

*Sarı var, ağ-qara var,*

*Tərlanım açmır gözün,*

*Ürəyimdə yara var!*

Sara ananın qoşduğu anı bayatılar hamıdan çox Olqanın hönkür-hönkür ağlamasına nədən olurdu. O, özünü yabancı gözlərdən qorumağa çalışsa da, bilmədən ay kimi saf üzü və sarışın saçları qorxulu görüntülər yaradırdı. Olqa, Tərlandan sonra çox üzülsə də, qarnı biraz göbək bağlasa da, gözlərinin altına qara iz düşsə də, yenə içimizdə olan ən gözəl yaradıq sayılırdı. Qəbr üstündəki iki jandarma çavuşun dolanıb-dönüb Olqaya baxışları qorxumu daha çoxaldırdı. Olqanın bu ikisinə qarşı tutumu olduqca sakit görünürdü. Bəlkə də, onun oğru gözlərdən xəbəri belə, yox idi! Mən Olqanı bu qorxunc baxışlardan uzaqda tutmalıydım. Olqa gözəl, gənc, çəkici idi. Qaratum çadırasına bürünsə belə, yenə göz qamaşdırıcıydı. Bu yüzdən sevgilimi, eşimi, sona qalmış umudumu çaqqallara yem etməmək üçün farsca Bərəkətağaya üz tutdum:

- Cənab Bərəkətağa xanımım Fatma xanım uşağımızın ölümündən çox üzgündür. Ayaqda dura bilmir. Mümkünsə bizim getməyimizə izin verin.
- Kənd ağası: Biz də birazdan gedəcəyik. Sizin bir daha başınız sağolsun. Gedə bilərsiniz. Hə, bir də oğlunuzun baş daşını yazdırmaq istəyirəm. Onun adını, soyadını, doğum yerini tarixini Maşallahxana verin.

Baş üstünə" deyərək Olqanın əlindən tutub məzarlıqdan uzaqlaşmaqdaydıq ki, jandarma çavuşlarının birisi məni səslədi:

- Dayan! Cəvanşir dayanın! Sizə deyəcəklərim var!

- Buyur Sərkar üstüvar/çavuş/.
- Balanızın bu qırxıncı günündə sizə bir sevindirici xəbərim var. Sizin böyük bölümünüzü "Bədrabad" şəhərciyində yerləşdiriblər. Eşitdiyimə görə, minlərcə türkü Azərbaycandan o şəhərə köçürdüblər. Hələ də köçürürlər. Ancaq, siz bu xarabalıqda hər gün bir xəstliklə ölüb gedəcəksiz. Oranı mən görmüşəm. Özüm də o bölgələrdənəm. Ora daha böyük və abaddır. Beş il öncə amerikanların əlilə salındı o şəhər! Öz orduları üçün gözəl şəhər tikdilər. Bütün yerli əhalini yaxın yerlərdən işə aldılar. Onlar gedəndən sonra ora boş qaldı. İndi Azərbaycandan göndərilən türkləri orada yerləşdiriblər. Sizi də oraya götürmək istəyirdilər. Ancaq kəndxuda sizi saxlamaq üçün əlindən gələni edir. Bu kənd batır. Bərəkətağa isə, sizin buraya gəlməyinizi özünün torpaqları üçün bir qurtuluş hesab edir. O, özündən sonra kimsəni düşünmür. Jandarma sizin Təbrizdən gələcək kimliklərinizi gözləyir. İstərsiniz sizi tez oraya götürüm. Əlinizdə pulunuz varmı?
- Yox! Bizim hardan pulumuz olacaq ki! Bizim hər nəyimizi əlimizdən alıblar. Bir də ki, biz burada böyük bir ailə kimiyik. Getməli olarsaq, birlikdə gedərik. Qalmalı olarsaq da, birlikdə burada qalacayıq. Xoş niyyətinizə görə sağolun sərkar.
- Çavuş: Bunu biraz düşün! Təbrizdən gələn bəlgələr çox pis də ola bilər! Bir də burada qalıb nə edəcəksən! Bədrabad da pul qazanmaq imkanın vardır. Mən səndən indi pul istəmirəm. Qazan, sonra verərsən. Borcun olsun!

- Baş üstünə sərkar biraz düşünərəm, sonra sənə xəbər verərəm.
- Bu bacımızı burada çürütmə! Qarı-qocanın yanında nə işiniz var! Mən, sizi buradan qurtararam! Başa düşdünmü? Düşün, gəl mənim yanıma!
- Oldu sərkar sağolun!

Olqa, çavuşun baxışlarından çox qorxmuşdu. Doğrusu, mən özüm də Olqadan geri qalmırdım. Hər ikimizin əl-qolu əsirdi. Jandarmalardan biraz ara açar-açmaz tez evə girdik. Evdə, kimsə yox idi. Qarşılıqlı özləm içindəydik! Jandarma qorxusu olmadan da, belə bir anda baş-başa qalmağın özləmini çəkirdik. Ancaq, qorxu atlatma adına ortada olan bütün sakınları yenərək sızlayan ehtirasımızı özgür buraxıb, az-acıq da olsa acılarımızı içimizin atəşində gömdük. Mən və Olqa! Bir tin, bir tən! Artıq aramızı kəsən nə öznəl, nə nəsnəl, heç bir şey qalmamışdı!

Jandarmadan yayılan "Bədiabad"dan "Bədrabad"a köçdürmə olayı olduqca xeyrimizə işləmişdir. Belə ki, bir o qədər də barlı olmayan əkin yerlərinin bütünü bizə bağışlanmışdı. Bərəkətağa, bizi "Bədiabad"da tutmaq üçün əkindən olan bütün qazancını bizə vermişdi. O, hətta buğda toxumunun yığılandan sonra "Baba Qasım" dəyirmanına daşırtmasının və una çevrilməsinin ödəməsini belə, üzərinə götürmüşdü. Bu isə, onun üçün bizim ən azından qışa qədər Bədiabad kəndində qalacağımızı qarantı edirdi.

Azərbaycan Yaylasının ən güney bölümünü oluşduran Zaqros dağlarının payız yelləri Səhəndin Təbrizə sarı əsdirdiyi axşam

küləklərinə bənzəyirdi. Başımıza yağmur kimi yağan fəlakətlər üzündən iki-üç kərədən artıq gözəlliyini görmədiyimiz "Qamasiyab"dan üzərimizə əsən soyuq küləklər özüylə əlvan yarpaqların izini də gətirirdi. Cabbar əminin gündən-günə əriməsinə qarşı kimsənin əlindən bir iş gəlmirdi. Artıq bölgədə bitən bütün "Türkə çarə" bitkilər əminin üzərində təcrübə olunmuşdu. Qurdana, Sona ana, Elmira bacı bildikləri çeşidli dərman yollarını sınamışdırlar. Cabbar əminin səs tonu nəfəs daralmasından dolayı anlaşılmırdı. O, Kişixan əminin gecə-gündüz istəkləri üzündən bəzi siyası anılarını və görüşlərini yazırdı. Cahankişi əmican Quzunun ölümündən sonra sürgün yaşantımıza bir yas daha artırdı! Sevimli əmicanımızın hovuzun çevrəsini arıtlarkən yıxılıb düşməsini qalan nəvəsi Ceyran evə çatdırdı. Cahankişi əmicanı Quzunun yanında basdırdıq. Onun memarlığı ilə böyük kənd Baba Qasımda iki, Bədiabada bir, Jandarma mərkəzinin həyətində bir hovuz tikildi. Tövlənin ev kimi formalaşmasında özəl rolu oldu. 75-in üzərində yaşa qarşın gənclər kimi çabaladı. O, özündən sonra qısa istəyini Cabbar əmiyə yazdıraraq Qurdananın yanına buraxmışdı. Onun tapşırığına görə, torpağa verilmədən öncə vəsiyyətini iki kərə oxumağımız gərək idi! Cahankişi əmican yazısını belə başlamışdı:

- Sizi çox sevdiyimi bilirsiniz! Mənim qədər sizin də məni sevdiyinizi bilirəm! Gözəl Quzumu basdərarkən qəbrinin yanında bir boş yer buraxdım. Bəlkə sizin içinizdə bu yerin nədən boş buraxılmasına maraq göstərən olmadı! Mən, indi bunun sizə anlatdım! Ora mənim məzarımdır! Bilirəm

Quzuma qismət olmadığı kimi mənə də qismət olmayacaq vətən qəbri! Qaradağda evimizə düşən odun sonunda sağ qalanı Ceyranımla Quzum oldu! Tanrım məni onlar üçün saxladı! Quzum mənə əmanət olsun! Ceyranım sizə! Ceyranımın ağlamasını istəmərəm! Onun Elmira xalası kimi doktor olmasını istərəm! Bundan ötrü Elmira xalasının bundan sonra Ceyranıma ana olmasını diləyirəm! Elmira qızım da istərsə Ceyranıma ona Elmira ana deməsinə izn verirəm! Siz, bir gün buralardan gedəcəksiniz. Ümid edirəm ki, getdiyiniz yer vətənimiz olar! Əgər, vətənimizin beyni və gövdəsi öz əlimizdə olarsa, bizim də qəriblikdə qalmamıza izn verməyin! Yox belə olmasa, gah qürbətdə ol, gah vətəndə yaşa! Nə fərq edər ki! Vətən, öz əlimizdə vətəndir! Özgələrin əlində vətənin vətənliyi qalmaz ki!

Hamınızın gözünüzdən öpürəm. Tanrıya əmanət! Hovuzun yanında toplaşıb ruhuma fatihə oxuyarsınız sevinərəm! Hovuzu öz balanız kimi qoruyun!

Çavuş Dərvişlunun gözəl səsilə bu məktubu iki kəz dinlədikdən sonra, Cahankişi əminin hovuzun aşağı başında son yuyulmasına qərar verildi. Kişixan əmilə, Bayramı əmi Dan açılarkən hamının gözündən iraq əmicanı kəfənlədilər. Özündən anılar heykəli buraxan Cahankişi əmicanın son yolçuluğuna Baba Qasımdan Mirzə Məsum ağa, jandarma başçısıyla yanı-sıra çoxlu qatılım olmuşdu. Mirzə Məsum ağa Cahankişi əmicanın ilk yasının bütün ödəmələrini üzərinə alaraq, o günədək görünməyən yas törəni keçirtdi. Torpağa düşdüyü yerə çiçəklər toplandı. Hovuzun çevrəsində ehsan qazanları qaynadı!

Yazıq kişi, yaşamında görmədiyi əzizliyi yasına buraxdı! Maşallahxan öz doğması kimi əmicanın ölməsinə göz yaşı tökürdü! Cahankişi əminin belə əziz olmasının nədəni nə idi? Hərkəs bunu özündən soruşurdu. O, Bədiabadın hamısını, Baba Qasımın və Jandarma böyüklərini öz yasında bir araya gətirmişdi. Çünki, O soyuq-sıcaq bilmədən sısqa canıyla insanlara xidmət etmək üçün qoşmuşdu! Onun üçün Lək, Lur, Kürd kimi bu bölgələrdə yaşayan yoxsul insanlar ilə Qaradağda yaşayanlar eynidi! O, insanı insan olduğu üçün sevir və sevdirmək istəyirdi! Hər kəsə görə, qeyrət, sevgi, özveri örnəyi idi Cahankişi əmican! Özü ilə bağlı eşidərkən hamımızın əzbəri olan bu sözünü təkrar-təkrar söyləməkdən çəkinmirdi:

- *Qeyrət və insan örnəyini məndə deyil, öz damarınızda axtarın! Damarınızdan axan təmiz türk qanında axtarın. Kazımxan daşında axan qanlarda axtarın! Erməni köpəkinə keçid verməyən Quşçu gədiyində axtarın. Nazlı çayın axar gözyaşlarında axtarın! Məndə nə varsa, sizdə də o var! "Kazımxan"la "Səttarxan"ın, "Zeynəb Paşa"yla "İbrahimi"nin nələri fərqli? Hamısı türk millətinin balaları deyilmi? Biri Astaradan, biri Qaradağdan, o biri Quşçudan! Azərbaycan nə zaman ayrı-ayrı oldu ki? Bu millətin iliyi də, damarı da, qanı da bir axardadır. Biz hamımız türkük! Bir dünya insanı türk!*

Ardı-ardına üzərimizə gələn qara büyülər bitmək bilmirdi. Cahankişi əmicandan sonra başımıza bir də ağırlaşmış Olqa xəstəliyi kölgə saldı. Beş aylıq ikicanlı Olqanın qanaması başlamışdı. Dr. Elmira əlindən gələni etsə də, bacarıqlı olmadı.

Ağ buqcaya bürünmüş 5 aylıq doğmamış balamızı hər gün böyüməkdə olan yeni Bədiabad Türk məzarlığında torpağa tapışırdıq. Olqanın göz yaşları durmaq bilmirdi:

- Tanrım, mənim alınyazımı yazanda heç acımadınmı? Heçmi bu yazıq, öksüz, qəribana ağ səhifə buraxmadınmı? Mən, özümümü, yoxsa sənimi qınayım? Ey Tanrım!

Olqanın axar göz yaşları, geyinimin sol yanını islaq-islaq etmişdi. Olqanın bu halilə dönüb mənə ürək-dilək olmasından bərk utanırdım:

- Belə kövrək-kövrək baxma sevgilim! Çiyinin çiyinimə, biləyin biləyimədir! Biz birlikdə nələr atlatmadıq ki! Biz, inqilab uşağı deyilikmi? Bizi inqilab buralara çəkmədimi? Bizi inqilbacır bir-birimizə aşiq etmədimi? Olsun, qoy körpələrimiz də, doğmamış balamız da bu inqilabın qurbanı olsun! Mənə elə kövrək-kövrək baxma sevgilim! Bir deyil, iki deyil, ən azından üç balanı qucağına verəcəyəm! Sel gəlsə də, fırtanalar əssə belə, Olqa-Cəvanşir romanı sonsuz qalmayacaq!
- Səkinə Ana: Yahu, Ya haq, Ya Vəliüllah! Çalışın balalarım! Tanrı yarınız olsun, Əli gücünüz olsun! Qarşıda qış var! Bir buğda yerdə buraxmayın. Süfrəmiz bərəkətli olsun! Ya hu, ya haq!

☆ ☆ ☆

Payiz əsintisilə bir sola, bir sağa boylanan qızıl saçaqlı buğda dalları yaşam umudunun tükənməzliyini göstərirdi. Dalların ötəsindən ruhumuzu oxşayan ətənə sərçələrin cük-cük səsi, dünənin bugünə bağlandığının yeni-yeni yaşam səslərini bizə dinlətirdi. Buğdaların yaşam qoxusu ufacıq kövşənimizdən qalxaraq qaranlıq odalarımıza dirilik qoxusu yayırdı. Bu, bizim üçün özüə bir gün sayılırdı. Maşallahxan başda olmaqla yerli bədiabadlılardan da bizim bu gözəl toy-bayramımıza qatılanlar var idi. Doğrudan da, buğda, yeralması, noxudla birlikdə torpağın ürəyindən əldə etdiyimiz tərəvəz ürünlərin telinə baxınca, yaşamın necə gözəl olduğunu anlayırdım. Mən, doğrudan kənd uşağı olsam da, şəhərdə boya-başa çatmış birisiydim. Mənim bir tarladan, buğda zəmisindən, qovun kərdisindən iynə ucu boyda bilgim yox idi. Biz, şəhər uşaqları, yaşamın dadını kərpiç kürələrinin nəriltisilə, mazotlu maşınların ölüm dağıldan kömür tüstüsü ilə öyrənmişdik. Bizim üçün yaşamın anlamı quraşdırılmış bənzətmələrdən ibarət idi. Halbuki, yaşamın anlamını üzərinə qonmuş inci-inci qızıl buğda tozlarının ətirindən öyrənmək gərəkirmiş!

Buğdaların tellənib qatırlara yüklənməsi 20 günə yaxın zamanımızı almiş oldu. 20 gün dünyanın bütün tərsliklərini geri çevirmiş olduq. Səhər saat 6-dan axşam çağlarınadək doğanın qoynunda yedik, içdik, əyləndik! Dünyanın elə belə də getməsini diləyən bizlər üçün anın dayanması gərək idi. Ancaq, o, bizim əlimizdə deyildi! Dünya hara, biz hara! Bir kiçik xaraba kəndin tövləsində yaşam qurma səylərimizin sürüləcək ölçüsü belə, öz əlimizdə deyildi. Uzaqdan görünən atlı bir

jandarmanın qorxusu gözümüzdə Savalan dağı kimi devləşirdi. Bir-iki toyuq, bir neçə cücə, olsa bir şəqqə bud, əldə olan sabahın qarın payını bu günün tanrı qonağıyla paylaşmaq gərəkəcəkmış. Hər nə olsa, kövşən başı bərəkət aşıdır!

Həmin günlərin birində Maşallahxan məni özü ilə ilk Baba Qasıma, sonra isə Nəhavəndə götürmək üçün yanımıza gəldi. Mən Olqanın durumunu bəhanə edib, Kişixan əmilə Dərvuşlu bəyi önərdim! Olqa "get beynini dinləndir" deyincə, Maşallahxanın üzü güldü! Qurdana və başqalarının sifarişlərini bir kağıza yazdım. Bərəkətağanın əmrilə yola çıxdığımızı öyrənincə bu yolçuluğa olan marağım çoxaldı. Maşallahxanın nədən nökərlərilə getməməsini soruşunca, mənə "sonra bilərsən" yanıtını verdi. Sabah saat 5-də yola çıxmağımıza qərar aldıq! Bərəkətağanın tövləsindən tanıdığım iki at ilə getdiyimiz bəlli oldu. Bu iki at Bərəkətağanın ilxısından alından ən seçilmiş atlar sayılırdı. O atlar, iki aylıqkən Zaqros yamaclarında yaylağa gəlmiş bir Türk elatından alınmışdı. Dediklərə görə, soyları Türkmən atlarındandır. Mən, Maşallahxanın və Kişixanəminin köməyilə at qoşdurmağı öyrənmişdim.

- "Atı minə-minə dost etmək olar! Dost oldun ha, ölənəcək səndən başqasına ürəkdən minik verməz! At, dünyanın ən vəfalı dostudur!"

Diyə Maşallahxanla ayrıldıq. Yarın sabah arxamca gələn Maşallahxanı yalnızca iki atla görüncə marağım atdı. Çünki, o hətta Baba Qasıma gedən zaman belə, iki nökərilə iki qatırı

yanına alardı. Neçə günlüyünə getdiyimizi soruşan Olqanın cavabında Maşallahxan dedi:

- Gözəl bacıma de ki, bir həftəyə qalmaz, Cəvanşiri sağ-sağlam sənə gətirəcəyəm! Həm də, gözəl bacıma bir sovqatım olacaq! İnşallah gələn səfərə onunla birlikdə gedərik.
- Olqa: Bəs tapışırıqlar necə olmalı? Yük-yapınızı necə olmalı?
- Maşallahxan: İki atlı yük daşqamızı göndərmişəm! Darıxma bacım! Cəvanşırə yük daşıtmaram! Onu oğlum kimi, səni də qızım kimi sevərəm!
- Bəs daşqanın gedişini niyə mənə demədin?
- Nə olsa sən biləcəkdin! Qızım nigaran qalmasın!

Baba Qasımdan çıxarkən:

- Maşallah xan: Cəvanşir mən buralarda böyümüşəm. Bütün dağını-dərəsini ovcumun içi kimi tanıyıram. Sənin vətəndaşlarının hara gətirilməsini bilirəm. Amerikalıların tikdiyi bir savaş şəhərində yerləşdiriblar. Sizin də orada olmağınız gərək imiş. Ancaq bir bilgisizlik olayı üzündə "Bədrabad" yerinə "Bədiabad"a göndərilmisiniz. Mən səni oraya götürmək istəyirəm. Yolda yorula bilərsən, qusa bilərsən, düşə bilərsən! Bu iş riskli işdir. Bilsələr mənim dərimi qopararlar. Jandarma bir yandan, Bərəkətağa başqa yandan qətlimə qol atarlar! Bu işə varsanmı?
- Bəs Olqa? Sən ona söz verdin!

- Mən sizin yaşamağınız üçün ona söz verdim. Bu qızı buralardan apar! Jandarma və hətta Bərəkətağanın sizin üzərinizdə gözləri var! Mən sizi uşaqlarım kimi sevirəm!
- Oraya nə qədər yoldu?
- Çapar gedərsək axşama! Oturaq edərsək səhərə!
- Sənin göndərdiyin əl daşqa?
- Onları tanıyırsan, özləri bütün işləri yerinə yetirərək bizi gözləyəcəklər. Harda qaldıqlarını bilirlər. Sizə də bir şeylər aldıracağımı bilirlər.
- Axı mənə tapışırıqlar var.
- Olsun zamanımız çoxdu darıxma! İlk səni "Xürrəm Abad"a götürəcəyəm. Mənim şəhərimə, Luristanın mərkəzinə. Bir şüşə araq, bir də gecə kabarası! Nə deyirsən?
- Maşallahxan əmi sən nə deyirsən? Mənim araqla, kabara ilə işim olmaz! Mən, bu işləri....
- Adını Türk qoyubsan ayıb, ayıb! 24 yaşında bir igidsən! Evlisən! Fələkdən bir gecə oğramaqdan qorxursan! Maşallahxan əmin yanındadı qorxma! Məndən sənə və Olqaya ziyan gəlməz! Yallah de! Yola düşürük! Getdikmi Xürrəmabada? Getdikmi Bədrabada, həmşəhərlərinin yanına?

Xürrəmabad, Bədrabad, minlərcə sürgün düşən soydaşlarımın görüşü! Bu kişi doğrudan-doğruya dəlidir! Nədən mənim üzümdən belə riskə atlanır! Bu kişinin amacı nədir? Olmaya mənim başımı əkərək dönüb Olqanı qaçırmaq istəyir. Bu Lək, mənim kimi gənc bir sürgün türkün üstündə hesab açmış olmalıdır? Yəqin ki, yanında tüfəngi də vardır. Bu qürbət

yerlərdə, əliyalın mənimlə bu kişinin nə işi vardır? Yox! Daha uzaqlaşmadan bir bəhanə qurub evdaşlarımın yanına dönməliyəm! Başqa yandan bu kişi il boyu əlindən gələn yaxşılığı bizə edibdir. Heç bir qarşılıq gözləmədən əlində olanlardan artığını əsirgəməyibdir. Türkcəni öyrənibdir. Sadə, düzgün dost olaraq özünü təsdiqləyib. Məni yasaq bölgələrə götürür. Bu işin bütün sorunlarını üzərinə alır. Nə demişlər? "Sonunu düşünən, qəhrəman olmaz!"

Dan yerinin patlamasıyla görmədiyim gözəl sacaqların üzərində üzər kimi idim! Xəzan yarpaqları addım-addım yolun qırağına çəkir bizə yaxşı yol nəğməsi oxuyurdular! Ən son yoxuşdan yenişə varmaq üzrə qarşımıza bir kiçik tablo dikilmiş oldu! Tablonun solunda Nəhavən, sağında isə Xürrəmabad yazılmışdı! Tablonun qarşısında bir anlığına dayandıq! Gözlərimiz ildırım sürətilə bir-birinə baxtı! İlk öncə mənim atım, arxadan isə Maşallahxanın atı sağa doğru dördnala çapdılar. Artıq işin sonunu düşünmürdüm. Gedib yeni yolları yoxlamalıydım. Yaşamımızın qarşısını açıq buraxmalıydım. "Bədrabad"da məni tanıyacaq kimsənin olmasına inanmasam da, eyni havanı, qanı, dili, kültürü və qarayazını paylaşan minlərcə insanın artıq oraya sürgün düşməsini bilirdim! Bu fürsəti qaçırmamaq gərək idi. Baxmayaraq ki, Maşallahxanla bağlı bəzi sözlərdən rahaysız olmuşdum. Özümə güvəncimi itirməməliydim. Mən, bütün ailəsini vətən özgürlüyü yolunda itirmiş Cəvanşir idim. Mənim və Olqanın itirəcək heç bir şeyimiz qalmamışdır. Təbriz zindanından üzübəri təciz altında olan Olqa-Cəvanşir cütlüyünün itərəcək daha nəyi qalmışdır

ki!? Bu dünyada diləyəcəyim var idisə, o da Təbrizin Saat Meydanında yenidən "Milli ordumuzun yoxdu qorxusu..."marşını Olqa və uşağımla birlikdə eşitmək idi!

Yol, at çapdırmaq üçün uyğun idi. Qamasiyab boyunca çəkilən yolun bütün çevrəsini yaşam izləri bürümüşdür. Qoyun-quzu sürüləri, mal-davar qatarları, geniş yamaclarda taxıl topluları bölgənin yaşam tablosunu oluşdururdu. Üzdə görünən barış ortamında yaşam sürəci öz axarındaydı. Uzaqdan əl qaldırmalar, əsənlik diləməklər yaşamın gözəl üzünü göstərirdi. Mən ilk kərə belə gözəlliyi yaşadığıma görə sevinc içindəydim. Saatlarca gah iti, gah yavaş at çapdırandan sonra Maşallahxanın izilə qarşımızda yerləşən kəndin yolunu tutduq! Maşallahxan kəndə yetişmədən öncə kiçik bir söyüdlükdə atları dayandıraraq dilə gəldi:

- Cəvanşir yorulmamısan ki?
- Yox Maşallahxan əmi. Atlar yorulmasa mən yorulmaram!
- Hər kəsin dincəlməsi gərək! Qarşıda hələ yol var! Bu kənddə bir qəhvəxana var. Ora gedirik. Səndən soran olsa, cavabını qoy mən verim. Özünü lal-karlığa vur! Ən doğrusu budur! Qoy səni bu bölgələrdə biganə sanmasınlar. Başımız ağrımasın. Maşallah səsləyəcəyəm səni. əlimlə işarə edəcəyəm. Səndə əbə-büvə kimi bir şeylər de! Bu kənddə məni tanıyan yoxdur. Bir narahatlıq çıxacağını düşünmürəm.

Qəhvəxanada bizdən başqa iki üç qoca kişi oturub qəlyan çəkirdilər. İki piti, iki çay hardasa bir saatlıq dincəlməmizə nədən oldu. Qəhvəxananın arxa həyətində atlar yemlənərək

dinlənirdilər. Artıq yola düşmə çağı gəlmişdi. Hər hansı olay olmadan kəndi geridə buraxdıq. Kəndin Baba Qasımdan böyük və abad olduğunu deyə bilərəm. Atların gözəlcə dinlənməsilə qalan yolun birbaşa gedilməsini düşünürdüm. Buna baxmayaraq, Maşallahxanın bəzən yolu kəsərək bölgə jandarmasını atlatma planları var idi. Bu üzdən qarşımıza nə çıxaracağından heç bilgim yox idi. Həmin arakəsmələrin birində qarşıda olan bir jandarma durağını atlatmaqdan ötrü yoldan çıxaraq, bir ormanlı yamaca yüksədik. Hardasa çox geçmədən biraz aralı kiçik bir qurd toplusuna tuş gəldik. Doğrusu, ilk kəz toplu qurd görürdüm. Onların ardı-ardına yürüməsi çox qorxunc görünürdü. Qorxumu önləmək üçün, Qordananın Qurd sevgisini anımsayaraq o bu sözlərini təkrar etməyə başladım:

- Qurd sürüsü, önündə gedən liderinə baxar! Birinci lider, ikinci lider! Qurdların ən böyük özəlliyi böyüyünə tabe olmaqdadır. Öndə gedənin davranışı sürünün davranışıdır!

Sürüdə bizə qarşı ilgi görünmürdü. Qurdların qarınları tox, keyfləri yerində görünürdü! Maşallahxan arxaya dönərək məni sakit olmağa çağırırdı. Qurdlarla atlar bir yöndə hərəkət edirdilər. Maşallahxan atının cilovunu çəkərək məni yaxına çağırdı:

- Cəvanşir bunu qollanmağı bilirsənmi? Berno tüfəngidr. Atəşdən öncə gələn gedənini çəkməlisən! Al yanında qalsın. Məndən öncə qullanma! Gərək olsa, sənə deyəcəyəm!
- Bilirəm Maşallahxan əmi! Təbrizdə öyrənmişəm! Ancaq usta deyiləm!

- Yox! Usta olmağa gərək yox! Qorxmağa da gərək yox! Onların bizimlə işləri yoxdur. Amma yenə sən hazırlı ol! İşin pisi jandama durağının buraya yaxın olmasıdır. Bax! Tam yolun üst qatında! Görürsənmi!
- Hə görürəm. Bizdən çox aralıdır jandarma durağı. Onlar bizi görə bilməzlər.
- Yox! Amma biz onları görürük. Bu üzdən buradan geçmə riskini gözə aldıq.
- Qurdlar yoxdurlar əmi!
- Onların öz yolları var! Onlarda jandarmalara yaxınlaşmazlar. Bizim kimi onların da jandarma görmə həvəsi yoxdur. Bizdən uzaqlaşdılar, artıq qorxacaq bir şey yox!

Yamaclardan düzəngahlığa enməyimizin zaman və məkan acısından önəmli olduğunu düşünərək, daha sürətli at qoşdurmağa başladıq. Amac qaş qaralmadan Xürrəmabada varmaq idi. Xürrəmabad böyük şəhərdir. Bizi orada kimsə bilməz, tanımaz! Jandarma durağından çox uzaqlaşmışdıq. Qarşıdan gələn ardı-ardına kiçik kəndlərin yanından keçərək, böyük şəhər görüntüləri bəlli olurdu. Bir çayın qırağından keçərək, bir alçaq təpəyə yüksəldik. Təpənin enişində qarşımızda böyük bir abadlıq göründü.

## <u>Xürrəm Abad</u>

Öncədən adını eşitsəm də, bu şəhəri yaxından görmək üçün, bəlkə yüzlərcə kilometrə at çapdırmağın yaratdığı həyəcana dalib, gəldiyimin sevincini yaşayırdım. Şəhərin içində inanılmaz bir gölün dumduru suyu, Urmu Gölünün

Şərabxanasını xatırladırdı mənə! Mən, sadəcə, Şərabxanada olduğum üçün başqa gölü tanımırdım. Bir də, Şiblidən enərkən Quru Gölü heç zaman unutmayacağam. Axı o, donmuş gölün qırağında canımdan olanlar yatmaqdadırlar!

Xürrəmabad o günə kimi gördüyüm bol sulu, dağlı-bağlı və doğa formasıyla ən gözəl şəhər idi. Şəhərin qarşı tərəfinin təpəsi üzərində möhtəşəm bir tarixi qala yüz illərə qarşı meydan oxuyurdu. Maşallahxanın dediyinə görə, bu gözəl və dev qalanın adı “Fələk ül Əflak”idi. Ömrümün ən gözəl axşamını bu şəhərdə keçirtdim desəm, yalan olmaz!

Son saçaqlarıyla gömgöy gölün yatağını alaturana çevirmiş axşamın yorğun günəş işıltısının dalğaları mat qalmış gözlərimin önündə vals dansi ilə sola-sağa ləpələnirdi! Gölün kənarında azacıq insan görünsə də, göz işlədikcə çeşidli quşların uçuşu və avazını min kərə görməyə dəyərdi.

Çox geçmədən bir karvansaranın qapısından içəriyə girdik. Maşallahxan bəy ləkcə uzun papaqlı birisilə danışdı. Yerli kişi əlilə işarə edərək bizi arxasınca çəkdi. Qarşımıza təmiz geyimli başqa bir kişi gəldi. Maşallahxanla əl sıxışdıraraq, görüşən kişi mənə də “xoş gəldin” deyib salamladı. Davranışından müsafirxananın yiyəsi kimi görünən kişinin Maşallahxanla tanış olduğu bəlli olurdu. Onun arxasınca gələn ilk gördüyümüz kişi atların cilovunu bizdən alıb üçüncü kişiyə verdi:

- Birinci kişi: Nurxan atları axura ver! Axurçuya atların gözəlcə bəslənməsini denə!
- Üçüncü kişi: Baş üstünə Məşdiağa!

- İkinci kişi (Maşallahxanla danışa-danışa): Məşdiağa, üstə iki oda hazırla. Müsafirlərimizi ağırla! Təmiz yorqan-döşək saldır! Hacı xanıma yemək sifarişi ver! Dünənki qovurmadan yemək hazırlansın! Yanında da araq, manqal düzəlt!
- Baş üstünə Hacağa Ehsan! Bu saat!

Toxunma döşəmələrlə bəzənmiş müsafirxananın eyvanı çox gözəl görünürdü. Qarşımızda qırmızı güllü bir süfrənin içində yemək ürünləri üzümüzə gülürdü. Acımdan qarınımın hay-küyü utandırırdı məni. Ancaq ədəbdən əlim yeməklərə uzanmırdı. Nəyin gözlənilməsini bir türlü anlamırdım. Maşallahxanın bir kiçik işarətini gözləyirdim. Onun əli isə, bir türlü yeməklərə uzanmırdı! Maşallahxan süfrəyə baxmadan sakincəsinə oturmuşdu. Nurxan kişi hər gəlişilə süfrəni zənginləşdirirdi. Ən sonunda bir böyük bulut xaşlanmış ət, bir şüşə araq və bir kiçik manqal çubuq gətirdi! Biraz sonra Hacıağa da gələrək, "Nuş olsun ağalar buyurun. Nə lazim olarsa xəbər verin!" deyərək bizi tək buraxdı!

- Maşallahxan: Bismillah, Cəvanşir buyur. Bu gecə özünü sərbəst burax! Bunların hamısı bizdən ötrüdür! Yeyib, içib, çəkəcəyik oğlum! Bu gecə bizim gecəmizdir. Dünyanın əzabları bu gecə bizi azad buraxacaq! Bismillah oğlum!
- Maşallahxan əmi sağol! Mənə yemək yetər. Biraz yeyib yatacağam. Çox yorulmuşam. Birdə ki, mən belə işlərə alışqanlığım yoxdur. Bizim bölgələrdə bu işlər olmaz! Ya ən azından mən bilmirəm, əmi!
- Sən heç araq içmədinmi, Cəvanşir?

- Yox mən içmədim, ancaq atam və qardaşımın içdiyini görmüşəm. Mənim dərs oxumaqdan başqa işim olmadı. Bundan ötrü içkinin nə olduğunu belə, bilmədim. Mən ancaq başımı dərsilə məşğul etdim. Bu çubuğun başqa cürünü dədəmdə görmüşəm. O rəhmətli çubuq çəkərdi.
- Bu çubuq deyil. Bunun adı bafur və ya vafurdu. Bu gördüyün qaranı bununla çəkərlər. Bizim buralarda hər evdə var! Bir çoxları bunu çəkər, dünyanın qəmini, bədənin dərdini unudarlar! Bunun adı tiryəkdi. Xaşxaşdan alınar. Bizim yerlərdə bolluca xaşxaş əkilər. Yaz çağlarında xaşxaş gövdəsi partlaq verər. Ondan axan şirə yığılar. Tiryək düzələr. Başqa şeylərdə düzələr. Ancaq bizim yerlərdə tiryək düzələr.
- Hə anladım! Bu sizin nəyinizə gərəkdir.

Mən, tiryəkin nə olduğunu bilirdim. Təbrizin özündə də, iki-üç tiryəkini tanıyırdım. Tiryəkin nə boyda can düşməni olduğunu bilməyən olmaz, məncə! Mən, Maşallahxanın tiryəki olduğunu ilk kəz Kişixan əmidən duymuşdum. Onun dediyinə görə, bu bölgənin ən böyük faciələrində biri həşiş və tiryəkdir. O, hətta ilk baxışında Bərəkətağanın da tiryəki olduğunu mənə demişdi. O, məni bu haqda ayıq salmışdı. Bu üzdən, mən Maşallahxan bəyin mənə qarşı olan düşüncəsini yayındırmaq üçün onun dərdlərini deşməyə üstünlük verməyə çalışırdım.

- Oğlum Cəvanşir, mənim başım çox bəlalıdır. Bizim bu dinsiz kəndağamız, məni gördüyün pis günə salıbdır. Özümü tanımadan onun ət parçası qızına nökər tutulmuşam. Görməsi, eşitməsi, danışması, tərpənməsi olmayan bir ət

parçası! Məni zorla atamdan alaraq ət parçası qızı ilə evləndirdi o zalim! Hələ bunda da qalmadı o zalim! Başqa qadınla olduğum anda məni öldürəcəyinə and içdi! O, bunun aramızda gizli qalmasını istədi. Hətta bunu birisinə danışdığımı duyursa, məni bu yaşımda tam xətnə etdirməklə təhdid etdi. Cavanşir oğlum bağışla məni! Bunu bir sən, bir mən, bir o zalim kişilə göydəki şahidim bilir! Hətta arvadım sayılan yazıq “Kövsər” belə, bilmir! Onsuz da ha bilsin, ha bilməsin. Nə dəyişər ki, onunla bir kərə olsun belə, birlikdə olmadıq ki! Çünki, o yazıq qızın bütün dərdlərilə birlikdə beldən aşağısı da fələcdir. O anadan gəlmə fələcdirsə, mənim də ərkəkliyim ifilc olmuşdur artıq! Tanrım mənim günahlarımdan keçər İnşallah! Mən, o canavar Bərəkətin acı ölümünü umaram. Ancaq, o yazıq ət parçasına qıyamam! Onun heç suçu yoxdur. O zalim atasının zülmünün qarşılığıdır. Nə evlər yıxmayıb bu zalim ərbab! Allah o zalimə nə uşaq veribsə, yarım-yapalaq verib! Dörd arvaddan 11 uşağı var! Hamısı da dərdli uşaqlar! Mənim ahım tutubdu o məlunu! Nəhavənddən bir doktor gəldi baxdı Kövsərə! Yazıq qızın ömrü qısadır. Artıq yeyib-içmir! Doğru ki, ömür tanrının əlindədir. Ancaq, qızın ömründən az qalır! Qızın ölümü ilə, onun zalim atası da öləcəkdir inşallah!

Maşallahxanın kövrək ürəyini ələ almaq üçün əlimdən bir iş gəlmirdi. Qarşımızda qalan yemək unudulmuşdu. Süfrənin bir yanında istifadə olunmamış bafur dəzgahı, bir yanda əl vurulmamış araq şüşəsi, başqa yanda isə buxardan düşmüş yeməklər maraqsız şəkildə buraxılmışdır. Yazıq kişi, kövrək-

kövrək yerə-göyə qarğış yağdırırdı. Son il içində əzgin, ümitsiz, varını-yoxunu əldən vermişlərin bir çoxunu görmüşdüm. Özüm belə, onlardan birisi sayılırdım. Lakin, belə birisini görməmişdim doğrusu! O, yenidən alovlanma diləyində olan bir söndürülmüş közə bənzəyirdi! Yaşam boyu vəhşiliyə uğramış qurbanın bir yandan öc atəşi, digər yandan isə üzərinə erkəkliyini uduzmuş ət parçası Kövsərə qarşı vicdan duyğusu, yazıq kişinin ömür tablosu kimi gözə çarpırdı!

O gecə, əlimizi bir şeyə vurmadan bitdi! Səhər yuxudan durarkən, gecənin bütün olayları bir anı kimi kişisəl dəftərimizə yazıldı. Maşallahxan o gecədən sonra daha da mənə bağlılıq göstərdi.

Ortada heç bir olay olmamışdır kimi, yolumuzu sürdürdük! Bütün yol boyu yazıq Maşallahxanın halını düşünürdüm. Atlar çaparkən yam-yaşıl yarpaqlar bir əyilib, bir düzələrək bizi uğurlayırdılar. Bir yanımızı gur çay, qarşımızı isə arxası geniş yamaclar bürümüşdü. Zaqros dərələrinin bütün gözəlliklərinə baxmayaraq, Maşallahxanın acıdan acı qarayazısı bir an ağlımdan çıxmırdı. Bir ata əlil qızından ötrü gürəkənini necə belə bir duruma sala bilər! Bu necə insanlıqdır? Atanın uşağına olan sevgisimi, yoxsa insan adını daşıyan bir parça ət parçasına acımaqmı? Mənim ağlım bunu almırdı! Bərəkətağanın Maşallahxana qarşı olan allahlığını içimə sığdramırdım! İkimiz də susqunca, atların omuzuna sığınaraq ortaq utancımızı bir-birimizlə paylaşmağa çalışırdıq. Mən, bu yazıq insana inanırdım. Bu adam Bədiabadda bizi qarşılayan ilk kişi olmuşdur. İlk baxışdan yardımsevər biri olduğunu isbatlamışdı.

Bu kişi heç bir zaman bizə yalan danışmadı. Gözəl söz elçisi olunca gülər üzlü, pis xəbər gətirincə bizdən öncə qaşqabaqı yerlə gedirdi. Bunlara baxmayaraq, bu səfər yalan dediyini diləyirdim.

**Ordu bölgəsi – "Bədr Abad"a xoş gəlibsiniz!**

**"Welcome to USA army region-Badr Abad"!**

Xürrəmabaddan Əhvaza gedən yolun hardasa bir ağaclığından başlamış məftilli çəpərlərin sonuna doğru gedərkən qutu-qutu evləri yan-yana qurulması görünməyə başladı. Çəpər boyunca çiftə əskərlərin gözətçi olaraq görünməsi buranın bir ordu evi olmasını göstərirdi. Evlərin yan-yana duruşundan, düzənli bir yaşam evi olması qaçırılmaz idi. Biraz at çapdırandan sonra sınıq bir tablo marağımı çəkdi. İngilizcə "Bədrabada xoş gəlmisiniz! Amerika ordu bölgəsi!" tablosu axtardığımız yerdə olduğumuzun göstəricisi idi. İrəli getdikcə Bədrabadın yaşayış bölgəsi olması bəlli olurdu. Belə ki, biraz sonra çəpərlərin arxasında bir şəhərcik özünü göstərmiş oldu. Səhər erkən çağları olduğuna görə, çox insan gözə dəymirdi. Artıq, şəhərin giriş qapısına çatmışdıq. Giriş qapısında ordunun jandarma durağı yerləşirdi. Duraqda on-on iki əskər və bir neçə çavuş görünürdü. Duraqda atdan enməyimizlə, iki əskərin "dayan" səsi bizi yerimizdə dondurdu! İkimizdə əllərimizi qaldıraraq barışdan yana olduğumuzu göstərməyə çalışdıq. Əskərlərin üzərimizə qarşı gələn-gedən çəkmələrindən, az qalsın ürəyim dayanacaqdır. Onların əmrilə atlardan aralanıb əllərimizi heyrənin üstünə qoyduq. Başqa bir əskər öncə bizi, sonra isə

atların yəhərini axtardılar. İki iznli tüfəngimizin olduğunu Maşallahxan əskərə söyləmişdi. Əskər iki tüfəngi özü ilə durağa götürərkən, bizə "rahat olun" əmrini verdi. Biraz sonra bir çavuş bizə tərəf gələrək səsləndi:

- Yaxına gəlin!

Öncədən danışdığımıza görə, mən Maşallahxanın nökəri olmalı idim. Maşallahxanın "Əndimeşk" şəhərində dosları var. Bu üzdən Əndiməşk yolcusuyuq. Ancaq, atların birinin nalını dəyişmək gərəkdir. Mən bilirdim ki, o bölgələrdə ağa olan yerdə nökərdən hətta adını belə, soruşmazlar. Buna görə, özümü rahat hiss edirdim. Maşallahxanın dediyinə görə, mən həmişə iki addım onun arxasında dayanırdım. Bu mənim nökər olduğumu, onun isə ağa olduğunu göstərirdi.

- Maşallahxan: Bəli qurban?
- Çavuş: Hardan gəlirsiniz? Burada nə işiniz var!
- Cənab sərkar üstüvar, bizim məqsədimiz Əndimeşkdir. Burada bir avadanlıq gördük. Bir az özümüz və atlarımız dincəlsin dedik. Biz buranın ordugah olmasını bilmirdik.
- Çavuş: Hardan gəlirsiniz soruşdum?
- Qurban biz Nəhavəndin Bədiabad kəndindən gəlirik.
- Ora haradır? Bədrabad burasıdır.
- Qurban Babaqasım kəndinin yanında bir balaca kənddir Bədiabad.
- Mən o tərəfləri tanımıram.
- Bu tüfənglər nədir bəs?

- Qurban rüxsətim var. Hər ikisi də mənim adımadır. Bu bəndəniz də mənim nökərimdir. Buyur! (Maşallahxan cibindən iki jandarma kağızını çıxarıb çavuşa verir).
- Çavuş: Bax bura qoruma altında bölgədir. Burada yaşayanların heç biri yerli deyildir. Onları Azərbaycandan buraya sürgün ediblər. Sizin onlarla ortaq söhbətiniz ola bilməz. Sizin buraya girməyiniz yasaqdır. Mən bu məsuliyyəti üzərimə ala bilmərəm!
- Qurban biz sadəcə bir neçə saat dincəlmək istədik. Bizim burdakılarla işimiz yoxdur.
- Çavuş: Əslində dincəlməyiniz üçün bir qəhvəxana var. Ancaq, bunların dilini bilməsiniz siz! Burda hamı türkcə danışır.
- Maşallahxan: Heç farsca vəya lurca, ləkcə bilmirlər.
- Bilsələr də danışmırlar. Mən sizə şəhərə girməyə izn ala bilərəm. Ancaq... ancaq biraz xərci olacaq!
- Qurban yolumuz uzaqdır. Biraz dincəlməyimiz gərəkdir. Yoxsa toya çatmağımız çətin olar. Toya çıxan pul da xərclər qurban!

Maşallahxan rolunu elə ustaca oynayırdı ki, bir an mənə də belə rol oynaya bilməsini inandırdı. O, cibindən üç 10 tümənliyi çıxararaq ustacasına çavuşun cibinə qoydu! Çavuş heç bir olay olmayıb kimi bizdən ayrılaraq durağa getdi. Bir neçə dəqiqə sonra bir əskər bizi durağa çağırdı.

- Çavuş: Sizə 24 saat burada qalma izni verirəm. Atlarınızı burdakı axura veriniz. Atların yemək və dincəlmək parası 10 tüməndir. Yaraqları dönəndən sonra duraqdan ala bilərsiniz.

- Maşallahxan: Sağolun sərkar! Amma, mərkəzə necə getdiyimizi bilmirik.
- Çavuş: Əskər bu qonaqları qəhvəxanaya götür. Dönərkən özünüz gələrsiniz ha! Unutmayın 24 saat!

Qəhvəxana yolunda gözlərimə inanmırdım. İçində olduğumuz şəhər kiçik, amma nəzmli bir şəhərcik idi. Şəhər, hardasa boş görünürdü. Azacıq adamların sola-sağa getməsi gözə dəyirdi. Əskərin sürdüyü cip markalı kiçik maşın qəhvəxananın qarşısında dayandı.

- Əskər: Qəhvəxana! Düşün! Birazdan burada yer olmaz! İndi tezdi, dincələ bilərsiz hələlik! Hə bir də, burada çoxlu dövlət məmuru vardır. Kimsiniz soruşan olsa, sərkar Nəcatının doslarıyıq deyin! Unutmayın ki, bir gün izniniz var! Sabah səhər duraqda olun. Yoxsa sərkar Nəcatının o biri üzünü görərsiniz!
- Maşallahxan: Sağol sərkar! Hətmən! Bəlkə də tez döndük. Allah amanında.

Qəhvəxanaya girdiyimizdə orta yaşlı, ağsaçlı, incəbığlı, irigözlü, bəstəboy bir kişi “xoş gəldiniz” deyə bizi qarşıladı. Qəhvəçi şirin Üskü ağızıyla danışırdı! Onun türkcə danışmasına Maşallahxan farsca qarşılıq verincə, qəhvəçinin üz-gözü büzüşmüş kimi oldu. Ancaq, o mətin bir şəkildə bizə yer göstərdi. Bu zaman Maşallahxanın türkcə “sağol ağa” qarşılığında isə gülümsədi. Qəhvəçi yenə türkcə danışmağa başladı:

- Bəlli ki, buralarda qəribsiniz! Buralara ancaq qərib məmurlar gələr. Sizin məmur olduğunuzu düşünmürəm. Ancaq, kimsinizsə, xoş gəlmisiniz. Çayın hazır olmasına biraz zaman gərəkdir. Su qaynasın, sizə çay və istədiyiniz səhərlik verəcəyəm. Bizim buralarda çaydan, qəlyandan başqa heç bir şey olmaz! Hərkəs yeməyini evində yeyər! Öncə hamıya gündəlik yemək cirəsi verirdilər. İndi, qocalardan başqa kimsəyə cirə vermirlər. Artıq özünüz qazanın, özünüz yeyin deyirlər.
- Maşallahxan: Mən az türkcə bilirəm. Dediklərinizi başa düşmürəm.
- Qəhvəçi: Bağışlayın mən də farsca bilmirəm. Sizin də dilinizi bilmirəm. Ən yaxşısı boş çənəlik etməyim!
- Maşallahxan: Yox! Deyin ağa! Mənim bu oğlan Təbrizdə olubdur. Türkcəni yaxşı bilir. Sizinlə danışar!
- Mən: Salam dayı! Mən türkcəni yaxşı bilirəm. Siz, hardansınız?
- Oğlum bizi buraya sürüblər. Özümüz gəlməmişik. Alınyazımız qara, günümüz qara, şansımız qaradır! Bir kəsim qalxdı, azadlıq dedi! Başqa kəsim isə, ölüm dedi! Ölən öldü, qaçan qaçdı, qaragünlük bizə qaldı! Yeddi yetim-yesirin gözü məndə! Mənim isə, gözüm zülmkarın mərhəmətində! Balalarım "Bavil"də, özüm burada! Nə yeyir, nə içir, necə yaşayırlar. Yaşayırlar, yoxsa... töbə bismillah!
- Mən: Dayı sizi kim buraya gətirdi? Burada neçə nəfərsiniz? Axı mən kimsəni xiyabanda görmədim?
- Oğlum sənin adın nə, atanın adı nədir?

- O, mənim ərbabımdır! Adı Maşallahdır. Mənim adım da "Zülf Əli"dir! Mənə danışmaq izni verməsəydi danışmazdım! Mən, sizin Milli Hökümətinizdən qabaq Təbrizdə əskər olmuşam. Ona görə də, türkcəni öyrənmişəm. Mən, Təbrizdə qalmaq istərdim. Amma olmadı. Təbriz gözəl və böyük şəhərdi.
- Yox oğlum! Nə böyüklük qaldı, nə gözəllik! Təbrizi başına yıxdılar! Balalarını darlara tapşırdılar, qocalarını sürgün saldılar, qızlarına rəhm etmədilər, analarını ağlar qoydular! Ailələri sürgün saldılar! On minlərcə ailənin gəncini qırdılar, iffətini pozdular, geridə qalanını da param-parça etdilər. Mən də onlardan birisiyəm! Burada üç-dörd min insan toplayıblar. Başqa yerlərdə də neçə-neçə minlərinin acı sürgündə olmasını təkcə tanrım bilir. Birazdan burası, umudunu itirmiş, əzizini torpağa basdırmış, ölüm gözləyən yazıq türklərlə dol-boş olacaq! Onların hamısının çay borcu var mənə! Buna baxmayaraq yenə içir, borclu qalırlar. Mən də, üzümə gəlmədən borclarını buza yazır günəşə buraxıram! Bir ildir hər gün bir neçə ailə gəlir, bir neçə ailə isə başqa yerlərə göndərilir. Bu bizim acı yaşantımızdır. Tanrı sizə qismət etməsin belə həyatı! Ailəmin üzünə nisgil qalmışam. İki oğlumu Fədai damğası ilə uşaqların gözü qarşısında evimizin təndirində canlı-canlı kül etdilər! Gəlinlərimi saçlarından sürüklədilər. Tanrı bilir başlarına nə gəldi tifil balalarımın. Məni təkbaşına sürgün saldılar! Ailəmi götürməyə izn vermədilər! Onlar işğal olmuş yurdda, mən isə burada sürgündə qaldım! Qalanlarımın nə gəlməsinə izn verirlər, nə dönməyimə! Oğlum, gördüyün o gözəl Təbrizi bayquş

yuvasına çeviriblər. Yurdumuzun Urmusuna, Ərdəbilinə, Marağasına, Əhərinə, Muğanına və dörd yanına, hələ yazıq Zənganına heç rəhm etmədilər! Bunlar bizim nəyimizdən intiqam olmaq istədilər. İnsan kimi yaşamaq arzumuzdan, yoxsa nəyimizdən xoşları gəlmədi! Tanrı özü bilən yaxşıdır!

- Dayı, sizi niyə təkbaşına sürgün etdilər?
- Məni Xoyda tutdular. Mənə edam hökmü çıxdı! Tehrandan birisinin gəlməsini gözləyirdilər. Mənimlə birgə 15 Fədaini onun qarşılama törənində edam edəcəkdilər. Onun gəlməsi yubandı. Təbrizdən edamların durdurulması istənildi! Edam olası bütün tutulanların Təbrizə göndərilməsi əmri verildi. Bizi on beş gün olmazın işgəncələrin altında əzib məhv etdilər! Elə duruma düşdük ki, bir-birimizi tanımaz halə gəldik! Sonra ölümcül canımızı sürgün saldılar. İçimizdən kimsənin ailəsinin başına nə gəldiyini bilən olmadı! Özümüzün haralara sürgün olduğumuz belə bəlli olmadı! Qoyun sürüsü kimi o yamacdan bu yamaca süründük. Ailəm Təbrizin yaxınlığında yerləşən Üskünün Bavil kəndində qaldı. “Ailəm var, ailəm var!” bağıra-bağıra qaldım! Hər dedikcə min döyüldüm! İndi ailəmi görmədən, azadlığa qovuşmadan qərib-qürbət yerlərdə ölüb gedəcəyəm!

Mənim üçün qəhvəçi dayının alın yazısı çox doğma gəlirdi! Çünki özüm də bu yaşamın hər anını yaşamış birisi idim.

Bədrabad şəhərciyinin Bədiabad kəndilə yalnız məsafə fərqliyi var idi. İkisinin də qonaqlarının qarayazqısı eyni idi! Yazıq qəhvəçi dayı, yazıq atam, yazıq anam, yazıq Qurdanam, Olqam, Tərlanım, özüm! Yazıq 10 minlərcə qanında boğulan suçsuz

insanımıza! Yazıq azadlıq diləyən ulusuma! Təbrizimə, Ərdəbilimə, Zənganıma, Urmuma, qarış-qarış vətənimə yazıq! Rusların felinə aldanan yazıq başçılarımıza yazıq!

Maşallahxanın mürgüləməsilə maraqlanan qəhvəçi dayı məni yanına çağıraraq soruşdu:

- Bu ağanın uyub çotlamasında bir qəriblik var! Bir şeylər çəkər, yoxsa yorğun-filandır? Sizin yerlərinizdə bu çox normaldı. Özündə varsa, bir qəlyan verim. Nəşələnsin! Bu üzdən soruşdum!
- Bir soruşum, sənə deyim!

Maşallahxanın gözlərinin axması, əllərinin titrəməsi, ağrı çəkər kimi baxışları normal deyildir. Bir il tanıdığım bu yazıq ləki heç belə görməmişdim. Bu üzdən ona yaxınlaşaraq dilə gəldim:

- Əmi sən xəstəsənmi? Yoxsa bir şeyə möhtacsan?
- Həəə! Dünən gecə gördün ha! Ondan istəyirəm. Tiryək!
- Burda ondan yoxdur. Amma, özündə varsa bir qəlyanla çəkə bilərsən dedi qəhvəçi!
- De bir qəlyan versin, cibimdə biraz var!

Tənbəki yerinə yerləşmiş tiryəkli qəlyan durmadan sömürülürdü! Maşallahxan hər nəfəsilə sanki yenidən doğulurdu. O, hər nəfəsilə mənə gülümsəyirdi. Bəlli ki, kefi tam yerində idi. Onun yerinə mən sevinirdim. Maşallahxan yavaş-yavaş mürgüləməyə başlamışdı.

- Qəhvəçi: Cavan oğlan! Yanındakını gətir arxa otağa! Orada yataq var. Qoy bir-iki saat özündə olsun! Birazdan şəngül olacaq! Sən də gəl otur bir çay iç. Birazdan bura qarışqa yuvası olacaqdır. Evindən bezən mənim başıma ağnayacaq! Yazıqların burdan başqa bir yerləri yoxdu. Yalqızlıq dərdindən gecəni gözyaşlarıyla səhərə bağlayan əzgin vətəndaşımdan tutmuş arvadıyla, uşağıyla, aclığıyla boğuşan hər kəs bu ocağın başına yığışacaqlar. Özün görəcəksən ki, necə dol-boş olur bura! Görəcəksən ki, bağımsızlıq diləyində olan insanları necə qara günə salırlar! Bunları düşünmək sizin üçün bir o qədər də rahat olmaya bilər. Çünki, bu qarayazını bizlər yaşamışıq. Yaşamayanlara görə, bir romantik dastan kimi görünə bilər. Ancaq, yaşayanların acısı bam-başqadır, oğlum!
- Dayı, mən sizin dərdinizi başa düşürəm. Mənim yazma-oxuma savadım vardır. Tehranın sizin başınıza gətirdiklərindən xəbərim var! Buradan köçənlərin olduğunu dediniz. Onları haralara köçdürüblər bəs?
- Bir çoxunu ərəb bölgələrinə, başqalarını “Kirman”a, “Şiraz”ın dağlıqlarına və hətta içimizdən olan 50-dən artıq cavanı “Bəndər Abbas”a göndərdilər. Hə oğlum, mənim yazıq millətimi sürgündən-sürgünə sürükləyirlər!

Gözümün yaşını tuta bilmirdim. Hər nə olarsa bunları özüm də yaşamaqdaydım. Qəhvəçi dayının mənim ağlamağımdan çaşqınlığını hiss etdim. Onun halına yandığımı düşünən qəhvəçi dayıya sarılıb hönkür-hönkür ağlamaq istəsəm də, bunu edə bilməməyimə görə içim-içimi çeynəyirdi! Mən, özümü gizli

saxlamalıydım. Özümdən ötrü, Maşallahxandan yana, atamın iyisini aldığım atama bənzər dərddaşıma sarılmaqdan qaçınmalıydım! Qəlyan tüstüsündən devarları boyanmış qəhvəxana başıma dolanırdı! Nifrətimdən qəhvəxananın iki qarnı yoğun somavarını Təbrizin zindanında lüm-lüt üzərimə təcavüz edən iki farsdilli çavuşa oxşadırdım! ...

- Səhərin xeyirli olsun Kəbislam dayı!
- Xeyrə qarşı Oruc oğlum!
- Kəbislam dayı məndən erkəni var!
- Hə oğlum! Gəl tanış ol. Yolcudurlar. Biri də içəridə yatıb!
- Salam! Mən Zülfəliyəm! Türkcəni siz qədər olmasa da bilirəm. Təbrizdə qalmışam.
- Salam! Xoş gördük. Mənim adımı da yəqin ki bildin! Oruc Əli! Oruc deyərlər! Sən lap bizim kimi danışırsan ki!
- Dedim ki, Təbrizdə qalmışam. Həmədanda da olmuşam.
- Qəhvəçi: Zülfəli sən hardansan? Yoldaşın hardandı?
- Biz ikimiz də bu bölgələrdənik. Xürrəmabad!

Danışdıqca daha çox batmağımı duyurdum. Qəhvəçini bir türlü aldatmağı düşünsəm də, Orucun mənim haqqımda təbrizli bir casus kimi düşündüyünü təxmin edirdim! O, mən yaşlarında gənc bir oğlan idi. Üzərimə titizlənmiş iri qara giləlorinin hər an kimliyimi ortaya tökəcək gözlənilməz sualını gözləyirdim. Ardı-ardına qahvəxanaya gələnlərin salam-salamatlarının məni qurtaracağından məmnun idim. Bir saat içində qəhvəxanaya girmək daha imkansız olmuşdu. Kəbislam dayı fır-fıra kimi dövrəsinə fırlanırdı! Üç-dörd gənc müştərinin gəlməsilə,

paltarlarını dəyişərək, işə başlamaları marağımı çəkdi. Böyləcə, yanımda məni danışdırmağa fürsət axtaran Orucdan sordum:

- Bu gənc adamlar Kəbislam dayının işləyənləridirlər?
- Yox! Bunlarda mənim kimi müştəridirlər. Biz hər gün iki-üç nəfərimiz dayımızın əlindən tutarıq. Bu gün bunların növbətidir. Sabah iki-üç başqası yardımçı olacaqlar! Bir-iki saatdan sonra Kəbislam dayı gedər yatmağa! Axşam gələr dəxildə nə varsa alıb qəhvəni bağlar.
- Yəni qəhvəxananın bütün gəliri Kəbislam dayınındır?
- Hansı gəlir!? Yazıq quru çayın pulunu çıxarsa sevinsin! Bu millətin pulu-parası harda gəzər! Kəbislam dayı bizim hamımızın atamızdır. Mənim kimsəm qalmamışdır artıq! Bacımı əllərdə öldürdülər! Qardaşımı, atamı edam etdilər. Əmimi evinin təndirində bişirdilər! Anamı dığlatdılar! Məni də, ölüm ayağından buraya sürgün saldılar! De görüm sən hardansan? Gözlərinin dol-boşundan mənə bənzəyirsən! Mən, səndən qorxmuram! Səndə qorxulu bir şey yoxdur!

Orucun məni küncə sıxışdırması az qala əlimə iş verəcəkidi ki, farsca bir səs imdadıma yetişdi!

- Oğlum, mən gəldim! Bura nə qalaballıqdı! Bunların hamısı türkcə danışırlarmı?
- Hə baba! Hamısı Azərbaycandan gəlmələrdi. Mən sözlərinin hamısını anlamasam da, çox sözlərini başa düşürəm. Beş-on gün yanlarında qalarsam tam özləri kimi olaram.
- Oruc: O sənin atandı?

- Yox atalığım sayılır. Mən uşaqlıqdan onun evində böyümüşəm. O da biraz türkcəni bilir. Mən öyrətmişəm. Ancaq, çox bilməz!
- Oruc: (farsca) Salam ağa! Mən Oruc, Təbrizdən gəlmişəm! Yox gəlməmişəm, gətiriblər!
- Maşallahxan: Salamüləleykim! Azərbaycanla bağlı oğlumdan çox bilgilər almışam. Sizi buralara göndərənlərin qəbiri alovlar içində yansın! İnsan öz evində, torpağında bəxtiyardır. Sizin düşmənlərinin evsiz-yuvasız qalsın inşallah! Tanrı zülmkarın evini yıxsın!

Maşallahxan tam nəşə içində ağzına gələni fars rejiminin ünvanına deyirdi! O, bircə məni ələ verməmək üçün çevrədəkilərin marağını üzərinə çəkirdi! Bütün bunlara baxmayaraq, Orucun diqqəti üzərimdən azalmırdı. Artıq onun mənə inanmadığı aydınca görünürdü! Oruc, hər boşluqda məndən ailəm haqqında soruşurdu. Mən isə, yalanlarımla onun şübhəsini dərinləşdirirdim!

- Oruc: Zülfəli bu gecə mənim qonağım olunuz! Bir otaqlı evim var. Yan-yana yıxılıb yatarıq. Zatən bu şəhərdə müsafirxana yoxdur. Gecəni qalmaq istərsiniz yalnız bu qəhvəxana var! İstərsiniz atanın rahatlığını burada sağlayarıq. Sən isə, mənim evimdə müsafirim olarsan! Nə deyirsiniz?

Biz, ayrı-ayrı qalmağı uyğun görmürdük. Bir yandan da, qışa doğru qaranlıq və soyuq gecədə yola çıxmağı doğru bilmirdik. Mən, Orucla bir yerdə olmaqdan çəkinirdim. Belə düşünürdüm

ki, Oruc, gördüyüm ən dərin, titiz və dedektiv ruhlu yaşıtımdır. Buna görə, onun qarşısında çözülməyim an məsələsi idi. Problemin çözümü üçün bir bəhanə dalınca gəzirdim. Qondarma atamın tiryəkə möhtac olduğu bir çözüm yolu kimi beynimə oturdu:

- Oruc bəy, sizə gəlməyi çox istərdim. Amma atamın qəhvəxanada olması və mənim onun yanında olmağım gərəkdir. Ona görə ki, dava üçün od və qəlyan lazimdir. Mən, bu işləri görməliyəm. Hoqqası yanında olsaydı, mənə ehtiyac duymayacaqdı. Ancaq, indi mənə bağlıdır.
- Oruc: Gəl səni Bədrabadla tanış edim. Heç bura öncədən gəldinizmi?
- Yox, gəlmədik!
- Biz buraya gələndə bir ölü şəhərlə qarşılaşdıq. Hər yerini toz-torpaq basmışdı. Buranın qarış-qarışını öz əlimizlə arıtladıq. Amerikanlar Tehranı işğal etdiyi zaman buranı bir ordugah olaraq saldırmışlar. Bu kiçik şəhərin yaşı cəmi 4-5 ildir. Burda gördüyün bütün dukan-bazar biz türklərə aiddir. Minlərcə sürgün Azərbaycan türkü burada yaşayır. Bir il içində nələr yapmadıq ki! Tanrı nəyimizə görə, bizi cəzalandırır, bilmirəm! Bildiyim təkcə bu ki, yaman cəzalanırıq! Özü də qansızlar əlilə! Biriləri dilimizi bilmədiyi üçün, biriləri isə dillərini bilmədiyimizə görə, zəli qurdu kimi qanımıza susamışlar! Eşitdiyimə görə, bu sürgünün quyruğu Bəndər Abbasa qədər çəkilmişdir. Sibirlərdən Bəndərabbasa ən azından on minlərcə kilometrədir bəlkə! Bir millətin nə

böyüklükdə suçu olmalıdır ki, soyqırım kimi qətl edilsin və qalanları da bu boyda sürgünə uğrasın!

- Oruc, sənin arvad-uşağın varmı? Ailədən biriləri burdadırlarmı?
- Mənim ailəmdən kimsə qalmadı! Yaxın ailəmdən əlbəttə! Dayılarımdan bəlkə qalanı olsun! Biricik əmimi atamla birlikdə dardan asdılar! Evli deyiləm. Qonşuluğumuzda Sevgi adında bir qızı sevirdim. O da məni istəyirdı. Atası çox varlı-karlı birisi idi. Təbrizin durumunu qaranlıq görüncə, bir gecə bütün ailəsilə çəkib getdi. Sevgi mənə bir qısa yazıda Tehrana köçəcəklərini yazdı! Onu daha görmədim. Görməyə də ümidim yox!
- Çox üzüldüm Oruc! Bundan sonra planın nədir? Buralarda qalmaq istəyirsən yoxsa...?
- Deyilənlərə görə, Azərbaycanın durumu həll olandan sonra yavaş-yavaş əfv gəlməlidir. O anı gözləyirəm. Amma uzun sürərsə, buralarda çürümək istəmərəm!
- Yəni qaçmağı planlırsan?
- Dostum, de görüm sən kimsən? Mənim ağzımdan söz almağa çalışırsan? Yoxsa bizlərdən birisən? Casusluğa gəlmisənsə, buradan çıxışın olamaz!
- Yox! Qorxma! Məndən casus çıxmaz! Səni çox dəliqanlı birisi gördüm. Mən də sənin kimi sürgün düşmüşəm. Bizi Nəhavəndin kəndlərindən birinə sürgün salıblar. Oranın da adı buranın adına bənzəyir. Amma mənim hardan gəldiyimi bilərlərsə, başım böyük dərdə girər. Mən sənə inanıb sirrimi dedim. Öz aramızda qalsın. Mən, sizin buralarda olduğunuzu eşidərək, sizi görməyə gəldim!

Mənim bu sözümlə aramızda olan şübhə, duyqulu anlara çevrildi. Biz, inanılmaz bir içdən özləmlə bir-birimizə sarıldıq. İkimizdə göz yaşları içində boğulduq. Sanki iki əkiz qardaşlar illərdən sonra bir-birini tapmışdılar! O axşam, Bədrabad ordugahının qarış-qarışını gəzərkən başımıza gələnləri paylaşdıq. Maşallahxanla birlikdə onun kiçik evində gecələdik. Gələcək üçün aramızda planlar qurduq. Sanki, özümə bir qardaş tapmışdım! Ancaq, o qardaşla birlikdə minlərcə tanımadığım qandaş canlarımı tərk etmək gərəyindeydim!

Bir gecəni səhərədək Orucla ortaq dəhşətlərimizi paylaşaraq sona ərdirdik. Dan açılarkən otağın pəncərəsindən üzümə düşən günəş saçaqları mürgülü gözlərimin dərinlərini acışdırmağa başladı! Orucla birlikdə Kəbislam dayının qəhvəxana yolunu tutduq. Qəhvəxana hələ açılmamışdı. Oruc, arxa qapıdan səsləndi:

- Dayı, mənəm Oruc! Qapını aç!

Birazdan qapı açıldı. Biz, qəhvəxanaya girdik. Kəbislam dayı alışmış odunları samavarın lüləsinə yerləşdirirdi.

- Hə gəldinizmi balam! Bu üz-göz nə! Yenə yatmamısan? Bəlli ki, qonağın da yatmasına izn verməmisən. Oğlum bəs demirsən ki, bu yazığın uzun yolu var?
- Dayı qonağımızın özü də yatmaq istəmədi.
- Mən: Dayı mən Oruc bəylə tanışmaqdan çox məmnunam. Sizi də çox sevdim. Maşallahxanla ilgiləndiyiniz üçün ayrıca sizə minnətdaram.

- Oğlum Zülfəli, qonaq tanrı elçisidir. Biz qonağı sevərik. Yenə buralara gəliniz.
- Sağolunuz dayı. Sizin böyük ürəyiniz var! Sizin bu qədər dərdi necə çəkdiyinizi anlaya bilmirəm. Ancaq, özümüz kimi sizin də halınıza çox yanıram. Tanrı yardımçınız olsun.
- Sağol balam, amma sənin də üzündən kədər yağır. Oğlum səndə də bir hallar var. Bizdən birisi olmayan bizim dərdimizin ölçüsünü bilməz! Bizim dərdimizi yalnız bizdən olan birisi bilər! Sən inşallah ki, bizdən birisi deyilsən!

Kəbislam dayı danışarkən, Orucun axar inciləri çarəsiz şəlalə kimi islaq gözlərində bir həzin tablo yaratmışdı. Orucla paylaşılan gözyaşlarımın anlamını Kəbislam dayının belə, bilməməsi gərək idi. Bizim aramızda bağlanan ilqarın adı yalnızca bir sirr kimi qalmalıydı!

☆ ☆ ☆

Xürrəmabaddan Nəhavəndə varınca ikimizin də ölüsü qalmışdı. Yançalarım büs-bütün qabar çalmışdı. Ayaqlarımla bədənimin üst qatının bağları hardasa qopmuşdu. Şəhərin mərkəzində bir yığcam qonaq evində yerləşdik. Orada bir çoxları Maşallahxanı tanıyırdı. Bizim üçün iki təmiz otaq hazırlandı. Maşallahxanın iki nökəri orada bizi gözləyirdirlər. Onlara olan tapşırıqlar yerinə yetirilmişdi. Çadırla örtülmüş yüklü daşqa yola çıxmaq üçün əmr gözləyirdi.

Nəhavənd gediş-gəlişli görünürdü. Kimi satıcı, kimisi alıcı olaraq iç-içə girmişdilər. Qoyun-quzu, toyuq-xoruzdan tutmuş ən kiçik məlzəmələr olduğumuz yerdə satılırdı. Maşallahxanla girdiyimiz bir dükanda Hacı Qafur adlı birisilə tanış olduq. O, Maşallahxanı yüksək qarşıladı. Hacı Qafurun masasının solunda yerləşən daha bir masa yerləşmişdi. Bəlli olan o masanın yiyəsi Hacının Mirzəsi olmalı idi. Masada aşıqlı hesab çörtgəsilə yanı-sıra qələm-dəftər, yazılı-yazısız dəftər-kagız, taxta içində yerləşən bir neçə qolluq var idi. Mən öncə, Hacı Qafuru Maşallahxanın dostu sandım. Ancaq, çox geçmədən aralarında olan gərçək ilişgini başa düşdüm. Belə ki, Hacı Qafurla Bərəkətağanın ortaq torpaq alanlarının olduğu üzə çıxdı. İlk başda Hacı Qafur mənim yanımda danışmaq istəmədiyini ima-işarə ilə Maşallahxana anlatmağa çalışdı. Onun imalarına yanıt olaraq Maşallahxan dedi:

- Bu gənc oğlan mənim ən yaxın köməkçimdir. Bərəkətağanın güvəndiyi birisidir. Yanında danışa bilərik. Cəvanşiri Bərəkətağanın özü göndərmişdir mənimlə!
- Hacı Qafur: Xoş gəlmisiniz. Bu başqa!

Hacı Qafur, başı üstündəki duvarda yerləşən dolabın üzərində olan böyük qıfılı açaraq bir qolluğu götürdü:

- Hacı Maşallahxan, bunlar altı ay içində satılan yerlərdir. Toplam 18 ərazi satılıbdır. Satılan torpağın dəyəri yetmiş min tüməndir. Bu bağlıda otuz beş min tümən Bərəkətağanın payıdır. Məndən sənə də iki min tümən var! Əlimizdə Nəhavənddə on beş, Qamasiyab, Giyan, Gərin bölgələrində

otuz iki, Baba Qasımda on yeddi, Xürrəmabadda isə dörd ərazımız vardır. Əlimdə satmaq üçün Bəxtiyarılara aid böyük bir ərazi var. Mənə satmaq izni veriblər. Bərəkətağa istərsə bir-iki bölümünü biz ala bilərik. Çox karlı bir işdir. İstərsə iki yüz min tümən göndərsin!

- Maşallahxan: Hacağa, başqa gəlirlər necə?
- Onlara da gələcəyəm. İlk öncə bu yer işini həll edək.
- Hacağa, Bərəkətağanın xasiyyətini bilirsən. O, Bəxtiyarılara yanaşmaz! Onlardan qorxar. Bu önərinizə yaxşı yanaşmasını sanmıram! Mən yenə sizin dediyinizi ona yetirəcəyəm. Biz birazdan çıxacayıq, yükləri yola saldım. Onlara yetişməyimiz gərəkdir.
- Yeyib-içmədən sizi bir yerə buraxmaram. Hələ bu gənc oğlanla heç tanış olmadım! Amma başqa gəlirlərin kağızı da bu!

  Əkindən və əkin yeri kirasından gəlirimiz on min olmuşdu. Verilən xeyriyyə borcundan karımız iyirmi min olmuşdur. Ağaların, hacışeyxlərin, jandarmanın payı verilmişdir. Bu boxcada da on beş min tümən vardır. Bu kağızda 50 min tümən yazılıbdır. Buna qol çək, sonra gedək yeməyə!

Maşallahxan pulları sayandan sonra əlli minlik kağıza qol çəkdi. O, öz iki min tümənini pullardan ayrı tutdu.

Hacı Qafur bizi biraz sonra yeməyə götürdü. Maşallahxan Hacı Qafura mənimlə ünsiyyət qurmağa fürsət vermədi! Yeməyimizi bitirmədən yolumuzun uzaq olduğunu bəhanə edərək yola düşdük. Yol arası kiçik bir çayxanada dayandıq. Çay içərkən Maşallahxandan soruşdum:

- Bu Hacı Qafur kimdir? Bərəkətağanı hardan tanıyır?
- Cəvanşir oğlum! Bu Hacı Qafur bölgənin ən zəngin adamlarından biridir. Bərəkətağa kimi bir çox ortağı vardır. Özü ancaq malikanələrin və xirda malikanələrin pulu ilə qazanar. Qazandığı pulları da xeyirli iş adına bəhrəli borc verər. Bir çox alış-verişçi ona borcludur. 4 arvadı vardır. Neçə siğəli arvadının olduğunu bilmirəm. Yeddi oğlu var! Hamısı pul borc vermək və bəhrə qazanmaqla uğraşarlar! Əli böyük əllərdədir. Səsi Tehrandan gələr! Bu bölgədə bir çoxlarının canını pul girovusu ilə əlində tutmuşdur. İstədiyi qız uşaqlarını əldə edər! Oğulları da özü kimidir.
- Necə yəni! Burada qanun-qayda yoxdumu?
- Qayda-qanun dediyin, pul deməkdir! Sizin yerlərinizi bilmirəm, ancaq buralarda ərbbacırın sözü zülfqar qılıncı kimi qabağı da kəsər, arxasına! Hacı Qafur ərbab olmasa da, bir çox ərbbacırın ömrünü əlində tutar. Öylə ki, ərbbacırın bir çoxunun ona borcu var! Bu üzdən bütün bu həndəvərdə saysız-hesabsız torpaq alanı vardır. Bu alanların bir çoxunu ərbbacırın vermədiyi nüzullu pullardan əldə edibdir. Hacı Qafur, özünü hərkəsə saygılı ağsaqqal tanıtdırmağa çalışar. Ancaq, oğullarının yüzlərcə tüfəngçisi vardır. Oğulları heç zaman Hacının sözündən çıxmazlar! Hələ bu Hacı Qafurun jandarma başçılarıyla çox yaxın dostluğu var! Buna görə, ərbbacır da ondan çəkinirlər!
- Bərəkətağanın belə insanlarla nə işi olar?
- Bərəkətağa kimi kəndağalarının onun sözündən çıxması və ya ona qarşı olmasının belə, sözü olamaz! Özün də gördün ki, 18 parça torpaq satışından 35 min tümən Bərəkətağaya

verdi. Məncə, bu bütün pulun yüzdə onu da olmaz! Əgər ki, Bərəkətağa etiraz edərsə, başı bərk bəlaya girər! O, özü ölçər, özü də biçər! İndi mən cəsarət etdim səni danışdırmağa izn vermədim haa! Artıq məni silmiş oldu! Bundan sonra məni qəbul etməyəcəkdir. Bunu öz çaparları aracılığı ilə Bərəkətağaya çatdıracaqdır. Ancaq, bu mənim üçün önəmli deyil! Mənim amacım bu canavar Bərəkətdən qurtuluşdu! Bu çaqqalların hamısının amacı insanların qanını içməkdir. Bu canavar sizləri nə bahasına olursa olsun, Bədiabadda saxlamağı düşünür! O, öz kəndini böyük göstərmək üçün jandarmalara, böyük rütbəli məmurlara əlindən gələn qulluğu edir. Yoxsa, altı ay bundan öncə sizin buradan Bədrabada göndərilmə əmri jandarmalara verilibmiş! Sizi burada tutan Bərəkət canavarıdır! Çünki, onun kəndində olan hərşey malı-varlığı sayılır. Böyüyüb xan olma arzusundadır o köpək!

- Əmi, bunları ilk kərə səndən eşidirəm!
- Doğrudu! Sən də bunları özündə saxla! Yoxsa məni yaşatmaz o canavar!
- Arxayın ol əmi! Mən, Bədrabadda birisilə dost oldum. Onunla bir qərarlar aldıq. Qaçma qərarı! Sən də bizimlə varsan?
- Bax! Cəvanşir oğlum buradan qaçmaq mümkündür. Ancaq, sən vətəndaşlarınla nə edəcəksən? Olqayla nə edəcəksən? Öncə bunları düşün. Mən, o ət parçasını necə buraxa bilərəm? Onun ahına tutulmarammı?

☆ ☆ ☆

Evə dönəli biçilən ən son buğda ürününü Baba Qasım dəyirmanına apardıq. Olqa uşağımızı düşürmüşdü. Onun gündən-günə candan düşməsilə mənim də ruhum çökürdü! Olqa, özünü buraxmasın deyə, olduqca onun yanında qalırdım. O, mənim hər şeyim idi. Onsuz yaşamaqm zor idi. O, mən üzülməməyim üçün ağlamağı belə, unutmuşdu. Uşağı düşürməsində özünü suçlu sayırdı. Mən, onu bu fikirdən uzaqlaşdırmağa çalışırdım. Bu üzdən çeşidli bəhanələr uydurur, onu umudlu, hüzurlu etməyə çalışırdım!

- Olqa, gözəlim bax! Biz çox gəncik. Bizim çoxlu uşağımız olacaq! Ancaq, burada deyil mənim çox planlarım var. Özünü biraz da toparla! Biz, buralardan qaçmalıyıq! Mən, sənə bir sözlər deyəcəyəm. Ancaq bunu hələ kimsəylə paylaşma! Zamanı gəlincə açıqlayarıq.
- Cəvanşir məni qorxudursan. De görüm məndən nələri gizlədirsən? Nə oldu, getdin gəldin yeni fikirlər ortaya qoyursan.
- Doğrudu Olqa, mənim gözüm açıldı! Biz, Nəhavəndə getmədən öncə Xürrəmabada getdik. Oradan da Bədrabada yollandıq! Bilirsənmi orada nə gördüm? Minlərcə vətəndaşımızı gördüm. Bir sürgün şəhəri! Bütün şəhər türkcə danışırdı. Hamısı da bizimlə birlikdə Azərbaycandan göndərilən bizim kimi əsir yazıqlar! Maşallahxan məni gizlicə oraya götürdü! Hərkəs bizim kimidi! Sonra bəlli oldu ki, bizi də onların yanına götürəcəkidilər. Ancaq, buranın kənd ağası bizi rüşvət gücünə Bədiabadda saxlamağı bacarmışdı. Maşallahxanın dediyinə görə, 6 ay bundan öncə

bizim Bədrabada göndərilməyimizin əmri jandarmalara gəlmişdi. Ancaq, dediyim kimi Bərəkətağanın jandarmalara və dövlət məmurlarına verdiyi rüşvətə görə, bizi burada saxlaya bilmişdi.

- Bədrabad harda yerləşir. Buradan uzaqdadırmı?
- Luristanın mərkəzi Xürrəmabaddan Xuzistana doğru gedən yolda amerikalıların 5 il öncə saldırdığı bir ordu şəhəridir. Buralardan çox abaddır. Kiçik bir şəhərdir. Ancaq istədiyin hər şey var. Bütün sakinlər sürgün olmuş türklərdir. Şəhərin dörd bir yanı çəpərlənmişdir. Vətəndaşlarımızdan başqa orda olanlar yalnız dövlət casusları və orduçulardır.
- Bunu nədən gizli saxlamalıyıq ki?
- Maşallahxandan və məndən ötrü! Mənim üçün oralara getmək yasaqdır. Maşallahxan isə məni götürdüyü üçün cəzalanar.
- Bundan sonra nə etməliyik, səncə?
- Biraz özümüzü toparlamalıyıq. Maşallahxan bizə yardım edəcəkdir. Bəlkə də özü bizimlə gəlsin! O da bu cəhənnəmdən qaçmaq istəyir. Bu dediklərimi kimsə bilməməlidir.
- Taman! Anladım!
- Nə zamanı düşünürsən?
- Qış çatmadan!
- Hara?
- Hara olarsa! Ən yaxşısı Tehrana!

Bu sözlərimdən sonra Olqanın ruh yüksəlişi açıqca görünürdü. Gözlərində ilk kəz olaraq umud izləri gözə gələrdi. Uzun

zamandan sonra Olqanın qoynuma sarılmasının xoşbəxtliyini yaşadım! O, böyük sevgilə ruhumla cismimi özünə təslim etmişdi. Mən, Olqamı yenidən bulmuşdum. Yer üzünün ən xoşbəxt erkəyi kimi duyğudan-duyğuya uçurdum. Böyük ailəmizin bizdən aldığı enerjidən biz də sevincliydik.

Bu arada Cabbar əminin yazdığı gündəlik anıları bitmiş duruma gəlmişdi. O, gözəlim türkcəmizdə yazdıqlarını bir axşam yeməyində hərkəsə anlatdı:

- Cabbarəmi: Sevgili ailəm, bu gün 21 Azər günüdür. İki il azadlığımızdan, göylərə sığmadığımız gündən, bir il isə millət olaraq ölüb bir metrəlik qara torpaqda gömüldüyümüz gündən geçdi! Deyərlər ha... *günəş doğunca insanlıq doğar, batınca bataqlıq parlar!* Bizim millətimiz o bataqlıqdır! Qaranlıqda parlayan millətimizin günəş görmə həvəsi yox sankı! İnanc insanlıq duyğusudur, gözəldir! Ancaq, inancın inancla yaşaması hər zaman olmur! Biz bir millətin parçaları olaraq bir ildir ən ağır durumlarda çiyin-çiyinə inancımızı paylaşaraq onu yaşadıq! Çünki bir millət olaraq bütün varlığımızı-yoxluğumuzu bir süfrəyə sərdik. Gizli-saxlı heç bir özəlimiz qalmadı. İçimizdə Səkinə ana kimiləri olunca, özümüzə güvənimiz artdı! Səkinə ana kimilərin də bu güvəncəyə dəyər qatmasıyla toplumumuz ayaqda qaldı! İki il bundan öncəki gün, Təbrizdə elan olunan Azərbaycan Milli Hökuməti Azərbaycan Türk Millətinin inanc və istəyini ortaya qoyunca, 5 milyonluq millət tərəfindən sevildi, gözbəbəyi oldu, ruhu və bədəni oldu, qutsal varlığı oldu! Millət, liderlərinə inandı! Onların bir sözünü iki etmədi!

Onlar isə, türkün can düşməni olan rusları dost sandılar! Ruslara aldandılar! Düşməni dost sandılar! Gərəksiz inanc tələsinə düşdülər. Bu yersiz inancdan peşman ola-ola yenə ruslara qaçdılar!

Kütlə başsız ayağa bənzər əzizlərim! Səkinə ana kimi Qurdanamız olmasa, Kişixan kimi ər igidimiz olmasa, biz buralarda ölüb gedərdik! Liderlərin "Culfa"ya sarı getdiyi gün kütləmiz lənətləndi!

Mən, iki-üç günlüyünə sizə qonağam. Ölüm haqdır, ancaq istəmədiyin yerdə torpaq olmaq haq deyil! Mən, istəmədiyim yerdə qara torpağa göz yumacağam. Sizin də, əlinizdən bir iş gəlməz! Təki sizdən bir istəyim var! Mənim bu yarpaq-yarpaq anılarımı bir araya toplaryıb türk gəncliyinə çatdırın! Bir də mən ölərkən məzardaşımı Kəbəyə deyil, Azərbaycana sarı yerləşdirin. Qoyun hərkəs mənim kəbəmin fərqli olduğunu anlasın!

- Qurdana: Cabbar əmi sən nə deyirsən! Biz illərcə bir yerdə yaşayacağıq! Biz, birlikdə vətənə qayıdacağıq! Sənin yazdığın kitabı Təbrizdə basdıracayıq! Yox, belə danışmaq olmaz! Sən bizim böyüyümüz, bilginimiz, axar bulağımızsan! Bizim ilham qaynağımız sənsən! Yox, belə danışmaq olmaz!
- Cabbarəmi: (Gülümsəyərək) Ana, mənim ömrümlə umud bitəsi deyil ki! Umud yaşam deməkdir. Biz, bu ağır günləri inanc və umudla geridə buraxdıq! Yoxsa, umud olmadan dan açılarmı!? Gecənin qaranlığı günəşin işıltısına yenilərmi? Yaşam sürür, bizdən öncə sürdüyü kimi, bizdən sonra da sürəcək! Lakin nəsil dəyişir. Bizdən öncəkilər bizə əmanət

oldular, biz isə bizdən sonrakılara əmanətik əziz Anam! Hələ, insan biraz xəstə olunca...

- Kişixan əmi: Cabbar bəyin son istəyi niyə bizim hamımızın vəsiyyəti olmasın! Vətənini qiblə sanan bir çox millətlər var! Onlar ən doğrusunu seçiblər. Nədən bizim qibləmizi vətən deyil, din-məzhəb, ideologiya, yalan arxadaşlıqlar və başqa özgəliklər oluşdursun! Biz nə zamanacan qibləmizi itirəcəyik? İlk kəz "Əqsa məscidi" ilə uyduq, sonra Həram məscidilə kimlik dəyişdirdik, din yetmədi, bir də siyasət qibləsi başımızı döndərdi! Bu gün millətimizin ayaqlar altında əzilməsinin ən böyük nədəni bu özgəlik qiblələrdir! Bilirsinizmi niyə bu duruma düşdük? Mən, sizə deyim! Çünki öncüllərimizin hesablaması düzgün olmadı! Çünki, ideoloji bağlılığının necə dərin fəlakətə yol açmasını ölçə bilmədilər! Siz, məni kafir, dinsiz, allahsız sansanız da, mən özümün nə qədər tanrıya yaxın olduğumu bilirəm! Mənim tanrımın qibləsi yoxdur. Mənim tanrım yaratdığı bütün insanların ürəyindədir. Yaradanın qibləsi olmaz! Siz, məni də öləndən sonra heç görmədiyim ərəb ölkəsinə sarı deyil, gözümü dünyaya açdığım, dağıyla-daşıyla qaynaşdığım Azərbaycanıma sarı basdırın! Mən, müsəlman olmadan öncə Təktanrıçı bir türk olmuşam! Tanrımla mənim ilqarım tükənməzdir. Desəm ki, ikimizdə bir doğulmuşuq, o, məni anlar!
- Elmira bacı: Cabbar əmi bilirsən ki, biz əski əlifbanı oxuya bilmərik. İndi bizim yerlərdə kirilcə yazılır. Bunu 41-ci ildən bu yana latınca yazının yerinə işlətməyə əmir etdilər. Bildiyiniz 40 il içində üç-dörd kərə yazımız dəyişmişdir.

Sizin yazınızı bəlkə yaşlılar oxuya bilər. Bu üzdən sizin anılarınızın oxunması mənə qismət olmayacaqdır.

- Cabbar əmi: Sizə yardımçı olmaq üçün Cəvanşir oğluma iş düşür. O, türkcəni gözəl oxuyur. Bir il öz dilimizdə yazıb-oxuma fürsətindən olduqca yararlanıbdır. Cəvanşir oğlumuz həm öyrənib, həm isə öyrədibdir.

Cabbar əminin mənimlə bağlı bilgisindən şaşıraraq soruşdum:

- Cabbar əmi siz bunu kimlərdən mi öyrəndiniz? Mən bununla bağlı sizinlə heç danışmadım!
- Cabbar əmi: Özünlə bağlı daha çox öyrənməlisən oğlum! Heç İlyas Kəngərli adını duydunmu? Gözəl abanı duydunmu heç? Gözbadam abanı necə? Sən iki-uç yaşlarında ilk Gözbadam abanı, sonra isə İlyas babanı və Gözəl abanı itirdin. Onlar ardı-ardına bir xəstəliyə tutularaq, tanrının rəhmətinə qovuşdular. Mən onda Vərzqanda öyrətmən idim. Sənin şəhid qardaşına əlifbanı mən öyrətmişəm. İlyas sənin dədən idi. Onun iki xanımı var idi. Gözəl və Gözbadam. Sənin şəhid atan Gözəl abanın, Çavuş Bayramı isə Gözbadam abanın oğludur. Yəni Bayramı bəy sənin özbəöz əmindir! O, bir neçə kəz bunu deməyə çalışsa da, sənin təhlükəyə düşməyindən çəkinibdir. Ancaq, gec-tez bunu bilməyin gərək idi. O kişi səni çox sevir. Sənin üzülməyini görməyə ürəyi yoxdur. Hələ atanı, qardaşını gözünün qarşısında öldürmüş halda əlindən bir iş gəlmədiyi halda! Hələ, ananın, bacının gözləri qarşısında can verdiyi bir vaxta səni də əldən vermək istəmirdi. Bu üzdən bu günədək səninlə bir qandan olduğunu dilinə belə gətirmək istəmirdi. Bir də,

anan rəhmətlinin son anlarda ona və mənə bir vəsiyyəti olmuşdur. Belə ki, ən azından bir ildən sonra Fərəc bəyin sənin əmin olduğunu bildirək. Əmin göl başında səni gözləyir, Cəvanşir!

Cabbar əminin dediklərindən əl-ayağım əsirdi. Olqa əllərimi sıx-sıx əllərində tutmuşdu. O, məni soyuqqanlı olmağa çağırırdı. Otağın küncünə dikdiyim bəbəklərimin qarşısını Savalan dumanları bürümüşdü! Gözlərimin işığı bir otaq bucağını görməz, qulaqlarım isə duymaz olmuşdu! Belə bir olayın gerçək olmasına inanmaq istəmirdim. Biri bunun gülməcə olduğunu deməsini diləyirdim! Nə olursa, Fərəc bəyin mənim əmim olmasını istəmirdim. Bu dünyada bir Olqa mənə yetər! Bütün ailəmin öldüyünü qəbullanarkən, durub birisinin "sənin əminəm" deməsinə heç hazır deyildim. Hələ bir də o şəxs, düşmən ordusunun gözdən düşmüş bir çavuşu olsa!

- Olqa: Cəvanşir, Cəvanşir haralardasan! Özünə gəl! Bax! Məni yaşama qaytarmaq üçün mənə hər zaman "*bu dünya gözlənilməz saxlılarla doludur*" deyən sənsən! Bu da, o sürprizlərdən birisi! Biz, bir əmi sahibiyik! Buna sevinməlisən! Bayramı bəy kimi dəyərli birisi sənin əmindir. O, millətinə bağlı olduğu üçün bizimlə sürgünə göndərildi. Sabah başına nələr gələcəyi bəlli deyil! Onu yolda öldürməyə çalışdılar. Ancaq, o ölmədi! O səni tək buraxmadı, Cəvanşir! Yadına sal, ananın öldüyü günü! Başını Bayramı bəyin qoynuna qoyub necə ağlayırdın. Demə ki, ikiniz də ağlayırdınız. Sən səsli, o isə səssiz-səmirsiz göz yaşlarını içinə tökürdü!

Olqanın sakinləşdirici sözlərilə yanı-sıra üzümdən öpməsi, mənimlə yanaşı hər kəsin utanmasına nədən olurdu! Bu üzdən azından Olqanın ürəyini qırmayım deyə, otaqdan bayıra fırladım! Arxamca gələn Qurdananın əllərini çiyinlərimdə duydum.

- Gəl, gözəl oğlum! Gəl, mənim igid balam! Gəl, başını qoy qoynuma! İstərsən çığır-bağır, istərsən ağla! Başından geçənlərin hamısını bilirəm. Bizlərin bu yaşamdaki payı bu qədərmiş gözəl oğlum! Bir ilə qədər dostunla birlikdə yaşananlardan sonra onu doğma əmin kimi qəbul etməyin sevincinimi yoxsa kədərinimi yaşayacaqsan? Bunu yaşayıb görmək gərəkdir. Sənin əmin gərçək bir türk oğludur. O, bütün seçənəklərdən ən acısını, ən şəraflisini və ən doğmasını seçdi! Bunu hamıdan çox sən dəstəkləməlisən. Demək, bir ailənin hamısı qəhrəmanca yaşadı, zülmə baş əymədi! Sənin əmini fars rejimi satın alabilmədi. Bax! Onun övladlarının harada olması belə bəlli deyildir. Onun ağrısı bizim hamımızdan ağırdı. Oğlum, igid oğlum, sən buna toxdaq olmalısan! Onun dərdini yalnız sən azalda bilərsən! İndi get əminin ürəyinə su səp! O, səni gözləyir. Sənin doğma əlini tutmağı bəkləyir! Yoxsa, bu qərib torpaqlarda dığlayar! Qurdananın sevgisi kimi, qəzəbi də vardır ha, oğlum!

Qurdanaın son cümləsi gözləmədiyim bir şaqa kimi, gülməyimə yol açdı. Mənim gülüşümdən sevincini gizlətməyən Qurdana, yanaqlarımdan öpərək hovuzun küncündə uzaq yamaclara zillənən Başçavuşu göstərərək, evə sarı yollandı. Ayaqlarım

sanki yerdən qopmaq istəmirdi. Ürəyimdə çarəsizlik hökm sürürdü! Könlüm ilə bilincim arasında ağır çəkişmə var idi. Mən, belə durumlara alışqan birisi olsam da, bu dəfə özümü tam itirmişdim. Öz əmim olan bir başçavuşun düşmən ordusunda yerləşməsi qəbul olunmaz idi. O, yaxşı insan olsaydı, nədən fars ordusunu seçmişdi? Hardan bilim ki, onun da əli millətimin qanına bulaşmamışdı. Bəlkə indi sadəcə özünü yaxşı insan göstərməyə çalışır? Artıq, yaxşı göstərməkdən başqa çarəsi qalmamışdır! O, necə mənim igid atamın qardaşı ola bilər? Yox! Mənim ona qarşı sönmüş nifrətim artacaqdır. Əmimi daha yaxından, içdən tanıdıqdan sonra, onu bağışlaya bilməyəcəyəm. Mənim əmim millət xaini ola bilməz! Bu kişi bir başqasıdır! Niyə bu günə qədər mənim bir əmimin olmasında xəbərim yox idi. 24 yaşında bir insanın, necə öz ailəsindən xəbəri ola bilməz? Nədən bir il sonra? Beynimdə toplaşan sınırsız sorğulların sonu görünmürdü. Ancaq, bütün bunlara yanıt cavab tapmaq üçün Başçavuşla üzləşmək gərək idi. Bir saat öncə söhbət etdiyim Başçavuşla olan qarşılaşmamın problemə çevrilməsinə izn verə bilməzdim. Bu üzdən ötkəm addımlarla hovuzun küncünə sarı yola düşdüm:

- Fərəc bəy salam!

Səsimə dönən başçavuşun pozulmuş bənizi, xəncər kimi ürəyimə sapmış oldu! Bir an onun bütün ailəsinin əlindən alınmasını anımsadım! Bir atanın 4 balası ilə yanaşı, xanımı da milli intiqam üzündən əsir tutulmasının acısının tam anlamını başçavuşun gözlərindən oxudum! Ürəyimdə daşlaşan laxta

qanların ansızınca su olub ərimәsini islaq ovuclarımda hiss etdim! Başçavuş isə çox soyuqqanlıqla yanıt verdi:

- Salam oğlum, gəl yanıma! Gəl otur əziz oğlum!

Ona baxdım! Üzünə çökmüş qara buludların fırtınasından titrəməyə başlayınca, bir an özümü buraxaraq *"Əmican, əmican"!* - deyərək boynuna sarıldım! İkimiz də hönkür-hönkür ağladıq!

☆ ☆ ☆

4-5 nəfərdən başqa, kimsə Başçavuşun mənim əmim olduğunu bilmirdi. Biz, jandarmanın bundan xəbər tutmasını çox təhlükəli sayırdıq. Bunun aramızda bir saxlı kimi qalmasına əmin etmişdik. Əmimin ailəsindən xəbər tutmaq üçün yollar arayırdıq. Bir ehtimala görə, onun ailəsi Tehranın ordu qərargahlarının birində saxlanılırdı. Başqa ehtimala görə isə, əmimin xanımı ilə dörd balası Təbrizdə və ya Tehranda olan evlərində yaşamaqda davam edirdilər. Bizim Təbrizlə hər hansı bir bağlantı qurmağımız imkansız idi. İşıq lampasından belə yoxsun olan bir xarabalıq kənddən nə gözləmək olardı ki! Mən, artıq Başçavuş üçün qayğılanırdım. Onun gözlərimin qarşısında çarəsizlikdən yalqız-yalqız ağlamaqlarına dözə bilmirdim. Ayrıca da əlimdən heç bir iş gəlmədiyi üçün özümü bağışlaya bilmirdim. Günlər bir-birini əvəz etdikcə, üzücü və dözülməz olurdu. Görəsən bu cəhənnəmin açılan qapısı olacaqmı? Gecə-gündüz bu fikir məni rahat buraxmırdı! Əmimim ürəyinə kiçik

də olsa, bir umud vermək üçün, Bədrabad öyküsünü ona anlatmağı düşündüm:

- Fərəc əmi, səninlə bir saxlını paylaşacağam. Əlindən yardım gələrsə, bizimlə olmağını, gəlmirsə yoluma daş olmamağı istərdim! Bu səninlə mənim aramızda qalmalıdır! Sözmü, sözmü, söz?
- Cəvanşir, məni qorxutma oğlum! Nədir beynindən geçənlər?
- Əmi, qorxma! İlk öncə sənin ailə nisgilinə son qoymağı özümə borc bilirəm.
- Mənim ailəmi haradan tapacaqsan ki? Mən özüm belə onların harda olmasından xəbərsizəm. Sən Tehranın harasını tanıyırsan? Orası böyük şəhərdi. Adam özü oralarda itər.
- Olsun əmi, itə-itə öyrənərəm! Mən bu bir ildə çox böyüdüm. Bundan sonra da artıq böyüməliyəm. İndi Olqanı da, səni də düşünürəm! Gözüm baxa-baxa sənin uşaqlarından, xanımından uzaq qalmağına izn verməyəcəyəm. Mən burdan qaçacağam! Olqanı da özümlə aparacağam. Tez-gec onun Fatma olmadığı üzə çıxacaqdır. O, zaman onun qorunması imkansız olacaq. Zatən indidən Mir Məsum ağanın və jandarmaların onun üzərində gözləri var! Bunu Maşallahxan onlardan eşidibdir.
- Oğlum necə qaçmaq istəyirsən? Məgər bu qədər göz qabağında bunu etmək mümkünmü?
- Planlarım var! Səni də özümüzlə götürə bilərik hətta!
- Planını aç mənə görüm!

Fərc əmimlə birlikdə qaçma planımı incələdik. Qorxusuna baxmayaraq, planın tutarlı olduğunu təsdiqlədi. Bu haqda

Maşallahxanın da gəlməsini dəyərləndirdik. Maşallahxanın durumunun özəl olduğundan, onunla başqa bir yerdə qovuşmamızı düşündük. Bizimlə onun arasında hər hansı bağlantının olmasının ortaya çıxmasını istəmədik. Onunla mənim aramda qondarma bir savaşın olmasını və jandarmaların aramıza girməsini planlaşdırdıq! Düşüncəmizin baş tutmasından sonra, burada qalanların başına pis işlərin gəlməməsi üçün, ailə içindən atılmağımızı planladıq. Bu haqda Cabbar əmilə, Qurdananın düşüncələrini öyrənmək istədik.

Payızın bu çağlarında bizim bölgələrdə ağacların yaşıl geyimi yerini al-alvan boyalara verər. Ağaclardan erkən üzülən yarpaqlar, hər əsən sərin yel ilə səhər dansına qalxar. Dan sökülərkən ruzi arxasınca evindən çıxanlar üçün payız marşı çalınar. Artıq qışın yaxınlaşması havası addımbaşı qulağı oxşayar!

Ancaq, burada durum bir az da olsun, dəyişik görünürdü. Sankı doğanın dəyişimi çox gərgin savaşla sürməkdə idi. Yarpaqların dirənci bitmək bilmirdi. Hələ yaşıl boya yerini payız əlvanlığına vermək istəmirdi. Havalarda sərinlik duyulsa da, can yaxmayırdı. Bu isə, bizim işimizə gəlirdi.

Günlər su kimi axırdı. Qaçma planımızın gərçəkləşməsi üçün əlverişli durumu gözlərkən, ardı-ardına gözlənilməz olaylarla qarşı-qarşıya gəlirdik. Bu olayların biri Bərəkətağanın evindən gəldi! Xəbər bir anlığına bütün bölgədə yayıldı. Kənd ağasının əlil qızı, Maşallahxanın isə eşinin ölüsü tapılıbdır. Maşallahxan

isə, üç gündür yoxdur. Jandarma xan yarıqçıları Maşallahxanın ölüsünün-dirisinin peşindədirlər.

Hələ bu bilginin şokundaykən, jandarma çavuşunu qapımızda buldum.

- Jandarma çavuş: Cəvanşir, Maşallahxanla son dəfə nə zaman görüşdün?
- 5-6 gün öncə bir mətirət yoğurt götürdüm evinə. O da məni çaya dəvət etdi. Bir saat sonra evimə qayıtdım. Daha görmədim.
- İndi hardadır. Sən onun qaldığı yeri bilirsən mi?
- Mən hardan biləcəyəm sərkar?
- Sən onunla yaxın olmusan, həm də çox yaxın!
- Doğrudur, o bizə çox yardımçı olubdur. O, Bərəkətağanın əmrilə bizim işlərimizə yetişirdi.
- Qadını haqda sənə danışıbmı heç?
- Həəə, o çox qəlbiqara olduğunu və qadınının kimsənin görməməsini istəyirdi. Mən də bu üzdən onun haqqında heç bir şey soruşmazdım!
- Hardasa bir ay bundan öncə onunla birlikdə Nəhavəndə getdiyinizi öyrəndik. Nökərlərinin dediyinə görə, siz bir gün sonra Nəhavənddə onlara qovuşmuşsunuz, doğrumu?
- Doğru Sərkar Çavuş! Maşallahxan məni doğanın gözəlliyilə tanış etmək üçün Qamasiyab çevrəsində olan ormanlara götürdü. Bir meşənin başında oturduq yemək yedik. Sonra, bir bafur çıxarıb qəhvə rəngində uyuşduruçu maddə alışdırdı. Mənə də vermək istədi. Adını sordum təzə tiryək dedi. Mən qorxdum çəkmədim. Özü çəkdi uydu! Hava qaranlıq oldu.

Oyatmaq istədim oyanmadı. Baxdım ki diridir. Mən də yatdım. Bir an Maşallahxanın səsini eşitdim: “Cəvanşir dur qacaq, gec oldu! Səhər oldu! İndi nökərlər bizi gözlər!”

- Nəhavənddə kimsələrlə görüşdünüzmi?
- Yox! Yalnız müsafirxana sahibilə salamlaşmasını gördüm. Bir də, Bərəkətağanın dostu olan Hacı Qafurla görüşdük. O, Bərəkətağanın salamlarını Hac Qafura çatdırdı. Nökərləri öncə yolladı. 1-2 saat sonra biz də ayaqlandıq. Hamısı bu qədər!
- Cəvanşir, o arvadını öldürüb qaçıb! Onun başına 10 min tümən mükafat qoyulub! Onunla işbirliyində olana isə, ölüm hökmü verilib! Ağlını başına topla! Sənə gələ bilər! On min çox puldu ha! Yaxşı birisi olarsan qadınınla birlikdə Azərbaycandan kənar istədiyin yerə göndərə bilərəm səni!

Bölgədə Maşallahxanın arvadını boğaraq qaçaq düşməsi ağız-ağıza dolaşırdı. Evimizin gündəliyi Maşallahxan olmuşdu! Kimsənin Maşallahxan haqda mən qədər bilgisi yox idi! Hətta onun xanımının nə durumda olduğunu, necə onunla evləndiyini mənim qədər bilən birisi yox idi. Maşallahxan, on illərcə saxlı çiləsini sadəcə mənimlə paylaşmışdı. Bir ət parçası olan yazıq qıza necə kəbinli nökər olmasını sadəcə mənə deyirdi. Hətta təbibin dediyinə görə, yazıq qızın bügün-sabah ürəyinin duracağını, məndən başqa heç kimə deməmişdi. Çünki, Bərəkətağa uşağının ölüm gününü Maşallahxanın da ölüm günü elan etmişdi. Bu insan mənimlə birlikdə qaçmasının şərtlərini xanımının ölümündən sonraya bağlaması durumunda, niyə

məsum bir görməz, eşitməz, duymaz əlil qızı öldürməlidir! Mən bunların söylənməsini, öz içimizdə belə, doğru sanmırdım.

- Cabbarəmi: Bu işin içində bir iş vardır! Bu adamın incə, kövrək ürəyi cinayətə izin verə bilməzdi! Lakin ağlım almayan, onun qaçmasıdır! Yaşam yoldaşı ölən adam qaçarmı heç!?
- Kişixan əmi: Bu bölgələrdə hər şey ola bilər. Mənim tanıdığım Maşallahxan isə bir qarışqanı belə, öldürə bilməz! Son illərdə tanıdığım ən yumşaq ürəkli insanlardan biri idi o.
- Cabbar əmi: Allah bilir başına nələr gəlmiş. Tutulmasına da 10 min tümən para mükafatı qoyulubdur. Bəlli ki, bu işin içində bir iş var! Tanrı haqqı buldursun!
- Qurdana: Haqqı bulana yahu! Bu dünyada gördüyüm ən əfəndilərdən birisidir bu adını çəkdiyiniz yazıq kişi! Qatil olmasını mənim də ağlım almır! Cabbar qardaşım demişkən, bu işin içində mütləq başqa əllər də vardır!
- Olqa: Onun bizə göstərdiyi yaxşılığı kimsədən görmədik. Özgə olub da insanın özündən daha da can yandırmağı, mən o kişidən öyrəndim. Çevrəmizdə olan bütün biganələrin içində yalnız ona güvənirdik. Yazıq kişinin başına nələr gələcəkdir, tanrı bilir. Ancaq, ümid edirəm ki, əli həyat yoldaşının qanına bələnməsin! Mən onu qatil görmək istəmirəm.
- Çavuş Dərvişlu: Biz bu neçə il içində üzdə məsum görünən az qatil görmədik ki! Öz uşağının bir göz yaşına dözümsüz olan az uşaq qatılləri görmədik ki! Gözümüzün önündə toplu-toplu insanlarımızı qurşuna düzənləri nə tez

unutdunuz! Bizim məsum balalarımızı dardan asanların ürəyi yoxdu sizcə? Biz bir yaxşılığı min acı yerinə bağrımıza çəkən millətik. Biz, min acını bir udum iyilik üçün udan millətik! Bizim gözümüzü aşırı duyğularımız daraldır. Mən, sizinlə razı deyiləm. Maşallahxan nə qədər yaxşı görünsə də, pis yanları da ola bilər! Onun ürəyi dərdlə dolu bir öc küpü idi! O, zalim qayınatasından danışarkən, gözləri qan çanağı olurdu! Niyə heç zaman öz eşi ilə bağlı danışmaq istəməzdi? Nədən kimsə onun eşini görmədi? Gördünüzmü heç? Görən varsa desin! Mənim özümə belə, inancım qalmayıbdır. Mən də qatil ola bilərəm. Çünki, mənim də ürəyim qan çanağıdır!

Dərvişlunun sinirdən əlləri titrəyirdi. O, hər zaman içimizdə ən az və öz danışan birisi olmuşdu. Bizi sevdiyini dilinə gətirməsə də, topluma verdiyi gündəlik bol xidmətlərilə bunu göstərmişdi. O, problemin gerçək üzünü bizlərdən daha aydın görürdü. Yaşıt olduğumuza baxmayaraq, düşmən ordusunda gördüyü cinayətləri *"gördüm-geçdim"* kimi dəyərləndirmirdi. Onun üçün ədalətsiz cinayət, cinayətsizsə ədalət yoxdur. İkili danışıqlarımızda da o, Firqənin qorxaq liderlərini farslardan daha çox ələşdirirdi. Həmin günlərin birində onunla təkbaşına yamaca çıxıb bir az danışdıq:

- Mən: Sərkar Dərvişlu....!
- Dərvişlu: Cəvanşir qardaşım, burax bu bayatlaşmış adları! Bundan sonra məni Qulam Əli və ya ən yaxşısı sadəcə Qulam səslə! Biz, hardasa yaşıt insanlarıq. Olsun ki, bir neçə ay səndən böyükəm! Rahat ol! Mənim səni səslədiyim kimi məni səslə! Yerə batsın çavuşluğum və sərkarlığım!

- Mən, səni heç tanıya bilmirəm! Təkcə mən deyil, evdə də kimsə səni doğru-düzgün tanımır. Çox qapalı bir insansan. Hələ-hələ səninlə ilişki qurmaq olmur.
- Cəvanşir, mən də sənin kimi biriyəm. Ancaq başımdan geçənlərlə birlikdə düşmən ordusu məni bu günə salıbdır. Gözümü açandan zülm, ihanət, basqı və qan içində böyümüşəm! Ömrümdə bir atamı, bir də anamı tanımışam. Onların hər ikisini də erkən itirmişəm. Öksüz, kimsəsiz bir ana-atanın təkcə uzantısıyam! 16 yaşımda yalqızlıqdan qaçmaq üçün əskərliyə getmişəm. Qoşundan çıxsam, yenə yalqız qalacağaq deyə, orada qalmışam! Ömrümdə bircə dəfə belə ürəkdən gülməmişəm! Atamın anamdan sonrakı ağır yaşamı təkcə xatirəm sayılır. Ucsuz-bucaqsız cinayət, atamın yaşamına damğasını vuran bir acı hekayədir! Xəstə atamın anıları, artıq mənim anılarıma çevrilmişdir. Belə ki, bu gün özümü düşünürkən atam gözümün önünə gəlir! Atamı düşünərkən, sanki özümü güzgüdə görürəm. Atamla mən sanki ekiz qardaşlarıq. Hətta alınyazısına tabe tutulan iki yapışıqlı əkizlər kimi idik!
- Biraz atandan anlada bilərsənmi? Axı, bizlərin qarayazısı çox bənzərdir, Qulam qardaş!
- Yox! Təbrizdə yaşananlarla, 1917-18 illərində Xoyda, Salmasda, Urmuda yaşananları bir tutmaq olmaz! Təbrizdə bir millətin milli iradəsi qarşısında cinayət törədildi. Mənim Xoyumda, Urmumda, Salmasımda, hətta Quşçuda, Köhnəşəhərdə əliyalın millətin üzərinə top qurşunu yağdırdılar. İlk erməni-asuru birliklərinin Ciloları, sonra cinayətkar İsmayil Simitqo! Bunlar rusların və ingilizləri

yardımıyla yüz minlərlə Türkü qırğın etdilər, Soyqırım yaratdılar! Təbrizdə millətimizin igidcə "yaşasın azadlıq" deyə-deyə dar ağacına çıxmasını mən gözümlə görmüşəm. "Ölüm olsun Şaha" şüarlarından Tehran titrəyirdi! Ancaq, Urmuda nə? Millətimizin başına gələnlərdən heç kimsənin xəbəri yox idi! Nə azadlıq, nə ölüm, nə yaşam, nə sorğu və nə də yanıt! Sadəcə top gülləsi millətimizin üzərinə yağırdı Urmuda, Xoyda, Salmasda, mənim ata-baba kəndim "Səfər Qulu"da...!

Damlacıq tər inciləri gənc çavuşun başdan-ayağını bürümüşdür. Öfkəli səsində iç hayqırıqları aydıncasına bəlli olurdu. Qulamın danışığında daha çox iç həniltisi marağımı çəkirdi. Mən, Ciloların pisliyini azdan-çoxdan bilsəm də, Qulamın dediklərindən canım titrəyirdi. Başqa yandan isə, onun bunları yaşaması imkansız görünürdü! O, məndən ən çox bir yaş böyük ola bilərdi. İki yaşıdın bir bəlli bölgədə bu qədər fərqli yaşaması inanılmaz görünürdü! Bu üzdən soruşdum:

- Qulam, bunları sən özün yaşadınmı?
- Keşkə yaşamış olsaydım da, acı dolu nisgilini günümüzə daşımasaydım! Keşkə mən də, bütün ailəm kimi vətən torpağına gömsəydim! Atam kimi, anam kimi, babam kimi! Bunlar mənim öz atamın, sənin kimi vətəndaşımın isə mənəvi atalarının hekayəsidir. On yaşlı Qüdrət Əli bir kənddən sağ qalan tək insan idi. Minlərcə dinc əhalisi olan Səfər Qulu kəndi erməni-asuru birliklərinin ansızın saldırısına uğramış! Kənd gəncləri silaha sarılmış! Erməni yürüşü qarşısında inanılmaz dirənc baş tutmuşdur! Minlərlə

türkün qanına susamış erməni bir komandir dığası türk gəncləri əlilə öldürülmüşdü! Erməni canisinin ölümündən sonra rus, erməni, asuru birlikləri Səfərqulu kəndini yerlə bir etmişdilər! Bir gün içində Səfərqulu kəndi yer üzündən silinmişdi. Qüdrətəlidən başqa kənddə kimsə diri qalmamışdı! Qüdrətəli gözlərini açarkən özünü qanlar içində görmüş! Top gülləəri uşağın gövdəsini dəlik-deşik etsə də, canını almamışdı! O, özünü ölülərin param-parça olmuş cəsədləri arasında, çeşidli yırtıcı canavarların içində görüncə, bütün gücünü toplayaraq bölgədən uzaqlaşa bilmişdi! Anasının, atasının, bacılarının, qardaşlarının, tanıdığı-tanımadığı hər kəsin qanlı ləşləri üstündən qaçan 10 yaşlı Qüdrətəli, bütün kəndi qan içində görüncə dəli olmuşdu! Qutrətəli baş götürüb sərsəmlər kimi dağa-daşa dırmanmışdı! Sonunda ayaqdan düşmüş canı yürümək gücünü itirərək düşüb bayılmışdı! Erməni canilərilə savaşan bir qrup Qızılbaşlığa bağlı “Qırxlar” savaşçısı, candan düşmüş tifil uşağın nəşini basdırmaq üçün yürüşlərinə ara vermişlər. Ağlar gözlərilə qanlar içində məsum uşağı astaca bağrına basan igid türk savaşçı, uşağın nəfəs aldığını duyarkən, var gücü ilə bağırmışdı: *“Diridi, diridi! Uşaq diridi!”* Uşağı Qırxlar Qalasına götürmüşlər! O, gün Qırxlar Qalasında sevinc dolu anlar yaşanmış! O uşaq Qırxlar Qalasının yaşam simgəsi olmuşdu! 10 yaşlı Qüdrətəli həmin zamandan bəri Qırxlar savaşçılarına qatılaraq, el qəhrəmanı Kazım Xan Quşçunun yanından ayrılmamışdı! Kazımxanla gülür, onunla ağlayırdı! Hər erməni dığasını yerə sərdiyində əllərini göyə qaldıraraq “Səfərqulu şəhidlərinə qutlu olsun” deyərdi!

Beləliklə, Qüdrət Əlinin yaşam öyküsü qurşunla başlayır, qurşunla bitir! O, mənim atam idi! O, mənim özbəöz atam idi! O, ilk kəz Kazım Xanla tanışlığını belə anladır: “Gözümü bir igidin tüfəngindən çəkmirdim. O, tüfəngini qurşundan boşaldaraq əlimə verdi. Tüfəngi əlimə alar-almaz dəngəm pozularaq yerə düşdüm! Məni görən hər kəs qəhqəhəyə doldu! Utancımdan ağladım! Eyvanından bizi izləyən Kazımxan mənim yanıma gələrək başımı sığalladı! Onun isti əllərindən içimə bir sevgi isintisi sıçradı!” O, başımı əllərinin arasına alaraq sordu:

- Oğlum neçə yaşın var? Kimlərdənsən? Tüfəng qaldırmaq hələ sənin üçün tezdir!
- Əmican mənim 10 yaşım var. Kimsəm yoxdu. Artıq gedəcək yerim də yoxdur. Beş-on gün öncə bir kəndimiz var idi! İndi o kənd yoxdu artıq! Çünki, bir kənddən yalnız mən qaldım!

O, mənim bu sözümdəm sonra əlini üzünə qoyaraq arxaya döndü. Cibindən ağ yaylığını çıxararaq gözlərini sildi! O, dönərək məni bağrına basdı:

- Sənin adın nədir?
- Qüdrət Əli!
- Gözəl addı, qalsın! Sən, bundan sonra mənim öz oğlumsan! Yanımda qalacaqsan, tüfəng atmağı öyrənəcəksən. Savaşçı olacaqsan. Bir türk kimi igid, yılmaz, ürəkli və könüllü olacaqsan. Düşməninə qarşı igidcə savaşacaqsan, son nəfəsinədək dirənc göstərəcəksən, ruhunu uca tutacaqsan, yılmayacaqsan! Ədalət masasında ürəkli olacaqsan! Ədalətsizliyə qarşı ürəkli davranacaqsan. Ədalətsiz kişi mən

olsa belə, onu qınayacaqsan! Könüllü olacaqsan! Millətinə, vətəninə qarşı bir ovuc torpaq, bir dünya könül olacaqsan! Sən, belə olunca bir türk olmağa haq qazanacaqsan! Atanın, ananın deyil, bütün düşmən xəncərinə tuş gəlmiş millətinin öcünü alacaqsan! Öc alanda belə, ədalətsizlik etməyəcəksən! Düşmənin uşaqlarını öldürməyəcəksən! Evlərini oda çəkməyəcəksən! Hələ doğulmamış körpənin qanına susamayacaqsan! Savaşda ədalətin qorucusu olacaqsan. Düşmənlə üz-üzə, göz-gözə savaşacaqsan! Çünki, sən bir türk oğlu türksən! Səni başqalarından ayıran da budur! Anladınmı oğlum Qüdrət!"
Atam deyərdi ki, "Mən Kazımxanın kim olduğunu bu özəlliklərilə öyrəndim! Kazımxan Quşçu, Qırxlar kəndinə qaçan bütün uşaqların atası sayılırdı. O, təkbaşına bir millətin varlığını tanıyan gerçək bir Türk başçısı idi! Bu üzdən Qırxlar kəndi "Kazımxan Daşı" oldu! Bunu o istəmədi! Bunu millət istədi. Millətin ona olan sevgisi, yaşam sevgisinə çevrildi! Urmuda, Xoyda, Salmasda, hətta qəhrəmanlar qaynağı Təbrizdə "Kazımxan" adı gəlincə, sevgi-sayğı səsləri ucalırdı! Hər kəs oun ulusun xanı adlandırırdı!

Mənim atamın ikinci yaşamı Kazımxanla başladı! Onunla sürdü! Aylarca ermənilərə qarşı savaşdı. Qardaş türk qoşunu imdada gəldi! İrq, namus, varlıq düşmənimizə çevrilən erməni, asuru, rus birlikləri siçan yuvasına girdilər! Ulusumuz yenicə sevinməyə başlamışdı ki, bir də kürd bəlası başımıza qondu! Duz-çörək bilməz bir xain kürd terroru qarşısında candan düşmüş el-obamızın yeni soyqırımı

başladı! Fürsətdən yararlanaraq, yarağa sarılmış qanmaz kürd terrorizmi ermənidən betər oldu! Simitqo terrorizmi duz yeyərək duzqabını sındırdı! Azərbaycanı kürd bayrağı altına çəkmək ehtirasıyla alovlandı! Ermənidən umudsuzlaşan ruslar kürdlərə üz çevirdi. Rus silah-sursatı kürd əşirətlərinə axındı. Yenə vətəni, vətəndaşı qorumaq işi igid vətənsevərlərə düşdü. Həmin əsnada atam bir yaramaz kürdün qurşununa tuş gələrək, belindən vuruldu! Arxadan gələn kürd qurşunu atamı yerdən qalxmaz etdi! İflic atamı əri savaşda şəhid düşmüş 17 yaşlı bir qız ilə evləndirdilər. Gülçöhrə adlı o gəlin bir oğlan doğdu! O oğlan mənəm! Anam 22 yaşında qan qusaraq öldü. O ölürkən mənim 3 yaşım var idi! Anamı xatırlamıram. Anamdan sonra omurğasında yer salan kürd qurşunu ilə birgə atamla bir neçə il yaşadım. O, bütün anılarını mənimlə paylaşdı! Daha çox gənckən dünyanın bütün acılarından qurtuldu! O, ölən gün, təkbaşıma oturdum güldüm! Heç ağlamadım, təkcə güldüm! Çünki, atamın qıvrım-qıvrım can çəkişməsindən qurtuluşunu bayram tutmuşdum. O, kürd qurşunu qarşısında artıq qışqırmırdı. Artıq, dərdin nə olduğunu qanlı dırnaqları ilə otağımızın devarlarına naxışlamırdı! Bu üzdən, onun ölüsünü sevinclə qarşıladım. Şükürlər olsun ki, məni köksünə çəkəcək olan birisi qalmamışdı ki, içdən gələn sevincimi kəsə bilsin! Atam Kazımxanın ölümünü milli faciə kimi dəyərləndirirdi. Atam öz durumu ilə millətimizin durumunu eyniləşdirirdi. O deyirdi: “Millətin igidi ölüncə beli qırılır. Beli qırılınca mənim kimi yerdən qalxmaz olur! Xanın ölümü ilə millətin bel sütunu qırıldı! Sınmaz Kazımxan Daşı

kədərdən oğum-oğum oldu! Urmu və batı Azərbaycan öksüz qaldı!”

- Biz millətimizə olan bu qədər zülmlərdən xəbərsiz qalmışıq?! Biz, nə unutqan, nə maraqsız xalqıq! 20-30 ilini unudan millət! Kəsinliklə bu günləri də tez unudacaq! Geçmişindən qaçaq bizlərin gələcəyi də, dumanlar içində olacaqdır! Biz, niyə beləyik? Heç milli irqımız yox? Heç yiyələnəcək ərdəmimiz yox? Heç özümüzə güvəncimiz yox? Bu dediklərini eşidib, eh neynəyim, mənə nə diyən birisinin adını nə qoymaq olar Qulam? Bu günədək niyə susqun dayanmışdın Qulam? Mənim bilməyə haqqım yoxmu? Qırılan mənim millətim deyilmı? Qıran, talayan, quldurca bacıma, anama, irzimə təcavüz edən mənim düşmənim deyilmi? Erməni, kürd, fars və rus bəlasımı, yoxsa özümüzün cahilliyimizin sonucumu düşmənimiz?
- Cəvanşir özünü çox qurcalama! Hər ikisi də daxildir. Öz cəhalətimiz və özgələrin cəhaləti! Bax! Ruslardan başqa adını çəkdiyin üç millətin hansısı bizdən zəkalıdır. Biz tarix boyu o xalqlara üstün olmuşuq. Dövlət, millət, kültür, quruçuluq, yaşam kimi geniş alanlarda Türk milləti söz ağası olubdur. İslamdan öncə və sonra bölgənin ən güclü uyqarlıqları türk adıyla bağlı olub. Bu gün düşmən caynağında inləyən Urmu Gölü bölgənin ən ilkin üç uyqarlığı olan Aratta dövlətçiliyinin mərkəzi olubdur. Mənim ata-baba şəhərim Xoy bu uyqarlığın böyük bölümüdür. Ancaq, bizim başımıza nə gəlibsə, farsları və bizə sığınan kürdlər kimi dağlı toplumları qoruduğumuzdan irəli gəlib! Ərəblər farsların varını-yoxunu yer üzündən

silərkən, türklər onları yox olmaqdan qurtaran təkcə millət olubdur. Onlara yazıq deyə-deyə öz dilimizi unudaraq fars dilini yoxdan var etmişik! Kürdləri əlimizlə torpaqlarımıza gətirərək insanlıq yapmışıq! Bütün dünya imperatorluqlar dillərini əlaltı xalqların birinci dilinə yüksədərkən, biz əlaltı xalqların dilini imperatorluq sarayına soxmuşuq. Atalarımız, cahan hökmdarı olmaq uğruna 10 min illik damla-damla biçimlənmiş Türk kimliyinin kökünü qazmışlar! Biz böyük millət olduğumuzla yanaşı, geniş ürəkli, dar düşüncəli olmuşuq!!! Yenidən millət olmaq istəyiriksə dar ürəkli, gen qafalı olmağımız gərəkdir, Cəvanşir!

- Son sözlərini bir az açarsanmı, Qulam?
- Sadə deyimlə sınırsız duyğuları önləyib, sınırsız beyin gəlişdirməliyik!
- Dediyindən belə başa düşürəm: “Sınırsız duyğu təhlükəli, sınırsız bilgi yararlıdır!”
- Tam üstünə basdın, Cəvanşir. Biz bir millət olaraq aşırı duyğusalıq. Bu duyğusallıq gözümüzün bilgiyə yummasına nədən olur!

☆ ☆ ☆

Bir il boyunca bir dam altında yaşamağa qarşı bir soydaş faciəsinin olduğunu bilmədiyimə görə özümdən iyrənirdim. Öz yaşıdım bir soydaşımın başına gələnlərdən xəbərim yox idi. Tanrım! Biz necə millətik? Bizə nələr olub? Görəsən öz

varlığına bu ölçüdə biganə qalan başqa bir millət varmı heç? Urmuda soyqırım olur, Təbrizdə kimsənin bilgisi olmur! Təbrizdə Şah qırıcıları milləti bombardman edir, Ərdəbildə bilgisizlikdir! Ey tanrım! Hanı türk sənin gizli qılıncın, əziz ulusundur? Bumu sənin göstərdiyin əzizlik? Sənin sevimli dediyin rəzillik deyilmi? Biz türklərin bu dünyada heçmi dostu yoxdur? Hətta Sən belə, ey tanrım?

Sonbaharın yarpaq tökümü, ötən illərin qurumuş çiçəyi kimi önümüzü kəsəcək, qara qışın qapıda olmasını anımsadırdı! Qarşıda aydın bir şey görünmürdü. Umud adında işıq saçacaq Dan Ulduzu belə, yox olmuşdu! Maşallahxan jandarmaların axtarışındaydı. Onun yox olmasıyla, mənim də üzərimdə gizli gözlərin izini hiss edirdim. Cabbar əminin durumu gün geçdikcə pisə doğru irəliləyirdi. O, artıq yeyib-içdiyini qaytarırdı. Bununla belə, Cabbar əminin heç bir şikayətini eşitmirdik. Onun yazdığı anıları hər gün Qurdana mənə oxutdururdu! Qurdananın Cabbar əmiyə olan sevgi izləri gözyaşlarında görünürdü. Qurdananın çox gec tapdığı bir yoldaş sevgisilə alışıb, alovlandığı aydınca bəlli olurdu! Bu ikisinin bir-birinə olan bənzərliyi içlərində olan saxlılarla üzə çıxırdı. Ona görə, onların davranışları tam başqa-başqa gözə dəyirdi. Bəlli ki, insanların bənzərliyini üzdə deyil, içdən axtarmaq gərəkdir!

Bu umudsuz ortamda, Olqanın üçüncü kəz gəbə qalma çabası da boşa çıxmışdı. Morallar, olanüstü düşük durumda idi. Kimsənin deyib-danışma həvəsi qalmamışdı. Olqanın hər düşükdən sonra dünyası qaralırdı. Elmira həkimin dediyinə

görə, Təbriz həbsxanasında günlərcə çeşidli məmurların təcizinə uğrayan məsum Olqanın yumurtalığı şiş gətirmişdi. Onun çox tezliklə xəstəxanada yatması gərəkirdi.

Əlimdən bir iş gəlmirdi. Bərəkətağanın bizə qarşı baxışı dəyişmişdi. Artıq, bizi öncəki kimi yiyələnmirdi. Hətta bizi, qışda öz başımızın çarəsinə baxmaqla uyarırdı. Belə görünürdü ki, bizim burada qalmağımıza həvəsi qalmamışdı. Qızının ölümü ilə birlikdə kürəkəninin qaçması onu çox sarsıtmışdı. Sanki o, qızının ölümünün və Maşallahxanın qaçmasının öcünü bizdən almaq istəyirdi. Hətta bizim gəlişimizlə Maşallahxanın dəyişdiyini dilə gətirmişdi. Təbi ki, bu sözündə haqsız da sayılmırdı. Maşallahxanın bizdən etkilənməsi dartışılmaz idi. O, gerçəkdən bizimlə tanış olandan sonra özgür və ərdəmli davranışlar ortaya qoyurdu.

Qarşımızda olan qara günlərdən çıxış yolu axtaran Fərəc əmicanın çabası bir sonuc vermirdi. O, jandarmadan bizim buradan köçürülməmizi istəmişdi. Lakin, onun istəyinin cavabsız qalmasıyla yanaşı, özünün də təhlükədə olması üzə çıxmışdı. Belə ki, ordunun üst qatından çavuş Dərvişlunun haqqında ondan suallar olmuş və jandarmanın rəsmi bilgisi istənilmişdi. Bu isə, onların yenidən məhkəməlik olacağını göstərirdi.

Ardı-ardına gələn olumsuz olaylar, sürgün umudlarımızı dərindən sarsıdırdı. İş o yerə çatmışdı ki, hamı qaçmaq fikrinə düşmüşdü. Ancaq, aramızda qoca, uşaq və xəstələrin olması ən böyük problem idi. İlk öncə Fərəc əmicanla, Qulamın

buralardan qaçmasının olumsuz və olumlu yönlərini axtarırdıq. Başqa yandan isə, mən “Bədrabad” şəhərciyində tanış olduğum Oruc bəydən bir iz buraxılışı gözləyirdim. O, mənimlə ilişki quracağına söz vermişdi. Mən ona inanırdım. Onda olan inamlı davranış mənə güc verirdi. Ancaq, aramızda olan dağlar-dərələr böyük əngəl yaradırdı!

Bu olumsuzluqlara bir də Cabbar əminin durumu kölgə salmaqdaydı. Quru nəfəsilə öyündüyümüz əminin durumu son dərəcə kritik idi. Cabbar əminin boğazı artıq su-çörək tutmurdu. Biz, bu dəyərli yolbayımızı itirmək astanasındaydıq. Hər an əminin sonlanması gözlənilirdi. Onun anılar dəftəri əlimdə olan ən dəyərli xəzinə sayılırdı. Cabbar əmi bir il boyunca yazdığı xatirələrinin kitab olması arzusunu belə dilə gətirirdi:

- Cabbar əmi: 1920-ci ildə dörd-beş dostumla birlikdə Şeyx Məmməd Xiyabaninin nisgilli ölümünün nədənlərini araşdırmaq üçün bir takım oluşdurduq. Hər həftənin son günlərində bildiklərimizi paylaşaraq dərin sonuclar əldə etdik. O zamandan bəri bu bilgiləri yeni uruğ və nəsilə çatdırmaq umudunda olmuşam. İndi əlim boş, ürəyim tikan-tikandır. Ortada olan-qalan bilgilər varsa da, çoxu popular və jurnalistik yazılardır. Bu yazıların dərin düşüncə ortaya qoyacağına inanmıram. Bu gəncliyimizin üzərinə hər zaman siyasi basqı yapırıq. Amma, düşüncənin əsas təməli ideoloji və fəlsəfi bilgidən qaynaqlanır. Biz, gələcəyimizi doğru təməllər üzərində qurmağa çalışmalıyıq. Bunun ən böyük örnəyi bizim buralarda olmağımızdır. Bizim buralarda itib-bataraq öldüyümüzü kimsə bilirmi? Bu nədənləri

Azərbaycan Qəzetindən öyrənmək olmaz! Azərbaycan Qəzeti Milli Dövlətin çöküşünü sadəcə düşmənlərimizin gözündə görər. Ancaq, gərçəyi öyrənmək üçün daha dərin, daha düşüncəli olmaq gərəkdir. Ən böyük arzum, bu yazıların gənclərimizin əlinə çatmasıdır.

Bu gün payızın son yarpaq tökümü ilə birlikdə evimizin orta dirəyi, hər kəsin sevimlisi, böyük öyrətmən, Cabbar əminin də ömür yarpağı yaşam ağacından qoparaq torpaqa qovuşdu! O böyük insan bir il boyunca xəstə canıyla yazdı, yol göstərdi, umud verdi və bizdən ayrılmasıyla hamını yasa boğdu! Artıq bundan sonra Cabbar əmidən qalan xatirə dəftəri bizimlə yaşayacaqdır! Cabbar əminin ölümü ilə onun yerini dolduracaq kimsə qalmadı. Bu boşluğu hər kəsdən artıq Qurdana hiss edirdi. Qoca anamızın Cabbar əmiyə olan üstün sevgisi kimsəyə gizli deyildi. Cabbar əmidən sonra Qurdananın yaşam həvəsi olduqca azalmışdı. Bunu dilə gətirməsə belə, davranışları, baxışları yansıdırdı. Cabbar əminin ölümündən ən çox üzülənlərin biri də Fərəc əmican oldu! O, günlərcə yalnız başına hovuz qırağında oturub düşünürdü. Bəlkə də, içini qovuran gizlilərilə necə baş edəcəyini, necə ödəşəcəyini düşünürdü. Bəlli olası, əmicanın qarşısını kəsən nəsnəl olaylar deyil, vicdanı

☆ ☆ ☆

sızladan öznəl düşüncələr idi.

Səs-səmirsiz ulduzlu bir axşamda, Bədiabad kəndindəki ikinci qışımızın astanasındaydıq. Qarlı yağmur külələri hələ

başlamasa da, sümükləri sızlandıracaq qara çizməli şaxta qışın izləri başımız üstündə əsməyə başlamışdı! Aramızda sürgün əsarətilə uyum sağlayan kimsə yox idi! Bütün umudsuzluqlara artan Cabbar əmi, Sona ana, Cahankişi əmican, südəmər Tərlan, gözəl Quzu, Nərgiz xala, habelə Olqanın ardı-ardına düşürdüyü üç balamızın yoxluğunda qarşıdan gələn qara qışla necə baş edəcəyimizi düşünürdük.

Cabbar əminin öləndən öncə Qurdanaya tapşırdığı bir son istəyi də üzə çıxmışdı. Qurdananın açıqlamasına görə, Cabbar əmi Elmira xanımla Kişixan əminin evlənməklərini uyğun sanaraq söyləmişdi:

- Kişixan bəy Elmira xanıma gönül qapdırmışdı. Bəlli olası Elmira xanım da ona qarşı boş deyildir. Ancaq, hər ikisi də bunu açmaqdan qaçınırdılar. Kişixan bəy, özünün Elmira xanıma qarşı olan duyğularını mənə açdıqdan sonra, bunu anladım. Məncə, Səkinə xanım, sən Elmira xanımla bunu danış! Hər ikisi də igid insandırlar. Bu qərib-qürbət yerdə bir-birinə göz-qulaq olarlar. Nədən olmasın! Bundan daha yaxşı nə olar ki! Hər ikisinin də əhvalatı göz qabağındadır. Bir də, Elmiradan yana gözü açıq getmək istəmirəm. Onun başının birinə bağlanması çox önəmlidir. O kəs, tanıdığımız Kişixan olarsa, nə yaxşı!

Qurdana Elmira xanımla Çavuş Dərvişlunun arasında olan baxışları irəli sürmüşdür. Ancaq, bu baxışların sevgi deyil, yaxın arxadaşlıq olduğu bəlli olunca, işın çözümünə başlamışdı. Qurdana bu məsələ ilə bağlı Elmira xanimla birlikdə Qulam

bəyi dinləmişdi. Onlar isə, aralarında 20 yaş fərqin olmasını irəli sürərək bacı-qardaş sevgisini söyləmişlər. Qurdana bunu hər iksinin ağzından eşidəndən sonra hərəkətə gələrək iki sevimli soydaşımızın evlənmə işini bitirmiş, ancaq işin tam sonuca varmasını Cabbar əminin ölümünün qırxından sonraya ertələmişdir.

Bir soyuq qış günündə iki qatır və iki eşşəklə Baba Qasım kəndinə yola düşdük. Məqsədimiz Ağaşeyx Sadiq ağanın mübarək qulluğu idi! Guya ki, bu molla olmadan iki könülün birləşməsi imkansız imiş! Kişixan əmi, Elmira bacı, mənimlə Qulam sudan çıxmış sərçələr kimi ağanın qapısına dayandıq. Qapını döyüb içəriyə giriş izni aldıq. Olqa kimi Elmira xanımın da kimliyinin yollarda itib-batmasını irəli sürdük. Ağa uzatdığımız qırmızı boxcanı yağlı görüncə sordu:

- Xanım bacının adı nədir?
- Kişixan əmi: Hacı şeyx ağa, kənizinizin adı "Elmira Təbrizabadı"dır. Atasının da adı Hüseynquludur.
- Ağaşeyx: Nə, nə? Emi nə?
- Elmira hacağa! Təbrizdə belə adlar çoxdur.
- Onu yazın mənə!

Öncədən hazırlanmış nüsxələrin doldurulması 15 dəqiqə çəkdi. Beş imzayla sona çatan kəbin kağızının biri bizə, biri isə Ağaşeyxin arxivinə verildi. Həmin gün, ömrümdə gördüyüm ən səssiz toy törənilə iki sevimlimiz evləndi. İçimizdə çox sevinərkən bu evlənməyin baş memarı olan Cabbar əminin yoxluğundan üzümüz gülməz olmuşdu. Cabbar əminin son

vidalaşma anları bir heykəl kimi yaşadığımız yerin qapı-bacasında duyulurdu. Açıqcası Kişixan əmilə Elmira bacının xoş günü Cabbar əminin kölgəsində qalmışdı. Bunu hər kəsdən çox bəylə gəlinin utancaq gözlərindən oxumaq olurdu. O gün də bütün sevinc və kədərilə sona ərdi. Subaylardan ikisi azalaraq, yeni bir ailə artdı. Yaşam yenə tam səssizlikdə sürdü. Qışın şaxtaları geçən ildəki kimi yaxıb-yandırmasa da, tavansız canlarımızı öz etgisi altına almışdı. Belə, durum bizim üçün artıq bir alışqanlıq sayılırdı. Bərəkətağanın bizə qarşı olan öfkəsi biraz azalmışdı. Keçmişdəki kimi olmasa da, azacıq öz nökərləri aracılığıyla halımızı xəbər alırdı.

Həmin günlərin birində gözlənilməz bir qonaq qapımızı döydü. Olqa qapını açaraq səsləndi:

- Cəvanşir, gəl qapıya, qonağın var!

Qapıda Bədrabaddan gəlmiş Orucu qarşımda görüncə şaşdım. Qucaqlaşaraq Olqa və başqalarıyla tanış etdim. O, “genəl bağış” (ümumi əfv) olduğunu deyərkən cibindən azadlıq sənədini çıxarıb göstərdi. İlk öncə inanmasaq da, bəlgənin doğru olduğunu qəbul etdik. Bəlgəni əlinə alan Fərəc əmican çaşqın baxışlar içində geri çevirdi. Hərkəs bir qutsal yazı kimi bəlgəni sayğıyla gözdən keçirməyə çaba göstərirdi.

İçimizdə böyük bir həyəcan doğmağa başlamışdı. Tezliklə bizim də sürgün həyatımızın sona varacağına sevinirdik. Ancaq bunu gözləmək olmaz! Bir an öncə işin ardını tutmaq gərəkdir deyə, özgürlük planımızı tökməyə başladıq. Yeni ümid, yeni odaq, vətənə dönüş atmosferi kiçikdən böyüyə, hər kəsi

həyəcana boğmuşdu. Oruc buraya özgür insan olaraq gəlmişdir. Biz də istədiyimiz yerə özgürcə getmək haqqına qovuşacayıq. Yalnız bir bildirim, bir fərman bu yazıq günlərimizə son verəcəkdi. Orucun gəlişilə bayram havasına bürünən bizlər üçün ayrı nədənlər unudulmuşdu. Orucun sadəcə bizə xoş xəbər qaranquşu olmasını düşünərkən, ondan gələn başqa bir özəl bilgidən qafam qarma-qarışıq oldu:

- Cəvanşir, Maşallahxan mənim evimdə gizlənibdir. O, Xürrəmabad bölgə jandarması əlindən qacaraq mənə gəldi. Başına gələn hər şeyi mənimlə paylaşdı. Arvadının doğal ölümünün macərasını anladaraq göz yaşları durmurdu. Arvadının necə xəstə olduğunu, otuz ilə yaxın bir zaman içində ona nə xidmətlər etdiyini, onu özündən daha çox qoruduğunu titrək dililə anlatdı. Bütün bu işlərinə qarşı ölüsünə-dirisinə pul kəsildiyini dedi. Səninlə olan planlarını mənə anlatdı. Sənin yolunu gözlədiyini bildirdi. O, indi mənim evimdədir. Mən, dönər-dönməz Təbrizə qayıtmağı düşünürəm. Bundan ötrü evimi boşaltmalıyam. Mən, ona səninlə görüşüb Bədrabada dönməyə söz verdim. Bu sözləri təkcə sənin bilməyini istədi. O, sənə çox inanır. Bu dünyada yalnızca sənin dostluğuna güvənir. Məni də sənin dostun olaraq qəbul etdi. Bəlkə də, indi mənə inanmaqla böyük riskə girmiş olduğunu düşünür!
- Oruc bəy, indi mən başımı itirmiş durumdayam. İnan ki, sənə nə deyəcəyimi belə, bilmirəm! Bir tərəfdən bizim azadlıq fərmanımız gəlir, bir yandan isə gördüyüm ən düzgün yabancı bir insanın başı dardadır! Sən, hələlik bizim

qonağımız ol! Səndən soruşan olsa, Təbrizdən dost olduğumuzu de! Qoy hər kəs belə bilsin! Gərək olsa, mən özüm bildiyim adamlarla gerçəyi ortaya qoyacağam.

- Mən sizin yanınızda çox qala bilmərəm. Dediyim kimi, tez dönüb Təbrizə qayıdacağam. Bu üzdən səninlə tökdüyümüz plan da artıq olmayacaqdır. Sizin də tezliklə Təbrizə dönəcəyinizi umud edirəm. Sizə də həmin günlərdə əfv gəlməlidir!.

Orucun dönməsindən 10 gün sonra jandarmadan sızan xəbərə görə, Başçavuş Bayramilə Çavuş Dərvişlunun tutularaq, Tehranın Ordu Məhkəməsinə verilməsi, gözlədiyimiz umudi yasa çevirdi. Bununla bağlı Qurdananın istəyilə öz aramızda bir düşünmə toplantısı qurduq. Bütün varsayımları alt-üst etdik. Toplantının məsləhətinə görə, Əmicanla Qulamın qaçaq yolla Tehrana getməsi irəli sürüldü. Artıq, azadlıq bəlgəsini gözləməyin anlamı yox idi. Bu ikisinə qarşı "İrana, Şaha xəyanət" hökmün çıxarılmasına kəsin gözlə baxıldı. Bəlli olası Bədiabadda bağış deyil, ölüm hökmu yolu gözükürdü! Burada "ölən ölsün, qalan isə, Bərəkətağanın malı olsun" alış-verişi yapılmışdı!

Uyğun görüldü ki, jandarma izini görən hərkəs bizə xəbər versin. Qaçma yolları titizliklə incələnsin. Jandarma izi görünürsə, çavuşların az bir zaman içində yamaclardan aşaraq gizlənilməsi sağlansın. Bir neçə gün içində Çavuşların Xürrəmabada gedərək, orada Maşallahxanın yardımıyla Tehrana qaçması düşünüldü. Ancaq, onların Maşallahxana qovuşmasının yolu məndən geçirdi. Belə ki, mən necə olursa-

olsun Bədrabada getməli, Maşallahxanı görməli, işi düzənə qoymalıydım. İşin böyük riskini hamımız düşünürdük. Ancaq, qarşımızda başqa çarə yolu görünmürdü. Bu üzdən, mənim bu riskli işimə Olqa təpki göstərdi:

- Cəvanşir, sən hər hansı işini mənimlə də danışmalı, düşüncəmi öyrənməlisən. Biz evliyik. Hara gedərsək, birlikdə gedəcəyik. Bu kəz səninlə mən də gələcəyəm. Tutularsaq birlikdə, qurtularsaq birlikdə olacayıq. Bundan başqa heç nəyə razı deyiləm.
- Fərəc əmican: Olqa qızım bu yollar başdan-başa təhlükədir. Başda jandarmalar olmaqla yırtıcı canavarları da düşün! Tanrı qorusun bir olay üz verərsə!
- Olqa: Əmican, mən bu iki ildə nələr yaşamadım ki! Bir azını siz bilirsiniz, bir çoxunu mən özüm bilirəm! Bu yaşımda qoca adama bənzəyirəm artıq! Bu yaşamaq deyil ki! Bir də, mən kimsəyə yük olmaram. Öz başımın çarəsinə baxaram! Siz, mənə görə narahat olmayın lütfən! Cəvanşir gedərsə, mən də gedəcəyəm!
- Qulam: Bacımızın haqqı var, məncə! Bizim adımız ortada oynayırsa, mütləq Olqanın da Fatma yalanı ortaya çıxacaq! Hətta Elmira xanımın belə adının çıxması düşünülməlidir. Qaldı ki, qurd-quşla jandarmalar! Allah eləməsin bu yolda Cəvanşirin başına bir bəla gələrsə, Olqanın durumu necə olacaq?
- Qurdana: Uşaqlar bir az əl saxlayın. Biz, öncə jandarmaya baş vurmalıyıq. Onlara azadlıq bəlgəsinin çıxmasını deməliyik. Onlar, Şahın əfv fərmanının niyə

uyğulanmamasına cavab verməlidirlər. Məncə, bizim bu işimizin iki xeyri olacaqdır. Birincisi sərkarların durumu ilə bağlı bilgi əldə edəcəyik, ikincisi ortada əmirin olub-olmamasını öyrənəcəyik. İzn verin sabah tezdən mənimlə Kişixan bəy jandarma durağına yollanaq. Ordan dönər-dönməz son durumu dəyərləndirək.

- Elmira bacı: Sizi bu qış havasında yola çıxarmaq dəlilikdir. Sizin gedib-dönüşünüz çox çətin işdir! Sizi, belə bir yolculuğa buraxmamaq gərəkdir.
- Qurdana: (Gülə-gülə) Elmira qızım, qorxma özümü qurda-quşa yem edərəm sənin kişinə zəfər toxundurmaram! Onu sağ-sağlam əlinə verərəm!
- Elmira bacı: Səkinə ana sən bizim hamımızın sevimlisisən. Tanrıdan sənin canının sağlığını təmənni edirəm. Sən olmasan, biz öksüz qalarıq. Sözsüz ki, Kişixan bəyin də öz yeri var. (başını yerə salaraq) Hələ mənim üçün!
- Qurdana: Elmira qızım, yahu deyib yola çıxmalıyıq. Bu qış uzun sürə bizimlə olacaq. Mən, hamının buralardan qaçmasını düşünürəm. Zamanı itirmədən bir yol tapmalıyıq, qızım! Siz, buralarda gözdə-qulaqda olunuz. Biz, gedib-qayıdarıq. Niyyət hara, mənzil ora!
- Kişixan əmi: Mən də Qurdanamızın qurd ürəyinə girib yahu deyib yola çıxmağa hazıram! Elmira, nigaran olma! Gedib yaxşı bilgilərlə dönəcəyik.

Hər zaman olduğu kimi Qurdananın məntiqi qarşısında təslim olaraq qarlı sabahda iki yolcumuzu uğurladıq. Artıq havanın necə olması, qarşımıza nə çıxması önəmli deyildi. Qurd

təhlükəsi var sözü qarşısında "Qurd mübarək heyvandır! Qarşımıza çıxarsa, işimizin uğurlu olacağı kəsindir! "Yahu, ya movla" deyib yola davam!" deyərək yenə öz inancının ululuğunu göstərmiş oldu, Qurdana!

Hər gün kiçilməkdə olan sürgün qafiləmizin dözülməz durumu gərgin əsəblərimizin darmadağın olmasını tezləşdirirdi. Toplum içində hər bir sözün sərt yanıtı üzə dəyirdi. Get-gedə içimizdə olan ümidlər tükənirdi. Cümlələr olduqca qısa, anlamsız, inamsızlaşmışdı. Görünürdü ki, bir-birimizə qarşı deyəcək söz qalmamışdı! Hətta, mənimlə Olqa arasında anlamsız dartışmalar baş verirdi. Onlardan biri həmin günlər baş verdi:

- Olqa: Mənim qara yazım sürdükcə, sənin məndən uzaqlaşdığını hiss edirəm. Mən, özümü yalqız görürəm. Sən belə, mənimlə ilgilənmirsən. Bu gənc çağımda dörd doğmamı, bir də doğmadan daha artıq sevdiyim balamı itirmişəm. Bu dünyada səndən başqa kimsəm qalmayıb. Sən də, balıq kimi əlimdən süzülmək istəyirsən. Məndən doydunsa, bunu dik üzümə de! Mənim üçün bu dünyada acıdan başqa dad qalmayıbdır. Mənim üzümə baxa-baxa de ki, "Sənsiz yaşam mənə haramdır!". Sözünün doğru-düzlüyünü gözlərindən anlayım! Bundan sonra mənim üçün önəmli olan söz deyil, əməldir! Məni başından etmək üçün qaçmağa gərək yoxdur! Elə burada da məni buraxmaqda özgürsən!
- Olqa bunlar hardan çıxdı? Mənim sənə qarşı nə zaman sevgi azlığım olub! Mənim üçün sənsiz olmağın anlamı yox! Sənsiz olmaqdansa ölüm daha yaxşı! Mən nə zaman səni

buraxmağı düşündüm? Bu sözlərini nədən eşidirəm! Mənimlə gəlmək istərsən gözüm-başım üstə! Amma lütfən bir də səndən doyacağımı dilinə gətirmə, sevgilim! Mən sənsiz sudan çıxmış balığa bənzərəm! Mən səni çox sevdiyimdən mənimlə gəlməyini doğru sanmadım. Mən gedib dönəcəyəm. Sonra hara gedərsək, birlikdə gedəcəyik. Mən sənsiz bir yerə gedəsi deyiləm!

- Biz ağır günlərin dostu, sevgilisi, eşi olmuşuq. Biz, iki gənc kimi bir-birimizi sevməmişik. Əl-ələ , qol-qola, dodaq-dodağa sevişməmişik. Biz, açıq baxışla, sevdalı gözlə, ürək atışıyla bir-birimizə aşiq olmamışıq ki! Bizi, bir-birimizə yaxınlaşdıran, tanışlandırıb qovuşduran qara yazğımız olubdur. Biz, bircə xoş gün görmədik ki, ehtiyac dışında sevginin nə olduğunu anlayaq. Biz ikimiz də ehtiyac məhsulu, siyasət qurbanıyıq!
- Olqa! Bəsdi daha eşitmək istəmirəm! Mənim üçün sevginin sərhəddi yoxdur. Sərhədsiz sevgi can çəkən bir həvəsdir. Unutma ki, mən səni sevərkən beyinim deyil, ürəyim titrədi! Dilim deyil, bağırım dilləndi! Sən necə belə sözləri dilinə gətirirsən! Biz, çox çətin günlər keçirdik. Mən, sənin südəmər körpəni görməsəm də, ölümünə birlikdə ağladıq. Atasız bir fidanın anası donarkən, ana-atalıq görəvi boynumuzun borcu oldu! Sevgimizin üç çiçəyi gül olmadan soldu! Bunlar niyə sənə sübut vermir, Olqa! Mən səni beynimlə deyil, ürəyimlə sevirəm! Ürək işi hesab-kitab işi deyil. Ürək işinin nə olduğunu səninlə öyrəndim mən! Məni sevgimdən uzaqlaşdırma Olqa! Məni yalvartma özünə!

- Çəvanşir! Yalvaran mənəm, sən deyilsən! Məni tərk etmə deyən mənəm, sən deyilsən! Təmiz sevgimi sənə anlatmağa çalışıram! Sən bu dünyada təkcə varlığımsan deyən mən deyiləmmi?! Məni buralarda buraxma deyən mən deyiləmmi?!

Qurdanayla kişixanəminin qar-buz içində Bədiabada dönməsi hər kəsi sevindirdi. Bu iki qocaman insanımızın bundan öncə ortaq özverisi el içində örnək olmuşdu. Ancaq, bu səfərlərinin bir dəstan olması qaçırılmaz qəhrəmanlıq idi. Onlar, iki canlı insana deyil, iki buzdan yonulmuş heykələ bənzəyirdirlər. Hər ikisinin dili tutulmuşdu. Elmira və Sara xanımların çabasıyla Kişixan əmilə Qurdananın donmuş paltarları çıxarılıb quru geyimlə basdırıldılar. O günün son saatları hamımız üçün qorxulu həyatımızın bəlkə də, ən qorxunc günü oldu. Sona qalan iki gözəlin itirilmə qorxusu canımızı titrədirdi! O gecənin sonunda Kişixan əmi və Qurdananın sağlam yatmasından arxayın olunca, biz də başımızı yastığa qoyduq.

Bu gün tövlə işləri, susqunluğu ilə rəhmətlik Cahankişi əmini anımsadan qırxbeş-əlli yaşlarında Kamil bəylə Qulamın öhdəsindəydi. Ancaq, o gecə mənim gözümə yuxu getmədiyindən, tövləyə baş çəkdim. Tövləyə girər-girməz yoldan gələn eşşəklərin birini cansız olaraq yerdə gördüm. Bəlli ki, yazıq eşşək dünənin yol şaxtasından canını qurtara bilməmişdi. Eşşəyin ölməsilə Qurdananın üzgünlüyü gözlərindən oxunurdu!

Üç-dörd gənc evdaşımızla birlikdə diz boyunca buzlu qar içində ölmuş eşşəyi torpağa basdırdım. Axşam çağı Qurdana ilə Kişixan əmi jandarmada olan görüşlərini bizimlə paylaşdılar:

- Kişixanəmi: Gördüyünüz kimi sağ-salamat gedib gəldik. Tale bizi yaşatdı. Yolda qu vurub qulaq dolurdu. Gediş-gəldiyimizdə yol boyunca canlı birisini görə bilmədik. Buz kimi şaxta az qala qanımızı dondururdu. Sanki başımız üstündə bir möcüzə dolanırdı! Bizi buraya, sizin yanınıza çatdıran da, elə o möcüzə oldu! Bizim oraya gediş-gəlişimizin sonucu istədiyimiz kimi olmasa da, tam da boş keçmədi. Birinci, jandarma durağı bir yeni çavuşla 3 əskərə qalmışdı. Keçmiş gəl-getlərdən xəbər-ətər yox idi. Bəlli olan qış çağlarında jandarma başçıları evlərində qalmağa üstünlük verirlər. Orada, öncədən tanış olduğumuz əskərlərin aracılığıyla içəriyə alındıq. Əskərlərin biri bizi gənc çavuşa tanışdırdı. Bəlli oldu ki, az rütbəli gənc çavuşun bizim haqqımızda çox bilgisi yox idi. Mən, sözün düyününü açmaq üçün başçavuş Fərman Diksözün görüşünə gəldiyimizi dilə gətirdim. Onun bizə yaxın dost olduğunu söylədim. Saygı görüşünə gəldiyimizi, ancaq bu şaxta gündə şanssız olduğumuzu irəli sürdüm. Onlar, bizi isti soba yanında oturdular. Bizim bu qış günündə riskli iş gördüyümüzdən dolayı çox önəmli işimizin olduğunu söylədilər.
- Qurdana: Onlar, doğrudan da əllərindən gələn qulluğu əsirgəmədilər. Tüklərini yenicə yonmuş bir toyuğu bişirib bizimlə paylaşdılar. Əskərlərin birisi bizə yaxınlaşaraq dedi: “Anacan sizin bu şaxtalı qış günündə əliyalın buraya

gəlməyinizi normal görmürəm. Bəlli ki, böyük sıxıntınız var! Mənim əlimdən nə gələr?" Gənc əskərin üzündən insan olduğu bəlli idi. Dediklərinin ürəkdən gəlməsinə inanırdım. Bu böyüklükdə təhlükəni üzərimizə aldığımızın nədəni bilgilənmək idi. Buna görə də, amaca varmaq üçün hər cür riski gözə almaq gərək idi. Bu üzdən soruşdum: "Oğlum, bilirsən ki, bizim çox ağır yaşantımız var. başqa yandan da, bizim buradan başqa yerə köçürülməmizi deyirlər. Səncə, bizi nə zaman buradan götürəcəklər?" Mənim bu sorğumun qarşısında əskərin həyəcanı daha da artdı. "Bunu sizə kəndxuda deyibmi? O, sizin Bədiabaddan getməyinizə razı deyil! Bununla bağlı bizim başçılarımızla anlaşıbdır! Bu xəbərin mən tərəfdən öyrənməsi bilinirsə, canımı belə alarlar, anacan!"

- Kişixanəmi: Ananın dediyi kimi, iki-üç ay öncə bu fərman jandarma mərkəzinə çatmışdır. Ancaq, bəlli ki, böyük pul və torpaq yeri qarşılığında başçavuş Fərman Diksöz, bizi Bərəkətağaya satmışdır. Çünki bizimlə Bədiabad kəndi yenidən dirilmişdir. Biz, olmayınca bu kənd Bərəkətağanın özündən öncə ölümə məhkumdur. Səkinə anayla danışan əskərin adı Ağabəy Çadırçı, özü də "Sava"nın "Marağay" kəndində doğulmuşdu. Dediyinə görə, Marağayda türkcədən başqa dil yoxdur! O isə, farscanı biraz Həmədanda və bir də həmin əskərlikdə öyrənibdir.
- Qurdana: Ağabəy oğlum sən çox ürəkli birinə bənzəyirsən. Bilirəm ki, əlinə bilgi çatar-çatmaz bizə gələcəksən. Dediyinə görə, bir neçə gün sonra bölgəni kontrol üçün Bədiabada da gələcəklər. Bizimlə bağlı yeni nə varsa

öyrənməyə söz veribdir. Ən doğrusu, Ağabəyi gözləməyimizdir. Onun bizə yardım edəcəyindən əminəm! Ancaq, bu öz aramızda qalmalıdır. Yoxsa, gözəl balamıza qıyarlar.

Gələrkən özlərilə gətirdiyi azacıq qidanın hazırlanmasıyla dadlı bir axşam yeməyi yedik. Otağımızda baş-başa uzandığımda Olqanın könlünü almağa çalışırdım. Olqa, mənim həyəcanıma yanıt verməkdən qaçınsa da, gözləri onun tərsini göstərirdi! Artıq bir il boyunca Olqanın bu özəlliyini yaşamışdım. Olqanın bir azdan açılacağını, məni sıcaq qoynuna alacağını duyurdum! Nə olursa-olsun, o mənim, mən isə onun yarısını oluşdururduq. Biz ikimiz bir olunca bütövləşir, sevgililəşir, yaşamlaşırdıq! Olqanın dodaqlarıyla soluqlanır, boşalmasıyla yaşamlaşır, ötəsilə tanrılaşırdım! Mən, sevgini belə öyrəndim Olqadan! Öyrətmənimin mənə qarşı sərgilədiyi öfkənin nədəni isə, öyrəndiklərimin hələ də kültürsəl olmamasını düşünürdüm! *"Sevgi yaşam kültürüdür! Dərisindən asılı olmayaraq sevginin boyası, şəkli eyndir! O, nə qaradır, nə də ağ! O, hətta ürək şəklində deyil! Onu duymaq üçün, bir anlamla tanrılaşma gərəkir. Onu, nəsnəl ölçümlə deyil, tanrısal duyumla damla-damla içinə çəkməlisən! Sevgi elə bir tindir ki, onu görmədən, duymadan, ağırlığını hiss etmədən ağ ipəkli qanadları üzərində bulutlaşmalısan! İslaq olub yağmur kimi yağmalısan! Sevgi, belə bir anlamdır! Yaşam, sevgidən uzaklaşarsa insan dirikən ölür! Sevgidən utanan yaşamdan usanar! Sevgini içinə çəkdiyin zaman tanrı kimi zamansız ol! Məkansız ol! Yoxsa! Sevişmə!*

*Sevgiyə yazıq edərsən! Zamanda boğularsan! Məkanda bükülərsən!"*

Olqa ilə aramda olan sevgi anlamını beləcə öyrənib ona bağlandım. Hər kəs məni güclü sanırkən, mən Olqanın gücünə sığınırdım!
Türk əskərin dediyi sözlər doğru çıxdı. Ağabəylə, gənc çavuş iki çaparla Bədiabadın girişində göründülər. Öncədən bəlli olmuş gizli cığırdan iki çavuşumuz dağ ətəklərinə fırladılar. Uzaqdan göründüyü kimi, gənc jandarma çavuş Bərəkətağanın qapısında Ağabəydən ayrıldı. Ağabəy yavaş-yavaş bizə sarı gəldi. İşarəmizlə əmicanla Qulam uzaqlaşmadan geri döndülər. Türk əskərini içəri aldıq. Qurdana türk əskərin anlından öpdü. Ağabəy Qurdananın əlindən və üzündən öpərək, hamını salamladı:

- Ana, dediyim kimi gəldim. Çavuşu Bərəkət ağayla tanış olma bəhanəsiylə onun evinə buraxdım. Sizə biraz yemək gətirmişəm. Anacan, mənimlə gəlin, verim!

Türk əskər yemək adına Qurdanayla Kişixan əmini bayıra çıxartdı. Onların gəlməsi uzun çəkdi, o üzdən içəridə həyəcan yüksəldi. Sonunda hər üçü içəri girdilər. Sara xanımın düzənlədiyi çay süfrəsi hazırlandı. Türk əskər:

- Mən sizin sayınızı almağa gəlmişəm. Sərkar başçavuş və sərkar çavuş mənim görəvimi bilirlər. Mən sizin sayınızın düz olmasını verərsəm, başınızın üstünü kəsən olmaz, yoxsa gecə-gündüzünüzü qaraldarlar! Verdiyim raportun qışın sonlarına qədər kifayət etdiyini düşünürəm! Bu, jandarmanın

üzərinizdə olmaması anlamına gəlir. Amma yenə də siz tədbirli olun! Bu günlər Jandarma durağı üç-dörd kişilə idarə olunur. Bölgənin kontrolu hardasa imkansızdır! Ancaq, Xürrəmabadan olan duraqdan bilgim yoxdur! Bizim onlarla yalnızca teleqrafla ilişgimiz var. Son zamanlar sizin də tanıdığınız Maşallahxan axtarışdadır. Bildiyimiz o ki, həyat yoldaşını öldürüb qaçmışdır.

Əskər, danışarkən Qurdana, rəhmətli Sona ananın toxuduğu yün əlcəklə corbacırı Ağabəyə hədiyyə etdi! Türk əskər sevindiyindən Qurdananı qucaqlayıb öpdü! Və həmən an corbacırla əlcəyi geydi. Çayını qoşaladı, sonra da yola düşdü! Gedərkən çavuşlara ordu sayğısı göstərdi.

- Başçavuş: Allah amanında, oğlum! Bizə çox yardımçı oldun!
- Türk əskər: Sağol Sərkar!

Türk əskərin gedişindən sonra Qurdana, Fərəc əmicanla Qulamın tezliklə buralardan qaçmalarını çox üzüntülü halilə dilə gətirdi! Əskərin verdiyi bilgilərə görə, Fərəc əmicanla Qulamın haqqında bugün-sabah tutuqlama əmri gələcəkdir. Əskərin anlatdıqlarına görə, əmr teleqrafla gəlmişdir. Ancaq, yenicə üçüncü sitvan rütbəsinə yüksələn Sərkar Diksöz dönməyincə, fərmanın gündəmə gəlməsi dayanmışdır. Əskərin oxuduğu teleqrafda iki çavuş soydaşımız, xain firqəçilərlə işbirliyində olduqları üçün yenidən savaş məhkəməsinə veriləcəklər. Bundan ötrü tutulub Tehrana götürülməlidirlər. Əskərin verdiyi bir yeni xəbər də “Şah”ın verdiyi gənəl bağış

əmri idi. Onun verdiyi bilgiyə görə, bu əfv fərmanı otuz-qırx gün öncə gəlmişdi. Əskər deyirdi: *“Hətta o günkü başçavuş Fərman Diksöz bu əmrin verilməsinin xəbərini özü sizə çatdırmaq istəmişdir. Lakin bildiyimizə görə, Bərəkətağanın yuxarılarda olan adamı ilə, bu əmr sizə deyilməmiş və heç zaman da deyilməyəcək! Mən özüm Sitvan Diksözə gələn əmri gördüm. Belə ki, hər axşam bir əskərin təmizləmə sırası olur. O gün axşam mənim təmizlik yapmağım gərək idi. Sitvanın masasında bir teleqraf gördüm. Teleqrafın mətni sizlə bağlı olduğu üçün marağımı çəkdi. Teleqraf Tehranın Jandarma mərkəzinin yekəbaşların birinin imzasını daşıyırdı. O, Diksöz cənablarından sizinlə bağlı olan əmrin ləğvini, bu haqda susmasını və Tehrana getməsini istəmişdi. Diksöz cənabları bu istəkdən öncə, sizin əfv fərmanının gəlməsini çavuşlara demiş, biz də onlardan öyrənmişdik. Ancaq, teleqraf gələn gündən iki gün sonra Diksöz cənabları fərmanın ləğv olduğunu. Anlatmışdı. Halbuki, mən gördüyüm teleqrafda fərman deyil, rica və istək sözü işlənmişdi. Həmin fərmanın öt-basdır edilməsindən sonra, cənab Diksöz Tehrandan dönərkən birulduzlu sitvan kimliyi qazanmışdır.”*

Mənim Ağabəyə çox ürəyim yanırdı. O, bu bilgiləri verməklə yanaşı, özünü bizim yolumuzda qurban edirdi. Onun qurd ürəkliyi, kimliyinə bağlılığı, bizə duyduğu insani borcu inanılmaz dərəcədə yüksək idi. Mənim üçün lək Maşallahxanla, türk Ağabəy kimi insanların dəyəri, yalnız insanlıqla ölçülə bilər. Birinin insanları kül etməyə göstərdiyi çaba, digərinin isə, öz canı bahasına ortaya qoyduğu insan sevgisi! Biriləri lur

Bərəkət ağa kimi, türk Diksöz kimi heyvan! Başqa biri isə, lək Maşallahxan kimi, türk Ağabəy kimi adam! İnsanlıq qandanmı, qanundanmı yoxsa tanrıdanmı törənir!? Məncə insanlıq nədən törənirsə törənsin, anlamca öz bə öz tanrılıqdır!

☆ ☆ ☆

Tehrandan Bədiabada gəldiyimiz gündən bəri sayımız bir il içində 36 nəfərdən 28-ə düşmüşdü! Cabbar əminin ölümü ilə sarsılan Qurdana, Sona ananın ansızın göz yummasıyla beli bükülmüşdü! Ancaq, bütün bu əzginliklərə baxmayaraq, Qurdananın qayğısı damla ucu qədər azalmamışdı. Gülərüzlü, qurdürəkli, çözümçü, yılmaz, yorulmaz, inamlı, inadcıl bu qadının hər oturum sonunda yahu deyərək dik ayağa qalxması, hər birimizə örnək sayılırdı. Gərçəkdən də, hamı Qurdana kimi olmaq istəyirdi. Ancaq, onun özəlliklərinin çəkisi bizlər üçün qaldırılırmaz idi!

Qurdananın hər kəsin dililə anlatma tərzi birlik rəmzmiz idi. O, son olayların anlatma tərzini tam bir ustalıqla hər kəsə ayrı-ayrı anladırdı. Onun anlatmalarında “əfv fərmanı”, “çavuşların tutuqlanma əmri” kimi sözlərin yeri görünmürdü. O, hər şeydən öncə Ağabəyi düşünürdü. Ayrıca, durumun necə olduğunu da hamıya aydınlatmağa çalışırdı. O, sözlərində burada qalıb acından ölməkdənsə, canını götürüb qaçmağı anladırdı. Onun bu məsələ ilə bağlı görüşlərindən sonra, ən azından 18 nəfərin getmə gücünün olmaması üzə çıxdı. Qaçmaq istəyənlərin

Nəhavənd və Xürrəmabad yollarından getmələri düşünüldü. Kişixan, Elmira, Quzu, Ceyran, 40 yaşlarında Məhərrəm Əli Niyazi, Ümid Çələbiyanlu Nəhavənddən Həmədana, oradan isə Tehrana ya Təbrizə sarı getmələri uyğun göründü. Plana görə, Kişixan əmi dörd nəfərin təcili xəstəxanaya yetişməsi üçün Bərəkətağadan yardım istəməsi gərək idi. Əks təqdirdə, ortada olan toyuq vəbası xəstəliyi başqalarına da bulaşaraq, kənddə olan hər kəsin ölümünə nədən olacaqdı. Buna görə də, Quzu, Ceyran, Məhərrəməli və Ümid bir otaqda yataraq xəstəlik göstərisi yapmalıydılar. Qurdananın bu fikrinin həyata keçməsi üçün hər cür hazırlıqlar düşünüldü. Kişixan əmi Bərəkətağanın yanından döndü. Onunla birlikdə Bərəkətağanın bir nökəri və yeni müşaviri bizim yaşam yerimizə gəldilər. Düşünüldüyü kimi, üz-gözlərindən sel kimi axan tərlər içində dörd xəstə başqalarından ayrılaraq, bir otaqda yan-yana yatmışlar. Maşallahxanın yerinə gələn qısa boylu, qara bığlı Hacı Nemət ağa xəstələri qapının arasından görər-görməz, geri dönərək tövlə sarayından bayıra fırladı. O, hətta bizim yanımızda belə qalmaq istəmədi. Qısaca bunları deyərək, Kişixan əmi ilə birlikdə Bərəkətağanın yanına getdi:

- Bərəkətağa sizin sağlam yaşamağınız üçün əlindən gələni edir. O, sizdən ötrü hər yerə baş vurur, pullar xərcləyir. Həkim xanımın dediyinə görə, toyuq vəbası aranızda var. Mən, bunları Bərəkətağaya deyəcəyəm. Tezliklə sizə yardım olunacaq. Kişixan bəy mənimlə gəlsin!

Kişixan əminin gülər üzlə dönmə planın tutmasını göstərirdi. Sabah Bərəkətağanın öz faytonu ilə Nəhavəndə gedəcəklərini

soyləyən Kişixan əmi bir də kənd ağasının tədirgin olduğunu dilə gətirdi:

- Bərəkətağa çox qorxub. Ona, bütün kəndin ölə biləcəyini deyincə, yanındakı güzgüdə özünə baxdığını görmək çox gülünc idi. O, udqunaraq sabah yola çıxmağımızı əmr etdi. Üç dənə də 5 Pəhləvilik /50 Tümənlik/ dava-dərman xərci verdi.

O, pulları Qurdanaya verdi. Qurdana pulları aldı! Əlini döşünün sol tərəfinə uzadaraq toplanmış pulları Kişixan əminin verdiyi pula artırdı. Movlam yardımçınız olsun deyə, bütün pulları Kişixan əmiyə qaytardı. Kişixan əminin gözləri pul kimi qızardı. Orada olan Olqanın, Elmiranın və mənim də bu durumdan kövrək olduğu bəlli olurdu! Qurdana aslan kimi dim-dik səsləndi:

- Daha nə oldu? Nədən nigaransan, Kişixan bəy?
- Kişixan əmi (Qurdananın yanaqlarından və anlından öpərək!): Səkinə ana, sən də bizimlə gəl! Ürəyimiz sənsiz darıxar! Buralarda qalıb nə edəcəksən? Bizim sənə ehtiyacımız var!
- Qurdana: Yox! Mən burda olan ailəmi tək buraxmaram. Burdan çıxan son nəfər mən olacağam. Alınyazımı movlam çizmiş! Mən, sizi buralardan uzaqlaşdıra bilsəm, dünyanın ən xoşbəxt insanı olaram. Sizin mənimlə işiniz olmasın. Mənə dua edin, yetər! Qismət olarsa, qovuşarıq. Olmazsa da, alınyazımıza qatlanarıq. Çox diqqətli olun. İki uşaq sizə əmanətdir. Rəhmətli Cahankişi əmicanın gözü arxada

qalmasın! Özünüz kimi baxın sevimli balalarıma! Onlar bundan sonra Elmira ilə sənin balalarındır. Adlarını özünüzə bağlayın ki, özlərini kimsəsiz sanmasınlar.

- Elmira bacı: (Qurdanaya sarılarkən) Anam! Gözəl anam! Səndən qopmağı kim istər ki, mən də istəyim! Səni tanıyalı on-on beş ay oldu! Amma sankı məni sən doğubsan! Sən bizim hamımıza analıq etdin, umud verdin, ürək verdin, indi də yaşamağımız üçün ömrünü verirsən! Sən kimsən!? Anam!
- Sevimli Elmiram mənə sarıl, sarıl ki, köksümdəki ürəyim qoşa artsın! Köksümün sağ boşluğu sənin qəlbinlə dolsun! Mən, sizdən yaşam ilhamı alıram. Mənim balalarım, harda olursunuz-olun, bir-birinizi buraxmayın. Mənim bir xatirim varsa öz yanınıza alınız. Mənim bir vəsiyyətim varsa, o da sizin birliyinizdir. Namussuz düşmənlərin tək niyyəti, sizi bir-birinizdən ayrı salmaqdır. Onların şeytan üzləri heç gülməsin! Millətimin gül kimi türk balalarını öz yurd-yuvalarından sürgün salıblar. Tanrımın lənətinə gəlsin bu düşmənlər. Düşmənin sizləri bir-birindən ayrı salma niyyəti boşa çıxıb! Baxın görün, biriniz Bakıdan, biriniz Zəngandan bu qərib yerlərdə könül bağı qurdunuz! Ya siz, Olqa-Cəvanşir! Haralardan gəlib bir-birinizə qovuşdunuz! Bu millətin dərdi bir, alınyazısı bir, keçmişi bir, gələcəyi də bir olacaqdır. Sizlər də bunun örnəklərisiniz. Yahu deyib ayağa qalxın, zaman azdır.

Hamımız Yahu deyə ayağa qalxırıq!

- Kişixan əmi: Ana, çox önəmli bir söz deməliyəm.
- Qurdana: Həəə doğru! Nə deyəcəkdin?

- Kişixanəmi: Sabah Bərəkətağanın öz faytonu ilə Nəhavəndə gedəcəyik. Bərəkətağanın faytonçusu bizi götürəcək. Dönənədək bizimlə qalacaq. Bizim əl-qolumuz bağlanır.
- Qurdana: Bu həm yaxşı, həm də pis xəbərdir! Pis tərəfi, üzərinizdə birinin gözətçi olmasıdır. Yaxşı tərəfi isə, bu qış günündə əminliklə bu xarabalıqdan uzaqlaşmağınızdır. Belə olan zaman, Nəhavəndəcək gözüm yolda qalmaz! Siz də arxayın olun. Ondan sonrakı durumumuz, artıq fürsətə bağlıdır. Faytonçunu özünüzdən uzaq saxlamağa çalışın. Onu gözəlcə yatırın! Birinci əlverişli zaman içində, Həmədana sarı getməyin yollarını axtarın! Burdakılardan da yüngülcə sağollaşın. Dönməyinizi içimizdən çoxlarının bilməsi gərək deyil! Hər kəs iki-üç günə dönəcəyinizi düşünməlidir. Öncə siz yollanın, sonrasına baxarıq! Tanrım yolunuzu açıq eləsin!
- Kişixanəmi: (əlləri, dodaqları əsə-əsə!)
  *"Lənət qara zindanlara, şallaqlara lənət!*
  *Lənət setəm-o cəbr-o, fəlakətlərə lənət!*
  *Lənət, törəyən qanlı cinayətlərə lənət!*
  *Lənət kəcə, kəmbinlərə, batillərə lənət!*
  *Lənət əsəbi, qorxulu qatillərə lənət!"*

Kişixan əmi son olaraq göz yaşıyla bəzək vermiş M.Biriyanın sözlərini oxşarkən qar buzuyla dolmuş Cahankişi əmicanın, Cəabbar əminin qəbrlərini ziyarət üçün yola düşdü!

Ax, doğma elim! Ax, bağrımın içində qaynar ocağım! Ax, varlığımın anlamı, ərdəmi, özülü! Ax, türkülərimin coşar bulağı, qoşar yaşamı! Ax, sənə nə gəldi, nə gəldi ki, Qurdların susqun

qaldı! Nə gəldi ki, göz yaşların axmaz oldu! Nə gəldi ki, igidlərin alçaqlara düşük oldu!

Demişlər, gün var ilə qarşın, il də var günə qarşın! 15-16 ay bundan öncə Təbrizin qan ləkəli gəlinliyinə, qan göz yaşlarımızla sağol dedik! Sağol dedik də. Təbriz vətəndə qaldı, vətən isə, özgələr əlində! Torpaq yerində qaldısa, vətən daşındı! Bizlərsə, vətənin hüceyrələri olaraq səpələndik. Ölürkən biriləri əlimizdən yapışdı, uca səslə "Haray, haray biz Türkük!" dedi, ölü canlarımıza yaşam ruhu verdi! "Türk harda varsa, türkdür!" deyə canımıza can bağladıq. Aclığı sevə-sevə yedik, ölümə yox dedik! Qurddan qorxduqca, içimizdəki qurdu tapdıq. Göktanrımızı, Şamanımızı, Qurdumuzu, Yahumuzu doğanın lənətlənmiş bir ucqarlığında tapdıq! Türk olduq! Çiyin-çiyinə gələrkən, yenişlərdə yemək üçün yoxuşlarda qurd ovuna çıxdıq. Çünki, qurdun ürəyini öz ürəyimizə qatmaq üçün, qurdürəkli olmaq üçün qurd ürəyi yemək gərəkdir!

İndi isə, birgəliyimiz pozulmalıdır. İndi isə, hər birimizin ayrı-ayrı yerdə Cabbar əmi, Qurdana olmağımız gərəkdir. İndi isə, ləpələnmiş öfkəmizin dalğalanması gərəkdir! Coşqulu Kişixan bəy, yolun açıq olsun! Elmira həkim sənin də yolun açıq olsun! Umud edirəm ki, çoşqulu əmimizə ürəyincə baxasan! Sənin gedişinlə Qurdananın sınıq qoşunu payız yarpaqları tək ələnəcək! Ay mənim gözəllərim, Cahankişi əmicanın gözbəbək torunları Quzu ilə Ceyran sağ-salamat qalın! Yeni atanıza, yeni ananıza sevimli övlad olun!  Siz də, salamat qalın, Məhərrəməli və Ümid dayılar!



☆ ☆ ☆

Nəhavənddən xəbər gəlmədən öncə Fərəc əmicanla Qulam, sonra mənimlə Olqa qarşı yoldan Xürrəmabadda getməliydik. Mən, Maşallahxanı almaq üçün Bədrabada getməli, onu da alaraq başqalarına qovuşmalı idim. Genəl bağış fərmanının imzalanmasıyla yollarda öncəki kimi kontrolun olmamasından əmin idik. Bunu Oruc bəyin Bədiabada gəlməsilə öyrənmişdik. Bizim qaçaq tərəfimiz dövlət deyil, kiçik xanlar və Bərəkətağa idi. Başqa yandan isə, iki türk çavuşa İrana xəyanət hökmu çıxmışdı! Onların tutulmasıyla yox olması eyn idi.

Əlimizdə dörd at var idi. Kişixangilin faytonla getməsilə atlar bizə qalmışdı. Çünki, bizdən sonra qalan toplum içində at çapacaq gənc adam qalmamışdır. Olqa, at minməyi uşaqlıqdan bilsə də, Bədiabadda daha yaxşı öyrənmişdi. Deməki olar ki, aramızda at minməyi bilməyən yox idi. Bu üzdən, şanslı idik. Ancaq, içimizdə məndən başqa bu yolları bilən yox idi. Buna görə də, birlikdə çıxmağımız uyğun göründü.

Bizim üçün artıq şaxta, boran, qar, külək önəmli deyildi. Önəmli olan bataqlığa cummuş insanlığımızı qurtarmaq idi. Bizlər, bir il bundan öncəki özgürlük damlacığını dadmış kövrək insanlar deyildik. Bizim üçün, o damla özgürlük qədəhinin sərxoşluğu çoxdan bitmişdi. Biz, siyasətin ölümcül toruna düşən çox kiçik balıqlar idik! Biz, bir millət olaraq ürəklə davaya girdik. Beyin fırtınasını ürəklərimiz qaldıra bilmədi. Beyinlə oyun ustalığı yapanların nə edəcəklərini

düşünmədən, görmədən yandıq, yaxıldıq! Sonunda, fırtınalar qarşısında yalqız qalan duyğularımızla yerlərdə süründük!

İçimizdə Cabbar əmidən başqa gərçəklərimizi bilən kimsəni tanımadım. Biz, ürək işini Qurdanadan, beyin işini isə, Cabbar əmidən öyrəndik, O, bizimlə olan qısa çağda, cansız bədənilə dünya boyda Türk olmağın təməllərini öyrətdi. O, dilimizin elliyini, elimizinsə türklüyünün kökünü anlatdı bizə! Kökünə dayanan yıxılmaz, - deyə fəlsəfə öyrətdi bizə! Vətən kökdən

☆ ☆ ☆

üzülərsə, gələn-gedənin at çapdıran alanı olar! Sizcə, Vətənımız Azərbaycan özgələrin cıdır alanı olmadımı? Gözümüzün qarşısında at oynadanlar ərdəmimizi, milli kimliyimizi, insanlığımızı əzib keçdilər, var-yoxumuzu taladılar! Bizim uduzacaq bir yönümüz qalmamışdı. Məni üzən yalnızca Qurdanadan qopmağımız idi. O, qalanları buraxmayacağına and içmişdi. Onun məsləkində anddan dönmək - Tanrıdan dönmək demək idi.

Səhər iki radələrində səssizcəsinə atları yükləyib tövlədən bayıra çıxartdık. Əlimizə gələn paltarı geyindik. Atların xurcununda yol yeməyi, habelə qalan nəsnələri yerləşdirdik. Bizi, uğurlayan Qurdana və Sara xanımdan sağollaşdıq. Ağlaya-ağlaya əl sallayan Sara bacının nisgilli baxışlarından bağrım deşilirdi. Anasına sarılan körpə kimi Qurdanadan ayrılmaq olmurdu. Az qalsın özümdən keçirdim. Mən, bu aslandan necə ayrıla bilərim! Son kəz, onu qucaqlayaraq dedim:

- Mənim Qurdanam! Mənim Yahu, ya movlam Qurdanam! İnsanlıq ötəsi qudsal anam! Türk anam! Haqqını ancaq sənin kimi olarsam ödəyə bilərəm! Sənin kimi olmaq tanrı olmaqdır. Onu bacara bilməm, ucalıqlarına vara bilməm! Ancaq, sənin yoluna inanaraq, sevgi dolu ürəklə yaşamağa söz verirəm sənə, Anam! Belə olsam, təki belə olsam, məni bağışla! Yalnız o zaman boynumdaki haqqını həlal et gözəl Anam!
- (Öz əlilə quraşdırmış başımdaki papağımı sığallayaraq.) Oğlum! Bax ağır qaçışa çıxırsan. Sevginə hakim ol! Duyğuna yenilmə! İçini gizli tut! Cabbar əminin səndə olan ömür kitabını yiyələrinə yetir! Bu qısa yaşam sürəcində gördüklərinin heç biri yeni deyildir. Bu yaşam öyküsü soydan soya gəlmiş, soydan boya daşınmalıdır. Türk dediyin, belə yaşamış, yaşatmış! Sən də bir Türk oğlu türksən! Vətən uğrunda çəkinmədən canını vermiş atanı, atalarını, ananı, analarını öz ruhunda yaşat! Yaşat ki, ruhunla, cismin bir bütöv olsun! Millət olsun! Türk Olsun! Sənə aid olanın hamısı səndən keçməli, səndən gələn uşaqlara, uşaqlar verilməlidir. Mən də, Cabbar əmi də, burda gördüyün hər kəs də əlində olan əmanətdir! Əmanəti gözün kimi sev! Olqa qızımla birgə sev! Siz ikiniz bütöv olarsanızsa kürəyiniz yerə gəlməz! Olqa, qızım, gəl son olaraq Bakımın qoxusunu səndən alım! Mən doğma vətənimi görmədən bu dünyadan köçəcəyəm! Bəlkə buralardan uzaqlaşıb bir gün ikilikdə Karakum qibləsinə doğru gedərsiniz! Oralarda ki, yamaclara diqqətlə baxınız! Gördüyünüz gənc qızları maraqla izləyiniz!

Görərsiniz ki, bir burma saçlı, qara gözlü, qırmızı şallı, gülər üzlü bir sərv boylu qız sizə sarı gəlib sorar:
*“Bağışlayın sizin hələ də, uşağınız erkən düşür? Bağışlayın, siz Dədəmizin Qızılalmasından daddınızmı heç? Siz, dədəmizin yüksəldiyi yamacların bulağından içdinizmi heç? Siz, Zaqroslardan, Savalandan, Şahdağından Karakum Dədəyə ərməğan gətirdinizmi? Bağışlayın, siz öfkə qanıyla ləkələnmiş Ömür Kitabını Dədəmizə gətirdinizmi! Gətirmədinizsə, gözəl Olqanı özgə gözlərdən qoruyan soydan boya gəlmiş qurdananızın yaşmağını Karakum Dədənin Qızılalma ağacının salxımlarına artırın!”*
Belə birisini görsənizsə, gəncləşmiş məni qarşınızda taparsınız! İndi, yola düşün! Milli ordumuzun gözü yoldadır. Çavuşlarımızın yolu gözlənilir. Yahu, movlam sizi qorusun, qutlu qurdum yolunuza işıq saçsın! Su kimi, dum-duru axın gedin! Toz olub düşmənin gözünü yaxın gedin!...

Qış gecələri uzun kilkəli qara saça bənzər! Açdıqca açılar, hördükcə şəritlənər! Nə zaman bitəcəyi bəlli olmaz! Bizim də bu gecəmiz belə başladı! Bir uzun kilkəli qara saç kimi! Usanıb-bitmədən, şaxtalı-boranlı geçənin ayağına düşmədən, dörd əski yoldaşımın bir daha ölüm dalanından geçməsi gərək idi. Üstəlik bu savaşa üstü örtülü kamyonla deyil, özümüz kimi canlı yoldaşla gedməliydik! Onunla təpə-dərə aşacaq, sazağı canına alacaq, birlikdə qara dalanı deşəcəkdik. Sözsüz ki, pusquya yatan ac qurda, yırtıcı çaqqala salam vermədən dərə-təpə yol verməyəcəkdi bizə!

Atların yeni nalları yerə dəydikcə, qar buzlarını çevrəyə səpirdi. Havanın qaranlığında atların yavaş irəliləməsi, sayılı ayaqlanması bəlli olurdu. Sanki atlar bizim istəyimizdən yana sayılı yürüyürdülər. Xürrəmabad yolu biraz geniş və düzənli gözüşürdü. Hava işıqlanana qədər yamaclara çıxmaq gərək deyildi. Səs-səmirsiz gecənin incidəcək yönü, yalnızca iliklərimizədək işləyən quru şaxta idi. Yol boyunca atların nalları altında əzilən islaq yolun ah-vayı, arx suların şırıltısı, habelə alışdığımız çeşidli heyvanların uvultusu qulağımıza dəyən təkcə səslər idi. Hər şey istədiyimiz kimi irəliləyirdi. Dördümüzün də durumu olduğu kimi görünürdü. Mənimlə Olqa ilk sırada, Fərəc əmicanla Qulam isə biraz arxada irəliləyirdik. Havanın şaxtası atları və bizi ayaqdan salacaq qədər sərt deyildi. Bu üzdən irəlidə qorxulacaq durum görünmürdü. Neçə saat yolda olduğumuz bəlli deyildi. Bizim üçün Bədiabaddan uzaqlaşmaq, Xürrəmabada doğru irəliləmək təkcə amac sayılırdı. Bu yöndə, neçə təpə aşar, neçə dərə enər kimi hesabımız yox idi. Biraz aralı şırşırıyla gözə işıq saçan geniş su alanı marağımızı çəkincə, yolumuzu oraya sarı saldıq. Çox keçmədən gecənin qaranlığında belə, çevrəsini nurlandıran gözəl bir yerə çatdıq. Atların bir az dinlənməsi, habelə özümüzün də bir dürmək atışdırmağımız üçün azacıq da olsa, dincəlmə arası götürdük. Soyuq, gecənin qaranlığı, yollara bələdsizlik, canımızda olan doğal qorxu kimi tədirginlikləri arxada buraxmaqdan ötrü tezliklə ayaqlandıq. Fərəc əmican çox yorğun görünürdü! Öncədən də, ağrıyan sol böyrəyi sancıya başlamışdı. Onu ata mindirmək üçün Qulamla birlikdə yardım etdik. Yeyib-içmədən at belində yerləşən Əmicanın durumu

səfər üçün heç də uyğun görünmürdü. Belə gedərsə, onu yolda itirə bilərik düşüncəsi içimizə quşqu saldı. Başqa yandan isə, Bədiabaddan çoxlu yol gəlmişdik. Sözsüz ki, dönmə durumunda da, əmicanın qarayazısı aydınca görünürdü. Onun, döndüyü halda ağır xəstəlikdən başqa xəstə canilə tutulub əli-qolu bağlı İran Ordu Məhkəməsinə verilməsi danılmaz idi. İki yol ayrıcında onun can çəkişməsini görürdük. O, ağır durumunu dilə gətirməsə də, iradəsiz görüntüsü qaçırılma idi.

Qışın bu çağında danyerinin açılması kimi gözəl görüntü yoxdur! Ancaq, görüntü nə ölçüdə gözəl, möhtəşəm olsa da, bizi ilgiləndirmirdi. O anda bizim marağımızı çəkən yalnız Fərəc əmican idi. Onun geçə qaranlığında gizlənmiş pis durumu danın pöhrələnməsilə daha aydın gözə çarpırdı. Biz, havanın işıqlanmasıyla bütün varsayımlara qarşı gediş yolundan yamaclara yüksəlmək zorunda qalmışdıq. Bu isə, gecə boyunca şaxta və diləgəlməz ağır yolçuluğun acı dözümü idi.

Yol boyunca ortaboy ağaclarıyla, bizi arxasına alacaq qədər geniş və sıx dağ ətəkli meşələri, yavaş-yavaş geridə buraxırdıq. Uyğun bir yerdə dincəlmək üçün atların yəhərlərini yendirdik. Qulamla mən Fərəc əmicanı yerə endirdik. Qalın paltarlı olduğuna baxmayaraq, bədənin buz kimi soyuq idi. Sankı əl-qolu buz bağlamışdı. Yanaqları göm-göy idi. Olqa, boynundakı ipək şalını açıb, Fərəc əmicanın boynuna sardı. Onun isə, “sağol” deməyə belə, halı qalmamışdı. Bir insanın bu tezlikdə ayaqdan düşməsi kimsənin ağlına gəlməzdi. Böyük peşmançılıq içində olduğumuz üz-gözümüzdən bəlli idi. Əmican dinib-danışmır, çox qəribə bir halı var idi! Sanki, indicə son nəfəsini

çəkəcəkdir. Qulam atların yol yemini verməklə yanaşı, yoldaşını, əməkdaşını, sırdaşını izləyir, başını tovlayırdı. O, ikisi Təbrizdən ta indiyə qədər bir-birindən ayrılmadılar. Bəzən Qulamın əmicana məndən daha yaxın olmasını belə, qısqanırdım. Ancaq, biraz düşündükdən sonra, bu yaxınlığın nə ölçüdə dərin olduğunu doğal qəbul edirdim.

Qulamla Olqanın çalışmasından sonra kiçik bir ocaq quruldu. Özümüzlə gətirdiyimiz çaydanda da çay dəmləndi. Sara xanımın bükdüyü çörək boxçası yeməyə hazırlandı. Əmicanın durumu hər üçümüzü, hətta özünü belə düşündürürdü. Durumla bağlı bir qərara gəlmək gərək idi. Qarşıda hələ çox yol var idi. Bu gedişlə axşamın qaranlığını yolda keçirməli olacaqdıq. Bu üzdən ortaya söz atdım:

- Əmican özünü necə hiss edirsən? İstərsən dönə bilərik?
- Olqa: Fərəc əmican, Cəvanşir doğru deyir. Dönüb biraz dincələndən sonra bir daha yola çıxarıq.
- Fərəc əmican: Balalarım, yolçu yolunda gərək! Biz, yolun ən ağırını keçdik. Mən dözərəm. Siz mənim üçün rahatsız olmayın. Bir təhər ötüşəcəyəm. Mənə bir şey olmaz! Olsa da, siz yolunuza davam edəcəksiniz. Yılmaq, yıpranmaq olmaz! Birlikdə yola çıxdıq, birlikdə də bu yolun sonuna çatacayıq. Lakin, mənim durumum yaxşı deyil. Mən yola çıxmadan öncə Qurdanaya dedim ki, mənim qarşımda iki yol var, ya riskə girib gedəcəyəm, ya da ki, burada qalıb jandarmaların əlilə alçalaraq öləcəyəm. Hər iki halda mən bu yolu getməliyəm. Ya özümün iradəmlə, ya da, özgələrin

alçaltmasıyla! Mən birincisini seçdim! Siz balalarımdan təkcə istəyim ailəmi tapıb, onlara yardımçı olmağınızdır.

- Mən: Amma əmican....
- Qulam: Sərkar Başçavuş doğru deyir, uşaqlar! Baxın, bizim üçün dönüş yoxdur. İrəlidə məqsəd vardır. Sadəcə məqsəd! Mən Sərkarı yaxşı tanıyıram. Bir sözü dedisə, o sözdən dönməsi imkansızdır. Sizin əmicanınız çox iradəli və möhkəmdir. O, illərdir ki, bu sancıları çəkir. Lənətlik, şah ordusunda çəkdiyimiz hər bir nəfəs ağrı sayılırdı. Bizə, artıq orduya xəyanət damğası verilibdir. Bu isə kəskinliklə belə deyil, biz yalnız öz millətimizə xəyanət etmişik. Biz, o farsçı orduya xidmət etdiyimiz gündən Türk ana-atalarımıza, Azərbaycanlı balalarımıza xəyanət etmişik. Bizi məhkəməlik edən varsa, o da ancaq öz millətimiz olmalıdır. Biz, millət məhkəməsindən deyil, düşmənin məhkəməsindən qaçırıq.
- Əmican: Sərkar Dərvişlunun sözü mənim də sözümdür. Biz, uzun zaman bunları düşünmüşük. Öləcəyəmsə, siz balalarımın yanında ölüm! Ən azından, düşmənin qurşununa tuş gəlmərəm. Mən qaçdığım üçün çox sevinirəm. Bir yerdə at belində dayanmadığımı görsəniz, artıq bilin ki, yolun sonundayam. O zaman məni buraxıb yola davam etməyinizi xahiş edirəm! Durumum özümə bəllidir, uşaqlar! Qulam, sizi mənim ailəmin yanına götürəcəkdir. Onların, ən azından mənim ölümümdən xəbərləri olmalıdır!
- Olqa: Artıq bu bağlantıda deyəcək söz yoxdur. Fərəc əmican yola düşmək əmri verdilər. Biz, bundan sonra duruma uyğun davranmalıyıq.
- Qulam: Cəvanşir, nə zaman çatarıq Xürrəmabada?

- Belə getsək, axşam qaranlıqda, amma bir az yeyin çapdırsaq, bəlkə qaranlıq çökmədən!
- Əmican: Nə qədər tez yetişərsək, mən də rahatlaram! Bir həkimə  də baş vuraram. Məni düşünərək yavaş deyil, yeyin getmək doğrudu. Mənim tez yetişməyim gərəkir.

Yolda olumsuz bir durum olmadı. Axşamdan keçmiş Xürrəmabad görünməyə başladı. Keçmiş səfərimdə bura gəldigimdə, Maşallahxan bəylə bir müsafirxanada yerləşmişdik. Başqa yer də tanımırdım. Bu üzdən ilk seçimim o müsafirxana oldu. Atları axurçuya verdik. Axurçu atları axura bağladı. Onları arpa, samanla rahatlatdı. Bizim üçün iki otaq hazırlandı. Zatən bizdən başqa kimsə müsafirxanada yox idi. Əmican üçün də tezliklə bir yataq hazırlandı. Yazıq kişi başını yastığa qoyunca bayılar kimi yatdı. Qış gecələri müsafirxanada yemək hazırlanmaz deyə, işçi sadəcə, gözəl bir çay bardağı qarşımıza qoydu. Sara xanımın boxcasından bir şeylər atışdıraraq, özümüzü alınyazımızın hökmunə buraxdıq. Bir az oturandan sonra otaqlarımıza çəkilmək istədiyimizdə, Qulam sözə başladı:

- Cəvanşir, Olqa! Sizə necə təşəkkür edim, bilmirəm! Mən, ömrüm boyunca bir hərbçi kimi təhsil aldım. Bizim dünyamızda ancaq əmirlik və əmrə tabelik vardır! Mənim üçün Olqanın incə ürəyi, dağ kimi geniş sevgisi anlamsız gəlir! İndi, yavaş-yavaş bu anlamı dərk etməyə çalışıram. Bunun üçün, sizə bu anlamı mənə bağışladığınız üçün təşəkkür edirəm!

Olqa ceyran yavrusu kimi qoynumda mürgüləyirdi! Canımda olan bütün ağrılara görə, gözümü yuma bilmirdim. Otağın küncündəki, lampanın can çəkişməsində olan yağının sonlanması da bəlli olurdu. Lampanın yanar-sönər işığında Olqanın iki döşünün arasına sərilmiş saçları marağımı çəkdi. Mənim həyat yoldaşımın bütün incə gözəlliklərinə baxmayaraq, acı içini görmək hərkəsə qismət olmasa da, mənə nəsib olmuşdu! Qulamın dilə gətirdiyi gerçəyi duymaq, yaşamaq gərəkdir. Mən də bunu yaşamış birisiyəm. Onun əsil gözəlliyi görünməzdir! Bunu görmək üçün onunla bütövləşmək gərək. Mənim xanımım, quş kimi incə uçar bir ruhdur! Onunla daha ucalara yüksəlmə imkanı tapacağammı? Təbrizə dönərsək, quş kimi əlimdən uçacaqmı? Bakı, onun anılarını bütövləşdirən vətən! Təbriz, onun anılarını acılandıran vətən! Bakı-Təbriz, gündüz-gecə! Bu ikisini bir-birindən heç ayırmaq olarmı? Olqanın həvəsinin hara çəkildiyini bilmirəm! Təbrizə dönməmiz bizim sonumuz ola bilərmi! Qoynumda mışıl-mışıl uyumuş pərimin görünməz dünyası, görünən üzündən qat-qat dərindir! Mənim onun gizli dünyasına əl uzatmağa haqqım yoxdur. Onun çəkdiyi acıların yüzdən birinə qatlana bilmərəm. O, mənim gözəl xanımım, itirmiş olduğu beş balasının gəlincik anasıdır!

Sabah Maşallahxanı almaq üçün Bədrabada yola düşməyə hazırlanırdım ki, otağımızın qapısı döyüldü:

- İşçi: Cəvanşir bəy, sizin bir qonağınız var. Aşağıda gözləyir!
- Kimdir, adı nədir, mənim buralarda qonağım ola bilməz?

- Qorxmayın o dostunuz Maşallahxan bəydir. Sizi aşağıda gözləyir.
- Olqa: (yuxulu-yuxulu) Maşallahxan eşitdim, Cəvanşir! Buralarda nə olur. Onun burada nə işi var. Yox açma! Bu bir tuzaq ola bilər! Bəlkə də məmurlar bizi tapdılar!
- İşçi: Qorxmayın, qorxmayın! O, mənə sənin ona verdiyin bir yazını da göndərib. Mən, kağızı qapının arxasına buraxıb gedirəm. Kağızı görəndən sonra mənim doğru olduğumu başa düşərsən.
- Olqa: Bu nə kağızı ola bilər ki, Cəvanşir?
- Mən ona türkcəni öyrətmək üçün çoxlu yazılar vermişəm. Rəhmətli Cabbar əmidən olan şerlər vermişəm. Qapını açıb baxmalıyam, Olqa!
- Jandarmaların, ya da ki Bərəkətağanın adamları olsa?
- Onlar olsaydı, indi qapını sındırıb otağa girmişdilər.
- Bəs niyə Maşallahxan özü qapıya gəlmir?
- O, hər zaman qadınlardan qaçırdı. Bəlkə də o üzdən!

Qorxa-qorxa qapını açar-açmaz, gözüm bir səhifəlik yazıya düşdü. Yazını tanıdım. kağızı götürüb qapını bağladım. Şeri Olqaya oxudum:

*Mən səni gözlədim, suçsuz-sonucsuz,*

*dağdan da, daşdan da, arı tər-təmiz!*

*heç olmadım sənsiz, səndən umudsuz,*
*Çünki eyn duman, eyn çənləriz!*

*Bilirdim gələrsən vəfalı yoldaş,*
*bu yolları birgə aşıb gedəriz,*
*çün demişdin topuğuna dəysə daş,*
*bil ki, yardımında, bizlər - türkləriz!*

Qoşmanı eşidən Olqanın gözləri dolmuşdu! Mən, Olqanı bu duyğularından ötrü qınaya bilməzdim. Zatən öz göz yaşlarımı da durdura bilmirdim. Bir yandan Bədrabada getməkdən qurtulmaq, başqa yandan isə, Cabbar əminin anılarından biri olan bu şer! Təbi ki, Olqanın sevinci mənimkindən qat-qat böyük olmalıydı! Olqa sevincini göstərməkdə çox qorxmaz və aydın bir insan idi. O, sevgisini gizləyəcək bir zavallı olmadığını burda da göstərmiş oldu. Yeyincə yatağından durdu. Əllərini boynuma sardı. Quru dodaqlarıyla dodaqlarımdan öpdü:

- Eşqim, sevgilim, Cəvanşirim, Səni çox sevirəm! Yanımdan ayrılma həyatımın kişisi!
- Olqa! Sən Maşallahxanın aşağıda olmasına inanırsan? O olmasa?!
- Cəvanşir ağzını xeyrə aç! Bu kağazın başqası əlində nə işi ola bilər?

Yavaş-yavaş pillələri enərək salona sarı getdim. Maşallahxanın başındakı şapkanı gördüm. Maşallahxanı arxadan tanıdım. Arxamca gələn Olqa da onun Maşallahxan olduğunu təsdiqlədi. Onu səslədim:

- Maşallahxan əmi!

O, döndü. Onunla öpüş-görüş etdim!.

- Olqa: Salamüləleyküm, Maşallahxan əmi!
- Əlieyküm salam Fatimə xanım! Olqa xanım!
- Olqa: Biz, sizin Bədrabadda olduğunuzu bilirdik! Bəs niyə buralardasınız?
- Olqa qızım bu uzun nağıldı. Hamısını anladacağam. İlk öncə gəlin gedək arxa otağa. Orada ağızalma bir şeylər hazırlanıbdır. Ancaq, istərsiniz o biri dostları da gözləyək.
- Mən: Fərəc əmican çox xəstədi. Onu bura qədər zorla gətirdik. Bir doktor gərəkdir. Yoxsa halının necə olacağını bilmirəm!
- Maşallahxan: Nəyi var ki? Burada dava-dərman olar ha.
- Olqa: Dava-dərmanlıq deyil! Doktor gərəkdir. Onun bövrəkləri işdən düşüb! Ona da sənin kimi tutuqlama hökmü gəlib. Yoxsa, yerindən tərpətmək doğru deyildi. Onun günləri bizim hamımızdan qaranlıq keçir. Dörd balası, xanımının haralarda olmasından kimsənin bilgisi yoxdur.
- Mən: Mən otaqlarına bir baxım!

Qulamın dediyinə görə əmican gecə-boyu sayıqlayıb. Danın açılmasına doğru səssiz düşüb yatıbdır.

- Qulam: Sən hələ getmədin, Cəvanşir? İstərsən birlikdə gedək?
- Yox getmədim! Maşallahxan aşağıdadır.

Bizim səsimizə oyanan Fərəc əmican:

- Kim, kim!?

- Maşallahxan buradadı, Əmican! Gün aydın əmican!
- Onun buralarda nə işi var?
- Özü anladar. Sizi gözləyir. Mən aşağıya gedirəm. Siz hazırlanın. İşçı gəlib sizi gətirər. Ya özüm bir azdan dönərəm. Arxalarda bir yerlərdəyik.

☆ ☆ ☆

Maşallahxan Bədrabad öyküsünü bildiyi yarımcıq türkcəylə bizə anlatdı. Orucun getməsilə, kimsəyə güvənməyib Xürrəmabada dönməsini deyən Maşallahxanın gördükləri bizi həddən artıq çaşdırdı:

- Sizin azadlıq hökmünüzü bölgə xanları Bərəkətağaya veriblər. O namussuz, bir gün məni yanına çağırıb, tapışırıqlar verdi: *"Bu türkləri öz başına buraxma! Onlar dövlətə qarşı kim olurlarsa da, mənim üçün allah tərəfindən bir hədiyyədirlər. Onları allah mənə qul göndəribdir. Mən, onları burdan buraxmamalıyam. Ölmə-diril yemək-içməklərini çatdırmaq gərəkdir. Mən, onları yaşatmaqla dövlətin gözünə girəcəyəm! Ancaq, bu sürgün bir gün bitərsə, onları öz malım kimi saxlamağa çalışacağam! Sən də qulağını dörd aç! Bir xəta görsəm əgər, səndən bilərəm! Onların ölənədək burda qalacaqlarında sorumlu sənsən!"* Mən, Bədrabadda "Gənəl Bağış" fərmanını gözümlə gördüm. Minlərlə Azərbaycan türkü vətənə qayıtmaq üçün dövlət idarəsi qarşısında sıra gözləyirdi. Amma, siz azad olmuş

yolları qacaq dönmək zorundasınız. Çünki sizin azadlıq vəsiqəniz yoxdur, olmayacaq da!

Maşallahxanın axtarışda ola-ola, burda qalaraq bizi gözləməsi böyük özveri sayılırdı. O, Bədrabadda olduğu sürəcdə azərbaycanlı olaraq bölgədən çıxma imkanı əldə etmişkən, getməməsini belə anlatmağa çalışırdı:

- Mən bir Ləkəm! Kənd balasıyam. İnsanlıqdan çıxan qumarbaz atamın qumar pulu olaraq məni Bərəkətağaya satmadan öncə, anamın son bir sözünü qulağıma sırğa etmişdim. Anam rəhmətlik namussuz atam tərəfindən hər dəfə döyülən zaman, ağlaya-ağlaya deyərdi: *"Sənin bu dədənin damarında xalis Lək qanı axmır! Bir Lək kişisi bu qədər namussuz ola bilməz! Lək insanı igidliklə, namusla, şərəflə, düzlüklə tanınar! Sənin bu yazıq dədəndə bunların heç biri yoxdur! Onun qarını yalanla doludu! Onun ağzından çıxan sözünün belə, dəyəri yoxdur! O, bir Lək deyil!"*

Atamın kəfənlənən günü, anamın özgürlük günü oldu! Ancaq, qarayazğısına alışan yazıq anamın, iki ay atamın ölümündən sonra dünyasını dəyişməsi hamını çaşdırtdı! O, sağ-salamat görünürkən birdən-birə yerə düşərək keçindi! Həm də, vicdansız ərinin qamçı-şallağından qurtulduğu anda!

Bir Lək olduğum üçün, atamın yerinə sorğuya çəkilməyim doğru olmazdır. "Mən bir Ləkəm" sözünü qanımla eşid sanıram! Mən, siz türkləri sevdim! Sizə bağlandım! Lək olmaqdan çıxmış atamda görmədiyim sevgini sizdə gördüm. Birlikdə dərd çəkməkdən necə məmnun olduğunuzu gördüm! Bunları gördükdən sonra ondan vaz keçməyimin anlamı yoxdur.

Cəvanşirin mənə verdiyi Cabbar bəy rəhmətliyin şeri bir hayat dərsidir. O dərsi, ölsəm də bir daha buraxmaram!

Maşallahxanın əlil xanımı ilə bağlı dediyi sözlər də çox ilginc idi. O bu haqda deyirdi:

- O gün sizin yanınızdan evə dönərkən, Bərəkətağanın yeni kürd xanımını həyətimizdə gördüm! Ondan nədən burada olduğunu sordum. O, dil-dodağını çeynəyərək söylədi: "*Səməni bişirmişdim! Dedim sizə də gətirim, savabı var! Gəlmişkən, yazıq qadıncığazı da görmüş olum, dedim!*" Mən, bu gənc qadına heç zaman inanmadım! O, namussuz Bərəkətağanı mum kimi əlində tutaraq, bütün qadınlarını gözündən salmışdı! Öz işvəsilə istədiyi hər kəsi əlində saxlayırdı. Onunla Bərəkətağanın arasında 40 yaş fərq var! Bilirəm ki, kənd ağasının bir çox yerlərini öz adına salmışdı. O, qarşısında olan hər əngəli aradan qaldırmağa qadirdi. Gəncdir, gözəldir, doğandır, əşirət qızıdır, hirslidi və bilmədiyim çox şeylərin yiyəsidir! Mən o gün onu görüncə, başıma yeni bir bəlanın gələcəyindən qorxdum. Bu kəz də başıma gələ biləcək ən pis şeyi gördüm. Gecə, yazıq qadının yeməyini verib, yatızdırdım! O yatarkən özüm də otağıma çəkilib yatdım! Səhər tezdən xanımımı ölü gördüm! Hamısı bu qədər! Öncə, Bərəkətağanın yanına gedib, qızının ölüm xəbərini vermək istədim. Yolun yarısında Bərəkətağanın *"Qızım ölərsə səni yaşatmaram!"*sözündən canım titrətməyə düşdü! Mən, o kişinin necə qəddar, zalim, adam öldürən birisi olduğunu gözlərimlə görmüşdüm. Canım indi də o zalimin vurduğu gündəlik şallaqlardan qotur-qoturdur! Bu

kəz artıq şallaq deyil, bir qurşunla beynimi göyə sovuracaqdı! Əl-ayağım əsirdi! Kimsəyə bilgi vermək cəsarətində deyildim. Yoldan dönər-dönməz buralardan qaçma qərarı aldım! İlk öncə, birbaşa Xürrəmabada gəlmək istədim. Sonra düşündüm ki, Nəhavəndə getmək bəhanəsi ilə jandarma durağına baş çəkərək, özümü göstərmiş olum. Çünki, tezliklə arxamca düşmək üçün ən yaxın jandarma durağına xəbər salınacaqdır. Jandarma durağında Bərəkətağanın işlərilə bağlı Nəhavəndə, bəlkə də Həmədana getməyimi deyib yola düşdüm. Duraqdan biraz aralı yolumu meşələrdən salaraq geri qayıdıb buralara gəldim. Bir neçə gün burada qalaraq Bədrabada gedib Orucun qonağı oldum. Orucun Təbrizə sarı döndüyünü, Bədrabadın isə gəl-getli yer olduğunu görüncə, buraya dönüb sizi gözlədim. Hər gün keçdikcə sizin gəldiyinizdən umudsuz olsam da, içimdən gələn bir səs *“Dayan! Cəvanşir verdiyi sözü tutar!”* deyir, umudumu itirməyə qoymurdu! Göründüyü kimi, sonunda bir-birimizə qovuşduq. Qoy onlar məni Nəhavənddə, Həmədanda axtarsınlar. Biz, buradan rahat-rahat istədiyimiz yerə gedərik. Amma ilk öncə, Sərkarı sağlığına qovuşdurmalıyıq. Bir tanıdığım həkim var. Onu uşaqlığımdan tanıyıram! Qocaman bir dokturdur! Bu gün onu buraya gətirdərəm. O, bir baxsın xəstəmizə, sonra getməyimizi düşünək! Yol xərcini-filanı da düşünməyin! Mənim yanımda gərək olan qədər pul var! Məndə olan pul, sizin də pulunuzdur! Haracan istərsəniz sizinləyəm!

- Fərəc əmican: Sağol kişi, sən böyük insansan! Vicdanın inciməsin! Sənin əlin cinayətə bulaşa bilməz! Hər insanın

üzündən içi oxunar! Bizimlə birlikdə hamı sənin suçsuz olduğunu bilir. Sənin üçün o rəhmətlik bir həyat yoldaşı deyil, bir uşaq idi. Özü də, başdan ayağa bir iflic! Sən ömrünü ona vermiş bir suçsuz, həm də şərəfli insansan! Bunları bizimlə gəlib-gəlmədiyin üçün demirəm! Səni tanıdığım üçün deyirəm. Ürəyini rahat tut!

Maşallahxanın özünü suçlu bilməməsi üçün əlimizdən gələni edirdik. Bizim ona qarşı olan inancımız tam idi. Əmican demişkən, onun xarakterində olan insanlar, qarışqanı belə əzə bilməzlər!

Həmin gün axşam, Rəcəb adlı işçilə birlikdə gözlədiyimiz təbib Adilxan Fərəc əmicana baxmağa gəldi. Onun böyük çantasını Rəcəb daşıyırdı. Təbib Adilxan ilk öncə bizim yanımızda, sonra isə yalnızca Fərəc əmicanı müayinə etdi. Hardasa yarım saatdan sonra incələmələr son buldu! Çantasında daşıdığı çox çeşidli göyərtilərin qarışığı ilə dərman düzəldərək tapşırıqlar verdi. Həkimi yola salmaq üçün mən də Maşallahxanla çölə çıxdım. Maşallahxan Ləkcə bir şeylər soruşdu. Təbib Adilxan da onu yanıtladı. Onların danışığından çox şeylər başa düşməyincə, farsca təbibdən soruşdum:

- Xəstə mənim əmimdir. Sizdən doğru bilgi istəyirəm. Mümkünsə, mənə necə olduğunu deyin.
- Təbib Adilxan: Xəstənin durumu yaxşı deyil. Mən biraz çirkə, biraz da ağrıya qarşı dərman düzəltdim. Sənin əminin təkcə bövrəkləri deyil, həm də ağ ciyəri iflas etmiş durumdadır. O, yaxın keçmişdə ağır üşütmüşdür. Müalicə

olmayınca, sətəlcəm olmuşdur. Nəfəsinin daralması ağ ciyərin pis işləməsindən qaynaqlanır. Sənin əminin həm də ağır bövrək daşlanması var. Ən yaxşısı, onu tezliklə Tehrana götürüb müalicə etməyinizdir. Yoxsa, xəstənizin çox az zamanı qalır!

- Maşallahxan: Durum bu qədər ağırdırmı? Həkim, buralarda bir işlər görmək olmazmı?
- Həkim: Buralarda əldən gələn bu qədər! Xəstənin durumu ağırdı. Bitki ilə, dərmanla uzun sürməz! Çirk bütün bədəninə yayılıbdır. Mən, sizə yalan umud vermək istəmirəm. Xəstəyə əməliyyat gərəkdir! Gec olmadan buradan götürün!

Elliklə səssizlik içindəydik! Həkimin dediyinə görə, Əmicanın Tehrana götürülməsi yaşam açarı kimi görünürdü. Qarşıda bizi gözləyən olaylardan bilgisizlik içindəydik. Bölgəni tanıyan təkcə kişi isə Maşallahxan idi. Sözsüz ki, dördümüz də onun əlində olan imkanlara bağlanmışdıq. Fərəc əmicanın ani düşməsilə, bu ehtiyac daha da zirvəyə yüksəlmişdi. Nə edəcəyimizi, necə edəcəyimizi bilmirdik. Qulamın əmicana olan sevgisi, get-gedə özünü üzə verirdi. umudsuzluq, susqunluq gənc çavuşun üzündən bəlli idi. O, haldan düşmuş əmicanın yastığı yanından ayrılmırdı. Olqa, bizi və əmicanı umudlandırmağa çalışırdı!

Üçüncü günün axşamında hər beşimiz son qərarı vermək üçün əmicanın yastığı yanında toplandıq:

- Maşallahxan: Dostlar, biz sabah yola çıxa bilərik. Səhər Əraka gedən bir avtobus var! Mən sürücü ilə danışmışam.

Arxada Fərəc bəy üçün yataq var. Avtobus böyük və gözəldir. Bu arada, atları da ilxıçıya satdım. Sağolsun yaxşı pula götürdü. Nigaran olmayın, sağ-salamat Əraka, oradan da Tehrana çatacayıq. Birbaşa Tehrana getmək üçün üç gün burada qalmalıyıq. Bizim burada qalmağımız doğru deyil. Düşünürəm bir an öncə buralardan uzaqlaşmaq gərəkdir.

- Fərəcəmican: (həniltiyərək) Mənim halım xoşdu! Siz, bir an öncə buradan çıxmağı düşünün. Maşallahxan bəyin sözünə qatılıram. Bu gün sabahdan da yaxşı! Avtobusu əldən verməməliyik. Maşallahxan qardaşım doğru deyir!
- Olqa: Məncə də tezliklə buralardan getməyimiz gərəkir. İndi hamımız axtarış altındayıq. Tutulmadan buralardan uzaqlaşaq.
- Qulam: Mən də getməkdən yanayam.

☆ ☆ ☆

Gözlərimin önündə uçan inci uçucuların dumanında uyurkən omuzumdakı bir tanış əlin istisindən oyandım:

- Əmican: Oğlum hadı dur! Getmək vaxtıdır! Qurdana demişkən movla köməyiniz olsun! Qalxın, yol sizi gözləyir! Gülər üzlə yola düşün ki, dağlar-daşlar, sellər-sular, yenişlər-yoxuşlar üzünüzə gülsün! Gözəl Olqamın əlini tut! Onun əli güclüdür! Ürəyi böyük, diləyi cəhandır qızımın!
- Qulam: Maşallah Sərkarın üzü gülür! Belə isə yollanaq!
- Maşallahxan: Bismillah!

Avtobusa çıxmadan Maşallahxan, cibindəki pulları bizimlə paylaşdı! Biz, onun bu işindən çaşıb qaldıq! O, bu paylaşımıyla gerçək bir dost olduğunu bir daha isbat etdi. Onun öncədən Nəhavənd və Xürrəmabad şəhərlərində torpaq aldığını bilirdim. O, bu torpaqların ağır günlərə saxladığını demişdi.

Maşallahxanın öydüyü avtobus, yol boyunca bir neçə kərə dayanmaq zorunda qaldı! Avtobusun motoru yorğunluqdan sanki "getmək istəmirəm!" deyə bağırırdı! Həmin bağırtıların ardında bir kərə tam çölün arasında dayandı. Sürücü maşının motorunun soyuması üçün dayanmaq zorunda olduğunu söylədi. Maşından enərkən, yüz metr uzaqda olan tək ağac marağımı çəkdi. Olqa ilə o ağacın yanına getdik. Ağacdan beş-on çürümüş alma sallanırdı. Olqa əlini uzadaraq o almaların birini dərdi. Çibindən yaylığını çıxarıb, ağacdan sallanan çoxlu al-əlvan yaylıqların yanına düyünlədi! Sonra mənə dönərək həyəcan içində söylədi:

- Cəvanşir, sankı yuxu görürəm! Bu ağacdan sallanan qızıl almalar, dərdiyim bu əlimdəki qızıl alma, düyünlənən bu yaylıqlar, əlvan parçalar mənə çox doğmadır! Burası "Dədə Karakum Qibləsi"nin özüdür! İnan ki, mən yeniyetmə çağlarımda bu almanı dərmişəm, cibimdən yaylığımı çıxarıb sallanan parçaların yanına asmışam! Bura Dədə Qibləsidir Cəvanşir! İnan, inan!

Hardasa səhər saat 9 radələrində çıxdığımız Xürrəmabaddan gecə çağında Ərak şəhərinə çatdıq! "Ərak"ın avtobus qarajının küncündə yerləşən bir kiçik müsafirxananın iki otağında

yerləşdik. Elliklə yorğun görünsək də, Fərəc əmicanın diribaş olmasından sevinirdik. Olqayla birlikdə yataqda uzanıb bu aşamanında geridə qaldığını incələyirdik. O, Maşallahxanın böyük ürəyindən danışırdı.

- Maşallahxanla tanışmaq bilmədiyimiz, görmədiyimiz bir gizli əlin göstərdiyi möcüzədir. Kimə desək, bu özverinin gərçəkliyinə inanar! Adam, əlində olan bütün pulunu bizim kimi qəribanlarla paylaşır. Mən, bir türkdən görmədiyimi bir ləkdən görürəm. Demək ki, gözəlliklərin özəl yiyəsi yoxdur bu dünyada! Gözəllik bir soya, bir irqə deyil, insanlığa bağlıdır!
- Olqa, bax! Bizim alın yazımız artıq eyniləşib! Bunu mən də, sən də, Maşallahxan da bilirik! Biz, birlikdə cəhənnəm qapısını açıb qaçdıqsa, birlikdə də yaşamağa can atmalıyıq! Bunun ilk addımını Maşallahxan atdısa, biz də sonuna qədər onun arxasını boş buraxmamalıyıq!

Başımız öz qalma-qalımızla məşğul idi ki, qapı döyüldü:

- Balalar, gəlin yeməyə! Lülə kabab almışam! Salona gəlin! Çay da tapşırdım!

Hamımız, hətta Fərəc əmican belə, təzə kabab dürməyini sevə-sevə yedik. Çay içəndən sonra otaqlarımıza çəkildik. Otaqla yatağın harmoniyası Olqayla mənim ruh və ten birliyini sağlamış oldu! Dan açılarkən gözəl bir günün ərməğanı günəşin istisindən oxunurdu. Uzun sürən acı gecələrin ardınca, bir işıqlı səhərin açılması, sevgi dolu günəşli bir günün ümidlərini ərməğan edirdi!

- Günaydın sevgilim, günaydın Cəvanşır! Günaydın yeni gün, ümidli, günəşli isti gün! Sizi çox sevirəm! Siz necə? Məni sevirsinizmi?
- Günaydın Olqam! Günaydın sevgili həyat yoldaşım! Əlbəttə ki, səni sevirəm! Tanrım bu sevgini sonlandırmasın!

Qonşu otaqda səs-səmir yox idi. Hər kəs mışıl-mışıl yatırdı. Olqayla birlikdə salona endik. Salonda resepsionda oturan kişidən başqa kimsə yox idi. Ona yaxınlaşıb salam verdik:

- Salam, günaydın.
- Günaydın. Otağınız rahat iydimi? Bir sıxıntınız olmadı ki?
- Yox sağolun! Nədən kimsə yoxdur? Motel çox sakitdir.
- Doğrudu. Bu gün şənbə olduğu üçün daha sakit olar. Bu gün Əraka müsafir gəlməz normalda. Sabah Tehrandan bir avtobus gələr. Bəlkə bizə də bir-iki yolcu baş vursun!
- Hə, sabah nə zaman avtobus gələr?
- Axşam çağı gələr. Saatı bəlli olmaz. Amma gələr. O avtobus gecəni burada qalar. Birisi gün səhər burdan Tehrana dönər. Siz, Tehrana getmək istəyirsiniz?
- Bir xəstəmiz var. Buralarda doğru müalicə olmasa, Tehranı da düşünə bilərik. Ailəmizlə birlikdə qərar verməliyik. Bizim evimiz Xürrəmabaddadır. Orada bazarda oluruq. Biz tacirik!
- Xəstənizin yastığı yüngül olsun. Buralarda istədiyiniz güclü doktor və xəstəxana yoxdur. Vardır, amma xürrəmabaddan gəldiyinizə görə, demək ki, xəstənizin durumu ciddidir.
- Doğrudur qardaş. Biz, hardan çörək, pendir, çay ala bilərik?
- Biz sizə səhərlik ağız-alma düzəldərik. Amma başqa yerdən almaq istəyirsinizsə, biraz yuxarıda bir bakkal dükanı var.

Orada istədiyinizi əldə edə bilərsiniz. Əlbəttə, biz sizə istədiyiniz yeməli və ucuz səhər yeməyini verərik.

- Tamam, ailəmiz oyansın, sizə sifariş verərik.

Əmicanın yüksək ruhiyyəsi bizdən daha çox özünü sevindirirdi. Tezliklə xanımını, balalarını görəcəyini dilə gətirirdi. Elə danışırdı ki, sanki ailəsinin haralarda olduğunu bilirdi. Onun ailəsilə bağlı verdiyi umud, çox xoşumuza gedirdi. Əslində, indiki durumda bizi ən çox rahatsız edən durum Fərəc əmicanın özü və ailəsi idi. İlk öncə özünün çökmüş ruhiyyəsini qaldırmaq, sonra isə Tehranda müalicəsini davam etdirmək. Ən sonunda isə, necə olursa-olsun, ailəsinə qovuşdurmağı hədəfə almışdıq. Bunu ellilklə istəyirdik. Aramızda olan ilk istək də, elə bu sayılırdı. Moteldə bizdən başqa qalan yox idi. Bizə özəl açılmış ağızalma süfrəsi Sona ananı anımsadırdı. Rəhmətlik Sona ananın ağızalma süfrəsi də bu günkü səhərlik kimi mükəmməl olurdu. Bu üzdən, Qurdana yalnızca həftədə bir kərə Sona anaya fürsət verirdi. Sözsüz ki, haqlı tərəf də Qurdana olurdu. Çünki, belə olmasaydı, Sona ana bir həftənin içində Qurdananın bütün deposunu bizə yedirdərdi! Sonra isə, yemək üçün bircə bardaq unumuz belə, qalmazdı!

Maşallahxan səhər yeməyinin 3 tüməninə qarşı, 10 tümən motel işçisinə verdi! Gənc oğlan sevindiyindən bizim işçimizə çevrildi. Artıq moteli başına buraxır, bizim işlərdən yana istənilən yerə gedirdi. O, Maşallahxanın istədiyinə görə, Tehrandan gələcək avtobusda yer ayırmaq üçün Ərakın qarajına gedib sifariş verdi.

Ərakda səssizlik hakim idi! Polisdən, jandarmadan kimsə görünmürdü. Birinci günümüz bütünlüklə moteldə keçsə də, ikinci gün əmican və başqa bəylərin basqısıyla Olqanı şəhərə çıxardım. Motel işçisinin məsləhətilə Ərak Sinemasına getdik. Sinemanın tablosunda "Ərak Sinəması" yazılsa da, işçinin dediyinə görə, Misiyo sineması kimi hallanırdı. Ərak Xürrəmabada görə, yeni şəhərə bənzəyirdi. Burada tikintilərin modern, gözəl, təməlli olduğu gözə dəyirdi. Hava burada bir az daha soyuq və canyaxan idi. Sinemanın motellə çox aralı olmadığı üçün gediş-dönüşümüz də problemsiz oldu. Bu, Olqayla keçirtdiyim ən gözəl gecə oldu. Olqa, bu olaydan çox sevindi! O, gecə yenə də bizim üçün özəl keçdi!

Tehrandan gələn avtobusun Ərakdan qalxmasına bir saat qalmış, müsafirxanadan çıxdıq. Yüklərimizi yerləşdirmək sürəcində Maşallahxan sürücü ilə Fərəc əmicanın durumunu danışdı. Onun türk olduğu bəlli olduqda, türkcə danışan Maşşallahxan məni çağırdı:

- Cəvanşir gəl! Ağa sürücü sənin həmşəhərindir.
- Salam ağa, siz də türksünüz?
- Sürücü:  Salam əleyküm qardaşoğlu!
- Buralarda nə işiniz var?
- Bizim xəstəmizi Tehrana aparmağımız gərək. Biz, ticarət işinə baxırıq. Xəstə əmimizdir. Bu bəy də, əmimin ortağıdır. Bizim işimiz parça tacirliyidir. Təbrizdən buralara parça göndərərik.
- Nə yaxşı! Tacir olmaq, varlı olmaq deməkdir. Bazarınız yaxşıdır əlbət!

- Yaxşıdır hə! Ancaq böyüyümüzün xəstəliyi bizi yaman incidir. Onu tezliklə Tehrana, oradan da evinə, Təbrizə götürməliyik.
- Keçmiş olsun! Tezliklə ayağa qalxmasını diləyirəm! Mən, əmicanızı öz yanımda da yerləşdirə bilərəm, ancaq arxada uzanarsa, daha rahatlar!

Əmican öz istəyilə, maşının arxasındakı yataqda yerləşdi! Yolboyu arzuedilməz bir olay baş vermədi! Təbrizdən çıxalı ən gözəl maşın yoluna tanıq olduq. Avtobus rahatca yol gedirdi. Bizim yol boyunca hər hansı şikayətimiz olmadı. Avtobus Sava şəhərinin girişində yerləşən bir yemək xanada dayandı. Sürücü şagirdin dediyinə görə, yemək, tualet və namaz üçün 45 dəqiqə burada dayanmalı olduq. Maşallahxanla Qulam, Əmicanın iki yanından yapışaraq onun yürüməsinə yardımçı oldular. Mən isə Olqa ilə birlikdə restorana girdik. Restorana girər-girməz, ağır siqara iyindən ürəyim bulandı. Bizdən sonra bir neçə avtobus və kiçik maşın da restoran qarşısında park etdilər. Axşam yeməyi üçün sifariş verdik. Sifarişi alan türkcə danışırdı. Mən isə, sevinərək 5 kababın pulunu verib, yerimizə qayıtdım. Yeməkdən hamımız razı qaldıq. Bir çay və tualetdən sonra avtobusa sarı yollandıq. Sürücünün "yeməkdən razı qaldınız" sualının qarşısında "sağol qardaş çox gözəlidi" deyərək yerimizdə yerləşdik. Tehran girişində polis durağını görüncə, hər dördümüzün narahatlığı üzümüzə verdi. İki polis avtobusun içinə girərək istədiyi adamlardan kimlik istədi. Mənimlə Olqanı yan-yana görüncə, birinci polis sordu:

- Siz, ər-arvadsınız?

- Bəli sərkar!
- Kimliyiniz varmı?
- Əlbəttə var, sərkar, istərsiniz?
- Yox qalsın!

İkinci polis Qulamdan soruşdu:

- Hardan gəlirsən?
- Təbrizdən Xürrəmabada qumaş aparmışdım. İndi Tehrana gedirəm. Oradan da qumaş sifariş verərək, Təbrizə dönəcəyəm.
- Kimliyini (sicilli) ver!
- Buyur sərkar (Qulamın belə cəsarətli davranışı məni yerimdən oynatdı!)
- Sən, tacir olmaq üçün çox gənc deyilsənmi?
- Mənim atamın Təbriz Bazarında parça dükanı vardır. Mən uşaqlığımdan bu işdə böyümüşəm!
- Sənin xain seperatçılarla nə işin var? Düzün de!
- Biz nəsil boyu tacir olmuşuq. Siyasət-miyasətlə işimiz olmaz! İndi Təbriz gənc şahımızın əlilə əminləşib artıq! Biz də sizin sayənizdə bir ildə itirdiklərimizin yüz qatını qazanırıq. Tanrı sizdən razı olsun!
- Afərin! Belə vətənsevər ol! Əsilzadə olduğun üzündən bəllidir! Ancaq, biraz aşağıda danışsaq, yaxşı olar! Gəl, bu da kimliyin!

Qulamın polislərlə aşağı düşməsilə ürəyimiz dayanan kimi oldu! Polislər Qulamı maşının arxasına çəkdilər! Artıq onlar görünməz oldu! Bütün planların yox olmasını düşündük! Barı

bizi də ələ verməsin, düşünərək gözlədik! Olqanın əllərini əlimdə tutub, ürək-dilək olmağa çalışdım! Əlimizdən heç bir iş gəlmirdi. Təkcə diləyimiz, polislərin birlikdə olduğumuzdan xəbərsiz olmaları idi. Bu isə, özümüz istəmədən baş tutmuşdu. Belə ki, bizi ayrı-ayrı sanan polisin ən azından başqalarına zərər verməsinin ehtimalı düşürdü. Bu düşüncələrin içində boğulmuşdum ki, Qulam avtobusa mindi! Polis əl işarətilə avtobusun yola düşməsinə izn verdi! Qorxumuzdan Tehranacan Qulamla Maşallahxanın qoltuğuna belə, baxmaq istəmirdim. Olqanın üzünün rəngini bundan öncə ən azından beş balasını itirdiyində görmüşdüm. Nə isə, bu olay da başımızdan oldu! Sonra bildik ki, Qulamın çox böyük danışması ilə polislər həvəsə düşərək onu soymağa qərar vermişlər! Polislər, Qulamın tacir olduğunu öyrənincə, cibinin bütün pullarını yarıya bölüb, pusan-pusana ədaləti yerinə yetirmişdirlər! Bu polislər üçün gündəlik bir qazanc olsa da, bizim üçün milyonlarla pula qarşı yaşam şansı sayılırdı! Bu olay mənim üçün beynimdən silinməz bir an kimi hər zaman yaşayacaq!

Tehranın Nasir Xosro xiyavanı bizim üçün yenidən canlanmaya başlamışdı! Avtobus Tehranın kiçik-böyük küçələrini arxada buraxaraq, lənətlik Bədiabadın yolunu açan tanış qaraja girdi. Biz artıq Tehrandaydıq!

İkinci cildin sonu

## Bədiabaddan Tehrana,

## Yasal sürgündən, yasaq sürgünə!

Təxminən il yarım bundan öncə, darmadağın olmuş, torpağına yasaqlanmış, kimliyi talan görmüş bir yazıq ulusun sürgün parçası kimi, bu mafiya caynağına sürükləndik! Kimiləri üçün xoş görünən Nasir Xosrov adı, bizə görə, bir əsarət simbolu olmuşdu! Məhz bu nöqtədən son sürgün çağımız başlamışdı! Tehran, mənim üçün itirdiyim varlığım, bataqlığım, dustağım, kimliyimin qatili, ömrümün nisgil caynağı, türklüyün canısı bir mafiya şəhəri! Ulusumun mənəviyyatının son bataqlığı! Ömrümün son bölümünün ilk başlığıcı, Cabbar əmi demişkən, sürgünümüzün damğasını vuran cəlladməkan bir yer! Artıq, ilk görünüşündə məni valeh edən türk Qacar memarlığının gözəlliyi də umurumda deyildir. Artıq, öz vətənini özgələrin əlinə buraxaraq türk varlığının bataqlığını abadlayan şah babalarımıza da, onların əmrilə tikilən "Şəmsül İmarə"lərə də sayğım qalmamışdı! Onları görüncə, qarayazımızın bizdən öncə babalarımızı da sel çöpü etməsini düşünürdüm! Əgər onlar öz yerlərinə, doğma torpaqlarına sahib çıxsaydılar, Türk milləti bu dərəcədə yazıq olmazdı! Necə deyərlər: "Meşə qurdsuz qalarsa, çaqqal qurd köynəyi geyər!"

Maşallahxana gəlincə, ömrünün sonlanma hökmündən qaçarkən, cənnətə düşdüyünü sanırdı! İlk kəz Tehran kimi böyük bir şəhərdə olma imkanı əldə edən bu qarabəxt Lək üçün sevincin sınırı yox idi. Biz, ona haqq verirdik. Onun kiçik həyatında bir az gəlişmə yaranmışdır. O, özgürlüyün yalnızca

gözəl üzünü görürdü! Biz isə, özgürlüyün əldə edilməsinin ağır bədəlini qanımızla, canımızla, bütün varlığımızla ödəmiş yenilmişlər idik! O, heç Tehranın siyasi mafiya mərkəzi olduğunu düşünə bilməzdi! Biz isə, Türk ulusunun tökülən qanını, kəsilən nəfəsini, Azərbaycanın yer altı, yer üstü, maddı-mənəvi varlığının talanmasının tragediyasını çiyinlərimizdə daşıyırdık! O, özünü əsarətdən qurtulmuş, biz isə özümüzü əsarətdə qurtulmuş görürdük! Sərhədsiz çeşidlər içində, sərhədli yaşam! Kiçik qabda bütün görünən, böyük qaba yerləşincə damla olan bizləri nələr gözləyirdi? Maşallahxan nə zaman bizi yarıda buraxaraq, Lək ailəsinə dönəcəkdir? O, tapdığı böyük dünyasında nələrin dəyişiminə tanıq olacaqdı?

Əmicanın özü və ailəsi qarşımızda olan ən böyük problem idi! Onun durumu üzdə görünəndən daha acınacaqlı idi. O, bəlli etmək istəməsə də, ailəsinə qarşı artan duyğusu, ağrılardan irəli gələn ani davranışları, üzünün sallanması, gözlərinin çuxura düşməsi ağır xəstəliyinin göstəricisi idi. Ancaq, Əmicanı doktora götürmədən öncə, başımızı soxacaq bir yer gərək idi. Nə yaxşı ki, Nasir Xosro xiyabanında hər kəsdən çox ev dəllalı var idi. Onlara qərib yolçuları tanımaq, bir bardaq su içməkdən daha rahatidi. Belə ki, avtobusdan enər-enməz bir yeniyetmə gənc oğlan qarşımıza gələrək, çox ədəblə salam verdi:

Salam, Tehrana xoş gəlmisiniz! Sizə burada gözəl yaşam, uğurlar diləyirəm. Mən, sizə istədiyiniz evi tapa bilərəm! İş tapmaq üçün yardımçı olaram. Başqa ehtiyaclarınıza yardımçı ola bilərəm. Fars və türk dillərini yaxşı bilirəm. Atam-anam Zəngandandır. Özüm Tehranda anadan olmuşam.

- Qulam: Sənin adın nədir?

Bağışlayın özümü tanıtdırmadım! Adım İlyasdır.

- Qulam: İlyas, bizə bir müsafirxana lazimdir. Yaxında olsun. Xəstəmiz var. Çox uzağa gedə bilmərik. İki otaqlı bir yer olsa yetər! Ya da bir pansion!
- İlyas: Nə gözəl ki dildaşıq! Məncə, uzun qalacaqsınızsa otel axtarmayın. Siz ailəlisiniz. Bacımız da var! Sizə daha ucuz və təmiz bir üç otaqlı ev taparam. Öz eviniz kimi sərbəst və rahat edərsiniz. Otel də, pansion da var. Amma sizin üçün qat-qat ucuz və uyğun olan evdir. Həm də yaxındır. Üç küçə o yanlıqdır.

Gənc Türkün bizə verdiyi məsləhəti düşünərək, evin tutulmasına qərar verdik. Fərəc əmicanı daşımaq üçün qarajdan daşqaçı tutmaq istədik. Fərəc əmican ayaqda yürümək istədi! İlyasın göstərdiyi ev, quzey-güney sayılırdı. Güney bölümündə ağbirçək bir qadın yaşayırdı. O, həm də evin yiyəsi sayılırdı.

Bəlli olan, İlyasın dediyindən də rahat ev tutmuşduq. Evin yiyəsi də xoş baxışlı bir yaşlı insan idi. Uç yataq otağı, bir qonaq otağı, mətbəx, balkon, ayaq yolu və hovuzlu geniş həyət!

İlyas çox sevimli, ərdəmli 18-20 yaşlı bir gənc idi. Birinci günümüz onun yardımıyla alış-verişdə keçdi! Olqanın ekonomi hesatı ilə aldığı bütün gərəkən şeylər bəlli olmuşdur. Onun alış-veriş siyasətini indiyə qədər görməmişdim. Seçim davranışları isə, Qurdananı anımsadırdı! Qurdananı anımsayarkən, qəlbimə od düşürdü. “O böyük el anası, indi nə iş görür? O yaşam

anlamı ana, qurd ürəkli ana, O bir yahusu ilə hamını ayağa qaldıran, yaşama qoşduran qudsal Ana nələr edir indi!?" Bunları düşünürkən ağlım, gözlərim, qulaqlarım kor düyünə dönüşürdü!

Alış-verişdən dönərkən Əmicanın durumu pisləşdi və təcili doktor çağırılması daha da ciddiləşdi! Bizimlə olan İlyas, uzman doktor tapmaq üçün yola düşdü! O, dörd-beş saatdan sonra yorğun evə döndü. Sabah Əmicanı uzman doktora götürəcəyini deyincə, biraz rahatladıq!

İlyas, sanki bizim üçün göydən gəlmiş bir mələk idi. Onun bizə qarşı ürəkdən gələn sevgisinə hamıdan çox Maşallahxan qarşılıq verirdi. Onu öz oğlu kimi bağrına basır, qoxlayırdı! Belə ki, mənimlə Maşallahxanın arasında olan örnək bağlantının yerini yavaş-yavaş İlyas tutmaqdaydı. Sözsüz ki, bu, mənim də xoşuma gəlirdi. Ancaq, bu yeni ilişkidən ən çox xoşlanan şəxs isə Olqa idi!

Əmicanın müalicəsini bütünlüklə Maşallahxan üstəsinə götürdü. O, deyirdi:

- Sizin işiniz onun ailəsini axtarmaq olsun! Qulamla mən əmimizin durumu ilə ilğilənəcəyik. Məndə sizə verdiyim puldan daha da çox var. Dediyim kimi bütün var-yoxumuzu birlikdə xərcləyəcəyik. Burada da, Təbrizdə də birlikdə olacayık. Sizə söz vermişəm! Sözümün də üstündə duracayam. Məni Bərəkətağanın bataqlığından qurtaran sizsiniz! Mən dünyaya yeni gəlmiş bir uşaq kimiyəm. Bunun üçün sizə borcluyam! Yox əgər olmasa, yetməsə, başqa yerlərimiz var, satar yaşarıq!

Doktorun istəyilə Əmicanı Rey şəhərinin “Firuzabadı Mərizxanası”na götürdük. İlyasın dediyinə görə, doktor üç xəstəxanada çalışdığını demişdi. Ancaq, o duruma görə, ən uyğun olanı seçmişdi. Xəstəxana xeyriyyə olduğuna görə, İlyasa minnətdarlığımızı bildirdik. Əmicanın durumunda sıxıntılar artırdı. Biz isə, onun ailəsini axtarmağa davam edirdik. Fərəc əmicanın verdiyi adresləri bir-bir axtardıq. İlyas, Tehranı çox yaxşı tanıyırdı. Türklərin toplu olaraq haralarda yaşadığını yaxşı bilirdi. Çala meydandan tutmuş Rey şəhərinə qədər məhəllə-məhəllə dörd uşaqlı bir Türk qadını arayırdıq. Ortada sonuc yox idi. İlyas onların haqqında daha çox bilgi istəyirdi. Mən isə, bilgi verməkdən çəkinirdim. Artıq, Əmicanın ailəsini tapmaqdan umudumuz kəsilmişdi. Gənc İlyasın durumdan xəbərsiz olması da, bu çətin axtarışı imkansız etmişdi. Doktorun dediyinə görə, xəstəmizin durumu günü-gündən pisləşirdi. Doktora görə, Əmicanı yaşama döndərmək bir möcüzə kimi görünürdü. Onda, artıq ağ ciyər və böyrəklər də çalışmırdı. Biçaq dəyərsə, əməliyyatdan ayılmaz kimi riski böyük görünürdü! Onun yaxınlarını son görüşlər üçün yanına gətirmək gərək idi!

Artıq sonucsuz axtarışımızdan 10 gün keçmişdi. Mən bu axtarışda İlyasa yardım etmək üçün risk etməyi gözə aldım. Bu sevimli gənc türkə görə, Əmicanın ailəsini tapmaq böyük borc sayılırdı. O, özünü bilimyurda girməyə hazırlarkən bizimlə tanış oldu. Demək ki, ona pul gərək idi. Bu üzdən, yeni gələnlər üçün xidmət göstərərək, bilimyurd qarşılığının pulunu toplamağa çalışırdı. Ancaq, 10 gün idi ki, sadəcə gecələri bizdən ayrı

qalırdı. O, cibindən pul xərc edir, evə gəlincə əli dolu gəlirdi. Etirazlarımıza qarşı isə, sadə bir sözlə bizi utandırırdı:

- İzn verin soydaşlığımı yerinə gətirim! Mən, milli matəm günlərimizdə sizinlə olmadım! Millətimizi Təbrizdə dardan asarkən, bizlərin gözü vətəndən uzaqda doldu-boşaldı! Mən, Təbrizi heç görmədim! Bu nisgili sizlərlə paylaşmaq istəyirəm. Universitəyə girmək üçün kifayətcə balım var. Pulum da var! Siz məni dərd etməyin. Ailənizi tapmaq üçün mənə umud verin!

Olqanın İlyasa olan içdən baxışlarını qısqanırdım! Onu bir il yarım boyunca heç belə görməmişdim! Olqanı doğru-düzgün tanımasaydım, onun bu oğlana vurulduğunu sanardım! Sözsüz ki, Olqa öz iç gözəlliyi, sarı saçı, göy gözü və incə vücuduyla bir çox gəncin marağını qazanma gücündə olan birisi idi! Son axşam İlyas bizdən ayrılarkən Olqayla hovuz qırağında oturduq:

- Olqa: Cəvanşir, Əmicanın ailəsi belə tapılmaz! Səncə, İlyasa inanmağın zamanı gəlməmişdir? Oğlan bizim üzümüzdən, gələcəyini uduza bilər. Bildiyim qədərilə, qonşularında olan bir qızı da sevir. Ancaq, evlənmədən öncə bilimyurdunu bitirmək istəyir! Bildiyimə görə, qız da İlyası sevir. Gizlicə nişanlanma sözünü də kəsiblər!
- Sən bunları kimdən eşitdin? Nə zaman onunla danışdın?
- Biz qadınları siz tanımamışsınız hələ! Siz, o qədər özünüzü dünya yiyəsi sanırsınız ki, güya hər olaydan xəbəriniz olmalıdır. Mən, bu oğlanın aşiq olduğunu gözlərindən oxudum! Çox sevimli və arı bir Türk balasıdır o! Mənimlə danışır! Amma siz erkəklərdən çəkinir. O, bir gün mənə Olqa

bacı deyərkən, hardan gəldiyimi soruşdu! Çox gözəl, mehriban olduğumu dilə gətirdi. Sənin çox yaxşı insan olduğunu və qoşa qanad diləklərini dedi. Sonra, özünün də bir gözəl Türk qızında gözü olduğunu, qarşılıqlı sevilməsini dilə gətirdi.

Olqanın bu sözlərindən sonra ona olan sevgim və İlyasa olan güvənim artmağa başladı! Qısqanclığımı önlədiyim üçün Olqaya borclu görünürdüm! İlyasa olan inancımın artmasının Əmican üçün bir möcüzə fürsəti olmasını düşünməyə başladım! Ailəsini tapmaq, onları bir-birinə qovuşdurmaq gözlənilən möcüzə olarmı? Həmin axşam, hamılıqca həyət balkonunda oturub çay içməyi düşündük. Hava sərin olsa da, xoş idi. Hər kəs üstünə bir yorğan çəkərək, balkon kefi yaşadıq. Ortada gəzən qonu, Fərəc əmican üzərindən qopmurdu! Ən sonunda onun ailəsini tapmaq üçün İlyasa biraz daha bilgi verməyi mənə tapşırdılar.

Səhər tezdən, hər zaman olduğu kimi İlyas qapıya dayandı. Əlində biri ev sahibi “Banu xanım”a, ikisi isə bizim üçün olan isti daşçörəyi (səngək) hamıya “günaydın”, dedi.

Çay-çörəkdən sonra evdən çıxmağa hazırlandıq. Maşallahxanla Qulam xəstəxanaya, mənimlə Olqa və İlyas yeni axtarışa! Ancaq, bu kəz çıxmadan öncə Fərəc əmicanla bağlı İlyasa danışdım:

- İlyas, mənim əmicanım çox vətənsevər, millətsevər bir türk əskərdir. Onun başına gələn nə varsa milli insan olduğundandır. İlyas, mən indiyəcən bəzi bilgiləri səndən

saxlamışam. Mənim əmim bir başcavuşdur. O, Tehran ordusunun Təbrizdə yola saldığı genəl qırğında ortaqlıq etmədiyi üçün suçlu sayılaraq, Luristanın yaxınlığına sürgün düşüb, ailəsi əlindən alınıbdır. İndi də, savaş məhkəməsinə verilibdir. Hətta edam olma ehtimalı da var. İndi də ağır xəstədir. Uzun yaşaması üçün şansı çox azdır. Ən azından xanımını və dörd uşağını görsün, sonra hayata gözünü yumsun! Bir də, xanımı ilə dörd balasının gözü yolda qalmasın deyə, onları tapmağımız gərəkdir. Özünün dediyinə görə, onu Təbrizdən sürgün salanda uşaqları Tehranın Kərəc yolunda olan ordu evlərində saxlanılırdı. Ancaq, son bilgisinə görə, o evdən başqa yerə aparılacaqmışlar!

- İlyas: Cəvanşir bəy olan işdi! Mən də sizin yerinizə olsaydım, əmicanımın gizli-saxlısını tanımadığım birisilə paylaşmazdım! Mənə inandığınız üçün sağolun. Mənim həyəcanım daha da artdı! Mən bir milli qəhrəmanın ailəsini tapmaq üçün özümü daha çox borclu sanıram! Əgər mənim biləcəyim başqa şeylər də varsa, yolda anladarsan! İndi isə zamanı əldən verməyək! Məncə, ilk öncə kərəc yolunda olan ordu evlərinə getməliyik. Ora getmək üçün "Dərvaza Qəzvinə" ya da "Gömrük Meydanına" getməliyik. Bəlkə gecəni qayıda bilmədik. Ola bilsin ki, avtobus tapılmasın! Onda yol qəhvəxanasında səhəri gözləməliyik. Ondan sonrasına baxarıq.
- Olqa: O zaman mənim gəlməyim artıq olacaq! Mən evdə qalıb sizi gözlərəm! Xoş xəbərlərlə gəliniz!

Axşam radələrində ordu evinin girişinə çatdıq. Orada bir çox ailə evi var idi. O günədək gördüyüm ən modern evlər sayılırdı. Bizim axtardığımız türk ailələri olsa da, Məşədli bir zabitin ailəsilə parkda dolandığı diqqətimizi çəkdi. İlyas öz istəyilə zabitə yaxınlaşaraq:

- Salam qurban! Sizdən yardım almaq mümkünmü?
- Salam! Nə kimi yardım?
- Biz Tehrandan gəlirik. Mən xalamı axtarıram. Onlar Təbrizdəndirlər. Yenicə bilmişik gəldiklərini!
- Kimdir, kimin ailəsidir. Adı nədir?
- Xalamın adı Gülnazdı! Dörd balası var!
- Zabitin eşi: Hə Təbrizli başçavuşun ailəsi Gülnaz xanım! Onları Tehrana apardılar! Bəs ağasından xəbər gəlmədi! Yazıq uşaqlar hər gün atalarını səsləyib durdular! Sonunda da buradan getdilər!
- İlyas: Bağışlayın Tehranın harasına apardılar?
- Zabit: Bildiyimə görə, başçavuşu demokratlar öldürdülər. Eləmi cavan?
- İlyas: Çox acılıqla elədir, cənab sərvan! İndi, xalama və balalarına qovuşmaq üçün hər yeri axtarırıq. Anamın bacısı üçün gecə-gündüzü yoxdur!
- Zabit: Başçavuşla mən bundan 10 il öncə tanış olmuşam! O zaman mən zabitliyə girdim. Ancaq, nədənsə o girə bilmədi. Sonra daha görmədim. Bildiyimə görə, başçısı ölən ailələri Tehranın “Xanı Abad” məhəlləsində tikilən binalarda, ya da “Cavadiyə” ordu evlərində yerləşdirirlər.

Zabit və xanımının fərqli farsca danışmasından dolayı, İlyas onların Məşəddən olub-olmadığını soruşdu. Zabit gülə-gülə İlyası alqışladı. Mən, onların Azərbaycan haqqında verdiyi sorğuları xoşlarına gələn tərzdə cavbacıdım. Az sonra Tehrana sarı yola düşməyimizi duyunca, zabit dedi:

- İndi bu saatda Tehrana necə gedəcəksiniz?!

Böyük bir gəlişmə əldə etmişdik. Tehrana çatmaq üçün çox tələsirdik. Bu üzdən heç düşünmədən küçə qırağı ilə ayaqda yürüməyə başladıq. Axşam çağı qaranlığına doğru bir daşımaçı qarşımızda saxladı.

Hardasa iki saatdan sonra Tehranın "Gömrük" meydanına çatdıq! Düşdüyümüz yerdən Xani Abad məhəlləsinə çox da uzun deyildi! Ancaq gecənin qaranlığına görə, səhər tezdən axtarışımızı davam etməyi düşündük. Çox yorğun halda evə çatdıq. Axşam yeməyi üçün bizi gözləyirdilər. İlyas tezliklə evlərinə getdi! Mən, başımıza gələnləri qısaca da olsa, anlatdım! Onların sevincini gözlərkən, kədərli üzlərindən rahatsız oldum!

- Əmicana nə olub? Niyə beləsiniz? Üzünüzdən tökülən bir parça! Doğrunu deyin!
- Olqa: Özün əmicanın durumunu yaxşı bilirsən! Halı yaxşı deyil! Bu gün də halı heç yaxşı deyildi! Çox halsız idi.
- Qulam: Cəvanşir biz axşamacan onun yanındaydıq. Danışmağa meyl göstərmirdi. Sanki, birilərini gözləyir! Sən də əlindən gələni edirsən. Inşallah bir sonuc əldə olunar!

- Maşallahxan: Umudlu olmalıyıq! Hər şey Onun əlindədir (başını qaldıraraq göyə işarə etdi). Səhər açılsın, xoş açılsın!

Yorğunluqdan ayaqda duracaq gücümüz qalmamışdı. Yerlərimizə çəkildik. Yatağa girər-girməz Olqanı öpərək, “gecən xeyrə qalsın sevgilim” deyib yuxuya daldım!

Hər birimizin axtarışda olduğunu unutmuşduq! Başımıza nələrin gəlməsini belə heç düşünmürdük. İmkansız bir axtarışla, çətin bir xəstəliyin arasında qalmışdıq. Sürgündən sürgünə atılmış bir millətin acılarının sonu görünmürdü. Milyonlarca türkün vətəni olan Azərbaycanın qara günlərdən qurtuluş izləri qaranlıqlar içinə itmişdir. Sel kimi nifrət, tufan kimi intiqam və ayaqdan düşmüş bir yaşam qığılcımı tən və tinimizi sarmışdı! Tanrım, sən ey tanrım! Bu millət nə istədi ki? Kimlərin payını istədi? İnsanlıqdan başqa nə istədi ki bu millət!? Qurdananın deyimilə desəm, “Gerçəyə Yahu”dan başqa nə istədi bu millət!?

Maşallahxan əmi demişkən, “Səhər olsun, xoş olsun!” Hər gün olduğu kimi, İlyas əlində üç çörək (bu kəz taftun çörəyi) qapını döydü! Banu xala həyətdə olduğu üçün qapını açdı. İlyas öncə onun çörəyini verərək, bizə sarı gəldi. Olqa, sınıq farsca Banu xalanı çay-çörəyə çağırdı. Banu xala sevinərək bizə qatıldı. Banu xala ağ tellərini alnına tökmüş, çox sevimli bir Rəştli ağbirçək qadın idi! Təbrizdə Firqənin mərkəzində bir neçə Rəştli zabitlə tanış olmuşdum. Onlar çox səmimi, içdən inqilabçı idilər. Bildiyimə görə, qaça bilməyənləri edam etdilər, qaçanları isə, başçılarımızla canlarını götürüb qaçdılar! Genəl olaraq, Giləklər çox istiqanlı xalqdır. Banu xala da onlardan biri

idi! İki həftə idi ki, onun evində kira qalırdıq. Bu iki həftə içində ondan sevgidən başqa bir şey görmədik!

İlk kəz olaraq beşimiz də Xanı Abad yolunu tutduq. Tez yetişməkdən ötrü, yolçu qoşaçına (faytona) mindik. Təbrizdən bu yana qoşaça mindiyim ilk kəz idi. Xani Abadda yerləşən atdaq-putdaq orduçu evləri gəzdik. Gülnaz xanımla dörd balasından iz-toz görmədik. Axşam olmuşdu. Ayaqlarımızda yürüyəcək gücümüz qalmamışdı. Başqa yandan isə, ac qurd kimiydik. Əlimizə nə gəlsəydi, yox demədən yeyəcəkdik. Beşimizin də durumu eyni idi. Biz bir yana, bu gənc türk balasının suçu nə idi! Nədən bizdən əl çəkib getmirdi! Onun dediyinə görə, bura qədər gəlmişkən, "Şuş" məhəlləsinə də baş vurmaqda yarar var idi. Orada bir çox türk ailəsi yaşayır.

Şuşdan da əlimiz üzülərək döndük. Yaxından əzan səsi gəlirdi. Yalan danışmağı sevmirəm, o anda səcdə qılıb tanrıya yalvarmaq istəyirdim! Sanki, bütün qapıların bağlanmasını tanrı özü istəmişdi! Sinirlərimiz büs-bütün pozulmuşdu. Həmin əsnada qarşımızda "Tikan Təpə" adlı bir ciyərçi dükanı gördük. Maşallahxan ürəyimizin səsini həmən eşitdi! Ciyərçinin nəyi varsa, hamısını yedik! Son axşam müştərisi olaraq, özü də bizimlə masada oturdu. Ordan-burdan danışaraq, yeyib-içdik! Hesaba gəlincə,"illah-billah olmaz, almaram, siz mənim öz qonağımsınız!" deyə çox israr etdi ciyərçi qardaş! Maşallahxan bu ağalığın qarşısında lotuluq göstərərək, bir beş tümənliyi zorla onun cibinə soxdu!

Məqsədimizi Tehranın güneyinə doğru yönəltdik. Son ümidimiz Cavadiyə idi! Türklərin toplum yaşadığı yer! Mən Cavadiyənin adını Təbrizdə olarkən eşitmişdim. Seyid Cavad baba başda olmaqla, Azərbaycan Milli Hakimiyyətinin başçılarının Tehranda qaldığı yer burasıydı. Sonralar bu məhəllənin Milli Hakimiyyətimizin yıxılmasında nə böyük rol oynadığını Cabbar əminin gündəlik anılarından öyrəndim. O, böyük türk yazır:

- "Cavadiyə məhəlləsində" rus, ingilis, fars birlikləri "Azərbaycan Türk Milləti"nin qarayazısını imzaladılar. Həmin bu Cavadiyədə, başda baba Pişəvəri olmaqla, başçılarımızın ağlını çaldılar. Onları, yaxından-uzaqdan basqı yapmaqla qara anlaşmaya çəkdilər. Antitürk rus, ingilis və fars bir araya gəlincə, Türk babalarımız dönüb qondarma azəri oldular! Bizə "Türkə Xər" deməyə zəmin yaradan babalarımızın azəri anlayışı siyasi aşamaya yüksəldi! Biz türk deyilik, bizi "türkə xər" ilgiləndirməz! Türk, türkiyəlidir, deyə uyan Firqə başçıları, rus ayısına öz ana-atalarından daha çox inandılar! Amma düşmənin ən böyük niyyəti Türk varlığını Azərbaycan torpaqları üzərindən silmək idi! Onlar, güclü, qalib, ideolojik dövlətlər olaraq bunu bacardılar. Biz isə, keşkə, bağımsız bir məğlubiyyəti gələn nəsillərə ötürə bilsəydik!"

Cavadiyə böyük, çox insanlı köhnə yaşam yeri idi. Yeni ilə köhnənin iç-içə olduğu bir geniş ərazidə hər dildə danışan var idi. Ancaq, oranın bir türk məhəlləsi olduğu daha çox gözə çarpırdı! Cavadiyədə dil problemi yaşamırdıq. Hətta, Tehranda qalmaq gərəkirsə, orada yaşamağı tərcih edirdik. Yoxsul

görünən çox uşaqlı ailələr bu bölgənin ən gözə çarpan tablosu idi. Burası bizim və anbaan ayaqdan düşən Əmican üçün, habelə onun gözü yolda olan itmiş ailəsi üçün son şans sayılırdı. Əmicanın gözü açıq getməsin deyə, bütün dəlik-deşiklərə baş vururduq. Bir gün, on gün, yüz gün, önəmli deyildi! Təki bir yaşam bulmacasının ansızın sürəci dolmasın! Təki, ulusuna qarşı düşmənlik etməyən bir türk başçavuşun dirənc diləyi tükənməsin!

Cavadiyədə axtardığımız ordu evlərini tapa bilmədik. Kimsənin bu evlərdən xəbəri belə yox idi! Ancaq, son aylar çox türk ailənin buralara köçdüyü dildə-dişdə gəzirdi. Artıq Cavadiyəni tanıyırdıq. Həftə boyunca çevrəni qarış-qarış gəzirdik. Məhəllədən biri olmuşduq. Bizdən olmayanlar belə, bizim işimizlə ilgilənirdi. Artıq böyük bir komanda oluşmuşdu!

Başqa yandan, Əmicanın durumu gün keçdikcə daha da pisləşirdi. Son iki gündə, yemək-içməkdən düşən xəstəmiz bütün günü yatmağa başlamışdı! Artıq, başçavuşun yaşam mübarizəsi sona yetişirdi! Əgər o, gözünü yumarsa nə edəcəyimizi düşünürdük. Onun məndən dilədiyini necə yerinə yetirə bilərdim? O, “imkanın olarsa, məni qardaşımın ayağı altında basdır!”, deyirdi. Nifrətlə nəcabətinə vardığım əmicanımın son bir istəyini necə gərçəkləşdirə bilərdim?!

Xəstəxanadan Əmicanın evə götürülməsini dedilər. Artıq bundan sonra xəstəxanada qalmasının faydasız olduğu deyildi. Xəstənin Təbrizdən olduğunu, Tehranda kimsəsizliyini önə

çəkdik. Xəstəni götürmək üçün 3 gün zaman verdilər! Hər günümüz dünəndən ağır başlar, daha ağır bitirdi!

Sonunda bir cümə günündə Gülnaz xanımın izinə düşdük. İlyasla birlikdə Cavadiyədən dəmir yoluna gedən bir tənikəlik evlərə sarı getdik! Oraya yaxınlaşdıq. Kiçik bir bakkal, bir qəssab, kiçicik göyərti satan, dəllək, bir torpaqlıq meydandan sonra yan-yana sıralanmış palçıqdan evləri gördük. Bakkaldan Gülnaz xanımı soruşduq:

- Salam, buralarda 4 uşaqlı bir Gülnaz adında xanım yaşayırmı?
- Siz, onların nəyi olursunuz?
- Mən, ailəsiyəm. O, əmimim xanımıdır. Mən, Təbrizdən gəlmişəm.
- Mən də Binablıyam. Onu tanıyıram. Nəcabətli bacımızdır. İlmək salmaqla balalarını yaşadır. Tanrı bu qadına elə bir qeyrət verib ki! Özü qorusun onu!
- Evi hardadır! Üç həftədən çoxdur onu axtarırıq. Xoş xəbər oldun! Xəstə ərinə ruh verdin! Tanrı ürəyinin istəyini versin!

50-60 yaşları arasında bəstəboy ağ saçlı kişi bizi arxasına alaraq, sol tərəfdə olan bir küçəyə girdi. Çərçivəsiz bir taxta qapını döyərək, “Gülnaz xanım sizi axtaran var”, - dedi.

Gülnaz xanım: Sadıq əmi, mən dedim ki, haralardan olmasından heç xəbərim yoxdur. Məni və balalarımı rahat buraxsınlar! Yenə nədən qapıma dayanıblar. Hər şeyimi əlimdən aldılar. Bu

xarabada da rahat buraxmırlar. Allah, sən özün canımı al! Balalarıma sahib dur!

- Sadıq əmi: Bacım, qorxma! Bu özünüzdəndir. Əmisinin arvad-uşağını axtarır. Gəl qapını aç!
- Gülnaz xanım: Sadıq əmi, bu qapı bağlanmaz ki, açılsın! Gəldim!

Dilim-dodağım qurumuşdu. Salam verməyə belə, cəsarətim yox idi. 70 yaşlılara bənzər beli bükük, bir dəri-bir sümük qadın qarşımda dayanmışdı! Bu qadının Əmicanımın xanimi olmasına inanmırdım. Əmicanda olan foto ilə bu qadın arasında 30 yaş fərq görünürdü! Yavaş-yavaş salam verib soruşdum:

- Bağışlayın mən Əmicanımın ailəsini axtarıram!
- Sən kimsən? Kimlərdənsən? (Bu arada dörd xırım-xırda, cansız uşaq onun çevrəsini tutdular).

Adresi düz tapmışdıq. Bu yazıq qadın Fərəc əmicanın həyat yoldaşı, dörd uşağının anası idi. Mən, ayaqda qurumuş bu qadına nə deyə bilərdim! Ona baxınca, uşaqlara gözüm düşüncə içim qan ağlayırdı. Ürəyimin çırpıntısı dodaqlarımda vururdu! Bir söz deməyə dilim gəlmirdi. Özüm də bilmədən dizlərimin bükülüb yerə oturduğumu duydum! 10 yaşlarında olan bir oğlan uşağının əlində bardaq "buyur, su iç", deməsilə özümə gəldim! Bir daha uşağın üzünə baxdım. Suyu əlindən alıb dodaqlarıma yaxınlaşdırdım. İçmədən öncə soruşdum:

- Sənin adın nədir?
- Barış! Bəs sənin adın nədir? Kimsən? Nədən belə oldun?

- Barış sənsənmı? Mən sənin əmi oğlunam! Sevincimdən özümdən keçdim. Axı çoxdandır sizi axtarıram! Adım Cəvanşirdi, biz bir-birimizi heç görmədik!
- Sən mənim atamı gördünmü? O, hardadır? Nə zaman gələcək? Niyə gəlmir?
- Gülnaz xanım: Mən də səni heç görmədim! Səni, atanı, qardaşını..!
- Hə! Doğrudu!
- Bəs anan, bacın!?
- Onlar da..!
- İndi də, Əminmi?
- Yox! O sizin yolunuzu gözləyir!
- Harda, niyə burda deyil?
- İlyas: Xanım sakit olun! Biz, sizi onun yanına götürəcəyik!
- İndi götürün! Mən uşaqları hazırlayım! Yox, yox, bağışlayın, ilk öncə evə gəlin, bir çay için sonra!

Duvarından asılan iki xalça darı, döşəməsi həsirdən olan suvaqlı kiçik bir otaq! Tavandan asılan ağ, qumru, qara, yaşıl, boz və b. boyalı yumru iplikər, xalça dəzgahının heyrəsində yerləşən həvə, toxmaq, daraq, qayçı, qarmaqlı biçaqlar, iki lampa çirağı, ayaqları beton bölükdən olan taxta masanın üstündə bir piltə, çaynik, iki-üç qbacıma, saxsı güzə, həsirli qabda yerləşən dörd beş yeralması ilə soğan, otağın küncündə isə, köhnə yorqan-döşəklə, bir neçə paltar boxçası! Bunlar bir beş nəfərlik ailənin gözə çarpan varlığı sayılırdı!

Gülnaz xanım həyətdə yerləşən suyu dəbbəsindən çaydanı dolduraraq:

- Tanrı bu Sadıq əmini darda qoymasın, İnşalllah! Bu daxma, bu dəzgahlar, burada gördüyünüz bütün nəsnələri o gətiribdir. Bizə iplik alır, əlimizdən tutur, gecə-gündüz göz-qulaq olur! Çörək, çay verir! Mən də, balalarımla ilmək atır, gördüyünüz kimi palaz toxur, satıb yaşamaya çalışırıq!
- İlyas: Biz, sizi Kərəc yolunda olan ordu evlərində axtarırdıq. Bəs niyə orda qalmadınız?
- Oğlum! Bizi saxlamadılar. Bir gün üç-dörd əskər evə girib, bizi evdən qovdular. Tək biz deyildik, bizimlə birlikdə beş-on ailəni də oradan tulladılar! Bir kamyona toplayaraq, buranın yaxınlığında tənikəliyə buraxdılar. Ac-susuz, pulsuz-parasız, Allah heç müsəlmana göstərməsin! Günahımızın adını belə, deməd ilər! Yalnız “xainlər ölməlidir”, deyib döydülər. Sonra isə, buraxıb getdilər. Bizi qışın çilləsində çölün şaxtasına buraxdılar. İndi də, gördüyünüz kimi burdayıq. Bu nəcib və təmiz kişi olmasaydı, halımızın nə olduğu belə bəlli deyildir.

Bu sözləri eşidən susqun baqqal, gözlərini yerə dikərək bizdən ayrıldı. Bu qadının qara taleyini daha da qaratmamaq mənim üzərimə düşmüşdü. Nə olursa-olsun, 4 uşaq atasının yalnızlıq acısının gözləntisi tapılmışdı. Evinin dirəyi, yaşamının erkəyi uzun zamandan sonra onlara yiyələnəcəkdi! 30 yaşındakı qarımış qadının sevinci üzə vurmasa da, əl-ayğının titrəməsi bunu bəlli edirdi!

- Dedin adın Cəvanşirdi! Doğrumu? Fərəc əmicanın bəs haralardadır? Yaşayırmı?! Doğrusun deyin! /titrəməsi artır.

/10 yaşar Barış, anasının əllərini tutaraq onları öpür! Özündən kiçik bacı-qardaşlarını da yanına alır/

- Yox! Vallahı sizi onun yanına götürəcəyəm. Yolda onu biraz soyuq vurdu! Buna görə, yatırdıq ki, dincəlsin! Bir də ki, sizi çox axtardıq, hamı yoruldu. O, sizin tapıldığınızı bilmir. Yoxsa özü gəlib sizi alardı!
- İlyas: Məncə uşaqları yormayın! Qoyun Sadıq dayının yanına!
- Barış: Biz, buraya gələndən heç yerə çıxmadıq! Qoyun biz də gələk! Biz, yemək-içmək istəmərik! Söz veririk!

Bilincaltı bir davranışla hər dörd uşağı bağrıma basaraq üzümü, damcılayan göyə tutdum! Ürəyimin cavabını yalnız gözlərimin lam axarına qatışan damcılarda duydum! Göz yaşıyla göy yaşı ciftləşərkən, uğur olar demişlər! Bir ölüm ayağında sürgün ölümündən qaçaq ata, bir ayaqüstə ölməyə salam deməyə qaçan ana və dörd ümidsiz uşaqla ayaqda olan bir əmioğlu! Bu uşaqların gələcəyini yalanla duyğu çəmbərinə salmaq yaşanacaq ən böyük günahdır! Bu dünyadan geriyə qalan ailəm olacaq bu kiçiklərin son kəz atalarını görmək haqqını kimsə əllərindən almamalıdır. Arxalarında durmaq gərəkdirsə, gözlərini gerçəklərə bağlamamalıyam! Biraz ağlar-sızlar, sürdüyü acıları su-çörək yerinə yeyər və sonunda acıya alışan bu uşaqların ata sevgisi biter!

- Yox İlyas, hamımız birlikdə gedəcəyik. Ancaq ilk öncə bir maşın tapmaq gərəkdir. Buralarda getmək üçün maşın tapmaq mümkünmü, Gülnaz xanım?

- Gülnaz xanım: Yox! Biz buraya gələndən bir fayton belə görməmişik! Istərsiniz Sadıq dayıdan soruşum!
- İlyas: Siz burda qalın, mən soruşum. Olmasa, gedib Cavadiyədən taparam.
- Mən: Bəlkə hamımız gedək! Harda olsa, tutub gedərik.
- Gülnaz xanım: Hara gedəcəyik ki? Ayaqda getmək olmazmı?
- İlyas: Uşaqlar yorular deyə düşünürəm. Amma Cəvanşır dediyi kimi yola düşək!
- Gülnaz xanım: Çay içəndən sonra gedək!
- İlyas: Mən Sadıq dayıya baxıb dönürəm!

Biraz sonra İlyas əlində iki paketlə evə girdi.

- Gəlin uşaqlar, alın yeyin! Xanbacı, bu da sizin üçün!
- Sağol oğlum! Sənin adın nədir?
- Mən Cəvanşirin dostu İlyasam!

Barış, özünə bir pay götürmədən İlyasın baqqaldan aldığı yeməliləri uşaqların arasında bölüşdürdü! İlyas bizə üz tutaraq:

- Mən maşın haqqında Sadıq dayıdan soruşdum. Sizdən öncəki evlərdə bir faytonçu var! "Gedib onunla danışarıq" dedi Sadıq dayı. Mal almaq üçün o faytonçudan yararlanarmış. Sadiq dayının tanışıdır! Bu saatlarda evə dönər. Mən gedirəm onun yanına!
- İlyas, istərsən mənimlə gedək. O kişinin dükanı bağlı qalmasın!

- Gülnaz xanım: Yox, bağlı qalmaz. Xanımı dükanda olar. Vaxtaşırı mən də onun yanına gedər, qadın-qadına qara yazımızı paylaşarıq! Bu dünyada sığınacaq kimsələri yoxdur. Bircə uşaqları belə, yoxdur!
- Olsun yenə də mən gəlim!

Sadıq dayı, mən və İlyas həmin faytonçu üçün yola düşdük. Hardasa bir neçə kilometrdən sonra daha böyük məhəlləyə yetişdik. Buranın da devarlarının çoxu palçıqdan, tənirkədən və bəzən də kərpiçdən idi. Faytonçunun evi bu məhəllənin başında yerləşirdi. Onun evi, gördüyümüz evlərdən daha yaxşı idi! Fayton evin qarşısında dayanmışdı. Bəlli ki, faytonçu yenicə evə gəlmişdi. Sadıq dayı evin qapısını döyərək səsləndi:

- Ağa Əbdülsəmi, ağa Əbdülsəmi!
- İçəridən qadın səsi: (Sınıq farsca ilə) Abdül namaz üstündədir. Gözləyin bitirsin!
- Tanrı qəbul etsin. Qapıda gözlərik. (Bizə dönərək) Çox dindar Əhvaz ərəblərindəndir. Ərəblərin namaz-orucu əskik olmaz! Üç arvadıyla burada yaşayır. Ən böyüyü 20 yaşında oğlan olmaqla 11 uşağı var. Allah birinə belə bol verir! Birinə də mənim kimi heç vermir!

Birazdan sonra orta yaşlı bir kişi qapını açaraq, arxasınca ərəbcə danışan beş-altı kiçik qız-oğlan bayıra çıxır. Kişi, ərəbcə uşaqları evin həyətinə döndərib, Sadıq dayıya dinləndi:

- Selamüləleyküm ağa Sadıq! Bir vacib iş var deyəsən?

- Salam bizdəndir Ağa Əbdül! Bu saatda sənin evinə gəldiyimiz üçün bağışla!
- Allah mühafizə, xoş gəlmisiniz! Buyurun bir çayımızı için. Yanında qərib gənclər kim?
- Sağol ağa Əbdül! İçəriyə gəlmirik. Qapıda biraz danışaq! Bu gənclər...!

Sadıq dayı bilgilərinin gərəkən bölümünü faytonçuya anlatdı. Faytonçu Rey şəhərinə getməyin artıq gec olduğunu söyləyərək, sabah erkən yola çıxmağı uyğun gördü! Hava hələ işıq idi. Ancaq, faytonçu gediş-dönüşü düşünərək, doğru qərar vermişdi. Ona uşaqların da alınmasının gərəkliyini anlatdım. Özümüzün 4 nəfər olduğunu dedim. Sadıq dayı da gəlmək istədiyini söylədi. Faytonçu bir başqa məsləkdaşıyla görüşüb, iki faytonla yola çıxacağımızı məsləhət bildi. O, ayaqda dönüşümüzə izn verməyərək, Sadıq dayı ilə birlikdə bizi oturduğumuz məhəllənin başına qədər gətirdi. Sabah üçün qərar alındı! Gülnaz xanıma bilgi vermək üçün Sadıq dayıya rica etdim.

Şişmiş ayaqlarımı zorla başmaqdan çıxartdım! Yerimdə uzanaraq tavandan asılan lampa işığına kilidləndim! Sevincimlə kədərimin arasında şaşqınlaşıb qaldım! Nə sevincim acımı unutdururdu, nə də acımdan sevincimi anlayırdım! Olqa, incə əllərilə ehtirasımı zorlamağa çalışırdı! Onun sel kimi sevgi dalğaları her zaman olduğu kimi, mənim beyin fırtınamı altına aldı! “Sevgi acının ilacıdır!”, demiş atalar! Acıdan acıya qoşan bir yaşam öyküsünün ulduz tökümündə, gecənin bitəcəyi kor nöqtədə köksümün üzərində sım-sıcaq bir ocaq alovlandı!

Alovlar, dəli sələlədən ayrılaraq damarımdan axan sevgini daşar volkana çevirdi.

Tehranın havası yavaş-yavaş istiləşirdi. Faytonda gedərkən, soyuq hava azacıq duyulsa da, can yaxıcı deyildi. Tehran-Rey caddəsi gördüyüm bütün yollara görə, ən abad və çox insanlı görünürdü! Əbdülsəmi bəyin faytonunda Gülnaz xanımla dörd uşağı, ikinci faytonda isə bizimlə Sadıq dayı birlikdə oturmuşduq.

Rey şəhərinin mərkəzinə çatana qədər, irəlidəki planlarımızı bir daha gözdən keçirtdik. Maşallahxanın məsləhətilə xəstəxanaya getmədən öncə, günorta yeməyi üçün bir kababçı dükanında oturduq. Maşallahxan heç bir xərcdən çəkinmədən ac qarınları doyurdu. Uşaqların ürəyindən keçəni qarşılarına qoydurdu. Sevən bir ata kimi onları qoxladı, bağrına basdı! Hər zaman olduğu kimi uşaqları görüncə, özü də uşaqlaşmağa başladı! Xəstəxanaya yaxınlaşdıqca, içimizdə olan həyəcan daha da artırdı. Özəlliklə, iki il didərginlikdən sonra Gülnaz xanımın ərilə, uşaqların isə atalarıyla görüş maraqları olduqca yüksəlmişdi.

Faytonlar Rey şəhərinin "Firuzabadı Mərizxanası"nın qarşısında dayandılar. İlk öncə Əmicanın durumunu bilmək üçün tək başıma xəstəxanaya getdim. Əmican cansız cənazə olaraq bayqıncasına dünyadan xəbərsiz uzanmışdı:

- Əmican, Əmican! Oyan mənəm Cəvanşir! Əmican, Əmican!
- (Mənə yaxınlaşan tibb bacısı): Xəstə bayğındır. Ayılması artıq allaha qalmış! Üzgünəm, dünəndən bayğın düşmüşdü.

Ayılda bilmirik! "Balalarım, Gülnaz" deyə bayıldı! Əlimizdən bir iş gəlmir. Bundan sonrası allahın lütfünə qalmış artıq!

- Onun uşaqlarıyla xanımı burada! Bəs indi mən onlara nə deyim?
- Biraz dayanın mən dönüm!

İki əlim, bir başım qalmışdım! Nə düşünəcəyimi belə, bilmirdim! Yenə tanrının bizə qarşı olan şakası özünü göstərmişdi! Qarşımda bayğın bir xəstə, arxamda isə, məndən işarət gözləyən nisgilli bir eş və dörd tifil uşaq! Əlimdən bir iş gəlmirdi. Sərsəmcəsinə özümlə dalaşırdım ki:

- Qulam: Cəvanşir, Cəvanşir? Özünə gəl! Nə oldu?

Əmican dünəndən ayılmır! Gözləməkdən başqa yolumuz yox!

- Qulam: Nə demək ayılmır? Yəni....

Hələlik yaşayır!

- (Tibb bacısıyla bir doktor otağa girərək) Doktor: Siz xəstənin yaxınlarısınızmı?
- O, mənim əmicanımdır!
- Uşaqları görməyə gəlib dediniz?
- Xanımı, uşaqları, yaxınları.
- Göründüyü kimi xəstənin durumu ağırdı. Bəlkə də heç gözünü açmasın bundan sonra! Tibb bacısı bunları sənə demişdi. Onları içəriyə ala bilərsən! Çox keçmiş olsun!

Bitmiş cəsarətimi toparlamağa çalışaraq, Qulamı Əmicanın yanında buraxıb faytonların yanına döndüm! Hamı mənim arxamca böyük xəstə otağına girdilər. Yan-yana yatmış xəstələrin kənarından keçərək, Əmicanın yatağına yetişdik. Xəstənin qıpırdanmaması hər kəsi üzdü. Gülnaz xanım yatağa yaxınlaşaraq, ucadan ağlamağa başladı:

- A kişi sənə nə oldu! Bu nəəə! Gözlərini aç! Əmanətlərini al! Uşaqlarına bax! Burdadırlar, yanında! Sənin yanındadırlar. A kişi gözlərini aç! Heq, heq, heq!

Bizimlə xəstəxanaya gələn Olqa, Gülnaz xanımı tutaraq, onu sakinləşdirməyə çalışırdı:

- Gəl xanbacı, gəl! Gəl sakinləş biraz! Bir azdan ayılar inşallah!
- Yox, yox! O indi ayılmalıdır. İndi yatmaq vaxtı deyil, qızım! Onu uzun zaman gözləyən tifillərini gətirmişəm. Heq, heq, heq...

Hər kəsin gözləri dolmuş, ağlayırdı! Uşaqlar sanki buz kimi əriyirdilər. Barış iki qardaşını, bir bacısını qolları arasına alaraq, ağlayır, sızlayırdı:

- Gülyaz bax! Ata burda! Bax o yatıbdı. Birazdan ayılacaq, bizi yanına alacaqdır! Sizdə baxın! Aqil, Adil! Atamıza gəldik!
- Gülyaz: Dadaş hanı? Niyə ayılmayır bəə? Ataya nə olub ki? Denə gözlərini açsın! Mən onu görmək istəyirəm. Onun üçün çox darıxmışam!

Bu zaman İlyasla doktor və tibb bacısı bizim yanımıza gəldilər. Onların gəlişilə Gülnaz xanımın duyğuları patlaq verərək, bayğınlıq keçirtdi! Tibb bacısı onu ayıltmağa çalışırkən, doktor Əmicanın əlini tutaraq dilə gəldi:

- Keçmiş olsun! Xəstə hüzur içində ömrünü sizlərə bağışladı! Başınız sağolsun, yeri cənnət olsun!

☆ ☆ ☆

**Başçavuşdan sonra!**

Banu xanımın evinin qonşuluğunda yerləşən kiçik bir evi də, rəhmətlik Əmicanın ailəsinə tutmuşduq. Maşallahxanın uşaqlara olan nisgilini qarşılayan əmim uşaqları, bu gözəl Lək insanının ürəyində yer salmışdılar. O, bütünlüklə bizdən biri olma uğrunda gecə-gündüz çalışırdı. Bu üzdən uşaqlarla görüşür, əylənir, gəzir və türkcə öyrənməyə çalışırdı. O, bütün əngəllərə qarşı iki həftə boyunca Xürrəmabada gedərək, Bərəkətağanın zamanında aldığı bir neçə torpaq alanını sataraq əldə etdiyi pulla Tehrana döndü. Onun amacı, İlyasın zəkasından yararlanaraq, qazanc gətirən bir iş planı idi. Ancaq, hələlik tələsmədən çeşidli planlar düşünürdü. Gülnaz xanımın istəyilə bir xalça dəzgahı qurulmuşdu. Maşallahxanın yardımıyla bol

iplik, iki cəhrə, gərək olan başqa şeylər alınmışdı. Əmicanın ölümündən sonra, Maşallahxanın yardımı ilə Gülnaz xanımın ağır durumu böyük ölçüdə yaxşılığa gedirdi. O, yeni yaşamının planlarını təkbaşına düşünür və həyata keçirtməyə çalışırdı. Barış iki il məktəbə getdikdən sonra, bir daha təhsil almamışdı. O, bundan sonra türkcə deyil, farsca oxula getmək məcburiyyətində idi. Onun bir il Firqə hakimiyyəti zamanında istifadə etdiyi türk kitabları, alovlar tonqalı içində yandırılmışdı. O zaman öz doğma ana dilində oxuduğu kitablara görə, on minlərcə soydaşı dar ağacından asılmış, qurşuna düzülmüş, yüz minlərcə vətəndaşının evi, namusu, şərəfi, varlığı tapdalanmışdı. O, bu acıların son damlasını atasının çarəsiz ölümündə dadmışdı. Onunla birlikdə qara yazğının nə olduğunun, kiçik qardaşlarına nisbətən daha çox anlayan Gülyazın eyni məktəbə getməsi gərəkirdi. Gülyazın ana dilində oxula getmə şansı olmamışdı. Çünki böyük qardaşından kiçik idi. Bu üzdən, qardaşının doğma ana dilində oxumaq istəməsi, onun üçün anlamsız ola bilərdi. Onların anaları üçün, iki balasının oxula başlaması olduqca böyük uğur sayılırdı. Bu üzdən o, uşaqlarının addım-addım irəliləməsinə çox sevinirdi. Onun üçün oxul qutsal ocaq idi. O, nə bahasına olursa-olsun, övladlarının özü kimi yazıq olmasına mane olmaq istəyirdi. Onun üçün özgə dildə belə, eyitim görmək balaları üçün su kimi gərəkirdi. O, gecə-gündüz ilmək salmaqla, dörd balasının azad yaşamasına çalışırdı. Buna baxmayaraq, onun təkbaşına çalışması uşaqlarının yavan çörəyinə də yetmirdi. Biz isə durumu düşünərək, boş zamanlarımızı onun dəzgahında keçirdirdik. Olqanın Gülnaz xanım ilə uşaqlarına olan bağlılığı

günü-gündən artırdı. Aralarında Abla-bacı sevgisi yaranmışdı. Zamanının çoxunu onunla keçirirdi. Gülnaz xanımdan Təbriz düyünlərini öyrənmişdir. Öyrənmək bəhanəsi ilə günün bir neçə saatını onun dəzgahında keçirirdi. Mənimlə Qulam birlikdə bir daşqa alaraq, siqara, tütün, corab, tərköynəgi, xırdavat əşya satmaqla uğraşırdıq. Hər kəs bir işdə çalışır, çörək puluna yardımçı olmağa can atırdı. Artıq, hardan qaçdığımızı, niyə qaçdığımızı yavaş-yavaş unudur, yaşayanlara qovuşurduq. *"Qismətdən artıq yemək olmaz"* demiş atalar! Demək ki, bizim də payımıza düşən bu imiş!

Günləri, ayları geridə buraxaraq, Tehran yaşamına alışırdıq. Özümüz də bilmədən, milli əriməyin zəhərli havasını çəkdiyimiz hər nəfəsdə içimizə alırdıq. Bir misal var: *"Balam, səni görüm bilmədən acı çəkərsən!"* Biz, bilmədən acı çəkirdik. Geri dönmək üçün, dağlar-dərələr boyda qorxu əngəli qarşımızı almışdı. Burada yaşam üçün iradə deyil, təslim olmaq yetərli görünürdü!

**Curab darim, zir pirəhən darim, lebas zir darim! Soğatiye Tehrun darim! Ərzan darim. Befərmayid!*(farsca)* /corab varımız, tərköynəyi varımız, altpaltarı varımız!/Tehran sovqatı varımız! Ucuzlu mal varımız! Buyurun!/ Dəzgahın bir yanında mən, o biri yanında isə, Qulam! Ütülü-örtülü, çox bilən-az danışan, içi qapalı, şahənşah ordusunun xain çavuşu! İntiqam vulkanı gənc türk, Qulam! İndisə, uzun saçlı, kilkə saqqallı bənzərsiz bir farsdilli əl satıcısı olmuşdur! Ən azından, görünən tablo bu idi! Biz, yaşamaq üçün qılığımızı dəyişməklə deyil, kökümüzü qazmaqla uğraşırdıq! Uşaqlığımda tarla biçiminə

gedərkən, dədəm işdən qaçanlara deyərdi: *"İşdən qaçmayın! İşləyən dəmir, işıldar!"* Nədənsə, biz burada işləmək üçün üzdə və içdə kömür olmaq gərəyi duyurduq!

Uşaqlara qarşı toplum etgisi gündən-günə artırdı. Onlar, yeni dil və kültür biçiminə girirdilər. Toplumun etgisi altında uşaqların dili dönməyə başlamışdı. Uşaqlarla toplum arasında olan dil dəyişikliyi get-gedə aradan qalxırdı. Özəlliklə uşaqlar arasında işlənilən dilin farsca olması yavaş-yavaş görünməyə başlayırdı. Göz görə-görə, yaşamaq uğruna özgələşirdik! Burada kimlik, kökən, varlıq, insanlıq anlamı yox idi! Burada insanlıq deyil, farslıq hökm sayılırdı! Dövlət mediyasının gündəlik reklamına görə, İran sürətlə modernləşməyə doğru irəliləyirdi! Bu ideaya görə, modern insan yaratma fabrikasının motoru bir an belə, durmamalıdır! Burada ata mənisindən, ana cəninindən başlayan evi, küçəni, bütün yaşam alanını öz altına alan bir "İran" sindromu olmalıdır! Kürələri durmadan çalışan, bir farslaşdırma fabrikası çalışmalıdır! Buranın məzar daşlarında insan kimliyi deyil, fars-iran kimliyi yazılmalıdır! Burada insan olmaq yasaqdır! *"Bir dil, bir ölkə, bir Şah!"* damğası üçün fars termini yetərlidir. Başını aşağı sal, quzu kimi yaşa!

Gülnaz xanım Maşallahxandan hamilə qalmışdı! Onlar Başçavuşun ölümündən bir il sonra evləndilər. Maşallahxan, dörd uşaqlı dərdli türk qadınla evləndiyi üçün mutlu görünürdü. O, öz imkanlarını İlyasın ekonomi bacarığı ilə birləşdirərək, uğurlu iş planı gerçəkləşdirmişdi. Birlikdə Tehranın Paçinar xiyavanında yerləşən əmlak dükanı açaraq yer alım-satımıyla

məşğul idilər. Üstəlik, Maşallahxan iş yerinin yaxınlığında ev alaraq, xanımını və uşaqlarını orada yerləşdirmişdi.

Mənimlə Olqa, yenə də Banu xanımın evində qalırdıq. Qulam, bir otaq kira edərək bizim yaxınımızda yaşayırdı. Olqa yenə də hamilə qalmışdı! Bu onun altıncı boyluluğu sayılırdı. Banu xanım uşağın sağlam qalması üçün əlindən gələni edirdi. O, Olqaya görə türkcəni öyrənməyə başlamışdı. Bu, bizimlə Olqa arasındakı böyük fərqliklərdən biri idi. Onun içindəki inamı çox güclüydü. Olqa, ən ağır durumlarda belə, öz milli varlığını canla-başla qorumağa çalışırdı. O, ən çətin günlərində belə, bir gün vətənə dönmə umudunu itirmirdi. İçimizdə ən çox dil bilən birisi olduğu kimi, həm də ən çox dilimizi qoruyan şəxs idi! O, rus və ləzgi dillərini mükəmməl, farscanı isə yaxşı danışıb yazırdı. Olqa Banu xanımdan öyrəndiyi gözəl əl işlərilə də uğraşırdı. Onların əl işlərilə süslənmiş geyimlər satış daşqasının ən bəzəkli nəsnəsi sayılırdı. Qulamla mən, artıq birlikdə deyildik. O, gözlərdən uzaq olsun deyə, bir daş mədənində işləyirdi.

Yaşam öz axışında, biz isə onun üzücü balıqlar kimi ovlanma günümüzü güdürdük! Olqa, arxa-arxasına düşük yapırdı! Artıq, hər düşükdən sonra, aramızda olan ilk ilişginin gəbəliyi alışqanlığa çevrilmişdi! Mənim bütün istəklərimə qarşı Olqa cinsəl önləm istəmirdi! Onun üçün bu bir qutlu dirənc sayılırdı!

- Olqa, gözəlim gəl bu inadından vaz geç! Bir dəri, bir sümük olmusan! Artıq canın çəkməz olub. Sənin bu inadın məni qorxudur. Mən də səninlə yanıb-yaxılıram!

- İstərsən mənə yaxın gəlmə Cəvanşir! İstərsən məni at! İstərsən mənimlə...! Mənimlə bütünləşən zaman sevgimizin həniltisini kəsmə! Mən, alınyazıma alışqanam! Məni sevirsən belə sev! Bizim hələ çox zamanımız var. Bu qara yazıya əsla təslim ola bilmərəm! Mən, uşağımızı bağrıma basmaq istərəm!
- Mən də istərəm! Kim istəməz ki! Hələ indiki durumda, bu yalqız yaşamda bir uşaq deyil, çox uşağımız olsun istərəm! Ancaq səni belə üzgün gürüncə...!

Olqa, dodaqlarımı bal dodaqlarıyla kəsərək, bir daha sevgi dənəməsinə özən göstərdi! Mən isə, onun qudsal analıq sevgisinə atalıq payı qatmaq üçün canımı canana buraxdım!

Təhlükəsizlik və bəlli nədənlər üzündən, Olqa evdə çalışmağa üstünlük verirdi. O, Banu xanımla birlikdə toxuma işini gəlir qaynağına çevirmişdilər. Ancaq, bununla kifayətlənməyib, paket qayırma işinə də başlamışdılar. Belə ki, mən hər iki gündən bir Tehranın "Səbze Meydan" çevrəsində yerləşən bir paketçi dükanına gedərək, iki böyük torba köhnə qəzet alır gətirirdim. Onlar isə, paketçidən aldığımız qəzetləri paket formasına salıb geri qaytarır, iş əməyinə görə qazanc əldə edirdilər. Günlərin bir günü səhər tezdən qəzetləri qoştəkər (bisiklet) arxasına yerləştirdiyimdə, gözüm bir qəzetin baş yazısına sataşdı*: "Sərkərdeye təcziyetələban dər Baku Mord!/Ayrımcıların başçısı Bakıda öldü!/"* Bu köhnə xəbərdən dizlərim çökdü! Qəzeti ayırdım, oxumağa başladım! Pişəvəri baba Gəncə yolunda maşın olayında ölmüşdü! Gözümün suyu ilə burnumun suyu bir-birinə qarışmışdı. Hönkür-hönkür ağlayırdım! Nə önümdən gələni, nə də yanımdan keçəni

görmürdüm. Bir anlığına çiynimdə bir silkəniş hiss etdim. Bir yaşlı ağbirçək ana öz ana türkcəmdə dilə gəldi:

- Oğul-oğul! Niyə ağlayırsan? Elə bil əzizin ölübdür! Nədəndir bu hönkür-hönkür ağlamaq!?
- (Onun əllərindən tutaraq) Hə gözəl anam, sevimli nənəm atam ölübdü!
- Başın sağolsun oğlum, gəl buraya! (başımı qollarının arasına alır): Oğlum bəs niyə burada ağlayırsan? Bəlli ki, atan yenicə ölmüşdür! Hə?
- Anacan bax! Bu ölmüş, bu! (Ağbirçək ana diqqətlə şəkilə baxaraq əllərini yanaqlarına çəkir): Qurbanın olum, ay oğul! O, hamının atası, babası sayılırdı! Sil göz yaşlarını, ağlamaq üçün gec qaldın! Onu öldürdülər! Öz əcəlilə ölə bilmədi! O, Təbrizi azad görəndən sonra ölmək istəyirdi! O da olmadı! Onu keçən il öldürdülər. Dost sandığı düşmənlər onu öldürdülər! *“Kor gözə sürmənin nə faydası var”?*deyərlər oğlum! Uruslar xalqımızı silahsız buraxan zaman yetim Azərbaycanı kor göz etdilər. Pişəvəri baba da, bir kor edilmiş gözün sürməsi olaraq, artıq nəyə gərək idi! Bir də gözəl bir atalar sözümüz vardir*:“Keçmə namərd körpüsündən, qoy aparsın sel səni, Yatma tülkü daldasında, qoy yesin aslan səni!”* Oğlum! Bu bizim millətimizin alın yazısıdır. Bu sarı büvələrə inanan yanar! Onların çatı düz deyil! Tanrının qəzəbinə gəlsinlər İnşallah!

Nasir Xosrov xiyavanında əl satıcılığına polisdən izin istənilirdi. Polislər əl satıcılarının mallarını alır, özlərini isə incitməyə başlamışdılar. Polisdən izn almaq üçün kimlik bəlgəsi

gərək idi. Axtarışda olma qorxusundan, polisə yaxınlaşmaqdan çəkinirdim. Olqanın qorxusu mənim də canıma düşmüşdü. Maşallahxanın yanında işləməyə çox istəkli olmasam da, onunla İlyasın təklifini qəbul etmək zorunda idim! Bu üzdən dəzgahda olan malları düşük dəyərə dükançılara satmağa məcbur oldum. Yeni işimə görə, Azərbaycandan gələn gündəlik saysız yolçuları garajdan alıb, Maşallahxanın yer-ev aliş-satış dükanına aparmalı idim. Bu iş, həm bizim üçün, həm də vətəndən Tehrana köçmək məcburiyyətində qalan vətəndaşlarımız üçün yararlı idi. Çünki, fars dəllallarının əlinə düşən sadə türk insanları özlərinə gəlincə, bütün var-yoxlarını itirir, evsiz-eşiksiz, pulsuz qalaraq Tehranın çevrəsindəki tənikələrdən düzələn yaşayış yerlərindən baş çıxarırdılar. Maşallahxan isə gerçək bir insan olaraq, türkləri bağrına basır, onların durumuna uyğun əlindən gələn yaxşılığı əsirgəmirdi. O, hər davranışıyla bizi çaşdırır və özünə bağlayırdı. Bu arada Gülnaz xanımın Maşallahxandan olan ikinci uşağı da dünya evinə ayaq basmışdı. Ona görə, Maşallahxan dünyanın ən mutlu insanı görünürdü. Bu, məni həm sevindirir, həm də qısqandırırdı. Çünki, Olqanın vaxtsız qanamaları, uşaq salmaları əsəblərimizi pozaraq, doğru-düzgün düşünmə qabiliyyətimizi də əlimizdən alırdı. Bir yandan Olqanın inadkarlığı, o biri yandan isə, həyatımızın mənasız sürməsi bütün sinir sistemimizi darmadağın etmişdi. Günlər bir-birini əvəz edir, ancaq qara buludlar başımızın üstündən əskik olmurdu! Azərbaycandan gələn qonaqlar, vətənin, millətin qara gündə olduğunu deyirdilər. Çeşidli yoluxucu xəstəliklər, işsizlik, yoxsulluq, baxımsızlıq, mühacirlərin tutulub casusluqda ittiham olunması, el-obaların dağılması, kəndlərin talanması,

Tehranın əlilə qanmaz xanların öz millətinə qarşı yenidən silahlanması, gizli sürgünlər, iş tapmaq adı altında gənclərin vətəndən qaçışı, jandarma və polisin kəndlərdə, şəhərlərdə ulusa qan qusdurması və minlərlə milli faciə hər gün aldığımız acı bilgilər olmuşdu!

**1950-53**

Tehranı Təbrizə bənzətdiyim bu illəri beynimdən silə bilmirəm. Hər gün siyasi çaxnaşmalar, çevrilişlər, terrorlar, göstərilər, mitinqlər, polislə kütlə arasında toqquşmalar Tehranı həyəcan içində boğurdu. Artıq kimsənin tutuqlanmasına və kimsənin də tutmasına önəm vermirdik. Beş-altı aydan bəri Qulamla birlikdə Tehranın Nəssaci /qumaş/ Fabrikasında işə başlamışdıq. Artıq rəsmi işçi sayılırdıq. Bununla belə, siyasi fəaliyyətimizi də qaçırmırdıq. Təbrizdə itirdiyimizi burada axtarırdıq. Baxmayaraq ki, Təbrizlə Tehran kimlikləri arasında tutuşan bircə ortaqlıq belə, yox idi. Ancaq, biz Tehranda yaşadığımıza görə, etdiyimizin yalnış-doğru olduğunu düşünmürdük. Biz, həyəcan dalğaları ilə birlikdə selə qoşulub, qarşımızı kəsən hər kəsin üzərinə ağnayırdıq. Bir gün "İran Milli Cəbhəsi"lə, başqa gün "İran Tudə Patiyası"na bağlı olan işçi birliklərinin mitinqlərinə qatılırdıq. Hamısının şüarları xoşumuza gəlirdi. Biri iş saatlarının azalmasını, aylıqların çoxalmasını, işçilərin siqortasını və s. tələb edirdi. Biri isə İngiltərəyə qarşı şüar atırdı. Bizdə olan Tudə partiyasının acı xatirəsi sürürdü. Biz, doğrudan da bu partiyanın Azərbaycan Demokrat Firqəsinə qarşı sürdüyü

iki üzlü siyasətini canımızla-qanımızla təcrübə etmişdik. Tudə Partiyası hər gün üz verən bəlli olaylara qarşı dəyişkən davranışlar sərgiləyirdi. Bu isə, ona inanan hər kəsi çaşbaş salırdı. Bir gün neftin milli olmasını deyir, başqa gün Sovet dövlətinin İranda olan maraqlarını savunurdu. Gecə-gündüz canla-başla İngiltərə və Amerikanın istəkləri qarşısında Şahın polisi, ordusu, özəl quardianlarının əlilə əzilib-döyülən zavallı işçilər isə arada qurban gedirdilər. Çalxantılı günlər ardı-ardından gəlib gedirdi. “Dr. M. Müsəddiq” başçılığı altında mücadilə daha da böyüyürdü. Azərbaycan qatili olan Ə.Qəvamla, Müsəddiq arasında çəkişmələr ərəb saçına dönmüşdü. Müsəddiğin tərsinə, Qəvam hər kəs tərəfindən sevilməyən bir qatil politikaçı kimi tanınırdı. O, siyasətini hiylə ilə irəli sürürdü. Bu üzdən də öz dostlarını belə, qorxudurdu. Onun, cəllad M.R.Pəhləvi şaha etdiyi bütün xidmətləri ən ufaq belə, olumlu qarşılıq almırdı. Sonunda isə, millətdən qaçmaq üçün sığındığı Şah Dərbarı da ona üz verməyincə, İrağa qaçmaq məcburiyyətində qalır.

Bir gün şah maskalı ingilisçilər, başqa gün milli maskalı liberal amerikançılar, ayrı gün də, əmək maskalı rusçular qələbə marşı çalırdılar. Ortada qalan zavallı kütlə isə, özgəliklərin arasında sıxılıb əzilirdi. Tehran, toplumsal çöküşə uğramışdı. Hər səhər oyanarkən, yeni bir başçının səsi Tehran radiosundan gəlirdi. Ardı-ardına gəlib-gedən başçı qrupları kütlə arasında bağırsaq qazına oxşatılırdı. Bir dışarı güc istəyilə Şahdan baş nazirliyi dövr alan, kabinəsini qurar-qurmaz rəqibin basqısıyla yerini sevgili birisnə verirdi. Sürəkli dəyişən dövlətlərin üzərində bir

də anbaan böyüyən meydan hərəkatının etgisi var idi. Biz, ailəcə Müsəddiqçi olmuşduq. O, ərəblərin neftini İranın milli gəliri elan edirdi. O, bu yolda özəlliklə İngiliz dövlətinə meydan oxuyurdu. Mən Qulamla birlikdə, onun düzənlədiyi mitinqlərə qoşulur, düşüncələrini bəyənir və yayırdıq. Tudə partiyası bəzən Müsəddiği savunur, bəzən isə, onu yıxmaqda İngiltərə, Amerika və Şahdan geri qalmırdı. Öncə dediyim kimi, Tudə partiyasının gözü-qulağı ancaq Moskvaya dikilmişdi. Tudə partiyası Moskvanın hər an dəyişən siyasi ssenarisinin teatr meydanı olmuşdu. Bu pariya külək kimi bəzən sola, bəzən sağa əsirdi. Bu üzdən də, öz çevrəsini çaşbaş qoymuşdu.

İşsizlik, pulsuzluq, yoxsulluq, aclıq, üstəgəl oğurluq, cinayət, təhlükə və toplumsal qalmaqal bu illərin görünən tablosunu yaradırdı. Amerika ilə İngilitərənin Müsəddiq kabinəsini sıxışdırması ekonomik anbarqoları ortaya gətirmişdi. Neft alan, qida satan yox idi. Minlərlə işçi kimi, biz də işdən uzaqlaşdırılmışdıq. Maşallahxanın da işi dayanmışdı. O, bizdən biraz aralı yerdə aldığı evdə öz ailəsilə yaşayırdı. Gülnaz xanım Maşallahxandan olan üçüncü körpəsini də qucağına almışdı. Artıq Olqanın toxuma ürünləri satılmırdı. Demək olar ki, fəlakət üz-gözümüzdən yağırdı. Banu xanım anlayış göstərərək, icarə parası almırdı. O, üstəlik Qulamı da öz evinin küncündə olan tək bir otaqda yerləşdirmişdi. O, gilək qadın, qəlbi parlaq ağbirçək bir ana kimi hər üçümüzü qanadları altına almışdı. Bu dünya nə qədər namərd olsa da, belə mərd insanları görüncə, gələcəyə umudsuz baxmağın bir anlamı qalmırdı.

Artıq ərəblərin nefti Tehran hakimiyyəti tərəfindən İranın milli varlığı olmuşdur. Şah qaçmış, dönmuş, Müssədiğin isə ulduzu parlayıb sönmüşdü! Anlatdığım kimi, Tehranda siyasət bazarı ərəb saçına dönmüşdü! Doğrudan da, o illərdə nə olub-bitməsini hələ də anlaya bilmirəm. Təkcə bunu deyə bilərəm ki, Şahın dönməsilə İngiltərə də yerini Amerikaya vermiş oldu. Amerika Şahın gücünü artırmaq üçün bütün olumsuz varsayımları aradan qaldırdı. Bazar onun əlində, qızıl onun əlində, ordu onun əlində, neft onun əlində və başlıca şah sarayı da onun əlilə idarə olunurdu. Məmləkət, sanki qasırğadan sonraki sakitlik çağını sürürdü. Partiyalar, sinifsəl toplumlar bağlanmış, Milli Məclis arıtlanmış, təhsil sistemi düzənə girmiş, var olan beş-on iş yeri bütünlüklə üsyankar işçilərdən təmizlənmiş, Şah isə Şahənşah olmağa hazırlanmışdı!

## SAVAK

Artıq SAVAK zamanı çatmışdı. Tehran üzdə səssiz görünürdü. Kimsə kimsənin toyuğuna "kiş" demirdi. Ölkədə hər kəs SAVAK-dan danışırdı. SAVAK, MUSAD, CİA bizim kimi dinc durmaz gənclərin ağzından düşmürdü. Yeni dövlət alanını genişləndirməkdə olan İsrayil Musadı ilə, yeni dünya imperializmi sayılan Amerika CİA-silə yeni batıçılığa üz tutmuş İranın Savakını yaratmışdırlar. Dərbarın göz bəbəyi olan Savak isə, doğrudan da göz bəbəyi olmaq üçün bir anını belə, əldən vermirdi.

Artıq gizli bəlgələrin üzə çıxma çağı başlamışdı. Azərbaycan Milli Hakimiyyətinin saxlıları araşdırılırdı. Mənimlə Qulam

yenidən işə başlamışdıq. O, tikinti işinə girmişdi. Mən isə, İlyasla Maşallahxanın yanında çalışırdım. Qulam, iki gün öncədən evə dönməmişdi. Banu xanım onu oğlu kimi sevdiyi üçün, məni onu axtarmağa göndərdi. Onun harda işlədiyini bilirdim. Bu üzdən Kərimxan xiyabanına getdim. Qulam, orada uca bir tikintidə fəhlə kimi çalışırdı. Baş işçidən Qulam haqda bilgi aldım. Onu iki gün öncə qarayaxa məmurlar tutmuşdular. Onunla birlikdə tikintidə işləyən beş işçi də tutuqlanmışdı!

- Onları nə üçün tutmuşlar?
- Baş işçi: İstərsən get Savakdan sor. Əlbəttə, canından doymamısansa! Bəlli da, Şaha qarşı çıxan bütün xainlərin sonu budur. O, dönməz yerə getdi! Hələ bildiyimə görə, bir də Təbrizdən gəlmədir! Vay əhvalına! Sənin nəyin olur? Olmaya sən də onlardan birisən?
- Yox, mən onu küçədən tanıyıram. Mən, əldə köynək sataram. O, məndən köynək aldı. Tanış olduq. Burada işlədiyini dedi.
- Daha nə?
- Mən iş axtarmaq üçün buradayam. Onu öncə gördüyüm üçün köməkçi kimi onu sordum. Yoxsa...
- Bəlli ki, ağıllı birisisən. Mən burda sənə iş verərəm . Ancaq, öncə müdürə deməyim gərəkdir. Sən burada dayan, mən indi dönərəm!
- Sağol burada dayanıb, səni gözləyirəm! Sənə bir şirni borcum olsun!

Onun getməsilə özümü qırağa çəkib, qaçmaq üçün imkanlı yer seçməyə çalışdım. Baş işçi bir azdan bir polislə (ajan) görüşüb,

əlilə olduğum yeri göstərdi. Bu durumu görüncə, tikintinin arxasından fırlanaraq qarşı tikintinin küncündə gizləndim. Çox keçmədən baş işçilə üç polis öncə olduğum yerə gəldilər. Məni görməyincə, çevrəyə dağılan polislər birazdan bir araya toplanıb yerlərinə döndülər. Mən isə, arxadan bir yol tapıb qaçaraq ordan uzaqlaşdım!

Artıq Qulamı da itirmişdik. Onun da mənimlə başlayan öyküsü mənsizləmişdir. Özümü tam boşluqda hiss edirdim. Olqanın bayıra çıxmasını tamamilə yasaqlamışdım. Mühacir arama sürəci başlamışdı. İnanılmaz güclü bir əmniyyət şəbəkəsilə üz-üzə qalmışdıq. Savak bütün insanların yaşamına kölgə salmışdı. Göz-gözə gələn iki insandan birinin Savak məmuru olması ən doğal varsayım idi! Tehran kimi aşar-daşar yerdə küçəyə çıxmaqdan belə çəkinirdim. Bu arada təkcə mən deyil, Maşallahxan belə, qorxu içində yaşayırdı. Yeddi uşağın gözü onun əlinə baxırdı. Gülnaz xanım Maşallahxanın keçmiş nisgillərinin qurbanına çevrilmişdi. Bu isə, erkəkliyin qadınlığa olan doğal basqısının göstəricisidir. Yazıq qadın Maşallahxanın dördüncü uşağını saldığı üçün, özünü bağışlaya bilmirdi. Özünü bir cücə maşını olaraq görən Gülnaz xanımın doğma görəvi Maşallahxanın da despotlaşmasına yol açırdı! Bir gün üzümə-üz bağlayaraq ondan soruşdum:

- Maşallahxan, yeddi uşaq, birisi də yolda! Özün də doğru olmayaraq qatil durumuna düşmüş bir qaçaq! Bərəkətağanın Savak kimi şəbəkəylə işbirlikçi olması da qaçırılmaz! Bunu heç düşünürsənmi?

- Maşallahxan: Bu neçə il Tehranda yaşadığımı unutmamışam! Gecə-gündüz tutulacağam deyə, düşünürəm. Bərəkətağanın bir rəhimsiz xan olduğunu da gözəl bilirəm. Ancaq, unutma ki, mən bu günümü sizlərə borcluyam. Sizinlə tanış olmasaydım, hələ də Bədiabadda çürüyürdüm. Mənə bu cəsarəti siz verdiniz. Gülnaz xanımla evlənəndən sonra qadının necə olduğunu öyrəndim. Bir türk qadının ərinə olan sevgisi el içində örnək olsa da, mən onu eynilə Gülnazda gördüm. O, mənim üçün özverinin tam anlamıdır. O, özü istəməsə doğmaz! Mən onu doğmağa zorlamıram.
- Bəlkə o səni sevdiyinə görə, qırmaq istəmir! Bir də, tanrı qorusun başına bir iş gələrsə!
- Onu düşünmüşəm! Bu dünyada mənim Gülnazdan və uşaqlardan başqa kimsəm yox. Vəsiyyətimi yazıb təsdiqləmişəm. Məndən sonra bütün varım Gülnazındır.
- Bu gözəl işdir. Ancaq bax, Qulam aylardır yoxdur. Kimsənin də ondan xəbəri yox! Onun yaşayıb-yaşamadığını belə, bilmirik. Tanrı qorusun, sənin də başına belə bir iş gələrsə, gülnaz xanım nə etməlidir?
- (Maşallahxan düşünə-düşünə şapqasını başından götürür qarşısına qoyur!) Bu da doğru! İşin burasını heç düşünmədim. Demək ki, vəsiyyət də işin çarəsi deyilmiş! Doğru deyirsən, düzgün bir çarə tapmaq gərəkdir! Sağol ki, həmişə olduğu kimi dadıma yetişdin, Cəvanşir!

☆ ☆ ☆

## Sürgün Axışında!

Artıq Qulamın həbsindən iki il keçirdi. Daha ondan ümidlərimiz kəsilmişdi. Banu xanım yaşamını itirmiş, nəvələri varlığına əl qoymuşdu. Biz isə, üç-dörd torbalıq əşyalarımızı bir maşına yerləşdirərək, Naziabadın Mədayin məhəlləsinə köçdükdən sonra, lap tək qalmışdıq. Bundan sonra başımızı saxlamaq üçün çox çalışmaq gərək idi. Mədayin Xiyabanı əhalisinin çoxu Türk olan sıx bir məhəllə idi. Orada daha sərbəst yaşamaq imkanımız var idi. Mənim, hər gün bisikletlə Maşallahxanın dükanına gedib-gəlişim çox çətin olurdu. Bu üzdən, Naziabad bazarında yenidən əlsatıçılığına dönməyi düşündüm. Beləliklə, həm də Olqanın yardımıyla öz toxuma ürünlərimizi sataraq yaşayırdıq.

Günlər, aylar gəlib-gedirdi. Yaşamımızda hər hansı bir gəlişmə görünmürdü. Gülnazın yeni uşağı da dünyaya gəlmişdi. Onu görmək üçün evlərinə getmişdik. Maşallahxan bu anı xatirə kimi yadda saxlamaq üçün, bir fotoçunu evə gətirmişdi. Fotoçu bir neçə şəkil götürüb getdi. Maşallahxan məni özü ilə evin həyətinə götürdü:

- Cəvanşır, səninlə bir gizlimi paylaşacağam! Bilirsən ki, səndən başqasına inana bilmərəm. İlyas da yaxşı oğlandı, ancaq sənin yerin bam-başqadı. Keçənlərdə səninlə vəsiyyətim haqda danışdım. Sənin sözlərini çox düşündüm. Bir sonuca vardım. Bu da sonuclar! Al!
- Bunlar nədir?
- Bunlar sənin yanında əmanət qalsın! Bu sənədlərin hamısı Gülnazın adınadır. Dükanla ev sənədləri, bir də bu paketdəki

pullar! Başıma bir iş gələrsə, hamısını, bir də bu vəsiyyətnaməni Gülnaza ver!

Bu Lək yenə məni çaşdırmışdı. Qarşılıq verməyə yol tapa bilmirdim! Mutlu günlər keçirirdim. Nə olsa da, acılar içində ölən Fərəc əmimin dörd uşağı söz qonusu idi. Bir yandan sevinir, başqa yandan isə, Maşallahxanın bu işinə məntiqli yanıt axtarırdım. Bu dilsiz-ağızsız kişidən bir çox öyrəndiklərimin üstünə ən böyügü yüklənmişdi.

- Maşallah əmi, sənin bu işin ailənin gələcəyi üçün bir qarantidir. O üzdən, mənə görə riskə girməni istəmirəm. Artıq məni iki şeyə görə - birincisi, Tehranda mitinqlərdə olduğum üçün, ikincisi isə, Bədiabaddan qaçdığım üçün tutabilərlər. Bəlkə də, Olqanın da suçu üzərimdədir. Mənim də durumum sənin durumla eynidir. Sənin başın üzrə olan təhlükə, sabah məni də gözləyəbilər.
- Bu da doğrudur, Cəvanşir. Səncə, mən nə edim?
- Məncə balalarının anasına, öz həyat yoldaşına inan! Həm onu sevindir, həm də özünü rahatla! Gülnaz xanım ağlı başında bir ana qadındır. O səni sevindirmək üçün əlindən gələni edir. Elə deyilmi, əmi?
- Doğrudur! Allah ondan razı olsun. Ha deyərlər ya "cənnət anaların ayağı altındadır!". Onu, elə Gülnaz kimi analar üçün demişlər. Ya allah! Dur ayağa, gedək otağa!
- Maşallahxan: Gülnaz xanım sənin mənə bağışladığın 8-ci uşağın da sevincini yaşamaqdayam. Mən sənin üçün nə etsəm azdır. O üzdən, arzum bütün var-yoxumu sənə və

səkkiz balamıza verməkdir. Qoy məndən sonra sizin yaşamınıza qaranlıq çökməsin.

- Gülnaz xanım (Çaşbaş qalaraq): Ağa Maşallah sən nə deyirsən? Bu sözlərin məni çox qorxudur. Sən başımızda ol, yetər! Tanrı səni bu evsiz, bu evi isə, sənsiz etməsin! Bu evin bütün bərəkəti, varı-yoxu sənsən. Olmaya sənə bir ədəbsizlik etmişəm?
- Yox, yox elə bir şey yoxdu! Qorxma mən, sadəcə, sənə və uşaqlarıma bir hədiyyə vermək istəyirəm! (Gülümsəyərək əlini döş cibinə uzadır. Sənədləri çıxarır.)
- Gülnaz xanım: Mən bu kağızları tanıyıram. Bunlar həmən kağızlar deyilmi?
- Doğrudu, həmən kağızlardı. Bunların nə olduğunu bilirsənmi?
- Yox! Sən demədin ki! Uşaqlara aid dedin, başqa söz demədin. Təkcə barmaq bastırdın mənə!
- Doğrudu! Bu kağızlar sənə aiddir. Dükanın və evin kağızlarıdır. Hamısı artıq sənin adınadır. Sənə hədiyyəm budur, al!

Gülnaz xanım, bir söz demədən otaqdan çölə çıxdı. Olqa onun ardıca getdi. Üç körpə yan-yana yatmışdılar. Barışla Gülyaz hələ məktəbdən dönməmişdilər. Aqil dərslərilə məşğul idi. Adil isə, kiçik qardaşıyla oynayırdı. Maşallahxan Gülnaz xanımın davranışından çaşdı.

- Əmi, o sadəcə, sevindiyindən nə diyəcəyini bilmədi! Sənin ona göstərdiyin etimaddan dil-dodağı qurudu. Qadın bizdən utanaraq, bayıra çıxdı. Sən rahatsız olma!

- İnşallah, belədir. Mənim niyyətim onu və uşaqları qarantı etməkdir.
- Doğru iş yapdın, əmi! İnan ki ən düzgün davranış sərgilədin. İnşallah ki, uzun zaman ailənin başında olasan.

☆ ☆ ☆

**Mühacirlər axtarışda!**

Firqənin və milli hakimiyyətin çöküşünün 10-cu il dönümünü Azərbaycanın qurtuluş günü adı ilə Naziabadın bələdiyyə salonunda qeyd olunurdu. Giriş sərbəst olduğundan, mən Olqa ilə salona girdik. Salonun kənarlarında qarayaxa məmurlar dayanmış, gələn-gedənləri gözdən keçirirdilər. Bazara yeni gəlmiş qırmızı çadralar, bir çox gənc tərəfindən istifadə olunurdu. Olqa da toplumdan biri olsun deyə, o çadralardan birinə bürünmüşdü. Artıq Olqa 6 aylıq hamilə idi. İkimiz də çox sevincli idik. Çünki bu uşağın yaşamımıza rəng qatacağına ümıd edirdik. Doktorun dediyinə görə, ananın da, uşağın da durumu çox normal idi. Mən hər zaman olduğundan, Olqaya daha duyumlu davranırdım. Bu üzdən salonun arxasında qapı ağzında oturub, gərək olduğu an, tez çıxmağı düşündük. Törən hələ başlamamışdı. Salonu boğuntulu tüstü bürümüşdü. Küncdə dayanan bir məmurun gözü bizə zillənmişdi. Demək olar ki, gözünü bizdən heç çəkmirdi. Mən Olqaya işarə edib:

- Sevgilim, getmək istəyirsənmi? Salonu tüstü bürüyüb. Sənə ziyan olar. Nə düşünürsən?
- Gedək, Cəvanşir. O adam məni qorxudur. Gedək! Savak məmurudu o!

Salondan çıxmaq istəyirdik ki, biri arxadan səsləndi!

- Cəvanşir, Cəvanşir!

Biz özümüzü görməməzliyə vuraraq qapıdan çıxıb Mədayinin aşağı məhəlləsinə sarı yola düşdük. Çox keçmədən, ilk döngədə qarşımızı bir kəsdi:

- Salam Cəvanşir bəy, salam Olqa xanım! Məni tanıdınızmı? Mən sizi tanıdım! Sizi Təbrizdən tanıyıram. Məni xatırlaya bildinizmi? Yoldaşlar!
- Yox, siz kimsiniz? Sizi heç tanımadıq. Üstəlik mənim adım Cəvanşir, xanımımın adı isə Olqa deyil.
- Olqa: Sizi polisə verərik, ağa. Lütfən bizi rahatsız etməyin! Bizi rahat buraxın!
- Kişi: Olqa xanım, farscanı da yaxşı öyrənmişsiniz! Bəs Tərlan hanı? Öz balanı əldən verəndən sonra, Tərlanı balan olaraq qəbul etmişdin ha Cəvanşir bəy, bu 10 ildə çox düşmüsən. Şahın əfv fərmanından sonra sizi hey gözüm axtarırdı. Ancaq indi tapdım!

Bu adam bizim hər şeyimizi bilirdi. Mən onu birisinə oxşatsam da, tanıya bilmədim. Olqa gözlərimə baxıb, sanki bir şeyləri anlatmağa çalışırdı. Bəlli olan, başımızın üstünü qara buludlar almışdı! Mən özümdən daha çox Olqanı düşünürdüm! Olqanın

daha çox dincəlməyə ehtiyacı olan zamanda, başımızın üstündə gəzən bu bəla hardan gəldi? Bu adamı niyə tanımıram. Tanış gəlir bir yerlərdən, ancaq hardan?

- Siz kimsiniz, bizi hardan tanıyırsınız, adınız nədir?
- Cəvanşir qorxma! Olqa xanım sən də qorxma! Mən Yəhya! Tanıdınızmı? Həmədan dağlarında qaçarkən qurd parçalamışdı ha! Tanıdınızmı? Nə ağır günlərimiz oldu! Kimləri qurban vermədik! O gecə az qala mən də donacaqdım. Bilirəm ki, qanlı köynəyimlə hər kəsi ölü olduğuma inandırmışdım. Amma, əslində, mən ölmədim. Yolda bir çobandan quzu aldım. Onu kəsib yedim, köynəyimlə şalvarımı onun qanına bələşdirərək param-parça edib, jandarmanın durağına yaxın bir neçə yerdə buraxdım! Bütün olay bundan ibarətdir. Ancaq əfv fərmanından sonra artıq qorxmağa nədən qalmamışdı. Başqa iş tapmadığım üçün polis olmağa baş vurdum. İndi sitvan dərəcəsilə gizli polisəm. Sizin bildiyiniz Savak polisi! Ancaq, məndən qorxmayın, sizi qoruyacağam. Olqa bacı, sən də qorxma! Heç də qorxma! Yaxşısı, sənə Fatimə adında bir kimlik alaq! Bu işdə sizə yardım edərəm!

Həmən an bir damla suda boğulmaqda olan qarışqaya bənzəyirdik. Dilimiz ağzımızda qurumuşdu. Yəhya! Qurdların yemi olmuş param-parça olmuş Yəhya! İndi Tehranın Naziabad bölgəsində kiralıq bir otaqlı evimizdə oturaraq, Olqanın süzdüyü çayı içməkdədir. O, beş il bundan öncə araşdırma yapmaq üçün Bədrabada və Bədiabada getməsindən danışırdı:

- Sizin yaşadığınız Bədiabad kəndin kəndağasına qonaq oldum. Onu Bərəkətağa səsləyirdi jandarmalar! O, qızının qatili olan kürəkənini axtarırdı. Diridirsə, hələ də axtarılır. O, məndən də yardım istədi! Polisdə də axtarışdadır. Bərəkətağa böyük bir qadından söz açdı. O, qadının adını çəkərkən yerində oynaxladı. Bəlli ki, ona çox saygılı idi. Mən, orada olmadan öncə, Səkinə ana deyilən o qadın ölmüşdü! Yazıq dağda bir ac qurdun zavalına gəlmişdi! Kənd əhalisi onu igid bir qadın kimi yad edirdilər. Sizin dördünüzün Bədiabaddan qaçdığınızın da dəstanı ağızdan-ağıza gəzirdi. Başçavuşun ölümünü çavuş Dərvişludan öyrəndik. O, çox dirəndi! Gəncliyinə yazıq oldu! Dirənə-dirənə öz qanında boğuldu! Bir qafasız türk kimi rejimə qarşı gəldi! Qocaman bir SAVAK-ı aşağıladı. İşkəncə altında şahı söydü! Ölümü üçün məmurları təhrik etdi! Doğrusu daşqafalı bir türk kimi öldü. Ölüncə də güldü! Sizinlə birlikdə Tehrana gəldiyini və Bayramının xəstəlikdən öldüyünü dedi! Hətta ilk başda Xaniabadda bir evdə yaşadığınızı da etiraf etdi. Daha sonra ayrı-ayrı yaşadığınızı və bir-birinizi itirdiyinizi söylədi. Bunlardan sonra ağzına qıfıl vuraraq heç danışmadı! Sizin könlünüzcə, dostunuz qəhrəmanca öldü!
- Olqa: Səkinə anadan de?
- Bilirəm onu hamınız sevirdiniz. Bir gün payız axşamı Sara xanımın Aygül qızı qızdırmadan ölüm döşəyinə düşür. Qızdırması gündən-günə artır! Var olan ilaclar karsız qalınca, sizin qəhrəman ananız dərman tapmaq üçün yamaclara yol alır! Ayaqdan düşmüş Səkinə ananızı yalnız buraxmayan Saranın oğlu Babək də onunla təpələri aşır!

Onların dönüşü uzun sürür. Jandarmaya xəbər salınır. Jandarmadan öncə Bərəkətağanın tüfəngçiləri onların yeyilmiş nəşlərini meşəlikdə tapırlar! Deyilənlərə görə, ac qurdların tələsinə düşmuş Səkinə və Babəkin sadəcə sümükləri qalmışdı. Yazıq Sara xanım balasının didilmiş paltarlarını görüncə, ürəyi tab gətirməyib ölür. Aygülü, Bərəkətağa xəstəxanaya göndərir. Sağalandan sonra isə, bu südəmər uşaq qızının siğəsini oxudaraq, özünə arvad edir! Siğəni Fatimə ilə Cəvanşirin mollası, yəni Ağaşeyx Sadıq oxuyur!

Bu xəbərləri sizə kim verə bilərdi ki? Nə yaxşı ki, məni tapdınız! Elə deyilmi? Bəs o miyanalı ası Kişixanla ilə bakılı həkim xanım Elmiradan nə xəbər var? Onlardan da siz xəbər verin?

- Bütün bilgilər sizdə, Yəhya bəy! Bizdən niyə soruşursunuz? Bizi tapan onları tapa bilməzmi?
- Yox! O çox ipi qırıqdır. Əlbəttə, onu da, qatil Maşallahxanı da tapacayıq!
- Olqa: Yəhya bəy siz necə bu işə girdiniz? Axı biz də iş axtarırıq! Bizə də kömək edin! Bu qərib yerlərdə çürüdük! Maşallah sizin durumunuz yaxşıdı. Birdə, dövlətə xidmət etmək ən gözəl işdi. Mənim də bu yolda təcrübəm var! Cəvanşir də savadlıdır!
- Olqa mənim də ürək sözümü dedi, Yəhya bəy!
- Yəhya: Nədən olmasın ki, Gözəl takım olarıq. Şaha xidmət, İrana xidmət tanrıya xidmət deməkdir. Sizin kimi oxumuş, savadlı və azərbaycanlı gənclərə iş çox! Beləliklə mənim kimi xainlik damğasını atar, xadimlik rütbəsini qazanarsınız!

Olqa xanım, siz də (Olqanın qarnına baxaraq) uşağınızı dinc ortamda böyüdərsiniz! Toplantı bitmədən mən salona dönməliyəm. Sizin dediklərinizə yüzdə-yüz inandığımı düşünməyin. Salon bitər-bitməz buraya dönəcəyəm. Yarım qalmış sözümüzü bitirmək istəyirəm. Mən burada yoxkən, bayırda iki gizli məmurun gözü üzərinizdə! Çölə ayaq qoymaq istəsəniz, şərtlər dəyişər! Sakit oturub məni gözləyin! Hə Cavanşir, sabah sənin yenidən Nəssaciyə girməyini də düşünək! Bu səfər daha yüksək durumda olacaqsan, anladınmı!? Bir də, Qulamın işi bizim əlimizdədir. Yardım olunmasa, yeri qəbir dərinliyi olacaq! Yox əgər, yardım olunursa, Şahənşahi Ordusunun "2-ci Rökn"ünə (təhlükəsizlik bölüm) alınar, xoşbəxt yaşar!

İnanılmaz bir bataqlığa düşmüşdük. Ölü bildiyimiz bu Savak məmuru bizim haqqımızda özümüzdən daha çox bilirdi. Olqa mənim üzümə, mən isə onun gözlərinə baxmaqdan savayi bir iş görə bilmirdik.

- Olqa: Cəvanşir bu adam bizi bulduğunda yalnız deyildimi? Bizimlə birlikdə yalnız evə gəlmədimi? Bu adamın arxasında birisinin olmasını gördünmü
- Yox! Görmədim! Bu adam bizi qorxutmaq üçün əlindən gələni əsirgəmir. Bədiabaddan dediklərinə də çox inanmıram. Hamısı yalan ola bilər.
- Yox! Sözlərinin yalnız son bölümü yalan idi! İndi onları düşünməyək. Bu adam bizi tələyə salmış! O mütləq qayıdacaq! Biz indi bu evdən çıxmasaq, heç zaman onun

əlindən qurtara bilməyəcəyik. Götür bir səhifə yaz: *"Ərzaq almaq üçün bazara çıxdıq! Bir saata qayıdarıq!"*
- Bəs əşya!
- Ancaq üstümüzü geyməliyik. Qalanı qalsın. Zatən qab-qacaqdan başqa nə var ki! Bir paketə artıq başmaq qoy!

Günəşli payız çağı idi. Günəşin saçaqları əlvan boyalı qara ağacların yarpaqları arasından süzərək, cığır yol kəsmələri yaradırdı. Bir gözümüz çevrə axtarışında, biri isə bu bəladan qurtuluş üçün taksıda! Bir dəfə də olsun, biz də taksı nobarı edək deyə, cibimizdəki bütün pulları verməyə özən göstərdik! Həm qurtuluş, həm də taksı keyfi! Nədən olmasın!?

Gülnaz xanımın evinə iki küçə qala taksıdan yendik. Əlimizdə olan pulu taksiçiyə uzatdıq. Taksiçi bizim türk olduğumuzu anlamışdı! Bir dənə iki tümənlik götürərək:

- Təbrizdənsiniz? Yeni gəlmisiniz? Vətəndə nə xəbər? Burada kimsəyə pul göstərməyin! Başınıza bəla gələr!
- Hə, yeni gəldik. Vətən də yerində! Məsləhətinə görə sağol! Oradan buraya iki tümən olarmı?
- Siz mənim canımdan-qanımdansınız! Mənə yetər! Buralarda tanışınız varmı?
- Bir motel var! Tanıdığımdır! O da türkdür!
- Allah amanında gənclər! Amandı, bu namərd tehranlılara tutulmayın! Burada istədiyiniz sayda türk var!

Evə çatınca dər-devar üzərimizə ağnayırdı. Gülnaz xanım qarşımıza bir çay qoydu. Başımızdan keçəni anlatdıq. Yazıq

arvadın yanaqları bəm-bəyaz olmuşdu. Böyük bataqlıqdan qurtuluşumuzu Maşallahxanın aldığı bir 55 markalı vodka ilə qutladıq. Ancaq o gecə mən Maşallahla səhərədək qusduq. Biz qusduq, xanımlar isə güldü. Onların gülüşü bir başqa keyfli idi! Ailə bütünlüklə, bizim başqa bir yerdə qalmağımıza izn vermirdi. Olqa hamiləliyinin son ayını yaşayırdı. Doğrudan-doğruya Olqa ana, mən isə ata olacayık. Gülnazın dediyinə görə, uşağın çox təknə atması oğlanlıq əlamətidir. Mənim sevincimin həddi-hüdudu yox idi. 30-40 gün sonra ata oluram. Sonunda Olqayla olan sevgimiz meyvəsini verirdi! Maşallahxan uşağın adını qoyma haqqını indidən özünə götürmüşdü! Oğlan olursa Umud, qız olursa Çiçək qoyacağını düşünürdü. Bu adların hardan tapdığını sordukda da, susub danışmırdı!

Maşallahxan Yəhya öyküsündən dərhal sonra ağ saçlarını həna ilə boyatmış, bığlarını kəsdirmiş, saçının formasını dəyişdirmişdi. Artıq əski Maşallahxandan əsər-əlamət yox idi. Üzdə sadə görünən bu kişi, şeytana papuş dikməyin yollarını dərindən öyrənməyə başlamışdı. Onu bu qiyafətlə şeytan belə, tanımazdı!

Bizə gəlincə, Olqanın beynini bir fikir bütünlüklə iflic etməkdəydi. O, SAVAK əlindən qurtuluş yolunu təkcə, Sovet (Şurəvi) Böyük Elçiliyinə getməkdə görürdü.

- Cəvanşır, bax! Ən sonunda uşaq nisgilimiz sona yetməkdədir. Uşaq doğulunca, onu da özümüzlə “Qacaq Nəbi” edəcəyik? Düşün Cəvanşir, üstəlik mənim sovet pasım var. Sən də mənim ərim, uşağımın atasısan. Həm də, mən

vaxtıyla NKVD-nın (Xalq İçişlər Komissarlığı) Azərbaycan qolunun alt qatında işçi olmuşam! Yardım istəmək bizim haqqımızdır. Cəvanşir, bu Yəhya bizi rahat buraxmayacaq. Bizim odumuza bu zavallı uşaqlar da yana bilər!

- Olqa, canım mənim, bu böyük riskdir! Sovetə inanmaq olmaz! Bizim başımıza gələn müsibətlərin böyük payı, bu üzdə dost görünən dövlətin üzərinə düşür! Bunlar, səni-məni həb kimi udarlar! Mən bu barədə səninlə eyni fikirdə deyiləm. Bu saata qədər sənin bir sözünü iki etməmişəm. Amma bu dəfə səninlə razı deyiləm. Sənin riskə soxulmağına razı ola bilməm! Səndən sonra mənim başıma nə gələcəyi heç düşünmürsən?
- Cəvanşir, mən səni, uşağımızı və özümü düşünürəm. Öncə səni düşünürəm. Sonra körpəmizi, ən sonda özümü! Mən, sənsiz heç yerə getmərəm. Ya səninlə gedərəm, ya getməkdən imtina edərəm. Sən necə desən, elə də edərəm!
- Bu iş sənin əlində olmasa necə? Pusquya düşərsən necə? Sən bir dövlət məmurusan! Bəlkə də Sovet Gizli Polisinin izləmindəsən. Bəlkə sənə həbs hökmu kəsilib. Hardan bəlli olar ki?
- Cəvanşir, bir düşün! Düşün ki, İran Savakı əlində tutuqluyuq. Bir düşün ki, qarnımda 8 aylıq uşaqla məmurların təcavüzü altındayam! Sən də əli-qolu bağlı bu göstərini izləyirsən!
- Olqa daha bəsdi! Keçmişləri xatırlatma mənə! O anda nəfəsimi içimdə saxlar, özümü içdən boğaram!

Olqa bizim qədər rusları tanıya bilməzdi. Hələ onların əmrləri altında olan əmniyyət orqanlarında olarkən. Başqa yandan isə, Təbriz zindanında başımıza gələnləri ikimiz də unuda bilməzdik. Çox çətin iki yol ayrıcında qalmışdıq. Ya ikimiz birlikdə getməliyik, ya da Olqayla qarnındakı uşağımız? Biz bir-birimizi dəlilər kimi sevirdik. Hər keçdikcə də bu sevgi dərinlərə varırdı. Hələ uşağın gəlməsilə aramızda olan bu sevgi bağının daha da möhkəmlənməsi gözlənirdi. Sovet Elçiliyinə gedib qəbul olacağı halda, Olqanın əlimdən gedəcəyinə şübhəm yox idi. Amma getməsə necə, şahlıq irticasının əlilə tutulsa necə? Haşa, iraq olsun, ağzıma daş-qum! Mən Olqanın hər zaman doğru düşündüyünə inanmışdım. Ancaq, bu kəz inanmaq üçün əlimdə heç nədənim yoxdur. Yəhyanın ortaya çıxmasıyla şərtlər də dəyişmişdi. Olqa, onun haqda düz düşünürdü. O, indi yaralı canavar kimi bizim üzərimizə düşəcəkdir. Onun əlində bir də Qulam var. O, bizi tapmaq üçün Qulamı etirafa çəkməyə çalışacaq. Mənimlə Qulamın bütün işlərdə əlbir olduğumu bilir. Qulam sınarsa, Maşallahxanın da ələ keçməsi an məsələsidir. Olqa ruslara gedərsə nə olar? Mənim də gözlərdən itməyim asanlaşar. Maşallahxan da dükanını və evini satar, ailəsilə birlikdə başqa bir şəhərə köçərdi. Ancaq, onun işi biraz çətindir. Səkkiz uşaq, üstəlik üçü məktəb öyrəncisi.

Olqayla birlikdə Tehranda yerləşən Sovet Böyük Elçiliyinə sarı yola düşdük. Hər aldığım nəfəs, milyon kərə *"getmə Olqa!"* hayqırırdı! Olqanın mənə sarı hər dönüşü bir foto anısı kimi beyinimin sızğın bəlləyində qazılırdı! Onun gözündən daman hər bir inci, leysan yağmuru kimi varlığımı sel altına alırdı!

Deməyə sözüm qalmamışdı! Sanki, bundan sonra qarşılıqlı yasda olacağımız hökmu almışdıq. Sürəci kəsilməz üfuğu bükük qara bir alaçığın yağmuruna tutulmuşdum! Nə edəcəyimi, kimə yalvaracağımı bilmirdim. Bu özgə hisarlar arxasında çığırsaydım nə olardı, bağırsaydım nə!?

Artıq qapıya yetişmişdik. Olqa ağlar gözlərini çadrasının ucu ilə silə-silə mənə gülümsəyirdi. Onun hər acı gülüşü rus ruletindən çıxacaq ölüm qurşun kimi beyinimi qazırdı!

- Cəvanşir, işimiz biraz uzun sürə bilər. Bəlkə də, məni aparan yerə səni qoymasınlar. Mən yəqin Sovet vətəndaşı olduğum üçün sorğu-suala çəkiləcəyəm! Sənin də yanımda olmanı istəyəcəyəm. Ancaq, izn verməklərinə inanmıram! Səni içəridə saxlamasalar, dön burada məni gözlə! İşim bitər-bitməz burada görüşərik!
- Olqa! Gəl qayıdaq desəm...!?
- (Əlini dodağıma qoyur, sol əlilə əlimi oxşayaraq) Cəvanşir, bax bu göz yaşlarım sənin üçündür. Bu sızğınlığım canımdan çox sevdiyim bir təndaşım üçündür! Sən də yaxşı bilirsən ki, başqa yolumuz yoxdur. Bunu etməmiz gərəkdir. Bu günə qədər birlikdə bütün çətinlikləri aşdıq. İndi qarşımızı kəsən dev boyda bir əngəl var! Səncə, devi devlə yıxmaqdan başqa yolumuz varmı?

Qapının zilini basdıq! Qarşılıqlı səs gəldi. Olqa rusca cavab verdi! Qapı açıldı. Ürəyimin döyüntüsü daha da artmağa başladı. Ayaqlarım yerdən qalxmırdı. Özümə toxtaqlıq verərək, Olqanın əlindən tutub içəri girdik. Dalana bənzər həyətin

küncündə tək kişilik bir kioskda biri qız iki məmur dayanmışdı. Qız bizi görüncə, yaxına gəlib salamlaşdı. Olqa onunla danışığa başladı. Qız mənə işarə edərək, Olqaya bir sözlər söylədi. Olqa başını yerə salaraq mənə sarı gəldi!

- Cəvanşir, burada gözləməliyik. Birazdan qız geri dönəcək.
- Nə danışdınız Olqa?
- Məndən kimliyimi soruşdu. Sənin kim olduğunu soruşdu. Ərim olduğunu dedim! Artıq başqa sorğular içəridə olacaq!
- Səncə məni də içəriyə alacaqlarmı?
- Bilmirəm! Mən onlardan bunu istəyəcəyəm. Baxaq görək nə olar, nə olmaz!

Beş-on dəqiqədən sonra kioskun yanında olan qapı açıldı. Qızla bir ucaboy ortayaşlı kişi bizə yaxınlaşdılar. Kişi Olqayla əl verdi. Mən əlimi uzatmaq istəsəm də, kişi etina göstərməyincə geri çevirdim. Kişi qalın səsilə Olqaya bir şeylər deyirdi. Olqa əl çantasından pasportunu çıxararaq, kişiyə verdi. Kişi pasportu vərəqləyərəq gözaltı mənə baxdı və Olqaya bir şeylər dedi. Olqa əsnək dodaqlarıyla kişiyə bir şeylər dedi. Olqa mənə dönərək titrəyə-titrəyə ağlamağa başladı. Mən Olqanın əlindən tutmaq istədim. Ancaq...!

İki gənc rus polisi məni dışarı qapıya, ikisi isə Olqanı içəri qapıya yönəldirdi. Olqanın mənə uzanan əlilə mənim Olqaya uzanan əlimin arası durmadan uzaqlaşırdı. İki qapının açılma anı Olqayla mənim son baxış anımız oldu! Qapılar bağlandı! Qorxduğum başıma gəlmişdi! Dünyam başıma yıxılmışdı! Ah

Olqa, ah Olqa! Nə yapdın, həm özünü, həm də məni yandırıb yaxdın!

İki gün idi ki, elçilik qapısında quruyub qalmışdım. Hər qapı açılanda *"bu Olqadır!"*deyə sayıqlayırdım! Nə bayırdan biri – "Burada nə işin var?"- deyir, nə də içəridən bircə cık çıxırdı! Ayaqdan düşməyim deyə, axşamlar gedib qarşı xiyabanda yerləşən bir erməni bakkaldan biraz çörək, biraz pendir alır gəlirdim. Erməni bakkal mənim alkol düşgünü olduğumu düşünmüşdü. Bu üzdən daha ucuzlu vodkaların olduğunu reklam edirdi! Sonunda dördüncü günün ortalarında bir Elçılik polisi məni qapıya çağırdı. Mən pislik içində itirdiyim görünüşümlə, qapıya sarı getdim. Polisin ardından Olqanın yanında gördüyüm ortayaşlı məmur, əlində bir məktubla qapıdan çıxdı! O aydın farsca mənim adımı dedi:

- Cəvanşir bizi anlamağın gərəkdir. Biz dörd gündür səni izləyirik. Sən bir İran vətəndaşısan. İran qanunlarına tabesən. Olqanın pasportunda sənin adın yoxdur. Baxmayaraq ki, Olqanın dediyinə görə 10 ildir evlisiniz. Ancaq bu Sovet qanunlarına görə deyil. Olqadan və uşağınızdan nigaran olma! Onlar indi Bakıdadırlar. Ümid edirəm bir gün aranızda olan mane aradan qalxar! Bir də, Olqadan sənə bir məktub var. Al buradan get və həyatını yaşa! Sən yaxşı oğlansan! Sənin ziyan görməyini istəməzdim. Mənim adım Çernikovdır. Ladran Jernikov! Altı aydan sonra istərsən mənə baş vur. Olqadan məktub, xəbər olarsa sənə saxlaram!

- Bəs! Olqa mənsiz...Bakı... O mənsiz... Bu ola bilməz, bu ola bilməz... Bəs Bakının yolları bağlı idi... Olqa Bakıda ola bilməz! Mən onsuz... O mənsiz...!!!

Qapı üzümə bağlanır. Olqanın yazısı əlimdə quruyub qalmışam! Bəs Olqa...Mən...Bakı! Yazını oxuya bilmirəm. Oxumaq istəmirəm. Yazını oxuyarsam əgər, hər şey bu gün bitər. Nə qədər ki yazını oxumamışam, Olqanın yaşamımda olacağına inanacağam. Məktubu diqqətlə cibimə qoyuram. əlimi cibimə aparır bir daha məktubu çıxarıram. Elçiliyə gələndə gözlərimin yaşını silmək üçün Olqadan aldığım güllü yaylığı açaraq, məktubu içinə bükürəm! Yaylığı qoxlur, öpürəm. Bu kərə şalvar cibində deyil, pencəyimin sol döş cibinə yerləşdirirəm!

☆ ☆ ☆

**Olqasız yaşam!**

Üç ay içində eybəcər qılıfımla tanınmaz duruma düşmüşdüm. Gözgü qarşısından qaçar olmuşdum. Bu qılıfımla, Yəhya deyilən o canavar savak məmuru belə, məni tanımaz idi artıq! Zatən 55-60 çəkili 35 yaşlı birisinin 3 ay içində 35-40 kiloya düşməsi ilə tanınması da zor görünürdü. Hələ buna, köksünə qədər uzanan kilkəli saç-saqqal artarsa adamın tanınması ağıla sığmaz olar. Olqanın son toxuduğu qırmızı toppuzlu taxma papaq qafamın ayrılmazı olmuşdu. Artıq, bir otağın küncündə

oturub Maşallahxanın gətirdiyi gündəlik açıq araqla içimin yanar atəşini alovlandırırdım. Ruhum kimin toz basmış bir əski qramofon səssiz-səssiz axan gözyaşımın təkcə sırdaşı olmuşdu. Təki ağlatsın deyə, gün boyunca sızğın mahnılarla özümə acıyırdım. *“Sevginin gücü varsa, əzginliyi də var”* gərçəyinin ən çılqın öyküsünü yaşamaqdan coşub-daşırdım! Gün günü qovurkən Olqanın içimdəki duyğusunun yerini sinir saçaqları alırdı. Yavaş-yavaş düşünmə gücümü toparlamağa çalışırdım. Olqa, mənim üçün simbolik bir qadın idi. O, yaşamımın dadı-duzu, kədəri və acısı idi. O, doğabiləcək uşağımın anası olacaqdır. Olqanı düşünmədən başımı yastığa qoya bilmirdim. Ancaq, bu da özümü yox etmək anlamına gəlmirdi. Mən, Cabbarəminin əldə olan yazılarını, Qurdananın beyinimə qazılan həyat tərzini topluma yetirməklə borclanmışdım. Türkoğlu türk kimi sözümü tutmalı, böyüklərimin yolunu açmalıydım. Olqanın bütün ağırlıqlarını üzərimdən qaldırmalıydım. Mən, keçmişilə, indisilə, gələcəyilə sorunlar altında olan bir ulu ulusun halən soluxlanan oğlu idim. Mən, insanlığa qarşı nifrət tonqalı qalayan bədəvi bir qovmun alovlarından qurtulan Cəvanşirəm!

Vətənə qayıtma fikri beynimə düşmüşdü. Vətən havası bütün ümidsizliklərə dərmandır deyə düşünürdüm. Vətən nə qədər də ürəyindədirsə, onun köksündə yatmayınca nazlamasını, oxşamasını hiss edə bilmərsən! Vətən elə bir alovlu yanğındır ki, onda yanmayan sərin bulud qoynunda isinməz, sıx-sıx açıb-solan gülüstanlıqda yaşam marşı oxunmaz, cığır-cığır su

yollarını coşduran daşan selə çevrilməzsən! Vətən belə bir duyğu qaynağıdır!

Laləzar küçəsində yerləşən bir teatr salonunda təmizlik işi tapmışdım. Savadlı biri olduğuma görə, Ərdəbildən olan teatr müdüri məni özünə köməkçi etmək istədi. Ancaq buna qarşılıq şərt olaraq, saqqalımla uzun saçlarımı kəsdirməli idim! Aylarca bu uzun saqqal və saçlarımla açıq havada qorxmadan gəzməyimə son verməli, ya da yenə işsiz-pulsuz qalmalıydım. Artıq özümü gizli tutmaqdan, Olqanın dərdini çəkməkdən yorulmuşdum. Bu yaşam mənə görə deyildi. Bir qurtuluş yolu tapmalı, yeni bir yol seçməliydim. Artıq özümdən utanmağa başlamışdım! Mütləq bu durumdan qurtulmalıydım! İnsanların təmiz geyimiylə özümü bir yerdə tuta bilmirdim. Hələ bu işi tapmışkən, bir dildaşın mənə yardım əli uzanmışkən belə fürsəti əldən vermək olmazdı.

"Dəllək Əhməd" deyilən bərbərdə üzümə, saçıma çəki-düzən verərək hamama gedib özümü "Lotu Əsgər"in əlinə verdim. O, tənbəl bədənimi gözəlcəsinə əzişdirib, yuxunu başımdan qacırdı! Evə dönər-dönməz arxa qapıdan otağıma keçib, başımı yastığa qoydum. Sabah qonşu xoruzunun banlaması məni oyatdı. Qalxıb güzgüyə baxdım. Özümə dönüşü salamladım! Gülnaz xanım məni bağrına basaraq:

- Maşallah bəy, bax oğlumuz nə gözəl olmuş!
- Bizim oğlumuz hər zaman gözəldir. İş icabı olaraq bəzən belə də olar, elə də olar!

Maşallahxan yeni aldığı geyim takımını və boyun qalstukunu sevə-sevə mənə bağışladı. Onunla eyni ölçüdə olduğuma görə, geyimlər tam üstümə oturdu.

Ayrılan vaxtda müdürün qapısını döydüm:

- Buyurun!
- Salam. Gün aydın.
- Gün aydın da! Amma sizi tanıya bilmədim. Siz?
- Mən Cəvanşir!
- Bəh, bəh, bəh, bəh! Buna deyərlər centlmən! İndi mən deyən oldun ba!
- Sağolun müdür bəy!

Teatr deyilən bu salonda axşamlar daha çox anlamsız komedilər verilirdi. Kütləni boş-boş, mənasiz şeylərə güldürüb, yuxulatma kimi tamaşalar, günün siyasətinə uyğun planlardan biri sayılırdı. İşlədiyim teatrın sahibi üçün qazanc və rüşvət qarşısında alınan ödül lövhələri başlıca amac idi. Teatrın baxımsız, çirkin, çəkilməz olduğu kimsənin vecinə belə deyildi. Hər gecə təkrar görüntü, tamaşa və seyricilərlə üzləşirdik. Bunlara rəğmən, bu teatr mənim üçün yeni bir aşama oldu. Ən önəmlisi bir saygın müdür yardımçısı olmuşdum. İşimi çox düzənli irəli sürürdüm. Teatrın reklam və anons sistemini dəyişmişdim. Teatrın tənirkədən olan reklam tablosunun çiraqlı neona çevirmə fikrini müdürə vermişdim. Təbrizdə öyrəndiyim anons traktları çap etdirmişdim. Əl boyda traktların yayılması üçün, yollarda diləncilik edən azyaşlı uşaqları bu işə cəlb etməyi müdürlüyə önərmişdim. Beləliklə, Topxanadan Kərimxana uzanan

dördyollarda teatrın təbliğatı yayılırdı. Sözsüz ki, bu yeniliklərlə teatrın salonu hər axşam aşıb-daşırdı. Teatr adına uyan insanların sayı çoxalır, teatr sahibi isə gündən-günə varlanırdı. Bu arada da mənim üçün sadəcə yerimin möhkəmliyi önəm daşıyırdı. Çünki, gecə geç saatlara qədər teatrda olmam gərək idi. Satılan biletlərin düzlüyünü kontrol etməli olurdum. Hətta çox zamanlar gecələr orda yatırdım. Beləliklə, Olqanın üzərimdə olan basqısını unutmağa çalışırdım. Bu isə, mənim yenidən yaşama dönməyimə yol açırdı. Ərdəbilli müdür mənim çalışmalarımı gözdən qaçırmır, hər iki-üç aydan bir əmək haqqımı artırırdı. Bəzən mənim alışqan olduğum Təbrizin teatr forması işimə yarayırdı. Günlərin bir günü müdürə verdiyim bir düşüncəm:

- Ağa Səlim, bir önərim var!
- Buyur, Cəvanşır.
- Deyirəm ki, bu yay teatr salonu təmir olunsun!
- Nə deyirsən, nə deyirsən! Ağızından çıxanı qulağın duyurmu ağa!? İkimizin də işdən atılmasını istəyirsən? Sənə nə bu işlərdən! Görünüşlü, aydın düşüncəli gəncsən, ancaq təcrübəsiz və sadəsən! Oğlum! Bu adamlar sənə-mənə rəhm etməzlər. Biraz biz türkləri zəki görsələr, anında savaka xərclərlər. Başın bədəninə ağırlıq etməsin! Otur-oturduğun yerdə! Bax! Bu salon üç-beş ay bağlanarsa, hamıdan öncə səninlə mən işdən alınarıq. Çünki o zaman müdürə ehtiyac qalmaz. İşçiyə ehtiyac olar. Biz fəhlə başında dura bilmərik. Biz, o işdən baş çıxarmarıq. Salon yeniləşəndən sonra isə, elitasiyon olar. Dərbara yaxın olan teatroçular, yaltaqlar,

bizdən öncə buranın idarəsini ələ alarlar. Əmr üstən gələr! İndi anladınmı?

- Bağışla ağa Səlim! Mən, bunları heç düşünməmişdim! Sizin sözlərinizi bundan sonra qulağıma sırğa edərəm! Mən sadəcə, Təbriz teatrının təcrübəsini buraya gətirmək istəyirdim.
- Yox, istəmə! Ümid edirəm, bu arzularına Təbrizdə, Ərdəbildə çatarsan! Mən, Tehrandan çox illər öncə Təbrizdə olmuşam. Bəlkə, sənin yadına gəlməz, Xeyriyə Teatrosu, Aramiyan salonu, Ərk Salonu! Ax, nə ünlü salon idi. Üç il bundan öncə Təbrizə getmişdim. Ərk salonuna dəvət olunduq! Salona girər-girməz məni ağlamaq tutdu! Özümü saxlaya bilmədim. Yanımda olan təbrizli dostum işarə ilə məmurları göstərərək qulağıma pıçıldadı:
- *“Yoldaş Səlim özünə gəl! İndi anıları ayıltmaq zamanı deyil. Cəlladın əli baltadadır! Hər an boynunu qıra bilər! Burada tək sənin deyil, bir çoxlarımızın anısı gömüb! Qoy gömsün hələlik! Yoxsa anıların deyil, özünü xatirə daşı edərlər bu şərəfsizlər! Bunlar 30 min əliyalın körpə-qarıya qıymadılar! Sənə-mənə qıyacaqlarını düşünürsənmi!”*
- Demək ki, sənin də Təbrizdən xatirələrin varmış, ağa Səlim!
- Yox! Məni görməmiş san! 56 yaşım var! Biri evli, biri nişanlı, biri də yeniyetmə çağında üç qızım, bir də oğlum var! Ailəmin bircə gəlir qaynağı bu işdir. Başımı quzu balası kimi yerə salıb işimlə uğraşıram! Ömrümdə, Təbrizə getmədim, görmədim, yaşamadım!

Ağa Səlim bu sözləri deyərkən, üzü ahar kimi ağarmışdı! Mən görməyim deyə, üzünü məndən gizlətməyə çalışırdı! Biraz səssizlikdən sonra, otaqdan çıxmaq üçün izn istədim. Əlilə mənə otur işarəti edərək, otaqdan çıxdı! Biraz sonra iki çayla otağa girdi! Ağa Səlimdən görmədiyim bir incəlik görürdüm! Həm utanır, həm isə çaşmışdım. O, çayı qarşıma qoyub öz yerinə yerləşdi:

- (Gülər üzrə): Hə harda qalmışdıq! Dedim ki, sabahdan sonra məhərrəmlikdir. Teatr tətildir. Mən "Daş Mehdiyə" (baş qorucu) tapşırmışam! Sabahdan sonra üç gün yoxuq. Ailəlikcə "Sava"da yerləşən Təbrizli bir dostun nar bağına dəvətliyik. Sən də bizimlə gəlirsən. Etiraz istəmərəm! Dayan! Öncə ailəmlə tanış olmağını istərdim! (İş masasının yuxarı çəkməcəsini açaraq qara rəngli bir telefonu üstə qoyur. Nömrəni yığandan sonra danışmağa başlayır: *Salam neyləyirsiniz? Zərifə bax! Bu gecə bir təbrizli qonağımız var. Ətin suyunu artır. Yer hazırla!)*

Bu ağa Səlimə nə olduğunu bilmədim! Məndən fikir istəmədən hökm kəsmişdi. Qarşılığım onun istəyi kimi oldu:

- Ağa Səlim, sağolun, hacı xanıma zəhmət olacaq!
- Hacı xanım deyil, Zərifə xanımdı! Sənin gəlişin bizə xoşdur! İndi dön işinə!

Bizdən biraz Topxanaya doğru böyük bir çiçəkçi var idi. Oraya gedib:

- Salam! Bir gözəl buket istəyirdim!

- Çiçəkci üzümə-başıma baxaraq: Necə bir buket olsun. Elçilik üçünmü?
- Yox, yox! Daha gözəl olsun!

Çiçəkçi: (Gülə-gülə) Anladım, anladım!

Çiçək buketini alıb otağıma dönərkən "Daş Mehdi" qarşıma çıxır:

- Salam müdür bəy. İnşallah elçilikmi? Bizi unutma ha! Xoşbəxt olasınız! Sən yaxşı insansan! (Əllərini göyə qaldırıb "Amin!" deyib gülümsəyir!)
- Salamüləleyküm Daş Mehdi bəy! Hanı bizdə o şans! Olarsa, xəbərin olar dostum!
- Xəbərim oldu belə, dostum! Mən, insanın gözünün nəşəsindən anlaram! Biz, daş cəmiyətiyik, arifik! İşarətdən qanarıq! Mərd oğulun dili deyil, gözləri danışar! Sən, Daş Mehdiyə söz demə, gözünə bax yetər! Ulu tanrıdan türk oğlumuza rüxsət çıxmış! Daş Mehdi, havasına dadaş olmamış! Oğlum, igidin dilinin nə deməsi deyil, sevdalı gözləri Daş Mehdiyə danışar! Bacımız da özün kimi türkdür, İnşallah! Olmazsa olmaz ha gözəl dadaş!

Özümlə yaşıd Mehdi, yenə əllərini göyə qaldırır üzünə çəkərək "Amin" deyib, əlindəki 36 aşıqlı təsbeyini fırladaraq gülə-gülə əlini çiynimə vuraraq uzaqlaşır!

Axşam radələrində ağa Səlimin açıq qırmızı Ford markalı maşınıyla evlərinə sarı yola düşdük. O, əlimdə buketi görüncə, təşəkkür edərək incə davranışımdan məmnun olduğunu bildirdi.

Bir çox yol kəsməsindən sonra tanımadığım gen küçənin içinə yetişərək böyük bir qapının yanında dayandı.

Öz açarıyla qapını açıb, "Ya allah" səslədi. Güllü-çiçəkli baxçanın qarşısından orta yaşlı qırmızı köynəkli, yarım çadıralı bir xanım bizi qarşıladı. O, gərçəkdən də incə və zərif xanım idi. Buketi "Zərifə" xanıma verdim. İncə davranışıma görə, təşəkkür edərək qucağına aldı!

İlk kəz luks bir mobilyanın üstündə oturduğum üçün yerimdə oynaxlayırdım. İlk öncə ağa Səlimin 15-16 yaşlı oğlu ilə tanış oldum. O, Mənsur adlı utancaq, ucaboy biri idi. Birazdan 26-27 yaşlı Çiçək adlı evin ikici qızı ilə, ardıca Çıçəkdən biraz kiçik görünən Çinarla tanış oldum! Zərifə xanımın anlatdığına görə, evin böyük uşağı Çilək iki uşağı və ərilə birlikdə İsfəhanda yaşayırlar. O, çox fəxrlə qızının ərinin yaxın gələcəkdə uçaq kapitanı olacağını deyirdi. Sözsüz ki, hər ana kimi Zərifə xanım da belə gürəkənlə fəxr etməli idi.

Ağa Səlimin çox açıq, aydın və elit ailəsi var idi. Bu günə kimi gördüyüm ən sosial ailə ilə tanış olurdum. Ailənin hamısı oxumuş, düşüncəli, toplumçu insanlar idi. Çilək Tehran universitetinin su məhəndisliyini bitirmişdir. Çiçək yenicə orta məktəbə dekan seçilmişdi. Zərifə xanımın dediyinə görə, Çiçək Tehranın ən gənc qız dekanı sayılırdı. Çinarsa Tehranın Amerika Kalejinin İngilizcəsini bitirmək üzrəydi. Bir azərbaycanlı türk ailəsinin bu yüksəklikdə yaşam səviyyəsini görür, qurur duyurdum. Ağa Səlimə belə bir insan olduğuna görə simpatiya duyurdum. O da bizim insanlardan biri idi. İlk

tanışlıqdan bəri, ağa Səlimin belə böyük insan olduğunu bilmirdim. O, evində bir Azərbaycan yaratmışdı. Ev başdan-başa Azərbaycanın ünlülərinin resimləri ilə bəzənmişdi. Mən onların bir çoxunu tanımırdım. Ancaq, azərbaycanlı olduqlarından əmin idim. Dili, kültürü, havası türk olan bir ailənin, sözsüz ki, tabloları da türk olacaqdır. Bu üzdən "Kamil Səlim Ərdəbili" ömür boyu mənim üçün bir çətin örnək olaraq ürəyimdə yer saldı!

Tehrandan Savaya ağa Səlimin maşınıyla gedəcəyimdən sıxılırdım. Onların özləri beş nəfər idi. Mən isə, artıq adam idim! Bu üzdən Savadan söz gedincə, utana-utana getmək istəmədiyimi dedim:

- Ağa Səlim: Tamam! Burada şam başında, getməməyinə görə bir olumlu nədənin olarsa, sözünü qəbul edərik. Yox olmazsa, bizimlə gəlməlisən!
- Mən, sizə yük olmaq istəməzdim, ağa Səlim!
- Ağa Səlim: Uşaqlardan soruşaq, siz necə düşünürsünüz Zərifə xanım?
- Ağa Kərəmi bizim öz ailəmiz kimidir. Ailəsi də, evi də bizə doğmadır. Uşaqları bizi bibi, dayı səslərlər. Mənim də uşaqlarım eynən!
- Çiçək: Mənə görə də, bir işiniz yoxdursa, bizimlə gəlin. Gözəl günlər olar. Bizə də, sənə də yenilikdir.
- Çinar: Nədən sıxılırsınız? Atanın maşınında altı nəfər rahatca yerləşər. (gülə-gülə) Çox rahatda olmasa sıxışıb oturarıq! Cəmi iki-üç saatlıq yoldur! Kişilər qabaqda oturar, qadınlar arxada!

- Mənsur: Yaxşı, biz qabaqda, siz isə arxada, qızlar!
- Ağa Səlim: Cəvanşir bəyin daha nə bəhanəsi var? Ağaye Cəvanşir?

  Mən dedim ha 15 ilimi Təbrizdə keçirmişəm Cəvanşir! Unutmadın ki? Təbriz mənim üçün vətəndən ötə bir vətəndir. Təbrizdə insanlar gördüm, insanlıq misalı! (gülə-gülə) Öncə Təbriz baş tacım Zərifə xanımın doğulduğu vətəndir! Amma daha önəmlisi vətən olduğundan ötrü yox, bölgənin ən iri, qabaqcıl, çağdaş şəhəri olduğu üçün böyük anlam daşıyır! Təbriz teatrından danışırdıq. Mən, bu teatrın araşdırıcılarından biriyəm. Təbriz teatrı ilə Tehran teatrını qarşı-qarşıya qoymaq olmaz! Nasirəldin Şah zamanından Təbrizdə teatr olubdur. Təbriz üç - Folklur, Mərsiyə və Modern teatrı bir yerdə yaşadıbdır. Avropanın modern, şiənin dramatik, folklurun gah komedi, gah da tragik tipləri bu şəhərin yaşadığı zəngin teatr irsidir. Mən Təbrizdə olduğum sürədə 50-dən çox səhnə görmüşəm. Azərbaycanın o tayından tutmuş Mülyer, Şekspir kimi onlarca dünya ünlüsünün əsərləri türkcə səhnə alıbdır, Təbrizdə! Təbriz teatrının çəkisini yaxın bölgədə İstanbul teatrilə, Tiflislə, Bakıyla ölçmək doğru olar! Təki, 1940-45 illərdə Təbrizin onlarca teatr qrupu olmuşdu. Yönətməni dostum Səməd Dadaş olan “Təbriz Teatrı”nın ən azı 50 kadrı var idi.
- Zərifə xanım: Mən ilk teatrı Təbrizin Aramiyan Salonunda görmüşəm. O zaman hardasa 10 yaşım olardı. Ondan sonra Təbrizdə yay oyunları olurdu. Mənim atam hər fürsətdə bizi teatra götürərdi. O zaman Xeyriyyə adlı bir teatr yaranmışdı. Amma ən böyük teatr salonu Ərk Teatr salonu idi. Mən o

salonda Məşdibad tamaşasını görmuşəm! Eşitdiyimə görə, indi bütün salonların qapısını çəkib bağlayıblar!

- Ağa Səlim: Zərifə xanımın dediyi kimi, Ərk salonu olduqca gözəl, böyük və modern salondur. Heyf ki, Teatr salonları gerizəkalı faşistlər tərəfindən bağlı qalıb. Ancaq darıxmayın, günəş hər zaman bulud arxasında qalmaz!

☆ ☆ ☆

**Azərbaycanın Sava narı!**

Sava Təbrizdə narı ilə tanınır. Sava yəni Azərbaycanın qıp-qırmızı, şip-şirin, iri dənəli nar torpağı! Az tapılar, öz tapılar Sava narı! Hər meyvədən tez qapılar Sava narı!

Ən sonunda dilədiyim üç günlük dadlı günlərimə qovuşdum. Ev yiyəsi bizi elə qarşıladı ki, bir an öz ailəmin yanında olduğumu hiss etdim. Elə düşündüm ki, onlar məni ağa Səlimin oğlu sanırlar. Ancaq, elə deyildi. Onlar mənim bir uzaq soydaş olduğumu bilirdilər. Nar bağında bizdən başqa bir neçə qonaq ailə də var idi. Hardasa 10 dan artıq qız-oğlan bir-birinə qarışaraq gözəl görüntü yaradırdı. Mən səfər boyu ancaq Olqanın burada olmasını diləyirdim. Bəlkə də bu Sava olayı öncələr üz verseydi, Olqa məni buraxıb getməzdi. Çevrəmdə istənilən sayda yetişgin, sevimli, bənd olası qızlar varkən imkansız eşqə tutulmanın nə anlamı ola bilər ki! Belə düşüncə içində bir-bir narları əlləyib tapışırıq aldığım formada seçib

dərir və səbədə qoyurdum. Məndən biraz aralı qızlar da mən görən işi görürdülər. Ancaq, onların nəşəsi hara, mənim həsrətim hara! Bir yandan qəriblik duyğusu, bir yandan Olqa tutqusu, başqa yandan isə gənclərdən ən azından 10 yaş yaşlı, yaşlılardansa azından 20-25 yaş gənc olduğuma görə tam ortada qalmışdım!

Savadan dönər-dönməz Sovet səfirliyinin yolunu tutdum. Qapını döyüb məmur Çirnikovla görüşmək istədim. Adımı verib gözlədim. Yarım saat sonra qapı açıldı. Bir əskər gəlib üzərimi axtarandan sonra məni həyətə aldı. Beş-on dəqiqə sonra məmur Ladran Jernikov qarşıma tikildi:

- Cəvanşir, 6 ay öncə gəldin, əli boş döndün! Bu kəz sənə bir məktub, bir də yuxarıdan gələn əmr varımdı. Olqa sənə məktub yazmışdı. Biz o məktubu sənə vermədən öncə oxuyub incələdik! Sənə məktubu verəcəyəm! Ancaq, onu burada oxuyub mənə qaytarmaq şərtilə! Sən, Olqaya cavab məktubu yazacaqsan. Yenə bizim dediklərimizi yazmalısan! Birinci deyim ki, Olqanın uşağı öz yanında deyil! O, əmin əllərdədi! İkincisi, Olqa etdiyi günahların qarşılığını verir. O, bir dövlət məmuru olaraq səninlə evlənməməli, uşaq doğmamalıydı. Bundan sonra onun taleyi məhkəmə əlindədir. Sən onu unut! Ən yaxşısı, onu rahat burax! Onu sevirsənsə, bizim yazdığımız məktubu öz xəttinə çevir bizə ver! Biz ona çatdırarıq! İndi mənim şərtlərimi qəbul edərsən sə, məktubu oxumağa izin verərəm!

Dinməz-eşitməz duruma düşmüşdüm! Əskərin əlindəki avtomatdan başqa heç bir nəsnə bu qədər əziz görünmürdü. Keşkə bu avtomatın qurşunları ilə içimdə olan nifrət atəşini söndürə bilseydim. Bunlar Olqanın mənə olan sevdasını tərsinə çevirmək istəyirlər. Ancaq, mənim də adım Cəvanşirdi. Mən də, az eniş-yoxuş görmədim bu dünyada! Şərtlərini üzdə də olsa, qəbul edərəm. Alıb oxuyaram məktubu, sonra gözlərinin qarşısında yeyərəm! Yazını onların əlinə verməm! Ax mənim yazıq sevgilim! Yazıq Olqam! İndi bu cəlladların əlindən nə çəkirsən?

Özümü toparlayıb dedim:

- Öncə məktubu oxuyum. İstədiyinizi yaparam!
- Yaparsan? Sözmü?
- Söz!

Məktubu cibindən çıxarır mənə sarı tutur. Məktub əlindən almaq istəyirəm. Əlini uzaqladır məndən:

- Anlaşdıq! Öncə yazını oxumaq gərəkməz! Gəl bu məktubu öz yazınla kopula, sonra Olqanın yazısını oxumaq üçün vaxtın olacaq! (çibindən bir farsca hazır yazı, bir də ağ bir kağız və qələm çıxarır zorla əlimə buraxır!)
- Yox! Mən oxumadan yazmaram! Öncə oxumalıyam. Sonra yazaram!
- Onsuz da indiyənədək sənin adınla Olqaya yazılar göndərilibdir. Boşuna çalışma! İstəsən də, istəməsən də bu yazı da gedəcəkdir. Sonunda o bu yazılara inanacaqdır.

Boşuna onu incitmə! Onu sevisənsə, yazını yaz! Həm də onun yazısını oxu!

- Yox! Mən yazmayacağam! Yazmayacağam! Buradan ölümüm belə çıxsa, sevgimə xəyanət etməyəcəyəm! Mən türk ilə sən rusun fərqi burdadır!

Artıq Olqanın bir il öncə buraxdığı oxunmamış məktubun oxuma zamanı çatmışdı! Teatr bufetindən bir kek və çay alıb otağıma döndüm! Əlimi ürəyimin başına qoydum. Bir il öncədən bükülü qalmış yaylığın içindən yazını alıb oxumağa başladım. Yazı türkcə yazılmışdı: Yazı Olqanın yazısı idi. O, öyrəndiyi əski əlifbayla yazmışdı:

- ***Cəvanşir artıq mən bu cəhənnəmdən qurtuldum! Səninlə vidalaşıram! Səninlə acı-dadlı çox günlər yaşadıq. Amma göründüyü kimi səninlə mən başqa-başqa dünyaların adamıyıq. Bizim bundan sonra görüşümüz imkansızdır! Uşağı gözəl böyütməyə çalışacağam. Özünə yaşam qur! Sən layıq insansan! İstədiyin bir qızla evlən və bizi unut! Bir də dəlilik edib Sovet Azərbaycanına girməyə qalxma! Tutular casusluq hökmu yeyərsən. Səni Sibirlərdə çürüdərlər. Ölünü qurd-quşa yem edərlər! Məni və uşağını unud!***

  ***Olqa***

Əlim-ayağım titrəyirdi. Otaqdan çıxıb izn almadan evə sarı yola düşdüm. Gedərkən Daş Mehdi qarşıma çıxdı:

- Canım şahdamad! Bu tələskənlik nə? Çiçəkçiyəmi? Yardımçı istərsən Daş Mehdi nökərin burda!

Nə zaman taksıya minib evə yetişdiyimi biləmədim. Gülnaz xanımla uşaqlar həyətdə dolaşırdılar. Salam belə, vermədən ufacıq otağıma girdim. Olqaya aid olan bütün əşyaları otağın arasına topladım. Olqaya aldığım dörd bucaq əl boyda gözgünü taqçadan alıb nifrətlə yerə çırpdım. Gözgü bir an içində xalçanın üstünə dağıldı. Gözgünün darma-dağın olması ilə arxasında saxlanan bir paket ayaqlarımın önünə düşdü! Titrək əllərimlə paketi qaldırdım. Paketin üstündə yazılmışdı: “Ömürcə, ölüncə sevgilim Cəvanşirə!”

Əl-qolum yanıma düşdü! Otaq başıma dolandı! Önümdə bir bardaq su ilə üzərimə uzanmış bir sevimli əli gördüm:

- Cəvanşir oğlum yenə nə oldu? Gəl bu suyu iç! Əlin qanayır. Gəl bağlayım!

Bir söz demədən özümü Gülnaz bacının qucağına atdım. İndi ağlamaq zamanıdır! Ağla ürəyim ağla!

Həyətin hovzunun qırağında oturmuşdum. Qarşımda bir bardaq çay, bir də açılmamış paket məni izləyirdilər! “Ömürcə, ölüncə sevgilim Cəvanşirə!” Bu yarım cümlə yaşamaq üçün yetməzmidir? Yazının mətnində nə var ki, bu yarımcıq cümlədən daha anlamlı olsun? Bu sözcüklər, məni yenidən çalıquşuna döndərməyə yetərli deyildirmi? Nə olursa-olsun, Olqa sırrının çözülməsi gərəkirdi. Oturub Olqa, Olqa deməklə

imkansız dünya yaratmaq olmaz idi. Yenidən əski günlərə qayıdmağıma izin verəməzdim!

Paketi açıram! Oxuma cəsarətimi toparlayıram. Yazını oxuyuram:

- ***“Sevgili Cəvanşirim! Bu yazını oxuyub-oxumadığını bilməyirəm. Bəlkə tez, bəlkə gec, Bəlkə də heç vaxt! Bu yazını öz iradəmlə yazıram. Bu yazı öz iradəmlə yazılan ilk və son yazım olabilər! Burada nələr yazıramsa səninlə mənə özəldir. Ürəyimin gəlmiş-keçmiş ən sevimli erkəyi Cəvanşir! Mən sabah bəlirsiz bir yola çıxıram! Mən bu yola çıxmalıyam! Çıxmasam əgər, iki dövlət altında özümü də, səni də, balamızı da əzgin duruma soxa bilərəm! Mən, sənin balan üçün canımı verməyə gedirəm! Bir NKVD-yə təslim olmaq, iki SAVAK və NKVD arasında qalmaqdan doğrudur. Elə bir yoldayam ki, səni də, balamı da özümlə yandıra bilərəm. Mən rusların əlindən qurtula bilmərəm! Onları yaxşı bilirəm. Ancaq səni və balamızı qurtara bilərəm. Mən, məhkəmədəki, öz sözlərimdə sənin mənim kim olduğumdan xəbərsiz olduğunu deyəcəyəm! Mənim haqqımda ən kiçik bilginin olmadığını söyləyəcəyəm. Bu səni qurtaracaqdır. Sən də rusların üzərinə çox getmə! Onlar acımasız qatillərdir! Hitlerlə Stalinin adları və milliyyətləri fərqli olsa da, içləri eynidir! İkisi də faşistdir, adam öldürəndir, ikisi də xəstə liderdir!***
  ***Cəvanşir! Bilirəm ki, səni məndən ayıracaqlar! Bilirəm ki, ikimizi də uşağımızın üzünə həsrət qoyacaqlar. Ən azından, mənim uşağımızı görmək şansım var! Sənin o da***

***olmayacaq! Bu çox üzücü, amma bir yandan da yaxşıdır. Çünki, sənin balandan heç təsəvürün olmayacaqdır. Mən isə, balamızın doğum sancısını, ondan olan təkcə xatirəm kimi özümlə torpağa aparacağam!***

***Əzizim, sevgili həyat yoldaşım!***

***Bu sonbahar bizim də son baharımız olacaqdır! Bütün sevgilərimlə, ürək boyda dünyamla səni ulu tanrıma tapışırıram. Sevdiyinə yem olmuş Qurdananın "Yahu"suna, "Qurd"una and verirəm ki, məni nifrətlə anma, nifrətlə qarqışlama, nifrətlə sev məni, nifrətlə seviş mənimlə! Ötəcəksə, iki eşq bülbülündə ötsün ruhumuz! Sən çalıquşunu sevərsən. Məni çaliquşu edib, ağzı bağlı qəfəsdə tut! Mən sürəkli sənə ötəcəyəm! Ancaq unutma ki, yaşam bizsizdə sürəcəkdir. Yaşama bağlan sevgilim. Özünü ələ vermə, özgür yaşa! Özgürlüyün necəliyini özün seç!***

***Sevgili yaşam yoldaşım! Bizi sındırmaq üçün məndən sənə, səndən isə mənə yazılar gələcək! Mən bu sistemi bildiyim üçün onlara əsla inanmaram. Basqı altında yazılarıma inanma! Bizim aramızda təkcə bir məktub yazılıb, sadəcə bu məktub!***

***Sevgilim mənim! Ümid edirəm, çox gec olmadan aldığın eşq gözgüsünü nifrətlə qırıb saxlı sözlərimi bu məktubun sətirlərindən oxumuş olasan! Əgər bu şansı əldə etsən, çox xoşbəxt olaram! Təbi ki, rus cəlladlarının əlində ölməsəm! Ruslarda belə bir misal var: "Клин клином вышибают. – Çivi çiviyi söker!"Onlar, yüz minlərcə mənim kimiləri, ufacıq çivi yapaılar! Yeri gəlincə isə, dev çivilərlə söküb tullarlar!***

***Səni bir daha ruhuma and verirəm ki, məni ölmüş bil! Yaşamağa yox demə! Yeni bir sevgi bul! Yox! Məni də, yaşamından çıxarmaq istəmirsən sə, bir cift çalıquşunu bir qəfəsdə tut! Eyni mənim tutduğum kimi!***

***"Ömürcə, ölüncə sevgilim Cəvanşirin Olqası!"***

**1955-10-25**

☆ ☆ ☆

## 1965 "Bədiabad zəncirinin son həlqəsi"

Heç bir şey 10 il öncəki kimi deyildi. Maşallahxan bəlli olmayan bir cinayət üzündən öldürülmüşdü! O, bir gün dükanına girərkən, iki kişinin çox saylı biçaq zərbəsindən yerində can vermişdi. Olayı anladan Barış polisə belə ifadə vermişdi:

- *Atamla saat 10 radələrində dükana yetişdik. Hər gün olduğu kimi, atam dükanı açarkən, mən də Məşdi Qəhvəçidən iki çay gətirmək üçün döngəyə getdim. Birazdan çaylar əlimdə əmlakçı dükanımıza girdim! Hər yer qan idi! Əlimdəki çay bardaqlarını tullayaraq atamın yerdə olan qanlı bədəninə yaxınlaşdım! "Öldürdülər! Öldürdülər!" – deyə bağıraraq qəhvəçiyə qaçdım! Arxadan bir motorsikletlə iki kişinin uzaqlaşmasını gördüm. Qəhvədə çay içən bir kişi maşınıyla motorçuların arxasına düşdü! Nə təqibçidən, nə də qatillərdən heç xəbər olmadı!*

- *"Mən bu dükanda qazanmışam! Bu dükan çox uğurludur! Bu dükanda mənə bir şey olmaz! Buradan çıxarsam, çarpılaram! Bu dükan mənim nəzərdaşımdır!"*-

eyənMaşallahxan əminin də yaşam dəftəri beləcə bitmiş oldu! Onun məzar daşı üstündə çox sevdiyi Cabbar əminin ona dediyi bu bayatını yazdırdım:

- ***"Bu dünya gələr keçər,***
  ***ömürü ələr keçər,***
  ***Maşallah bir güldü ki,***
  ***Bir kərə gülər keçər!"***

Sayğısıyla, sevgisilə, gülər üzü, pambuq ürəyilə bu Lək insanı, məni buraxan ən son Bədiabadçı oldu! Polisin araşdırmaları sonucsuz buraxıldı! Bərəkətağanın canı sağolsun! Ömrünün son cəlladlığını yapan Bərəkətağa, bəlkə də indi məzarında rahatca yatmışdır!

Maşallahxan əmidən qalan pullar, illər boyu Gülnaz xanıma və səkkiz balasına yetərli sayılsa da, mənimlə İlyasın məsləhəti ilə banka yatırılmışdı. Bankdan gələn bəhrə hesabına Barışla Gülyaz yüksək lisansla üniversiteti bitirmişdilər. Başqa uşaqlarsa çeşidli aşamalarda oxumaqla məşğul idilər. Gülnaz xanım axşamlar yaşlılar məktəbini bitirib, savadlı xanım olmuşdu! Böyük ölçüdə Maşallahxan ailəsinin yaşamı dəyişmişdir. İlyas, ailədən biri olmuşdu. Rəhmətlik Maşallahxan sağ ikən, İlyasla Gülyaz arasında gizli sevgi yaşanırmış! Sonralar onlar öz sevgilərini üzə çıxardılar. Bu sevgi mənim önərim, Gülnaz bacının da onayı ilə evliliyə dönüşdü. Çox keçmədən İlyasla Gülyazın bir oğulları oldu.

İlyas, çalışqan bir türk kimi eyitimlə çalışmağı birləşdirərək ekonomi təməlini möhkəm basdırmışdır. O, bütün bu işlərə rəğmən, Maşallahxan əminin işini daha yüksək formada sürdürürdü. İlyasın ortaqlığıyla Gülnaz bacı dükanı sataraq, "Xaniabad Nov"da bir alış-veriş və tikinti şirkəti qurmuşdular. İlyas, evin ən sevilən üzvü olmuşdu. Gülnaz xanım onu öz uşaqlarından ayırmayırdı. Barış, baş mühəndis olaraq Tehranın Elektirik və Su idarəsində işə alınmışdı. O, isfəhanlı bir qız əməkdaşıyla evlənməyə qərar vermişdi.

## **Qoşa ötən çalıquşlarım!**

Yer kürəsi günəşin çevrəsinə, mən isə öz başıma fırlanırdım! Sanki Bədiabadın son közü olaraq mənim də kül olmağım gərək imiş! Nə etsəm də, normal bir yaşamı yaxalaya bilmirdim. Sanki başımın üstündə sürəkli cadu büyüsü dolaşırdı! Olqanın dilədiyi çalıquşları dinib ötmədən, çalıb-oynamadan ardı-ardına düşüb ölürdülər. Çalıquşu almaqdan yorulmuşdum. Hər çalıquşunun ölümüylə mən də ölüb-dirilirdim. Otağımın arxa kərdisində çalıquşu məzarlıqı salmışdım. Hər gün teatrdan evə gəlincə məzarlığa baş çəkmədən otağa girmirdim. Artıq, bir neçə aydan bəri quş qəfəsi boş idi. Açığı, quş almaqdan qorxurdum. Bir neçə dəfə quşçu dükanına girib almadan çıxmışdım. Ancaq, bir gün evə girərkən quşların ötməsi ağlımı çaldı! Budaqlara baxdım! İki sərçə dimdik-dimdikə verib ötürdülər! Sərçələr məni duyunca uçub getdilər. Mən isə, evə girmədən təkrar geri döndüm:

- Cəvanşir! Oğlum hara?
- Gülnaz bacı, bir azdan dönəcəyəm!
- Gəl yeməyini ye bizimlə!
- Sağol, bacı! Olması gərəkən işim var. Quşçu birazdan bağlanar!
- Yenə quş? Bəs hanı almayacağıdın?
- Bacı, söz verirəm! Bu son olacaq!
- Tanrı özü yar olsun, bala!
- Ya haqq, bacı! Görüşərik!

Demək ki, doğa kimi öyrətmən yoxmuş bu evrəndə! O axşam iki çalıquşu ilə evə döndüm. Biri qırmızı, biri isə sarı çələngli! Bundan öncə aldığım quşların hamısı tək dişi idi. Bu dəfə isə, bir cift dişi-erkək aldım! O gecə çalıquşular durmadan çalıb, ötdülər! Son yeddi-səkkiz ildə belə sevincli yuxusuzluq keçirməmişdim. Hər gün quşlar ötərkən, sanki ruhum cilalanırdı. Bu üzdən quşların yerini böyütməyi düşünərək, otağın bir devarını bir metr boyunca quş otağı etdim. Quşlar üçün gərəkən doğal əşya aldım. Çalı ağacının haralarda olmasını öyrənib, alıb quş otağına gətirdim. Bir il keçmədən dişi quş yumurtlamaya başladı. 4-5 həftə sonra çalıquşuların balaları dünyaya gəldi. Onların “böyük ailə” olması mənim üçün dünyanın ən dadlı röyalarından biri idi. Artıq mən deyil, Gülnaz xanımın özü və uşaqları da mənim sevincimə ortaqlıq edirdilər. Tam bir quşbaz ustası olmuşdum. İlyas, qırmızı pipikli atanın adını Cəvanşir, sarı pipikli ananın adını isə Olqa qoymuşdur. Tanrıdan gizli deyildi, bu, mənim də xoşuma gedirdi!

Bir axşam ağa Səlimin ailəsi Gülnaz xanımın qonağı olmuşdu. Həmin günlərdə ağa Səlimin ikinci qızı Çiçək isə, uğursuz bir evlilikdən sonra atası evinə dönmüşdü. O axşam, uzun zamandan sonra Çiçək xanım da ata-anasıyla birlikdə Gülnaz xanımın qonağı oldu. Çiçək xanım boy-buxunlu, ərdəmli, çox sevimli və incə bir xanım idi. O, hər görüşdə öz ərdəmilə məni valeh edirdi! O axşam, Çiçək bam-başqa görünürdü! Sadə, vüqarlı, gözəl, tam bir məlayikə! Onun baxışları mənə yeni bir yolun açılış izlərini buraxırdı. Olqanın baxışlarına, duruşuna, gülüşünə, süzgün tərləməsinə çox oxşayırdı Çiçək xanımın davranışları! O, hər kəsdən öncə quşları görmək üçün ata-anasından izn istədi. Maraqlısı bu ki, onu heç zaman yalnız buraxmayan Çinar, bizimlə birlikdə mənim otağıma gəlmədi! Çiçək quşları görüncə, əlini ağzının önünə qoyaraq dedi:

- Burası bir cənnətdir, Cəvanşir bəy! Nə gözəl bir dünya! Siz buranı düzəltmişsiniz?
- Yox! Bunlar özləri bu dünyanı yaradıblar. Bax, bu əl boyda evləri özləri tikiblər! Bu onların dünyası!
- Nə gözəl ötürlər! Bu qədər səs səni yormazmı?
- Yox! Mən bu səslərlə yaşayıram! Mənim yaşamım bunlardır! İstədiyini ala bilərsən, Çiçək xanım.
- Bunların yaşantısı burdadır! Bəs günəş, hava, yeyib, içmək, təmizlik?
- Dedim ki, işdən sonra zamanım bunlarla keçər. Səhərlər Gülnaz xanım otağı havalandırıb işıqlandırar. Qalan işləri isə özüm edərəm.

Bunlar mənim eşqimdir. Sevgimi yalnızca bunlarla paylaşa bilirəm. Bunlar olmasa...!

- Bunlar da olsun, sevgilin də olsun! Olmazmı? Yoxsa, ömrünün sonunadək quşlarla yalnız qalacaqsan? Mən də, bu quşları sevdim, hətta onlara aşiq belə, oldum! Lakin, mən bir insanam quş deyiləm ki! Quş gözəldir, amma öz yerində! Cəvanşir bəy, heç sevgilin oldumu? Heç eşq yaşadınmı? Mən, sevgi yönünü öyrənmədən evlilik yoluna düşdüm! Evləndim ki, sevəm! Sevə bilmədim, sevilmədim, acı çəkərək ayrıldım. Çünki, nar bağında ardı-ardına nar açmama baxmayaraq, bir kərə də olsun, könlümü aça bilmədim! Nə olursa olsun, mən bir qız idim! Geri qalmış bu toplumda qızın sevgisi, hicab qaranlığında saxlıdır! Hətta mənim kimi bir aydın və hicabsız ailə qızının belə, taleyi toplumdan ayrı deyil!

Çiçək xanımın cəsarətindən, otaq bir ocağa dönüb məni təpədən-dırnağa qədər yandırırdı. Qısası, yanğın içinde alov-alov yanırdım! Nar bağında xoşbəxt görünən o insan, olmaya mənim kimi bir qarabaxt birisidir?! Bu könül çalan kim ola bilərdi. Qız bunları niyə mənə deyir? Beynimdə min sual doğdu. Amma nə soruşa bilirdim, nə də soruşmağa gücüm vardı! Olqayla qaldığım ilk gecənin qorxusunu xatırladım! 20 il öncə 20 yaş gənc, ilk sevdalanma! 20 il sonra, 20 il yaşlı! Həmin qorxu, həmin həyəcan! Hər ikimiz başımızı quş otağının bir küncünə dikmişdik. Danışmaq sırası məndəydi. Çiçək dumanlı gözünü mənə sarı çevirdi:

- Ağa Cəvanşir?...

Sözü ağzından çıxmamışdı ki, ayaq səsləri hər ikimizin diqqətini qapıya çəkdi!

- Buyurun içəri! Lütfən buyurun!
- Ağa Səlim: Yersiz gəlməmişik ki?
- Lütfən buyurun! Mənim quş yuvama xoş gəlibsiniz!
- Ağa Səlimin ardından Zərifə xanım, Çinar xanım da içəriyə girdilər. Gülnaz bacı qonaqlara yer olsun deyə, qapının ağzında dayandı.
- Zərifə xanım: De da, niyə Çiçək qaça-qaça buraya gəldi. Bax! Nə gözəl quşlardı bunlar!
- Bunların adları nədir, ağa Cəvanşir?
- Bunlar Çalıquşudur. Azərbaycanda bunlara çitiquşu, çatıquşu da deyilər. Çox sevimli quşlardı.
- Bəs niyə ayrı quşun yoxdur? Bəlli ki, bu quşları çox sevirsən!
- Doğrudur! Bu quşları çox sevirəm. Bunların özəlliyi başqa quşlardan fərqlidir. Bir araya gəlməzlər.
- Ağa Səlim: Bunları saxlayası çox zaman oldu, eləmi?
- Hə yeddi ildən çoxdu! Əslində, bunlardan öncə tək quş alırdım. Hərəsi beş-altı aydan sonra ölürdülər. Sonra bir erkək-maya aldım, qaldılar. Qalanlar hamısı onların balasıdır. Bax, onlar küncdə!
- Çiçək xanım: Bunların hamısını ağa Cəvanşirdən öyrəndim. Öyrənmədiyim bəzi bilgilər də sonraya qalsın! Olarmı, ağa Cəvanşir?
- Təbi, təbi! Nədən olmasın, sevə-sevə!

Bir teatr seminarına görə, ağa Səlimlə birlikdə Qəzvinə getmək gərək idi. Çiçək xanım iki gün bizdən öncə Qəzvin üniversitetinin ustadlığı üçün o şəhərdəydi. O, bizim oraya getdiyimizi öyrənincə, bizi gözləmişdi. Mənim bu işdən xəbərim yox idi. Ancaq, Qəzvinə çatınca ağa Səlim Çiçəyin də hoteldə olduğunu söylədi! Əslində, Çiçək adı canıma qurd salırdı! İçimdə çox qəribə duyğular oyanırdı! Bu üzdən Çiçək xanıma vurulduğumu hiss edirdim! Hələ quş otağı olayından sonra onun da mənə qarşı boş olmadığını anlayınca, bu duyğu daha da artdı. Mənim durumumdan bu ailədən olan kimsənin bilgisi yox idi. Onlar mənim subay oğlan olduğumu düşünürdülər. Onlar məni, hələ gənc sayılan bir yetişkin, ədəb-ərdəm bilən, işi, pulu olan birisi görmək istəyirdilər!

Qəzvin Seminarından sonra axşam yeməyi üçün hotelin restoranına getməli idik. Çiçək xanım restorana getmək istəmirdi. O, hoteldə bizi gözləyəcəkdi. Ağa Səlim mənim meylsizliyimi görüncə dedi:

- Görünür, biz qocaların yanında olmaqdan sıxılırsan. İstərsən axşam yeməyini Çiçəklə birlikdə yeyin, gəzin, dolanın. Gecə hoteldə görüşək!
- Olur! Çiçək xanım da sıxılmaz.

Quş otağı olayından sonra ilk kəz Çiçək xanımı görürdüm. Otağının nömrəsini atasından öyrənmişdim. Ancaq nəzakət olaraq, hotelin danışmanlığından onun otağına telefon etməyi rica etdim:

- Çiçək xanım salam, mənəm Cəvanşir. Atanızın istəyilə sizi almağa gəlmişəm. Nə zaman hazır olsanız, aşağıda resepsiondayam.
- Tamam birazdan enərəm. İstərsiniz, yuxariya çıxa bilərsiniz!
- Yox! Burada gözləyirəm. Gedək şam yeməyə!
- Tez enirəm!

Çiçək xanım, göy ətəyi, ağ buluzu ilə mənə sarı gəlirdi. Ürəyimin çırpıntısı, hər irəli addımıyla çoxalırdı. Bu durumdan qurtulmaq üçün, ona sarı yürüməyə başladım. Gözləri ildırım sayağı gözlərimi dəlib, sanki ürəyimi param-parça edirdi! Gözlərindən sevgi təmənnisi ələnirdi. Sava nar bağının gizli təmənnisi hayqırmaq üçün ən ufaq fürsət axtarırdı:

- Salam Çiçək xanım, xoş gördük. Burda olduğunu bu gün öyrəndim.
- Salam ağa Cəvanşir, sizi də xoş gördük. Gələcəyini bilirdim. Bu üzdən hazır oturmuşdum.
- Hardan bilirdiniz Çiçək xanım?
- Gözlərindən! Bunu bilməyə nə var ki! Mən bilirdimsə, sənin də bir bəhanə tapıb, gələcəyin bəlli idi! Burada gizliliyə ehtiyac yoxdur.

Ayaq üstü qıssa danışıqdan sonra, hər ikimiz də, əl verməyin unudulmasını xatırladıq. İkimizin də ovucu tərləmişdi. Ovuc təri aramızda dolaşan ilk iliktirik oldu!

Qarşımızda olan dolu boşqablar əl dəymədən dururdular. İkimizdə utancaq yeni-yetmələr kimi sadəcə qarşılıqlı

gülümsürdük. Çiçək xanımı bilmirdim, amma mənim böyük bir sıxıntım var idi. Onun gözlərində, sanki Olqa əyləşmişdi. Olqa, Olqa, Olqa! İndi restoranın qapısı açılacaq, Olqa yanındakı 10 yaşlı bir qızla içəri girəcəkdir!!!

- Ağa Cəvanşir, Cəvanşir demək olar sizə? (Gülə-gülə)
- Sizə Çiçək deyilərsə əlbətdə! (Gülə-gülə)
- Sizə sən demək olar Cəvanşir! (Gülə-gülə)
- Sizə sən demək olarsa, nədən mənə olmasın Çiçək! (Gülə-gülə)

Çiçək tam bir yüksək çəkili aydın insanın örnəyini ortaya qoyurdu. O, yavaş-yavaş ortaya hakim olan həyəcanı sonlandırmağa çalışırdı! Bu üzdən, mənim saxlılarımı yumuşaqcasına üzə çıxarmaq üçün öncə özündən başladı:

- Cəvanşir, bizim yaşımız çağlayan gənc yaşı deyil artıq! İkimiz üçün yaşama anlamı gənclik iztirabı və dəliliyi deyil! Biz sevginin gözəlliyini üzdə deyil, içdə yaşamalıyıq. Düşünürəm ki, ikimiz də bunu başaracayıq. Mən nar bağında sənin üstünə gəldikcə, sən məndən qaçdın! O zaman mənim 25-26 yaşlarım olardı. O, zaman sənin bir sevgilin olduğunu düşündüm. Mən də boş deyildim. Ancaq, bu könül işi! Haralarda döyməsi bəlli olmaz! O zaman mənim ürəyim əsdi! Sən, bu əsintini duymadın. Elə deyilmi?
- Çiçək, sən məni çaşdırırsan! Sən 10 il bundan öncəni, indini və gələcəyi bir yerdə yaşamağı necə başarırsan? Məni bağışla! Sənin mənim kimi yoxsul, kimsəsiz birini sevməyini

necə düşünə bilərdim ki! Mən, sizə o gözlə baxa bilməzdim axı...

- Niyə! Molla idinmi? Üzdə yerə baxıb təsbih çevirə-çevirə, həvəslə döşlərimin, qıçlarımın içinə qədər girəydin! Yoxsa, bizim gizli qardaşımız, əmimiz, dayımız idinmi bizi qoruyasan? Yoxsa, atamız tərəfindən işə alınan can qoruyanımız idin? Necə olur ki, mən bir qız olaraq səninlə olma ehtirası yaşayım, ancaq sən bunu yaşamayasan! Cəvanşir, səndən səmimi olmaq istəyirəm! Mənimlə səmimi ola biləcəksənmi?
- Çiçək xanım, siz məni utandırırsınız! Doğru, mən sizi ilk görüncə sizdən xoşlandım. Ancaq, mən sizi sevə bilməzdim. Çün, çün, Çünki mənim bir ortaq yaşamım olmuşdu...vardı! Məni anladınızmı?
- Yox! Səni anlamadım! Açiq anlat! Sənin qarşında "səni sevirəm" deyəcək qədər cəsarətli bir dul qadın dayanıbdır! Açıl! Bir də qərar aldıq ki, ağa-xanımı aramızdan götürək.
- Çiçək xanım mən evliyəm! Mənim bir də, balam var! İndi bəlkə də 10 yaşındadır! Mənim səni, səni sevirəm deməyə istəyim var, ancaq gərəkən cəsarətim yoxdur. Çünki, cəsarət hər zaman gözəl olmur. Gahdan da xəyanətə çevrilir!
- Cəvanşir! İndi burada, bu restoranda, bu dolu boşqbacırın qarşısında, duz-çörəyin hüzurunda "Səni sevirəm" desəm, "mənimlə evlənirsənmi?" desəm, "bir ömür mənimlə bir yastığa baş qoyarsanmı?" desəm! Yəni gələnəksəl olaraq sənin mənə deyəcəklərini mən sənə desəm, qarşımda səssiz-səssiz dikilib qalacaqsanmı?! Yoxsa, məni atıb rus dövlətinin qucağına qaçan Olqanın xəyalını tutacaqsan yenə?

*"Cavanşir bir damla su ol! Əri yerə gir! Bu hallara düşən, əzgin qalan Cəvanşir! İki od içində yanan Cəvanşir! Bu qız, Olqa öyküsünü bilir!? Daha nələr bilir! Ən yaxşısı, boş sözlərlə özünü daha da çəkisiz etmə, Cəvanşir! Bu dünyada neçə kərə ölmək olar! Sən kimsən ki, iki kəz ölmək istəyirsən! Özünə gəl! Bu qədər əzilmə!"*

Artıq silkələnməyə başlamışdım! O mənim doğru içimi görmək istəyirdi. Mənsə ona doğrularımı anlatmağa çalışırdım. Olqanı kimdən öyrənməsi önəmli deyildi. Onun necə bir qadın olduğunu öyrənməsi gərəkdir. Bu mənim Olqaya olan vəfa borcum idi!

Bir gün evdə oturmuşdum və Olqanın toxuduğu bir köynəyə baxırdım. Böyük bölümü toxunmuşdur. Buluzun ortasında oluşan bir qaçaq düyün marağımı çəkdi! Toxumanı Olqaya göstərdim. Olqa yalnış düyünü görüncə, ən baş düyündən çəkərək, bir dəqiqə içində bir günlük işini söküb mənə yuvarlatdı! O, mənim üçün bir canlı təcrübə kimi qalmaqdadır. Çiçəklə olduğum o gecənin düyünü də Olqanın toxuduğu buluz kimi başdan söküldü! O, gecə Çiçək göz yaşları içində məni dinlədi! Artıq bir söz demədən məni otağına dəvət etdi! Əllərimi tutub, əllərinin içində saxladı. Yanağımdan öpüb geri çəkildi:

- Cəvanşir! Səni sevirəm! Sənə aşiqəm! Səninlə bir çatıda yaşamaq istəyirəm! Mən bunları desəm də, sən demə! Sən, məni sevdiyini demə, mənə aşiq olduğunu demə, mənimlə bir çatı altında yaşamaq istədiyini demə! Çünki hamısı yalan

olar! Hamısı aldatmaca sözlər olar! Sən, ömür boyu Olqanın qolları arasında yaşayacaqsan! Səni ondan ayırmaq ən böyük suçdur. Bəlkə də, burada olsaydı ayrılmışdınız! Ancaq, artıq o sənin canından bir parça deyil, o, sənin ruhunda, tinində yer salıb. Bəlkə, sən də onun ruhundasan! Qalxıb bu sevgini pozmaq insanlıq adına bir cinayətdir. Mən, kimsənin kölgəsi altında yaşayan birisi deyiləm! Hələ canlı olmayan birisilə heç baş edəməm! Sevgi, bir iç savaşıdır. Üzə çıxarsa, artıq sevgi sayilmaz! Səni iç savaşınla baş-başa buraxıram! Yolunu gözləməyə söz vermirəm. Lakin, gücüm varkən onu gərçəkləşdirməyə çalışacağam. Hələlik sənin yanağından qopardığım öpücüklə qalacağam! Çalıquşu dusdağından qurtulan gün, məni ara!!!

☆ ☆ ☆

## **(1968-69) Qəsr Qacar Dustağında!**

Bir xəzan, iki xəzan, artıq sayını unutduğum qara illər, qap-qara payızlar ardı-ardına gəlib yaxamı tuturdu. Olqaya yaxın, Çiçəkdən uzaq olmaq üçün Təbrizə, bəlkə də, qaçaq Bakıya getmək fikri bir anlığa məni tərk etmirdi. Çiçəyin yanağımdan qopardığı sevgini geri almaq üçün nəhəng Olqa əngəli qarşıma dikilirdi. İki dünya arasında qalmışdım - ruhum yoxsa cismim! Olqa yoxsa Çiçək! Çox güman ki, heç biri! Bunları düşünmək

üçün çoxlu zamanım olacaq. Hələ ölməyə niyyətim yoxdur. Yaşamadan ölməyin nə dadı var ki!?

Mən idealist insan deyiləm! Özümü daha çox bir materialist bilirəm! Ən azından, bunların ikisinin arasındayam! Artıq bundan sonra bütün boyaların gözəlliyinə varmağa çalışacağam! Gecənin qarasını, gündüzün ağını görüb də, yağmur altında üzünə gülən göy qurşağını görməməzlikdən gəlməkdən daha əzablı cahıllik varmı?

Göy qurşağı kimidir mənim göktanrım! Mənim göktanrımla kütlə tanrısı arasında böyük uçurum var! Mənim göktanrım ağlarkən yağmur olub yer üzünə yaşıllıq sərər! Gülərkən isə günəş olub ürəklərə aydınlıq saçar! Mənim göktanrıma qul olmaq gərək deyil! Amma başqalarının tanrısı xanlıq, paşalıq, əmirlik, hökamlıqdır! Mənimlə doğular mənim göktanrım! Mənimlə yaşar, mənimlə ölər, o! Mənim göktanrım mənə təndaş ruhdur! Sanki Olqa kimi, içimdəki sevgi sancısı kimi! Mənim Göktanrım babamla təndaşlaşmış yer üzünün ilk tanrısıdır. O, mənə “Sumer Anu”dan, “Göktürk tenqeri”dən qalan tindir, qutlu ruhdur! Mənim göktanrım insanı qul etməz, ağ qanadlı barış kimi özgür edər insanı mənim göktanrım!

Dedim ki, bunları düşünməyə çox zamanım olacaqdır. Çünki dustaqda düşünməkdən daha asan nə var ki?

Öncələr hər gün, sonra isə, üç gündən bir işgəncə nəsnələrilə süslənmiş soruşdurma otağına alınırdım! Məni rus dövlətinə bağlı casusluqda suçlayırdılar! Sanki, bu dünyada türklərə ən çox düşmən biçilən ruslara casusluq edirmişəm!

Onuncu ayı da Qəsr həbsxanasında keçirdim! İnanılmaz olsa da, ən üst düzey suçlamaya uğramışdım. Yaşamda quşlarından, Olqa anısından, Çiçək bataqlığından başqa heç nəyi olmayan Cəvanşir, dünyanın ən ilginc, dolaşıq və cəsarətli suçu ilə qarşı-qarşıya qalmışdı! Üzərində dosya açılır, dövlətin ən üst qurum orqanlarında işinə baxılırdı. Özü bilmədən gözlərdə böyüyürdü!

Rus casusu! İstəsəm də, istəməsəm də, adım belə hallanırdı. Özümün xəbərim olmadan Qəsr həbsxanasındakı yüzlərlə solçu, sağçı, milli-etnik siyasi liderin arasında direniş simvolu kimi mübahisə motivi olmuşdum! Nə yazık ki, mənə olan quşquların yalan olduğunu kimsə bilmirdi! Təbi ki, on ay ağır işgəncələr, xəyanətlər qarşısında dayanaraq, basqı altında belə, ağızını açmayan insan haqda, şişirdici sonuclar əldə olunacaqdı! Mən də belə bir durum içindəydim. Ged-gedə bu duruma alışqanlığım artırdı. Can dərdindən boşuna etiraf etdiyim gecələrin səhərinə çıxmayacağımdan iğnə ucu qədər şübhəm qalmamışdı! Ya canımın acılarını çəkərək nəfəsimi qoruyacaqdım, ya nəfəsimi verib canımın ağrılarına son verəcəkdim! Beləcə acı çəkərək yaşamağın necə qəhrəmanlıq olduğunu Cabbar əmidən öyrənirdim. O, gözümün qarşısında bir il gecə-gündüz ağrı çəkərək, kimsəyə bu acını bildirmədi! O, ağrılarına inad, hər zaman güldü! Ağrısının inləməsi üzə çıxmasın deyə, gülümsəməyi qəhqəhəyə çevirdi! Gecə-gündüz yazdı! Yaşamın necə gözəl olduğunu, bu gözəlliyin çox baha olmasını anladaraq yazdı! Yazdı ki, mənim kimilərin həyatda önü açılsın. Yazdı ki, haqq batilə qalib gəlsin! Mən isə, indiki

batil qarşısında o insanı örnək götürmüşdüm! Bu tutum isə, məni dost-düşmən arasında böyük göstərirdi.

Məmurların etirafına görə, mən onlara siyasi liderlərdən daha da çox əzab verirdim. Onlar, öz məslək karyerlərini mənim üzərimə bağlamışdılar. Sınarsam, Savak böyük uğur qazanacaqdı. Mən isə, quşlarımı, anılarımı öksüz buraxıb, suçsuz gözümü yaşama yumacaqdım! Yox, əgər sinmazsam, onlar sınaraq məni ən ağır işgəncə altında öldürəcəklərdir!

Bu savaş dizisi durmadan sururdu. Hər işgəncənin ardından bir saatlıq öyüd-nəsihət alırdım. Öncə biriləri əzib-dağıdır, sonra isə bir centelmən qılığında birisi mənə öyüd verməyə çalışaraq, rol icabi dilə gəlir:

- Bunu nədən belə duruma salmısınız! Su gətirin, qanlarını silin! Biraz adam kimi davranın! Bunu da aldadıblar da! Bu ruslardan nə desən çıxar! Adam deyillər ki! Sən də, bir az ağıllı ol! Adam ruslar üçün canını fəda etməz! Dəyməz Cəvanşir, vallah dəyməz! İnad etmə! Etiraf et! Həm özünün, həm də bizim canımızı qurtar! Yoxsa mən belə, sənin canını qurtara bilməm! Bax Cəvanşir! Sən ruslara işlədiyini etiraf edən halda, çox şeylər qazanarsan! Töbə etsən, səni yanımıza da ala bilərik! İstərsən Rus dövləti əlində olan casusumuzla səni dəyişərik! Onda Olqana da qovuşarsan, balanı da qucağına alarsan. 10-12 il həsrətə son verərsən! Nə deyirsən Cəvanşir? Inanıram ki, bu fürsəti qaçırmayacaqsan! Elə deyilmi?

- Nə rusu, nə dəyişməsi? Ruslar məni niyə qəbul etsinlər ki? Onlar məni tanımırlar ki! Mənimlə onlar arasında ancaq nifrət hakimdir! Ruslar biz türklərin qanını isti-isti içərlər! Tanrım məni onların şərindən qurtarsın! Mənim, etiraf edəcək bir sözüm qalmamışdır. Firqə haqqında olduğunu dedim. Olqa haqda danışdım. Bədiabaddan qaçma məsələsini izah etdim. Məni buraxın gedim! Ruslarla bağlı deyəcək heç bir sözüm yoxdur. Sizlər məni yalnış yerə tutmusunuz! Məni bundan artıq sıxmayın, bundan sonra sizə verəcək sadəcə bir ümidsiz canım qalmış! Mən necə yalan etirafda bulunum ki! Necə yalan sözlərlə sizi aldadım?
- Ya...indi oldu ba! Sən bizi düşünmə! Özünü qurtar! Yəhya kimi yurdsevər insan ol! Bu bataqlıqdan çıxaraq öz yanımızda yerləş! Bax! Buraya kiçik bir qol çək, sonrasını mənə burax! Səni Yəhyadan daha uca yerlərə qaldıraram! Sadə bir imza at yetər! Hətta yalan bir imza da işimizə gələr! (kağız qələmi qarşıma qoyur.)
- Mən etmədiyim günahın altına imza ata bilmərəm! Məni öldürün, lakin yalanı üzərimə atmayın!...

Doğrudan-doğruya bilgidən boş olduğum üzündən qəhrəman olmuşdum! İstər siyasi, istərsə də ayrı zindandaşların içində qəhrəman kimi tanınırdım. Özümün isə, bu olaydan xəbərim yox idi. Onlar məni döyür, yerdən yerə vurur bilgi almaq istəyirdilər. Mən isə, çığır-bağır salaraq bilgisiz olduğumu deyirdim. Bu oyun eyni ssenari kimi davam edirdi! Gün keçdikcə, qanmaz məmurları olan fars rejiminin necə içi boş

sistem olduğu üzə çıxırdı. Azərbaycan türklərinin bu sistemdən qopma diləkləri də aydınlaşırdı!

On ay boyunca heç bir suç kəsilmədən sinsi və kurnaz çaqqalların arasında alış-veriş olurdum. Bu sürəcdə məni ayaqda saxlayan nədənlərin böyüyü bilgisizliyim olsa da, görünmədən, tanınmadan çeşidli bəndlərdə tutuqlu bulunan Səfər Xan Qəhrəmani kimi bir çox gerçək qəhrəmanların salamları da çox etgili olurdu! Bu salamlar, ölüm-qalım savaşında yalnız olmadığımı göstərir, doğru yolda olduğumu isbatlayırdı!

Bu arada tutulma nədənim belə idi: “Ağa Səlim əməkli olduqdan sonra, yenicə teatrın müdür vəkili seçilmişdim. Mənə verilən bilgilərə görə, tezliklə teatrın müdüri seçiləcəkdi. Ağa Səlimin güvənci üzündən, məni də aday olaraq tanımışdırlar. Demə ki, belə önəmli işdə adayın durumu araşdırılır. SAVAKdan onay alınırmış! Həmin günlərin birində də, başımın üstündə Yəhya və iki yaraqlı polisi gördüm! Yəhya gülə-gülə:

- Nə demişlər? “Dağ-dağa yetişməz, adam-adama yetişər!” Qalx ayağa xain! Qaçaq yaşamaq buracan imiş! Necə də qocalmısan? Başa bax, saqqala bax! Qalanını da qəbirdə ağardarsan! Düş yola!

O gün məni qandallayıb, ofisdən qaldırdılar. O gündən bəri, rus casusluğundan, Sovet Böyük Elçiliyinə rapor verib əmr almaqdan, NKVD (KGB) əmrilə Olqa adlı rus casusu ilə qondarma evlənməkdən, casus qızın saxlanılmasından və sonunda Sovetin səfirliyinə tapışırmaqdan, rusların əmrilə teatr

işinə girməkdən, Dövlət-e Şahənşahının etimadını qazanaraq, dövlətin üst orqanlarına yol tapma cəhdindən, Firqənin Gənc Təşkilatının rəhbər orqanında üzv olmaqdan, Azərbaycanı İrandan ayırmaq separatizmindən, azadlıq bəlgəsi olmadan sürgündən qaçmaqdan və başqa isbatlanmamış ittihamlar üzündən Tehranın Qəsr Qacar həbsxanasında "dövlətin xəzinəsindən yeyib içirəm". Artıq azad dünyayla hər hansı fiziki bağlantım qalmamışdı. Gözaltı tutuqlu olduğum üçün, kimsəylə görüş iznim yox idi. Olsaydı belə, kimsənin bir casusun görüşünə gəlmə cəsarətinin olmasına inanmırdım. Öncələr Qəsr dustağından hər hansı bilgim yox idi. Belə düşünürdüm ki, kiçik bir zindandayam. Ancaq sonradan burada minlərcə siyası dustağın olduğunu öyrəndim. İlk gəldiyim gündən 2 nömrəli dustaq bölümünə verildim. Buna baxmayaraq, mən heç zaman bu bölümün nə olduğunu bilmədim. Çünki, ya tək adamlıq kamerada qalırdım, ya da qanmaz məmurların əli altında əzilirdim! Anlatdığım kimi, üzərimdə olan maraqlar get-gedə artmağa başlamışdı. Açıqcası, ortada yarış oluşduğunu hiss edirdim. Sanki dünyanın ən böyük casusu idim və məni yeni kəşf etmişdilər. Artıq, mənə verilən ittihamların qəbulunun edamla qarşılanacağına şübhəm qalmamışdı!

Doğrusu, həyatımda etmədiyim cinayətə görə ölmək ağır gəlirdi! Bir yandan da həftənin bir neçə gününü qanmaz məmurların işgəncələri altında əzilməyə dözümüm qalmamışdı! Hər işgəncədən sonra, *"keşkə ayağım sınsaydı və teatra getməsəydim! Keşkə ağa Səlim adlı birisilə heç tanış olmasaydım!"* deyərək, öz-özümə zülm edirdim! Ancaq, bütün

bunlara qarşı bir anlığına da olsa, yaşamıma son verməyi düşünmürdüm! Nə üçün belə duruma düşməliydim ki? Onlar məni öldürməyə çalışırkən, mən diri qalmalı və bu qara yaşamın sonuna tanıq olmalıydım! Mən qara yazğımın sonunu bulmaq üçün özümlə ilqar bağlamışdım!

Ayaqlarımı yerə basa bilmirdim! Sanki dərimin üstünə bir də qırmızı-qaralı dəri çəkilmişdi. İlk günlər tərli, qoxulu bədənimdən qaçmaq üçün saatlarla dizi-dizi yol getsəm də, bir neçə ay keçdikdən sonra özüm boyda otaqla hər formada eşləşmişdim. Qoxum - otağın qoxusu, havam - otağın havası, çirkim - otağın çirkabı, bitim - otağın biti! Təbi ki, növbəti soruşdurma zamanlarında çeşidli qoxular da duyurdu. Artıq, ayaqlarımda hiss qalmadığına görə, işgəncə yerləri də dəyişməyə başlamışdı. Ayaq üstü lüm-lüt bəndə çəkərək alətimdən ağır çəki asırdılar. Bu işgəncənin daha bir ayrı “dadı” vardı! Bu eyləmə qarşı qışqırma gücüm belə, qalmırdı! Bu işgəncələr zamanı bir neçə dəfə bayğın düşüb, ayılırdım! İşgəncə bir yana, namussuzların ördək kimi qaqqa çəkmələri başqa psikolojik əzginlik yaradırdı. Təbriz zindanında fars cəlladlarının kininə, nifrətinə uğrayıb təcavüz acılarını anımsamaqla bu vəhşilərin də qarşısından utanmadan qurtulmağa dirənirdim!

İki-üç həftə boyunca soruşdurmalar dayanmışdı! Canıma biraz su gəlmişdi! Hər gün üç dəfə yemək verirdilər. Bəzi günlər gözlərimi bağlı tutaraq açıq havaya götürürdülər! Az qala bir il boyunca ən ağır əzinc (işgəncə) altında deməyə heç bir sözüm olmadan, məndən dünyanın ən böyük casusu olma ittihamına

imza atmamı tələb edirdilər. Elə duruma düşmüşdüm ki, başqasının bilməsini belə, diləmirdim!

Hər gün birisinin gəlib məni yenidən əzməyə götürəcəyini gözlərkən, iki polis və qarayaxa məmuru qarşımda gördüm. Məmur pis qoxulu otağıma girmədən burununu tutub, zindan polislərinə işarə edib qayıdmaq istədi. Ancaq, iki addım atmadan geriyə dönüb soruşdu:

*Cəvanşir Adeli-e Sərabi, İttihamlar:*
*Rus casusluğunda,*
*Rus casusəsinin qaçmasında yardımçı olmaqda,*
*Separatçılıqda,*
*Xain və qanunsuz Azərbaycan Demokrat Firqəsində üst düzeydə üyə olmaqda,*
*İrana və nizam-e Şahənşahi-e xəyanət etməkdə,*
*Sürgündən qaçmaqda,*
*Dövlət polisinə və məmurlarına qarşı dirənc göstərməkdə,*
*Bir il boyunca nizam-e şahənşahının büdcəsinə ağır həzinə yükləməkdə suçlu sayılırsan!*

- Doğrudur bunlar, Cəvanşir?
- Yox qurban, doğru deyil, doğru deyil, yalan, yalan!
- Hakim: Sənin suçların kəsindir! Etiraz haqqın yoxdur! Bundan sonraki həyatını zindanda keçirəcəksən. Casusluğunla bağlı araşdırmalar sürür. Casusluğunu etiraf edib, şahənşahımıza sığınarsan durumun dəyişər! Yoxsa, inadına çürürsən! Məhkəmə bitmişdi! Səni bu gündən “Evin Dustağına” götürəcəklər!
- Məmur: Götürün bu xaini!

- Hara aparırsız məni?
- “Evin dutsağına” eşitmədinmi? Dədənin evinə! Apartmana!
- Bəs bura haradır?
- Sən bu günədək harda olduğunu bilməmisənmi? Yəni o qədər qanmazsan? (üz tutaraq polislərə) Doğrudanmı bu rus casusudur!? Buna mənim böyük şübhəm var!
- Demədiniz bura haradır!
- Boş ver! Sənə nə bura haradır! Dədənin məzarı!

Məmur otaqdan çıxıb gedəndən sonra polislər mənə:

- Birinci Polis: Doğrudanmı bilmirsən ki, bura Qəsr zindanıdır? Bir ildir burdasan, hələ də adını bilmirsən! Özünü bir az adam göstər “Türk-e Xər”! Bura hotel də deyərlər. Bir neçə saat sonra əsl türmənin nə olduğunu görəcəksən!
- İkinci polis: Artıq bundan sonra Savak zindanına gedirsən. Orada səni 209-cu bənd gözləyir. Artıq hər şeyi bülbül kimi ötərsən! Bundan sonra hotel deyil, qrand hotel gözləyir səni! (ucadan gülə-gülə!)

☆ ☆ ☆

## <u>Evin Dustağında!</u>

**1969-70-ci illər.**

Mənim üçün bu zindan, o zindan fərq etmədi. Gözü və əlləri bağlı uzun yolculuqdan sonra bir dəmir parçasından endirib, az yol gedəndən sonra yeni qaranlıq bir otağa salındım. Bu gətir-götürün mənə olan yeganə xeyri yeni geyim və bir hamam olsa da, yazıq bitlərim üçün fəlakətlə sonuclandı. Başımı dibdən qırxdılar, paltarlarımı dəyişdilər, hamam etdirdilər! Bundan da gözəl şey ola bilərmi? Görəsən bu qədər lütfi nə zaman haq etmişdim!? Polisin dediyinə görə, Evin zindanı doğrudan da, hotel yox, qrand hotel imiş!

Bir həftə boyunca məni dindirən olmadı! Hər gün bir kərə, günbəzə bənzər başı yarıq bir yerdə addım atmağa götürürdülər. Yemək yedirdib, kilo almağıma yardım edirdilər. Ayaq altlarının ağrısı az da olsa, azalmışdı! Alətimin ağır sancısı olduğu kimi qalırdı. Gecələr, özəlliklə, bu ağrıdan qıvranırdım. Bədənimdə olan əzinc izləri azacıq yüngülləşsə də, ağrılarım sürəkli canımı yaxırdı!

Təxminən bir həftə sonra, məni gözü bağlı uzun bir dəhlizdən keçirərək, pillələrdən aşağı qata apardılar. Biraz gedəndən sonra dəmir qapının açılmasını hiss etdim. Məni bir səndəl üstündə oturtdular. Qarşıdan birisi gözlərimin açılmasını əmr etdi. Gözlərimi açan insanlar arxada olan pərdənin arxasına keçdilər. Qarşıdan gələn səs də pərdə arxasında idi:

- Adın nədir?
- Cəvanşir.
- Kamil adını de!
- Cəvanşir Adeli Sərabi.

- Bir ildir ruslarla olan ilişgini danırsan! Biz bu saata qədər səninlə adam kimi davrandıq. Ancaq burası Evin dustağının 209-cu bölümüdür. Buraya gəldinsə, adam olmalısan! 209-da halva paylamazlar, adamın halvasını çalarlar! Burada görmədiyin xidmətlərin ən üstününü görəcəksən! Gedib gözəl-gözəl düşünərək etirafını edərsən, yoxsa buradan param-parça cəsədin çıxar! Öncə dişlərindən başlayan, sonunda ayaqlarının kəsilməsilə sonuclanar! Biz, burada səndən daha çox inadçıları ötdürmüşük! Burası Qəsr deyil, burası 209-cu bölümdür! Unutma dostca, yoxsa düşməncə! Bunu sən seç!
- Mənim canımın hər yeri inciyir! Mən bir daha əzinc istəmirəm. İnanın ki, mənim ruslara nifrətim var! Axı onlarla necə ilişgim ola bilər? Məni istədiyiniz qədər zindanda saxlayın, ancaq işgəncə etməyin. Mən bir ildir əzinc altındayam. Vallah, Quran haqqı, 14 məsum haqqı mənim ruslarla işim olmaz! Olqa bir rus qız deyildi. O, tər-təmiz Azərbaycan türkü idi! O, müsəlman olduğu üçün Fatimə adını seçmişdi!
- Gözlərini bağla! Bunu yerinə götürün! Sabah bu zaman buraya gətirin! Adam olarsa, yedirdib-içirdin, olmazsa bildiyiniz kimi edin! Mən özüm də olacağam!

Burası Evin dustağının 209-cu bəndi! 6 aydan sonra ağızımda vur-tut 8 dişim qalmışdı. İki kəz burnum sındırılaraq, zindanın xəstəxanasında yatmışdım. Sol ayağımın diz qapağı ayaq darbası üzündın yerindən çıxmışdı. Kürəyimdə ütü qabarları bişərək, artıq ətə çevrilmişdi. Dəfələrlə elektirik şoka məruz

olduğum üçün əl-qoluma titrəmə gəlmişdi. Bir dəri - bir sümük qalmışdım. Ayaqda durmağa belə gücüm qalmamışdı! Artıq yediyimi də qusurdum! Özümü ölümə hazırlamışdım! Kimsənin məndən, mənim də kimsədən xəbərim yox idi! Məndən iqrar istəyirdilər. Keşkə olsaydı, canımı alıb qurtarsaydılar! Lakin, nəyin iqrarını istəyirdilər? Mənim "sapımın ucu" elə həmən başdan qırıq idi! İqrar etsəm, ardınca soruşdurma davam edəcək! Məndə artıq bir bilgi yox idi! Bunu yalnız mən bilirdim, iqrar alan məmurlar bilmirdi!

Artıq Allahdan ölüm diləyirdim. Çünki, yaşamaq üçün nədənim qalmamışdı. Nə Olqa, nə uşaq, nə də başqa birisi! Mənim üçün ən doğru olan yalnız ölüm idi. Buna baxmayaraq, özümü öldürmək kimi aciz duruma düşmək istəmirdim. Bunlar məni tez-gec öldürəcəkdilər. Belə davam edərsə, öz ölümüm də heç də uzaqda deyildi. Düşünürdüm ki, atamı, üç əmimi, qardaşımı, anamı, iki bacımı bu fars rejimi öldürübsə, niyə mən öz əlimlə özümü öldürməliyəm ki?!

Artıq 10-cu ayımı da bu lənətlik bölmədə keçirirdim. Öncə olduğu kimi, ağır işgəncələr davam etmirdi! Bədənim demək olar ki, yarıcan olmuşdu. Ayaqda durmaq üçün devardan tutmaq zorundaydım. Hətta tualetə gedən zaman hər iki qoluma girirdilər! Gözlərimin işığı böyük ölçüdə bitmişdi! Hava almaq üçün götürüldüyüm günbəzli həyətin bacasına belə baxa bilmirdim! İki il soruşdurma, bitməyən milli söyüşlər, türk olduğum üçün ikiqat əzinc sanki sona ərmişdi! Ancaq, hələ də tək adamlıq kamerada saxlanırdım və kimsəylə görüş iznim yox idi.

Həmin səssiz günlərin birində hamamdan sonra, yenə alışdığım pillələrdən aşağı qata endirdilər! Hansı otağa gedəcəyimi yaxşı bilirdim. Amma bu dəfə məni daha böyük və işıqlı salona götürdülər. Məni bir elektirik cihazlı səndəldə oturtdular. Başıma yumru bir məftil çələng yerləşdirdilər. Başımda istilik hiss etməyə başladım. İlk başda hər hansı bir ağrı, sancı, anormallıq yox idi. Bir az keçdikdən sonra, iki dünya arasında gedib-gəlməyə başladım. Qarşıdan səslər duyurdum. Anımsamadığım yanıtlar verirdim!

Nə qədər zaman keçdiyini xatırlamırdım. Su-filan içməmə rəğmən, yandırıb-yaxan çişə yaxalanmışdım. Gözümü açarkən, özümü daha işıqlı bənddə buldum! Otağın sağ bucağında dəmir məftil qəfəsdə az işıqlı bir lampa yanırdı. Sol tərəfdə oturaq tualet var idi. Tualetin üstündə kiçik bir su kranı ləgənilə dururdu! Mənim üçün bu, 2 ilin ən böyük şansı sayılırdı. Çişimi edəndən sonra, başıma gələnləri anımsamağa başladım. Sadəcə qolumdan bir iynə vurulmasını və fırlanan başımı xatırlaya bildim!

## <u>Yenə məhkəmə, yenə suçlama!</u>

- Qazı: Sən çoxlu ittiham altındasan. Bu məhkəmə kəskindir. Verilən hökmlər eyni zamandan qüvvəyə minəcəkdir. Burda verdiyin ifadələr rəsmi sayılır. Sorğuları nə qədər düzgün cavablarsan, bir o qədər alacaq cəzan azalar! İlk öncə anlat görək “Ladran Jernikov” kimdir? Səninlə haralarda görüşərdi?

- Bu adamı 1955-ci ildə Olqa ilə Sovet Böyük Elçiliyinə getdiyim zaman tanıdım. O, Olqanı içəri aldı, məni isə bayıra atdı! Olqanı geri almaq üçün dörd gün qapıdan ayrılmadım. 4-cü gün mənimlə görüşməyi qəbul etdi. O, Olqanın Bakıya getdiyini dedi və mənə ondan bir məktub verdi! Bundan əlavə öz kartını da mənə verdi. Kartın üzərində adı və telefon nömrəsi qeyd edilmişdi. Altı ay sonra gəlib Olqadan məktub olarsa, ala biləcəyimi söylədi. Mən də altı ay sonra Olqadan xəbər almaq üçün səfirliyə getdim. Ancaq Olqadan xəbər yox idi. Yenə altı ay sonra gedib Ladran Jernikovla görüşdüm. Daha sonralar Olqadan ümidimi kəsdikdən sonra, bir daha Ladan Çernikovu görmədim!
- Sən elektirik etiraf cihazına bağlanarkən, bu şəxsilə ən azından 50 dəfə görüşdüyünü etiraf etmisən! Doğrudur?
- Mən bu adamı sadəcə 3 kərə görmüşəm! Yalan deyirəmsə, Quran çarpsın məni! Hətta son dəfəki görüşümüzdə, rus əskərinin əlində olan avtomatın mənim əlimdə olmasını diləyirdim. Çünki bu məmurdan nifrət edirdim. Onu avtomatla dəlik-deşik etmək istəyirdim. O, mənim bütün ailəmin ölümünə, xanım və doğulmamış uşağımın məndən qopmasına nədən olan cinayətkar bir rusdu! İki ildir ən ağır əzinc altında inləyərək, sızlayaraq bunu deyirəm! Kimsə mənə inanmaq istəmir. Nədən məni bu günə salıblar? Hansı günahı işləmişəm axı? Birinci gün dediyimi bu gün də deyirəm. Dilim-dilim olsam belə, deyəcək başqa sözüm yoxdur! Cənab qazi, 2 il tək kabinli türmədə it kimi boyunduruqlu qalmışam! Heyvandan daha əskik düşdüyüm günlərdə min kərə ölüm diləmişəm! Siz, özünüzü bir anlığına

mənim yerimə qoyun! Keşkə iynə ucu boyda suçum olsaydı! Türk olduğumu sevirəm! Vətənim Azərbaycanımı canımdan artıq sevirəm! Milli kimliyimə canımı belə, verərəm! Əgər ki, türk və azərbaycanlı olduğum üçün suçlu sayılıram, edam hökmümü verin, cənab qazi!

- Qazi: Bunları sənin son müdafiən kimi gözdən keçirəcəyəm. Sən, xəyanət üzündən edam olmuş çavuş Qulaməli Dərvişlunun yaxın dostu və əməkdaşısan! Onunla 1952-ci il anti-şah hərəkatında olmusan. Birlikdə qanunsuz yığvalarda şahənşahi nizama qarşı ortaqlıq etmisən. Təqib altına düşmüsən, gizli yaşamısan, ədalət məhkəməsinin qarşısında bunları neçə danacaqsan? Bu işlərindən peşmanlıq duyursanmı? Şahənşah-e Ariamehrə sədaqətini dilə gətirmək istəyirsənmi?
- Cənab qazi Qulamı nə suç üstündə edam etdiniz? (Dünya başıma dolanırdı. Bir an ürəyimin dayanmasını, daha nəfəs çəkə bilmədiyimi hiss etdim. Gözlərim yumuldu və yerə yıxıldığımı bildim!)

Mən millətimin qatili olan şaha necə vəfalı ola bilərdim? O, faşistlikdə cinayətkar atasının əl-qolunu daldan bağlamışdı! Əziz Qulam hansı günahına görə edam olundu vəya işgəncə altında öldürüldü? Təbrizdən sürgünə, sürgündən ölümə! Bu ancaq türkə qarşı fars nifrətindən doğan bir projədir!

Əziz qardaşım Qulam! Mənim Kazımxan Daşlı Qulamım! Hələ də sənin kövrək və igid səsin qulağımda səslənir ki, dedin:

*“Arxadan gələn kürd qurşunu atamı yerdən qalxmaz etdi! İflic atamı əri savaşda şəhid düşmüş 18 yaşlı bir gəlin qızla evləndirdilər. Gülçöhrə adlı o qız gəlin, bir oğlan doğdu! O oğlan mənəm! Anam 22 yaşında qan qusaraq öldü! O ölürkən mənim 3 yaşım olmuşdu!...Bədənində kürd qurşunu olan atamla bir neçə il yaşadım!...O ölən gün təkbaşıma oturub bütün gülmək payımı bir yerdə güldüm!...”*

Qulam da belə getdi. O da içimizdən olan bir satqının düşmənə hədiyyəsi oldı! Ax... Bir millətin içinə özgəlik virusu düşüncə, nələr olur, nələr! Bilmədiyimiz daha neçə-neçə mənəm igidlərin Yəhya kimi satqınlara qurban getməsi var ortada!? Bir millətin kölələşməsilə belə virusların da artması durmaq bilmir. Vay bizdən sonra gələnlərin halına! Türk ulusunun içinə xəyanət virusu girmiş vay bizlərə! Yəhyaların hər gün artmasıyla əlbəttə ki, irqçı düşmənin dəyirmanı türk millətini qıtır-qıtır dartaraq yox edəcəkdir! Altmış nəfəri Təbrizdən, səkkizi isə Tehrandan, toplam 68 nəfərlik sürgün karvanından iflic olmuş məndən və bilmədiyim bir neçəsindən kimsə qalmamışdı. Keşkə Olqa da yaşamış olsa idi!

Əlvida qardaşım, əlvida köz altında intiqam gününü gözləyən alovlu Qulamım!

Sol biləyimdən xəstəxana yatağına bağlanmış durumda pəncərədən otağa saçan günəşin izinə uymuşdum. İki ildən sonra bir pəncərəli otaq görürdüm. Qoluma serum sistemi bağlanmışdı. Uzun zamandan sonra bir xanım görürdüm. O, ağ örpəkli bir məlayikə kimi gözəl, boy-buxunlu, bir az ətli-canlı,

otuz-qırx yaşlarında xanım idi! Ürəyimə su səpilirdi! Çünki iki ildən sonra çeşidli heyvandan fərqli olaraq, bir qadın görürdüm! İki il əzinc, alçaqlıq, çirkinlikdən sonra başımın üstündə şəfqət əli görürdüm! İlk öncə nə dediyini qulaqlarım almasa da, get-gedə eşitmə gücümü toparladım:

- Məni eşidirsən? Məni duyursanmı? Mən tibb bacısıyam!
- Siizii eşiidiirəəm! Məəən hardayaam?
- Siz zindanda deyilsiniz.
- Siz üç gündür buradasınız! Zəifləmisiniz! Deyə bilərəm ki, bədəninizdə qan dolaşımı yoxdur. Sizin çox böyük dirənciniz var! Siz həyata döndərən danılmaz bir möcüzə olmalı! Buraya gətiriləndə, ürəyiniz çox az sayda atırdı! Bədəniniz yaşamağı protest etmişdi! Lakin, siz indi gözlərinizi açıbsınız! Bu çox sevindiricidir. Mənim sizinlə danışma haqqım yoxdur. Otağın arxasında iki polis, bir də məmur var. Bəlli ki, çox önəmli birisi olmalısınız! Mənimlə danışdığını kimsə bilməsin! Yoxsa məni işdən atarlar!
- Yoox! Biilməəzlər. Arxayıınn oll!

On gündən sonra, məni yenidən Evin zindanına qaytardılar. Yenə 209-cu bölmə, yenə tək oda! Ancaq, bu dəfə yerim təmiz idi. Hər gün açıq havaya çıxırdım. Əzinc yox idi. 35-ə yenən çəkim, 40-a qalxmışdı! Mənimlə öncələrdə olduğu kimi, heyvancasına davranmırdılar! Bu işin içində kəsin bir iş var deyə, düşünürdüm! Suçsuz olduğumu biliblərmi? Əgər belədirsə, bəs niyə buraxmırlar? Ya da niyə normal zindana vermirlər? Məni niyə bu cəhənnəmdə saxlayırlar? Günlərim belə sorğu-suallarla keçirdi!

Bir aydan sonra məni yenidən elektrik otağına götürdülər! Yenə başıma cihaz qoşdular, yenə damarımdan iynə vurdular, yenə beynimin olub-qalanını boşaltmağa başladılar. Yenə gözümü açıb, yatağımda uzanaqlı gördüm özümü!

Beş-on gün sonra bir daha qazi qarşısına çıxdım. Məhkəmə on dəqiqə sürdümü- sürmədimi? Onu bilmədim. Ancaq dünyanın bəlkə də, ən qısa məhkəməsi mənim adıma yazılıbmış! Qazi əlindəki qələmilə oynarkən, mənə üz tutdu:

- Cəvanşir Adeli-e Sərabi 53 yaşlı, İran vətəndaşı! Sənin məhkəmən bayğınlıq üzündən yarımcıq qalmışdı! Sən, bir çox suçdan azad olunursan! Ancaq, 17 il öncə Əlahəzrət Şahənşaha qarşı fitnələrdə aktiv olduğun üçün 5 il azadlıqdan məhrum olma hökmu alırsan! Bu müddət Qəsr və Evin həbsxanalarında olduğun da hökmün içində sayılır! Lakin, sənə veriləcək tövbə bəlgəsinin imzalanması halda, qalan həbs günlərin Şahənşah Ariyamehr tərəfindən bağışlanacaqdır! Məhkəmə bitmişdir!!!

Səkkiz yüz gün Savakın əzinci altında, səkkiz yüz kərə ölüb diriləndən sonra suçsuzsan!!!

Yaltaqlıq payı yeməkdən boyun altı “quyruğu”, az qala köksünədək sallanan donquz hakimin “Tövbə” sözü bağrımın ucunu qazırdı!

Bağır-çağır harayımı kimsə duymurdu. Aclıq aksiyası keçirmək istədim. Sonra düşündüm ki, bunu da kimsələrə çatdıra bilməyəcəyəm! Çox düşündüm! Sonda bir qərara vardım: *“2 il*

*3 ay adamlıqdan çıxandan sonra əxlaqdan da pozularaq milli kimliyimə, türklüyümə, məniviyyatıma, insanlığıma, özgürlük haqqıma, vətənim Azərbaycana düşmən biçilən qatil faşızmin ayaqlarına düşəcək əfv diləyəcəyəm!? Cəvanşir! Sən bir dəri, bir sümüklə bu sistemi diz çökdürdün. Doğru ki, suçsuz inlədin, bağırdın, bayıldın, ancaq yox sözünü tək başına qudsallaşdıraraq, yaraqlı bir sistemin qarşısına başı uca çıxdın! Sən, özgürlük heykəlini öz əlinlə yaratdın! Bu rejim sənin inancını sındırmaq istəyirdi. Savaş meydanı yenidən sulanır. Haydi, Cəvanşir! Türk oğlu türk olduğunu isbatla! Kimsəyə deyil, sadəcə özünə, beyninə, ürəyinə isbatla türk olduğunu! Öl, amma əyilmə! Qoy ölüm sənin ayağına gəlsin! Sən ölümün ayağına düşmə!"*

## <u>(1970-72) Kərəc Qızıl Hisar Dustağı!</u>

70-ci illin payızında yeni dustaq, yeni çevrə öyküm başladı. Məni dəmir pəncərəli zindan maşınıyla Kərəcin Qızıl Hisar dustağına apardılar. Aparmadan öncə, bölmə rəisi məni otağına çağırdı:

- Cəvanşir! Səni buradan evinə-eşiyinə göndərmək istərdim. Ancaq inadlılığın üzündən 2 il yarım da məhbəsdə qalacaqsan! Bunu sən özün istədin. Biz, əlimizdən gələn mərhəməti sənə etdik. Lakin, sən mərhəmət bilməz bir türk kimi, bizə xəyal qırıqlığı yaşatdın! Bu gündən sonra səni Kərəcə verəcəyik. Özünü yaxşı aparsan, xeyrili olar. Yoxsa tərsini görərsən! Məndən bir istəyin varmı?

- Yox, sağolun, siz əlinizdən gələni etdiniz. Bundan sonra, başqaları etsin!
- Yenə danqazlıq edirsən! Adam ol! Adam! Türkbazlıq bəsdi! Mənim sənə ürəyim yanır! Sənə bir neçə öyüd vermək istərdim, qulaqlarını aç dinlə!

  Qızıl Hisarda daha çox toplum əngəlləri saxlanır. Orada olan tutuqlu bir kəsim var. Onlar, bir misqal tozdan ötrü məni belə, satarlar! Onların çoxu zindan məmurlarının casuslarıdır. Qalan tutuqlu zamanını səssiz-səmirsiz keçir. Yoxsa, hər bir rapor üzündən bir gündən altmış bir günədək tutuqlu günlərin artar! Quzu kimin sakit ol da, qalan cəzanı çək bitir! Anladınmı?
- Anladım! Çox gözəl anladım!

Qızıl Hisar həbsxanasının səkkizinci bölümündə yerləşən 12 kişilik bir salonda ən son yatağında uzanıb, Göktanrımla danışırdım! Həsən adlı 18 yaşlı tutsaqdaş məni çağıraraq:

- Cəvanşir ağa, gəl bizimlə süfrədə otur! Sən olmayınca, yemək boğazımızdan keçmir. Buyur gəl, ağsaqqal! Biz aramızda hər şeyi paylaşarıq, pulumuzu, paltarımızı, yeməyimizi belə! Biz burda artıq bir ailə sayılırıq! Allah hamını qurtarsın. Səni də qurtarsın!

Günlər-aylar çox tez gəlib keçirdi. Barındığım qoğuşda 4 il həbs cəzası olmış İzzət ağa adlı bir dustaqdaşla daha çox anlaşırdıq. O, qoğuşun ağsaqqalı sayılırdı. Yaşı 18-dən 50-ə qədər olan bütün qoğuşdaşlar, İzzət ağanın saygısını bir an belə, əskik tutmurdular. Onun hər sözü sevilərək dinlənilir və həyata keçirdi. İzzət ağa, doğrudan da gözəl insan idi. Təkcə

barındığımız qoğuş deyil, başqa qoğuşdan olanlar da, onun hörmətini saxlayırdılar. Hər həftə görüşə gələni var idi. Onu görməyə gələnlərin hamısının əli dolu olurdu. Elə günlər olurdu ki, gələn ət, toyuq, çörək və dadlıların artığı başqa qoğuşlara dağıdılırdı. Özünün dediyinə görə, Hüseyn Quluxan İlxani tayfasından idi. O, türkcəni çox gözəl bilirdi. Hətta mənimlə farsca deyil, türkcə danışırdı. Onun dediyinə görə, yaşadığı bölgələrdə çox Qaşqay dostu olmuşdu. Bu üzdən, türkcəni gözəl bilirdi. Onun Lurcaya dərin bağlılığı mənim marağımı çəkirdi. Ancaq, türkcəni də çox sevdiyini dilə gətirməkdən çəkinmirdi. Mənim bir az Ləkcə bildiyimdən də xoşlanırdı. Çünki Lək ilə Lurcanın yaxınlığı çox idi. İzzət ağanın mənə olan yaxın hissi, otaqda olan hər kəsə yansıyırdı. Amma bundan daha çox başımdan keçən iki illik olayların təsiri böyük görünürdü!

Bizim qoğuşumuzda olan insanların içində bircə baş bəlası olacaq birisini görmürdüm. Hamısı başlarını aşağı salıb, tutuqlu sürəclərini yaşayırdılar. Sözsüz ki, İzzət ağanın da bu əmin-əmanlıqda böyük rolu danılmaz idi. O, bir ata kimi, özəlliklə, gənclərin qanunlara dayalı davranışlarını bir an belə gözdən qaçırmırdı. Araya girən ən kiçik əngəli yerində önləyirdi. Qoğuşda olan dörd türk gəncin ikisi ticarət, biri atasının irsilə bağlı, biri isə bank soyğunçuluğu ilə bağlı həbsxanaya düşmüşdülər.

Evin zindanında aldığım dərsi heç unutmurdum. Davalı işlərdən bütünlüklə uzaqda qalmışdım. Sakitcə həbs günlərimin bitməsini gözləyirdim. Bu həbsxanada həyat su kimi axıb gedirdi.

Novruz Bayramına az qala həbsxananın mərkəzi qərargahından məni çağırdılar:

- Baş rəis: Cəvanşir, səni Baş komandan Şahənşah Ariyamehrin əvfi tutmuşdur. Bu dustaqda olduğun sürəcdə özünü yaxşı apardığına, zindan qanunlarına riayət etdiyinə, doğru yola düşdüyünə, otaq dostlarınla uyum sağladığına görə, Novruz Bayramının birində azad olacaqsan. Uğur olsun!

☆ ☆ ☆

Ömrümün 3 il 8 ayı da belə keçdi. Amma kimsə niyə tutulduğumu, niyə fars rejiminin ən ağır işgəncələrinə məruz qaldığımı belə, soruşmadı! Zatən buna da ehtiyac qalmamışdı! Çünki bu böyük dünyada yapa-yalnız, kimsəsiz, vətənsiz qalmışdım! Hara gedim, kimə gedim! 53 yaşında həyatdan usanmış bir insanı kim sayar ki? Dörd ilə yaxın bir zaman içində bir nəfər olsun, görüşümə gəlmədi! Hətta, bir məktub belə almadım! Müfəttişin "kimin var?" sorğusuna cavabım "kimsəm qalmadı, hər kəs öldü! Bu dünyada görmək istədiyim kimsəm yox artıq!" olurdu. Millətinə, torpağına sevgisini cani ilə, qanı ilə verən bir insan, necə yalnız, kimsəsiz, vətənsiz qala bilər ki? Buxovlanmış ayaqlarım özümdən bir addım geridə qalaraq, bəlirsiz yerə çəkilirdi. Üç il səkkiz aydan sonra Gülnaz bacının evinə sarı yollandım. Paltarım əynimdən tökülürdü. Hətta başmaqlarım belə, ayağımdan çıxırdı. Gəlib-gedənlər, mənə baxıb gülümsürdülər! Allahdan, son aldığım aylıq maaşımı özümə qaytarmışdırlar. Bu üzdən, bir kərə paltar

dükanına girib uyğun geyim almağı düşünsəm də, Gülnaz bacının evində olan paltarları kiçildərək istifadə etməyə üstünlük verdim! Qızıl Hisar Dustağından çıxan günün axşamı Tehrana vardım. Sıxıntılı, pozuntulu, qorxulu, mafiya qoxulu, türk ulusunun yer üzündən silinməsinə and içmiş panfarsizmin ana torpaq qıldığı Tehran! Türk ulusumun axar bulağını bataqlığa çevirən çirkin Tehran!

Gülnaz bacının yaşadığı küçə başında yeni açmış şirniçidən bir qutu baxlava alıb, evin yerləşdiyi küçəyə girdim. Elektrik kablosu üstündə cig-cig salan bir sərcə, məni uzaq xulyalara daldırdı. Sərçə ilə birlikdə Gülnaz xanımın evindən qalxan yüzlərcə çalıquşunun xor nəğməsi xəstə ruhumu oxşadı. Səslər, damarımda sısqalaşan qanımı qələyana gətirdi. Bir an içində, bağrımı üsyana gətirən dəli küləklərin yerini dan yelinin sərin əsintisi aldı. İllərcə səslərinə həsrət qaldığım çalıquşlarımı qarşımda gördüm. İlk sırada "Olqa-Cəvanşır" dayanmaqla, tellərində inci damcı, dimdiklərində zeytun dalı yüzlərcə çalıquşu, "*xoş gəldin Cəvanşır!"* nəğməsini oxuyurdular! Bu anın günlərlə, aylarla sürməsini istəyirdim! Gözüm çalıquşlarımdan başqa heç nəyi görmürdü! Buna möhtac idim! Çünki belə sevgini haqq etmişdim! Bu gözəllik, bu ülvülük, mənim haqqım idi! İnsanlar məni unutsa da, çalıquşlarım yolumu dörd gözlə gözləyirmişlər!

Dilədiyim anlar içində qapını döydüm! Qapının yanında yerləşdirilmiş bir bacadan fars dilində yanıt gəldi:

- Buyurunuz, kimdir?

- Siz kimsiniz? Mənəm Cəvanşir!
- Bağışlayın kimsiniz? Ağa Məsudu istəyirsiz evdə deyillər. Axşam evə gələcəklər.
- Burası Gülnaz xanımın evi deyilmi?
- Ahan, başa düşdüm! O, iki il öncə dünyasını dəyişdi. Biz buranı almışıq! Alo... Alo...Alo...! Ağa getdinizmi? Tanrı ruhunu bağışlasın! Sizin xəbəriniz yoxmu!? Alo...Alo...Alo...!

☆ ☆ ☆

Abbasabad Bazarının qarşısında olan məscidin həyətində oturub, minarədən gələn əzan səsini dinləyirdim. Səs qulağıma xoş gəlir, ruhumu qıdıqlayırdı! Həyətin sağ tərəfində əl-üzünü yuyub, qolları çırmalı namaza gedənlərə baxırdım. Hər kəs yanında olan insana salam verərək, ayaqqabısını rəflərə düzüb məscidin içinə girirdi. Bu anda bir orta yaşlı kişi mənə yaxınlaşdı:

- Salamül aleyküm qardaş! Görünür ki, çox yorqunsan! Elə bil ki, biraz da xəstəsən? Pis çıxmasa soruşa bilərəm ki, hardan gəlibsən?
- Aleykümsalam! Hə, doğrudu qardaş, biraz yorqunam! Dincəlirəm! Sarablıyam, Azərbaycandan gəlirəm! Burada oturmaq olarmı?
- (Türkcə danışmağa başlayır.) Xoş gəlmisən qardaş! Allahın məkanında yasaq olmaz! Çox düz yeri seçibsən. Burası Allahın evidir. Hamının ən son sığınacağı yerdir! Darıxanların, kimsəsizlərin, yoxsulların, evsizlərin ən son

ümid evidir. Mən buranın xadimiyəm! Mənim də, bu dünyada kimsəm yoxdur! Son olaraq xanımımı itirdim. Bir balaca evim var idi. Onu da iki oğlum arasında böldüm, buraya yerləşdim. İndi namaz üçün qalxmalıyam! Sən namazını qılmısanmı? Yoxsa birlikdə qılaq!

- Allah qəbul etsin! Mən bir başqa yerə getməliyəm. Buralara yolum düşərsə, səni görməyə gələrəm. Mənim adım Cəvanşirdi. Bəs sənin adın?
- Mənə Bayat Fatihə deyərlər! Ölülərin fatihəsini oxuyaram. Nə zaman gəlsən, başım-gözüm üstə!

Yorğun idim, ayaqlarım yerdə sürünürdü. Bu qılıfda ağa Səlimin ailəsinin gözünə görünmək istəmirdim! Bir yandan pulsuzluq, bir yandan Gülnaz xanımın rəhmətə getməsi, bir yandan isə, olan-qalan par-paltar və nəsnələrimin yoxa çıxması yoxsulluğumu zirvəyə yerləşdirmişdi. Artıq, kimsəyi, hətta çalıquşlarımı belə, düşünməz olmuşdum! Uşaqların durumu ilgimi çəkirdi. Ancaq, qalxıb da arama gücüm qalmamışdı! Nə gedəcək, nə də qalacaq yerim yox idi! Bu yaşımda yarımcan insan olmuşdum. Çalışmaq istəsəm də, işə alınacağıma inanmırdım. Teatra dönəcək durumda da deyildim. Təbrizə dönməyi istəsəm də, əli-qolu sallaq orada nə edəbilərəm fikri qarşımı kəsirdi. Olqaya gəlincə, qarnı burnunda son ağlar baxışları qara deprəm kimi gözümün önünə tikilirdi. Onun bir anda toz kimi gözümdən itməsindən iyirmi il keçsə də, bağrımın başını yandıran közü sönmək istəmir! Hələ də Olqanı dəlicəsinə sevdiyimi bütün canımla, ruhumla hiss edirdim! Olqanı ürəyimdən silmək üçün illərcə özümlə vuruşsam da uğursuz

olduğumu qəbul etmişdim. Mən, olqanın eşqilə, ən ağır əzincləri yenmişdim. Bu üzdən, Olqanı sevməyi, yaşamağı sevmək kimi mənimsəmişdim artıq! Qızıl Hisar Dustağında ürəyimin üstündə qazdırdığım “*Olqanı sevmək yasaq, yasaq, yasaq!”* sözü, əbədi sevginin bir örnəyi kimi sevgilisindən uzaq düşən hər kəsin əzbəri olmuşdu! Artıq qəbul etmişdim ki, bu sevdanın bitib-bitməməsi mənim əlimdə deyil. Mən bir qutsal dəlilik yolunun yolçusu olmuşdum. Sevda yolunda ölməyin sırrını dirənincə anlayırdım. Bu üzdən, Olqadan ötrü ölmək deyil, ölümcül yaşama alışmışdım!

Əlimdə-ovucumda saxladığım Cabbar əminin anıları da, Gülnaz bacının evində qalmışdı! O qaralamaların millət malı olduğunu düşünürkən yerinə yetirilməmiş böyük bir borcdan vicdanım sızlayırdı!

Tehranın bahar havası yay havası kimi isti idi. Bu üzdən mən də, yüzlərlə evsiz kimi “Park Şəhr”də gecələyirdim! Bu park Tehranın tam mərkəzində yerləşdiyinə görə, həm gediş-gəliş yolu sayılırdı, həm də kütlənin əyləncə mərkəzi hesab olurdu. Mənim bir çox günlərim buralarda keçdiyinə görə, özümdən daha köhnə sakinlərlə tanış olma imkanım olurdu! Artıq özüm kimi bir çox yazıqlarla qara gecələri paylaşırdım!

Yavaş-yavaş cibimdə olan pullar azalırdı. Üç-beş gündən sonra durumumun necə olacağını bilmirdim. Mən də “gündüz dilənci, gecə “Səngələk”çilərə qatılacağam! Bu düşüncə, demək olar ki, bütün dərdlərimi unutdurmuşdu. Başı uca yaşamaq yolunda bütün ömrünü verən, insanlığını itirməyən Cəvanşirə nə gəlirdi?

Yox! Mən Cəvanşirəmsə, onun kimi olmağım gərəkirdi! Bu üzdən azacıq iş olsa belə, tapmam gərək idi.

Fəridən şəhərindən olan Ağa Həsənlu adlı əməkli türk öyrətmənlə daha çox zaman keçirirdim. O, mənim həyatım haqda öyrənmişdi. Gecələri parkda yatmağımdan çox rahatsız olurdu. Bir neçə kərə məni evinə dəvət edsə də, istəyini kibarcasına rəd etmişdim. O, hər zaman məni umudvar olmağa çağırırdı. Bir gün məni başqalarının yanından uzaqlaşdıraraq dedi:

- Ağa, gəl gedək iki şiş ciyər-böyrək yeyək. Çox darıxdım bu laməzhəb ciyərin qoxusuna!
- Sağol bəy, sən get, mənim meylim yoxdur!
- (Üzündə gülümsəmə) Gəl gedək! Sənə yalan yaraşmır. İkimiz də dev kimi acıq! İnanmırsan yeyəndə baxarıq! Bir də sənə çox önəmli bir sözüm var! Bu avaralar bilməsin!

Ciyərin qoxusu doğrudan da adama "gəl-gəl" deyirdi. Təbrizdə olarkən, mənim ən sevdiyim yeməklərdən biri də "cız-bız" idi. Bunun da yeri "Gəcil Qapısı" sayılırdı. Hər cümə günü Təbriz Danişsarayından olan oxuldaşlarımla birlikdə cız-bız, ciyər, bağırsaq yemək üçün Gəcil Qapısına doğru gedərdik! Artıq indi o dostlarımın çoxu yoxdur. O dostlarımın bir çoxu Firqə hakimiyyətinin çöküşündən dərhal sonra edam olundular!

Qarşımızda şiş ciyərlər, mən isə keçmişlərə dalmışdım ki:

- Cəvanşir bəy soyutma! Dadını qaçırma! Buyur bəy!

- Hə! Keçmişlərə dalmışdım. Təbrizdə də bu yemək çox sevilir!
- Zatən buranın da sahibi təbrizlidir. O da sən yaşlarda birisidir. Başı aşağı adamdır. Günü öz işilə keçir. Kimsəyə qarışmaz! Ancaq, maşallahı var. Burası hər saat belədir. Dörd beş işçisi var. Adı da Lütfi Çərəndabıdır!
- Kim! Çərəndabı?
- Hə, tanıyırsanmı!?
- Bu ad qulağıma tanış gəlir.
- İstərsən tanış olarsan. O, bu saatda burda olmaz. Dəxil başında duran oğludur. Dönək öz işimizə. Dedim ki, səninlə bir şey danışacağam. Əməkli maaşı ilə ev dolanmır. Veylan gəzib seyran dolanmaqdansa, həm də evin gəl-gedini qarşılamaq üçün artıq bir iş axtarırdım. Və bu işi tapdım! Bir amerikan şirkətidir. maaşı da yaxşıdır. Başı aşağı birisini istəyirlər. Bu işi mənim oğlum tapmışdi. O, bu şirkətdə dilmanc olaraq çalışır. Istərsən mənim yerimə sən get. Sən həm məndən yüngülsən, həm də cavansan. Bir də mənim oğlum orada işləyir. Mən necə oğlumun qarşısına çay qoya bilərəm? Orada gecə qalmağa yer də var. Bir də gecə qoruqçusu kimi ayrıca pul da verirlər. Ancaq, sənin üçün biraz yorucu ola bilər. Bunu da deyim ki, şirkət saat 4-də tətil olur. Bu da sənin üçün gəzib dolanmaq üçün bir fürsətdir.

Ağa Həsənludan borc aldığım göy kostyum əynimdə, Tehranın Şimiran Xiyabanında beşqatlı modern bir binaya girdik. Qapıcı ağa Həsənlu ilə məni resepşuna yönəltdi. Sarı saçlı, enli kürək bir xanım qız, bizim kimliklərimizi gözdən keçirərək sınıq

farsca ilə ağa Həsənluya üz tutaraq “biraz dözün lütfən, oğlunuza deyim”. Sonra telefonu əlinə alaraq ingilizcə gəldiyimizi xəbər verdi. Təbrizdə oxuduğum ingilis dilini unutmamaq üçün əlimə imkan düşən kimi ingilizcə eyitim kitablarını qaçırmazdım. Qızıl Hesar həbsxanası bu baxımdan mənə əlverişli imkan yaratmışdı. Demək olar ki, türmədə bütün günlərimi ingiliz dilinin öyrənməsilə keçirirdim. Türmənin kitabxanası bu baxımdan mənim çox işimə yaradı. Ancaq, bu günədək ingilizcəni sınamaq imkanı tapmamışdım. Ağa Həsənlunun oğlu özünün tam tərsi olaraq, burnu yelli, biraz özünü itirmiş, eqoist biri kimi davranırdı. O, mənim burada olmağımdan rahatsız olduğunu, davranışı və sözləriylə bəlli edirdi! Necə deyərlər,“ağanın malı çıxar, nökərin canı”! Bu “ağazadə”nin də davranışları onu göstərirdi:

- Bilirsiz ağaye Cəvanşir, mənim işim çox önəmlidir! Amerikanlar bizim kimi geri qalan insan deyillər. Onların bizə qarşı üstünlüyü ağalıqlarından bəllidir. Mən atama bir şəsli-məsli birisini demişdim. Bunlara qırx yaşlarında biri lazım. Həm də, ən azından farscanı yaxşı danışıb yazan olmalı. Məncə, siz başqa bir yerdə iş axtarın! Burada işləyən birisi ən azından ingilizcə *“bəli, bəli qurban, siz böyüksünüz, hətmən qurban, baş üstünə qurban”* kimi sözləri əzbər olmalıdır!
- Oğlum, belə danışma! Ağa Cəvanşir mənim xahişimlə burdadır! Mən bu sözlərlə təhqir oluram! Biz buraya gəlmədən sənə dedim. Sən də qəbul etdin! Bir də, çay vermək üçün bu qədər alçalmaq gərəkdirmi?

- Baba mən sizdən əyin-başlı birisini, ən azından amerikalılara layiq birisini istəmişdim!
- Həsənlu bəy: Cəvanşir bəy məni bağışla! Mən bu oğlanın belə alçaq olmasını hiç bilməmişdim. Bu mənim oğlum ola bilməz! Bu mənim başımı yerə dikdi! Siz bu təhqirləri özünüzə almayın! Bunlar yalnız mənə olan söyüşlərdir.
- Mən: Cənab Həsənlu, indinin gəncləri belədir. Tək sizin oğul deyil! Bir də sizin oğlunuz məni özünə yaxışdıra bilmir. Haqlıdır bəlkə, lütfən siz narahat olmayın.
- Həsənlu bəy: Mənim bu nankor oğlumum amerikalılara bu boyda nökər olmasını heç anlamıram! Gedək, qardaşım! Dur gedək!
- Mən: Həsənlu bəy, oğlunuza bu qədər qızmayın! Bəlkə də, ona tapışırılmış işçi gənc olmalıdır. Oğlunuz izn versə, mən özüm buranın müdüri ilə danışardım. Bəlkə məni işə aldılar!
- Həsənlu “oğul”: Mənim rəisim hələ-hələ adam bəyənməz! Sizi heç bəyənməz. Baba bundan sonra səndən bir daha yardım istəmərəm. Mənim abrımla oynadın. İndi sizi kimsə görmədən buradan gedin!

Bu cavan oğlan nə babasına, nə də mənə acımadan, ağızından çıxanı deyib bizi yola saldı. Yazıq ata oğluna tərs baxaraq, az qaldı infarkt keçirsin. Onu zorla ayağa qaldırıb qapıya sarı getdik. Qapı bizdən öncə üzümüzə açıldı! Bir amerikalı otağa girdi. Bizimlə əl sıxışdıraraq, ingilizcə xoş gəldiniz dedi. Oğlan ayağa qaxaraq əskər duruşu sərgilədi. Oğlan bir söz deməyə qalxmadan öncə, özümə cəsarət verib ingilizcə amerikalını yanıtladım. O, mənə dönərək “good, very-very good!/ gözəl,

çox gözəl!” dedi! Mən onunla asta-asta ingilizcə danışmağa başlayıb özümü qısaca tanıtdırdım:

- Mən ağa Həsənlunun atasının dostuyam. O, sizin bir işçiyə ehtiyacınız olduğunu dedi. Mən də işsiz olduğum üçün buraya gəldim.
- Amerikan: Mənim adım “Maykel Şif”dir. Siz, ingilizcəni kitab kimi düzgün danışırsınız. Mən bir ədəbiyyat sevər amerikanam. Sizin danışığınız mənə romanları anımsadır. Mən sizdən məmnun oldum. Burası bir ticarət şirkətidir. Biz, burada Amerikanın bir neçə şirkətini təmsil edirik. İşimiz sadəcə ticarətdir. Ev əşyası satırıq. Burada sadəcə ofis işləri yapılır. Sizin də ingilizcəni bilməyiniz bizim üçün və sizin üçün bir puan sayılır.

  Mən cənab Həsənludan xahiş edirəm ki, sizi işə alsın! Bir də, demişdim ki, gecə burada birisini qalmaq üçün istəyirik. Sizin evinizdən rahatsız olmasalar, gecələri də burada qalıb göz-qulaq ola bilərsiz. Bunu da deyim ki, şirkətdə oğurlanacaq heç bir şey yoxdur! Cənab Həsənlu bu ağanın işə girmək işləmini yapın. Görəvini və aylığını da deyin bilsin. Günü sabahdan işə başlaya bilər.
- Həsənlu“oğul”: Amma qurban...(amerikan rəisin dönüb baxmasından sonra) baş üstünə qurban! Əmrinizi yerinə gətirərəm!
- Maykel: Sizin adınız nədir?
- Cənab, mənim adım Cəvanşirdi. Gördüyünüz kimi biraz yaşlıyam. Bəlkə siz biraz daha cavan birisini istərsiniz! Doğrudur, mənim işə ehtiyacım var. Ama...!

- Maykel: Sözünüz aydındır! Üzr diləröm, sözünüzü yarımcıq qoyuram! Mən sizi bəyəndim və işə almaq istəyirəm! Biz bir kiçik şirkətik. Səkkiz işçimiz var! Bu binanın hamısı deyil, sadəcə bir qatının yarısı bizimdir. Siz burada çox sinsiməsiniz. Sən istərsən işə başlaya bilərsən! Sabahdan işə başlaya bilərsən. İngilizcən də var! Bu da ayrıca işə alınmağında bir puandır! Bir də deyim ki, gecə aylığın ayrı, gündüz də ayrıdır!

Maykel bu şirkətin sahibi, həm də müdüri sayılırdı. O, mənim yaşımda birisi olmasına rəğmən, ikiqat məndən heykəlli və sağlam görünürdü! Çox xoşgülüş və mətin insana bənzəyirdi. Hər gün çay vermək üçün qapısını döyüncə, “cənab Cəvanşir buyur”, deyib hörmətlə məni qarşılayırdı. Çox sevinirdim, ən azından gecələr üçün bir sığınacaq yer tapmışdım. Şirkətin hamam-tualeti sevincimi minə qatlamışdı! İlk kərə vannalı bir hamam görürdüm. Bu üzdən sancıya gəlmiş bədənimi hər gecə vannaya tapşırırdım. İlk başlar burada olmaq çox xoş gəlirdi. Uzun zamanın yorğunluğu canımdan çıxırdı. İlk altı ayı sıxılmadan geridə buraxdım. Bu müddətcə vaxtaşırı dostum Həsənlu bəy gəlib gecələri mənimlə keçirirdi. Burada hətta üç nəfər üçün belə, qalmağa imkan var idi. Burası artıq öz evim kimi olmuşdu! Yeməyim, yatmağım, təmizliyim hamısı burdaydı. Buradan aldığım pulun, hardasa hamısını toplayırdım. Bütün işləyənlər mənimlə olduqca istiqanlı davranırdılar. Oğul Dərvişlu isə ilk davranışından dolayı hələ də özünə gələ bilmirdi. Atası da hələ onu bağışlamaq istəmirdi. Mən isə

durumu normala çevirmək üçün çalışırdım. Ən sonunda ata-balanı bir axşam yeməyində birləşdirdim!

Hayatımın ən şanslı 18 ayını Amerika şirkətində keçirdim! Bu mənim üçün inanılmaz fürsət idi. Amerikan şirkətinin böyük hədəfləri var idi. Maykel doğrudan da bilgin, sosial, işini bilən bir tacir örnəyi sayıla bilirdi! O, şirkəti istədiyi böyük hədəflərə daşıyırdı. Mən 55 yaşıma gəldiyim günədək belə bir müdür görməmişdim. Dediyinə görə, artıq İran bazarı böyük hədəflərinə uyğun gəlmirdi. Bu üzdən şirkətini Güney Koreyaya daşımaq fikrindəydi. O, hətta yaxın illərdə İran bazarının təhlükəli olduğunu deyirdi! Maykel, İran bazarında bundan sonra qalma-qalın artmasını düşünürdü. Sözsüz ki, bir uğurlu iş adamı kimi o da, ölkəsinin bilgi toplayan politika mərkəzlərilə sürəkli ilişkidə olmalıydı! Nə isə, 1975-ci ilin sonlarına doğru şirkətin Güney Koreyaya daşınması gündəmə gəlincə, mən və oğul Həsənlu işdən azad olduq.

Artıq Tehranda qalıb "Park Şəhr"də yatmağı özümə sığışdıra bilmirdim. Təbriz "dəliliyi" elə beynimə vurmuşdu ki, gecə-gündüz vətən-vətən deyə sayıqlayırdım! Tehrana bağlanacaq heç bir motivim qalmamışdır. Ağa Səlimlə Zərifə xanım İsfəhanda olan qızının evindən Tehrana dönərkən yol olayında ölmüşdürlər. Çiçək məndən xəbər almayınca, uyğun birisilə evlənmiş, iki bala anası olmuşdu! Gülnaz xanımın ölməsilə Maşallahxan bəyin qoyduğu bütün irs uşaqların arasında paylanmış, uşaqlar isə hərəsi bir yerə dağılmışlar. Mənsə, işdən ayrıldıqdan sonra, "Sepəh" xiyabanının aşağı tərəfində bir ucuz pansionda özümü ev dustağı etmişdim! Bu üzdən Tehranda

qalmaq üçün əlimdə heç bir bəhanə qalmamışdı. Artıq bu yaşdan sonra kimsənin məni vətəndə tanımasına da inanmırdım. Təbrizə getməyi çox iarzulasam da, çəkingənlik edirdim. Lakin buna baxmayaraq, planımı Təbriz üzərində qurmuşdum! Belə ki, on səkkiz ay boyunca topladığım pulla Təbrizdə kiçik bir ev almağı və işə başlamağı planlaşdırmışdım.

Azərbaycana vətənimə dönmək xəyalı bir an başımdan çıxmırdı! Otuz il vətənsiz yaşamağın acısını yalnız bu dərdi çəkən bilər! Firqənin Təbrizdə keçən ən son kadrlar toplantısını xatırlayıram. O toplantıda "ya azadlıq, ya ölüm" şüarı verən liderlərin bu sözləri ölənədək qulaqlarımda səslənəcək. Liderlər bizi dirənməyə çağıraraq, bir il içində böyük fatih qoşunla Təbrizdə olacaqlarını deyirdilər! Hanı bir ilə dönürdük! Hanı qürbətdə yer salmaq gərək deyilmiş! Hanı azadlıq nisgili çox çəkmədən bitəcəkmiş! Hanı, 30-40 min insanımızın qanı yerdə qalmayacaqmış! Hanı bir çox sorğuların yerdə qalan cavabı? Mən, otuz ildən sonra hansı üzlə ana vətənə dönürəm? *"Salam ana vətən, mən gəldim! Ömrümün yarpaqları ələnərək sənə gəldim! Mən, gəncliyimi qocaldaraq sənə gəldim! Gəldim ki, qoynunda hüzur bulum! Mən, ölmək üçün sənə gəldim! Sözümü tuta bilmədiyim üçün məni bağışla, doğma torpağım! Sənin özgürlüyünü, bağımsızlığını qoruya bilmədiyim üçün məni bağışla! Ey Qurdanalar anası, ey əsir düşmüş özgür ruhlu vətənim, ey Azərbaycanım, mənim kimi qafil, özgələşmiş, milli damarı donmuş balanı bir daha qoynuna alırsanmı?! Qəflətimi, özgəliyimi, donmuş damarımı sıcaq qoynunda dərman edirsənmi! Ey vətən...!"*

☆ ☆ ☆

## Təbrizli illərim!

**(1976-82)**

Məndən vətənin hardan başlayır harda bitməsini soruşsanız deyərəm ki:

*“Vətən, Olqanın Karakum Dədə Qibləsindən başlayan, hələ də varlığına anlam bulamadığımız Qızıl Almanın göz aşırımıdır! Vətən, Qafqazla Zaqros arasında başı kəsilmiş Arazın axan qanıdır. Vətən, yasaq sınırlarını ağ qanadlarında birləşdirən könüldən-könülə oxşayan türkülərimin gözyaşdır! Vətən, Qurdananın ürəyində bitən sevginin ana laylasıdır! Vətən, üstünə ayaq basırkən inləyən torpağın həniltisidir! Vətən, qan damarından sulanan al yanaqlı qara göz lalədir! Qızıl şəfəqdən saçaqlanan al sancaqdır vətən! Vətən, Oğuzxan dədəmin öpdüyü torpaqdır! Vətən, görünən nəsnəl, duyulan öznəldir! Belə bir anlamdır Vətən!”*

30 il bundan öncə, içdiyim suyun dadı heç dəyişməmişdir. O zaman sürgün arabası, bu bulağın yanında saxlamışdı. İndi bir daha bu bulağın qarşısındayam. Yenə də “Olcayto” əsəri – möhtəşəm Sultaniyə gözümün önünü kəsmişdi! Burada ilk tarix dərsini Fərəc əmicandan almışdım! Qışın dəhşətində anamın, bacımın ölümündən alovlanan yanar ürəyim, ilk kəz burada sərinlik tapmışdı!

TBT avtobusu sürətlə Zəngana yaxınlaşırdı! Mənim yaralı vətənimin ən nisgilli yurdu! Nədənsə, Zəngandan keçərkən utanırdım! 30 il öncə farsların qurqusuna qurban gedən ilk yurdum! Nədənsə Zəngan hələki-hələdir, düşünən qafalara baş ağrısı verir! Hələ də açığa çıxmayan gizli soruların sancısını çəkir Zənganım!

*Burur bizi Miyana!*
*Gah buyana, oyana,*
*Zülmün kökü yanmasa,*
*Qaflan gərək oyana!*

*Yollarım kəsmə-kəsmə,*
*Yel əsir əsmə-əsmə,*
*Qoy Təbrizə çatım mən,*
*Qaflantım, yolumu kəsmə!*

*Ağır yük var belimdə,*
*Un yer salıb telimdə,*
*Ağ açmadan inşallah,*
*Buluşaram elimdə!*

*Rüzgar əsdi keçdi,*
*Qan təri kəsdi keçdi,*
*Göktanrıma min şükür,*
*Bu il də gəldi keçdi!*

Qaflantı dağları bizi bağrına çəkərək Təbrizə doğru uğurlurdu. 30 ildən sonra Miyana daha böyük görünürdü. Sözsüz ki, irəli getdikcə sadəcə böyümə deyil, bir də Farsistanla Azərbaycan arasında uçurumun dərinliyi gözə çarpırdı! Sanki vətən bağırırdı:

*Oğlum qoynuma gir! Ananın nə qədər çarəsiz olduğunu duy! Bax! bağrımdan qopan həniltiyə! Bax, ürəyimin başında yer salan yaraya! Bax, oğlum əsarətimə! Daşımın üstünə daş qoyan yox! Səni Təbrizə uğurlayıram, vətənə, yurda xoş gəldin! Keşkə xoş gəlmiş olasan!*

Uzaqdan parlayan qabarcıqların saçağı Quru Gölün izlərini açığa çıxarırdı. Şoferə yaxınlaşaraq, beş dəqiqə quru göldə saxlamasını xahiş etdim. Şofer ilk öncə burada saxlamağın yasaq olduğunu söylədi. Sonra xahişimin nədənini bilincə, məni yanındakı qoltuqda oturdaraq, olayın necə olduğunu öyrənmək istədi. Quru Gölə çatanı beş-on dəqiqə içində sürgünə getmə günlərimi qısaca anlatdım! 30-35 yaşlarında olan şoferin içini alovlandıran qığılcımlar dodaqlarının titrəyişində fışqırırdı. O, harda saxlayacağını sordu. Sonra avtobusu Quru Gölün torpaq çevrəsinə çevirib, saxlarkən üz tutub yolçulara söylədi:

- Əziz müsafirlər aramızda olan bir dostumuzun anasıyla bacısı Quru Gölün yanında torpağa tapışırılıbdır. Beş-on dəqiqəlik fatihə vermək üçün saxlayacayıq. İstərsiniz maşında qalın, istərsinizsə təmiz hava udub və fatihə veriniz.

Quru Gölün önündə böyük dəyişik yox idi. Amma arxalarında bir neçə binanın salınması gözə dəyirdi. Biz otuz il bundan öncə

elə bu yaxınlarda məzar qazmışdıq. İki başdaşı, biri böyük, biri kiçik, anamla bacımın qəbirlərini bəlli edirdi. Çox dolanmadan yadımda qalan böyük qarağacı tapdım. Bir-birinin yanında torpağa cummuş iki daşı tanıdım. Daşları qaldırmağa can atsam da, uğursuz geri çəkilib, beş sağ barmağımı iki daş arasında torpağa qoyaraq anamın və bacımın anısına yuydum! Maraq üzündən olsa da, uşaqlı-böyüklü məni izləyən hər kəs anama və bacıma fatihə oxudular. Yolçuların bir çoxunun marağı qarşısında sürgün olayını sürücüyə anlatdığım kimi, onlara da dedim! Türk olmayan iki-üç nəfərdən başqa yaşı çatan hər kəsi üzü büzük gördüm! Sürücünün istəyilə onun yanında olan boş qoltuqda oturdum!

Burası Şibli Gədiyidir! Anamın, bacımın ardı-ardına canını alan Şibli bu kəz acımasız deyildi, can almırdı! Otuz il öncəki Şiblilə bu Şibli arasında çox fərq var idi. Bu Şibli artıq maşınların gəliş-gedişinə yol verirdi! Buna baxmayaraq, Şibli mənim gözümdə otuz il öncəki qatil gədik sayılırdı!

Şiblini yenincə ilk öncə sərin bir hava, sonra isə göy gurultusu bizi qarşıladı! Yol, birdən-birə leysan yağmuruna təslim oldu. Elə bir yağış yağırdı ki, avtobusun silgeçləri də qarşını görməyə yardımçı ola bilmirdi. Maşın yavaşcasına irəliləyirdi. Bu durum çox çəkmədən sona yetdi. Hər şey öz normasına döndü. Ancaq mən zaman keçdikcə, sanki anormallaşırdım. Şofer mənim uğraşımı görüncə dilə gəldi:

- Vətənə girincə hər kəs həyəcanlanır, Cəvanşir bəy! Mən hər gün bu yolların yolçusuyam. On altı yaşından şofer şagird

olaraq bu işə girdim. Bununla belə, hər zaman Təbrizə girdiyimdə, sanki başqa bir hal olur mənə!

- Sən ki hər gün gedib-dönürsən, bəs bu həyəcan nədən?
- Doğrudur, mən hər gün gedin-dönürəm, ancaq evimə, məni gözləyənlərin yanına dönürəm. Mən Tehranda ikən terminaldan bayıra çıxmaram! Tərsinə Təbrizdə də olunca, məni kimsə terminalda tapa bilməz! Təbrizə çatar-çatmaz maşını şagirdin əlinə verib, evə sarı yola düşərəm. 3 yaşında Aynur qızımı görüncə, bütün yorğumu unuduram! Bu həyəcan deyilmi, səncə?!
- (Əlimdə tutduğum yaylığımla asta-asta gözümü silə-silə) Doğrudur bundan böyük həyəcan olmaz! Allah Aynurunu saxlasın! Neçə balan var?
- Bağışla Cəvanşir əmi, səni rahatsız elədim. (özünə işarə edərək) "Ay mənim qanmaz qafam"! Sən allah məni bağışla, Cəvanşir əmi! Bilmədən bunları sənə dedim! Deməməliydim! Balalarımı görmək istəyirsən, əmi?
- Əlbəttə, qismət olarsa!
- O zaman bu gecə bizdəsən! Etiraz istəmirəm! Bu gecə mənim şəxsən qonağımsan. Sabah yola çıxmayacağam. Oturub planlarını düşünərik. Məni öz oğlun bil! Əlimdən gələn yardımı edəcəyəm! Təbriz səni gözündə saxlamalıdır. Otuz ildən sonra sürgündən vətənə dönmək böyük bir igidlikdir. Darıxma, əmi!
- Sağol oğul, mən hələ sənin adını belə, bilmirəm. Sən məni qonaq aparmaq istəyirsən. Sağol, vallahi, oğulsan! Ancaq, mənə bir babat hotel göstərsən daha çox rahat olaram.

İnşallah balalarını sonra görərəm! Bu gecə Təbrizlə danışacaq çox sözlərim var! Yalnız qalarsam, çox yaxşı olar!

- Əmi mənim adım Aslandır. Bax! Bizim uşaqlar rahatsız olmazlar. Bu gecəni bizdə qal. Sabah sənə bir ev ayarlarıq.
- Sağol oğlum! Urəkdən dediyinə ən kiçik şübhəm yoxdur. Amma dedim ki, bu gecəni cananımla qalmaq istəyirəm!

Təbrizə yaxınlaşdıqca, ürəyimin çırpıntısı canıma qorxu salırdı! Qorxum, içimdə olan aşırı titrəyişi bərkişdirirdi! Bir ömür yurd nisgili çəkəndən sonra, qoynuna girmədən ölmək diləmirdim. Təbrizə girmədən məni ayaqdan salacaq əngəlləri enməyim gərək idi. Nə olursa-olsun sağlam və güclü olmalı idim. Vətən məni güclü, inamlı və iradəli görüncə, üzümə gülər. Ana yurd, balasının gücü ilə güc qazanar ancaq!

Yağmurdan sonra qıp-qırmızı saçaqlanmış günəşin batma çağını seyr etməkdən gözəl an yoxdur! Göz işlədikcə buludları dələn şəfəqlərin həmən ardından mavi göy yer üzünü işıqla bürüyür! Sanki, avtobus bütün gücü ilə günəşin içinə sarı irəliləyirdi. Elə bil Aslan, günəş batmadan ona çatmağa can atırdı! Yağmurla günəşin bir araya gəlməsilə, mənim iç titrəyişim böyük ölçüdə azalmışdır!

Günəşin gözlərdən silinməsilə uzaqdan yanar-sönər çiraqlar görünürdü! Marağımı çəkən bu çiraqları Aslandan soruşdum:

- Cəvanşir əmi, bu çiraqlar “Vəliəhd Köyü”dür! Siz buralardan gedəndə bu şəhərcik salınmamışdır. Böyük və gözəl bir şəhərcikdir. Bərq Lame Hovla fabrikasının maliki Hac Xoyu

saldırıb buranı! Hələ də böyüyür. Bütün pullu bazarılar buraya axınıblar. İndi birazdan durub, müsafir endirəcəyəm!

- Bəs sol yanımızda olan çıraqlar?
- Ora da bir yeni şəhərcikdir. Basmınc yolunda tikilir. Təbrizi durdurmaq olmur. Hər yerdən buraya axınırlar. Təbrizlilər özləri də Tehrana gedirlər. Elə deyilmi?
- Elədir Aslan bəy. Tehranın yarısı türkdillidir.
- (Şofer şagird uca səslə) Vəliəhdə yaxınlaşırıq. Burada enənlər hazır olsunlar. Sonrakı durağımız Abrəsan dörd yolu olacaqdır.

**Türkülərimin Gözyaşı!**

Təbrizin girişi otuz il öncəkinə görə, böyümüşdü. "Təbriz Şəhərinə Xoş gəlmisiniz!" tablosunu görüncə, az qalsın ürəyim dayanacaqdı. Şofer şagirdi gözünü məndən çəkmirdi. O, əlində olan su bardağını mənə uzaldaraq *"bunu iç, əmi"* dedi. Suyun içində buz parçası var idi! Suyu içib buz parçasını ürəyimin başına qoydum. Vəliəhd köyünün ağzında bir neçə nəfər enəndən sonra maşın hərəkət etdi. İrəli getdikcə Təbrizin otuz il içində çeşidli dəyişikləri gözə gəlsə də, Tehranla müqayisədə çox geri saxlanıldığı bəlli olurdu. Mən otuz il bundan öncəki Tehranla o zamanki Təbriz arasında böyük bir fərq görmürdüm. Ancaq buracan gördüyüm Təbrizlə Tehran arasında böyük bir uçurum gözə dəyirdi. Dilədiyim Təbriz bilimyurdunun qarşısında keçirdik. Böyük bir tablo üzərində "Azərabadegan Üniversiteti" yazılmışdı. Bir an öz-özümə düşündüm ki, olmaya Azərbaycan adı Azərabadegana çevrilibdir!

Dediyim kimi Təbrizim çox böyümüşdü. Ancaq, gördüyüm Tehran yanında dərəcəsiz bir şəhər sayılırdı. Bu da normaldır. Bir işğal altında olan ölkənin halı bundan yaxşı ola bilməz! Mənim yurdumun yeraltı-yerüstu bütün varlığı talanır. Təbriz bu gündə ikən Ərdəbilin, Xoyun, Qaradağın, Marağanın, Xiyavın, Üzərindən keçdiyim Zənganın, Miyananın, gələn-gedənin tapdağı altında qalmış Urmunun durumu necə olacaqdır!

Təbrizin mərkəzində yerləşdiyim bir hotelin balkonundan durub keçib-gələn milləti izləyirdim! Nədənsə, hamını sevirdim! O an bir-bir hər kəslə qucaqlaşıb-öpüşməyi diləyirdim! Sanki içimdən ulusumla pıçıldaşmaq gəlirdi! İllər boyu belə sevgi dolu baxışım olmamışdı! Dünyanın bütün qaranlıqlarını və hətta ondan daha bətəri olan Olqanı unutmaq istəyirdim! Azərbaycanımın qarış-qarış daşına da, yaşına da, qurusuna da Urmusuna da, Ərdəbilinə də, Bakısına da, bütün vətənimi ürəyimə calayan Təbrizinə də qurban!

*“Bura vətəndir, Gülü bitəndir, Əlim çatandı, Ünüm yetəndir! Bura vətəndir, Bura vətəndir!0...... Bura Arazdır, Suyu dayazdır, Gəmi buz tutur, neylim ayazdır! Bura vətəndir, bura vətəndir!”...*

Axar göz yaşlarım kimi, “Bura Vətəndir” mahnısı da ürəyimdən qoparaq çalıquşlarımın dimdiyində vətənimin dağlarına, bağlarına, ilməkdən doğan naxışlarına aparılırdı!

Bir neçə il bundan öncə Tehranda aldığım bir kasetdə “Akif İslamzadə” adlı gənc Azərbaycan müğənnisinin mahnısı aylarca

dilimdən düşmədi! Qaranlıqda bütün aydınlar batar kimi, mənim də ürəyimin mahnısı batdı! Deməsk ki, bu dünyada batmış heç bir işıq yoxmuş! Varsa da, gizli-saxlı var imiş! O saxlılardan biri də, sən demə, hotel balkonunda yenidən doğulacaq "Bura vətəndir!" pıçıldısı imiş!

Aslanın önərisilə əlimdə olan pulu banka yatırdım! Aslan çox doğru olaraq məni ev almaq fikrindən geri çəkindirdi. Mənim əlimdə olan pul, yalnız bir otaqlı ev almaq üçün yetərli idi. Bəs yeyib içməyim necə! Mən evlərin 30 ildə bu qədər bahalaşmasına inanmırdım. Nə isə, bir illiyinə para yatırım hesabina kiçik bir ev kirasilə yaşantı xərcim qarşılandı. Yenə bu igid oğlanın yardımıyla, sonunda fərş bazarında bir iş tapdım! Hacı Məmi Şəmsazər Təbrizin xalça bazarının ən tanınmış tacirlərindən sayılırdı. Onun dükanına çox gəl-get olurdu. Mənim ilk aylarda işim çay vermək və təmizlik idi. Dükanın mirzəsinin gözdən düşməsilə, mənə gün doğdu! Mən, hacıya savadlı olduğumu dedim! Hacı, mirzəliyin çətin olduğunu vurğulayaraq, diplomun olmasının vacibliyini söylədi. Mən, diplomdan daha üst düzey eyitimli olduğumu deyincə, yerindən durub, ilk kəz olaraq özünə və mənə çay süzdü! O, öncə inanmasa da, gerçəyi öyrənincə, dadlı dilini işə salaraq, bir təbrizli bazar adamının özəlliyini ortaya qoydu:

- Bəliiii... Ağa Cəvanşir, mən ilk gündən sənin baş-qulaqlı adam olduğunu başa düşmüşdüm! Bilirdim ki, bəlli-başlı adamsan! Qardaş, bəs niyə indiyənə qədər dinmirdin!?

- Hacağa bir çay verməyin, bir süpürgə çəkməyin savada nə dəxli var! Mən, həftəlik 200 tümənə xidmət edirdim! yalnışımı gördünüzsə, buyurun?
- Yox, yox! Allah razı olsun! İşin də, özün də halaldır. Mirzə Qasım ağanın dəftər-dəstəyinə istərsən bir bax! Bütün hesab-kitab oradadır!

Artıq Hacı Şəmsazərin hər işini görürdüm. Aylığım da qat-qat altmışdı. İşim inanılmaz yaxşı gedirdi. Vətən üzümə gülürdü. Yaxşı dostlar tapmışdım. Hər gün axşamlar İsmayıl qəhvəsinə gedir, yaşıdlarımla xoş zaman keçirirdim. 1945-ci ildən tanıdığım bir neçə dostumun sorağını aldım. Onlardan biri Əbullah Minbaşı adlı okuldaşım, biri isə Məmmədnəqi Abbaszadə Dehqani idi. O zaman biz üçümüz bir neçə dəfə Firqə tərəfindən işçilərin, əkincilərin yanına gedərək, onlarla çalışmışdıq. Firqənin çöküşündən sonra qaçanlardan başqa, sadəcə bu iki dostumun edam xəbərini eşitməmişdim. Qalan hər kəs öldürülmüşdü! Bu üzdən keçmiş dostlarımı tapmaq üçün hər kəsi səfərbər etməyə çalışdım. İsmayil Qəhvəxanasında xatirim əziz idi. Özəlliklə, gənclər içində hörmətim çox idi.

Aylar keçəndən sonra, bir gün qəhvəxanada oturmuşdum. Altmış yaşlarında birisi qapıdan içəri girər-girməz mənim masama gəldi:

- Ay kişi, salamüləleyküm, məni tanıdın? Günlər, aylar, illər nə tez gəlib-keçdi? Diqqətlə bax! Uzun zamandır

görüşmürük, Cəvanşir bəy! A kişi, haralardasan! Ayaqlarında güc qalıbsa, dur gedək Hoca kəndinə!

- Göktanrıma şükür olsun! Əbulla bəy, bu sənsən?
- Hə! A kişi özüməm! Kəfən yırtan Əbulla!

Otuz ildən çox bir-birindən uzaq qalmış iki qardaş kimi qucaqlaşıb ağlaşdıq. Qəhvəxanada bayram havası yarandı. İsmayil ağa öz hesabına, hamıya çay dağıdırdı. Bu az imış kimi, yanında da, qənnadidən dadlı şirni gətirdirdi! Bu axşam ulusun içində olmağın əsl anlamını bütün varlığımla hiss etdim! O axşam "Mən bir daha bu torpağı, bu milləti buraxıb, cənnətə belə getmərəm!" deyib özümə söz verdim!

Bir gün Əbulla bəy, axşam yeməyi üçün məni evinə dəvət etdi. Bir qız, bir oğlan övladı var idi. Onlar da evlənib özlərinə yaşam qurmuşdular. Evdə həyat yoldaşı Haciyə xanımla tək yaşayırdı! Yeməkdən sonra Haciyə xanım bizdən izn istəyərək, yatmağa getdi! Biz, uzun-uzadı söhbət etdik. Kütlə içində deyilməsi doğru olmayan başımızdan keçənlərin hamısını bir-birimizə anlatdıq. Əbulla bəy mənim başımdan keçənləri eşitdikcə, boyun damarları şişməyə başladı:

- Əbulla bəy, istərsən sonraya qalsın? Yorğun olarsan birdən! Gec vaxtdı!
- Yox a kişi, sən Allahın danış! Davam et! Sənin başına nələr gəlməyib ki!

Başımdan keçənləri qısaca anlatdıqdan sonra, Məmmədnəğı bəyin olayını soruşdum:

- Əbulla bəy: Öncə də dediyim kimi, Məmmədnəği bəy uzun xəstəlik çəkdi! Onu, yoxsulluq, rematizma xəstəliyi və bir də övlad dərdi yıxdı! Rəhmətliyin otuz iki yaşında sərv boylu oğlunu Savak heyvanları şəhid etdilər! Əşrəf adlı bir qızı həbs edilərək zindana salındı! Hələ bunda qalmayıb, Ruhəngiz adlı böyük qızı da azadlıq şəhidi oldu! İntihar dedi rejim! Millət də inandı!!! Onun şəhid oğlu- Behruzu yaxşı tanıyırdım. Çox igid, dəliqanlı, savadlı birisi idi. O, Ruhənin yaşam yoldaşı Kazımla və Səməd ilə çox yaxın yoldaş idilər! Bu igid qəhrəmanların üçü də indi torpaq altındadır! Səmədin yazdığı çox kitabı var! Uşaqlar üçün yazdığı kitbacır əldən-ələ gəzər! Mən, qızımı-oğlumu onun kitablarıyla böyütmüşəm! Səmədi Arazda boğdular! Tifilin 28 yaşı hələ tamam olmamışdı! Behruzun Səmədlə birlikdə yazdığı Azərbaycan folklur kitabı ilə birlikdə bir neçə əsəri var. Şəhid olan zaman onun cəmi 30-31 yaşı var idi. Onunla Kazım və Əşrəf Xalqın Çirikləri örgütünün üzvləri idi. Onların amacı Şah rejimini silahla aradan qaldırmaq idi. Necə balalar şəhid getmədi ki, necə balalar getmir ki, indi!
- Rəhmətlik Məmmədnəğinin qəbrinin harda olmasını mənə deyərsənmi?
- A kişi, sən özün gedib tapa bilməsən! Mən səni məzar üstə götürərəm!
- Abulla bəy, Səməd Behrəngini tanıyırdın?
- Yox! Mən tanımırdım. O, sonralar çox tanındı! Mənim oğlum bir neçə dəfə onu Sırxab Qapısında görmüşdü! Orada bir çayxanada hər zaman dostlarıyla toplanarmışlar! Onun da yaşı çox deyildi! Sənin qədimdən bir Göktanrın var idi!

(gülə-gülə) O Göktanrın qalırmı yenə!? Qalırsa ona de ki, bu irq düşmənimiz, faşist Şahı rejimilə birlikdə yoxa çıxartsın! Vallah bu işi görərsə, sənin dininə qatılan ilk mən olaram!

Bir neçə gün sonra Əbdulla bəylə birlikdə Məmmədnəğı bəyin qəbrini ziyarət etdik!

Onun Milli Hakimiyyət zamanında Ərdəbil bölgəsində xanların əlilə şəhid olmuş bir fədainin məzari üstündə oxuduğu bir qoşmanı anımsadım:

*"Papağın varsa, sat xərc et,*

*Tüfeyli olma namərdə,*

*Cahanda varsa bir mərdlik,*

*Papaq əskik deyil mərdə!"*

## **<u>Təbriz Zindanı!</u>**

## **(1977-78)**

1977-ci ilin ortalarında məni Hacı Şəmsazərin xalça dükanından götürdülər! Üç şəxsi polis gözümü bağlayıb, əllərimi qandallayaraq, Bazar içindən çıxarıb uzun maşına mindirdilər. Maşının haralardan getdiyini bilmədim. Gözümü açarkən, quş yuvası boyda tək adamlıq odacıqdaydım! Nə olub-bitdiyini özüm də anlamırdım! Təbrizə gələndən bəri sakit həyat sürmüşəm. Kimsəylə qurğu qurmamışam. Siyasətlə

maraqlanmamışam, getdiyim yer sadəcə Bazar, İsmayil Qəhvəxanası, ev idi! Hətta başımız ağrımasın deyə, Aslan bəyin Ay kimi gözəl dul xalasından xoşlandığım halda, bu sevdadan vaz keçərək yalnız yaşamı seçmişdim! Bunların məndən nə istədiklərini bilmirdim!

İki gün dindirdikdən sonra, məni gözü bağlı bir kiçik həyətdən keçirib, nərdevanın üstündə yerləşən bir otaqda saxladılar. Gözlərimi açan zaman iki dev boyda məmuru qarşımda gördüm:

- Məni nə üçün buraya gətiribsiniz! Suçum nədir?
- Birinci məmur: Sus, qoca kaftar! Niyə burda olduğunu çox gözəl bilirsən! Fəsad cavanlığın bəs deyilmiş, bir də qocalığında fırq-fasad dalındasan! Yazıq, səni bir barmağımla cəhənnəmə göndərərəm. Burnunu tutsam, canın çıxar! Sərçə boyunla cıvıl-cıvıl ötüb dev qorxudursan qoca cimcik!
- Mən kimsənin toyuğuna kiş demədim. Gəncliyimdə nə etdim ki, indi onun qisasını verim?
- İkinci məmur: Sən ha...! Rus nökəri! Oturub orda-burda casusluğunu anladırsan! Səni ruslar nə yapsınlar! Haralarına şaf etsinlər. Sən özünü adam hesab edirsən cimcik?! Heç gözgüdə özünə, o meymun süfətinə baxıbsanmı? Niyə Tehrandan Təbrizə gəldin? Gəldin ki, bizim başımızı ağrıdasan, yoxsa o q... matışqa Olqaya və rus ərbalarına yaxın olasan!?
- Birinci məmur: Mənim bu dostumun adı Məhbubdur! Bu adı ona terroristlər veriblər! Onların yanında elə məhbubdur ki,

gəl görəsən! Terroristlərin içində mənim də bir adım var - Qəssab! Mən, qonaqlarımın yanına əliboş gəlmərəm. Bir çapacaq, bir yarıq, bir də bax bu biz! Bunlar mənim qonaqlara töhvəmdir! Mən bunlarla inadçıların dırnağından girər, gözlərindən çıxaram! Qonaqlar çox bağırıb-anqırmasınlar deyə, Məhbub əfəndi tək bir qurşunla onları mənim əlimdən qurtararaq, Məhbub olar! İndi anladınmı!? Yoxsa bu qoca çağında "filet yade Hindistan Kərde!"(filin hindistanı özləyib)!

- Mənim dediklərinizlə heç ilgim yoxdur. Tehranın Qəsrində, Evinində, Qızıl Hisarında bu ittihamların boş olduğu ortaya çıxıbdır! Hətta Şahın şəxsi əfvinə şamil olmuşam! 5 il zindandan 14-15 ayını əfv tutubdur. Mən, öz vətənimdə yaşamaq üçün Təbrizə gəlmişəm. Olqa 30 ildir mənim həyatımda yoxdur. Heç yaşayıb yaşamadığını belə, bilmirəm. Dünyada ən çox nifrət etdiyim Rusiya dövlətidir! Rus sözünü eşidəndə canıma intiqam havası düşür! Siz, məni necə belə alçada bilərsiniz?! Məni asın, kəsin, dilim-dilim doğrayın, qurşuna düzün, ancaq ruslara bağlamayın!
- Qəssab: Demək etiraf etmək istəmirsən! Bizim belə sözlərə qarnımız toxdur! De görüm, niyə İsmayil qəhvəsində oturub nizamın əleyhinə danışırsan, cavanları havalandırırsan?
- Mən, bir neçə dəfə başıma gələnləri danışmışam. Baş üstünə bundan sonra lal olaram! Kimsəyə ağzımı açıb, bir kəlimə söz də demərəm! İstərsiniz İsmayil qəhvəxanasına belə, ayağımı qoymaram! Daha nə istəyirsiniz?
- Məhbub: Bəlli ki, bunun canı bir balaca masaj istəyir, Qəssab ağa!

- Amma bax! Yaxşı yerə gedirik! Mənə belə gəlir ki, bu hacı-quzu istədiyimizi verəcəkdir! Elə deyilmi, ağa Cəvanşire sərçə zadə?
- Mənim sizə verəcək nəyim var ki!? Siz buyurun, uşaqlar!
- Bax gördün, Məhbub? Dədəmiz bizə uşaq dedi! Bizim bir sözümüzü iki etməyəcək! Bizi qırmayacaq sərçə atamız!
- Məhbub: Görünür ki, sən bizim atamız oldun! Bax gör nə deyəcəyəm atacan! Səni yuxarıların əlindən qurtaracayıq! Sənin ruslarla olan ilişgini gizli tutacayıq! Sənin nizamın dostu olduğunu söyləyəcəyik! Sənin matışqa Olqanın arxasında olduğunu kimsəyə deməyəcəyik. Sənin Bakıya qaçma planını öz aramızda saxlı tutacayıq. Sənin, İsmayil Qəhvəxanasında kommunist gənclərlə iş birliyində olduğunu öt-basdır edəcəyik! Səni sağ-sağlam işinə, evinə qaytaracayıq. Hətta işinə ziyan dəyməsin belə, hacı Şəmsazərə də tapışırıq verəcəyik! Bütün bu yaxşılıqlara qarşı, səndən bir istəyimiz olacaqdır. Sən, biz uşaqlarına çiraq və göz-qulaq olacaqsan!
- Qəssab: Elə bu qədər Məhbub? Yox, qardaş olmaz! Mən qonağımı masaj etmədən buraxmaram! Vallahi olmaz, billahi olmaz! Bu günün siftəsini kor etmə qardaş! Bir də, bəlkə bu iş baş tutmadı. Yuxarıdakılara nə cavab verəcəyik? Məncə, bu cılızın üstündə hesab etmə! Bundan bizə dədə-mədə çıxmaz! Ver mənim əlimə burdan get! Bir saat sonra bağırtıdan qurtar və dədənin məhbubu ol!
- Məhbub: İzn ver, bu dəfə mən deyən olsun! İşlər dediyim kimi getməsə, al sənin olsun!

- Sizlər özünüz kəsir, özünüz də biçirsiniz! Məni qurban payı kimi aranızda bölürsünüz! İstərsəniz məni məhkəməyə verin! Məni öldürməyə gətirmişsinizsə, öldürün! Mən sadə bir vətəndaşam. Kimsəylə işim yoxdur. Buraxın gedim evimə, işimə! Öz vətənimdə qalıb sizə casusluq edməkdənsə, sevə-sevə ölümü seçərəm! Buyur, gəl canımı al qurtar, cənab Qəssab!

Bilmirəm nə oldu-olmadı, o gündən sonra bu iki maskalı-papaqlı məmuru daha görmədim! Məni Təbriz həbsxanasının keçici bölümünə verdilər! Kommunist terroristi qruplara sempatiyalıqdan, Nizam-e Şahənşahiyə qarşı yalan təbliğatdan, rus casusluğunda şübhəli şəxs kimi qalmaqdan yana kəskinləşməmiş tutuqlu elan olundum!!! Həftədə ən azı bir dəfə soruşdurma üçün məmurlar qarşısına çıxarılırdım! Ağır olmasa da, iqrar üçün şillə-təpik altına salınırdım! Artıq canım top kimi olmuşdu! Hər zərbədən ufuldamırdım. Burda da, etmədiyim günahlar üzündən, az qala qəhrəman olurdum! Yaaa... Qəhrəmanlıq belə bir iş! Örnəyin, sənin adın Aysan olsun, özün də qız olasan! Sənə Aydın, üstəlik qız deyil oğlansan desələr qəbul etməlisən! Yoxsa, doğal adını və cinsiyyətini müdafiə etsən, qəhrəman olursan!!! Mənim hekayəm belə bir örnək idi! Həftə görüşləri mənim üçün bir başqa özəllik daşıyırdı. Belə ki, iyirmi beş il öncə yoxa çıxmış Olqanı döyə-döyə mənə anımsadırdılar! Özüm də istəmədən, Olqa sevgisi içimdə oyanırdı! Bayırda ölmüş-bitmiş Olqa, dustaqda gözümün içinə dikilirdi! Savakın işgəncəsilə canlanan Olqa baxışı, gülüşü, sevgisi motivləşməgim üçün işimə gəlirdi! Onlar məni ruhdan

salmağa çalışsalar da, tərsinə ruhlanırdım! Məni tək bezdirən şey, sürəkli olaraq eyn sözlərin dilə gəlməsi idi!

Artıq, suçsuz, əzgin, bezgin olmaqdan usanmışdım! Bundan sonra, suçlu olmaq istəyirdim. Bundan sonra, etdiyim suçlar üzündən özümə qıvanc duymaq istəyirdim! Uca səslə suçlu olduğumu hayqırmaq istəyirdim bundan sonra! Amma necə? Suçlu olmağın yollarını bilmirdim ki! Kimsə, necə suç işləyəcəyimi mənə öyrətməmişdir! Bunun üçün yenidən öyrənmək, başdan başlamaq gərəkirdi!

Təbriz dustağı Qızıl Hisardan sonra daha açıq türmə sayılırdı. Qoğuşda məndən başqa altı yaşıdım var idi. Qumarbaz, oğru, dələduz, təcavüz kimi ittihamlar üzündən həbs edilən bu zavallılarla dərin söz-söhbət anlamsız idi! Həyatları mənim kimi qara buludlar arxasında keçən bu qoğuşdaşlarıma nə anlatsaydım boşa gedəcəkidi! Əlimdə neçə ox qalıb ki, onu da sıldırım daşa tuşlayım! Bunlarla günaha girmək belə, istəmirəm! Örnək olaraq, məndən sonra qoğuşa gəlmiş 66 yaşlı Kəblayı Fərəcüllah vətəndaş, nədən türmədə olduğunu belə anlatırdı:

- Allahdan gizli deyil, sizdən nə gizli! Mənim macəram, namus məsələsidir! Namussuz qızımla, namussuz damadı yaxaladım! Bir axşam, gün batarkən xırmandan evə döndüm! “Arvad-arvad” deyə səsləndim, cavab verən olmadı! Acıxmışdım, bir bəllə çörək ağzıma qoyub, tövləyə baş çəkdim. Arvad orada da yox idi! Doğrusu, uşaqların anası ömrünü sizlərə bağışlamışdı. O üzdən mən də yalnız

qalmayım deyə, xırman yığan yoxsul bir həmköşənin qızını özümə arvad etmişdim. Sünbül deyilən yeni arvadımın gözü uşaqlıqdan oğlum Həbibin üzərindəydi. Həbib də onu istəyirdi. Həbibin rəhmətlik anası da Sünbülü istəyirdi. Tanrı şahiddir ki, mən də onu oğluma istəyirdim! Haciyə vaxtsız dünyadan getdikdən sonra, Həbib kiçik qardaşı ilə birlikdə Təbrizə köçdü! O, Sünbül ilə bir qərarlar qoysa da, bundan mənim xəbərim olmadı!

- Kərim adlı qoğuşdaş: Kərbəlayı, demə ki, dəyirmanı suya vermisən, haa!
- Abbas adlı qoğuşdaş: Halal olsun qoca de, ha de! Mənim bu paşama bir çay gətir, Dilbaz!
- Dilbaz: Baş üstünə Abbas dadaş! Şəkərli olsun, yoxsa acı!
- Abbas: Başın bibəla! Bol şəkərli olsun! Hamıya ver! Buyur Kərbəlayı!
- Fərəcullah: Bu Həbib var ha, bu namussuz Həbib! Demə mənim arvadım olacaq Sünbülə məktub yazır ki, Təbrizə daşınacaqlar. Burada bir ev almağa çalışırmış! Gəlib kənddə evlənəcəkmiş, sonra Sünbülü alıb Təbrizə gedəcəkmiş! Mənim bunların heç birindən xəbərim olmadan, oğlanın Təbrizdə evlənəcəyini düşündüm! Mən də bu gəlinim olası 18 yaşlı qızı başqasının əlinə verməyim deyə, bahasına atasından aldım və özümə arvad etdim. Qız utanmadan mənə dedi ki, *“Baba mən Həbiblə evlənmək istəyirəm”*. Namussuz qız mənə baba dedi! Mən də basdım altıma zorla da olsa, namusumu təmizlədim! Demə ki, namussuz oğlum mənim xəbərim olmadan arvadımda gözü varmış! Artıq iki ildir namussuz

oğlumdan xəbər-ətər yoxdu!Dilbaz: Hə! Həbib arvadını qaçırdımı!?

- Fərəcullah: Ohaa! Danışmağını bacar! Həbib kimin iti olub ki, mənim arvadımı qaçırsın!
- Sakit adlı qoğuşdaş: (gülə-gülə) Dilbaz namussuz olma! Kəblayı buyur, maraqlıdır!
- Fərəcullah: Namussuz oğlum bir daha məni görmək üçün kəndimizə gəlmədi. Artıq gəlmək üçün üzü yox idi! Belə namussuzluqdan sonra, hansı üzlə atasının üzünə baxa bilərdi. Ancaq mənim şübhələrim heç bitmək bilmirdi! Sanki, onunla arvadımın arasında bir dolablar dönürdü! Bir də namussuz qızımdan deyim! O da arvadımla əlbir olmuş, onu Həbiblə evləndirməyə qalxmışdı. Hələ bundan da betər olan, qızımın aranı qatmasıyla, övladlarım analarının ölümündə mənim suçlu olduğumu düşünürdülər! Onlara görə, Sünbüldə gözüm olduğu üçün, analarını zəhərləmişəm!
- Kərim: Kərbəlayı, bəli ki, bütün eli qarşına almışsan! Dedikləri doğrudurmu?
- A kişi, nə doğrusu! Hamısı nağıldı! Onsuz da, bu arvad ölməli idi! Arvadlıq qalmamışdı onda! Ən böyük işi, axşam evə gəlincə ayaqlarımı yumaq idi! Onu da son zamanlar bacarmırdı. Tez-tez beli tutulurdu! Gecə tis-tusundan yata bilmirdim! Mənim xorlamamdan dəqiqəbaşı mız-mız edirdi! Amma mən heç zaman xorlamazdım! Bir də xorlasam da, xorlamasam da arvada nə dəxli var! Mən bir kişiyəm xoruldaram da, guruldaram da, kimə nə dəxli var ki?!

- Sakit: Yox a kişi! Kərbəlayının xoruldamasını kimsə eşidibmi?
- Hamı gülə-gülə: Yox!!!
- Qısası bəylər, o axşam evə gəlib, arvadı axtarandan sonra Sünbüldən xəbər olmadı! Dedim ki, gənc qızla evlənmək - atəşlə əlbəyaxa olmaq deməkdir. Sünbül ərə getmiş iki qızımdan da kiçikdir! 20 yaşını keçməmişdi. Özü də, iki canlıyam deyə tutdurmuş, xərmənə belə gəlmirdi. Evdə nə edir, nə etmir, heç bir bilgim yoxdur! Günlərin bir günü ağa Mir Qəşəmdən "66 yaşda uşaq atası olmaq olarmı?" deyə soruşdum! Kəndin mollası "*olması çətindir*"dedi! Bu üzdən namussuz arvadımın gəbəliyinin məndən olub-olmaması qurca çibanı olub canıma düşdü!
- Kərim: Həəə... daha!
- Dahası bu ki, o axşam əlim hər yerdən üzülərək, Sünbülün atası evinə getdim. Namussuz atası başqa kövşəndə işlədiyi üçün yanımdan qovulmuşdu! Buna baxmayaraq, namusumu tapmaq üçün onun ayağına getməli oldum! Orada da yox idi! Fikrimə, iki il görmədiyim qızım Əşrəf düşdü. O namussuzdan hər nə desən çıxar! Bəlkə də namussuz oğlum onun evində hər gün..... töbə-töbə! Kəndin aşağı başında yerləşən Əşrəfin evinə sarı yola düşdüm! Bulaq başındakı qızlar məni görcək gülməyə başladıəar. Onların mən ağsaqqala hır-hır gülməklərini anlamadım! Anlamaq üçün belə, zamanım yox idi! Bu üzdən yoluma davam etdim! Biraz sonra Əşrəfin evini tapmaq üçün yol üstündəki aşıq oynayan iki oğlan uşağından soruşdum. Onlar "əmican sən kimsən? Əşrəf

bizim anamızdır. Biz, onun uşaqlarıyıq" dedilər! Doğrusu, ürəyimdən "mən sizin dədənizəm!" demək keçdi, amma demədim! Çünki arxamdan iş çevirən namussuz qızımın uşaqları da namussuz ola bilərdi! Onlar evi mənə göstərib, aşıq oynamağa davam etdilər! Əşrəfin çirkin oyununu üzə çıxartmaq üçün, evi fırlanıb arxa pəncərəyə yaxınlaşdım! Otaqda ax-ux səsi gəlirdi! Qan beynimə sıçradı! Ay namussuz Əşrəf! Uşaqları təpə arxasına azdırmış, özü haralara yox olmuş?! Sənin kimi qız, mənim kimi namuslu Kərbəlayinin belindən gələ bilməz! Namussuz ananızın başqa oynaşı da varmış demək! Təkcə Əşrəf qızım namussuz olsa, bir o qədər yanmazdım! Demə...demə, bütün namussuz uşaqların cirəsi özgələrdən imiş! Namussuz Kübra, namussuz haramzadaların anası! Bu namussuz tünbətünə ana demək olarmı?

- Kərim: Sonuna gəl, Kərbəlayı!
- Allah bütün salih bəndələrinə qismət etdiyi kimi sizə də Kərbəla qismət etsin! Başıma gələnlər ha! Qısası otaqdan ax-ux səsi çoxalırdı! Namussuzlar arxadan qaramtıl qabarcıqlı örtüklə otağın dəlik-deşiyini tutmuşdular! Hər an artan ax-ux səsini eşitməyə taqətim qalmamışdı! Artıq, namusun nə olduğunu namussuzlara qandırmaq gərək idi! Kişinin adı namusuna bağlıdır! Elə deyilmi?
- Tutsaqlar: Doğru! Kəsmə Kərbəlayı...davam et!
- Qısası otağın qapısına yaxınlaşdım! Namussuz Sünbülün ayaqqabılarının eynini başmaq yerində gördüm! Qanım beynimə qalxdı! Yavaşcasına qapını açmaq istədim! Qapı arxadan kilidlənmişdi. Daha dözümüm qalmamışdı!

Kişiliyim bir qara pul olmuşdu! Mən, Həzrəti Əli Əleyhümül Salavatın qulu, nökəri, namuslu və müsəlman Kərbəlayısı arvadını başqasının yatağında görən adamdır!? Ya Allah, ya Məhəmməd, ya Əli deyib qapını qırıb bir an içində yorğan altından qulağımı dələn ax-ux səsini batırdım! Əlimdə bel, dilimdə isə, “Allahu Əkbər” bağırtısı, az sonra yorğan altından iki namussuzun qanı axmağa başladı! İlk endirmələrdə ikisinin də cında səsini boğsam da, ürəyim soyumamışdı! Bu üzdən durmadan Allahın pak səsini bağıraraq, gücümə qüc qataraq beli başlarına endirdim!

- Hamı: (bu səfər çox maraqla) Sonra... sonra! Nə oldu!
- Sonra Mirzə Qəşəm ağanın yanına gedərək, namussuz qızımın evini, oğlumla arvadıma verdiyini deyib evə yola düşdüm! Sonra jandarmalar məni tutuqlayıb buraya gətirdilər! Demə ki, namussuz qazinin dediyinə görə, ölümünə vurduğum iki namussuz - qızım Əşrəflə əri Səlman imiş! Demə ki, namussuzlar gecə azmış kimi, gündüz də uşağlarını azdırmış, erkəndən yorğan altına girmişlər!
- Qoğuş hamısı birdən: Qah...qah...qah, qah...qah...qah!!!

Artıq, belə insanlara bir şeylər qandıracaq enerjim qalmamışdı! Olduğum bölmənin həyəti olduqca kiçik, dar və ensiz idi. Buna baxmayaraq, günəşlənmə zamanında yüzə yaxın tutuqlu orada toplaşırdı! Bu isə, xəbərləşmə imkanlarını gücləndirirdi. Bu xəbərləşmələr azdan-çoxdan bayırda olan olayları içəriyə daşıyırdı! İçəriyə sızan xəbərlərin hardasa böyük çoxunu, siyasi

gəlişmələr oluşdururdu! Bu isə, mənim kimi siyasət vurğunlarını sevindirirdi. Nə olursa olsun, siyasət gəlişməsinin bir başı dustağa bağlanırsa, demək ki, var olan rejim böhran yaşamaqdadır! Erkən çağlarından rusların ayı oyununu, Firqənin yoxuş-yenişini, Pişəvəri babanın aldanıb-öldürülməsini, Tudə Partıyasının öz inancına xainliyini və rus qulluğunu, Müsəddiq zirvəsini, SİA çevrilişi ilə Zahidinin gəlişini, Müssədiqin, Fatiminin çöküşünü, Şah diktaturasını, Azərbaycan Türk Millətinə qarşı Amerika, İngiltərə, Rusiya tələsini görmüş mənim kimi birisinə İranda baş verən ən kiçik dəyişiklik belə, maraq qaynağı olurdu!

Bu üzdən, necə olursa-olsun, ulusun içinə çıxmağım gərək idi! Rejimin məndən xəbərdar olduğunu bir fürsət kimi dəyərləndirirdim. Çıxıb bayırda gizlənib, millətin içində olmağı düşünürdüm! Duyğumla yaşımı düşünürdüm! Yaşım altmışın üstündə idi! Məhbəslərdə canım əldən düşübdür! Doğru ki, əyilməz olmuşam, ancaq gedən candan gedib! Bir dəri, bir sümük qalmışam! Bütün bunlara baxmayaraq, yenə də tutuqluyam! Yenə canımdan əl çəkmirlər! “Adın çıxınca, canın çıxsın” Cəvanşir! Canımı buralarda alacaqlarsa, ən azından düşmənə qarşı etdiyim suç üstündə olsun! Niyə yaş-yaş yanmalıyam? Ən azından quru-quru yanım!

Bu düşüncələr içindəydim ki, miladi ilinin sonlarına doğru erməni-xristianlar üçün əfv xəbəri məhbəsdə yayıldı. Habelə, bununla bağlı bəzi tutuqlulara da bağış gələcəyi dildən-dilə gəzirdi. Bir yandan isə, Təbriz həbsxanasının aşıb-daşması da, dustaqları narahat edirdi. Tutulan siyasi gənclərin sayı

günbəgün artırdı. Duyduqlarımıza görə, bir çox yıpranmış və uzun müddətli siyasilərin özgür buraxılması gündəmdə idi! Belə ki, iki qoğuşu birləşdirərək, boşalmış olanı yeni tutuqlularla doldururdular. Sonunda bağış fərmanı Tehrandan gəldi! Mənim də adım ikinci kəz bağışlanmışlar arasında idi! Məhkəməsiz beş ay iyirmi günlük Təbriz dusdağının da öyküsü bitdi! 1979-cu ilin yanvarının ilk günlərində (1356-ci günş ilinin dey ayının 10-11) kiralıq evimə sarı yola düşdüm. Evə yaxınlaşdıqda, qapının açıq olduğunu gördüm! Yalnış küçəyə girmişəm deyə, geri dönərkən Aslan bəyin xanımını gördüm:

- Avaaa! Cəvanşir əmi salam! Bəs sən altı aydı haralardasan? Yeri-göyü axtarmışıq! İdarə qalmayıb ki, səni Aslan soruşmasın! Doğrusu, əmniyyətdən də soruşuldun! Əmniyyət sənin onların əlində olmadığını deyincə, bir yerlərdə ölüb qaldığın ağlımıza gəldi!
- (Gülə-gülə) Siz də halvamı çaldınız! Barı rəhmət oxuyan da oldumu?
- Cəvanşir əmi, haralarda gizlənmişdin? (yanında duran qızına: Get babava Cəvanşir əminin gəldiyini de!). Gəl gedək evə, əmi!
- Sən de görüm, evə başqası daşınıbdır?
- Bütün nəsnələr bizdə əmi! Hər şey sağlamdır.
- Aslan (qaçaraq): Cəvanşir əmi, bəs sən haralardasan, qardaş, bağrımızı dəldin, ürəyimizi qan elədin! Adam bir yerə yox olarsa, deməzmi? (Məni qucaqlayıb kövrəlir! Mən də onunla birgə kövrəlirəm!)
- Məni aparacaqlarını demədilər ki, mən də sizə bildirim!

- Aslan bəyin eşi Təyyibə: Kim səni apardı əmi? Olmaya...!
- Hə qızım...
- Gedək evə, gedək evə!
- Aslan: Başına yenə nə gəldi, əmi?
- Timçədən apardılar! Deyəcəyəm, deyəcəyəm! Gedək evə bir çay içib özümə gəlim. Özgür olmağımdan iki saat keçir!

Təyyibə və Aslanın dediyi kimi, yoxa çıxmamdan bir gün sonra məni soruşan dostlarım nigaran olmağa başlayırlar. İlk öncə, Aslan Bazara baş çəkir. Hacı Şəmsazər mənim harda olduğumdan bilgisiz olduğunu deyib, gileylənir! O, yazıq kişi də haqlıydı. Mən hər gün səhər timçənin qapısını açan ilk şəxs olardım. O gün də alışqanlıq üzündən timçəni ilk açan oldum. Dükanı açmaq üçün cibimdən açarı çıxarmaq istəyirdim ki, bir an içində yaxalanaraq bazardan çıxarıb maşına mindirildim. O səhər də mənim tutuqlanmamı tanış birisi də görməmişdir!

Hacı Şəmsazer başının ağrımasından qorxaraq, mənim son aylığımı artıqlaması ilə verib, üzrümü istədi. Dostların yardımıyla yeni bir evə daşındım! İsmayil qəhvəçininköməkliyi ilə daha modern, böyük və geniş evə köçdüm. Evdə bütün yaşam imkanları var idi. Kirası o qədər ucuz idi ki, altı aylığını öncədən ödədim! Axşamların çoxunu, hətta gecələr də tək buraxılmırdım! Ev, insanlarla dolu bir pansiona bənzəyirdi! Bu isə, mənim son dilədiyim yaşamı sağlayırdı! Çünki, yenidən tutuqlanacağamsa, doğrudan suçlu olduğumu diləyirdim! Hər olaya qarşı, bankda olan pullarımı da geri alıb, İsmayil qəhvəçinin əlilə işləmə buraxdım. Əlim ağzıma çatırdı. Kimsəyə möhtac deyildim. Əksinə, əlimdən gəldikcə Savakın

dustaqlarında olan döyüşkən və aydın kəsimin qalanlarına yardım etməyə çalışırdım. Bu da əlimdən gələn ən kiçik vətəndaşlıq borcum idi. Günlər, istədiyim kimi irəliləyirdi. Deyə bilərəm ki, ömrümün ən bahar çağını yaşayırdım. Təbrizin bəzi kitab satanlarına gələn gizli Bakı kitabları əlimə çatınca, aydın gənclərimizin arasında yayırdım! Çoxu uşaq kitabcası olmaqla, "Azərbaycan Bu Gün" kimi türkcə, farsca tanıtım kitabçalar da var idi. Azərbaycan türkcəsində olan uşaq kitabları əldən-ələ gəzirdi. Ancaq o kitabcalar kiril əlifbası ilə yazılırdı. Mən bu yazını rahatca oxuyur, yazırdım. Gənclərə isə bu yazını öyrətmək üçün, "Azərbaycan Bu Gün" kitabını oxudur, yazdırırdım! İçimdə olan dərin öyrətmənlik duyğusu həyata keçirdi! Çoxu gənclərdən ibarət dağçılarla birlikdə doğanın ucalarına dırmaşırdıq. Yavaş-yavaş siyasiləşın dağların dər-duvarı "Şaha ölüm" "Pəhləvi rejiminə ölüm" "Yaşasın işçilər" "Yaşasın Azərbaycan" "Yaşasın Pişəvəri yolu" kimi şüarlarla dolurdu! Hər qurumun tərəfdarları öz sevdiyi təşkilatın tanıtım şüarlarını dağların gediş-gəliş yollarına daşıyırdılar. Doğrudan-doğruya ürəyimdə paslanmış nisgillərimin zəngüləsi səslənməyə başlamışdı!

Qum şəhərində dini hövzə mitinqində çoxu türkdilli olmaqla onlarca dini tələbə, rejim əlilə öldürülmüşdü. Türk müctehidi böyük ayətüllah Mir Kazim Şəriətmədarinin Qumda yaydığı qırxıncı gün çağırışı Azərbaycanda bomba kimi partlamışdı! Təbrizin Qızıllı Məscidi Qumda ölənlərin qırxıncı günü üçün seçilmişdir. Savak belə bir anma törəninə izn verməyəcəyini öncədən bildirsə də, kütlə içində artan öfkəli maraq, get-gedə

böyüyürdü. Bir çoxu, dindən uzaq olan İsmayil Qəhvəxanasının müştəriləri, üç gündən sonra nə olacağını danışırdılar!

**Təbriz, 29 Bəhmən 1356 (1978-02-18)**

Azərbaycanın gözü Təbrizə dikilmişdi! Təbriz Bazarının həndəvəri yurdumuzun çeşidli yerlərindən gələn avtobuslarla dolmuşdu. Bu insanları bura çəkən ən başda Şəriətmədarinın Qum şəhərində ölənlərin qırxıncı günü ilə bağlı çağırışı olsa da, Təbrizin irqçı şah rejiminə qarşı ayaqlanması böyük önəm daşıyırdı. Dediyim kimi, İsmayil Qəhvəxanasına gələn insanların dinlə ilişkisi yox idi. Burada toplanan gənclərin ortaq marağı yalnız kitab idi! Bu qəhvəxanada dünya ədəbiyyatı, fəlsəfəsi, tarixi və başqa kitablar əldən-ələ gəzirdi. Hayatım boyu dilədiyim inqilabçı gənc yetənəkləri gözümün önündə görürdüm! Yaşımdan asılı olmayaraq, gənclərlə qaynaşır, onların enerjisini içimə çəkirdim. yaşlanmağa doğru deyil, gəncliyə dönməyimi sanırdım. Bundan sonra başıma nə gələcəyini deyil, varlıqlarından ilham aldığım gənclərimizin gələcəyini düşünürdüm! Eyni zamanda onlardan ilham alararaq cəsarətlərinə güc qatmağa çalışırdım! Təbii ki, mən də bir işlər görməli idim. Bu üzdən, 29 Bəhmən günündə onlardan uzaq düşmək istəmədim! Gənclərimizin böyük fikirləri var idi!

Səhər saat 10 radələrində Təbriz "ağır doğum sancısı" çəkirdi! Ana vətənin yeni inqilab doğuşu bazar içindən başladı! Yüzlər minə yüksəldi, minlərsə, yüz minlər oldu! Təbrizin şahlıq rejiminə qarşı ayaqlanması məni də aslana çevirmişdi. Əlimə

gələni sındırır, odlayırdım! Uca səslə şahın yeddi sülaləsinə küfr edirdim! Hardasa otuz-otuzbeş il bundan öncə gözümün önündə dardan asılan Azərbaycanın, yenidən canlanmasını görürdüm! Xoşbəxt idim ki, bu ayaqlanmanın kiçik birisi idim! Bir anlığına atəş alovları ormanı külə çevirən kimi, Təbriz də şah sisteminin onurğasını qırıb dağıtdı! Biz özümüz belə, etdiklərimizə inanmırdıq! Təbrizin bütün küçə-soxaqı üsyançıların əlində idi. Bu üsyanla Tehranda ortaqlıq etdiyim Müsəddiqçi, Tudəçi göstərilərini qarşılaşdıra bilmirdim. Biz orada iqtidar iddiasında olan qurumların kontrolundaydıq. Ancaq, burada millətlə faşist rejim arasında savaş gedirdi! Səhər başlayan və axşamçağı ordu tanklarının şəhərə girməsilə sonlanan 29 Bəhmən ayaqlanması, dünya durduqca yaşanacaq! O axşam Təbrizin bütün keçit yolları farsistandan gələn dilbilməz ordunun işqalındaydı! Tanklar dörd yolları kəsir, əskərlər isə öz çevrələrinə dolanırdılar! Rejimin düşüncəsinə görə, Təbrizə qalib gəlmişdi! Ancaq əsas qalib olan millətimiz oldu! Millətimizin, şah varlığına vurduğu dərbə, boks meydanındakı nak-out anlamına gəldi! İsmayil Qəhvəxanasına gələn uşaqların bir neçəsi, o gündən sonra ortalıqda görünmədilər. Mənim başıma isə heç bir iş gəlmədi. Ancaq, 14-15 nəfər şəhid olan həmvətənlərimiz var idi! Minə yaxın tutuqlu, əzincə uğradı. Onlarca bank, sinema-teatr, dövlət dairəsi, əyləncə mərkəzi, Şahın partiyası sayılan "Rəstaxiz"in mərkəzi binası kütlənin odunda kül oldu! Təbrizin Münəccimi ilə Dəvəçi xiyabanlarının kəsməsində yerləşən "Rəstaxiz Partiyası"nı tutandan sonra, binanın balkonundan baxanlardan biri də mən idim. Oradan baxarkən, 30 il öncə sırayla tir ağaclarından asılan igidlərimizin qırılmış boyunları

gözümün önündə canlanırdı! Həmin an bir Savak məmurunun əlimə keçməsini diləyirdim! Necə ki, ölüm ölümü gətirər demişlər!

## Təbriz, 29 Bəhmənin ardından gələn siyasal deprəmlər!

"Şah Yıxılsın Artıq!" əmri Azərbaycandan İran deyilən ölkənin dörd yönünə verilmişdi. Gündən-günə fars rejiminə qarşı ayaqlanmalar çoxalırdı! Mitinqlər dayanmırdı! Təbrizdə olan mitinqlərin, demək olar ki, hamısında ortaqlıq edirdim. Mitinqlərdə türkcə sloqanlar atmağa çalışanlar da var idi. Mən, şüarların türkcə verilməsinə can atanlardan birincisi idim. Ancaq, çox qəribə idi ki, gecələr evimə gəlib türk dilində kitablar oxuyan, Azərbaycan musiqisinə, milli varlığımıza dəli kimi aşiq olan, çox sevdiyim və ümid bəslədiyim gənclər Tehranla uyğun sloqanlara çəkilirdilər. Mən, Tehranın və tehrançılığın necə ölümcül zəhər olduğunu yaxşı bilirdim! Tehranda yerləşən solçu, sağçı, dinçi panfarsizmin ideoloji üstünlüyünü qəbul etmək, biz türklər üçün büsbütün manqurd olmaq demək idi! Mən bütün varlığımla bəzi gəncliyimizin bu pusquya düşdüyünü görürdüm!

Ruhuma atamın, qardaşımın, anamın, bacımım, əmilərimin, arxadaşlarımın, ulusumun ruhu girmişdir. Təbrizdən sürgün düşəni, yaşadığım bütün məzlum hayatımın öcünü Təbrizdə almağa çalışırdım! Hayqırıb-haray çəkməklə, fars rejiminə qafa tutmaqla, sanki məzlum sürgündaşlarımın da ruhlarını oxşayırdım. Yılmaz iradəsilə bir elin yaşamını qarantıya alan

qocaman Cahankişi əmicanı necə unutmaq olar! Bu vulkanlı günlərdə Cabbar əmini, Qulamı, Olqanı, Kişixan əmini, ***“Mən, qurdun qorxulu gözlərindən deyil, bitin, gənənin gözə gəlməz mızı dişlərindən qorxaram!”***deyən Qurdananı necə unuda bilərdim! 68 sürgün karvanından bildiyim qədərilə iki kişi qalmışdı. Biri bütün yoxsulluğu və zənginliyilə ulusuna, torpağına, kimliyinə söykənən mən Cəvanşir, biri də qurd geyimində gizlənmiş fars qulluqçusu satqın, azğın, xayin, Savak məmuru rütbəsinə düşmuş tülkü Yəhya! Bu xaindən başqa, qalanların səsi olmaq boyun borcum deyilmi?

İsmayil Qəhvəxanasının bugünlərdəki durumu heç xoşuma gəlməyirdi. Mənimlə birlikdə dörd-beş gəncin nigəran baxışları qəhvəxananın gənəl görüntüsüydü! Birincisi tanıdığım bir çox gənclərin iz-tozu görünməz olmuşdur! Bu gənclərin yoxa çıxması yaxşı əlamət deyildi! Mənimlə İsmayıl qəhvəçinin bu haqda fikirləri üst-üstə düşmürdü. O, tehrançı ideologiyasının olduğuna inanmırdı. O, Fədai, Tudəçi, Mücahid kimi irançı siyası yönlərə üstünlük verərək, milli idrakın dünya boyda genişliyini danışdığı farslaşmış türkcəsinə sıxışdırırdı! Oysə, mən onun bu inancının şüur altı duyğu olduğunu, düzgün milli inanc olmadığını, irançı və farsçı pançılıqla sonuclanacağına arxayın idim! Açığı gedişatın qalib ruhu tehrançılıq üzərində nöqtələnmişdir. Bizim kimi insanlara yavaş-yavaş pantürkist, turançı, türkiyəçi damğası vurulurdu! Artıq, mitinqlərdə kütlənin dilə gətirdiyi türkcə sözlər anında basılır, yerini farsca şüarlar alırdı! Solçu, sağçı, dinçi kəsimi birləşdirən fars sloqanlar, Tehranda deyilən eyni sözlərlə mitinqlərin havasını

İranilәşdirirdi! Bizim kimi fars pusqusu görmuş yazıq türklәrin kimlik hayqırtısı öz inqilabçı gәnclәrimiz tәrәfindәn boğulurdu!

Tәbrizin әn böyük mitiqlәrindәn biri Amerika Konsulluğunun qarşısında oldu! Şәhnaz xiyabanının döngәsindә olan Daş Mağazalarda on-on beş firqәçi-türkçü arxadaşlarla mitinqә qatılmağa gedirdik ki, iyirmi-otuz kişilik gәnc solçu dәstә, әllәrindә farsca yazılmış plakarlarla qarşımıza dikildi. "Sizin mitinqә yaxınlaşma izniz yoxdur! Siz gedin Türkiyәdә pantürkistlәrә qatılın! Siz gedin türkcә şüarlarınızı Türkiyәdә verin! Bura vәtәnsevәrlәrin yeridir. Yaşasın fars, kürd, azeri birliyi! Ölüm olsun pantürkizmә!" Hәyәcana qapılmış bu gözәl gәnclәrimizin özlәrinә qarşı sәslәndirmiş olduğu milli söyüşlәr, tikan kimi ürәyimә batırdı! Mәnә әn çox acı verәn isә, bu uşaqlardan biraz aralı olan Tehran Bilimyurdu yüksәk lisanslı Әnvәr Mәsudi idi! O, evlәrindә sıxılan zaman mәnim yanıma gәlәr, türkcә kitbacır alar, türkcә müzik dinlәrdi! Onu öz oğlum kimi sevәrdim. Ancaq, bir neçә kommunist dost tapandan sonra, mәnә qarşı tutumu dәyişmәyә başladı. Onun, 29 Bәhmәndәn sonra mәnә qarşı davranışı dәyişmişdi. O, mәnә qarşı işlәtdiyi sağ qanadlı mürtәce türkçü, bozqurdçu, türkiyәçi, Amerika ajanı, Rusiya düşmәni kimi damğalarla üzәrimә yürürdü!

☆ ☆ ☆

Artıq istibdad vә Amerikaya bağlılıq simgәsi olan Şah qaçmış, Xomeyni gәlmişdi! Farsçı-şiә dinsәlliyi devrimin tәpәsinә minmişdi. Şah rejimindәn daha geriçi, dinçi, gözü-başı bağlı

sistemin İran adlanan yerə hakim olma izləri görünürdü! Beyni yuyulmuş kütlənin gözü aya dikilmişdi. ***“Bax! Ayın sağ yanında dayanıb bizə baxır! Bir əlində olma, bir əlində Quran var, bax!”***

Dinsəl xurafatın yeni sujetinə görə, Xomeyni ayda dayanıb millətin saqqalına gülürmüş! Şahlıq rejiminin çöküşündən yaranmış boşluğun ardından keçici olsa da, yarım-yapalaq bir siyasi açıqlıq yaranmışdı. Tudəçi, Fədai, Mücahid və bir çox sol, liberal, dinsəl qurumların açıq fəaliyyətinə imkan yaranmışdı. Təbrizin “Nisfrah” çevrəsində “Azərbaycan Demokrat Firqəsi”nin ofisi açılmışdı. Bir neçə dost olaraq sevinə-sevinə ADF-nin ofisinə getmək üçün iki taksı tutduq. İlk öncə ADF-nin Təbrizdə ofisinin açılmasına inanmasaq da, gərçəyi görüncə gözlərimiz yaşla doldu! Bütün gileylə, ümidsizliklə bərabər bu ad bizim üçün qudsal sayılırdı! Özümü tanıyandan bəri sıralarında olmuş, varını-yoxunu, ailəsini uğrunda qurban vermiş biri kimi mənim üçün Firqənin bambaşqa anlamı var idi. Çox da kiçik olmayan bir salonda bizi qarşılayan orta yaşlı kişilə üzləşdik:

- Çox xoş gəlmisiniz! Tanış olaq mən Atabay, siz?

- Mən Cəvanşir! Uğurlar olsun! Çox sevindik! Bilər-bilməz gəldik! Bura nə zamandan açıqdır? Bizim yeni xəbərimiz oldu!
- Uzun zaman deyil. Beş-on gündür! Firqənin bildiriş və kitabları ilə tanış olun, yenə görüşərik!
- Bunlar da arxadaşlar tanış olun...

Masa üstündə yerləşən Azərbaycan Demokrat Firqəsinin əsasnamə və məramnaməsini götürüb oxumağa başlayınca, Pişəvəri babanın yaratdığı Firqənin çoxdan bəri öldüyünü gördüm! "İran Tudə Partiyasının Azərbaycan Əyalət Təşkilatı Azərbaycan Demokrat Firqəsi"!!!

Bütün xəyallarım yıxılmışdı! 30 min insanımın qanı yerdə qalmışdı! Milyonlarla əzgin, bezgin ulusumun umud evi özgələrin əlinə düşmüşdü! Baba Pişəvərinin yaratdığı təşkilat KGB-nin İran bölümü olan Tudə Patiyasının yemliyi olmuşdu.

O duzaqdan necə çıxdığımı deyil, neçə gün içim-içimi yediyini xatırlayıram! Götürdüm Firqə əsasnaməsini arxadaşlarımla birlikdə neçə kərə oxuduq! Artıq Azərbaycanın Firqə adlı bir qurumunun olmadığını qəbul etdik. Bundan sonra özümüzün bir özgür təşkilatımızın olmasının altını cizdik. Hər dostumuz üçün bir görəv tanıdıq. İlk görəvimiz, Tudə hizbinin Firqəsi adlı KQB tuzağını tanıtdırmaq oldu.

Böyük ümidlərlə baş tutan inqilab, ilk günlərindən mollalar əlilə mənimsənmiş oldu! Soldan tutmuş sağa qədər inqilab ortaqları Xomeyninin və onu gətirənlərin qəssablığına uğramış oldular. Cümhuri termini Cümhuri-e İslamı oldu! Markisist-leninist

kommunist kimliyi daşıyan Tudə Partiyası İslam şəriətinə boyun qoyan ilk təşkilat oldu. Bu partiya yarandığından üzü bəri silsiləvi xəyanətlərinin birinin də altına imza atdı. Rusların etkisi altında Fədai təşkilatı da Tudə xəyanətinin ardına düşdü. Mücahidlərin durumu daha acınacaqlı oldu! Xomeyniyə ilk kəs İmam adı verən bu genişmiqyaslı müsəlman qurum, qarşılıq olaraq Münafiq adını aldı!

Türk dini lider Şəriətmədarinın dəstəyilə liberal kimliyi daşıyan “İran Müsəlman Xalqı İslami Cümhuriyyət Partiyası” yarandı! Bu partiya Xomeyninin adıyla bağlanan “İran İslam Cümhurisi Partiyası” ilə birlikdə iki irimiqyaslı təşkilat forması aldı. Gün keçdikcə, Tehran basqısı artırdı! Azərbaycanda, Kürdistanda rejimin basqılarına qarşı daha çox hərəkət gözə dəyirdi. Azərbaycanda çap olunan türk dilindəki nəşrlər sıxışdırılmağa başlamışdı. Xomeyniseverlər sıxışdırma olayını sürdürdükcə, onlara olan kütlə içi nifrət də artırdı. Millət arasında sadəcə “Xalq Müsəlman” deyilən Şəriətmədari yönlü qurum “Azərbaycan Partiyası” kimi tanınırdı! “Xalq Müsəlman” Azərbaycanın milli problemlərinin çözümü üçün müxtariyyət formulunu ortaya qoyurdu. Xomeyni irticasına quyruq olan Tudə, Fədai, Mücahid təşkilatları rəsmi olaraq Azərbaycan Türk Millətinin milli problemləri qarşısında farsçı-şiə Xomeyni rejimini müdafiə edirdilər! Mən və arxadaşlarıma görə, belə bir durumda “Xalq Müsəlman” tərəfində olmaq gərəkirdi:

- Arxadaşlar, bu durumda biz millilərin üzərinə böyük məsuliyyət düşür. Azərbaycanın haqlı istəkləri rejimin və Tudə, Fədai, Mücaid təşkilatlarının düşmənçiliyinə tuş

gəlmişdir. Proqramında Azərbaycana özərklik (müxtariyyət) tanıyan Tude Partiyası, açıqca Azərbaycanın milli probleminə göz yumaraq, Xomeyniyə qulluğunu ortaya qoyur. Mən, ən çox özümüzdən olan zavallı fədailərə yanırdım! İnsan da bu qədər anlamaz olarmış? İnsan bu dərəcə özündən çıxarmış? Yəni kommunizm gənclərimizin gözünü bu qədər kor edibmi? A dostlar, buna bir çarə axtarmalıyıq! Bu gənclər bizim millətin ümididir. Bunların belə azğınlaşmasına son vermək gərəkdir. Necə göz baxa-baxa öz bacını, ananı, qardaşını, atanı, milli şərafətini, torpağını Tehranda oturan milli düşmənlərə qurban etmək olar! Sizcə bu durumda nə etməliyik?

- Barış: Doğru ki, Xalq Müsəlman Partiyasının (XMP) başçılarına güvənmək olmaz! Hətta Şəriətmədarinın özünüə belə! 30 min milli şəhidimizin qatili olan Şaha dua oxuması bağışlanılmaz! Ancaq ortada "Xalq Müsəlman"dan başqa alternativ yoxdur. Azərbaycan türkü bu gün dini mərcəinin arxasında dayanıbdır. Dini mərcə isə, Xalq Müsəlman qurumunun arxasındadır. "Xalq Müsəlman" artıq bir Azərbaycan qurumudur. Mən də, bu liberallardan qorxuram, amma başqa yol tapa bilmirəm! Əgər Kommunizm Azərbaycana xəyanət etməsəydi. Durum dəyişə bilərdi.
- Rubab: Ağalar Təbrizin bazarında çıxan yanğın təsadif deyildir. Bu büs-bütün Hizbullahın işidir. Hizbullah birbaşa Xomeyninin əmri altında çalışır. Xomeyni Azərbaycanın əyaləti-vilayəti müxtarlığını istəmir. O, Azərbaycanı tezliklə susdurmağa çalışır. Bazarda yanan altmış-yetmiş dükanın hamısı Xalq Müsəlman Patiyası üyəsi və ya sempatısıdır.

Ağalar, biz bunu qəbul etməliyik ki, milli hərəkatın özünün yolu var. Bu yolun öz ideologiyası var! Millətçi ideologiyadır millətin yolunu açan! Siz, hələ də fədai, tudeyi, mücahid, Bazərqan qonusundasınız! Biz, tez-gec Firqənin milli alternativini yaratmalıyıq! Nədən bugün sabah edirsiniz?

- Sərdar: Mən də Rubab xanıma qatılıram. Dediklərinin hamısı düzdür. Biz, öz təşkilatımızı yarada-yarada Xalq Müsəlman Partiyasını da savunmalıyıq. Bazar, bütünlüklə bu təşkilatın əlindədir. Bəzi komitələrin aparıcıları Xalq Müsəlmana bağlıdır. Radio-televiziya kanallarında nüfuzları var. Məktəblərdə, idarələrdə güclüdürlər. Umudsuzca oturmaqdansa, bir işlər görməmiz gərəkdir. Mərağeyinin Azərbaycan valiliyindən istefası, Tehrana qafa tutmaqdır. O, açıqca basqı altında olduğunu dilə gətirir. Hətta Azərbaycanın iki hakimiyyətli sistemdə olduğunu deyir.
- Səlim ağa: Xanım da dediyi kimi, zaman çox daralır. Vilayəte Mütləqeye Fəqih yoldadır. Ağaye Şəriyyətmədarının gücü Xomeyniyə batmayır. Demək olar ki, bütün güc xomeyniçilərin əlindədir. Siz Təbrizə baxmayın, Qumda ağanın evinə yürüş olunur. 110-cu maddə təsdiq olunur. Xomeyni açıqca kürd və türk xalqlarına meydan oxuyur. Hərəkətə keçmək gərəkdir. Zaman əldən gedir. Məncə də, öz işimizi görməklə birlikdə Xalq Müsəlman Patiyasını da müdafiə etməliyik.
- Rubab xanım: Dostlar, bir daha söz aldığım üçün bağışlayın! Son günlərdə "Xalq Müsəlman" qəzeti ilə, "Kar" qəzeti arasında münaqişə gedir. Xomeyni rejimi topu Azərbaycanın

öz meydanına atıbdır. Bildiyiniz kimi, fədailərin içində öz millətini sevən gənclər az deyil, Xalq Müsəlmançılar içində də həmçinin! Ancaq, aranı qatan mənfi ünsürlərin də olduğunu görmədən keçmək doğru deyil. Fədailər kommunistdir, Xalq Müsəlmançılar isə kommnismə qarşı! Xomeyniçilər bu yoldan içəri girərək aranı qatmağa çalışırlar. Əslində, rejim üçün xalq müsəlmançı və fədai fərq etməz. Bunlar ikisi də aradan getməlidir rejimə görə. Bizim durumumuz, iki tərəfi də ayıq salmaqdır. Buna görə, tezliklə bildiri yaymağımız gərəkir.

- Mən: Sağolun Rubab xanım. Çox doğru nöqtənin üzərində durdunuz.

Bütün günü bu qonular bağlantısında dartışdıq. Təbrizin bu yaxın günlərdə qarışma ehtimalı vardı. Harda durmağımızın doğru olduğu bəlirləndi. Öz durumumuzla bağlı geniş alanlı tanıtım işləri aparılmalı idi. Bununla yanaşı, tək başına hərəkət etməyimizin də doğru olmadığı ortaya qoyuldu. Xalq Müsəlman Partiyasının başçılarından Əlizadə, Marağeyi, Nəzih ilə görüşü gərəkli sandıq!

Zaman keçdikcə Təbrizin siyasi durumu gərginləşirdi. Hizbullahla Xalq Müsəlmançılar arasında atışmalar çoxalırdı. Ayətullahlar savaşı böyüməyə başlamışdı. Anayasanın qəbul olunması ilə, Şəriətmədarinın demokratik və çağdaş istəkləri rədd olunmuşdu. Xomeyni öz geri zəkalılığını qanun əsasında topluma diktə etmək üçün, 110-cu maddəni qəbul etdirmişdi. Habelə, Şəriətmədarinın xalqlara eşitlik verilməsilə bağlı "Əyaləti-Vilayəti Əncümənlər"i formolu da qəbul olunmamışdı.

O, Fransanın ünlü qəzeti olan "Lomond"da verdiyi müsahibədə rədd olunan önərilərini millətin ziyanına və diktatorluğun xeyrinə demişdir. Ona görə, Əyaləti-Vilayəti Əncümənlərin yaranmasıyla fars olmayan etniklərin öz doğma yurdlarında rahat və özgür yaşaması sağlanacaqdır. Habelə "Vilayəte Mütləqeye Fəqih" isə insanların iradəsini sıfırlamaqla, başda oturan diktarorun gücünü Tanrı qədər edəcəkdir. Ağanın son zamanlarda olan kəskin çıxışlarını durdurmaq üçün Xomeyni və başqa böyük ayətullahların da onun evinə getməsi yararlı olmamışdır. Ağa, iç və dış mediyada hər zamandan artıq Azərbaycan və Kürdistan muxtariyyatını müdafiə edərək, Xomeyni rejimini ağır durumda qoyurdu. Tehran mediyası isə hər gün Ağa Şəriyyətmədarıya qarşı ağır itihamlar işlədərək, Azərbaycanın dözümünü zorlayırdılar. Bu xəbərləri hər kəs kimi, arxadaşlarla mən da izləyirdik. Artıq, bizim də yönümüz bəlli olmuşdu! Xalq Müsəlman Partiyasının bütün əsgiklərə qarşın, üzərində inadla durduğu yerli parlament, yerli şuraların istənilməsi, bizim də ilkin istəklərimizidi. Mən, Rubab xanım və ağa Sərdar, Müstəqil Firqəçilər adına Xalq Müsəlman Partiyasının Təbriz mərkəzinə gedərək, Azərbaycan Demokrat Firqəsi orqanı adına yayılan "Azərbaycan" qəzetinin Şəriətmədari və Xalq Müsəlman Parityası ünvanına yaydığı düşməncə ifadələrini qınamışdıq. Üstəlik, Azərbaycanın özərk olmasının yolunda onların yanında olduğumuzu bəlli etmişdik.

Bu günədək gördüyüm ən böyük mitinq Namaz Meydanında düzənlənmişdi. Mitinqin bir ucu Bazar Ağızı, o biri ucu isə Əngəci Məscidinə uzanmışdır. Bir milyondan artıq insanın

toplandığı təxmin edilirdi! İlk öncə danışıqlar arasında “Allahu əkbər” və salavat səslənsə də, sonradan çəpik çalma və ya “düzdü-düzdü” sözləri onların yerini aldı! Aşırı həyəcan içində istəklər oxunur, millət isə səs birliyilə “düzdü-düzdü” sözü ilə təsdiqləyirdi. Sevinc yaşından gözlərim dol-boş olurdu! Əlimdəki yaylığım cim-cilaq su olmuşdu! İndi ağlamayım, bəs nə zaman ağlayım! Bütün düşmənçiliklərə, ideoloji əsarətlərə qarşı ulusum bir daha ayaqdaydı! Azərbaycanın ürəyi Təbrizdə atırdı! Ayaqdayık deyə, Təbrizimin yumruğu Tehrana qarşı qalxmışdı! ***“Ey Göktanrım! Bu düşmənlik nə zamana qədər davam edəcək! Nə zaman Tehran mafiyasının qorxunc əli mənim ana vətənimdən çəkiləcək! Ey Göktanrım! Nə zaman ulusumun özgürlük diləyi bağımsız Azərbaycanın cümhur departamentinin baş bayrağına çevriləcək! Bu millətin çiləsi nə zaman bitəcəkdir! Ey Göktanrım!”***

Və sonunda Qumdan yayılan bir xəbər Azərbaycanı ayağa qaldırdı. Təbrizdə bu xəbər bomba kimi partladı:

*“Ağanın evinə Xomeyniçilər tərəfindən yürüş edilib! Ölənlər və yaralılar var! Damda qoruculuq edən, üç övlad atası 28 yaşlı bir təbrizli ilməkçi gənc qurşuna tuş gələrək, şəhid olub”! Güclü silahlı atışmadan sonra düşmən geri çəkilməyə məcbur olub! Ağanın durumu normaldır. Ancaq, hər an yeni hücüm ola bilər. Ağa Təbrizə gəlməyi düşünmür. Ağanın Qumdakı evi qoşatılmışdır! Xomeyni Ağa Şəriyyətmədarının ölüm hökmunu imzalayıb!”*

Bu olayı eşidərkən, mən, Rubab xanım və ağa Sərdar Hökmavar

məhəlləsində yerləşən Ayətullah Hökm Abadının evinə yollandıq. Təbrizdə yayılan bütün birinci xəbərlərin mərkəzi burası idi. Bir də, hədəfimiz ilk kəz olaraq Ağanın Azərbaycanda olan ən yaxın təmsilçisilə görüşməyimizidi. Hökmavara gedən yollar tıklım-tıklım idi! Təbrizin vağzal yolunda olan trafikin açılması gözlənilmirdi. Rubab xanımın məsləhətilə Sərdar bəy maşının yönünü Qonqa Başından Küçə Bağa, oradan isə Çeşmə Başına dəyişdirərək Axuni yolunu tutdu! Qarağac Axını yolunda bütün maşınlar dayanmışdı. Bəlli olan Hökmavara qədər maşın park etmişdi. Biz də, başqaları kimi orada park edib ayaqda yürüdük. Millət Hökmavara sarı yürüyürdü! Millətimin içində olduğum üçün sevincimin sınırı yox idi! O anda dünyanın ən gözəl duyğuları içində üzürdüm! Dünyanın heç bir canavarı, bu milləti yıxa bilməz! Millətimin birliyi varkən, İranın farsçı rasizmi bir yana, hətta dünyanın ən "vəhşi ayısı" olan rus belə, onu yenə bilməz! Yol boyu, mənə vurulan rus casusu damqasını düşünürdüm! Öz-özümə düşünürdüm ki: ***"Bir Azərbaycan türkü nə qədər rəzil, alçaq və manqurd olmalıdır ki, bu gözəl ulusuna deyil, rus "ayısı"na qulluq etsin!?"*** Və nə qədər xoşbəxtəm ki, bu coşub-daşan millətimin bir kiçik parçasıyam! Nə qədər xoşbəxtəm ki, bu ulusun yolunda ailəmin qanını qurban vermişəm! O qanlar millətimə halal olsun! Keşki, mənim də xalqımın bir Atatürkü olsaydı! Keşki, bu ulusun da uğrunda bayraq olan öncüllərimiz olsaydı!

Artıq yol getməyə imkan yox idi! On minlərlə ziyarətci Hökmavar məhəlləsinin geniş həndəvərini doldurmuşdu. Sinirli

kütlə üsyan üçün bir bəhanə axtarırdı. Təkcə Təbrizdən deyil, Azərbaycanın çeşidli yerlərindən gələn toplum qatmanları əllərində təmsil etdiyi yer və sinif plakatları ilə mitinqə qatılırdılar. Ordunun çoxlu əskəri və zabiti də mitinqin içinə sızmışdırlar! Böyük Ayətullah Şəriətmədarinın şəkilləri əldən-ələ gəzərək sloqanlar atılırdı! Bu millət ayaqdaykən, ortada doğru-düzgün bir yolbaylıq yox idi. Hər cür fədakarlığa hazır kütləni yönləndirən doğru bir lider ortada olmayınca, millət öz başına gəlir-gedirdi! Ortada dərin bir bəlirsizlik hakim idi. Hər kəs bir-birindən *"nə olacaq?", "nə etməliyik?", "Hizbin düşündüyü nədir?"*soruşurdu! Millət təpədən dırnağa qədər haqlı idi. Milləti küçələrə çəkənin, bu milləti yönləndirməyə cəsarəti çatmırdı! Ordu millətilə, sindikalar millətilə, bazar millətilə, hava qüvvəsi millətilə, uçuşun izni millətilə, bütün xidmət alanları millətilə olandan sonra nə etməmək olmaz ki? Bu gücü birləşdirəcək təkcə ünsür liderdir. Azərbaycanın ayaqlanmasında siyasi liderin olmaması məni çox rahatsız edirdi. "Xalq Müsəlman Partiyası" Şəriətmədari karizmasından yaranan bir liberal qurum olaraq, Azərbaycanın istiqlal və demokratik azadlığının iradəsini yönətməyə qadir deyildi! İçində olduğum bu toplantı bunun isbatı idi! Həmin günlərdə mənim istəyimə yenidən bir ayara gəldik.

- Arxadaşlar xoş gördük! Bildiyiniz kimi, Azərbaycanın son iki-üç günkü durumu öncəki günlərə görə dəyişmişdi. Artıq xalq ayaqlanmadadır. Xomeyninin seçdiyi baş nazir "Mehdi Bazərqan"ın Azərbaycan xalqına ap-aydın qafatutması bəllidir. Bu manqurd türkün, Xomeyniyə göstərdiyi yaltaqlıq

üzündən öz millətini satqın, şurəvidən gəlmə elan etməsi çox anlamlıdır. Xatırlayırsınızsa, iki il öncə 29 Bəhmən ayaqlanmasında da Şahın nökərlərindən olan "Amuzeqar" Bazərqanın bu sözlərinin eynini demişdi. Dostlar, artıq bu milləti evlərdə tutmaq olmaz! Amma nə yazıq ki, baş tutacaq üsyanın liderliyi millətin dərin istəklərilə bağdaşan deyil! XMP-nin liderliyi Azərbaycan üçün deyil, İrana düşünür. Doğrusu, biz çarəsizlikdən bu Partiyaya ümid bağlamışıq. Elə deyilmi, arxadaşlar?

- Barış: Mən Cəvanşir əminin fikirlərinə qarşı deyiləm. Amma bu qədər umudsuzluğa da qatılmıram! Ortada bir hərəkət var. Biz bu hərəkətin harasındayıq? Biz olsaq da, olmasaq da, XMP-i öz işini görür. Ancaq, bu Xalq Müsəlman olmasa necə? Artıq millət onun arxasındadır. Bu gün Azərbaycanda nə Xomeyni vardır, nə də Xomeyniçi Hizbullah! Hamı Şəriətmədari deyib Tehrana sinəgərir! Ən yaxşısı, biz də umudsuz olmayaq. Mən bu ayaqlanmanın qələbəsini indidən görürəm. Azərbaycan gedir ki, xudmuxtar olsun, inanın mənə!
- Sərdar ağa: Barış bəyin xoşgörüsü gözəldir, amma tələskəndir! Mən, dünya təcrübəsi bizdən artıq olan Pişəvəri, Müsəddiq, Şah, Savak görmüş Cəvanşir bəyə daha çox inanıram! Cəvanşir bəy demir ki, üsyana qatılmayaq! O, ömrü boyu canını bu yolda qoymaqdan qaçmayıb! Sadəcə təcrübəsini bizimlə paylaşır. Gərəkirsə, mitinqə, göstəriyə və inqilaba bizdən qabaq qoşar Cəvanşir bəy!
- Rubab xanım: Xomeyni, XMP-nin son istəklərini qəbul edəcəkmi sizcə? Anayasanın düzəlişinə fərman verəcəkmi?

Yoxsa, demokrasi yerinə despotizmi hakim edəcək, hansısı!?

- Səlim: Xomeyni öz məqamını qoruyub saxlamaq üçün Azərbaycanı da, bütün dünyanı da od vurub yaxar! Onun gözündə qorxu deyilən şey yox! İnqilabdan 8-9 ay keçir! Amma kimsənin üzü gülmür. Gülən varsa, özü və çevrəsidir! Qatil Xalxali Tehranda, Mir Hüseyn Müsəvi Təbrizdə milləti qırır, o da gülür! Əfəndilər, ortada barış-filan yoxdur. Bu savaş kəsin baş tutacaq! Burda demokratiya-diktatora savaşı var. Xomeyni hər gün diktator olduğunu bağıra-bağıra bəyan edir! Mücahid, Fədai, Tudeyi isə əsrin diktatorunun yanında yerləşirlər! Xalqın içindən olan bu yazıq manqurdlara yazıqlar olsun! Hələ adlarını da xalqın qoruculari qoyublar! Yaxşı! Hizbi Tudəni anlamaq olar! Bəlli ki, onların liderləri uzun zaman rusların çörəyini yeyiblər! Onların ruslara olan nökərçiliyi bu üzdən anlaşılır! Məni yandırıb-yaxan birlikdə boya-başa çatan fədailər və mücahidlərdir. Axı, sizə nə olub, ay yazıqlar! Budurmu xalqdan müdafiə? Diktatorun toruna düşmək! Xalqçılıq, mürtəce birisinin murdar quyruğu olmaqdımı!? Mən də gərçək bir kommunist olaraq, bu Xalq Müsəlmanın başçılarına inanmıram! Yoldaşlar, bu milləti od-alov içində buraxıb qaçacaqlarından şübhəm belə yoxdur! Ancaq, kəsib-basmaqdan başqa məntiqi olmayan despot allahçıların əlindədir rejim. İnsan allahın quludur deyən Xomeyni insanlığın anlamı yoxdur. O, 110, 105 kimi antibəşəri maddələrin götürülməsinə izn verməz. O, kütlə səsilə seçilmiş şuraların söz sahibi olmasına göz yummaz. Lakin, bizə düşən görəv, despotizmin qarşısını almaqdır. Bu alanda milyonlarca Azərbaycan türkünün sevgisini qazanan

Şəriətmədarinin də şiəliyini unutmamaq gərəkir. O da, Xomeyni kimi dinsəl sınır içindədir. Elə deyilmi!? Yoldaşlar! Bu bir ideolojik böhrandır. Biz yanarsaq, arxamızca bütün demokrası və azadlıqlar da yanar! Keşki Səmədlər, Oktaylar, Həniflər, Behruzlar diri qalsaydılar! Ancaq, qorxaram ki sağ qalsaydılar, arxadaşları kimi onlar da ağıllarını Xomeyni despotuna verərdilər!

- Mən: Səlim bəy, sənin illər öncədən tanıdığın bəzi dostların var! Onların durumu necədir? Onlar da Xomeyni despotizminə aldanıblar?
- Səlim: Keçmişdə Səməd, Behruz kimi şəhidlərin yolunu gedənlər, bu gün Əşrəfə daha çox yaxındırlar. Vicdanla demək gərəkdirsə bu devrimçi kəsim xalqın yanından ayrılmır. Hə, mənim kimi onlar da, sonunda Şəriətmədarinin sınmasını düşünürlər. Ancaq, Əşrəf açıqcasına bütün sevənlərini uyarıbdır: *“Ya mənimlə xalqımın yanındasınız, ya da gedib başqa xainlər kimi Xomeyninin yanında yerləşin! Xomeyninin“Vilayəte Mütləqəsinə”səs verənlər xalqın yanında deyil, dini diktatorun yanındadırlar! Silahınız varsa, Xomeyni despotizminə qarşı tutmalısınız! Əliyalınsınızsa, yumruqlarınızı birləşdirib dinsəl irticasının qafasını dağıdacaqsınız! Bir Fədai devrimçinin Xomeyni Hizbullahının yanında nə işi ola bilər!?”* Bu dediklərimi Əşrəf yoldaşın ən yaxınlarından eşitmişəm. Bir də bu sözlərə nə gərək var. Tanıdığım Əşrəfçilərin hamısı xalqın yanındadırlar. Onları hər gün görmək olur.

**(Təbriz 1358-09-15/1980-12-06/**

**Radio-Televizyon, ordu, valilik... Millət əlində!)**

*«DANIŞIR AZƏRBAYCANIN TƏBRİZ RADİOSU! SİZ, DOĞRU, SANSORSUZ, ÖZGÜR TƏBRİZ RADİOSUNU EŞİDİRSİNİZ!»*

Sonunda, neçə həftədən bəri hər gün "barıt"ı artan Tehran-Təbriz çatışması partlaq verdi. Ağanın evinin olayları, İran başbaxanı – Mehdi Bazərqanın Təbrizdə dərinləşən mitinqləri yerli və Quzeydən gələn Kommunizmə bağlaması millətin dözümünü bitirmiş oldu! Xalq Müsəlman Partiyası İran dövlətinin radio-televiziyonunu Azərbaycanın ziddinə tək yönlü zəhər saçması üçün baykot etdi! Əsəbi patlaq verən kütlə Təbriz televiziyon mərkəzini tutdu! Bazar, ordu, hava alanı kütlənin bu eyləmini alqışladı! Başda Təbriz Bilimyurdu olmaqla, bütün bilik mərkəzləri öz qəhrəman dirənişçilərini savunmaq üçün küçələrə yayıldılar. Tehrandan yayımlanan bütün verilişlər kəsildi. Televiziya, Təbrizdə milli inqilab ruhunun güzgüsünə çevrildi! Urmu Təbrizin yanında olduğunu elan etdi. Urmunun hava limanı Tehranın üzünə bağlandı! Tehrandan silahlı özəl timlər daşıyan hərbi və daşıyıcı uçaqlar Urmuda oturmaq izni alamayınca, Tehrana qayıtmaq zorunda qaldılar. Əhər, Xoy, Muğan, Marağa, Xiyav, Miyana, Qəzvin və Azərbaycanın bir çox şəhərlərinin rəsmi orqanları, Təbrizin yanında olduqlarını elan etdilər. Biz, Televiziyanı farsçı rejimdən azad edən ilk qruplardan olduq. Səlimlə iki çirik yoldaşı silahlı dəstələrin içində idilər. Bunu da deməliyəm ki, Təbrizdə hardasa 45 İnqilab komitəsinin demək olar üçdə ikisi Xalq Müsəlman Partiyasından yana, Şəriətmədarçılardan oluşurdu! Bu

olaylardan bir neçə gün sonra mənim evimdə bir araya gəldik. Doğrusu, biz də Xalq Müsəlman Partiyasının başçıları kimi bu işin sonunun hara varacağını bilmirdik. Bu üzdən, bir araya gəlməyimizi gərəkli sandıq:

- Səlim ağa: Yoldaşlar! Durumun gedişatını heç xoş görmürəm. Təbrizdən olan istəklərin hamısı cavabsız qalmaqdadır. Qumun Elmiyyə Hövzəsinin Ağa Şəriətmədariyə qarşı planı və namərdcə davranışları hər gün artır. Ağa Qumda sıxışıb qalıbdır. Azərbaycan türklərinin, ondan Təbrizə dönmə istəkləri cavabsız qalıb! Qum Elmiyyə Hövzəsinin yönü Xomeyniyə tərəfdir. Böyük Ayətullah Şəriətmədari Qumdan Təbrizə gəlməsə, həm özünü, həm də Azərbaycanı yandıracaq. Bu da açıqcası, panfarsizmin Türk millətinə qarşı endirdiyi növbəti zərbə olacaqdır! Xomeyni Ağanın və Azərbaycanın ölümünü diləyir. Bax, belə!
- Rubab xanım: Dostlar, televiziya mərkəzinin qaytarılması Xalq Müsəlman Partiyası üçün ağır sonuclar verəcəkdir. Tehran hər tərəfli yürüşə hazırlanır. Millətin güc potensialı göz önündədir. Lakin bu gücün dərinləşməsi üçün partiya öndərliyi iradə göstəmir! Xalq Müsəlman Partiyası millətin gücünü orqanizə etməkdə aciz qalır. Bu milli potensialın küçə-bazarda tükənməsi öz izləyini göstərir. Plansız o yana, bu yana gedib-gəlməklə bir sonuc əldə olmaz! Xomeyni Televiziyanın geri qaytarılmasını Şəriətmədaridan ala bilərsə, onu geri oturda bilərsə, yerində dayanmayacaq. Artıq, Xalq Müsəlmanın boş damarı Xomeyninin əlindədir.
- Barış: Dostlar, biz sonuna qədər Xalq Müsəlman Partiyasını

qorumağa davam etməliyik! Mən, bir azdan dönəcəyəm. Xalq Müsəlman partiyasının mərkəsinə və Daş Mağazaları Komitəsinə silahlı basqı olacaqdır. Bildiyimə görə, Urmu Hava qüvvələri oranın Hava Alanını açıq elan edibdir. Tehrandan Urmuya çoxlu silahlı dəstə gəlib. Onlar indicə Təbriz yolundadırlar. Yaxın saatlarda Təbrizdə çatışma başlaya bilər. Partiya rəhbərliyi qərargahı qorumaq üçün milləti dirənməyə çağırır!

- Rubab xanımla gələn Əşrəf xanım: Bəylər, bundan sonrakı durum xalqın dirənməsinə bağlıdır! Şəriətmədari, Təbrizə gəlməməsilə, özünü Xomeyninin pusqusuna atdı! Xomeyni bu yazıq alimi darma-dağın edər! Şəriətmədari çözülərsə, Xalq Müsəlman Partiyası bir saat belə, özünü müdafiə edə bilməz! Bu patiyanın giriş qapılarının genişliyi inanılmaz böyükdür. Baxın! Onun qoruyucularından biri kimi tanınan Xisrovşahi kimilər, bu partiyanın içində az deyillər. Onlar bu partiyanı, bu milləti bir bardaq suya satarlar. Bizim yaraqlı gənclərimiz silahlı savaşa hazırlanırlar. Millət harda varsa, biz də ordayıq. Səmədlərin, Behruzların qaldırdığı al bayrağı Sazmanın və Tudənin xəyanətlərinə qurban verməriк!

Tehranda Azərbaycana qarşı böyük oyuna başlanmışdı! Öncədən planlaşmış ssenari gündəmə gəlmişdi. Xomeyniçi, Tudəçi, Fədaiçi, Mücahidçı, Şəriətmədaridan dönmüş alverçi kəsim alanları Ağa Şəriətmədariyə qarşı olmazın ittihamlar irəli sürürdülər. Bu qrupların təkcə ortaqlığını Ağa Şəriətmədari və Azərbaycan düşmənliyi oluşdururdu! Şəriətmədari Amerika İmperiyalizminin amili, Azərbaycan isə inqilabçı Xomeyniyə

qarşı təxribat alanı kimi propaqanda qonusu olmuşdu! Xalq Müsəlman Partiyası birbaşa CIA əlilə yaranmış, əks-inqilab qurumudur. Bu qurum yaşadıqca, qudsal İslam Cümhuriyyəti ciddi təhlükə qarşısındadır! Bu Partiyanın təməl gücü Təbriz qərargahında olduğu üçün, Təbrizi əks-inqilabçılardan təmizləmək gərəkdir! Bu ortaq propaqanda, Azərbaycanın haqlı istəklərini Amerika casusluğu adlandırırdı. Ayətullah Şəriətmədari bu baxışlara istizahla yanaşaraq Məşhəd şəhərindəki bir görüşdə belə deyir: **"Amerikanın 3 milyon casusu"!!!**

Farsçı rejimin silaha sarılması gündən-günə artırdı! Daş Mağazası Komitəsi, Şəriətmədarçıların, Amerikanın işğal olunmuş konsulluğu isə, Xomeyniçilərin hərbi qərargahı olmuşdur. Bu iki mərkəzin bir-birinə çox yaxınlığı Təbrizin mərkəzi xiyabanlarını tam bir savaş alanına çevirmişdi! Mənilə Səlim, Daşmağazaları Komitəsinin başçısı ilə görüşəndən sonra, Komitənin İmdad qrupuna qoşulduq.

Xalq Müsəlman Partiyasının istəyilə yenidən Televiziyanın ələ keçirilməsi ön plana keçmişdi! Nə olursa-olsun Təbrizin Radio-TV-si millətin əlində olmalı idi. Keçmiş televiziya mərkəzinin alıb-verilməsindən 25-20 gün keçirdi. TV mərkəzinin əldən verilməsilə, Azərbaycanın haqlı səsi Təbrizdə boğulub qalmışdı! Xalq Müsəlman Partiyası TV kanalının ələ keçirməsilə Azərbaycanda bütün orqanların millətə təslim edilməsini özünün ilk stratejisi elan etmişdi! Bu, neçə aylardan bəri üsyançı millətimizin ürək istəyi idi!

Dey (yanvar) ayının ortalarında dörd bir yandan Təbriz TV mərkəzi əhatə olundu. Millətin silahlı qüvvələri ilə farsçı rejimin Xomeyniçi pasdarları arasında ağır atışma başladı. İki tərəfdən də ölənlər oldu. Millətin sıralarında döyüşən bir Fədai çirik şəhid oldu. TV yenidən bizim əlimizə keçdi! TV-nin yayın sistemi işdən düşmüşdü! Orda olan uzmanların çalışması sonuc verməyincə, bəlli oldu ki, təxribat bayırdandır. Biz, o günün axşamı Daşmağazalara dönər-dönməz TV-nin Xomeyniçilərin əlinə düşməsini eşitdik. Bu xəbərin dərin üzüntüsü millətin dirənişində böyük olumsuzluq yaratdı! Rejim yaraqlıları ətraflı yürüşlərə başladı! Bir neçə günün içində onlarca XMP-na bağlı komitə, Tehran dövləti əlinə düşdü! XMP-nın bir çox başçısı aradan yox oldu! Gəncliyimin ən acı anılarını bu yaşımda bir daha yaşayırdım!

## ***Milləti yalqız buraxıb qaçan başçılar!***

Artıq son hücumların zamanı çatmışdır. Rejim Təbrizdə milləti ikiyə bölməyi bacarmışdı! Bütün xiyavanlarda, küçələrdə daş davası davam edirdi. Bu isə, Tehranı sevindirirdi. Getdikcə gücümüz azalırdı. Tehran və başqa yerlərdən yaraqlı inqilab pasdarları (qorucular) Təbrizə axınırdı. Hardasa millətin balaları sıxışmış durumdaydı. Dey ayının sonlarına doğru hava soyuyurdu. Artıq küçələrdə durmaq əliyalın dirənişçilər üçün çətinləşmişdı. Dirənişçilərin harda duracağı bəlli olmurdu. Xomeyni Hizbullahının yürüşü daha çox şəhərin mərkəzinə sarı yönəlirdi. Dirənişçilərin əsas qayəsi Münəccim Xiyabanında

yerləşən Xalq Müsəlman Mərkəzini və şəhərin mərkəzində olan Daşmağazaları Komitəsini qorumaq idi. Ancaq hər an keçdikcə yeni silahlı dəstələrin xomeyniçilərə qoşulmasıyla dirənç meydanı daralırdı.

Ən sonunda gözlənilən gün çatdı. Xalq Müsəlman Partiyasının başçıları qaçdılar. Millət əliyalın qalaraq, Tehran rejiminin qarşısında ümidsiz dirənişə qalxdı. Pasdarlar Partiya mərkəzini raket atəşinə tutdular. Bizim olduğumuz "Daşmağazaları Komitəsi" ağır itgidən sonra dirəncdən düşdü. Mənimlə birlikdə Səlim və Barış "Barnavak" yolu ilə, Rubab və Əşrəfin olduğu evə qaçdıq!

Özümü dimdik ayaqda sandığım altı-yeddi aylıq ana Təbriz öyküm də sona çatmaqda idi. Həyatımın axışı yenə də əlimdən çıxmışdı. Qarşıma nə gələcək xoş gələcək!!!

Tehranın farsçı rejimi edamlara başladı. Birinci gecə qurşuna bağlananların xəbəri sabah tezdən qəzetlərdə yayımlandı. Panfars-şiəçi rejim, Azərbaycan Türk Millətinin qanına susamış olduğunu bir daha dünyaya göstərmiş oldu!

On gün evdən çıxmadık. Ondan sonra isə qaçaq yolla Türkiyəyə keçməğimiz məsləhət göründü!

Şaxtalı bir gecədə dizə qədər qarlı cığırları aşaraq, İraqla Türkiyənin kəsişdiyi yerə yetişdik. İnqilabçı iki kürd bələdçinin yardımıyla Səlimlə mən Türkiyə yolunu tutduq! Son olaraq, qurd ürəkli Əşrəf, Rubab və Barışı bağrıma basaraq hünkür-hünkür ağlamağa başladım. Boğazımın hıçqırığına dözəməyən

uşaqlar da mənimlə birlikdə ağlamağa başladılar. Alışqan olduğum dramatik sağollaşmaya son verərək o üçü İraqa, Səlimlə mən isə, Türkiyəyə doğru yollandıq. Üç aslanım iri addımlarla ölkəmin torpaqlarını geridə buraxaraq bəlirsizliyə doğru irəliləyirdilər. Yerimdə donaraq, onların gedişini izləyirdim. Ürəyimdən qopan üzüntüm dodaqlarımın arasından süzərək dilə gəlirdi:

*“Yolunuz açıq olsun Qurdanaların, Cabbarların, Kişixanların igid balaları! Yolunuz işıqlı olsun köçəri durnalarım!*

*Əlvida nisgillərin tükənməz bulağı canım Azərbaycanım! Xoşca qal, diləklərimim biricik yiyəsi türk ulusum. Bir daha ulusumun umudları sürgünə düşdü! Sürgün Umudlar!*

☆ ☆ ☆

**(1980-2002) İsveç-Yöteborq!**

Ağ qanadlarını yam-yaşıl çəmənlərin üzərinə sərmiş Yöteborq çəminin bir şehli səhərində Səlimlə qollarımızı köksümüzə sərib, qarşıdan lam-lam axan meşə sularının axışına baxırdıq. Yazın bu çağında bəlkə də, belə süslü-sırmalı meşəliyi tək buralarda görmək olar! Bir azdan isveç dili kursuna getməliydik. Burada insanlıq üçün düşünülən hər bir imkan var idi. Gələnlərə qarşı çox gözəl davranırdılar. Özəlliklə, gənclərin eyitimi üçün çoxlu zaman qoyulurdu. Mənim kimi yaşa dolmuşlara çox yüklənmirdilər. Yaşadığımız kampda bir çox afriqalı, asiyalı hətta avropalı var idi! Burda bir-birini tanımayan insanların qarşılıqlı sayğısı inanılmaz idi. Ən

azından, bizə belə gəlirdi. Bütün çeşidli dilləri, kültürləri, rəngləri bir araya gətirərək insanlığı yaşadan bir ölkə görüntüsü var idi burda! Düşünürəm ki, İran adlanan yerə sığınan olarsa, xomeyniçilərin bu insanlara qarşı davranışı necə olardı? Bu isveçlilərin bizi qorumaqda dərdləri nədir? Səlimə görə, bu isveçlilərin işçi qüvvəsinə ehtiyacları olduğu üçündür! Buna görə, gələnləri belə rahat qəbul edirdilər! Məncə, bu doğru deyildir. Ən azından tam belə düşünmək doğru deyildi. Doğru olsa belə, insan üçün işdən gərəkli nə var ki? İnsan yaşamaq üçün işləməlidirsə, burada iş var, demək ki, yaşam vardır! Insanlar, 60 dan sonra burada əmәkli olabilirlər. Belədirsə, Səlimi qəbul edər, məni etməzidilər. Mənim bu devlətə nə xeyrim ola bilər? Xəstə-yorğun canımı alıb bura qaçmışam. Dil öyrənməm çətin, uyğunlaşmam çətin, işləməm ondan da çətindir! Bundan sonra mənə qalan yaşamaq, İsveç dövlətinə qalan isə yaşatmaqdır! Burda olduğumuz altı ay su kimi axar keçdi. Günlər saat kimi, aylar günlər kimi keçdi. İşimiz ancaq və ancaq bəslənmək idi! Günümüzün yarısı məktəbdə, yarısı da dincəlməklə keçirdi.

1980-ci ilin sonlara doğru Yöteburqun bütün mərkəzi küçələri işıq içində yanırdı. Şəhərin içində kiçik bir ev tutduğumuza görə, axşamlar mərkəzdə dolaşırdıq. Dövlətdən verilən maddi yardımın yarısıyla rahatca yaşayırdıq. Səlimi praktik olaraq şəhərin mərkəzi kitabxanasına almışdırlar. Mən, sadəcə dil kursuna gedirdim. Səlim, isveççəni gündən-günə çözürdü. O, dil kursunun birinci aşamasını keçərək, çox tez bir zamanda dili qavramağa başlamışdı. Səlim Təbrizdə üniversiteni bitirmişdi.

Bu üzdən onun yolu çox açıq görünürdü! Səlimlə ata-bala kimi dolanırdıq. O, 30 yaşlı dəliqanlı bir igid türk idi. Buna baxmayaraq, biz iki arxadaş kimi hər dərdimizi qarşılıqlı paylaşırdıq. Həmin günlərin birində Səlim mənə söylədi:

- Cəvanşir əmi, mən bir qız arxadaş tapmışam! Türkiyəli qızdır, İstanbuldan gəlib. Burada bilimyurdu bitirmək üzrədir. Adı Benizdir. Ümid edirəm ki,  sən də bəyənərsən. Görmək istəyirsənmi?
- Nə gözəl! Bundan xoş xəbər ola bilməz. Həmən görmək istərəm. İndi hardadır? Nədən özünlə gətirmədin ki?
- O, yataqxanada yaşayır. Ancaq gələn aydan ordan çıxması gərəkir. Çünki ünivesiteti bitirmək üzrədir.
- Nə zamandır tanışırsınız?
- Artıq altı ay olur!
- Altı ay içində bundan mənim xəbərim yoxdur!

Səlimlə Beniz başqa bir evə daşınmışdırlar. Mən olduğum evdə qalırdım. Artıq Səlimlə Benizi beş-on gündən bir görürdüm. Günümün çoxunu yaşlılar dərnəyində keçirirdim. Yavaş-yavaş isveç dilində danışmağa başlamışdım! Öz yaşıdlarımla dostluq edir, oturub-durmağa alışırdım! Çətinliklə də olsa, İsveç dili kursunun 1-ci bölümünü bitirmiş oldum.

Artıq 1985-ci ili də yola salırdım. Səlimlə Beniz evlənmiş və bir gözəl oğulları dünyaya gəlmişdi. Ata-anasının istəyilə adı Umud qoyulmuşdu. Bizdən keçdi, barı övladlarımızın umudu baltalanmasın! Bu illərdə İrandan qaçaq çoxlu qaçqın qəbul olunmuşdu. İraq-İran savaşı üzündən ölkədən qaçanların sayı

hər gün artırdı. Təbii ki, Yöteburqa gələnlərin sayı da az deyildi. İnqilabdan sonra gələnlərin bir çoxu gənc insanlar olsa da, son gələnlərin çoxunu yaşlılar oluşdururdr.

Benizlə Səlim Yöteburq bilimyurdunda işə alınmışdılar. Onların işə alınmasıyla Umud bütün günü uşaq baxcasında olurdu. Zaman-zaman onu almaq üçün mən də baxçaya gedirdim. Bu gediş-gəliş əsnasında İrandan gələn əslən türk bir qadınla tanış olmuşdum. Onun adı Bəyim, yaşı isə hardasa 55 idi! O İsfəhanın Fəridən şəhərindən idi. Öz dediyinə görə, Qaşqay türklərindən idi. O, praktik kimi baxcanın mətbəxində çalışırdı. Bəzi axşamlar Ümidi almaq üçün getdiyimdə, onun da işinin bitməsini gözləyirdim. O da işdən çıxınca birlikdə parka gedərək zaman keçirir, sonra isə, yemək üçün onun və ya mənim evimə gedirdik. Bəyim xanım da mənim kimi yalnız yaşayırdı. Onun iki qızı Stockholmda dərs oxuyurdular. Mənim kimi o da ortaboy, incə bədən, az gülən və əsmər idi. Bəlkə də, bizi uzaqdan görən arxadaş deyil, bacı-qardaş sanardı. O, çox sevimli, duyğulu və yüksək anlayışlı bir xanım əfəndi idi. Mənim öykümü dərin mətanətlə dinləyir və nota alırdı. Nə zaman yorulduğumu hiss edərsə, qarşıma bir şəkərsiz qəhvə, ya da şokolatla çay qoyurdu. Zaman-zaman düşünürdüm ki, Bəyim həmən-həmən Olqadır. Olqa da burda, yanımda olsaydı, yəqin ki, Bəyim kimi məni qoxlar-qoruyardı! Ancaq Olqa olsaydı, mənim keçmişimi Bəyim kimi qurcalamazdı kəsin! Çünki, mənim yaşamımla Olqanın yaşamı eynidi. Bəlli ki, hər yaşam öyküsü onu yaşayan üçün yox, yaşamayanlar üçün maraqlıdır. Mən də Bəyim xanımın yaşamını bilmədiyim üçün onun

öyküsünü sevə-sevə dinləyirdim. Onun öyküsündə İran deyilən yerdə yaşayan türklərin eyni alın yazısına sahib olduqları aydınca görünürdü. Azərbaycanda və Qaşqay elində çeşidli səhnələr alan eyn bir teatr pyesinə bənzəyirdi, mənimlə Bəyimin öyküsü!

İsveçə gəldiyim ilk ayların bulantısından sonra, yaşama olan umudumu böyük ölçüdə əldən verməyə başladım. Həftənin yeddi gününü sinir gərginliyi ilə keçirirdim. Təbrizdən çıxdığım günə lənət edirdim. Keşkə qalıb millətimin düşmənləri əlində edam olsaydım. Keşkə mən də atam, qardaşım, əmim və şəhid arxadaşlarım kimi faşist panfarsizmin qarşısında dim-dik durub millət və vətən adına ayaqda can versəydim! Qurulub Avropaya gəldiyimin adını yaşam qoyacaqsamsa, ölüm olsun bu yaşama!...

Günü-gündən özümü birbaşa hiss edirdim. Kimsənin dostluğunu qəbul etmirdim. Nə bahasına olursa-olsun dönməyi düşünürdüm! İran-İraq savaşından yana dövlət orqanlarının başının qal olmasını düşünürdüm. Belə durumda, vətənə dönəcəyimin az riskili olduğunu düşünürdüm. Aylarca buna bənzər fikirlərlə qorxumu yenməyə çalışırdım. Dönmə yollarını uzun-uzun düşünürdüm! Yavaş-yavaş mənim qorxuya deyil, qorxunun mənə qalib gəlməsini qəbul etməyə başladım. Anladım ki, bütün bunlar sadəcə darıxmaqdan irəli gələn sərsəmlərdir! Mənim buraya gəldiyimin təməlində qorxu yatmışdı. Büs-bütün qorxu! Mən yaşamla ölüm arasında olan yılmazlığı çözəmədiyim üçün burda idim. Hər kəs kimi, ölümdən qaçmaq üçün mücadilə edirdim. XMP-dən sonra

başverənlərin hamısı yaşmaqlı bahanalardan başqası deyildir! İçimdəki mənimlə görüşən mənimi birləşdirəmədiyim üçün bu gün buralardaydım! Buna bir çox nədən yükləmək gərəkməzidi. Mən, varsayım edamdan qorxuya düşdüm! Xalq Müsəlman Mərkəzinin və Daşmağazalarının çöküşündən sonra Tehran qəzetlərində yan-yana qanına bələşmiş soydaşlarımı, səngərdaşlarımı gördüyümdə qorxunun dərin çalarlarını bütün varımla duydum! Bu qorxunu Səlim, Əşrəf, Rubab, Barış deyil, mən öz-özümə yaşatdım! O gənc arxadaşlar da mənim yaşadığım qorxunu yaşadıqları üçün doğma torpağı düşmənə buraxıb qaçdılar! Onlar da, öz qorxularına yenildilər!

Bir neşə ay özümə suç ortağı bulmaq üçün keçmişimi qurçalırdım. Daha yavaş-yavaş, içimdə anlamağa çlışırdım - "*Arada suç varsa, suçlu aranar!*" məntiqilə özümü qorxudan siyirməyə başladım! Artıq, özümdən küsməyin anlamsız olduğunu düşünürdüm. Niyə ki, ömür boyu zillətə, sürgünə uğramış həsrətli bir milli kimliyin özündən küsməsi son bir trajedi ola bilərdı!

Bizim ulusun dönüb-dolaşma sevgisi sonsuzdur. Örnək alacaq keçmişlərimizə baxınca çoxunun son məzarı ana torpaqlardan uzaqlardadır. Yerində qalıb ağır daş olan örnək babamız barmaq sayıdır. Şah İsmayıldən sonra bütün Səfəvi şahları, Qacar şahları, Səttarxan, Şəriətmədari və bir çoxları öz milləti və torpağının dışında dünyalarını dəyişdilər. Çünki, biz öz torpağımızdan qaçmaqda yüngül ayaq millətik! Mən, Səlim, Əşrəf və minlərcə bizim kimilər öz babalarımız övladı deyilikmi? Bizdə, torpağı təslim etmək bir gələnək olmuşdur!

Yaşam dadlıdır. Bu dadı ancaq bir kərə dadarsan! Biz, demək ki, yaşam boyu bu dadı heç dadmadığımız üçün, buralara qədər gəldik! Əlbəttə, yaşam bir seçimdir deyənlər də vardır! Bu deyimə görə, seçimin ən doğrusu bütün insanların vaz keçməz haqqıdır. Bu seçim üçün bir ovuc torpaq deyil, bütün dünya sənin vətənindir deyənlərin sayı da az deyil! Gəncliyimdə Bakıdan Təbrizə gələn bir çox siyasətçinin ağzından bir söz əskik olmurdu: *"Sosializm Vətəni"!* O zaman da, indi də bu vətənin haralarda olduğunu anlamadım. Ancaq bir gərçəyi gördüm ki, siyasi hava dəyişincə *"Sosializm Vətəni"*nə dönən qardaşların ardından bayram edən fars faşizmi, on minlərcə Güneyli əliyalını qurşununa və dar ağacına düzdü! Demək vətənlilər üçün sosializm vətən, vətənsizlər üçün sosializm dar ağacı və qurşun olurmuş! Yox, inadla dar ağacını qəbul etmərəm, deyənlərə isə bir yol qalır: Cihanvətənli olmaq! Mən, öz taleyimdən küsərsəm nə olar, küsməzsəm nə olar! Bundan sonra qorxumu qınamaqla deyil, onu qəbul edərək, içimi yüngül tutmalıyam! Beş-on günlük qürbət yaşamını sürmək üçün içimdəki qasırqadan uzaq qalmalıyam! Yetər artıq!

Bir neçə il dostluq edəndən sonra qızlarının önərisilə Xatun Bəyimlə ortaq evə daşınıb, illərcə bir yatağa baş qoyduq! İkimiz də əməkli olduğumuz üçün əlimizə gələni xərcləyirdik. Bununla belə, pulun yarısından çoxu əlimizdə qalırdı. Yaşımız olduqca irəliləmişdi. Bəyim xanımın tansiyonu çox yüksək olurdu. O, zaman-zaman bölgənin ən önəmli xəstəxanası olan Salgreniskada yatırdı. Bu yaşımda yenə yalqız qalacağımdan qorxurdum. Sonunda qorxduğum başıma gəldi! Xatun Bəyimin

ölüm xəbəri xəstəxanadan gəldi! Azərbaycan Dərnəyində yas törəni keçirildi.

İsveç toplumu 2000-ci ilin gəlməsini böyük coşqu ilə qarşılamağa hazırlanırdı. Bir neçə ay qalandan Yöteburq şəhərinin üzərində işıq saçan göy qurşağı quraşdılılmışdı. Hər gecə pəncərənin arxasında saatlarla göy qurşağı ilə birlikdə Yöteburqun səmasını dolaşırdım! Artıq təklik mənim üçün ən yaxın yoldaş idi! Mənimlə yalqızlıq iki qopulmaz ruhla bədən olmuşduq. Cəvanşirlə Olqanın tək ruh, tək can olduğu kimi!

Gözəl Yöteborq 1999-cu ili 2000-ci ilə bağlamaq üçün şənlik içində par-par yanırdı. Azərbaycan Dərnəyi də bu gecənin adına böyük şənlik keçirirdi. O gecə, ömrümün ən al-alvan gecəsini yaşadım. Azərbaycan Dərnəyinin lokalı insanlarla dolmuşdu. İnsan uzun zamandan sonra özünü soydaşlarının içində necə duyursa, mənim də duyğum tam elə idi. Doğmalarımla birlikdə sanki bir əfsanəvi gecə keçirirdim. Belə zamanda içməyəcəyəm, nə zaman içəcəyəm! O gecə, əlimə gələni içdim! Saat 24-də Yeni ilin başlanğıcı ilə bağlı göy üzünün 10 dəqiqə işıq içində yanacağını deyirdilər. Biz hamımız səbirsizliklə 2000-ci ilin necə girəcəyini gözləyirdik. Ancaq, hanı o bəkləyiş! Ömrümdə ilk kəz, sərxoş olaraq bayılmış, gözümü 12 saat sonra xəstəxanada açmışdım!

O gündən sonra, Azərbaycan Dərnəyi mənim adresimə çevrildi! Hər gün Azərbaycan Dərnəyinə gedirdim. Bəyim xanımın yoxluğunu dərnək büs-bütün doldururdu. Gecələr gec vaxta qədər dərnəkdən tanışdığım yaşıdlarımla keçirirdim. Hər həftə

sonu dərnəyə gələn yeni ailələrlə də tanış olurdum. Çevrəmdə olan bu ailələri yaxından tanımağa can atırdım. İsti qanlı davranışlar qarşılıqlı olunca, sevincim Göktanrıma dək fırlırdı. Toplum içində "Cəvanşir əmi" deyə səslənməkdən qurur duyurdum! Bəzi zamanlar özümü Cabbar əminin yerinə qoyurdum! Saçlarımın bəm-bəyazlığı, yalnızlıq və yardımsevər insan olduğum üçün sevilən birisi olmuşdum! İyirmi illik susqunluq sürəcini bitirmək yoluna düşmüşdüm! Ancaq daha gec idi! Ayaqlarım yerdən qalxmırdı. Gözlərimin işığı olduqca azalmışdı. Qafamın çəkimi qalmamışdı. Evdən çıxıb dərnəyə gəldiyimdə çox yorulurdum. Keşki 20 ilimi geri qaytara bilsəydim. Keşki, bu zaman içində Firqənin adsız qəhrəmanlarına - atama, anama, Cabbar əmiyə olan vəfa borcumu yerinə yetirə bilsəydim! Keşki, Qurdananın qurd sevgisini, bağrından qopan "Yahu"sunun gerçək fəlsəfəsini yeni nəslimizə çatdıra bilsəydim. Keşki, sürgündə birlikdə olduğum gerçək qəhrəmanların yaşadıqları hər anı dünyanın "insan-insan" bağıran mərkəzlərinə çatdıra bilseydim. Keşki, "29 Bəhməni", "Xalq Müsəlmanı", "Ağa"nın Xomeyni diktaturasına yox dediyi üçün, farsçı rejimin telekanallarında ağladılmasını, işgəncə olunub şəhid edilməsini dünyanın kor gözlərinin qarşısına sərə bilsəydim. Keşki, Uca Tanrım, Göktanrım gözlərimə biraz işıq, barmaqlarıma biraz güc, beyinimə biraz açıqlıq, iradəmə biraz inad, ömrümə isə biraz fürsət versəydi. Bu dünyadan susqun, durğun, usanmış gedərsəm əgər, ulusumun qarqışı məni tutar!

Artıq qalan ömrümü sizə, ey sevgili millətim, ey sevgili dağım-

daşım, vətənim, sizə verməyə çalışacağam! Ta ölənə qədər!!!

## “Təbriz”dən “Yöteborq”a,

## 1945-dən 1980-nə!

Çox gec olduğunu bilirəm! Barmaqlarımın qələm tutmaqda zorluq çəkdiyini də hiss edirəm! Ancaq içimdə tükənməz ulu bir “Mənlik” dirənməkdədir! Məni yaşadan o “Mən”, yaşadıqca mənə zaval yoxdur demək! Mən Göktanrımdan bu sətirləri yazmaq üçün güc diləmişəm! Mənim adil, qulçuluğa qarşı çıxan, bir insan boyu yaşayacaq, öləcək, diriləcək Göktanrıma inamım sonsuzdur! Bu gücü mənə verəcəyinə əminəm! Nə olursa-olsun, içimdə yaşayan Göktanrımın hüceyrəsi olan “Mən” ilə birlikdə boyun borcumu ulusuma ödəyənədək yaşayacağam!...

...Və sonun sonunda Cabbar əminin SAVAK əlinə düşdüyü əl yazmalarından yadımda qalanlarını eynilə sizə çatdırmaq istəyirəm. Qoy gərçək qəhrəmanlarımızın ulusuna olan rahatsızlığımı yeni nəsilimiz oxusun, bilsin, özünə yol xəritəsi etsin!

**«Cabbar əminin əlyazmalarından»**

**Birinci Anımsama!**

“1941-ci ilin yazında Təbrizin Dəvəçi Bazarının arxa küçələrinin birində 10-15 ortayaşlı arxadaşlarımla bir araya

gəldik. O toplantıda Bakıdan gələn iki zabit ilə bir qardaşımız da bizimlə birlikdəydilər. Toplantının hədəfində təkcə bir məsələ dayanmışdı. Yaşca məndən bir az böyük olan Mir Qəmbər ağa sözü açdı”:

- *Mir Qəmbər Ağa: Dəyərli qardaşlar bura toplanan hər kəs arxadaşdır. Buna şübhəmiz olmasın. Burdakı danışıqların burda qalacağından arxayın ola bilərsiniz! Son illərdə türk düşməni Stalinin əmrilə türk varlığına qarşı böyük cinayətlər üz vermişdir. Güneydə gedən olaylardan Quzeyin, Quzeyinsə olaylarından Güneyin xəbəri yoxdur. Arxadaşlar! Stalin Quzeydə, Rza şah isə, Güneydə türk sözünü yasaqlamışlar! Bu iki türk düşməni niyə eyni hədəfə vururlar!? Bunların türkdən başqa düşmənləri yoxdumu? Arxadaşlar, türk kökdü, yaşam fəlsəfəsidir, bəlləkdir, beyindir, yöntəmdir, dildir, kültürdür, tarixdir, ulusdur! Bu insanlıq düşmənləri türk adı altında bizi bunlardan qoparmaq istəyirlər! Arxadaşlar, əziz soydaşlar, Azərbaycan sözsüz ki bizim qudsal torpağımızdır.*
  *Sözsüz ki, ana torpağımıza canımızı verərik. Ancaq bizim kökümüzü qurutmaqla nə Azərbaycan qalar, nə də vətən! Bizim davamız türk davasıdır. Düşmənlərimizin ağlına diqqət yetirməliyik. Onlara görə,“Kommunizm, kök, soy, boy* etgisi buraxmaz!*Bizim baxışımız milli deyil, sinifsəldir!”*
  *Lenin və Stalinin bu teorilərilə rus olmayan milyonlarca sovet vətəndaşını qara torpağa sərdilər. Bunların çoxunluğu* rus *ərbablığına baş əymək istəmirdilər.* Bunlar, öz *kökünə bağlı olan başqa millətlər idi. Azərbaycanın payı çox dəhşətli görünür. Quzeydə anti sovet adı altında*

*aydınlarımızı qurşunladılar. Güneydə türk uşağının boyununa “Türk Xər” noxtası asdılar! Minlərcə aşağılama siyasəti uyqulanır. Güneydə türklərin sayca çox olması, farsları qorxutsa da, Quzeydə çoxunluq olan rusların edam maşını dayanmadan kəsir-biçir! Bu iki dövlət türk millətinə qarşı öz millətçiliyini gücləndirərkən bizim aydınlarımızın “azəri” qusuntusu hardan qaynaqlanır arxadaşlar!? Nədən öz əlimizlə rusların, farsların dəyirmanına dən tökürük? Nədən öz kökümüzü qazmaqla məşğuluq? Millət özünü cəddən bə cədd türk bilərkən, nədən illərini Rza Şahın dustaqlarında keçirən mübariz arxadaşlar, Kəsrəvi kimi xayinlərə uyaraq, türk sözünü yerdən-yerə vurur qondarma “azəri” duzağına düşürlər! Rus-fars qardaşlığı, türk varlığına bağlıdır arxadaşlar. Türk ortadan qalxarsa bu iki şovinist ideoloji həmən bir-birinə düşmən kəsiləcək! Bu iki canavar dövlətin ortaqlığını güclədirən nədən ikisinin də özgə xalqlara olan faşisti baxışlarıdır.* (Nəhavən-Bədiabad Cabbar ... Əlyazma No... 1947...)

**İkinci Anımsama!**

- Cabbar əmi: Bu kəz Çərəndab məhəlləsinin arxa küçələrinin birində toplanmışdıq. Yenə Mir Qəmbər ağa nitqə başladı. Qəmbər ağa, gördüyüm ən güclü, savadlı və dərin duyğulu natiqlərdən biri idi. Onun bu günkü nitqi “Nə etməliyik” ünvanındaydı:
- *Aldığımız dəqiq bilgilərə görə, çox tezliklə Təbrizdə böyük bir milli partiya yaranacaqdır. Millətimizin ən çox ehtiyacı olan milli partiyanın yaranması məni çox sevindirir.*

*Azərbaycana özəl siyasi qurumun yaranması bu millətin amaclarına xidmət edəcək ən ana qurumdur. Bizim cani-könüldən ona qatılmağımız su və hava kimi gərəkdir. Ancaq arxadaşlar, bu yaranacaq partiyanın ilkələrində "türk" qavramı kəsinliklə olmayacaqdır. Millətimizin və dilimizin adı sadəcə Azərbaycan adıyla kifayətlənməlidir! Nədəni isə, rusların "türk" sözünə qarşı can qaşıntılarıdır! Ağalar, arxadaşlar, qorxduğumuz başımıza gəlir! Milli kökdən uzaqlaşdırılmış bir milli partiya hara varacaqdır arxadaşlar!?...*

On gün sonra Mir Qəmbər ağanın dəlik-deşik olmuş ölüsü Qonqa Başında tapıldı!!! Türk ulusu, öz oğlunu, Alman casusu, dələdüz, xalq düşməni kimi lənətlədi!!!

Şəhərdə yayılan bildirişlərin arasında belə bir bildiri də kütlə arasında gəzişib dolaşdı: *"...Sovetin qurtuluşçu ordusu gələndən bəri dələdüzlər, Alman casusları, faşist Nazı tərəfdarları xalqın ayıq oğulları tərəfindən tutulur məhkəmə olunur və gizlicə cəhənnəmə tullanırlar. Təbii ki, belə əməllərin xilaskar barış ordusuna olan vəfadarlığı çox önəmlidir. Ancaq belə özbaşınalıqların toplum içində olumsuz etkisini də gözdən qaçırmaq doğru olmazdı! Bu üzdən soveti sevən yoldaşlardan bu məsələlərdə qanunsəl olduqları istənilir...!"*

Öz ulusunu rusçuluqdan qurtarmağa çalışan bir türkçü baş bilənimiz, qatilləri sarından dələduz, xalq düşməni, Nazi və Alman yanlısı kimi markalandı! Millətinin qayğısıyla nəfəs

alan ulus vurğunu, öndər bir Türk dəlik-deşik olaraq aralarda qaldı. Rus əskərləri geçə qaranlığında atdıqları qanlı cəsədi, gün işığında ölü köpək kimi bir daşqa arxasına ataraq, gözlərdən uzaqlaşdırdılar! Azərbaycanın bir igid Türk balası gizli göz yaşları arasında etkisiz boşluğa uğurlandı! Ən yaxınları belə, onun məzarından xəbər ala bilmədilər!

(Nəhavənd-Bədiabad Cabbar ... Əlyazma No... 1947...)

1943-cü ilin sonlarına doğru yoldaş Dəmirçi mənim evimə gəldi:

- Cabbar bəy, səni Konsulluqdan çağırırlar. Sabah səhər 11-də bir yetgili yoldaşla görüşün olacaq. Ancaq bu görüş çox gizlidir!
- Yoldaş Dəmirçi, bu görüş nədən ötrüdür?
- Yoldaş Cabbar, bu sözləri nə sən soruş, nə mən cavbacıyım! Sabah saat 11-də konsulluqda ol! Etibarınla bağlı çox önəmlidi!

Saat 11-də konsulluğun qapısında dayandım. Qapının ağzında dayanan bir Azərbaycanlı zabit məni xoş qarşıladı! Konsulluğun girişinin solunda yerləşən kiçik bir otağa girdik. Otaqda tək bir masa arxasında oturan qarayaxa rusdilli məmur, ilk öncə subaya təşəkkür edərək yola saldı. Sonra farsca mənə "xoş gədiniz" dedi:

- *"Azəricəni bilmədiyim üçün sizinlə farsca danışacağam. İlk öncə başqa bir dildə danışdığım üçün üzrümü qəbul edin. Sizin bir yurdsevər tarixçi öyrətmən olduğunuzu bilirik. Biz bilim*

*insanlarına böyük sayqımız var! Sovet sistemi bilim, barış, qardaşlıq, insanlıq və əmək üzərində qurulmuşdur. Bizim bu gün burda olduğumuzun nədəni də budur. Siz, bir xalq olaraq daha özgür, bağımsız və özgüvən yaşama layiqsiniz! Yazıqlar olsun ki, bu tayda olan acınacaqlı Azərbaycanla, o tayda olan Sovet Azərbaycanın durumu heç bir-birinə bənzəmir. Siz, o taydan ilham almalısınız. Siz o tayı yaxından görməlisiniz! Çox baha əldə olunan təcrübələrdən yararlanmalısınız! Siz, öz müstəqil ölkənizi qurmaq üçün hazır olmalısınız. Yoldaş Cabbar, siz bu yolda yurdsevər yoldaşlarınızın sırasında yerləşməlisiniz. Biz, sizin kimi Azərbaycan sevərləri öz dost sıralarımızda görmək istərik. Yoxsa, faşıst nazilərin ya onların arxasında duran türk dövlətinin yanında olmağın nə faydası olar! Bu yolun sonu əlbəttə ki, xalq düşməni, faşist tərəfdarı kimi ölümdür! Sizin xalqın içində Soveti sevən yurdsevər gənc az deyil! Onların faşizmə, Hitlerə olan nifrəti sonsuzdur. Biz hər zaman onların qarşısını ala bilmirik! Bunu sizin də bilməyinizi istərik! Bir neçə gün sonra sizinlə bir də ilgi qurulacaqdır. Bizim salamlarımızı başqa ev arxadaşlarınıza da yetirin. Siz, ağsaqqal öyrətmənsiniz! Sizin sözünüz onlar üçün keçərlidir. Hər kəsin xalqın arxasında olması gərəkdir! Gedə bilərsiniz!"*

Mesaj alınmışdı! Bundan net və rus sayağı mesaj ola bilməzdi! Biz öz aramızda buna "Rus Diplomasiyası" deyirdik! Mesajın sonucu nələri göstərmiş oldu:

1) Mir Qəmbər ağanın əminliyi işə yaramamışdı! İçimizdə bir deyil, bir neçə rus adamı var idi!

2) Nə qiymətinə olursa-olsun, Rus Dövlətinin "Sovet Azərbaycan" projesi Quzeydə olduğu kimi, Güneydə də antitürk ideoloji məktəbinə çevrilməlidir.

3) Güneydə də, Quzey kimi Türkçü öncüllərin terroru geniş alanlı bir eyləmə çevrilməlidir.

4) Yoxetmədən öncə, susdurma siyasəti irəli götürülməli idi. Ancaq, Güneydə olduqca yumşaq olması gərəkir. Çünki, yerli kadra ehtiyac vardır hələlik.

5) Bir neçə gün sonra mənin doğranmış cəsədimi xayin kimi deyil, Sovet dostu kimi göstərəcəklər!

Sonuc: Hardasa yüzün üzərində üyəsi olan qurum ləğv olundu! Rusların dostluq əli sevə-sevə qəbul olundu!!! Yaranacaq bundan sonraki Azərbaycan Partiyasına qaçaraq üzv olunacaq! Mən, Bakıya yolanılacaq dəstə içində olacağam!...

Bir neçə gün sonra konsulluğa yenidən çağırıldım. Həmin rus məmuru mənim əlimi sıxaraq:

- *Cabbar yoldaş, sizi çox ağıllı davranışınız üçün alqışlayıram! İnanın ki, həyatınızın ən doğru qərarını verdiniz! Bu arada, məni Asif yoldaş səsləyə bilərsiniz. Asif, Asif!*
- *Asif yoldaş, siz bu bilgiləri hardan almısınız? Mən ki, hələ sizə bilgi verməmişəm!*
- *Biz hər şeyi bilirik. Sizin qarşınızda bir dövlət dayanıbdir, yaldaş Cabbar! Sizin içinizdə olan is,ə mən özüm idim! Başqasını axtarmayın. Bundan sonra nə fərq edər ki, bir-*

*birimizlə dost deyilikmi? Getməyin, bir çay için, sonra sizi özüm yola salacağam!*

Sonuc: Cabbar əmi, sənin də güvəndiyin dağlara qar yağdı!!!

(Nəhavən-Bədiabad Cabbar ... Əlyazma No 20, 1947...)

Təbrizdən önəmli bir məmuriyyət üçün Firqənin Ərdəbil qərargahında bir toplantımız oldu. Toplantının hədəfində Firqənin təbliğat uyğulaması dayanmışdı! Belə ki, Firqənin təbliğat sistemi Azərbaycanın bütün bölgələrində vahid şəkil tapmalıdır. Bu üzdən Firqənin üzvü olan dənəyimli öyrətmənləri hazırlayır və bölgələrə yollayırdılar. Mən, bu toplantıda alışqanlıq üzündən, beş-on kərə türk sözünü ağzıma aldım. Təbrizə dönər-döməz Sovet konsulluğuna çağırıldım! Türk sözünü işlətdiyimə görə, çox ağır qınandım! İki gündən sonra Firqə üzvlüyümü dondurdular. Ancaq, izlənim altında Firqədə çalışmağıma izn verdilər!

Firqənin iş başına gəlməsilə, bağışlanaraq üzvlüyüm özümə qaytarıldı. Təbii ki, bir kiçik şərtlə! Bundan sonra diqqətli olmalıyam, termin və adların işlədilməsində yalnışlığa yol verməməliyəm. Rus yoldaşları önəmsiz problemlərə çəkməməliyəm! Heç yerdə problem yaratmamalıyam! Bir sözlə, gözlər üzərimdə olacaq!

(Nəhavən-Bədiabad, Cabbar ... Əlyazma No 25, 1947...)

Ə.Qəvam ömrümdə gördüyün ən usta fars siyasətçidir. O, Rza şahdan üzübəri farsçı siyasətin ən ustalarından sayılırdı.

Antitürk olması, Qəvamın başqa özəlliyidi! O, siyasətdə ən böyük oyunları seçərək riskə girməyi sevən birisidir. Ruslarla rus, ingilizlərlə ingilis, amerikalılarla amerikalı, şahla sağçı, kommunistlərlə kommunist olurdu. Halbuki, onun öz maraq alanı feodalizm idi. O, farsçı siyasətçilər içində ən iri malikanələrə, xanlıqlara, torpaq ərazisinə sahib idi. Sözsüz ki, bu böyüklükdə var-kar və kənd nüfuzu onu toplumsal yerini bəlli edirdi. Ancaq, bunlara rəğmən o, güclü oyunbaz olduğundan, hər kəsi yalnışlığa sürükləyirdi! Bunun tərsinə, Firqənin içində buna bənzər siyasətçi yox idi! Bu isə, ilk başdan müzakirə masasında yenilgimizi bəlli edirdi! Biz türklərin ən bariz və dəyişməz özəlliyidir. Yəni içimizlə eşiyimizin eynliyidir! Firqənin Qəvamla olan danışıqları üst qaydalara tam uyurdu! Firqə, Qəvamın bir tülki siyasətçi olduğunu desə də, zaman-zaman bu tülkiyə inanmaqla, bizi də çaşbaş salırdı. Gözümüz görə-görə, Qəvam Firqəni arxasınca çəkirdi! Firqə başçılığı, ona inanmasa da hər görüşdən sonra çaş-baş qalırdı! Qəvam bir yandan Azərbaycanın başını qataraq zaman qazanır, o biri yandan isə ruslarla saxta bazarlığa gedirdi! Moskva yolçuluğu da bu diplomatik oyunlardan biri idi! O, İngiltərə, Amerika və hətta mən deyərdim ki, Rusiya himayəsinə arxalanaraq, Moskvaya yollandı! Stalin Sovet Azərbaycanında Mir Cəfər Bağırovun arzularını xoş qarşılamırdı. O, Qafqazdan Zaqroslara çəkilən güclü və iri Azərbaycan istəmirdi. Hətta Azərbaycan Sovet olarsa belə, kontrolu mümkünsüz görünürdü! Stalin, öz əlində olan əmin sınırlar istəyirdi. Moskva milyonlarca insan bahasına, ölçüsüz xarabalıq qalıntısına bədəl olmuş savaş qalibiyyətini başıbəlalı bir fakta qurban verməzdi.

Bunu, Azərbaycandan çıxan gün, bar-bar bağıraraq car çəkmiş oldu! Ruslar Firqəni də, Azərbaycan Demokrat Hakimiyyətini də buraxmışdı. Keşkə buraxmış olsaydı! Açığını demək gərəkdirsə, satmışdı. Qəvamən Moskvaya gedişi, sadəcə bu ssenariyaya son bir səhnə artırılması idi! Qəvam, Tehran siyasətinin diplomatik qolu olaraq, bu oyunun önəmli parçası sayılırdı. Məncə, işin təməl qaynağını ört-basdır etməklə, Azərbaycan türklərinin gözünü bulandırmaq Qəvamın payına düşən önəmli rol sayılırdı.

Bir neçə fikirdaşımla mərkəzdə, rusların Firqəni pis duruma saldığı haqda danışırdıq! Ruslar gedərkən, Firqənin əlində olan məşrutədən qalmış paslı Berno və Beşatanları belə, fədailərin əlindən almışdırlar. Yəni Firqənin Tehran hücumu qarşısında rəsmi olaraq, bir beşatanı belə yox idi! Baxmayaraq ki, mərkəzdən uzaqda olan fədai dəstələri tam da Təbriz kimi silahlarını təslim etməmişdilər. Ancaq, ona da mərmi gərəkdirsə!? Bəzi atəşin firqəçi "yoldaş"lar tərəfindən pantürkist adlanan mənim kimilərin ruslara qarşı tutumunun doğru olduğu üzə çıxandan sonra, ümidsizlik o boşuna inanan dostların arasında daha çox görünürdü! Həmin görüşdə o dostların ikisi də var idi:

Yoldaş Mərdan Q.: Bəylər, bundan sonra kimə inanmalıyıq? Rus yoldaşlar bizi üzü aşağı qoyub getdilər! Bizim onlara olan sədaqətimiz tam idi, amma onların Amerikanın atom bombası təhdidilə buradan çıxması bizim əl-qolumuzu bağladı!

Yoldaş Nüsrət C.: Çox qəribədir! İranın şimal nefti qarşısında

Azərbaycan! Mənim ağlım bunu almır. Necə ola bilər ki, Stalin yoldaş bir dost hakimiyyəti bəlirsiz bir neft yataqlarına qurban versin! Bu işin içində bir iş var! Bizim bilmədiyimiz çox şeylər var! Yoldaşlar, bizim yeni dostlara üz tutmamız gərəkdir! Elə deyilmi?

Nəriman S.: Hansı dost ölkə, bəylər? Hansı güc? İngiltərə bizə qarşı, Amerika dərbar yanında, Rusiya isə bizdən üz döndərmiş! Daha kimlər qaldı ki?

Mərdan Q.: Türkiyə! Artıq onlarla ilişgiyə girmə zamanı gəlmişdir! Bəs nə zaman bizlərə yardım edəcəklər! Bizim bu gün yeni dosta ehtiyacımız var. Məncə, yoldaş Pişəvəri Ankaraya qarşı bir az daha siyasətşi olmalıdır! Hətta türklərin mürtəce olmasını bilə-bilə! Bəlkə də, başda oturan dostların bir çox şeylərdən xəbərləri vardır. Bəlkə də, yoldaş Stalin şəxsən Firqənin möhkəm bir dost olduğunu sınayır. Keşkə belə olsun və biz bu gün özgə bir dövlətin müzakirəsini etməsək!

Nüsrət C.: Yoldaş Mərdanın sözlərini inanmaq istərdim. Amma ağlım, belə olmadığını deyir! Ruslara bundan sonra bel bağlamağın bədəlini daha çox ödəyəcəyik. Stalin birbaşa Yoldaş Bağırovu hədələyir. Moskva Sovet Azərbaycanın Güney hökumətindən ötrü istədiyi bütün yardım siyahısını ağır alçatmaqlarla rədd edib. Biz isə, burda rusların Firqəni sinağa çəkməkdən danışırıq! Başqa yandan isə, “yoldaş rus -yoldaş rus” deməklə Moskvanın bir dediyini iki etməmişik. Ankaranı büsbütün Amerika nökəri, Alman yanlısı, İngilis dostu, Tehran yavəri deyib günahlandırmışıq! Arxadaşlar, Firqənin

rəhbərliyinin başı elə Qəvama bağlanıb ki, doğru yönün nə olduğunu belə, düşünmür! Məncə də, genəl siyasətimizdə böyük dəyişiklik vermənin zamanı gəlmişdir. Cabbar müəlim, buna siz nə deyirsiniz?

- Arxadaşlar, hər zaman dediyim kimi, indi də deyirəm ki, bizim dərdimiz siyasət deyil, biz ideoloji dəyişməyə keçməliyik. Bu isə, rusların bizə nə etdiyindən asılı deyil! Bir millət olaraq, öz varlığımıza söykənməliyik. Elə örnəyin ruslar olsun! Ruslar heç zaman rusluğu mürtəce adlandırmazlar! Rus heç zaman özlərinə gerizekalı, dalıqalmış deməzlər! Ruslar heç zaman Mərdan bəy kimi özlərini alçaltmazlar! Ruslar ilk öncə rus, sonra ideolojik olarlar! Tam Mərdan bəyin tərsinə, öncə ideoloji qulu olmalı, sonra isə ideoloji hara çəkərsə...! Onlarda rusdan qeyri dünya görüşü yoxdur. Liberalı da, kommunisti də, kilisası da öncə rusdur. Çünki, onların kültüründə alçaqlıq deyə bir qavram tapılmaz!

Mərdan Q.: Sən aşkarca mənə və Firqə başçılarına iftira atırsan! Ağzından çıxanı qulağın duyurmu?!

Mən: Mən sənə də, özümə də, öz kimliyini özgə ideologiyasına qurban edən hər kəsə xitab danışıram! Məni ruslar kimi təhdid edirsən, ağaye Mərdan! Belə təhdidlərdən qarnım toxdu! Mən burada səninlə danışıram, Firqə liderliyində oturan bəzilərinin yaltaqlığının savunması kimsəyə qalmayıb. Unutma ki, Firqəmizin ortaq kimliyi demokrat sözü ilə bəzənmişdir. Yəni, bizlər bir demokratik firqəyik. Bunu unudub, məni susdurmağa çalışma ümidsiz qardaşım!

Nəriman S.: Cabbar bəyin sözlərinin üstündən beləcə keçirilməz, yoldaşlar! Bu sözlər bizi dərindən düşündürən suallardır! Düşündüyüm doğru olarsa, Cabbar bəyin dərdi beyin dərdidir! İdeoloji bağlılığından demək istəyir. Mənə görə, bir az səbrli olub, bu müəllim dostumuzu diqqətlə dinləməliyik. Buyurun, Cabbar bəy!

Mən: Mənim birinin kommunist olub olmaması ilə işim yoxdur. Baxın, bu Firqənin içi minlərcə kommunizmin nə olduğunu bilməyənlərlə doludur. Firqənin təməli milli əsaslar üzərindədir. Firqənin təməli kəndə, köyə, yerə, tarlaya, əkinçiliyə, dam-davara bağlıdır. Firqəni qoruyan, canlarını ovuclarına qoyan millətimizə baxın! Bunların kökü türklüklərindədir. Minlər ilcə bu sadə kütləni bir arada tutan soykök, türk kimliyidir. İndi, özləri türk olan milli başçılar, türk dilini, kimliyini dilə gətirməkdən qaçırlar! Bunun illəti nədir? Özlərilə danışanda türk oğlu türkük deyirlər. Meydana çıxanda türklüklərini az qala danırlar! Bu, hansı yazıqlıqdır görəsən? Bu “Azeri” sözü hardan çıxıb!? Bunu biri çıxıb doğru-düzgün tarixi sübutlarla anlada bilərmi!? Arxadaşlar, Azərbaycan bizim köklü, təməlli türk soykökünə bağlı vətənimizdir. Ona canımızı da, varımızı da verməkdən çəkinmərik. Zatən Azərbaycan davası türk davasıdır. Millətin dililə başlayan özəl fəlsəfəsini duyub duydurmaq gərəkir. Yoxsa, özgələrin meylilə millətin kimliyini yaşmaqlı eybəcərliyə bənzətmənin sonu fəlakətdən başqa olamaz!. İnanın ki, Sovet rusları, rus kimliyi üçün Sovet məkanını yerlə bir edərlər. Onlar “Pyotr”un torunlarıdır. Mən, kimsəylə düşmən deyiləm. Ancaq kimsəylə də öz millətim

qədər dost deyiləm. Mən burada sizin hüzurunuzda *"Nə Mutlu Türküm Deyənə!"* deməklə, böyük Atatürkün yaşam anlamını dilə gətirirəm! Arxadaşlar! Qorxmamalıyıq. Bu canı bizə kim veribsə, O da alacaq! Gerçəkləri dostluq xatirinə gizləyən, sonunda xain olar! Türkiyənin bundan sonra bizi yanına alması, nəyimizə yardım edər ki!? Bu qədər yaman-yoğuzdan sonra, bir də dostluq əli uzadacaq bizə!? Özü də, hər şeyi badə verəndən sonra!!!

(Nəhavən-Bədiabad Cabbar ... Əlyazma No 45, 1947...)

Son olaraq Cabbar əminin daha bir əl yazmasının bəlləyimdə (hafizə) qalan bölümünü burda xatırlayıram. O, yazmışdı:

"*Rusların namərdcəsinə Azərbaycanı yalnız buraxması ilə, Sədrimiz M.C. ağanın aydın-aşkar çarəsizliyi özünü göstərməyə başlamışdı. Bundan öncəki güclü qələm axışı və xarakterilə ümid qaynağımız olan Pişəvəri yoldaşın yazıları çaşbaş vururdu. Hər gün "Azərbaycan Qəzeti"ndə Pişəvərinin qələmilə yazılan yazıları oxuyurduq. Əslində, bu yazılarda olumlu enerji yerinə, olumsuz enerji itirmə hökm sürürdü! Sözsüz ki, Firqə başqanının belə bir amacı yox idi. O, bütün var olan gücü ilə Firqənin dağılması sürəcinin qarşısını almağa çalışırkən, bir yandan da "ya azadlıq, ya ölüm!" sloqanı ilə Tehrana qarşı direniş göstərməyə çalışırdı. Lakin, onun son yazılarında sinir gərginliyi kağız üzünə, oradan da bizim içimizə axırdı! Burada başçımızın iki yazısına işarə edəcəyəm: 1) Rusların firqəni və millətimizi Tehrana təslim olmağa*

*buraxmasından sonra, Ankara Radiosu rəsmi bir verilişində əli-qolu cəviz qabığında qalan Firqə liderliyinə açıq bir mesaj göndərir. Mesaj bu məzmunda idi: "İranda Azərbaycan türklərinin istiqlaliyyət uğrunda mücadiləsi sürür. Bu milli davadan müdafiə etmək bütün demokratik qüvvələrin, o cümlədən BMT-nin borcudur!" Mən bu mətnin yaxın formasını Pişəvəri yoldaşın – "Bizcə Azərbaycan və İran məsələsi" məqaləsində oxudum. /Azərbaycan Qəzeti. Say 212/. Başqanımızın Ankara radiosunun bu verilişinə qarşı cavabının yadımda qalan bölmələrini birlikdə gözdən keçirək. – "..... Belə bir halda xaricilərin çığır-bağır salaraq, İranın kiçik bir iç məsələsini dünya probleminə çevirməsi, sadəcə, İran üçün gizli və zərərli məqsəd daşıyır! Bu arada hamıdan çox Türkiyə radiosu ara qarışdırmaqla məşğuldur! Bu radionun danışıq tərzi bizi həddən artıq düşündürür. Onlar Azərbaycanın müstəqil dövlət olmasını irəli sürürlər! Onlar bu yalanları ilə Azərbaycanın dünya toplumu içində imicini qaraltmağa çalışırlar! Biz, milli demokratik hərəkatımızın başlanğıcından bəri demişik ki, Osmanlı Əfəndilərin ağzı sulanmasın! Bu keçədən onlara börk olmaz! Azərbaycan nə istərsə, İranın içində qalmaq şərtilə istər! Bizim hansı dil və hədəflə danışdığımızın məqsədi irani və İran içində olmaq şərtilədir. Mərkəzi hökumətlə bizim aramız yaxınlaşdıqca, Ankaranın qorxusu artır!.....Türkiyə mürtəcelərinin Türk xalqını Amerika sömürgəçilərinin qucağına atması yolunda bizim bir sözümüz yoxdur. Ancaq biz Azərbaycan xalqını İrandan ayırmağı düşünmürük. Türklər bunu anlayıb və xaincə səslərini bizdən uzaqlaşdıraraq bizi öz halımıza buraxsınlar! Biz, Azərbaycan*

*məsələsinin Azərbaycanda və Azərbaycan xalqı əlilə həll olunmasını dəfələrlə demişik. İranın və Azərbaycanın qanuni haqqı "Əmniyyət Şurasına" dəxli yoxdur!!!"*

Aşağıdakı Müraciət, Azərbaycan Milli Hökumətinin ilk aylarında –Yanvar 1946 (Bəhmən 1324) - BMT-nin Baş Assambleyasına Rəsmi başvurusudur. Bu müraciət Azərbaycan məsələsinin tam bir uluslararası məsələ olduğunu bəyan edir. Müraciət tam cəsarətlə Azərbaycan Milli Hökumətinin BMT və dünya ölkələri tərəfindən rəsmiyyətə tanınmasını istəyir. Azərbaycanda və Təbrizdə bu müraciətlə bağlı böyük şənliklər keçirilir. Hər kəs Azərbaycanın müstəqil və bağımsızlığı uğrunda artdığı gərəkən diplomatik addımı alqışlayır. Yuxarıdakı yazının tam tərsi olan müraciətin bəzi yerlərini sizə çatdırıram:*"...İran zülmkarları Azərbaycanı öz hakimiyyətləri altına alaraq, onun sərvətini amansızcasına talayırlar. Sonucda Azərbaycanın çiçəklənən kənd və şəhərləri dağilmaq həddinə gəlib çatıbdır. Şovinist böyük dövlətçilik siyasəti yürüdən İran hökmdarları Azərbaycanlıların varlığını tamamilə inkar etməyə cəhd göstərir, onların dilini əlindən almaqdan, hər cür təhqiredici əməllərdən çəkinməyirlər.....Azərbaycanda demokratik əsaslara dayanaraq, bir Milli Hökumət qurulub və öz fəaliyyəti barədə bütün dünyaya məlumat yayıb. Beş milyonluq Azərbaycan xalqı milli dilinin, tarixinin, mədəniyyətinin köməyi ilə özünün müasir bir xalq olduğunu dərk etdi və bir də heç vaxt fars zülmünün altında inləməyə, fars dilinin İrandakı başqa xalqların dilləri üzərində ağalığına icazə verməyəcəkdir.....Azərbaycan xalqının iradəsi ilə Atlantik*

*Xartiyasına, yəni böyük demokratik dövlətlərin vədlərinə uyğun olaraq, qurulan Azərbaycan Milli Hökuməti artıq danılmaz faktdır. BMT Baş Assambleyasına müraciəti ilə, Azərbaycan xalqı xahiş edir ki, Azərbaycan Milli Hökumətinin varliği faktı tanınsın və kənardan müdaxilə olmadan, ona öz taleyinin özü tərəfindən müəyyənləşdirilməsinə təminat verilsin.*

Cabbar ... Əlyazma No 45, 1947...)

☆ ☆ ☆

Sanıram ki, borcumu ödəmiş oldum! Sürgün çağlarımdan bəri, millətimə aid olan anıları sizinlə paylaşdım. Yaxşıdan-pisdən bu öykünün günü çatmışdı artıq! Çox darıxıram, çox! Bu isveçlilərin yaşa dolan zaman, heç nələri də olmasa, ən azından bir köpəkləri olur. Normal olaraq, yaşlıların köpəkləri də yiyələri kimi qoca olar. Ancaq hər nə olursa-olsun, qoca köpəyin də hər gün üç dörd kərə bayıra çıxması gərəkdir. Bu isə, yaşlılar üçün hava alıb, fikirlərini dağıtmaq deməkdir. Bir çox hallarda, bu ikisindən birinin son xəbərini diri qalan qonşulara çatdırır. Bu da xoş bir gələnəkdir. Ancaq mən bunu iş-işdən keçəndən sonra anladım. Belə ki, tək qalmayım deyə arxadaşlarımın birinə bir köpək almağı rica etdim. O da, nəvəsi ilə birlikdə mənə köpək almağa gedir. Nəvə, ilk öncə internetdən bəyəndiyi köpəyi 12 min krona dədəsinə aldırır. Köpəyi böyük "təntənə"ylə evimə gətirirlər. Xoşladığım köpəklərdən olmasa da, qəbul edirəm. Bir illik yeməyilə birlikdə, təxminən 15 min krona başa gələn köpəklə zamanımı keçirtməyə başlayıram. Köpək yerdə-göydə dayanmırdı. İlk

günlər ünsiyyətimin az olduğuna görə kimsəylə ilişgim olmurdu. Beş-on gün sonra yaşıd isveçlilərlə tanış oldum. Onların köpəkləri uslu gəlib-gedirdi. Amma mənimki isə, meymun kimi məni arxasınca çəkirdi. Bunu nədənini bir isveçlidən sordum. O, bir mənə, bir də itə baxaraq dedi:

- Bu köpəyin yaşı nədir?
- Heç bir şey bilmirəm. Təki bunu bilirəm ki, bu köpəyin üzündən çöldə qalar olmuşam!
- Köpəklərlə bağlı bilgili olmadığın bəlli! Sənin köpəyinin olsa-olsa ən çoxu 7-8 ayı vardır. Hətta bir yaşını belə, doldurmayıbdır. Bəlli ki, onun olqunlaşmasına zaman gərəkdir. Ən yaxşısı, onu ver bir gənc adama. Özün də bir yaşlı it al! Heç olmasa səni yormaz! Bir də sənin it kursuna getməyin gərəkdir!

**Bu öykü sona ərməkdə**

Artıq ortada it-mit də, gəlib-gedən də! Gözlərimin işığı yamanca azalıb. Qulaqlarım da səs almır artıq! Bu qulaqlar, onsuz da gənclikdən bəri doğru-düzgün eşitmirdi. İndi də artıq tutulmuş kimidir. Bir də, bizim insanımız üçün 85 yaş, uzun yaş sayılır. Ömrümdən şikayətçi deyiləm! Ən azından, buralara gəlmədən öncə millətimin içində olduğum üçün, gəncliyimi açıqgözlü keçirdiyim üçün xoşbəxtəm! Göktanrımın mənə verdiyi fürsət üçün, sizə söz verdiyim yazını sona çatdırdığım üçün xoşbəxtəm! Üzgünəm! Torpağımdan, ana beşiyimdən uzaq düşdüyüm üçün! Üzgünəm! Məzar daşımın üzərində gözəl türkcəmdə bir bayatının yazılmayacağı üçün!

Bundan sonra günlər-gecələrin arasında paylaşıb qalacağam! Yağmur yağanda pəncərəmin arxasında, günəş saçanda isə balkondan tanış bir səsin gəlişini gözləyəcəyəm! Bundan sonra sürünərək küçəmizin ağzındakı “Ungbutik” (gənc butik) adlı bakkaldan həftəlik çörəyimi, südümü, sup tozumu alıb evimə dönəcəyəm!

Qapıdan gələn səsi duyuram. Bu bir posta paketi olmalı! Əyilib paketi götürüb, qapının yanında yerləşən qoltuğun üstündə oturub açıram:

Grattis Javanshir! Grattis på födelsedagen! Du är nu 85 år gammal!

(Cavanşir Təbriklər! Doğum günün kutlu olsun! İndi 85 yaşındasan!)

Təbrik məktubu evin yaxınında yerləşən “Yaşlılar Evi”ndən gəlmişdi! Doğum tariximə baxıram! İl 1922-01-01! Demək bu gün yeni ilin birinci günüdür. Mən nə böyük insanmışam!

Qop-qoca 85 il! Güzgünün qarşısında dururam! Əlimdə bir bardaq qırmızı çaxır ilə özümü qutlayıram: “Ad günün qutlu olsun sevimli ağsaqqalımız sayın Cəvanşir bəy! Bax hər kəsin qutlama bardağı göydədir. Bu saysız kütlə sənin üçün ayaqdadır! Hura, hura, hura! Badələr sənin üçün, ey dünyanın sevilən insanı! Göktanrı səni öz elçisi kimi bu kütlə içinə göndərdi! Sən, doğulanda gün doğdu! Sən ulusuna bir günəş ərmağanı oldun! Nə yaxşı ki varsan, Cəvanşir bəy! Ey ulu dədə, izninizlə sevimli Olqa nənəni də qutlayır, ağ birçəklərindən,

əllərindən öpürük! Sizinlə bu günədək çiyin-çiyinə savaşmış, böyük bir qadını qoxlayıb-öpmək ulusumuz üçün böyük şərəfdir!”...

## Gününü unutduğum gün

**...VƏ İNDİ,** yol kəsik, xəyal sonsuz, düşüncələrim qısa! Kimi düşünürəmsə, qap-qara bir dalan gəlir gözümün önünə! Beynimin dərin guşəsindən vəhşi külək kimi bir ittiham hayqırtısı bayıra qanadlamağa çalışır!

Kimin beyninə yol tapmaq istəyirəmsə, al-qaralı bir “Giriş Yasaq” tablosu qarşıma dikilir! Əli çəlikli qaranlıq dalana yola düşürəm! Bəlkə bir işıq, bəlkə bir səs!? Yox! Yoxdur! Artıq qaranlıq dalanın sonuna yaxınlaşıram! Son Təbrizdən çıxanı özümlə 4-5 mahnı da buralara qədər daşımışdım. Ən yalnız günlərimin yoldaşı olan mızıltım qulağıma səslənir:

“Gör nə günlərə qaldın, öz cəzandır çək Balaş,

Hamının üzü döndü, axır qaldın tək Balaş!

İndi neyləyir, ax! Sevil görən hardadı,

Onu evdən gedəli, görən nə haldadı!... ”

An dostumu, sevgili “Sevil”-imi bir son kəz olaraq dilimə gətirirəm! Sevgilim Olqam! Haralardasan? Varmısan, yoxmusan, məni duyursanmı? Mən, sənin Cəvanşirin! Sən isə mənim Olqam qalmısanmı!? Mən, səninlə son kəz bütünləşmək istəyirəm! Ancaq, bu kəz hər kəsin gözü önündə, utancıma

nifrət, namusuma nifrət, şərəfimə nifrət, varlığıma nifrət, elimə nifrət, torpağıma nifrət, sonsuzluğuma nifrət, dilimə nifrət, türklüyümə nifrət, yasağıma nifrət püskürən nifrətlərin ölümünə sevişmək istəyirəm.

Mən, əkiz tinli bir tənəm! Tənimdə sevişən əkiz tinlərimdən sonsuz tin doğar. Bu üzdən mən sonsuzam! Hər zaman da sonsuz olacağam! Sonsuz Göktanrım kimi, ölüb-diriləcəyəm! Mən Türkəm, Atatürkəm, sonsuzam! Mən Qurdanayam! Mən ulusam, ulu bir ulus!

Çünki mənim canımda məğrur bir qoca qurdun ruhu dolaşır! Hə, onu özüm də görməyə bilərəm. Onu özümdə belə, öldürə bilərəm! Məgər mən "Nayman ana"nın igid oğlu, qurd ürəkli "Yalaman" deyiləmmi? Məgər mən juvan-juvan əlində çeçələnmiş "Manqurd" deyiləmmi?

☆ ☆ ☆

İsveç dövlətinin yardımıyla icarə etdiyim tək otaqlı evimin, günə baxan kiçik balkonunda, ayağı sınmış bir qoltuğun yanında oturub, işıqdan düşmuş gözlərimi Yöteborqun uzaq sonsuzlarına dikirəm. Özümdən sonra mütləq yaşanacaq incə bir inancı astaca mızıldayıram:

"Orda bir yol var, uzaqda,

o yol bizim yolumuzdur!

Dönməsək də, varmasaq da,

o yol bizim yolumuzdur!"

"Dağlar ardından yanarquyruq bir ulduzun zamanı dəlik-deşik edərək, yerə sarı axmasını görürəm! O, çox işıqlıdır. Gözümün qapalı pərdəsi, işığın pöhrələnməsi qarşısında yetərsiz qalır. İşığın alovları olduğu yerdən içimə sızaraq, volkan kimi partlaq verir. Hər an alovlar içində külə dönə bilərəm! Ancaq, çoşqun atışdan düşən qəlbimin astaca vuruşları məni lam axar su kimi alovların içindən keçirməyə çalışır. Çox ağır bir çəlişgi içindəyəm. Bir yandan həyəcandan düşən tənim, başqa yandan isə, hər an uçmağa qalxan tinim arasında yaşantımda tuş gəlmədiyim ləzzət yaşanırdı.

Axındıqca devləşən yanar ulduz, yer üzünü üzərimə qapadır. Əllərimi ulduzun qarşısına tutur, "*gəlmə-gəlmə!*" deyib yalvarıram! Ulduz gözlərimin önündə dayanır! Ulduz üzərinə qonan buludu sıxır! Bulud bir damlacıq inci olaraq balkonun heyrəsinə qonur! Damlacığın ortasından Savalan, Savalanın ortasından isə, "Qoca Qurd" əlimi tutur! Qoca Qurd, məni özü ilə Sultanın yamaclarına aparır. Yamacların arxasında milyonlarca gənc qurd qarşımızda sayğı duruşu göstərir. Gənc qurdların ardı-ardına sıralanmış omuzları yılmaz qala kimi Sultanı araya alır! Gənc qurdların *"Yaşa Sultanım!"* marşı təpə-təpə Azərbaycanın hər yerinə yayılır! Qoca Qurd, əlini omuzuma qoyaraq səslənir:

- Cavanşır, oğlum, bax! Ananı Quru Göldə basdırandan bəri, səni bir ana kimi sevib bağrıma basdım! Sən isə, bir oğul kimi məni qoxlayıb-qorudun! Uzun illərdir ki, bu çətin yolları birgə keçdik! Birgə yorulduq, susadıq və birgə bu günə gəldik. Sən bir can kimi, mən isə bir tin kimi qoşalaşdıq, bütövləşdik! Birlikdə əzildik, ayaqlandıq! Birlikdə ağladıq, güldük!
İndi bax! Bu gənc bozqurdlarımıza bax! Özgürlük və qurtuluş səsini dinlə! Dinlə ki, son soluxunla üzün gülsün, türkülərinlə ağlaş, umudunla gözünü yum!

"Qoca Qurd" bunları deyir və ölkəmin içinə çəkilir. O, damlacığın bağrından qoparaq göy qanadlarıyla Göktanrıya sarı uçur. "Qoca Qurd"dan boşalan damlacıq heyrənin cığırından qara torpağa doğru axır. *"Dayan, dayan, getmə!"* deyə tinimə yalvarıram! "Qoca Qurd" gülə-gülə gözümün önündən itir. Getməsin deyə, ayaqlanmağa çalışıram. Ayaqlarımda qalxacaq güc yox artıq! Torpağa cummaqda olan damlacıqdan bir əl uzanır! Uzanan əl məni özünə tərəf çəkir!

Gözlərimi açıram. İsveç həmişə olduğu kimi soyuq və qaranlıqdır! Sönmüş ocağımı bir daha yandırmaq istəyirəm! Ocağımın göz görünmür! Canım çox üşüyür! Gözlərimi açıq tutma gücüm tükənir. Gözlərim qapanır! Nə üşüyürəm, nə də isinirəm! Artıq ac belə, deyiləm!

Əlimdə ki, son nöqtəni qoyur, qaralamalarımı başımın altında yerləşdirirəm. Son tinimin hüzurlu olması üçün bir daha uzaq odaqlara dikilirəm. Damlacıqdan qopan tinimdə Savalan, Savalanın içində "Qoca Qurd, onun arxasında *"Xoşca qal,*

*Qurdananın qurd oğlu, Cəvanşir əmi!"* yazısını əllərində tutan milyonlarca gənc bozqur! "Qoca Qurd"un son baxışlarının arxasından ağ saçlarını döşünə sərmiş "Qurd Ana" çıxır!

- Yahu oğlum! Haqqım halalın! Halalın isə haqqın olsun! Yahu sevgili oğlum Cəvanşir!

O gülə-gülə əl qaldırır! Dilim-dodağım tutulmuş mən isə, ona əl qaldırmaq istəyirəm! Ancaq, artıq gec olur! "Sarışın çalıquş", mənə qanad sallayaraq yerlə-göy arasında üzən inci damlacığı dimdiyinə alıb uzaqlaşır! Qələm əlimdən düşür! Göktanrım qələmi əlimə verərək, əlimdə tutduğum beli sınmış çəliyimi alıb, sınıq qoltuğun yanına buraxır:

- Cəvanşir, artıq sona gəldik! Son sözümüzü de ucaq!
- Son sözümüz qurd analar doğan Türk ulusuna olsun!

Nisgilli vətənimiz can Azərbaycana olsun!
Bizi mənlikdən qoparan, ulus edən Qurd Analara!
Qoy, bizdən sonra doğan suçsuz umudlar sürgün düşməsin!

**SON**